Azərbaycanda Atatürk Mərkəzi

**CƏLAL QASIMOV**

# SİYASİ REPRESSİYA:
## HƏYATDA VƏ ƏDƏBİYYATDA

*AMEA-nın N.Gəncəvi adına*
*Ədəbiyyat İnstitutunun*
*Elmi Şurasının 28 fevral 2020-ci il*
*tarixli qərarı ilə (protokol № 2)*
*nəşrə tövsiyə olunmuşdur.*

**«Elm və təhsil»**
**Bakı-2020**

**Məsləhətçi: Nizami Cəfərov**
*Akademik, əməkdar elm xadimi*

**Elmi redaktor: Kamran Əliyev**
*AMEA-nın müxbir üzvü,*
*əməkdar elm xadimi*

**Redaktor: Dəyanət Osmanlı**

**Cəlal Qasımov. Siyasi repressiya: həyatda və ədəbiyyatda. Bakı, «Elm və təhsil», 2020, 508 səh.**

*Geniş oxucu kütləsi üçün nəzərdə tutulan «Siyasi repressiya: həyatda və ədəbiyyatda» adlı monoqrafiyada 1920-1950-ci illərdə repressiv aksiyalara məruz qalan Azərbaycan xalqının tanınmış mütəfəkkir şəxsiyyətlərinin, yazıçı və şairlərinin, teatr xadimlərinin taleyi arxiv materialları əsasında araşdırılır. Bundan başqa ədəbi məhkəmələr, dini, milli-mənəvi, əxlaqi dəyərlərimizə dəyən zərbə və zədələr tədqiqatın predmetinin əsasını təşkil edir. İdarə və iş üsulu repressiya olan sovet totalitarizmi dövründə şəxsiyyət və zaman, milli düşüncənin və klassik ədəbi-mədəni irsin sovetləşdirilməsi kimi aktual problemlər tədqiq edilir.*

4603000000 / N-98-2020 qrifli nəşr

*Cəlal Qasımov, 2020,*
*«Elm və təhsil», 2020.*

# M Ü N D Ə R İ C A T

**«Repressiya qurbanlarına bəraətin verilməsi haqqında» qanun ........ 5**
**Giriş ........ 10**

**I F Ə S İ L**
**Azərbaycanda sovet repressiyalarının öyrənilməsi tarixinə dair**

1. 1920-1950-ci illərin repressiyalarına daxildə və mühacirətdə yaşayan siyasi xadimlərin, elm, ədəbiyyat və mədəniyyət adamlarının münasibəti ........ 21
2. Repressiya qurbanlarına stalinizmdən sonrakı dövrdə - 1950-1980-ci illərdə münasibət ........ 36
3. Azərbaycan müstəqilliyini əldə etdikdən sonra repressiya qurbanlarının tədqiqinə dair ........ 43

**II F Ə S İ L**
**Sovetləşmə illərində Azərbaycan ədəbiyyatında milli istiqlal ideyaları. Bədii dəyərlər və ədəbi nəsillər arasındakı münasibətlər «mədəni inqilab» ərəfəsində**

1. İstiqlal düşüncəsi və ədəbi nəsillər ........ 52
2. Siyasi repressiyanın təşəkkülü və mərhələləri ... 110

## III F Ə S İ L
## Bədii düşüncədə və ədəbi prosesdə repressiyaların tətbiq sahələri və formaları

1. Ədəbi məhkəmələr ........................................................185
2. Dini təqib və təzyiqlər ...................................................219
3. Teatr ittihamları............................................................260

## IV F Ə S İ L
## Sənətkar və zaman, repressiya və şəxsiyyət problemi

1. 30-cu illərin repressiyası və sənətkar şəxsiyyəti.......296
2. Ədəbiyyat tarixçiliyinə və ədəbi-tənqidi fikrə qəsd..... 423

**Nəticə.................................................................................492**
**İstifadə olunmuş ədəbiyyat ............................................496**

# Siyasi repressiya qurbanlarına bəraət verilməsi haqqında Azərbaycan Respublikasının QANUNU

1920-ci il aprelin 28-dən başlayaraq Azərbaycan Respublikası ərazisində insan hüquqlarına zidd qanunlar əsasında totalitar dövlət rejiminin törətdiyi özbaşınalıq, zorakılıq nəticəsində yüz minlərlə günahsız insan öz siyasi əqidəsinə, fəaliyyətinə, başqa cür düşündüyünə və ayrı səbəblərə görə repressiyalara məruz qalmışdır.

Bu Qanunun məqsədi Azərbaycan Respublikası ərazisində törədilmiş siyasi repressiyaların qurbanlarına bəraət verilməsi, onların siyasi, sosial və vətəndaşlıq hüquqlarının bərpa edilməsi, mənəvi itkilərinin əvəzinin ödənilməsi, həmçinin özbaşınalığın başqa nəticələrinin aradan qaldırılması üçün hüquqi əsasları müəyyən etməkdir.

Maddə 1. **Siyasi repressiya anlayışı**

Bu Qanunun məqsədləri üçün siyasi mülahizələrə görə dövlət tərəfindən tətbiq edilən, məhkəmələrin və mühakimə funksiyaları verilmiş başqa orqanların qərarı ilə, yaxud icra hakimiyyəti orqanları və vəzifəli şəxslər, inzibati səlahiyyət verilmiş ictimai təşkilatlar və ya onların orqanları tərəfindən inzibati qaydada icra olunan, həyatdan və ya azadlıqdan məhrumetmə, qeyri-qanuni məcburi müalicə-

üçün ruhi müalicəxanaya yerləşdirmə, ölkədən çıxarma və vətəndaşlıqdan məhrumetmə, əhali qruplarını yaşayış yerindən çıxarma, sürgünetmə, köçürtmə və xüsusi məskənə göndərmə, azadlığın məhdudlaşdırılması şəraitində məcburi əməyə cəlb etmə şəklində müxtəlif məcburiyyət tədbirləri, habelə sinfi, sosial, milli, dini və ya sair əlamətlərə görə dövlət və ya siyasi quruluş üçün sosial təhlükəli sayılan şəxslərin hüquq və azadlıqlardan başqa cür məhrum edilməsi və ya bunların məhdudlaşdırılması siyasi repressiya hesab olunur.

Maddə 2. **Siyasi repressiya qurbanları**

Siyasi repressiya qurbanları bu Qanunun 1-ci maddəsində göstərilən siyasi repressiya növlərinə məruz qalmış şəxslər, onların ailə üzvləri, o cümlədən öz valideynləri və ya qohumları ilə birlikdə repressiyanın icra edilməsi (sürgünün, köçürtmənin, cəzanın çəkilməsi) yerlərində olan şəxslər, repressiyanın icra edilməsi yerlərində anadan olmuş uşaqlar, həmçinin siyasi repressiya kimi ölüm cəzasına məhkum edilmiş şəxslərin uşaqlarıdır.

Maddə 3. **Qanunun tətbiq sahəsi**

Bu Qanunun bəraət verilməsi qaydasına aid hissəsi yaşayış yerindən asılı olmayaraq, 1920-ci il aprelin 28-dən 1991-ci il oktyabrın 18-dək olan dövrdə Azərbaycan Respublikası ərazisində siyasi repressiyaya məruz qalmış şəxslərə şamil edilir.

Azərbaycan Respublikası göstərilən dövrdə SSRİ-nin tərkibinə daxil olan başqa respublikaların ərazisində repressiyaya məruz qalmış Azərbaycan Respublikası vətəndaşlarına bəraət almaqda kömək göstərir.

Maddə 4. **Bəraət hüququ olmayan şəxslər**

Qanuni və əsaslı surətdə məhkum edilmiş aşağıdakı şəxslərə bəraət verilmir:

- 1941-1945-ci illərin müharibəsində faşist qəsbkarları ilə əməkdaşlıq edənlərə;
- ədalət mühakiməsi əleyhinə cinayət və hərbi cinayət törədənlərə;
- siyasi repressiyalar törədilməsində iştirak edən və sonradan özləri repressiyalara məruz qalan şəxslərə;
- qətllər, soyğunçuluq və başqa zorakı hərəkətlər törədən bandaların təşkilatçılarına, habelə bu cür bandaların tərkibində bu kimi əməllərin törədilməsində şəxsən iştirak edənlərə.

Maddə 5. **Bəraət haqqında vəsatətlərə baxılması**

Bəraət verilməsinə dair ərizələri siyasi repressiyaya məruz qalmış şəxslər, başqa maraqlı şəxslər, yaxud ictimai təşkilatlar verə bilərlər.

Ərizələrə Azərbaycan Respublikası Prokurorluğunda qanunla müəyyən edilmiş müddətdə baxılır.

Azərbaycan Respublikasının Prokurorluğu Azərbaycan Respublikası müvafiq icra hakimiyyəti orqanını cəlb etməklə, siyasi repressiyaya məruz qalmış şəxslərin işlərini yoxlayır və yoxlamanın nəticələrinə əsasən məhkəmədən kənar tətbiq edilmiş repressiya ilə bağlı bəraət məsələsinə dair (müsbət və ya mənfi həlli barədə) rəy verir.

Azərbaycan Respublikası Prokurorluğunun bəraət verilməkdən imtina edilməsi haqqında rəyindən Azərbaycan Respublikasının Ali Məhkəməsinə şikayət edilə bilər.

Azərbaycan Respublikası (Azərbaycan SSR) məhkəmələri tərəfindən məhkum edilmiş siyasi repressiyaya məruz qalmış şəxslərin işləri Azərbaycan Respublikası Prokurorluğunun protesti ilə birlikdə Azərbaycan Respublikasının Ali Məhkəməsinə göndərilir. Azərbaycan Respublikasının Ali Məhkəməsi siyasi repressiyaya məruz qalmış şəxslərin işlərinə və verilmiş şikayətlərə bir ay müddətində baxmalıdır.

Maddə 6. **Siyasi repressiya faktının məhkəmə qaydasında müəyyənləşdirilməsi**

Siyasi repressiya haqqında arxiv materialları olmadıqda siyasi repressiya faktı şahid ifadələrinə əsasən məhkəmə qaydasında müəyyənləşdirilir.

Maddə 7. **Əvvəllər bəraət verilmiş şəxslərin hüquqları**

Siyasi repressiya ilə bağlı bəraət verilməsi haqqında səlahiyyətli orqanların qəbul etdikləri qərar bu Qanun qüvvəyə mindikdən sonra da qüvvədə qalır. Bəraət verilmiş belə şəxslər bu Qanunda nəzərdə tutulmuş hüquqlardan və güzəştlərdən istifadə edirlər.

Maddə 8. **Siyasi repressiya materialları**

Bəraət verilmiş şəxslərin və onların varislərinin işlərdə qorunub saxlanılan əlyazmaları, fotoşəkilləri və başqa şəxsi sənədləri almaq hüququ vardır.

Repressiya ilə bağlı işləri arxivdə saxlayan orqanlar və vəzifəli şəxslər bəraət almış şəxsin öldüyü vaxtı, ölümünün səbəbini, həmçinin dəfn edildiyi yeri ərizəçilərin xahişi ilə onlara bildirməlidirlər.

Maddə 9. **Bəraət verilmiş şəxslərin hüquqlarının bərpası**

Bəraət verilmiş şəxslərin siyasi repressiya ilə əlaqədar dövlət mükafatından, elmi dərəcədən, hərbi rütbədən, pensiyadan və başqa hüquqlardan məhrum edilməsi haqqında qərarlar qüvvədən düşmüş sayılır.

Bu Qanunun 3-cü maddəsində göstərilən dövrdə Azərbaycan Respublikası ərazisindən sürgün edilmiş şəxslərin Azərbaycan Respublikası ərazisində yenidən məskunlaşması üçün zəruri tədbirlər dövlət tərəfindən görülür.

Maddə 10. **Pensiya təyin edilərkən əmək stajının hesablanması**

Əmək pensiyası hesablanarkən bəraət verilmiş şəxslərin əmək stajı «Əmək pensiyaları haqqında» Azərbaycan Respublikasının Qanununa uyğun olaraq hesablanır.

Əmək stajının hesablanması 16 yaşından başlanır.

Maddə 11. **Dövlət rüsumunun ödənilməsindən azad edilmə**

Siyasi repressiya qurbanlarına bəraət verilməsi ilə əlaqədar məhkəmə sənədlərinin hazırlanması, surətlərin çıxarılması üçün dövlət rüsumu və məhkəmə xərcləri tutulmur.

**Azərbaycan Respublikasının Prezidenti**
**Heydər ƏLİYEV**

Bakı şəhəri, 15 mart 1996-cı il.

# G İ R İ Ş

Azərbaycanın bölüşdürülərək Rusiyaya və İrana ilhaqından sonra onun iki imperiyanın caynaqları arasında qalan mübariz oğulları müstəqil və bütöv Azərbaycan uğrunda mübarizə aparmış, təqib və təzyiqlərə məruz qalmalarına baxmayaraq ölümə meydan oxumuşlar. Tarixən bu işin ağırlığı daha çox ziyalıların üzərinə düşmüşdür. Belə işıqlı fikirli ziyalılar zaman-zaman kütlənin oyanmasına çalışmış, onları Vətənlərinin və özlərinin azadlıqları uğrunda mübarizəyə səsləmişlər. Azadlıq meylləri XX əsrdə daha da güclənmişdir. İranda və Azərbaycanda baş vermiş mübarizələr dediklərimizə sübutdur. Bu mübarizələr zamanı Azərbaycanın ən məhşur siyasət adamları, yazıçı və şairləri, sərkərdələri, bir sözlə, müstəqil düşünməyi bacaran mütəfəkkir şəxsiyyətlərin böyük əksəriyyəti məhv edildi. Sovet Azərbaycanında azadlıq və müstəqillik ideyalarına görə böyük rus imperiyası siyasi repressiyalara başladı. Bütün bunlar hər şeydən öncə Azərbaycan ziyalısını sındırmağa, onu manqurta, imperiyanın quluna çevirməyə xidmət edirdi. Lakin onlar 100 minlərlə azərbaycanlını Sibirin buzlu çöllərinə göndərsələr və məhv etsələr də işıqlı ideyalarını, azadlıq arzularını məhv edə bilmədilər.

İstiqlal düşüncəsi, milli özünüdərk, cəza maşını, repressiya, İblis və mələk, xeyir və şər, demokratiya və diktatura, inkvizisiya və irtica kimi ifadə və sözlər həmişə bir-biri ilə təzad təşkil edən və mübarizə aparan varlıqlar olmuşlar. Tarixin çağalıq vaxtından bu günədək dövrünün,

zamanının müdrük və mütəfəkkir adamları, işıqlı fikirli şəxsiyyətləri repressiyalara, müxtəlif növ cəzalara tuş gəlmişlər. Elə Azərbaycan ədəbiyyatında türk dilində yazmağa mane olduqlarını bildirərək «qulluq həlqəsinə düşdü qulağım» - deyə şikayətlənən böyük Nizamidən, həqqi özündə axtaran və «həqq məndədir» - deyən Nəsimidən, içində yaşadığı cəmiyyətə qarşı müxalifətdə olan Füzulidən, İbrahim xanın hakimiyyətdə qalması fikrini dəstəklədiyindən, yazdığı bir məktubun qurbanı olan Vaqifdən, bir müddət «diyari-qürbətə» sürgün edilən Zakirdən, «Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım» - deyə ədəbi aləmə atılan Mirzə Cəlilə qədər böyük amal və məslək sahibləri bu və ya digər dərəcədə təqiblərə, təzyiqlərə məruz qalmışlar. Lakin bu cəza tədbirlərinin heç biri 20-50-ci illərdəki qədər kütləvi və siyasi xarakter almamışdır. Bolşevikləşmə illərində 400 mindən çox adam sürgün, qətl, qiyam və müxtəlif fiziki-mənəvi işgəncələrlə üz-üzə dayanmışdır. Arxiv materiallarında insanı sarsıdan, stres vəziyyətinə gətirən faktlara inanmaq istəmirsən. Belə ki, araşdırmalar nəticəsində müəyyənləşdirdik ki, yalnız Bakı şəhərində 1920-ci ilin 29 iyundan 1921-ci ilin yanvarınadək 142 nəfər, 1921-ci ilin yanvarından 1922-ci ilin yanvarınadək 88 nəfər, 1922-ci ilin yanvarından 1923-cü ilin yanvarınadək 135 nəfər, 1923-cü ilin yanvarından 1924-cü ilin yanvarınadək 89 nəfər, 1924-cü ilin yanvarından 1925-ci ilin yanvarınadək 59 nəfər... güllələnmişdirsə, siyasi repressiyaların zirvəsi, kulminasiya nöqtəsi hesab etdiyimiz 1937-ci ilin yalnız bir günündə - sentyabrın 8-dən 9-na ke-

çən gecə 217 nəfər qətlə yetirilmişdir[1]. Bütün bu qətli-qiyamlar öz başlanğıcını, öz qaynağını haradan alırdı?

Məlumdur ki, XIX əsrin sonu və XX əsrin əvvəllərində Azərbaycanda milli istiqlal düşüncəsi öz inkişafında növbəti tarixi mərhələyə daxil oldu, həm bədii-fəlsəfi məndəricədə, həm də təsir-təbliğat arsenalında yeni hüdud və miqyaslar kəsb etməyə başladı. Buna səbəb hakim istilaçı rejimə qarşı ictimai etiraz və mübarizə ehtiyacına cavab kimi formalaşan və sosial şüuru inkişaf etdirən milli mətbuatın yaranması, Şərqdə ilk dəfə olaraq milli teatrın meydana gəlməsi, müxtəlif siyasi partiyaların fəaliyyətə başlaması, xarici kapitalistlərin Azərbaycana axını və bütün bunların nəticəsi olaraq azadlıq hərəkatının, hürriyyət düşüncəsinin güclənməsi olmuşdur.

Bütün keçmiş imperiya məkanında üç yüz illik rejimin sarsıldığı və yuxarıların əvvəlki kimi idarə etmək bacarığı itdikcə Rusiya daxilindəki əksər xalqların ziyalıları milli müstəqillik uğrunda mübarizəyə qoşuldu, siyasi oyanma və ayılma istiqamətində hərtərəfli təbliğat antikolonial məna və vüsət aldı. Bu sahədə Azərbaycanın sənət adamları bütün Rusiya müsəlmanları üçün örnək olan fəaliyyətə başladılar. Ən başlıcası milli hiss və duyğuları oyada biləcək əsərlər yaranmağa başladı. Bu əsərlərin əsas leytmotivini xalqın illər boyu cüt başlı qartalın caynaqları arasında inildəməsi, onların yaşadığı mənəvi iztirablar, hürriyyət və istiqlaliyyət arzuları təşkil edirdi. Hürriyyət və istiqlaliyyət arzuları gücləndikcə təqib və təzyiqlər də artır,

[1] MTN-in arxivi. İş nömrə III/368, III/369, III/370.

qəzetlər qapanır, milli düşüncəli ziyalılar ciddi zərbə alırdılar. Lakin elə bir dövr gəlmişdi ki, mətbuatı qapamaq mümkün olsa da, şəxsiyyətlərin fikir və ideyalarını susdurmaq mümkün deyildi. Ona görə də klassik ədəbiyyatdakı ictimai lirika əsrin əvvəllərində daha çox siyasi məzmun kəsb etməyə başladı.

Çar Rusiyasının pəncəsindən qurtulan xalqlar, o cümlədən, Azərbaycan nəhayət, özünün müstəqil dövlətini Azərbaycan Xalq Cümhuriyyətini yaratdı.

Xalq və onun işıqlı, mütəfəkkir şəxsiyyətləri Azərbaycan Xalq Cümhuriyyətini Əli bəy Hüseynzadənin və onun məslək dostlarının istiqlal düşüncəsindən doğan «türkləşmək, islamlaşmaq, avropalaşmaq» ideyasının təməl daşları üzərində ucaltmışlar. «Bayrağımızdakı üç rəngin üçünün də rəssamı Əli bəydir. Milli gerbimizdəki boya simvolikası da onun «türkləşmək, islamlaşmaq, avropalaşmaq» - düsturunun rəngdə ifadəsindən başqa bir şey deyildir. Şübhəsiz söhbət yalnız boyadan və kətandan getmir, həm də təməldən, bünövrədən, dəmir özüldən gedir: Əli bəy Azərbaycanda yox, bütün türklük miqyasında qövmi özünüdərkin, istiqlal düşüncəsinin təkcə rəssamı deyil, həm də memarıdır... Məhz bu mənada nəinki Məmməd Əmin və Nəriman Nərimanov, üstəlik, Ziya Göyalp və Kamal Atatürk də Əli bəy Hüseynzadədən başlayır»[2].

Bolşeviklər hakimiyyəti ələ keçirən kimi Azərbaycan Xalq Cümhuriyyətinin ucaldığı bünövrə, özül daşları üzə-

---

[2] Yaşar Qarayev. Tarix: yaxından və uzaqdan. Bakı, «Sabah» nəşriyyatı, 1996, səh. 276.

rindəki bu üç sözü (türkləşmək, islamlaşmaq, avropalaşmaq) silməyə, pozmağa, məhv etməyə çalışdılar. Ancaq az sonra dərk etdilər ki, təməl daşları üzərində yazılmış bu üç sözün fəlsəfi məna və məzmunu artıq ictimai, milli şüura hopub, yaddaşlarda bərkiyib.

Azərbaycan Xalq Cümhuriyyəti bir dövlət kimi bolşevik repressiyasına məruz qaldıqdan sonra xalqın müstəqillik arzularının məhvi istiqamətində təxirəsalınmaz tədbirlər həyata keçirildi. Bolşeviklərin hakimiyyəti illərində Azərbaycan elmi, maarifi və mədəniyyəti, ədəbiyyatı da bolşeviksayağı «kollektivləşdirildi», «sosialist mülkiyyətinə» çevrildi və marksist-leninçi ehkamın xeyrinə birtərəfli (partiyalı!) tədqiq edilməyə başladı. Azərbaycan yazıçılarının hətta indiyədək əldə etdikləri klassik nailiyyətlər də sosializmə xidmət kimi qiymətləndirildi. «Sinifsiz cəmiyyət» quranlar Azərbaycan yazıçılarını müxtəlif siniflərə və təbəqələrə böldülər. Bunun nəticəsində xalq Əlibəy Hüseynzadə, Əhmədbəy Ağayev kimi görkəmli şəxsiyyətlərini bir müddət mürtəce ədəbiyyatın nümayəndəsi kimi tanıdı. Tarixin müəyyən zaman kəsiyində Azərbaycanın bir çox uzaqgörən yazıçıları «vətən xaini», «xalq düşməni» kimi yad edildi. Bu şəxsiyyətlərin həyatı, yaradıcılığı, mühiti, maarif və mədəniyyət sahəsindəki xidmətləri, həbs olunmasının səbəbləri indiyədək, məlum səbəblər üzündən, əhatəli elmi tədqiqatdan kənarda qaldı. Cəmiyyətə tanıdıqları şəxsiyyətlərin naməlum tərəfini bolşevizm özünə məxsus təbliğatı ilə yenidən tanıtdı. Cəmiyyət çaşdırıldı, onlar qürurla andıqları mütəfəkkirləri təəccüb və təəssüflə yad etdilər. Təəssüf hissi keçirdilər ki, bolşevik qur-

şununun qurbanlarına çevrilmiş bu şəxsiyyətlərin əsl simasını görməmişlər. Çaşdırılan cəmiyyət bir müddət doğmalarından belə imtina etmək məcburiyyətində qaldı. Çaşmayanlar, doğmalarından imtina etməyənlər, bolşevik siyasətinin saxta mahiyyətini görənlər olmazın müsibətləri ilə üz-üzə, göz-gözə gətirildi.

Milli mədəniyyətimizin müasir mərhələsində belə şəxsiyyətlərin öyrənilməsi və yenidən tanıdılması, ədəbi-elmi fikrin təzədən onlara doğru istiqamətləndirilməsi çağdaş elmi-nəzəri fikirdə ən aktual mövzulardan biridir. Çünki bu mövzular xalqın milli mənlik şüurunun yüksəldiyi, suveren hüquqlarının möhkəmləndiyi bir dövrdə ciddi məna və məzmun kəsb edir.

İndiyədək naməlum qalan tarixi-siyasi sənədlərin üzə çıxarılması, milli ağrı yaddaşı kimi onların yenidən xalqın özünə çatdırılması, bugünədək birtərəfli öyrənilən, təhrif edilən tariximizə, ədəbiyyatımıza, fəlsəfi-estetik fikrimizə obyektiv elmi-metodoloji münasibətin bərpası, onun ən müasir tələblər səviyyəsində təzədən işlənib hazırlanması müəllif qarşısında duran əsas vəzifələrdən biridir.

Sevindirici haldır ki, bu gün 20-50-ci illərin ədəbi-mədəni durumunu, abidələrini, mənəvi sərvətlərini yenidən öyrənməyə meyl güclənmişdir. Lakin bu vaxta qədər sehrli, qorxulu kilid, qıfıl, qapı arxasında, siyasi-inzibati yasaq və qadağa zolağında qalan rəsmi sənədləri öyrənmədən bu meylin tam halda gerçəkləşə bilməsi və obyektiv elmi-nəzəri fikir söylənməsi mümkünsüzdür. Dövrün yazılı, rəsmi istintaq materialları, ştamplı, möhürlü, «tam məxfi» yarlıqlı repressiya və deportasiya qovluqları, güllələnmə

hökmləri, üzləşmə protokolları, əvvəlcədən (və həm də düşünülmüş surətdə) hazırlanmış ssenarilər belə sənədlər sırasına daxildir.

Biz tariximizi, azadlıq uğrunda mübarizəmizi yasaqlarsız və təhriflərsiz, olduğu kimi, dərindən öyrənə və öyrədə bilsək, doğurdan da görəcəyik ki, «Bu mübarizədə həqiqi ədib və şairlərin vicdanına tərcüman olan böyük şərhçilərə görə vətən, hürriyyət və istiqlal ideallarına bağlı qaldığını güclü surətdə elan edən milli Azərbaycan türklüyünün yeri çoxdan təyin olunmuşdur. Müqəddəratını hürriyyətsevər millətlərin və mədəniyyət dünyasının müqəddəratı ilə bağlamış Azərbaycan hürriyyət və demokratiya cəbhəsinin son və qəti zəfərinə əsla şübhə etməz»[3].

XX yüz ilin əvvəllərində və sonunda çar, eyni zamanda, sovet imperiyasının başımıza açdığı repressiyaların, deportasiyaların, təqib və təzyiqlərin, sürgünlərin, eləcə də həmin dövrlərdə mənəvi sərvətlərimizə dəyən zədə və zərbələrin öyrənilməsi, həm də ona görə lazımdır ki, biz gələcəkdə də müstəqilliyimizi qoruya bilək, illər və nəsillər arasındakı əlaqəni daha da möhkəmləndirək və tarixən buraxdığımız səhvləri təkrarlamayaq.

Müəllifin əsas məqsədi siyasi repressiyalara məruz qalmış Azərbaycan yazıçılarının və mədəniyyət xadimlərinin həyatını, yaradıcılığını, mühitini, həmin repressiyanın subyektiv və obyektiv - tarixi zəminini, üsul və formaları-

---

[3] M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, «Gənclik», 1991, səh. 86.

nı, səbəblərini, nəticələrini, bütün bunları şərtləndirən məhəlli və qlobal geosiyasi durumu təhlil etməkdir.

Bu məqsədin realizəsi üçün aşağıdakı vəzifələr müəyyənləşdirilmişdir:

1. Azərbaycan ədəbiyyatında milli istiqlal ideyasının tarixən təşəkkülünü, sosial-fəlsəfi, bədii-estetik qaynaq və ənənələrini tədqiq etmək;

2. Sosialist realizminin təşəkkülü dövründə istiqlal düşüncəsi və ədəbi nəsillər problemini araşdırmaq, «cümhuriyyət ədəbiyyatı» yaradan nəsillərin ədəbi prosesdə və ictimai həyatda qarşılaşdığı çətinlikləri göstərmək;

3. «Ədəbi məhkəmələr», «teatr ittihamları», dini təqib və təzyiqlər, sürgün və qəsdlərin «ədəbi-tənqidi» və «elmi-nəzəri» fikirdə necə hazırlanmasını müəyyənləşdirmək;

4. Siyasi repressiya şəraitində şəxsiyyət və yaradıcılıq problemlərini aydınlaşdırmaq, 20-50-ci illər repressiyalarının mərhələlərini müəyyənləşdirmək, bədii düşüncədə və ədəbi prosesdə repressiyanın formalarını aşkarlamaq, həmin dövr ədəbiyyatının mənəvi-əxlaqi və bədii-fəlsəfi çalarlarını təhlil etmək;

5. Azərbaycan ədəbiyyatında «məzmunca sosialist və formaca millilik» probleminə münasibət məsələsini öyrənmək. Mənəvi sərvətlərimizin - əlyazma və kitabların, istiqlaliyyət «qoxuyan» ədəbiyyatın məhv edilməsi səbəblərini araşdırıb ümumiləşdirmək;

6. Sovet dövründə, eləcə də son zamanlar sosial-ictimai və ədəbi-estetik mövqedə, bolşevizmə münasibətdə «günahsız» kimi qələmə verilən şair və yazıçıların sovet impe-

riya siyasətinə həqiqətən zidd olan yazıçı - vətəndaş xidmətini («günahını») və həmin imperiyanın - ədəbiyyat, sənət siyasətinə qarşı mübarizə üsullarını aşkara çıxarmaq, «Xalq düşməni», «Vətən xaini» yarlığı daşıyan yazıçıların, ümumiyyətlə sənət adamlarının ailələrinə və yaxın qohumlarına olan münasibəti açıqlamaq, bu irticanı törədənlərin kimliyini müəyyən etmək;

7. Siyasi repressiya qurbanlarının bəraətindən sonrakı illərdə onlara münasibəti öyrənmək. Siyasi repressiyalara məruz qalmış yazıçıların sonrakı nəsillərin milli ruhda inkişafındakı rolunu qiymətləndirmək;

8. Bütün bu sadalanan mövzu və problemlərin ədəbiyyatın konkret-ədəbi təcrübəsində, Azərbaycanda bədii-estetik tərəqqinin son yetmiş ildəki axtarış və çətinliklərində, onun formalaşma, təşəkkül və inkişaf qanunauyğunluqlarında öz əksini necə tapmasını üzə çıxarıb elmi cəhətdən ümumiləşdirmək.

İlk dəfədir ki, belə bir tarixi-nəzəri problem ayrıca, müstəqil monoqrafiya işinin əsas predmeti kimi seçilir. Mövzunun problem tərkibi, tədqiqatın elmi strukturu, məsələnin qoyuluşunun metodoloji əsası, onun ən yeni nəzəri meyar və prinsiplər sistemi müəyyənləşdirilir;

Tədqiqatın konkret faktura, elmi xammal, material yeniliyinə gəldikdə isə demək olar ki, mövzu ilə bağlı bütün faktlar və sənədlər belə tam və sistemli şəkildə ilk dəfədir ki, yasaqlı, kilidli, seyf və qovluqlardan çıxarılır və birinci dəfədir ki, çağdaş, bağımsız Azərbaycanda, suveren, müstəqil, azad milli şüur işığında, qlavlit, senzor xofu hiss etmədən elmi dövriyyəyə daxil edilir. Müəllif əsər boyu

«37-nin» qurbanlarını ittiham etməyə deyil, onların mühitinə enərək onları axıra kimi dərk etməyə çalışır.

Yazıçı şəxsiyyətini onun mühiti ilə (senzura, repressiya, həbs və sürgün məqamları da daxil olmaqla) vəhdətdə tədqiq etməyin ilk konseptual modeli verilir.

Azərbaycanda ədəbiyyatşünaslıq və ədəbiyyat tarixçiliyi təcrübəsində ilk dəfədir ki, repressiyaya uğramış görkəmli yazıçıların tam elmi tərcümeyi-halını (yazıçıların istintaq işləri, sənət adamları ilə üzləşmələr, onların yaşadıqları tragik-dramatik situasiyalar da daxil olmaqla) yaratmağa təşəbbüs göstərilir.

İlk dəfə olaraq Azərbaycan teatrına və teatr xadimlərinə, dinə və dini dəyərlərə dəyən ağrı və zədələr öyrənilir və geniş oxucu kütlələrinin ixtiyarına verilir.

İlk dəfə olaraq Azərbaycanda repressiya mexanizminin konkret üsul və vasitələri (o cümlədən, 20-ci illərdə mühakimə olunan bədii əsər qəhrəmanları ilə bağlı informasiya, ədəbi mübahisə və ədəbi məhkəmə materialları) tədqiqata cəlb edilir.

İlk dəfədir ki, bu tədqiqat əsərində klassik və çağdaş gen yaddaşımıza, mənəvi sərvətlərimizə dəyən zərbə və zədələr faktik materiallar əsasında açılıb göstərilir.

Əsərin adından da göründüyü kimi, tədqiqatın əsas predmetini siyasi repressiyaya məruz qalmış yazıçılar, mədəniyyət xadimləri, tənqidçi-ədəbiyyatşünaslar, onların mühiti, həyatı və yaradıcılığı, eləcə də totalitar rejim dövründə zərərdidələrin ailə üzvlərinin keçirdiyi həyəcanlar, sarsıntılar təşkil edir. Bununla əlaqədar olaraq müəllif siyasi repressiya ilə bağlı sənədləri, arxiv materiallarını, is-

tintaq işlərini, xatirələri, məqalələri toplamış və onları araşdırmışdır. Tədqiqat zamanı Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Füridin bəy Köçərli, Seyid Hüseyn, Əli Razi Şamçızadə, Ömər Faiq Nemanzadə, Əmin Abid, Əlabbas Müznib, Yusif Vəzir Çəmənzəminli, Salman Mümtaz, Məhəmməd Bağırzadə Biriya, Əli Nazim, Vəli Xuluflu, Seyfulla Şamilov, Ümmügülsüm Sadıxova (Rəsulzadə), Ülvi Rəcəb, Abbas Mirzə Şərifzadə, Kazımzadə Kazım Ziya və başqalarının şəxsiyyəti və yaradıcılığı üzərində xüsusilə dayanılmışdır.

Məlumdur ki, tədqiqata cəlb etdiyimiz problem olduqca ciddi və olduqca mürəkkəb bir məsələdir. Ona görə də problemi daha dərindən və fundamental şəkildə tədqiq etmək məqsədi ilə onun öyrənilməsi tarixindən başlamağı daha məqsədəuyğun hesab etdik. Çalışdıq ki, bizə qədər deyilənləri və bizim nə demək istədiklərimizi, eləcə də bizdən sonraya nələrin qaldığını oxucuların diqqətinə çatdıraq.

# I FƏSİL

## Azərbaycanda sovet repressiyalarının öyrənilməsi tarixinə dair

Azərbaycan sovet siyasi repressiyası indiyədək ayrıca bir monoqrafik, müstəqil elmi tədqiqatın mövzusuna çevrilməmişdir. Bununla belə repressiyaya məruz qalan ayrı-ayrı şəxslər barədə romanlar, hekayələr, portret oçerklər, məqalələr, xatirələr və kitablar yazılmış, ədəbiyyatşünaslığımız tarixində repressiya ilə bağlı bəzi fikir və mülahizələr irəli sürülmüşdür.

Sovet siyasi repressiyalarının tədqiq tarixi onun başlandığı tarixlə üst-üstə düşür. Bu mənada repressiyaların tədqiq tarixini aşağıdakı kimi qruplaşdırmaq olar:

**1) 1920-1950-ci illərin repressiyalarına daxildə və mühacirətdə yaşayan siyasi xadimlərin, elm, ədəbiyyat və mədəniyyət adamlarının münasibəti.**

Millət imperiyaya - irticaya qarşı milli istiqlaliyyəti uğrunda mübarizəyə qalxanda şəhid və qurban vermək, həbs və sürgünlərə məruz qalmaqla yanaşı, özünün siyasi mühacirətini də yaradır. Totalitar rejim dövründə SSRİ-nin bütün yerlərində olduğu kimi Azərbaycanda da belə oldu. Vətəndən didərgin salınanlar Vətənlə vətənsiz yaşadılar və onun azadlığı uğrunda mübarizəyə girişdilər. Öz

əsərlərində Azərbaycan ağrılarını və həqiqətlərini dünyaya, yad ölkədən, taleyin diqtəsi ilə seçdikləri ikinci vətənlərindən - mühacirətdən elan etdilər.

1920-1950-ci illərdə repressiyaya məruz qalanların fəaliyyəti, mübarizəsi, taleyi, tərcümeyi-halı və yaradıcılıqları öz həqiqi və obyektiv qiymətini daha çox mühacirətdə yaşayan Məmməd Əmin Rəsulzadə, Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Mirzə Bala Məmmədzadə, Əhməd Cəfəroğlu, Nağı (Keykurun) Şeyxzamanlı və digər şəxslərin əsərlərində, xatirələrində tapmışdır[4].

Azərbaycan xalqının həbs, sürgün, qətl, təqib və təzyiqlərə məruz qalması sovet imperiyasının Azərbaycanda apardığı ruslaşdırma siyasəti, görkəmli şəxslərin, elm, ədəbiyyat və mədəniyyətin necə məhv edilməsi, milli sərvətlərin Rusiyaya daşınması ilk dəfə açıq və obyektiv şəkildə bu şəxslərin əsərləri, çıxış və məruzələri vasitəsi ilə dünya ictimaiyyətinə çatdırılmış, «türkləşmək, islamlaş-

---

[4] Bax. 1. M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan ədəbiyyatı. Berlin, 1936. Əsrimizin Səyavuşu, Çağdaş Azərbaycan tarixi, Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, «Gənclik» nəşriyyatı, 1991. Azərbaycan cümhuriyyəti. «Elm» nəşriyyatı, Bakı, 1990. 2. Mirzəbala Məmmədzadə. Milli Azərbaycan hərəkatı. Bakı, 1992. 3. Nağı Keykurun (Şeyxzamanlı). Azərbaycan istiqlal mücadiləsinin xatirələri, İstanbul, 1964. 4. Əhməd Cəfəroğlu. Azəri ədəbiyyatında istiqlal mübarizəsi. Azərbaycan yurd bilgisi (AYB) tədqiqləri II, İstanbul. 1932. Almaniyada Azərbaycan istiqlal bayramının qeyd edilməsi. 1928, AT, 10. Əsir türk elləri mühacirlərinin Cümhuriyyətin onuncu ilini təsitləri. AYB. II. 1933. Sovet milli kultun nihilizmi və inkarı. «Mücahid» məcmuəsi, Ü. Ankara, 1964, səh.6-8. Sovet - Rusiya idarəsindəki əsir millətlər. Türk kültürü, II, Ankara, 1964 və s.

maq, avropalaşmaq» ideyalarına qarşı yönəldilmiş diktator hərəkətlər tənqid edilmişdir.

Məmməd Əmin Rəsulzadə bolşeviklərin «milli Azərbaycan ruhunu çürütmək» istədiklərini və onun əvəzində «proletkult» deyilən bir mədəniyyət yaratdığını, bununla da nəsillər arasında nifaq saldığını qeyd edir və göstərirdi ki, sovetləşmə nəticəsində «Azərbaycanın həmlələr və həyəcanlar tərənnüm edən coşğun rübabına ən ağır bir zərbə endirildi. Hürriyyətin feyzli havasından doymadan, milli istiqlalın verdiyi bütün nemətlərdən hələ faydalanmadan, Azərbaycan ədəbiyyatı yenidən tarixin ona ayırdığı faciəli və həzin qismətinə qatlanmaq zərurətinə düşdü»[5].

Məmməd Əmin yazıçıların, sənət adamlarının maneəsiz irəliləməsi üçün əngəl törədən sovet istilasının, sovet rejiminin yırtıcı simasını tutarlı elmi dəlillərlə sübut edir, ruslaşdırma siyasətinin törətdiyi və törədəcəyi fəlakətləri cəsarətlə açıb göstərirdi. Böyük mütəfəkkirin fikrincə, Azərbaycanda ruslaşdırma siyasəti iki şəkildə təzahür edirdi:

a) məmləkəti Moskvanın nəzərdə tutduğu iqtisadi planlara tabe edən iqtisadiyyatda mərkəzləşdirmə,

b) «formaca milli, məzmunca kommunist» formulu ilə maskalanan mədəniyyətin ruslaşdırılması[6].

O göstərirdi ki, bolşeviklər Azərbaycan xalqına ən böyük zərbəni mədəniyyətin ruslaşdırılması zamanı vurdu-

---

5 M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, «Gənclik», 1991, səh. 60.

6 M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, «Gənclik», 1991, səh. 98.

lar, tez-tez əlifbanı dəyişərək, dinə və din xadimlərinə qarşı amansız mövqedə dayanaraq xalqı milli mədəniyyət və milli ənənələrdən uzaq saldılar. Lakin bütün bunlara bolşeviklər maneəsiz, müqavimətsiz nail ola bilmədilər: «Milli Azərbaycan öz bağrından fədakar mücahidlər yetişdirir. Qəhrəmanlıqla ölməyi şərəfsiz yaşamaqdan üstün tutan bunlar (yazıçı və şairlər nəzərdə tutulur - C.Q) kişi kimi savaşır və itirilmiş hürriyyətlə istiqlalın geri alınması uğrunda sovet zindanları ilə uzaq Şimalın buzlu sahillərini saysız qurbanlarla doldururlar. Bu igidlər arasında şahanə həyəcanlarla yaşayan istedadlı gənclər az deyildir»[7].

M.Ə.Rəsulzadə haqlı olaraq qeyd edirdi ki, türk taxttacının qiyafəsinə girən bu qanlı cəllad yalnız özünə qarşı mübarizə edən türkçüləri deyil, ona aldanan türkləri də qəhr etdi[8].

30-cu illərin qətli-qiyamları da Məmməd Əmin Rəsulzadənin diqqətindən yayınmamış və o, 37-ci ilin Azərbaycan xalqının ziyalı təbəqəsinə, mütəfəkkir şəxsiyyətlərinə vurduğu zədələri və itkiləri belə qiymətləndirmişdir: «Həqiqətdə də, 1937-ci il təmizlənməsindən sonra nə məhşur yazıçılardan, nə görkəmli professor və müəllimlərdən, nə sevilən artistlərdən, nə də az-çox tanınan ictimai xadimlərdən kimsə meydanda qalmır»[9].

«Azərbaycan cümhuriyyəti» kitabında M.Ə.Rəsulzadə bolşevizmin mahiyyətini açır və onun Azərbaycan Xalq

---

[7] Yenə orada.s. 80.

[8] M.Ə.Rəsulzadə. Əsrimizin Səyavuşu, Bakı, Gənclik, 1991, səh.52.

[9] M.Ə.Rəsulzadə. «Əsrimizin Səyavuşu», «Çağdaş Azərbaycan ədəbiyyatı», «Çağdaş Azərbaycan tarixi», Bakı, Gənclik, 1991, səh.101.

Cümhuriyyətinə və bolşevikləşmədən sonra xalqın tarixinə və taleyinə vurduğu yaraları göstərir, fakt və sənədlər əsasında onların elmi təhlilini verir.

Mühacirətdə olanlar arasında Mirzə Bala Məmmədzadə də Türkiyədən Azərbaycanın bolşevikləşmədən sonrakı taleyini diqqətlə izləmiş, ölkədə gedən prosesləri o dövrün materialları əsasında dərindən öyrənmiş və təhlil etmişdir. O, özünün «Milli Azərbaycan hərəkatı» kitabında Azərbaycanda gedən istiqlal savaşı və bu savaşda müsavatın yeri və rolu məsələlərinə toxunmuş, milli istiqlalın tarixinə bir nəzər salaraq onun hələ çar Rusiyası dövründən qaynaqlandığını qeyd etmişdir.

Mirzə Bala Məmmədzadə «Milli Azərbaycan hərəkatı» kitabında Azərbaycan Xalq Cümhuriyyəti dövründə və ondan sonrakı illərdə ermənilərlə əlbir olan bolşeviklərin Azərbaycan xalqının tarixində və taleyində oynadığı tragik-dramatik rolunun da üzərində dayanır və azərbaycanlıların repressiyası, eləcə də bolşevik irticasına qarşı milli düşüncə sahiblərinin gizli mübarizə məsələlərini daha qabarıq əks etdirir. Müəllif haqlı olaraq göstərir ki, repressiv aksiyalar zamanı bolşeviklər hədəf kimi ilk gündən ziyalıları, yaradıcı adamları seçir: «Parlament xaricində Bakı və qəza təşkilatlarına mənsub olanlardan ədəbiyyat tarixçimiz, mühərrir və müəllim Firidun bəy, mühərrir Piri Mürsəlzadə, müəllim İslam bəy Qəbulzadə, müəllim Mirzə Abbas, Qasım Qasımzadə, Hüseyn Müzəffər, dr. Rəfibəyli, Zərif əfəndi və başqaları ilk gedən və güllələnən qurbanlardandır. Gənc ordumuzu quran kadrlar arasında ilk günlərdəcə güllələnən 6 general, 6 polkovnik, 3 kapitan, 7

leytenant vardı ki, Azərbaycan üçün son dərəcə böyük itki təşkil edirdi»[10].

Müəllif hələ bu gün də birmənalı qəbul edilməyən gizli təşkilatların yaranma tarixi, onların bolşevik siyasətinə qarşı mübarizə metod və üsulları barədə danışır və qeyd edir ki, «Müsavat» firqəsinin mərkəzi komitəsi gizli fəaliyyətə başlar-başlamaz Moskvada sürgündə olan firqə lideri Məmməd Əmin Rəsulzadənin Avropaya qaçırılmasını qərara almış, uzun fəaliyyət və hazırlıqdan sonra Əmin bəy Avropaya qaçmış, İstanbulda milli nəşriyyat yaratmağa girişmişdir[11].

O, kitabda daha çox «Müsavat» partiyasının istiqlal savaşından danışsa və bu mübarizədə üstünlüyü müsavata versə də (əslində bu elə belə idi - C.Q), başqa partiya və təşkilatların da mübarizəsinə toxunurdu. Belə ki, o bir vaxtlar müsavata qarşı duran, bolşeviklərin dəstəkçisi kimi çıxış edən «İttihad» partiyasının bolşevikləşmədən sonra müsavatla birgə gizli fəaliyyətə başlamasını və Azərbaycan Xalq Cümhuriyyətinin bərpası uğrunda mübarizəsini xüsusilə qeyd edirdi.

Yeri gəlmişkən qeyd etməliyik ki, sovet Azərbaycanında çıxan kütləvi informasiya vasitələri bolşevik özbaşınalığına göz yumduğu halda siyasi mühacirlər öz mətbuatlarında totalitar rejimin Azərbaycan ziyalılarına qarşı keçirdiyi repressiv aksiyaları da kəskin tənqid edir və bu qətliamı mövcud imkanlardan istifadə etməklə (dərgilər vasi-

---

[10] Mirzə Bala Məmmədzadə. «Milli Azərbaycan hərəkatı», Bakı, Nicat, 1992, səh. 154-155.

[11] Yenə orada. səh. 159.

təsilə) dünya ictimaiyyətinə çatdırmağa çalışırdılar. Belə ki, görkəmli tənqidçi-alim, gözəl pedaqoq Firidun bəy Köçərlinin 1920-ci ildə Kirobabadda (İndiki Gəncədə - C.Q.) güllələnməsi ədəbi-elmi ictimaiyyətdən uzun müddət gizlədilsə də azərbaycanlı tələbə Gültəkin «Yeni Qafqasiya» jurnalı vasitəsilə bu barədə ətraflı məlumat verir və göstərirdi ki, kommunistlər qanlı pəncələrini Qafqasiyaya uzatdıqları zaman F.Köçərli kimi vətənpərvər bir müəllimi «Qazax» darülmüəllimində vəzifəsi başında bulmuş və edam etmişlər[12].

Məlumdur ki, Ə.Cavad 1920-ci illərdə millətçilikdə, xarici mətbuat orqanları ilə əlaqə saxlamaqda günahlandırılaraq iki dəfə həbs olunmuşdur. «Yeni Qafqasiya» jurnalı Əhməd Cavadın həmin məcmuədə çap olunan «Osmanlı şəhidlərinə», «Milli bayrağımıza», «Sən ağlama», «Bir gül əkdim», «Nədən yarandın» və «Al bayrağa» adlı şeirlərinin hansı mənbələrdən aldığını göstərir və şairin onlarla heç bir ünsiyyətdə saxlamadığını, bütün bunların ziyalıları məhv etmə vasitələrindən biri olduğunu bildirirdi[13].

1920-1930-cu illərdə repressiyalara və ruslaşdırma siyasətinə qarşı etiraz yalnız xaricdən - mühacirətdən, bu hakimiyyətdən incik qüvvələr tərəfindən deyil, eyni zamanda daxildən, həm də bolşevik kimi yüksək postlarda əyləşmiş adamlar tərəfindən də edildi. Nəriman Nərimanov və Eyyub Xanbudaqov belələrindən idi. Nərimanovun Leninə, Stalinə və oğluna yazdığı məktublar, Xanbudaqovun milli məsələ ilə bağlı 20-ci illərin əvvəllərində dövri mətbuatda çap etdirdiyi məqalə bolşevik hakimiy-

[12] «Yeni Qafqasiya» jurnalı, 1339, № 3, səh. 11.

[13] «Yeni Qafqasiya» jurnalı, 1340, № 12, səh. 3-4.

yətinə, totalitar rejimə qarşı yönəlmiş ittiham aktları idi və onların hər ikisi bu sistemin qurbanı oldu.

Biz «repressiya» sözünə ilk dəfə Nəriman Nərimanovun bu məşhur məktublarında rast gəlirik: «Mən qəti olaraq repressiya əleyhinə idim, lakin bununla belə biz məscidləri gəzib qara camaatı dilə tuturduq ki, küçələrdə özlərinə işgəncə verməsinlər. Bir nəticəsi oldumu? Qəti surətdə bildirirəm ki, nəticəsi oldu»[14].

Təbii ki, N.Nərimanovun işlətdiyi «repressiya» cəzalandırmaq mənasında işlənirdi və o, dövlətin, milli mənəvi sərvətlərin məhv edilməsi kimi anılmırdı. Amma bütün bunlara baxmayaraq o, şəxsiyyətlərin məhv edilməsi əleyhinə də çıxırdı. Belə ki, peşəkar tənqidçi F.Köçərlinin öldürülməsi əleyhinə idi və inkar edilməz faktdır ki, generallardan S.Mehmandarovun, eləcə də Ə.Şıxlınskinin qətlinə o mane olmuşdur.

N.Nərimanov ümumiyyətlə hakimiyyətin zor gücünə qorunmasının əleyhinə çıxır və Orconikidzenin, Sərkisin və Mirzoyanın tətbiq edikləri metodların müsbət effekt vermədiyini, eyni zamanda xalqın onlardan narazı qaldığını bildirirdi: «Orconikidzenin nəzəriyyəsinə görə, əlbəttə, kiçik Azərbaycanın əhalisini müntəzəm olaraq məhv etmək olar, lakin onda respublika kimdən ibarət olacaqdır.

... Biz Bakını bütöv Azərbaycansız saxlamaq iqtidarında deyilik, eləcə də biz hazırkı beynəlxalq vəziyyətimizlə əlaqədar Zaqafqaziyanı süngü gücünə saxlamaq iqtidarında deyilik»[15].

---

[14] Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (tərtibçi akademik P.Əzizbəyova), Bakı, 1992, səh. 42.
[15] Yenə orada. səh. 49.

Milli adət-ənənələrə və dinə qarşı silah və zor gücünə mübarizənin əleyhinə olan N.Nərimanov yazırdı: «Dinə qarşı materialist kimi çıxış etmək bir şeydir. Bu mərasimləri qadağan etmək məqsədilə silahlı qüvvə tətbiq etmək başqa şey»[16].

O, Azərbaycanın maddi sərvətlərinin Rusiyaya daşınmasının əleyhinə çıxır və neft istehsal edən bir ölkədə neftin qiymətinin qonşu Gürcüstandan baha olduğunu bildirirdi: «Azərbaycan kəndlisi ağ neft olmadığı üçün talaşa yandıranda, azərbaycanlı vətəndaş Tiflisdə ağ neftin Gəncədəkindən ucuz satıldığını görəndə, istər-istəməz bütün bunları törədənlərin ünvanına tənə, müstəmləkəçilikdə ittiham və i.a. eşitməyə məcbur olursan.

Mən neft məhsullarından Azərbaycanın xeyrinə faizli ayırmalara dair düz bir il yol. Serebrovski ilə mübarizə aparmışam, işi Siyasi Büroya qədər çatdırmışam, Siyasi Büro bu ayırmanı yerinə yetirməyi qərarla yol. Serebrovskiyə bir vəzifə olaraq tapşırmışdı. Nə üçün yol. Serebrovski indiyə qədər bunu lazımınca yerinə yetirmir? Nə üçün respublika MK-sı bu qərarın icrasına nəzarət etmir. Ona görə ki, Kirov, Mirzoyan yoldaşlar və onların kompaniyası işə saymaz münasibət bəsləyirlər»[17].

Ruslaşdırma siyasətinə və kadrların düzgün yerləşdirilməməsinə etiraz edənlər arasında Talıbovun AK (b) P-nin II qurultayında (oktyabr 1920-ci il) etdiyi çıxış xüsusilə maraq doğurur. Talıbov göstərirdi ki, Azərbaycana onun adət-ənənələrini, tarixini, ədəbiyyatını, mədəniyyətini bilən adamlar rəhbərlik etməlidirlər: «Mərkəzi Komitənin

---

[16] Yenə orada.

[17] Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (tərtibçi akademik P.Əzizbəyova), Bakı, 1992, səh. 36.

üzvləri düzgün seçilməyib. Onlardan çoxu bilmir ki, Azərbaycan nə deməkdir. Elə götürək Sərkis və Lominadzeni. Əgər onlardan Azərbaycan tarixi haqqında nə isə soruşsan, cavab verə bilməzlər. Bakının Xəzər dənizi sahilində yerləşməsini bilmək Azərbaycanı bilmək demək deyildir. Azərbaycanın tarixini, adət-ənənəsini və ədəbiyyatını bilmək lazımdır»[18].

O, AK(b)P-nın III qurultayında daha iki məsələyə prinsipal mövqeyini bildirir və qeyd edirdi ki, əvvala, Azərbaycan müstəqil elan olunubsa, bu xalqın öz dili dövlət dili elan olunmalı, rus dilinin genişlənməsinə yol verilməməli, digər tərəfdən isə Azərbaycanın özünün milli ordusu olmalı və öz ərazilərini özləri müdafiə etməlidir[19].

Bu cür çıxışlarına görə həmin şəxslər millətçi adlandırılaraq tədricən siyasi səhnədən uzaqlaşdırılır və ya məhv edilirdi. Eyyub Şirin oğlu Xanbudaqov (1893-1937) və digər milli baxışlı kommunistlərə hələ 20-ci illərdə belə yarlıqlar vuruldu. Təccüb doğuran odur ki, Xanbudaqov kimi milli hiss və duyğuya malik olanların bəziləri mirzoyanlara söykənir və onu özlərinə ata hesab edirdilər. Eyyub Şirin oğlu Xanbudaqov «Mirzoyan mənim ən yaxın dostum idi, mən onu özümə ata hesab edirdim» - deyə[20] göylərə qaldırdığı mirzoyanların qurbanı oldu.

Yeri gəlmişkən qeyd edim ki, vaxtı ilə mirzoyanların iç üzünü görən N.Nərimanov E.Xanbudaqovu, həm də Mirzoyana arxalanmaqda ittiham edirdi.

Milli məsələ ətrafında mübahisələr E.Xanbudaqovun «Milli məsələ» adlı məqaləsi mətbuatda dərc edildikdən

---

[18] Azərbaycan Respublikası SPİH MDA, f. 1, siy. 1, iş 8, v 342.

[19] Azərbaycan Respublikası SPİH MDA, f. 1, siy. 1, iş 8, v 275-276.

[20] Azərbaycan Respublikası SPİH MDA, f. 1, siy. 74, iş 8, v 63.

sonra daha da kəskinləşdi. İş o yerə çatdı ki, mirzoyanların azərbaycanlı müdafiəçiləri də plenum, konfrans və qurultaylarda E.Xanbudaqovu tənqid etməyə başladı: «Mənim Xanbudaqovla heç bir ziddiyyətim yoxdur, o mənə yaxşılıqdan başqa heç nə etməyib. ...Lakin o, çıxışında deyir ki, Mirzoyan çalışır ki, hər yerə öz adamlarını qoysun. Əgər onun sözünü M.Ə.Rəsulzadənin «Yeni Qafqaziyyə» qəzetində çıxan sözü ilə müqayisə etsək belə çıxır ki, Mirzoyan, Qarayev və Kirov Azərbaycanın diktatorlarıdır. ...Xanbudaqov istəyir ki, Azərbaycanın diktatoru özü olsun. Mən qurultaya bildirirəm ki, o, buna layiq deyil, Azərbaycanın Stalini olmaq üçün yetişməyib. Mən hesab edirəm ki, VI qurultay Xanbudaqova deyəcək ki, milli ədavət yaratmaq üçün bizim təşkilatda sənə yer yoxdur»[21].

Məmməd Əmin Rəsulzadə isə Eyyub Xanbudaqovun milli məsələ ilə bağlı çıxışlarını yüksək qiymətləndirirdi: «Rus olmayan sovet respublikalarında milli istiqlal fikrinə meyl edənlərə «milli sapıntıçılar» adı verilir». Daha sonra, 1924-cü ildə Azərbaycan Kommunist partiyasının baş katibi Eyyub Xanbudaqov Azərbaycan sapıntıçılarına başçılıq etdi və bu cərəyanın istəklərini bu şəkildə formalaşdırdı:

1. Bundan sonra Moskva Azərbaycanın daxili işlərinə qarışmayacaq.

2. Yerli kommunistləri sadəcə yuxarıdan təyin olunan katiblərlə rəhbərlərin idarəsində və yalnız onların müşavirləri rolunda görmək fikri və adətindən vaz keçiləcək.

3. Azərbaycan milləti öz-özünə idarə etmək çağına çatmış ikən, moskvalı idarəçilər, yerlilərin müstəqil olaraq çalışmalarına əngəl olur və bu çalışmaya yerli millətçilik damğası vurur. Buna qəti olaraq son qoyulacaq.

[21] AR SPİH MDA, f. 1, siy. 74, iş 8, v. 81-82.

4. İşçi birlikləri, koperativləri və digər dövlət müəssisələri, sözdə deyil, gerçəkdən türkləşdiriləcək.

5. Azərbaycanı Rusiyadan gətirilmiş köçkünlərlə məskun etmək istəyən Sovet hökumətinin məskunlaşdırma siyasətinə son qoyulacaq.

6. Cənubi Qafqaz Respublikalarında milli mədəniyyətlərin inkişafını saxlamaq üçün Cənubi Qafqaz Sovet Sosialist Respublikası Federasiyasının təşkilatı əsası ilə, qanunu dəyişəcək (həmin tarixdə adı çəkilən federasiya var idi. Bu federasiya sonradan dağıldı).

Xanbudağovun bu çıxışı Azərbaycan kommunistləri arasında qüvvətli bir hərəkata səbəb oldu. Bu hərəkat Moskvanın zorakı tədbirlərii ilə nəticələndi. Xanbudaqovu Azərbaycandan sürgün etdilər. Azərbaycan Kommunist Partiyasının baş katibliyinə bundan sonra Moskvadan təyin olunan yabançı katiblər göndərildi. Partiyanı Xanbudaqov tərəfdarlarından təmizlədilər[22].

Azərbaycan Xalq Cümhuriyyəti dövründə milli təhlükəsizlik orqanlarımıza rəhbərlik edən, sovetləşməyə etiraz əlaməti olaraq Gəncə üsyanının fəallarından birinə çevrilən Nağı bəy Şeyxzamanlı (1883-1967) da Türkiyədə yazdığı əsərlərində Azərbaycanda gedən siyasi prosesləri, sovetləşmə dövründəki bolşevik özbaşınalıqlarını və mövcud anarxiyanı kəskin şəkildə tənqid edirdi. Azərbaycan Sovet Sossialist Respublikasında gedən prosesləri bir qədər uzaqdan - Türkiyə Cümhuriyyətindən izləyən müəllif bolşeviklər tərəfindən aparılan siyasi xəttin türk qövmünün aşağılanmasına, onların bütün tərəfləri ilə istismarına və məhvinə yönəldiyini bildirirdi. O dəfələrlə göstərirdi

[22] M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan tarixi. Bakı, «Gənclik», 1991, səh. 95.

ki, mənfur erməni-rus (həm çar, həm də sovetlər dönəmində - C.Q.) ittifaqı nəticəsində azərbaycanlılar soyqırıma məruz qalır. Azərbaycanın bir sox siyasi xadimləri və mütəfəkkir şəxsiyyətləri qətlə yetirildi. Nağı bəy yazırdı: «Ermənilər heç bir zaman azərilərlə dost olmamışdılar. Ruslar Qafqazı işğal edən zaman ermənilər onlara yol göstərmiş və cəsusluq etmişdilər. Ermənilər bir qafqazlıya yaraşmayan şəkildə azərilərə pislik etmişdilər. Rusların azərilərə etdikləri yazmaqla bitmədiyi kimi ermənilərin də bizə etmədiyi pisliklər saysız-hesabsızdır. Ermənilərin bizə etdikləri arasında ən ağır gələni aşağıdakı hadisələr olmuşdur. Moskvanın Qızıl ordusu 1920-ci ildə Azərbaycanı işğal edincə siyasi dövlət xadimlərimizdən bəziləri Gürcüstana sığınmışdılar. O zamanlarda Tiflis hər nə qədər Gürcüstanın mərkəzi sayılırdısa orada çox sayda yaşayan ermənilər də tiflisli sayılırdılar. Ermənilər Tiflisdə Fətəli xan Xoylunu şəhid etdilər və sabiq ədliyyə naziri olmuş Xəlil bəy Xasməmmədlini yaraladılar. Bir ay sonra yenə Tiflisdə parlament sədrinin müavini olmuş Həsn bəy ermənilər tərəfindən qətlə yetirildi. Mühacirə terror edilirmi? Bax budur ermənilərin vəhşiliyi»[23].

Həmişə və hər yerdə türklərə qarşı qəddarlıqları ilə seçilən ermənilərin bu kimi çirkin hərəkətlərinin mənzərəsini yaradan Nağı bəy Şeyxzamanlı qeyd edirdi ki, «İki qonşu millətin ikisi də qafqazlı, ikisi də respubika üsul-idarəsi ilə idarə olunur və ikisinin də respublikaları yeni yaranmışdır və iki millət qədim tarixdən bəri qonşu olaraq yaşamaqdadır.

Qızıl ordu xaincəsinə Qafqaza hücum edərək onu işğal edir. Xüsusilə Azərbaycan torpağı atəşlər altında ya-

---

[23] Nağı Şeyxzamanlının xatirələri. Bakı, 1997, "Qartal" nəş., səh. 260.

nır. Qızıl ordu elə bir ordudur ki, nə qanunu var, nə də vicdanı bu vəziyyətə düşənlərə də qonşuları təsəlli verərək dərdinə şərik çıxır və kömək edirlər. Ancaq bütün bu keyfiyyətlər ermənilərdə olmamışdır. Onlar küçədə rastlaşdıqları hər bir azərini vəhşicəsinə qətlə yetirirdilər. Bu terrorların hamısının başında ermənilərin «Daşnaq» partiyası durur. Qonşularına qarşı bu vəhşi hərəkəti etməklə, «Daşnak» partiyası liderləri ilk əvvəl erməniləri fəlakətə sürüklədilər. Onlar elə bildilər ki, türkün bir qolunda Fətəli xanları, Həsən bəyləri, Behbut Cavanşirləri, digər qolunda Tələtləri, Şakirləri, doktor Nazimləri, Camal paşaları şəhid etməklə türk millətini qırıb qurtaracaqlar. «Türk beşiyi dahilərin yatağıdır» – demişlər»[24].

Təsadüfi deyildir ki, Nağı bəy Şeyxzamanlının Türkiyə mətbuatındakı ermənilərin və rusların əleyhinə yönələn kəskin çıxışları və mühacirət düşərgəsindəki siyasi nitqləri SSRİ təhlükəsizlik orqanlarının diqqətindən kənarda qalmamışdır. Ona görə də, 1919-cu illərin sonlarında və 1920-ci illərin əvvəllərində onunla bir yerdə işləyən[25] L.P.Beriya 1948-ci ildə Türkiyəyə Nağı bəyin arxasınca adam göndərərək onu SSRİ-yə dəvət edir. Məsələnin əsil mahiyyətini, L.P.Beriyanın fitnəkar siyasətini başa düşən Nağı bəy dəvəti qəbul etmir. Əgər qəbul etsəydi onu da Cəlil Məmmədquluzadənin, Yusif Vəzir Çəmənzəminlinin və onlarla başqalarının acınacaqlı taleyi gözləyərdi. Onu da şirin vədlərlə SSRİ-yə gətirərək vəhşicəsinə məhv etmək istəyirdilər.

---

[24] Nağı Şeyxzamanlının xatirələri. Bakı, 1997, "Qartal" nəş., səh. 261.

[25] Redaktordan. Vaxtı ilə L.P.Beriyanı N.Şeyxzamanlı "Əksinqilab ilə mübarizə təşkilatı"nın senzor şöbəsinin rəisi təyin etmişdi.

Həmin illərdə Azərbaycanda yaşayan ziyalılara gəldikdə isə deməliyik ki, onların repressiyalar barədə müstəqil fikir yürütmək imkanları yox idi. Belə ki, bütün dövri mətbuat ciddi senzor nəzarətinə götürüldüyündən, ən başlıcası isə, bolşeviklərə məxsus olduğundan orada müstəqil söz demək, hətta azad şəkildə düşüncələrini ifadə etmək mümkün deyildi. Onlar sovet idarə-üsulunu yalnız təbliğ edə bilərdilər.

Deyilənlərdən aydın görünür ki, mühacir həyatı yaşayanlardan fərqli olaraq 20-30-cu illərdə daxildə mübarizə araran yazarların və sənət adamlarının, demək olar ki, heç biri nümayişkarənə şəkildə rejimə qarşı çıxmır, bir problem kimi Azərbaycanın müstəqilliyi ideyasını qaldırmır, bolşeviklərin ruslaşdırmaya və erməni təəssübkeşliyinə etiraz edə bilmirdi. Lakin bu o demək deyildi ki, Azərbaycan ziyalıları sovet imperiyasının yeritdiyi siyasəti dəstəkləyirdi. Əlbəttə onlar arasında da etiraz edən, müqavimət göstərən, hətta gizli partiyalar yaradaraq siyasi mübarizə aparanlar da az deyildi. Totalitar rejimin yasaq və qadağalarından yaxa qurtarmaq istəyən yazarlar özlərinin milli düşüncələrini, bir qayda olaraq, bədii və ya elmi əsərlərinin alt qatında gizlədirdilər. Minlərlə ziyalımızın repressiyalara məruz qalması faktı da dediklərimizi sübut edir.

Sovetləşmə illərində 1920-1950-ci illərin repressiv aksiyalarının öyrənilməsi baxımından həmin illərin dövrü mətbuatı kifayət qədər material verir. Bu illərdə həbs olunan Azərbaycan ziyalılarının dövri mətbuatda həm siyasi xadimlər, həm də bolşevik tənqidçilər tərəfindən ifşası repressiyaların tədqiqinin öyrənilməsi baxımından olduqca maraqlıdır. Doğrudur, həmin sənədlər imperiyanın maraqlarının ifadəsidir. Hətta qəzet başlıqları belə «Xalq düşmənləri məhv edilməlidir», «Əksinqilabçı millətçilərə

ölüm», «Aramızda casuslara yer yoxdur», «Vətən xainlərinin kökünü kəsməli», «Trotskçilər, zinovyevçilər gəbərməlidir»... kimi ittiham edici məqalələr məsələnin mahiyyətini açıqlayır. Bu gün artıq həmin materiallar repressiyaların keçirilmə mexanizmi, repressiv aksiyalara kimin məruz qalması və nədə ittiham edilməsi barədə bilgi verir. Eyni zamanda həmin materiallar imkan verir ki, arxiv materialları, xatirələr, sənət adamlarının qoyub getdiyi ədəbi irs əsasında əsil həqiqəti üzə çıxara bilək. Sonrakı fəsillərdə yeri gəldikcə bu məsələlər barədə bəhs edəcəyik.

**2) Repressiya qurbanlarına stalinizmdən sonrakı dövrdə - 1950-1980-ci illərdə münasibət.**

İ.V.Stalinin ölümündən sonra, xüsusilə də 1955-1957-ci illərdə repressiya qurbanlarına bəraətlərin verilməsi istiqamətində mühüm addımlar atıldı və bir çox zərərdidə ziyalılar reablitasiya olundu. Dövlətin yeritdiyi siyasətə uyğun olaraq verilən bəraətlərlə bağlı ideoloji təbliğat maşını da işə düşdü. Kommunistlər qətlə yetirdiklərini bir kənara ataraq sovet hökumətinin (əslində Nikita Sergeyeviç Xuruşşovun) yeritdiyi reablitasiya siyasətinin humanist siyasət olduğunu diqqət mərkəzinə çəkdilər. Beləliklə yenə də əsil həqiqətlər təhrif edildi. Ona görə də 50-80-ci illərdə repressiya qurbanları barədə yazanlar dövrün tələbinə uyğun olaraq və həmin yazıçıların bəraət almalarına nail olmaq üçün onların hamısını sosialist realizminin müdafiəçisi, sovet cəmiyyətinin təbliğatçısı kimi verməyə məcbur olmuş, əsil həqiqətləri sosializm teyfi altında gizlətmək məcburiyyətində qalmışlar.

Bəzi tədqiqatçılar isə Ə.Cavadı, M.Müşfiqi, Ə.Müznibi, Ə.Abidi, S.Mümtazı, hətta F.Köçərlini sosialist realizmi ədəbi metodunun nümayəndələri kimi verməyə çalışmış, H.Cavidi isə sosialist realizminə yaxınlaşmağa səy göstərən sənətkar kimi təqdim etmişlər. Repressiyalara məruz qalan şəxslər haqqında monoqrafiyalar, salnamələr yazılsa da onların həbs olunmaları və məhv edilmələri barədə heç nə deyilməmiş, daha doğrusu, 50-80-ci illərdə mövcud rejim araşdırıcılara yalnız bir cümlə - «1937-ci ildə vəfat etmişdir» - deməyə imkan vermiş, «Sosializmin bütün cəbhə boyu repressiya hücumları» yenə də açıqlanmamışdır. Lakin çap olunan bəzi yazılarda 30-cu illərin ağrıları, insanların keçirdikləri streslər, kütləvi qətl, ailəvi sürgün və həbslər, bunların ədəbi prosesə təsiri barədə az da olsa danışılmışdır. Bu mənada tanınmış tərcüməçi və yazıçı Hüseyn Şərifin (1909-1989) xatirələri xüsusilə əhəmiyyətlidir.

H.Şərifin əsərində zülmə, istibdada, dini xurafata, şahlara, «ulu xaqanlara», «çılğın dərəbəylərə» qarşı çıxan H.Cavid, Ə.Cavad, Y.V.Çəmənzəminli, M.Müşfiq və başqalarının 30-cu illərin marksist tənqidçiləri tərəfindən müasir mövzularda əsərlər yazmağa çağrış və «müasirləşmək istəməyən» sənət adamlarının etirazı qabarıq şəkildə verilmişdir.

Xatirələrdən aydın görünür ki, həmin illərdə müstəqillik və azadlıq uğrunda mübarizə aparan, «sosializm süfrəsi!» başına gətirilməsi mümkün olmayan şairlər və yazıçılar yeni nəsillər arasında böyük nüfuza malik idilər. Hüseyn Şərif «Xatirələr» kitabında göstərirdi ki, Cavidin hər bir əsəri oxucular tərəfindən sevinclə qarşılanırdı: «Cavid

yaradıcılığının pərəstişkarı olduqca çox idi. Cavan, qoca, qadın, kişi - hamı ona hörmət edir, əsərlərini minnətdarlıq duyğusu ilə qarşılayırdılar. Onun pərəstişkarları gənclər arasında daha çox idi»[26].

Müəllif göstərir ki, Cavid həbs edildikdən sonra da onun yaradıcılığı ziyalıların diqqətindən kənarda qalmamış, əsərləri ona «Azərbaycanın Hötesi» adını qazandırmışdır.

Kitabda Cavid əfəndi «xalq düşməni» kimi ifşa edildikdən sonra onun ailə üzvlərinin təqib və təzyiqlərə məruz qalmasından da maraqla danışılır. Bütün bunlar jurnalist araşdırmasından daha çox, ağrıların şahidi olan, həmin mühitə dərindən bələd olan, daha doğrusu həmin mühitin içindən çıxan müəllifin yaşantılarının məhsulu kimi təqdim edilir.

Qumral Sadıqzadə də «Son mənzilin Xəzər oldu» adlı sənədli romanında totalitar rejimin görkəmli tənqidçi S.Hüseyni, həyat yoldaşı, istedadlı şairə Ümmügülsüm Sadıqovanın (Rəsulzadə) və onların övladlarının, eləcə də bu ailənin timsalında Azərbaycanın mübariz oğullarının başına gətirdiyi müsibətləri açıb göstərir. Onu da qeyd etməliyik ki, romanın müəllifi Qumral xanım özü də repressiya məruz qalmış, həbsxanaya düşməsə də kiçik yaşlarından atası S.Hüseyndən və anası Ümmügülsüm xanımdan, eləcə də bu ailənin digər üzvlərindən bir müddət ayrı düşərək «Xalq düşməni»nin qızı kimi məhrumiyyətlər içərisində böyümüşdür.

---

[26] Hüseyn Şərif. Xatirələr, Bakı, «Yazıçı», 1989, s. 11.

Tədqiqatçı alim Nəsiman Yaqublu da «Ağrılı ömürlər» (Bakı, Yazıçı, 1990) kitabında 30-cu illərdə baş vermiş hadisələri mətbuat və arxiv materialları əsasında açıqlamağa, dövrün ümumi mənzərəsini verməyə çalışır və buna nail olur. Azərbaycan oxucusu ilk dəfə olaraq dövlət xadimlərinin, elm və mədəniyyət adamlarının – Heydər Hüseynov, Salman Mümtaz, Əhməd Cavad, Ruhulla Axundov və başqalarının yasaqlanmış taleyinin, onların qohumlarının ağrılı yaşantılarının naməlum tərəflərinin, eləcə də indiyədək bağlı qapı arxasında qalan həqiqətlərin bir qismi ilə burada tanış olur.

O, Heydər Hüseynovla bağlı «Altı ay ölümə doğru» oçerkində stalinizmin Azərbaycan ziyalılarına vurduğu son ağrılardan danışır, çoxlarına məlum olmayan fakt və sənədlər onun apardığı tədqiqat nəticəsində oxuculara çatdırılır. H.Hüseynovun həyatı, yaradıcılığı və mühitindən faktik materialların və onun ailə üzvlərinin dili ilə söz açan müəllifi daha çox görkəmli filosofun özünü intihar etməsinin səbəbləri düşündürür.

Müəllif tərəfindən Heydər Hüseynovun «XIX əsr Azərbaycan ictimai və siyasi fikir tarixindən» kitabının nəşrindən və M.C.Bağırovun Stalin mükafatı alan bu monaqrafiyaya münasibətindən sonra yaranan fikirlər paralel verilir ki, bu da stalin rejiminin bir çox ziyalıları müti vəziyyətinə saldığını aydın göstərir. Belə ki, monoqrafiya nəşr olunan zaman onun barəsində müsbət söz söyləyən qeyri-sabit xarakterli ziyalıların bəziləri M.C.Bağırovun kitaba verdiyi mənfi qiymətdən sonra öz fikir və baxışlarını dəyişir. Onlar çıxışlarında istəməsələr də yazdıqlarının əleyhinə

gedirlər. Maraqlıdır ki, çıxış edənlər arasında azərbaycanlılara qarşı həmişə ikrah hissi ilə yaşıyan və onlara qarşı tarixi düşmənçiliklərini heç vaxt unutmayan neft fəhləsi erməni S.Qriqoryan da vardır. Müəllif bu hadisəyə öz münasibətini belə ifadə edir: «İndi belə müzakirədə neft fəhləsinin çıxışına ehtiyac vardımı? Axı H.Hüseynovun qaldırdığı fəlsəfi-ictimai problemlərdən bixəbər idi o neft fəhləsi? Sadəcə olaraq ona göstəriş verilmişdi. Çıxışını da əvvəlcədən yazıb hazırlamışdılar. Qalırdı o çıxışı tutuquşu kimi oxumaq»[27].

Müəllif eyni zamanda Heydər Hüseynovdan sonra onun ailəsinin başına açılan müsibətləri də ürək ağrısı ilə oxucuya çatdırır.

Görkəmli tədqiqatçı alim Salman Mümtazın Azərbaycan ədəbiyyatı tarixindəki yerini və mövqeyini müəyyənləşdirən, onun topladığı əlyazmaları xalqın mənəvi sərvəti kimi yüksək qiymətləndirən müəllif NKVD işçilərinin S.Mümtazı və mənəvi sərvətlərimizi necə məhv etdiklərini böyük ürək ağrısı ilə açıb göstərir. O, M.C.Bağırovu ziyalıların və mənəvi sərvətlərin məhv edilməsində əsas fiqur kimi mərkəzə çəkir. O, Salman Mümtaz xəstələnərkən Nərimanovun ona münasibətini, eləcə də Bağırovun ziyalıya münasibətini aşağıdakı xarakterik misalla verirdi: «Nərimanov bir neçə dəfə də şəxsən gəlib Salman Mümtazın vəziyyəti ilə maraqlanır. Xəstənin daimi müalicəsi üçün Panov və Meqebrovu onlara göndərir. Ardıcıl aparılan müalicə öz təsirini göstərir, xəstə sağalıb ayağa qalxır.

---

[27] Nəsiman Yaqubov. «Ağrılı ömrlər», Bakı, Yazıçı, 1990, səh. 59.

Bütün bu qayğıkeşliyi Azərbaycan hökumətinin ilk rəhbəri Nəriman Nərimanov edir.

... 1938-ci ildə həbsxanaya - atasının görüşünə gələndə (Şəhla Mumtazzadə nəzərdə tutulur - C.Q) dəhşətdən özünü itirir: atasının bütün dişlərini vurub sındırmışdılar, üz-gözündə şiş, göy vardı.

Bunu isə Azərbaycan hökumətinin digər rəhbəri - Mir Cəfər Bağırov edir»[28].

Tanınmış yazıçı Sabir Gəncəli «İşıqlı ömürlər, kövrək talelər» (Bakı, Azərnəşr, 1991) kitabında totalitar rejim zamanı Azərbaycan qadınlarının düşdüyü vəziyyəti təsvir edir. Yazıçı Ümmügülsüm xanımdan danışarkən S.Hüseyn ailəsinin başına açılan müsibətləri göstərir və bu ailənin övladlarının qorunması, eləcə də tərbiyəsi işində böyük əziyyətlər çəkən, respublikanın ilk siyasi-iqtisad sahəsində qadın alimi, S.Hüseynin bacısı qızı Səyyarə xanımın əzabkeşliyini və diqqətini xüsusilə qabardır.

S.Gəncəli Ümmügülsüm xanımın xatirələrinə də ilk dəfə olaraq müraciət edir və həmin xatirələr vasitəsi ilə Bayıl həbisxanadakı vəziyyətlə, həbs olunmuş qadınların keçirdiyi hisslərlə oxucuları tanış edir: «12 noyabr 1937-ci il. İki gündür burdayam. Bu iki gündə keçirdiyim həyat mənə yuxu kimi gəlir. Kamerada elə qarışıqlıqdır ki, belə bir şeyi mən ömrümdə təsəvvürümə gətirməmişdim. Bütün yorğan-döşəklər yerə sərilib. Axşamdan bəri 36 adamın istifadə etdiyi ağzına qədər dolu çirkab vedrəsinin və onunla yanaşı qoyulmuş natəmiz su-çay vedrəmizin ağzı

[28] Yenə orada. səh 121.

açıqdır. Nə bu murdarlığı və üfunəti, nə də bu qədər adamın balaca, hər tərəfi bağlı otaqda bütün gün ərzində aldıqları nəfəsdən kəsif havanı təmizləyəcək bir şey yoxdur. Burada heç bir şey adi qayda üzrə getmir. Hər şey fövqəladə bir şəkildədir. Axşam yatanda soyunmayan məhbuslar yenidən geyinmə işindən azaddırlar. Eləcə yerimizdən qalxırıq... Kamerada çay içmək və xörək yemək üçün cəmi on səkkiz qab vardır. Qablar həbsxananındır. 36 arvad bu qablarda həm xörək yeyir, həm də çay içir.

Günorta yeməyimiz gəlir... Lakin bu, yeyiləcək bir şey deyil. Yeyiləsi mümkün olmayan ağ rəngli şorbanı taxta qabdan növbə ilə yemək lazımdır. Güclə, zorla, ağlaya-ağlaya, ögüyə-ögüyə yeyirik. Nə etməli? Düz iki gündür acıq...»[29].

Deyilənlərdən də göründüyü kimi, sovetlər dönəmində repressiya qurbanları ilə bağlı məqalə və araşdırmalar, bir qayda olaraq, arxiv materiallarına deyil, daha çox xatirələrə söykənirdi. Xatirə stereotipini 1980-ci illərin sonlarında ilk dəfə sındıran, xatirələri arxiv materialları ilə əvəzləyən, oxucunu istintaq qovluqları ilə tanış edən görkəmli tarixçi alim, akademik Ziya Bünyadov oldu. O, Dövlət Təhlükəsizlik Komitəsinin (DTK-nın) arxivlərinə yol tapa, yeddi kilid altındakı «tam məxfi» qrifli materialları qəzet səhifələrinə çıxara bildi. Müstəqillik illərində həmin materiallar «Qırmızı terror»[30] adı ilə kitab kimi nəşr

[29] Sabir Gəncəli. «İşıqlı ömürlər, kövrək talelər», Bakı, Azərnəşr, 1991, səh. 245-246.

[30] Ziya Bünyadov. Qırmızı Terror. «Azərbaycan Dövlət Nəşriyyatı», Bakı, 1993.

edildi. Oxucular düşünə bilər ki, 1993-cü ildə nəşr edilən kitab barədə müəllif nə üçün sonrakı bolmədə danışmır? Məlumdur ki, Ziya müəllimin 1993-cü ildə işıq üzü görən bu kitabı ayrı-ayrı məqalələr halında 80-ci illərin qəzet səhifələrində nəşr edilmişdir. Həmin əsərlər hələ sovet hökumətinin mövcudluğu dövründə dəyərli oxuculara çatdırıldığından biz də həmin dövrə aid etməyi məqsədəuyğun saydıq. Fikrimizcə, doğru olanı da budur.

Mərhum akademik kitabda B.Çobanzadə, Y.V.Çəmənzəminli, X.S.Xocayev, A.M.Şərifzadə, H.Zeynallı, V.Xuluflu, T.Şahbazi, Ə.Nazim, Ü.Rəcəb və başqaları barədə maraqlı oçerklər vermişdir. Qeyd etməliyik ki, bu əsər əli arxivə çatmayan bir çox tədqiqatçıların stolüstü kitabına çevrildi. Təəssüf ki, onların bir qismi bu kitabdan yararlansa və sitatlar gətirsə də Ziya müəllimin adını belə çəkmədilər. Mətləbi uzatmadan deməliyik ki, akademik Ziya Bünyadovun bu fundamental əsəri ayrıca bir tədqiqatın mövzusudur.

**3) Azərbaycan müstəqilliyini əldə etdikdən sonra repressiya qurbanlarının tədqiqinə dair.**

Akademik Ziya Bünyadovun bu kitabından sonra yeni bir mərhələ - arxiv materiallarının təqdimatı mərhələsi başlandı. «Cavabını sənə tarix verəcək» kitabının müəllifi professor Murtuz Sadıqlı arxiv materialları əsasında erməni və sovet faşistlərinin Azərbaycan xalqının başına açdığı müsibətləri - 1905, 1918-ci illərdə ermənilərin yeritdiyi soyqırım siyasətini, sovet imperiyası dövründə başlayan

siyasi repressiya və deportasiyaları, 20 yanvar hadisələrini və s. diqqətlə öyrənmiş və təhlil etmişdir.

Filologiya elmləri doktoru Əli Saləddin də arxiv sənədləri, 30-cu illərdə Yazıçılar Birliyində keçirilən yığıncaqların stenoqramları və istintaq materialları əsasında Əhməd Cavadın tercümeyi-halında qaranlıq qalan bir çox mətləbləri işıqlandırmağa, onun və ailə üzvlərinin həbs olunmasının səbəblərini, təhqirlərə, təqib və təzyiqlərə məruz qaldığını, hər bir əsəri üçün hesabat verməyə məcbur edildiyini aydınlaşdırmağa çalışır. Bundan başqa o, Ə.Cavadın əsərlərini də toplayaraq, ayrıca kitab halında nəşr etdirmişdir. Yeri gəlmişkən onu da qeyd etməliyik ki, totalitar rejim zamanı repressiya qurbanlarından yalnız birinin - Firidun bəy Köçərlinin irsi haqqında Mir Cəlal Paşayev 1946-cı ildə obyektiv fikir söyləmiş və onun sənətini yüksək qiymətləndirmişdir. Digərləri (söhbət repressiya qurbanlarından gedir) haqqında o zaman elmi-nəzəri fikir söyləmək mümkün deyildi.

Maraqlıdır ki, bolşeviklər bir fiziki şəxs kimi Firidun bəy Köçərlini məhv etsələr də onun irsi 20-ci illərdə repressiyalara məruz qalmamış, əksinə 1925-1926-cı illərdə tədqiqatçı alimin uzun illər böyük fədakarlıqla, müxtəlif mənbələrdən topladığı və tədqiq etdiyi «Azərbaycan ədəbiyyatı tarixi materialları» kitabı (2 cilddə) böyük tirajla nəşr olunmuşdur. Cəsarətlə demək olar ki, tarixi faktlarla kifayət qədər zəngin olan bu fundamental əsər Azərbaycan ədəbiyyatı tarixinin yazılmasında və klassik yazarların öyrənilməsində həmişə etibarlı mənbələrdən biri olmuşdur.

F.Köçərlinin bölşeviklər tərəfindən öldürülməsi faktı 90-cı illərə qədər ədəbi ictimaiətdən gizlədilmiş, bu faktdan xəbəri olanlara isə onu açıqlamağa icazə verilməmişdir. Onun ölümü barədə ilk fikri söyləyən Şəmistan Nəzirli də tədqiqatçı-alimin həyat yoldaşı Badisəba xanımın xatirələrini əsas götürdüyündən və Milli Təhlükəsizlik Nazirliyinin arxivindəki sənədlərlə tanış olmadığından müəyyən təhriflərə yol vermiş, F.Köçərlinin həbsini və güllələnməsini Gəncə üsyanı ilə əlaqələndirmişdir. Əslində isə görkəmli alimin nədə ittiham edilərək güllələnməsinin əsl səbəbləri göstərilməmişdir.

Filologiya elmləri doktoru Rafael Hüseynov «Vaxtdan uca» kitabında Cavidlər ailəsinin repressiya yaşantılarını bədii-publisistik dillə verməyə çalışmış, ilk dəfə olaraq Cavidin Sibirdən yazdığı məktubları və bu ailənin, eləcə də, Cavid ocağının başına açılan tragik-dramatik hadisələri açıb göstərmişdir[31]. Əsər yalnız dövri mətbuat və arxiv materialları əsasında deyil, eyni zamanda Cavidlər ailəsinin, xüsusilə də Turan xanımın və Cavidsevərlərin xatirələri əsasında yazılmışdır. Faktla xatirənin, eyni zamanda Rafael müəllimin bədii təxəyülünün sintezindən doğan bu maraqlı və oxunaqlı əsər geniş oxucu kütləsi tərəfindən rəğbətlə qarşılanmışdır.

Cavidşünas alim, professor Kamran Əliyev də H.Cavidin repressiyası ilə bağlı tədqiqat aparmış və maraqlı mülahizələr irəli sürmüşdür. Müəllif 30-cu illərin qəzetlərində görkəmli şəxsiyyətlərin ölümləri ilə bağlı verilmiş yubi-

---

[31] Rafael Hüseynov. Vaxtdan uca. Bakı, 1988.

ley materialları ilə əhalinin gündə rastlaşdığı ölüm hökmləri arasında paralellər aparmışdır: «1937-ci ilin «Ədəbiyyat qəzeti»ndə ölüm faktları ilə əlaqədar başqa bir xətt də özünə açıq aşkar yer tuturdu. Qəzet A.S.Puşkinin ölümünün 100, C.Cabbarlının ölümünün 2, M.Y.Lermontovun ölümünün 96, A.Bakıxanovun ölümünün 90, A.N.Radişşevin ölümünün 135, V.Mayokovskinin ölümünün 7, Emil Zolyanın ölümünün 35, S.M.Kirovun ölümünün 3 illiklərini sözün həqiqi mənasında, təntənə ilə qeyd edirdi. Hətta çox maraqlı və düşündürücüdür ki, M.Ə.Sabirin anadan olmasının 75 illiyini qeyd etmək mümkün olduğu halda, məhz ölümünün 25 illiyi «reklam edilirdi»[32].

Professor K.Əliyev bu fikirlərini ümumiləşdirərək yazırdı: «Əslində qəzet adamların ölümə münasibətini adiləşdirirdi və «ölüm» sözü adamların həyatına və nitqinə daha məhsuldar şəkildə daxil olurdu»[33].

Hikmət Cəmilzadə «Bizi geri qaytaracaqlar» sənədli povestində H.Cavidin cənazəsinin Azərbaycana gətirilməsini, bu hadisənin Azərbaycan xalqına mənəvi-psixoloji təsiri məsələlərini maraqlı faktlarla açıqlayır[34].

Əmir Pəhləvanın yazdığı «Qalxın Cavid gəlir» kitabında da H.Cavidlə bağlı maraqlı faktlar vardır[35].

Bundan başqa, professor Cəmil Həsənov «Ağ ləkələrin qara kölgəsi» (Bakı, «Gənclik» nəşriyyatı, 1991) və Nizami

---

[32] Kamran Əliyev. Hüseyn Cavidin Şəxsiyyəti və poetikası, Bakı, «Yazıçı», 1997, s. 17.

[33] Yenə orada.

[34] Hikmət Cəmilzadə. Bizi geri qaytaracaqlar. Bakı, 1993.

[35] Əmir Pəhləvan. Qalxın Cavid gəlir. Bakı, 1997.

Məhərrəmovun «Getsin - gəlməsin» (Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1992) kitablarında siyasi repressiyalar barədə geniş danışılır və maraqlı mülahizələr irəli sürülür. C.Həsənov arxiv materiallarını diqqətlə öyrənib təhlil etməsinə baxmayaraq müəyyən yanlışlıqlara da yol vermişdir. Belə ki, onun fikrincə, siyasi repressiyalar V.İ.Leninin vəfatından sonra başlanmışdır: «30-cu illərin faciəsi» heç də 1937-ci ildən başlanmır. «1937-ci il» Vladimr İliç Leninin vəfatından sonra ölkəmizdə yenicə bərqərar olmağa başlayan demokratiyanın öz relsindən çıxarılmasının məntiqi nəticəsi idi»[36].

Eyni fikirlərə bir qədər başqa şəkildə Məcid Katiblinin də məqaləsində rast gəlirik: «Stalin ölkəmizin həyatında qara illər sayılan 1937-1938-ci illərə Leninin iş üslubunu, sosializmin prinsplərini poza-poza gəlmişdi. Kollektiv düşüncəni mütləq hökmranlıqla, demokratiyanı şəxsi diktatorluqla əvəz etmişdir»[37].

Təəssüf ki, hər iki müəllif rejimi yox, Stalini hədəf seçir. Belə çıxır ki, Stalin olmasaydı bu totalitar rejim repressiv aksiyalar keçirməyəcək və Azərbaycanın milli təfəkkürə malik olan şəxsiyyətləri qətlə yetirilməyəcəkdi. **Lakin unutmaq olmaz ki, ölüm qoxusu İosif Vissarionoviç Stalindən öncə totalitar rejimin özündən gəlirdi.** Təkrardan qorxmadan deməliyik ki, (aşağıdakı fikirlər yuxarıda da verilmişdir - C.Q.) 1920-1924-cü illərdə (V.İ.Leninin ölü-

---

[36] Cəmil Həsənov. «Ağ ləkə»lərin qara kölgəsi, Bakı, Gənclik, 1991, səh. 125.

[37] «Ağ ləkələr» silinir (tərtibçi Osman Mirzəyev), Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1991, səh. 7.

münə qədərki dövrdə) Rusiyada və onun əyalətlərində minlərlə adam istintaqsız və məhkəməsiz yerindəcə güllələnmişdir ki, bu gün də onların harada, necə və nəyə görə güllələndiklərini müəyyənləşdirməkdə çətinlik çəkirik. Belə ki, 1920-ci il iyun ayının 29-dan 1921-ci il yanvar ayının 1-dək olan dövrdə 142 nəfər, 1921-ci il yanvar ayının 1-dən 1922-ci il yanvar ayının 1-dək olan dövrdə 88 nəfər, 1922-ci il yanvar ayının 1-dən 1923-cü il yanvar ayının 1-dək olan dövrdə 134 nəfər, 1923-cü il yanvar ayının 1-dən 1924-cü il yanvar ayının 1-dək olan dövrdə 89 nəfər güllələnmişdir. Yeri gəlmişkən qeyd edim ki, V.İ.Leninin rəhbərliyi illərində təkcə Azərbaycanda bu qədər adamın güllələndiyini nəzərə alsaq Rusiyanın digər yerlərində nə qədər adamın repressiyalara məruz qaldığını təsəvvürə gətirmək o qədər də çətin deyildir.

20-ci illərin əvvəllərində təkcə repressiv aksiyalar deyil, eyni zamanda dövlət səviyyəsində həyata keçirilən digər tədbirlər də bu cəmiyyətin demokratikliyindən yox, diktatorluğundan soraq verirdi. Hələ V.İ.Leninin sağlığında müxtəlif partiyaların fəaliyyətinin dayandırılması, müstəqil fəaliyyət göstərən mətbuatın qapanması, varlı təbəqələrin «xırda və ya iri» burjuy adı ilə mal və mülklərinin əlindən alınması, qarət edilməsi və s. dediklərimizə sübutdur. Bundan başqa, klassik irsə, dinə, adət-ənənələrə nihilist münasibət, Azərbaycan Xalq Cümhuriyyəti quranların (hətta qurmayanların) «müsavatçı» kimi təqibi göstərir ki, əslində bu mübarizə iki sistemin, iki rejimin (kapitalizm və sosializmin), eyni zamanda köhnə ilə yeninin, genlə, yaddaşla bolşevizmin mübarizəsidir.

Göründüyü kimi, Stalinə qədər də siyasi repressiyalar, təqiblər, sürgünlər, konslagerlər olmuş və Leninin dövründə də çar imperiyasının yeritdiyi siyasət amansız şəkildə davam etdirilmişdir. Nikolayın və ailəsinin qətli dediklərimizə sübutdur.

Filologiya elmləri doktoru, mərhum Vəli Nəbiyev 30-cu illərin mətbuat materialları əsasında yazdığı bəzi məqalələrində həmin dövrün mənzərəsini verməyə çalışmış və maraqlı elmi-publisist mülahizələr irəli sürmüşdür[38].

Jurnalist Elşad Qocanın MTN-in arxiv materialları əsasında yazdığı «Cəllad etirafı»[39] kitabında 20-30-cu illərdə totalitar rejimin Azərbaycanın müxtəlif sənət və peşə adamlarının başına açdığı oyunlar publisistik bir dillə geniş oxucu kütlələrinə çatdırılır.

Məlumdur ki, totalitar rejimin qurbanları arasında Azərbaycanın folklorşünas alimləri də az olmamışdır. E.Qoca beləl‌ələrindən birinin - Bəhlul Behcətin ağrılı taleyini, indiyədək öyrənilməyən tərcümeyi-hal materiallarını üzərinə «tamamilə məxfi» yarlığı vurulmuş qovluqlardan çıxarıb elmi dövrüyəyə daxil edir[40].

Nazif Ələkbərli də «Günay» qəzetinin 11 iyun 1994-cü il tarixli sayında çap etdirdiyi «Xəyanətə qurban getdi» məqaləsində Mikayıl Müşfiqin repressiya olunmasının səbəblərini istintaq işindən gətirdiyi faktik materiallarla açıb göstərməyə çalışır. İstintaq materiallarına əsaslanan müəl-

[38] Vəli Nəbiyev. Yalanlar, həqiqətlər. «Azərbaycan» jurnalı, 1991, N 3, 1992, N 5-6.

[39] Elşad Qoca. Cəllad etirafı, Bakı, 1999.

[40] «Sərhəd» qəzeti. 6 fevral, 1998, N 4 (208).

lif göstərir ki, M.Müşfiqi «Banditlər», «Ədəbiyyat nəğməsi» və «Mingəçevir» əsərlərində əksinqilabi-millətçi mövqedə durduğuna, eləcə də əksinqilabi millətçilərlə yaxın olduğuna və onların bəziləri ilə dostluq etdiyinə görə ittiham etmişlər. Müşfiqin istintaq işindəki bəzi faktları açıqlayan müəllif öz fikirlərini belə ümumiləşdirir: «Əhməd Cavad və Mikayıl Müşfiq olmayan günahlarını boyunlarına aldılar... Təsadüfi deyil ki, 1956-cı ildə günahsızlar mövzusu meydana çıxarkən ilk dəfə yada düşən Müşfiq oldu. Bu ad günahsızlığın, paklığın, sənətkar faciəsinin rəmzi oldu»[41].

Yeri gəlmişkən qeyd etməliyik ki, bəzi tədqiqatlarda və jurnalist araşdırmalarında repressiya qurbanlarının sayı məsələsi gündəmə gətirilir. Araşdırmalarda bu rəqəmin nə qədər olduğu göstərilmir və onların konkret sayının MTN-in arxivindən çıxacağına ümid bəsləyirlər. Lakin nə qədər adamın repressiyarala məruz qaldığını və onların Azərbaycanın hər hansı bir arxivindən çıxacağına ümid bəsləmək doğru deyildir.

**Əvvala,** repressiv aksiyaları yalnız Fövqəladə Komissiya, Dövlət Siyasi İdarəsi və ya Xalq Daxili İşlər Komissarlığı həyata keçirmirdi. 1920-ci illərin əvvəllərindən repressiyaları başında Ponkratov dayanan Xüsusi Şöbə, prokurorluq orqanları, hərbi tribunallar və digər qurumlar da həyata keçirir və onlar bir-birinə hesabat vermirdilər.

**İkincisi,** güllələnənlərin heç də hamısı siyahıya alınmır və ya onların hamısı istintaqa cəlb edilmirdi. Daha doğru-

---

[41] «Günay» qəzeti. 11 iyun, 1994.

su, onlar arasında istintaqsız və sorğu-sualsız güllələnənlər də vardı.

**Üçüncüsü,** sürgün olunanların böyük əksəriyyətinin sənədləri, bu gün belə, Milli Təhlükəsizlik Nazirliyinin arxivində qorunub saxlanılmır.

**Dördüncüsu,** indiyə kimi sürgün yerlərində doğulan uşaqların (onlar da repressiya qurbanıdır – C.Q.) qeydiyyatı da aparılmamışdır.

**Beşincisi,** minlərlə adam üsyanlar zamanı güllələnmişdir ki, onlar da repressiya qurbanı kimi heç harada qeydiyyatdan keçməmişdir.

Repressiya qurbanları ilə bağlı yazılmış hər üç dövrün materialları 1920-1950-ci illərin totalitar rejimini dərindən öyrənmək və təhlil etmək, eləcə də tariximizə və taleyimizə vurulmuş zərbə və zədələrin yaddaş silsiləsini tamamlamaq baxımından olduqca əhəmiyyətlidir.

Bütün bunlara baxmayaraq, siyasi repressiyanın həyatdakı ağır nəticələri və onun ədəbiyyata, mədəniyyətə təsiri problemi mövcud ədəbiyyatşünaslıqda hələ də bir sistem halında araşdırılmamış, ayrıca ideya-bədii və fəlsəfi-estetik bir problem kimi öz nəzəri-metodoloji və konseptual elmi qoyuluşunu və həllini tapmamışdır.

# II FƏSİL

# Sovetləşmə illərində Azərbaycan ədəbiyyatında milli istiqlal ideyaları. Bədii dəyərlər və ədəbi nəsillər arasındakı münasibətlər «mədəni inqilab» ərəfəsində

## 1. İstiqlal düşüncəsi və ədəbi nəsillər

Azərbaycan ədəbiyyatında istiqlalın izləri və qaynaqları qədim dövrlərdən - mifdən, eposdan, folklordan, eləcə də romantik və realist ədəbiyyatdan gəlsə də özünün kamilləşmə, mücadilə səviyyəsinə qalxma prosesi (tarixi-xranoloji zaman ardıcıllığı baxımından) Türkmənçay-Gülüstan sülh müqavilələri - Azərbaycanın parçalanması, zorla Rusiyaya və İrana birləşdirilməsi dövrünə təsadüf edir. Məlumdur ki, Azərbaycanın mübariz oğullarından olan Cavad xan rus istila və irticasına qarşı çıxmış və uzun müddət çar Rusiyası ilə xalqın milli «mən»i və istiqlaliyyəti uğrunda mübarizə apararaq qəhrəmanlıqla həlak olan ilk şəhidlərdəndir. Lakin uzun illər Cavad xan (həm çar, həm də sovet imperiyası tərəfindən) xalqına xəyanət edən, onun iradəsinə qarşı çıxan bir şəxs kimi təbliğ edildiyindən, təqdir olunmasına qadağalar qoyulduğundan onun apardığı mübarizəyə milli şairlərimizin münasibəti indiyədək tədqiqatlardan kənarda qalmışdır. Faktlar göstərir

ki, xalq yaradıcılığında və milli ruhlu şairlərin əsərlərində Cavad xanın apardığı bu istiqlal mübarizəsi daim təqdir edilmişdir. Gəncədə törədilən vəhşiliklərə qarşı etiraz səsini ucaldan şair Gəncəli Həsən Cavad xanın öldürülməsi ilə Gəncənin belinin qırıldığını bildirir və ürək ağrısı ilə yazırdı:

Bayraqları bürc üstündə qurdular,
O zaman ki Cavad xanı vurdular,
Tifil uşaqları, hamını qırdılar,
Sanasan qırıldı beli Gəncənin.

Gəncəli Həsənin bu fikirlərini Gəncə hadisələrinin şahidi olmuş Əbdürrəhman ağa Dilbazov da təsdiqləyir. O, «Gəncə qırğını»[42] şeirində Gəncə hadisələrini Kərbəla faciəsi ilə müqayisə edir və bu qırğının ruslar tərəfindən törədildiyini bildirirdi:

Ey qazilər, gəldi qəzadan bəla,
Üz verdi qəzayi-dəşti Kərbala
Bir olmaz müsibət dövran eylədi
Rus Gəncə şəhərini viran eylədi.

Şair Azərbaycanın çar Rusiyasına birləşdirilməsinə qarşı üsyan edən Cavad xandan mələklərin də razı qaldığını bildirir və digər xanların onunla birləşmədiyini təəssüflə yad edirdi:

---

[42] Salman Mümtaz. «El şairləri». Bakı, 1927, səh. 62.

Cavad xandan oldu mələklər razı,
Xəbərdar olmadı cəngavər qazi,
Pozulmaz qəzadan yazılan yazı
Nə bir kömək Şəki, Şirvan eylədi.

Azərbaycan şairləri tərəfindən istiqlal savaşına qoşulmuş Cavad xanın müdafiə edilməsinin özü bir daha təsdiq edir ki, o dövrün ziyalıları Azərbaycan xalqının və Azərbaycan torpaqlarının Rusiyanın əsarəti altına keçməsinə etiraz etmişlər.

Sonrakı illərdə də çar Rusiyasının vəhşiliklərinə qarşı mübarizəyə qoşulan milli ruhlu şairlər - Qasım bəy Zakir, Ağa Məsih Şirvani, Mustafa ağa Arif və başqaları həbs edilərək sürgün olunmuş, müxtəlif fiziki-mənəvi təqiblərə məruz qalmışlar.

Çar üsul-idarəsinin haqsızlıqlarına etiraz edən şair Qasım bəy Zakir sürgündə yazdığı şeirində qürbətdə sürdüyü həyatın ağırlığını durnalara xitabən belə ifadə edirdi:

Diyari qürbətdə müddəti varam,
Mən də sizin kimi qəribi zaram.
Gecə-gündüz vətən deyib ağlaram,
Eyləməyin məndən haşa, durnalar.

A.Bakıxanov, M.F.Axundov və H.Zərdabi ilə çar Rusiyasının təsiri altında olmağa qarşı etirazın yeni, həm də təkrarsız bir mərhələsi başlandı: «O dövrkü millətpərvər cərəyanın ilk nümayəndələri Abasqulu ağa Bakıxanlı, Həsən bəy Zərdabi və Mirzə Fətəli Axundov idilər. Birinci

Azərbaycan tarixinin ilk eskizini cızarkən, ikinci milli Azəri türk mətbuatını yaratdı, Mirzə Fətəli də komediyaları ilə Azəri türkcəsinə milli bir dil həyatını verdi. Bu üç böyük Azərbaycan ziyalısının, şübhəsiz, Azərbaycan milli hərəkatı tarixində inkaredilməz və izi silinməz xidmətləri vardır»[43].

XIX əsrdə Azərbaycanda milli istiqlal düşüncəsinin başında dayanan Mirzə Fətəli «Təmsilat»ı ilə milli dramaturgiyanın əsasını qoydu və milli teatrın intişarına təkan verdi. Milli teatr xalqın milli «mən»inin və özünüdərkin təşəkkülündə mühüm rol oynadı. «Kəmalüddövlə məktubları» və «Aldanmış kəvakib»lə dövlətçilik və idarəçilik ənənələrinin əsasını qoydu. «Kəmalüddövlə məktubları»ndan bəhs açan professor Y.Qarayev yazır: «Müəllif Şərqin siyasi, iqtisadi və dövlət geriliyinin ictimai və mənəvi-əxlaqi səbəblərini sübutlu-dəlilli bir şəkildə aşkara çıxarmaq yolu ilə hər bir şərqlini oyadıb düşündürmək vəzifəsini qarşıya qoyur»[44].

M.F.Axundov bir maarifçi kimi əsərlərində xalqı, onun taleyini daima mərkəzə çəkir. Hətta «Aldanmış kəvakib»də də aldanmış ulduzlardan yox, aldanmış talelərdən, aldanmış kütlələrdən, aldanmış xalqdan bəhs açır. O, Yusif Sərraca - xalqa gələn bəlanın köklərini göylərdə, «kəvakiblər»də yox, yerdə, rejimdə, şahlıq idarə üsulunda arayıb-axtarır.

---

[43] Əhməd Cəfəroğlu. «Azərbaycan ədəbiyyatında istiqlal mücadiləsi». İstanbul, 1932, səh. 63.

[44] Azərbaycan Xalq Cümhuriyyəti. (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), Bakı, «Elm», 1998, səh. 26.

Axundov əsrində yaranan və fəaliyyət göstərən Azərbaycan milli mətbuatı da onun estafetini davam etdirdi. İlk milli mətbuatımız olan «Əkinçi» xalqa əkinçilik dərsi keçmədi, onun maarif və mədəniyyətə yiyələnməsi uğrunda mübarizə apardı, milləti milli ruhda tərbiyə, Şərqdə və dünyada baş verən ictimai-siyasi hadisələrlə tanış etməyə başladı. Ona görə də tezliklə qapandı. Özündən sonra gələn «Kəşkül» və «Ziya» qəzetləri də həmin funksiyanı icra etdiklərindən eyni taleyi yaşadılar.

XX əsrə «Şərqi Rus» qəzeti ilə daxil olsaq və xeyli mətbuat nümunəsi yaratsaq da onların hər birinin millətin tarixində və taleyində bu və ya digər dərəcədə oynadığı müsbət rolu inkar etmədən, demək olar ki, ədəbi məktəb yaratmaq səviyyəsinə «Molla Nəsrəddin» və «Füyuzat» yüksəldi. Bir tərəfdə Mirzə Cəlil, Sabir və onların məslək dostları, digər tərəfdə isə Əli bəy Hüseynzadə, Əhməd bəy Ağayev, Məhəmməd Hadi, Hüseyn Cavid yetişdi və bunlar milləti milli oyanışa səslədilər. Milli oyanma prosesi gücləndikcə hürriyyət və istiqlaliyyət uğrunda mübarizə də geniş miqyas aldı. «Ədəbiyyatda istiqlal məfkurəsi 1905 və 1917-ci illərin ilk inqilabı və Azərbaycan Xalq Cümhuriyyətinin təşəkkülü ərəfəsində daha da güclənir. Hətta üç rəngli bayraq da cəmiyyətdən, dövlətdən əvvəl poeziyanın səmasında dalğalanmağa başlayır və milli ədəbiyyatda ilk poetik «Azərbaycannamə» elə bu vaxt yaranır»[45].

---

[45] Azərbaycan Xalq Cümhuriyyəti. (ədəbiyyat, dil, mədəniyyət quruculuğu), Bakı, «Elm», 1998, səh. 12.

Verdiyimiz qısa şərhdən də görünür ki, əsrlərlə xalqın mənəvi-psixoloji enerjisini hərəkətə gətirən, onu müstəqilliyə və istiqlal savaşına hazırlayan proses XX əsrin əvvəllərinədək daha çox ədəbi həyatda, bədii hərəkatda çağdaş əsrin birinci onilliyindən sonra isə cəmiyyətdə, ictimi-siyasi həyatda vüsət aldı. Bu vaxtadək ədəbi həyatda milli müstəqilliyə doğru meylin üç istiqaməti müşahidə olunurdu: türkləşmək, islamlaşmaq, müasirləşmək.Özünə qədər bir çoxlarının parçaladığı və hər hissəsini ayrılıqda götürdüyü bu formula Əli bəy Hüseynzadə vəhdətdə və bütövlükdə yanaşdı, eyni zamanda inandırdı ki, «türkləşmək, islamlaşmaq və müasirləşmək» düsturundan kənarda türk müstəqilliyi və istiqlaliyyəti yoxdur. Bu ideyanı M.Ə.Rəsulzadə daha da inkişaf etdirdi və həyata keçirdi. Azərbaycan Xalq Cümhuriyyətinin fəlsəfi-nəzəri dövlətçilik konsepsiyası və milli simvolikası da, əslində, bu vahid formuldakı üç tərkib hissədən doğdu. Bu formul özünün ən bariz ifadəsini milli bayraqda və dövlətin digər atributlarında tapdı.

İndiyədək sovet ədəbiyyatşünaslığında belə bir fikir formalaşdırmağa çalışmışlar ki, XIX əsrin sonu XX əsrin əvvəllərində (hətta ondan çox-çox əvvəl) yaranan ədəbiyyatda guya xanların, bəylərin, zalımların tənqidi və ifşası sosializmin müdafiəsinə xidmət edirdi. Əslində

İmzasını qoymuş miləl övraqi-həyatə
Yox millətimin xətti bu imzalar içində...

- deyən M.Hadi millətinin xəttini imzalar içərisində görmək üçün sovetlər birliyini deyil, Vətəninin müstəqilliyini arzulamışdır.

Bir mürğ qədər, ey vətənim olmadın abad,
Bir quş qədər, ey xaməciyim, olmadın azad.
Bir gül qədər olsun, dodağın olmadı xəndan,
Ey qonçeyi-xoşbuyu səfapərvəri-vicdan.
Zülmün küləyi əsdi də soldurdu yanağın,
Eyvah ki, pamalü xəzan oldu da bağın,
Şahbaz kimi, söyləməm ülviyyətimiz yox,
Kuçik kəpənəkcə belə hürriyyətimiz yox.

Vətəninin kiçik bir kəpənək qədər azadlığa malik olmadığını dərk edən bütün şairlər öz əsərlərində bu problemi daha çox qabardaraq milləti oyanışa çağırırdı. Bu çağırış təkcə çar istibdadından qurtarmaq deyil, eyni zamanda yuxarıda deyildiyi kimi Vətəni, eləcə də milləti azadlıq və istiqlaliyyətə çağırış idi. Azadlıq və istiqlaliyyətə çağrışda Azərbaycanın ziyalıları şeir və sənət adamları demək olar ki, eyni amala və eyni məsləkə xidmət edirdilər. Bu illərin ədəbiyyatında vətən və millət mövzusu başqa mövzuları üstələmişdir.

Şişə çəksəz də diriykən ətimi,
Atmaram vətənimi, millətimi.

Bu təkcə A.Səhhətin deyil, içində Vətən və millət yanğısı olan hər bir sənətkarın müqəddəs andıdır. Şübhəsiz

ki, millətə xalqa və vətənə xidməti qələmin müqəddəs vəzifəsinə çevirənlər belə bir and içməli idilər. Əsrin əvvəllərində yazıb yaradan sənətkarların böyük əksəriyyəti Vətənin azadlığını haqlı olaraq millətin və milli şüurun oyanışında görürdülər.

A.Səhhət 1906-cı ildə yazırdı:

Ayıl, ey ümməti-mərhumə ayıl!
Ayıl, ey milləti-məzlumə ayıl!

Satirik M.Ə.Sabir 1906-cı ildə yazırda:

Laylay bala laylay,
Yat qal dala laylay.

A.Səhhət 1907-ci ildə yazırdı:

Oyan, ey milləti-əziz oyan!
Sənə vabəstədi nicati-vətən

1908-ci ildə M.Hadi yazırdı:

Ayıl ey xabə dalmış, yatma istibdad altında,
Vətən ifnayə getmək istəyir bidad altında

1910-cu ildə A.Şaiq yazırdı:

Əldə etmək üçün böyük əməli,
Qorxmayın, cürət ilə qalxışınız.
İrəli, qəhrəmanlarım irəli!

XIX əsrdən fərqli olaraq XX əsrdə millətə və xalqa xitab tamamilə yeni, daha dəqiq desək siyasi çalar aldı, fərdləri, əhalini oyatmaq yox, bütövlükdə milləti ayağa qaldırmaq, özünüdərk edərək «zalımın atasına od vurmaq» ideyasını irəli sürdü və onun başında dayanaraq bu işin həyata keçirilməsinə nəzarət etdi.

Beləliklə də, bədii-fəlsəfi düşüncədə, milli mətbuatda, təhsil və teatr hərəkatında, bütünlükdə o illərin maarifçilik təsisatlarında formalaşıb milli miqyasda bərqərar olan **AZƏRBAYCANÇILIQ** ideyası öz real bəhrələrini verdi. Şərqdə ilk milli demokratik dövlət, milli-mədəni və sosial fəlsəfi ənənə, realist və romantik - maarifçi konsepsiya ilə hazırlandı, mənəvi stixiyaya yad mühitdən süni şəkildə «import» edilən vulqar bolşevik doktrinası ilə məhv edildi. Bolşevikləşmədən dərhal sonra ədəbiyyat və sənət adamlarının proletar mədəniyyətinə yiyələnmələri üçün dövlət və hakim partiya diktaturası səviyyəsində hərtərəfli təşkilati-ideoloji proqram hazırlandı və qlobal-strateji miqyasda, planlı-nizamlı şəkildə həyata keçirilməyə başlandı.

Bunun üçün bolşeviklər, birinci növbədə illər və nəsillər arasında tarixi irsiyyəti, varis-irs estafetini, mənəvi vəhdəti, sosial-mədəni harmoniyanı qırmağa və pozmağa başladılar. İllər və nəsillər arasındakı harmoniya pozulduqca sənətdə bir xaos, boşluq yarandı. Yeni nəsil öz müəllimindən öyrənmək və onun təcrübəsindən bəhrələnmək əvəzinə ona həqarətlə yanaşdı. 20-ci illərin əvvəllərindən gənc yazıçıda ustaddan, əcdaddan sənətdə isə klassik qaynaqdan, yaddaşdan, kültürdən, kökdən, ənənədən ayrı

düşmək meyli gücləndi. Hətta gənc və yaşlı nəsillər arasında qarşıdurma, sənətdə və həyatda bir-birini ittiham müşahidə edilməyə başladı. Gənc yazarların özlərini də iki qrupa böldülər: «Bizdə bugünkü gəncliyimizi iki qrupa bölmək doğru olar. Birinci qrup məmləkətdə vücuda gələn ictimai inqilabın nəticəsində köylü və işçilərin içindən, özündən və ruhundan çıxan bir gənclikdir... İkinci qrup isə sovet məktəblərində, qız və oğlan müəllim məktəblərində, darülfünunda oxuyan və bəzən də komsomol təşkilatlarında çalışan xırda dükançı balaları, iflas etmiş tüccar cocuqları, sovet işçiləri, müəllimlər və bəzən kiçik mülk sahibləri ilə əski ziyalıların balalarıdır»[46].

Əski yazıçıların və onlarla əlaqəsi olan gənc ədəbi qüvvələrin yaradıcılığı sənətkarlıq baxımından təqdir edilsə də, ortaya çıxardıqları ədəbi məhsullar «vaxtı keçmiş», «elastiki ideologiya ilə dolu» nümunələr kimi məqsəd, məram və məfkurələri şübhə altına alınmışdır: «Bu gənclik, sənət nöqteyi-nəzərincə müsbət bir vəziyyətdə olduğu halda, ideologiya və mövzu etibarı ilə qeyri-qəti və mənfi bir yolla davam edirlər. Bu qrupun aynası olan Cavid-Cavad ədəbiyyatındakı böhran, şübhəsiz ki, öz balasına da təsir etmiş və bu qrupun ədəbi fəaliyyəti də böhran halını da keçirir. O öz cəbhəsini təyin edə bilmədiyi kimi, içərisində həm ilk, həm də ikinci qrupa mənsub olanları topladığı kimi hər ikisinə də eyni rəğbətlə bağlı və əlaqədar

---

[46] Əli Nazim. Bugünkü ədəbiyyatımız haqqında, «Maarif və mədəniyyət» jurnalı, 1926, № 9, səh. 23.

olanları da vardır. Bunlara «gənc poputçiklər» adı vermək daha müvafiq olur zənnindəyik»[47].

Əli Nazim bu iki gənclik arasındakı fərqi belə izah edirdi: «Bu iki qrup hər ikisi də yeni bir gənclikdir. Yalnız aralarındakı fərq, brinci qrup gəncliyin içindən çıxdığı sinfin bütün ideologiyasını yaxşı qavraya bildiyi və yeni quruluşun ən səmimi və dərin tərəfdarı və müdafiəçisi olduğu halda, ikinci qrupun öz sinfi quruluşuna görə əski ziyalılıq zehniyyətindən uzaqlaşmamış və yeni ideologiya ilə əskisinin arasında mütərəddid bir halda qalmış olmasıdır[48].

Məqsəd Azərbaycanın gənc ədəbi qüvvələrini işini marksist-leninçi platformaya uyğun qurmuş «qızıl qələmlər»ə və digər təşkilatlara cəlb etmək, sosializm cəmiyyətini təbliğ etmək, vahid sinfi platformada dayanmaq və gənc qızıl qələmlərin, eləcə də «ədəbiyyatın bir səhifəsinin embileması» (Ə.Nazim) hesab edilən «Ələmdən nəşəyə» tipli sənət nümunələri yaratmaqdan və sənəti guya «əski ədəbiyyat nəslinin çürük fəlsəfələr, bədbin düşüncələr, xəstə duyğular, matəmli baxışlar və acı-ümidsiz gülüşlər»dən (Əli Nazim) təmizləməkdən ibarət idi.

Yaşlı nəslin nümayəndələrinin bəziləri yeni dövrün ədəbi-bədii dəyərlərini tədricən hazır stereotip, şablon və model kimi qəbul etsələr də, bir çoxu öz sənət kredosuna sadiq qalaraq bu sterotiplərdən və şablonlardan qaçır, sosialist realizm prinsiplərindən doğan günün, dövrün de-

---

[47] Əli Nazim. Bugünkü ədəbiyyatımız haqqında, «Maarif və mədəniyyət» jurnalı, 1926, № 9, səh. 23.

[48] Yenə orada.

yil, mənəvi-əxlaqi yaddaşa söykənən, klassik adət-ənənələrdən qaynaqlanan, sosialist qəlibinə sığmayan zamanın ədəbiyyatını yaratdılar.

Elə ona görə də sovet bolşevik təlimi xalqa, millətə və bir amala xidmət edən sənət adamları arasında mürtəce və mütərəqqi yazıçı anlayışlarını yaratdı. Həm də bu anlayış olaraq qalmadı, xalqı milli qürurlu «mürtəcelərə» qarşı qoymağa çalışdılar, onları daha çox millətçilikdə - türkçülükdə və islamçılıqda ittiham etdilər.

İctimai-əxlaqi təfəkkürü, milli özünüdərkin tamlığını və bütövlüyünü, müstəqil, demokratik Azərbaycanla yeni «sosialist» Azərbaycanın ədəbiyyatları arasındakı fərqi və ümumiliyi, ənənə, irs, gen, yaddaş əlaqələrini və əlaqəsizliyini görmək baxımından o dövrdəki ədəbi prosesin təhlili göstərir ki, 20-50-ci illərdə Azərbaycan ədəbiyyatı iki istiqamətdə inkişaf etmişdir:

**I. Heç bir ənənəsi olmayan, zorla yeni cəmiyyətin ideoloqu elan olunan sovet ədəbiyyatı** yaradanların əsas qayəsi yeni cəmiyyəti təbliğ etmək və onun tarixdə, dünyada bərabəri olmadığını sübuta yetirmək idi. Yeni ədəbiyyatı yaradanlardan (istər poeziya, istər nəsr, istərsə də dramaturgiya sahəsində) əsasən aşağıdakılar tələb olunurdu.

1. Keçmişi ittiham etmək, sovet cəmiyyəti ilə burjua cəmiyyəti arasında paralellər aparmaq və qeydsiz-şərtsiz üstünlüyü yeni ədəbiyyata vermək.

2. Müasir, ideyalı, sinfi, partiyalı yazıçıya çevrilə bilmək və hər sahədə bolşevik ehkamını rəhbər tutmaq.

3. Yeni həyatı, cəmiyyəti, məişəti, əxlaqı marksist-leninçi platformadan əks etdirmək.

4. Yeni cəmiyyəti «tarixi inkişaf və perespektivdə», sosializmin bütün dünyada mütləq qalib gələcəyi mövqeyindən, mütləq pozitiv pafos rakursundan təhlil etmək.

5. Dünya imperializminə meydan oxumaq, pantürkist və panislamist meylləri ifşa etmək.

6. Milli «mən» və milli şüuru «formaca milli, məzmunca sosialist» modelinə, qəlibinə, stereotipinə salmaq...

20-ci illərdə bu tələbləri həyata keçirmək o qədər də asan deyildi. Çünki həmin illərdə ədəbiyyata başçılığı milli məfkurəyə malik olan yaşlı nəslin nümayəndələri edirdi və onların təfəkküründə milli istiqlaliyyət, müstəqil yaşamaq düşüncəsi daha güclü idi. Yaşlı nəsli, xüsusilə də H.Cavid və Ə.Cavad kimi artıq şöhrət zirvəsində olan sənətkarları sosialist realizminin tələblərinə ideya cəhətdən hazır olmamaqda, «iri», yaxud «xırda» burjua dünyagörüşündə, cəmiyyətə, tarixə, sosial tərəqqiyə münasibətdə, marksist-leniniçi prinsiplər səviyyəsinə yüksələ bilməməkdə, «formaca milli, məzmunca sosialist» stereotipinə uyğunlaşmamaqda, milli hiss və duyğuları qoruyub saxlamaqda günahlandırdılar. Əslində H.Cavid və Ə.Cavad artıq bir dəfə istiqlalın qələbəsinə - Xalq Cümhuriyyətinin yaranmasına gətirib çıxarmış milli istiqlal hərəkatını hazırlayan mütəfəkkir ideoloq sənətkarlardan idilər və öz sənətləri ilə yenə də gəncləri Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə sövq və təşviq edirdilər. Bunu görən bolşeviklər çalışırdılar ki, gənc nəsli onlardan qorusunlar, yeni və əski ədəbi nəsilləri bir-birindən uzaqlaşdırsınlar.

Yaşlı nəsillə hakim ideologiya arasında ixtilaf güclü idi: «Bunun əksinə olaraq, yeni siyasi-ideoloji iqlimlə yeni nəslin - o vaxt cavan, «komsomol» şairlərin ovqatı və əhvalı arasında tam bir uyğunluq hökmfərma idi. Köhnə dünyanı kökündən uçurmaq, məzarlar, uçuqlar, xarabalar üzərində yeni dünya qurmaq həm hakim ideologiya, həm də cavan poeziya, dramaturgiya və nəsr üçün ümumsiyasi eyforiya, şərikli bədii-estetik pafos və təlim idi»[49].

Bu da inkaredilməz bir faktdır ki, 20-ci illərdə türk ədəbiyyatı və mədəniyyətinin Azərbaycan ədəbiyyatı və mədəniyyətinə güclü təsiri hələ davam edirdi. Belə ki, M.F.Köprülüzadənin «Azəri ədəbiyyatına aid tədqiqlər» (1926), İ.Hikmətin «Azərbaycan ədəbiyyatı tarixi» (1928) kitabları milli şürun formalaşmasında az rol oynamamışdı. Doğrudur, bu ədəbiyyatlar marksist platformadan yazılmadığına görə Azərbaycan tənqidçiləri tərəfindən tənqid hədəfinə çevrilmişdir, lakin «Vahid türk ədəbiyyatı» konsepsiyası dövrün milli tendensiyalı sənət adamları tərəfindən gizli şəkildə də olsa inkişaf etdirildi. Bu əsərlərin S.Hüseyn, H.Zeynallı, Ə.Abid, Ə.Nazim və s. kimi görkəmli tənqidçilərin diqqətini çəkməsi göstərir ki, onların müəllifləri Azərbaycanda böyük nüfuza və təsir gücünə malik olmuşdur. Bu ədəbiyyatlardan daha çox yaşlı nəslin nümayəndələri qidalanmış və əsərlərində türkçülük ideyalarını qabarıq şəkildə olmasa da, rəmzlər və simvollarla verməyə çalışmışlar. Bolşeviklərin əsas məqsədi də milli

[49] Y.Qarayev. Tarix: yaxından və uzaqdan. Bakı, «Sabah» nəşriyyatı, 1996, səh. 48.

ideologiyanın inkişafının qarşısını almaqdan, onu türk ədəbiyyatının təsirindən çıxarıb sosialist, bolşevik rus ədəbiyyatının və mədəniyyətinin təsir dairəsinə salmaqdan, marksistləşdirməkdən ibarət idi. Ehkamçı, vulqar ədəbiyyat ideoloqları bu mübarizəni ədəbi nəsillər arasından yeni və köhnə cəmiyyətlər arasında mübarizə səviyyəsində ümumiləşdirirdilər: «1919-cu il Azərbaycan tarixində murdar bir ləkədir. Əksinqilabçı burjua mülkədar firqəsi olan «Müsavat», bir yığım avantürist və bəy Azərbaycanı idarə etməyə başlayır. Müsavatçılar öz qısa müddətli hakimiyyətləri zamanında ölkənin bütün təsərrüfatını dağıtmış, köhnə mütləqiyyət hökumətinin bütün qaydalarını müdafiə etmişlərdir. Müsavatçılar hakimiyyəti türk ədəbiyyatı tarixində ilan zəhri ilə dolu səhifələr buraxmışdır. Ədəbiyyat səhnəsinə bəy və burjuanın yaltaq nökərləri olan, milli ədavəti tərənnüm edən və alovlandıran, istedaddan məhrum adamlar çıxırlar»[50].

Azərbaycan Xalq Cümhuriyyətinə münasibət 30-cu illərin istintaq materiallarında, müttəhimlərin ifadələrinin stenoqramalarında da öz əksini tapırdı. Müttəhimləri məcbur edirdilər ki, həmin dövrü xarakterizə etsinlər, kamera mühitində olan hər hansı bir şəxsin isə müsavata və müsavat hökumətinə münasibətinin necə olacağını başa düşmək o qədər də çətin deyil: «Müsavat partiyasını mən əksinqilabçı, iri və xırda burjuaziya, ümumiyyətlə kapitalist elementlərinin partiyası hesab edirəm. Bu partiya və onun fəaliyyəti Azərbaycan zəhmətkeş kütləsinin maraqlarının

[50] M.K.Ələkbərli. Azərbaycan ədəbiyyatı. Bakı, 1935, səh. 20.

əleyhinə istiqamətlənmişdir, onlar hakimiyyətdə olarkən bu kütləyə real mənfəət verməmiş və indiki formada təkcə sovet hakimiyyətinin deyil, eləcə də bütün Azərbaycan türklərini düşmənləridirlər. Mən belə hesab edirəm ki, Müsavatın «Azərbaycanın müstəqilliyi» haqqında şüarları həqiqətdə onların əksinqilabi mahiyyətlərini ört-basdır etmək üçündür və inqilab tərəfindən qovulmuş keçmiş sahibkarların maraqlarını əks etdirir»[51].

Dünənə, keçmişə belə nihilist münasibət ədəbiyyatın və sənətin də yönünü, axarını dəyişdi, onu kökdən, əcdaddan, ənənədən, millilikdən uzaq saldı və yeni cəmiyyətin planlı təsərrüfat ədəbiyyatına çevirdi. İ.Mirzənin «Mübarizə» adlı şeirində olduğu kimi:

Sıramıza zərbəçi işçilər dolmalıdır,
Bizim şah əsərimiz 5 illik olmalıdır.

Göründüyü kimi, «pambıq», «plan», «kolxoz», «beşillik» sənətin təbliğat, «qolçomaqlara», «antisovetçilərə» ölüm şüarı isə hədəfinə çevrildi. Sənətdən və sənətkardan insanların ah və fəryadı, çəkdikləri zillət və istirablar, onların tragik-dramatik taleyi deyil, bu mənzərəni daha da tündləşdirən fabrik və zavodların gurultusunu, vahiməsini, ekaloji tarazlığı pozan tüstüsünü, dumanını gözəllik rəmzi kimi təsvir etmək tələb olunurdu: «Şeirimizin çoxu köhnə ahənglə səslənir. Fabrik-zavodların gurultusu, şaq-

[51] MTN-in arxivi. Atababa Musaxanlının istintaq qovluğu, PR - №23294, səh. 11.

qıltıları hələ bizim şairlərimizin heç birinin misralarında öz əksini tapmamışdır»[52].

Pambıq və neft 20-50-ci (eləcə də sonrakı) illər ədəbiyyatının baş mövzusu, baş qəhrəmanı hesab olunurdu: «Şairlərimiz Azərbaycanın neft, zərbəçi neft işçisi, pambıq, zərbəçi pambıq işçisi kimi əsas temalarına layiqli dərəcədə diqqət yetirmirlər»[53]. Həmin dövrün tənqidi bunun əsas səbəbini sənət adamlarının marksist-leninçi metodologiyanı dərindən bilməməsi ilə əlaqələndirirdi: «Bu noqsanların əsas səbəbi şairlərin marksizm-leninizm silahı ilə silahlanmalarının aşağı səviyyədə olması, onların sosializm quruluşu praktikasında kifayətsiz dərəcədə iştirak etmələri, mədəniyyətcə aşağı səviyyədə olmaları, milli və xüsusilə dünya ədəbiyyatının mədəni irsindən tənqidi surətdə istifadə etmələrinin zəif olmasından ibarətdir»[54].

Yeni və köhnə cəmiyyət kimi, əski və cavan ədəbiyyat arasında da paralellər aparılır, üstünlük heç bir ənənəyə söykənməyən yeni yaranana verilirdi: «Əski ədəbiyyatın qayəsi yalnız insanların hissiyyatını qıcıqlandırmaq, onların qəlbində bədii bir həyəcan oyandırmaq idi. Əxlaqdan, həqiqətdən, məntiqdən, bəhs olunmurdu; çünki əski ədəbiyyatın bunlarla heç bir bağlılığı olmadığı iddia edilirdi. Halbuki yeni ədəbiyyatın, yeni ədəbiyyatçılığın üzərinə çox böyük bir vəzifə də düşür ki, bunu əski ədəbiyyatda görə bilmərik. Bu da psixolojiləri tərbiyə etməklə gələcək cəmiyyətə yaxınlaşdırmaqdan ibarətdir»[55].

---

[52] M.Hüseyn. «Əsərləri». 10 clddə, IX cild, Bakı, «Yazıçı», 1979, səh.33.

[53] M.K.Ələkbərli. Azərbaycan ədəbiyyatı. Bakı, 1935, səh. 25.

[54] Yenə orada.

[55] Əli Nazim. Ədəbiyyatmı, xalqmı? «Yeni yol» qəzeti, 28 dekabr, 1924.

Klassik ədəbiyyatdakı didaktikanı, onun insanların mənəvi-əxlaqi və pisixoloji cəhətdən kamilləşməsi uğrundakı mübarizəsini görməmək və ya qəsdən pərdələmək, ədəbi irsə nihilist münasibət bəsləmək hər şeydən öncə bolşevizmin xarakterindən, irs-varis əlaqələrinə yanaşma metodundan gəlirdi.

«Psixolojiləri tərbiyə»nin ədəbi nəsillərə daha çox aidiyyatı var idi. Həqiqətən də, ədəbi nəsillər arasında yeni cəmiyyətin prinsiplərini qəbul etməyən, daim mübarizə aparan, həbsdən, sürgündən qorxmayan, sovet cəmiyyətinin mədhiyyəçisinə, qrammofonuna, robotuna, manqurduna çevrilməyən sənət adamları az deyildi.

Həmin dövr ədəbiyyatının sovet qolu 70 il sosialist realizm prizmasından kifayət qədər tədqiq və təbliğ (birtərəfli və təhriflərlə olsa da) edildiyindən[56] onun üzərində geniş dayanmağı artıq hesab etsək də, o dövrün yazıçı və rejim, ədəbiyyat - həyat münasibətlərini xüsusilə qabarıq

---

[56] 1. K.Talıbzadə. Ədəbi irs və varislər. Bakı, 1974. Sənətkarın şəxsiyyəti. Bakı, 1978. Tənqid və tənqidçilər. Bakı, 1989. 2. Altay Məmmədov. Azərbaycan ədəbiyyatında hekayə. Kirovabad. 1970. 3. Hidayət Əfəndiyev. Azərbaycan bədii nəsrinin tarixindən. Bakı, 1963. 4. Mehdi Məmmədov. Azəri dramaturgiyasının estetik problemləri. Bakı, 1968. 5. M.Məmmədov. Azərbaycan sovet poeziyasında müasirlik. Bakı, 1981. 6. V.Yusifov. Müasir Azərbaycan nəsrində konflikt və xarakter. Bakı, 1979. 7. B.Nəbiyev. Böyük vətən müharibəsi və ədəbiyyat. Bakı, 1977. 8. Ş.Salmanov. Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi. Bakı, 1980. 9. Y.Seyidov. İlyas Əfəndiyev. Bakı. 1975. 10. Q.Qasımzadə. Ədəbiyyatda millilik və beynəlmiləllik. Bakı, 1982. 11. M.İmanov. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı. 1991. və s.

əks etdirən ən səciyyəvi bir nümunə - Böyükağa Talıblının «Erkək Tükəzban» hekayəsi barədə bir neçə kəlmə deməyi lazım bilirik. «Erkək Tükəzban» hekayəsi 1927-ci ildə «Pravda» qəzetinin «Beynəlxalq qadınlar bayramı»na həsr olunmuş sayında yüksək qiymətləndirilmiş və bu əsərin mövzusunun həyatın özündən gəldiyi vurğulanmışdır: «Gənc Azərbaycan kommunist yazıçısı Talıblı, adı çətin tərcümə olunan və bizim «Mujik baba», yaxud «Marqeritovski»yə müvafiq gələn hekayə yazır. Bu hekayədə Talıblı incə bir yumorla yenicə sədr seçilmiş yaşlı bir Azərbaycan qadınının ilk dəfə kənd sovetinə gəlməsini təsvir edir. Talıblının təsvir etdiyi Azərbaycan qadını uydurma olmayıb bu günün sevindirici bir amilidir»[57].

İndiyə qədər Azərbaycan ədəbiyyatı tarixində «Erkək Tükəzban» haqqında xeyli yazılmış, lakin məlum səbəblərdən Erkək Tükəzban həmişə müsbət qəhrəman kimi tədqiq edilmişdir. Erkək Tükəzban kimdir və o sovet ədəbiyyatının yaddaşında hansı əməlləri ilə qalmışdır?

Sovet ədəbiyyatında müsbət qəhrəman, «bacarığı və mərd hərəkətləri ilə kişilərdən seçilməyən», «iyirminci illər nəsrimizdə yaranmış ilk mübariz qadın» kimi təbliğ və təqdir olunan Erkək Tükəzbanın kimliyi barədə müəllif özü aşağıdakıları söyləyirdi: «Gözünü açandan bəri atasından və qardaşlarından kötək qalmamışdı yeməsin, onunla belə yenə özünə qoyulmazdı, hayanda bir adam yığıncağı görsə idi, Tükəzban gərək ora burnunu soxa idi. Hayanda bir səs-küy olsa idi, Tükəzban çərşabın uclarını

[57] «Pravda» qəzeti. 8 mart, 1927.

belinə çarım-çarpaz düyümləyib, oraya yüyürərdi. Kişi oldu, arvad oldu, Tükəzban üçün təfavütü yox idi. Utanmaq bilməzdi, qızarmaq bilməzdi. Yasda, toyda, hamamda, məsciddə, müxtəsər, «hər yanda aşdı, orda başdı», xeyir-şər Tükəzbansız keçməzdi. Qohum-əqraba tamam «bia-bır» olmuşdu. Kənd arasında söz qalmayırdı Tükəzbanın dalınca danışmasınlar. Axır atası təngə-zinhara gəlib, bu «həyasızın başını bir təhər əkdi»[58].

Erkək Tükəzban ailə qurduqdan sonra nəinki bu adətlərini tərgidir, əksinə atasından və qardaşından yediyi kötəkləri xaraktercə sakit ərindən görmədiyindən daha da sərbəstləşir. Erkək Tükəzbanın hərəkətləri kəndin ağsaqqal və ağbirçəklərinin də xoşuna gəlmir. Hətta iş o yerə çatır ki, ağbirçəklər onu öz aralarına buraxmırlar. Şuralaşmadan sonra Tükəzbana başa salınır ki, indi artıq onun «cilovu öz əlindədir», kişilərlə bərabər hüquqa malikdir.

Qadınlar qurultayından qayıtdıqdan sonra heç bir yazı-pozu bilməyən Tükəzban kənd şurasının sədri vəzifəsinə irəli çəkilir. Erkək Tükəzbanın əsil siması da burada açılır. İndiyədək atasından və qardaşından qamçı və kötək yeyən Tükəzban qamçı vuran Tükəzbana çevrilir. Əhali dəyənəklə idarə edən Xudayar bəydən («Danabaş kəndinin əhvalatları») qurtarıb Erkək Tükəzbanın və onun «çubuq hakimiyyətinin» səltənəti ilə rastlaşır. Bu fakt sovet ədəbiyyatşünaslığında nə qədər alqışlansa da bu günün işığında bir həqiqəti də aydın ifadə edir, daha doğrusu həmin cəmiyyətin idarə üsulunu açıb göstərir. 20-ci illərdə

[58] Böyükağa Talıblı. Seçilmiş əsərləri. Bakı, 1983, səh. 33-34.

addımını sovet qanunlarından kənara atanların aqibəti həqiqətən də belə olmuşdur. Həmin cəmiyyətdə tərbiyələndirmə metodu heç bir humanizmə sığmayan həbs etmə, konslager, güllələmə, sürgün, mənəvi işkəncələr vermə metodu olmuşdur. Belə ki, yeni cəmiyyət də, Erkək Tükəzban da əhalini işlətmək və öz qanunlarını həyata keçirmək üçün zora, işgəncəyə üstünlük verir. Erkək Tükəzban kəndin mollasından tutmuş ən yazıq adamına qədər həbsxanaya salır. Cəzalandırma olmadan heç bir iş görə bilmir. Bugün bu hekayənin ən böyük qiyməti də Erkək Tükəzbanın kimlərlə necə, mübarizə aparmasında yox, həmin cəmiyyətin idarə üsulunu açıb göstərməsindədir. Eyni halı biz müəllifin «Qırx zopa» hekayəsində, eləcə də həmin dövrün bir çox gənc yazıçılarının əsərlərində də müşahidə edirik.

Ümumiyyətlə, 20-30-cu illərdə keçmişlə bağlı müsbət nə varsa onun dəyişdirilməsi və inqilabiləşdirilməsi adi hal idi. Məsələn, C.Cabbarlının 1932-ci ilin fevral ayında Azərbaycan SSR Xalq Maarif Komissarlığının kollegiya iclasında etdiyi çıxışa fikir verək: «Əsərlə («Şahsənəm» liberettosu nəzərdə tutulur - C.Q) «Aşıq Qərib» operasının süjeti arasında oxşarlıq vardır. Xalq Maarif Komissarlığının o zaman bu süjeti nə üçün sifariş verməsi məlum olmur. Aşıq feodal xanının qızına vurulur. Lakin xan öz qızı üçün çoxlu pul tələb edir. Aşıq məclisdə oxuyur və paşa ona 40 kisə qızıl verir. Axırda qızı alır. Sonra o Allahın göndərdiyi atın qanadlarında qayıdır və s. Əlbəttə, bəstəkarı qınamırıq, çünki ona belə süjet veriblər. Ancaq biz operanı bu şəkildə səhnəyə buraxa bilmərik.

Hər şeydən əvvəl Allahla bağlı möcüzəli hadisələri çıxarmaq vacibdir. Bir də göstərmək olmaz ki, paşa 40 kisə qızılı ancaq səxavətli olduğu üçün aşığa hədiyyə verir. Qəhrəmanı adi bir aşıq hesab etmək də doğru deyil, əks halda qızı ona verməzlər»[59].

Süjet xəttində ediləcək dəyişikliklər də maraqlıdır: «Zənnimcə elə göstərməliyik ki, Qərib çörək pulu qazanmaq məqsədilə gedərkən aşıqların yarış məclisinə düşür. Orada ədalətsizlik və ağır həyat haqqında mahnılar oxuyur. Bununla da demək istəyirik ki, həyat onun kimi aşıqları necə ağır vəziyyətə salmışdır və s. Bu cür mahnılar paşaya xoş gəlmir və o, aşığın həbs edilməsinə əmr verir. Göstərmək lazımdır ki, yoxsul aşıq axıra kimi də yoxsul olaraq qalır. Qızın məsələsinə gəlincə, onu sadəcə olaraq qaçırmaq və əsəri bununla da bitirmək lazımdır»[60].

Maraqlıdır ki, Aşıq Qəribin özünü də bir inqilabçı, marksist-leninçi kimi verməyə çalışırdılar: «Aşığı isə tam bir inqilabçı və ya şüurlu marksist-leninçi kimi təsvir etməmək qeyri-mümkündür»[61].

Bütün bunlar baş tutmadıqda çalışırdılar ki, heç olmasa məsələləri kolxoz həyatı ilə bağlasınlar: «Əlbəttə, kolxozdan da başlamaq olar. Belə ki, qoca kolxozçu 50 il əvvəl olan hadisəni danışır, əsər tarlada işləyən qadınların təsviri ilə sona çatır... Ancaq buradan bir sual meydana çıxır: qəhrəmanı aşıq kimi saxlamaq lazımdır, yoxsa yox? Mən təklif edirəm ki, onu xanın qızına vurulan bir çoban

---

[59] C.Cabbarlı. Ədirnə fəthi. Bakı, Elm, 1996, səh. 286.

[60] Yenə orada, səh. 286-287.

[61] Yenə orada, səh. 287.

kimi göstərmək və s. Lakin bəstəkar deyir ki, çoban surəti yerinə düşməz, çünki o, musiqini aşıqsayağı yazıb»[62].

Maraqlıdır ki, C.Cabbarlı özü də sifarişli yazılara etiraz edirdi. M.Ə.Rəsulzadə yazır: «O (C.Cabbarlı - C.Q), gənc yaşlarında qüvvət və enerji ilə dolu ikən, 1934-cü ilin sonunda vəfat etdi. Onu dövlət hesabına dəfn etdilər. Azərbaycan komissarları onun tabutu başında növbəyə durdular və bununla onun kommunist deyilkən, kommunistliyi mənimsədiyini göstərmək istədilər. Kommunist olmadığını göstərən hadisələrdən biri də onun Moskvada toplanan ədiblər qurultayında söylədiyi məşhur nitqdir. Bu nitqində o, «Həqiqi sənətkar və yazıçının şanına yaraşmayan sosial sifariş» üsulunun, yəni şairləri hökumət tərəfindən müəyyən mövzularda yazmağa məcbur edilmənin əleyhinə çıxmışdır[63].

Almas İldırım ədəbiyyat cəmiyyətində əsərlərin üzərində bolşevik yazarların «proletar şairləri yetişdirmək» məqsədilə necə əməliyyat apardıqlarını «Bakı xatirələri» məqaləsində bütün çılpaqlığı ilə açıb göstərirdi. Müəllifin «Düşmənə» adlı şeirinin üzərində S.Rüstəmin etdiyi dəyişikliklərə fikir verək: «Bən - Sərlövhəsi «Düşmana»dır.

Süleyman - (çapuq sözümü kəsərək) Hankı düşmana?.. İştə görürsənmi... siyasi yanlışlıq... düşmanı olduğu kibi yazmalıdır.

Bən - Canım bir dur; təbii şeirin mövzuundan anlaşılır - dedim.

---

[62] C.Cabbarlı. Ədirnə fəthi. Bakı, Elm, 1996, səh. 287.

[63] M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, Gənclik, 1991, səh. 72.

Süleyman - Yok, yok... şeirin sərlövhəsi əsasdır. Düşmanın kimlərdən olduğunu yazmalı... Düşman kim?...

Bən - Bəlli ki, duşmanımız birdir. İştə ona qarşı yazılmışdır.

Süleyman - Kim? Kapitalizmmi, imperializmi?... İştə onu yazmalı.

Bən - (artıq onun israr edəcəyini bildiyimdən) - pəki,... dedim və şeiri oxumağa başladım.

«Genə qanlara dolmuş afaqın,
Canavar gözlərində kin parlar.
İti caynaqlı pəncəndə,
Dedilər pək çox ağlayanlar var!»

Süleyman - Öylə, öylə, sərlövhəsini «Kapitalizmə», yaxut da «Qərbə xitab» qoymalısın»[64].

Şeir sərlövhəsindən son misrasına qədər dəyişdirildikdən, düşmənin imperializm və ya kapitalizm olduğu tam aydın, bütün tərəfləri ilə görünəndən, daha doğrusu əsil ünvan və ad dəyişdirildikdən sonra «Ədəbi parçalar»da çapına icazə verilir.

Həmin illərdə ayrı-ayrı şəxsiyyətlər, sovet cəmiyyəti yaradanlar haqqında da kifayət qədər əsər yazılmışdır. Həmin əsərlərdə Sovet hakimiyyətinin qələbəsində az və ya çox dərəcədə xidmətləri olanlar şişirdilərək xilaskar kimi təqdim edilirdi. Məmməd Rahim yazırdı:

---

[64] «Qurtuluş» jurnalı, Berlin, 1936, № 18, səh. 531.

Sən mənim qəhrəman xilaskarımsan
Arxam, öyündüyüm, havadarımsan.
Mən öz gəncliyimi borcluyam sənə
Ömür dincliyimi borcluyam sənə![65]

Göründüyü kimi, sovet ədəbiyyatında həyatın və zamanın yox, yeni cəmiyyətin, rejimin problemləri qaldırılır və ideallaşdırılırdı.

20-50-ci illərin sovet ədəbiyyatı totalitar rejimin diqtəsi ilə yazılan və yaranan sinfi, konyuktur ədəbiyyat idi.

**II. Tarixi ənənələrə söykənən 20-50-ci illərin istiqlaliyyət duyğulu cümhuriyyət ədəbiyyatı.**

Sovetləşmə illərində Azərbaycan ədəbiyyatında azad vətən və azad millət yanğısı daha da güclənmişdi. Bizcə, bu problemin özünə də iki aspektdən yanaşılmalıdır.

Mühacirətdə olanlar və Azərbaycanda yaşayıb təqib və təzyiqlərə məruz qalan sənət adamları.

Qədim tarixi olan Azərbaycan mühacir ədəbiyyatı XX əsrdə siyasi və kütləvi xarakter aldı. İdarəçilik qabliyyətini itirən çar Rusiyası dövründə Məmməd Əmin Rəsulzadə, Əlibəy Hüseynzadə, Əhməd bəy Ağaoğlu və onlarla başqaları Stolipinin irticası nəticəsində Vətəni tərk etmək məcburiyyəti qarşısında qaldı. Azərbaycan Demokratik Cümhuriyyətinin süqutundan sonra isə bu mühacirlərin sayı daha da artdı.

[65] Məmməd Rahim. Seçilmiş əsərləri. 2 cilddə, II cild, Bakı, 1957, s. 118.

Azərbaycanın istiqlaliyyəti və Cümhuriyyətin bərpası məsələsi istər mühacirətdə yaşayan, istərsə də Vətəndə qalan milli hiss və duyğuya malik olanların hamısını düşündürürdü. Onlar hər vəchlə çalışırdılar ki, Azərbaycanın vəziyyətini dünya ictimaiyyətinə çatdırsınlar. Bu işin icrası üçün totar rejimdən uzaqda olan siyasi mühacirlərin imkanları daha böyük idi. Müstəqilliyin bərpası uğrunda mübarizədə mühacirətdə olanların nəşr etdirdikləri dövri mətbuat əvəzsiz rol oynadı, vətənpərvərlik hisslərini daim qaldırdı və Azərbaycanla əlaqənin qırılmamasına mane olaraq istiqlal savaşını alovlandırdı.

Maraqlıdır ki, Azərbaycanın müstəqilliyi uğrunda mübarizə İkinci Dünya Müharibəsi zamanı əsir düşmüş azərbaycanlı legionerlər arasında da güclü idi. Onlar nəşr etdirdikləri qəzet və jurnallarda («Türk birliyi», «Azərbaycan», «Hücum» qəzetlərində, «Milli birlik» və «Gənc yaradıcılar» jurnallarında) müxtəlif məsələlərə toxunsalar da, legionerləri SSRİ əleyhinə mübarizəyə çağırır və Azərbaycanın müstəqilliyi məsələsini daha qabarıq qoyurdular. Siyasi mühacirlər müharibədən bir vasitə kimi istifadə etməyə çalışır, belə hesab edirdilər ki, Almaniyanın qələbəsi onların apardığı istiqlaliyyət savaşının həllinə kömək edəcək və azərbaycanlıları bolşevizm caynağından qurtaracaqdır. Onların böyük əksəriyyəti bu əhvali-ruhiyyə ilə SSRİ-yə qarşı vuruşurdular: «Gün kimi yadımdadır. Şimali Qafqazda ağsaqqal çeçenlər və qaraçaylılar bizi ata-baba qaydalarınca qarşılamağa çıxmışdılar. Mümkün qədər tezliklə Azərbaycana çatmaq və ölkəmizi bolşeviklərdən azad etməyə can atırdıq. Bizlərdən çoxuna bolşevizmi

məhv etmək, nifrət doğuran sovet sistemindən. repressiya illərində öldürülən qohum-qardaşımıza görə Stalindən intiqam almaq hissi hakim kəsilmişdi»[66].

Sovet dövründə mühacirət ədəbiyyatında qaldırdırılan problemlər xırda burjua və ya mürtəce ədəbiyyatın nümunəsi kimi tənqid edilmiş, onun oynadığı rol düzgün qiymətləndirilməmişdir. Məhz siyasi mühacirətin köməyi ilə «Azərbaycan davası beynəlxalq miqyasda tanıdıldı və Azərbaycan məsələsi bir məsələ kimi dünya mətbuatında, müxtəlif dairələrdəki mübahisələrdə etiraf edildi»[67].

Azərbaycan davasının - müstəqilliyin bərpasının dünya ictimaiyyətinə çatdırılmasında ədəbiyyatın da mühüm rolu olmuşdur. Mühacir ədəbiyyatının baş qəhrəmanı «Əsir Azərbaycan» və onun azadlığı uğrunda mübarizə aparan İstiqlal şəhidləri idi. Alptəkin «Odlu yurt» məcmuəsinin 1930-cu il 16-cı sayında çap etdirdiyi «Biz və mücadiləmiz» şeirində apardıqları mübarizənin məqsəd və məramını poetik dillə belə bəyan edirdi:

Yayılır
Mücadiləmiz
Getdikcə dərinə
Baxdıqca gözlərimiz
İstiqlal şəhidlərinə...
Yayılır mücadiləmiz
Qızıl Moskvanın
Qanlı üfüqlərinə...

---

[66] «Ayna» qəzeti. 22 iyun, 1996.
[67] M.Ə.Rəsulzadə. «Çağdaş Azərbaycan tarixi», Bakı, 1991, səh. 103.

Biz,
Qorxu bilməyən
Hür Azərilərinz;
Könlümüzdə dalğalanır
dalğalı bir dəniz
Getdikcə alovlanır
İstiqlal mücadiləmiz

Bizim.
Qanlı qartal pəncəsində əzilən
Yaşıl bir yurdumuz vardır.
O yurdun sinəsində
Qəhrəman mücahidlərimiz
Gülə-gülə
verir can
Çünki
İstəyir olsun
Müstəqil Azərbaycan!..

Hər gün
Dün
Və bu gün
Zincir vurararq
Mübariz gənclərin
Dəmir biləklərinə
bağlayırlar
Heyvan kimi
Qanlı «Çeka»ların
Daş sütunlu dirəklərinə,
Minlərlə gəncləri.

Könlümüzdə dalğalanır
Dalğalı bir dəniz
Getdikcə alovlanır
İstiqlal mücadiləmiz.

Hey!
Əsrlərdən bəri
Qara pəncəsi altına topladığı
Qövmlərin
Qanını içməyə alışan adam!

Hey!
Şanlı Azərin,
Yerə dəyməz anlını
Zəhərli süngüsü ilə
Məhvə çalışan adam

Sən,
Nə qədər zülm etsən
İstiqlal mücahidlərinə
Və nə qədər
Zincir vursan
Onların dəmir biləklərinə
Yenə,
Qovuşacaqlar
Sönməz
Böyük diləklərinə.
İstərsin sənin
Səsi uzaqlarda

Donan
«Buzlu cəhənnəm»lərin
Boğsun
Əyilməyən və əyilmək bilməyən
Övladlarımızı
İstərsin sənin
Qanlı «Çeka»ların
Qurşuna düzsün bizi.

Yenə,
Könüllərdə dalğalanacaq
Dalğalı bir dəniz
Getdikcə alovlanacaq
Alovlu mücadiləmiz
Çünki,
Bizim
Fikirlərimizin
Üfüqləri deyildir dar;

Bizdə;
Sönmək bilməyən
Bir istiqlal eşqi var!..

Əşrəfin «İntiqam»[68] şeiri də Azərbaycanın istiqlalı ilə bağlıdır.

Rüzgar əsiyor,
Sular çağlıyor,

---

[68] «Odlu yurt» məcmuəsi, 1931, № 3.

Səma gurluyor,
Yer-göy inliyior,
İstiqlal deyə.

Ufuqların həp kızıllaştığı,
Kanların sinirlərdən aktığı,
Bir an...
Günün işıklarını kattığı,
Ayın nurlar içində batdığı,
Mavi səmadan;
Bir səs yüksəldi:
«İştə istiklal, hürrüyyət» - deyə...

Altınlaşan səma getdikcə kızıllaşıyor.
Təpəsi qarlı mor dağlar.
Uzandıqca, kararan ufuqla kaynaşıyordu,
Akşam yaklaşıyordu:
Sinəsində ay və ulduzlarla enən karanlıq,
Bir aralıq;
Təbiətin qoynuna çökmüştü...
Kızıl canavar, bu səssizliktən ürkmüşdü.

Al ufukta, günəşin doğduğu an.
Kan...
Boyamıştı Azərbaycanı kızıla,
Sanki hər tərəf, kızıl ufuktu.
Dalğalar hıçkıraraq, əksediyordu kayalara,
Kayalar inliyordu dalğalarla.

Getdikcə karalan səmadan,
Akan...
Ayın, gümüş işıkları,
Kandili idi, matəmin; Xəzərdə,
Sarımıştı kızıl zülum ufukları,
Yeni bir intikam doğmuşdu qəlplərdə.

Azərbaycan Cümhuriyyəti dövründə milli orduda xidmət edən və mühacirətdə yaşayan, ciyərlərindən şikayətlənərək İstanbulun Heybəliada istirahət evində müalicə olunduğu zaman «Qurtuluş» jurnalının 1936-cı il 17-ci sayına göndərdiyi «Yeni gün» şeirində Əli Usta Azərbaycan yolunda öləcəyini bildirirdi. Azərbaycandan ayrıldıqdan sonra ahü-zara düşən şair yaxşı bilirdi ki, Vətən torpağı şəhidlərin qanı ilə suvarılır, qadınlar qara çarşaba bürünərək fəryad edir. Şeirdə Əli Usta Novruza xitab edir və Novruzdan Azərbaycanın vəziyyətini soruşur. Lakin o bilmirdi ki, bolşeviklər Novruzu da mühacirət ömrü yaşamağa məcbur etmiş, bu yeni günlə adamlar pünhan görüşür və dərdlərini ona deməyə qorxurdular.

Ordan doğdun ey günəş, bu doğuşunla öyün...
Səfa gəldin, xoş gəldin əski Novruz, yeni gün!
Uğurlumu bu gəliş, bənizində bir gülüş var;
Ruhum fəqət gülmüyor; ürəyim bir ah yakar.
Uğradınmı, bakayım o gözəlim diyara?
Mən ondan ayrılınca tutuldum ahü-zara.
Nasıl gördün yurdumu: hər yer xarab, viranmı?..
Dəniz, dərə, dağ və daş - hər yan qızılca qanmı?!..

Uğradınmı Vətənin nur saçan mehrabına?
Şəhidlərin qanıyla sulanmış torpağına?
Yetimlərin, dulların çilələrini bildinmi?
Axan qanlı yaşları gözlərindən sildinmi?
Duydunmu sən ananın yanıqlı fəryadını?
Qurban vermiş Vətənə qəhrəman övladını!..
Gördünmü heç qızları - bağlamışlar qara duvaq!..
Göy üstə solğun çiçək, çevrə dolu quru yarpaq!..
Başlarında sevginin ciyər yaxan sevdası;
Buzlu şimalda sürgün onların nişanlısı.
Yürüyür, yürüyəcək Vətən üçün bu cidal;
Bir ruh vardır Yürüdən bu cidalı - istiqlal!
Səbrim tükəndi artıq, daşar, coşar məndə qan;
Əhdim vardır, öləcəyəm yolunda Azərbaycan!

Bu mühacir şairlər arasında özünə məxsus yeri olanlardan biri də «Anadolu istiqlal hərbi zamanı Şərq komandanlığı tərəfindən azərbaycanlı yetim uşaqlar arasından yetişən gənc bir şair» (M.Ə.Rəsulzadə) Kərim Yaycılı idi. Kərim Yaycılı (1913-1979) hələ uşaqkən vərəm xəstəliyinə tutulmuş və bu xəstəlik onun hərbi məktəbdə təhsilini başa vurmağa mane olmuşdur. Sonralar o, Ankara Universitetinin Türk dili və ədəbiyyat bölümünə daxil olsa da bu xəstəlik ucundan buranı da yarımçıq qoymaq məcburiyyətində qalmışdır. Təəssüf ki, əlimizdə K.Yaycılının tərcümeyi-halı ilə bağlı məlumat olduqca azdır. Professor Şamil Qurbanov haqlı olaraq yazır: «Yaycılının şeirləri onun tərcümeyi-halıdır, özünün və didərgin olmuşların qəm kar-

vanıdır»[69]. Həqiqətən də, Vətən həsrəti, dərd və qəm K.Yaycılının bütün şeirlərinin ruhuna hopmuşdur. O, «Göy göl» şeirində bir tərəfdən Göy gölün füsünkar gözəlliyindən danışırsa, digər tərəfdən də yad əllərə düşdüyündən əvvəlki füsünkarlığını itirdiyindən bəhs edir:

Duydum ki, çiçəklər boynunu bükmüş,
Yurdumu düşmənlər saralı, Göy göl.
Səni sevənlərin dərdi böyükmüş,
Qoluna zənciri vuralı, Göy göl.

...Dönmüş o aləmlər bir qara günə,
Sürülər dağılmış yollar üstünə.
Dağlar həsrət çəkər əski türkünə,
Çobanlar qavalı qıralı Göy göl.

Total rejimin ağrı-acılarını yaşayan «qorxulu bir düşmən» kimi əvvəlcə Dağıstana, 30-cu illərdə isə Türkmənistana sürgün edilən, oradan İrana qaçan, olmazın işgəncələrini çəkən, sonra Türkiyəyə gedən Almas İldırımın (1907-1952) «Əsir Azərbaycanım» şeirində yurd sevgisinin bütün çalar və detallarını görmək olur:

Hanı məni gül qoynunda doğuran,
Xəmirimi göz yaşı ilə yoğuran,
Beşiyimdə, «layla balam» çağıran...

---

[69] Şamil Qurbanov. Yaxın və uzaq dünyamız, Bakı, 1997, səh. 307.

Azərbaycan, mənim baxtsız anam oy...
Neçə ildir həsrətinlə yanam oy...[70]

Başqa bir şeirində A.İldırım qürbətdə yaşamağın ağırlığından şikayətlənir və Vətənə tezliklə qayıtmaq ümidini üzmürdü:

Vurma könül, vurma, əlbət bu qışın bir yazı var,
Bu qara gün keçicidir, bir gün bitər, inləmə...
Baxçamızda sarı bülbül yenə ötər, inləmə...

O, Türkiyədə xarici təqiblərdən yaxa qurtarsa da, daxili narahatlıqlardan can qurtara bilmir. Şair burada poetik ilhama sarınıb vətəndaşlıq narahatlığı ilə yazıb-yaradır. A.İldırımın təqib olunmasının əsas səbəbi dövrün, «zamanın şeirini» yaza bilməməsi, sosialist realizm modelinə, stereotipinə sığmaması (sığa bilməməsi) idi. Cəmiyyətdəki eybəcərliklər, xalqın başına açılan oyunlar onun əsərlərinin leytmotivini təşkil edirdi. Bütün bunlar şairə «ələmdən nəşəyə» (S.Rüstəm) keçməyə imkan vermirdi. S.Rüstəm ələmdən nəşəyə gülə-gülə keçdikcə nə qədər kiçilirdisə, A.İldırım ələmdə qala-qala bir o qədər böyüyürdü. Yəni S.Rüstəmin faciəsi başlandığı nöqtədə A.İldırımın əzəmət və vüqarı görünürdü. Başqa sözlə, sevinc və dərd tutuşdurmasında sevincin dərdi, müvəqqətiliyi və dərdin sevinci, əbədiliyi özünü təsdiqlədi.

[70] Azərbaycanın didərgin salınmış övladış Şair Almas İldırım Şeirləri ilə. (Tərtib edəni Hacı Hacıyev), Bakı, 1990, səh. 8.

Onun təqiblərinə səbəb olan amillərdən biri də şeirlərindən proletar iyi deyil, türk qoxusu gəlməsi idi. «Qara dastan» şeirində şair oxucunun diqqətini türkün dünəninə yönəldir, Kazan, Krım, Başqurd, Buxara, Səmərqənd və sair torpaqlarda at oynadan türk oğlunun indi səsi gəlmir. Hələ bunlar da dəhşətli deyil, daha dəhşətlisi odur ki, türkün birliyini qırır, onları yad qövmlər kimi tanıtmağa çalışırdılar:

Dörd bir yana dağılmış türk soyları,
Sönmüş ocaq, köçüb getmiş boyları,
Dərdli-dərdli axar bozqır çayları,
Saxlar içdən gizli ümid, güman hey...
Qoca türkün düşdüyü gün yaman hey...

Və yaxud da

Türk elləri bir-birinə yatlanır,
Qazax, qırğız, türkmən, özbək adlanır
Azəri türk yanar, içdən odlanır,
Ana yurdun içdən halı duman hey...
Qoca türkün düşdüyü dərd yaman hey...

Ümumtürk dünyasının dərdli mənzərəsinin poetik lövhəsini verdikdən sonra şair şeirin sonunda Azərbaycanın üzərinə qayıdır. Qoca türkün ayrılmaz hissəsi olan Azərbaycan da həmin dərdlərdən azad deyildir. Lakin şair burada başqa bir mətləbə də toxunur. Vətənini sevənlər, Vətənin dərdindən yazanlar Vətəndən qovulur:

Azərbaycan dərd içində boğulmuş,
Sevənləri diyar-diyar qovulmuş.
Ağla şair, ağla yurdun dağılmış,
Nerdə qopuz, nerdə qırıq kaman hey?
Nerdə böyük vətən, nerdə Turan hey...

Didərgin şair «Əlvida Bakı» adlı şeirində Azərbaycanı əsir edən qüvvələrin adını və ünvanını da göstərir.

Mühacir ədəbiyyatında hiss, duyğu və nisgil, Vətən həsrəti sonradan siyasi məzmun kəsb edir. Belə ki, «Əlvida, Bakı!» şeirində şair Bakını - boya- başa çatdığı Çəmbərəkənd və Pirvənzəli məhlələrini necə həsrətlə andığını, axırıncı bəndlərdə isə Azərbaycanı əsir edən qüvvələrin konkret ünvanını göstərir:

Bax nə deyir yenə bu coşqun Xəzər
Qoynunda Şimaldan gələn yad gəzər,
Bu dərddir ki, məni ömrümcə əzər,
Salır məni haldan hala əlvida...

İstiqlal şairlərinin demək olar ki, hamısı ən çətin anlarında təbiətə - dağa, suya, selə müraciət etmişlər. Almas ildırım da «dağları insan kimi canlandırır, onları öz əhval-ruhiyyəsinin kökləndiyi pərdədə dilləndirir, dağlarla həsb-hal edir»[71]. Şifahi xalq ədəbiyyatında, Azərbaycan xalqının mifik təfəkküründə dağ və su həmişə saflıq, tə-

[71] Bəkir Nəbiyev. Didərgin şair. Bakı, 1995, səh.89.

mizlik, güc və qüvvət rəmzi kimi yad edilmişdir. Sanki bu şairlər də öz itirdiklərini dağa, suya tapınmaqda, ondan yeni güc almaqda görmüşlər. A.İldırımın «A dağlar» şeirində oxuyuruq:

Çiçəkli qoynunda bir bağça tikdim,
Suvarıb onu mən göz yaşı tökdüm,
Gecə-gündüz əməyini mən çəkdim.
Yoldu meyvəsini ellər, a dağlar!..

Dağıstanda sürgündə olarkən yazdığı başqa bir şeirində o, yenə də dağları anır:

Bir gün gəlir qoşaraq yurdumun harayına,
Mən atəş edəcəyəm düşmanın sarayına,
Nə düşər yurdu getmiş bir igidin payına:
Ya şərəfli istiqlal, ya qızıl qan, a dağlar!..

Ə.Cavad da Gəncə şəhərində yazdığı «Azərbaycan» şeirində Müstəqil Azərbaycanından ayrı düşdüyünə işarə edir və bildirirdi ki, səndən ayrı düşdüyümdən ilhamımın nəfəsi kəsilmiş, əgər belə olmasaydı mən sənə şairlik edərdim. Müstəqil Azərbaycana xidməti özünün vətəndaşlıq borcu hesab edən yazırdı:

Nə gücdür ayrılıq doymamış yardan,
Artırdı dərdimi hər keçən karvan!
Duysaydım səsini bir yanıq tardan,
Bilməsən nə söylər, neylərdim sana!

Burdan belə bir nəticəyə gəlmək olmaz ki, Ə.Cavad bədbin idi. O da bir çox şair dostları kimi xoş gələcəyə olan ümidini itirmir, gec-tez vüsalla qucaqlaşacağını elan edirdi.

Hicranlar, ələmlər, tufanlar içrə
Qısıq bir səs kimi öləcəyəm bən!
Böylə göz yaşıyla keçən ömrümün
Sonunda bir acı güləcəyəm bən!

«Peyğəmbər» şairinə müraciətlə yazdığı «Ay»a şeirində də o gözəl günləri unutmadığını bildirirdi:

Kiçik bir quş kimi kölgəsiz, adsız
Uçduqca uçardım qolsuz-qanadsız.
Əsla keçməyirdi günlərim hədər,
Ah o gözəl dəmlər, o gözəl günlər.

Tarixi keçmişin tərənnümü hakim dairələrin maraqlarına uyğun gəlmirdi. Çünki tarixi keçmişin tərənnümü hər şeydən öncə bu xalqın ulu keçmişə malik olduğundan soraq verirdi. «Göy göl» şeirində müəllif imperiya tərəfindən «dəfn edilən» böyük bir dövlətin yaşadığını simvollarla göstərirdi:

Sənin gözəlliyin gəlməz ki, saya,
Qoynunda yer vardır yıldıza, aya!

Oldun sən onlara mehriban daya,
Fələk büsatını quralı, Göy göl.

Mustafa Quliyev 1929-cu ildə çap etdirdiyi «Türk ədəbiyyatında sağ uklon» adlı məqaləsində yazırdı: «Bir neçə il bundan əvvəl Ə.Cavad məhşur «Göy göl» şeirində iflas etmiş müsavat ziyalılarının keçmiş «əzəmət» xülyası ilə yaşayaraq ömür keçirdikləri «uzaq ölkələrə» salam göndərmişdi. İndi Cavad bu səfillərə əl uzatmaq istəyir. Bu əli qırmanclamaq lazımdır. Yaltaqlıq, ikiüzlülük, xəyanət və riyakarlığa nəhayət verilməlidir»[72].

Tənqidçinin bədii-estetik təfəkkür xadimindən, yazıçı-ideoloqdan çox dövlət ittihamçısı, müstəntiq və hakim rolunda çıxış etməsinə inanmaq üçün yuxarıdakı parça ilə, rəsmi ittiham stenoqramlarından biri arasında ötəri müqayisə aparmaq kifayətdir.

1930-cu illərdə bu cür alovlu şeirlərinə görə 8 il müddətinə Sibirə sürgün edilən şairə «Hicran» adlı şeirində gələcəkdə azadlıq günəşinin yenidən döğacağı ümidi ilə yaşayırdı:

Günəşim bir daha doğmayacaqmı?
Vəhşi qaranlığı boğmayacaqmı?
Kölgələri şəfəq qovmayacaqmı?
Sordum, ümidini qırma dedilər.

---

[72] M.Quliyev. «Türk ədəbiyyatında sağ uklon», «İnqilab və mədəniyyət» jurnalı, 1929, № 10.

Bu sənət adamları təqiblərdən yaxa qurtarmaq üçün öz yaradıcılıqlarında sovetləşmənin ilk illərində açıq deyə bildiklərini sətiraltı çalarlarla, alt qatda verməyə məcbur olmuşlar. Bəzən onlar öz mübarizələrini açıq şəkildə aparmışlarsa da bu keçici xarakter daşımışdır. Belə ki, şairə Ümmügülsüm 1920-ci ildə yazdığı «Bayrağım enərkən» adlı şeirində Azərbaycanın milli bayrağı endirildiyindən «üzərinə doğacaq günəşlərdən»[73] bezdiyini bildirir və öz fikirlərini açıq-aydın ifadə edirdi:

Sən Bayrağım! O yüksək şanlarınla enərkən,
Mavi göyə bir duman gəldiyini sezdim mən.
Qoynundakı ağ nurlu ay-yıldızım sönərkən,
Üzərimə doğacaq günəşlərdən bezdim mən.

Lakin həyat yoldaşı Seyid Hüseynin 14 iyun 1923-cü ildəki həbsindən və özü təqiblərə məruz qaldıqdan sonra fikirlərini bir qədər üstüörtülü verməyə, əsas ideyanı alt qata keçirməyə, kodlaşdırmağa məcbur olmuşdu. Kodlar və şifrələr dövrün tənqidçiləri tərəfindən açıqlananda isə, sənət adamlarını yeni cəmiyyətin ideoloquna çevirmək məqsədi ilə həbslər, təqib və təzyiqlər, fiziki-mənəvi işgəncələr başlayırdı.

Təzyiqlərə baxmayaraq, bir çox sənətkarlar «kommunist cənnətinin» gətirdiyi fəlakətləri görür və göstərirdilər. Sovet quruluşu ilə razılaşmayan Səməd Mənsur (1879-1927) bu rejimin irticaçı simasını öz əsərlərində xüsusi ilə

[73] Ümmügülsüm. «Gözümüz yaşlıdır, sinəmiz dağlı». Bakı, 1992, s.21.

qeyd edirdi. Bu baxımdan onun 1925-ci ildə yazdığı iki satirik şeiri - «Bacıoğlunun dayıya ərizəsi» və «Dayının bacıoğluya cavabı»[74] 20-ci illərin obyektiv gerçəkliklərini bir çox cəhətləri ilə özündə ehtiva edir. Birinci şeirdə bacıoğlu öz dayısına yazdığı ərizədə göstərir ki, yer mənim, lehmə mənim, vışka mənim, neft sənin, bu çayların suları mənim, balığı, ikrası sənin, Muğanın çölləri, səhrası mənim, pambığı sənin, mis, dəmir sənin olsun, əmrü-fərman sənin, icrası mənim... Beləliklə, bacıoğlu Azərbaycanın maddi və mənəvi sərvətlərinin Moskvaya göndərilməsinə razılıq verir. Lakin dayı - Moskva bütün bunlarla razılaşmır və öz cavabında («Dayının bacıoğluya cavabı») deyir:

Bacıoğlu, a qırışmal, bu nə sözdür, nə kələk?
Aramızda a gədə, «sən» nə demək, «mən» nə demək?
«Bu sənin, o biri mənim» yazdığını anlamadım.
Sərhəddindən dışarı sən deyəsən atdın addım.
Mən dayı, sən bacıoğlu, sən uşaq, mən yekəyəm,
Sən bir ovlaq kimi şeysən sürüdə, mən təkəyəm.
Görünür boşdu başın, yoxdu sənin mərifətin,
«Bölüşək» nə? A ədəbsiz, gicişir yoxsa ətin?
Naəllac oldum əzəldən sənə tapşırdım işi:
Çaşaraq özünü yoxsa sanırsan sən də kişi?
Sənə verdim kabinet, avtomobil, portfeli,
Əqlini aldı başından səni lap etdi dəli.
«Mən» «Mənim»dir də desən, bax kəsərəm lap dilini,
Birdə dinsən verərəm qoltuğuna zənbilini.

---

[74] Səməd Mənsur. Həpsi rəngdir. Bakı, 1993.

Əbləh oğlu, səni qoydum ora huşyar olasan,
Tutasan göz qabağın, bir uca divar olasan.
Arxada mən işimi sazlıyım, əncamə salım,
Azəri türklərini qafil edib damə salım.
Əblahanə bu xəyalatı başından uzaq et!
Gecə ye bozbaşını, iç çayını, get işə yat!
Yer mənim, neft mənim, kənd ilə xırman da mənim.
Qəsəbə, şəhər mənim, bağ ilə gülşən də mənim.
Ortağım yoxdu dənizdə, quruda, dağ-daşda,
Bir özün yaxşı düşün, var isə ağlın başda?
Sən özün, var-yoxun, əhlü-əyalın da mənim,
Baxışın, tərpənişin, fikri-xəyalın da mənim.
Adə russan? Malorus ermənisən? Sarsaq adam,
Səni millət sanaraq qeydinə bir zərrə qalam?
Sən unutma ki, mənim bəndeyi-fərmanımsan!
Əmrimə etsən itaət gözəl oğlanımsan!
Sözümə baxmasan onda çəkərəm Moskvaya!
Səni də bənd edərəm adi görünməz yuvaya.

Belə alovlu və mübariz sənət əsərləri yaradanları, imperiya siyasətini dərk edənləri isə sürgün və həbslər gözləyirdi. S.Rüstəm yazırdı ki, «bizi İsmayıl Hikmətlərin, Cənnətilərin, Səməd Mənsurların vahiməsi basmışdı»[75].

Ə.Yurdsevər göstərirdi ki, 1923-cü ildə həbs olunarkən bolşevik-çekist heç nədən çəkinmədən bizə deyirdi: «Biz istəsək, 58-ci maddəyə istinad etməklə eyni məhbusu, cinayət dərəcəsi nə qədər ağır və ya yüngül olmasına bax-

[75] «İnqilab və mədəniyyət» jurnalı, 1931, № 3, səh.21.

mayaraq edam etdirir, sürgünə göndərir, məcburi əmək kaloniyalarına göndərir və yaxud büsbütün sərbəst buraxırıq! Biz burjua hakimləri kimi qanunun mahiyyətinə görə yox, inqilabçı vicdanımıza və duyğumuza görə hökm veririk»[76].

Böyük məslək və əqidə sahibi olan Hüseyn Cavid də çağırışlarında

Zülmə qarşı dikbaş və məğrur olun!
Hürriyyət uğrunda çox cəsur olun!

deyirdi.

Çoxdandır ayrı düşdüm
Üç boyalı bayraqdan.
A dostlar, mən yoruldum,
Bu gizli ağlamaqdan. (Ə.Cavad)

***

Düşün hər addımda getdiyin yolu
Zavallı babamın ey nankor oğlu,
Öylə bir yabançı yerdə qaldın ki,
Gözlərdə sən o qədər alçaldın ki,...
(Gültəkin. «Azəri kommunistinə» 1926-cı il).

***

[76] «Azərbaycan» jurnalı, Türkiyə, 1960, № 12.

Qurtuluş, ey nazlı, sevimli pəri,
Könüldən vurğundur sənə Azəri.
Dişimlə qıraram bir gün gəlir də
Bağrına saplanan qanlı xəncəri,
Yaşa, ey həsrətlə doğan istiqlal!
Yaşa ey türk, yaşa ey gözəl hilal.
(Gültəkin.» Bayrağım və istiqlalım» 1924).

Həqiqətən də bolşeviklər xalqın milli «mən»ini oyadan, onları mübarizəyə səsləyən sənətkarlardan çəkinirdilər. Ona görə də Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan bir gün sonra - 1920-ci ilin 29 aprelində (artıq AXC-də yox, Azərbaycan SSR-də) Fövqəladə Komissiya (Az.ÇK) yaradıldı.

Az.ÇK-nın kifayət qədər qüvvəsi olmadığından kütləvi həbslər zamanı Qızıl ordunun qüvvələrindən də istifadə edilirdi. Daha doğrusu onlar birgə fəaliyyət göstərirdilər. Bu məqsədlə bir çox rayonlarda diviziyaların xüsusi şöbələri də yaradıldı. Həmin şöbələrin nümayəndələri yerlərdə müsavat tərəfdarlarına, sovetləşməni qəbul etməyənlərə, ziyalılara, bir sözlə imza yerinə barmaq basandan tutmuş, Azərbaycanın ictimai-siyasi həyatında mühüm rol oynayan görkəmli və mütəfəkkir şəxsiyyətlərinə qədər, hamıya divan tutmağa başladılar.

Bolşeviklər yerlərdə inqilabi qayda-qanun yaratmaq adı ilə ÇK-nın köməkçi orqanı olan siyasi bürolar təşkil etdilər. Bu siyasi bürolar ÇK-nın tabeliyində olmaqla həm də yaradıldığı yerlərdə Fəhlə-kəndli milisinin (polisinin) siyasi şöbələri sayılırdı. 29 may 1921-ci ildə Xalq Komis-

sarlar Sovetinin qərarı ilə, başda Azərbaycan ÇK-nın sədri Mir Cəfər Bağırov olmaqla qaçaqlarla (bolşeviklər Azərbaycanın müstəqilliyi uğrunda mübarizəyə qoşulanlara qolçomaq, qaçaq, quldur, bandit adı qoymuşdular - C.Q), bolşevik sistemini qəbul etməyənlərlə mübarizə aparmaq üçün Mərkəzi Fövqəladə üçlükləri yaradıldı. Həmçinin bütün qəzalarda da fövqəladə üçlüklər təşkil edildi.

Mərkəzi Fövqəladə üçlüyünə ixtiyar verilirdi ki, cinayəti təsdiq edilmiş bütün qaçaqlar, xüsusilə də onların başçıları dərhal güllələnsin. Qəzalardakı Fövqəladə üçlüklər (buna UÇTRO - Uyezdnaya Çerezvıçaynaya troyka - Qəza Fövqəladə üçlüyü deyirdilər - C.Q) isə qaçaqların bütün işlərini istintaqdan keçirib Qəza və Ali İnqilab tribunalına, yaxud da bu işləri məhbusların özləri ilə birlikdə Azərbaycan Fövqəladə Komissiyasına çatdırmaq səlahiyyəti verildi. Bu səlahiyyətlərdən sonra yerlərdə qorxulu bir varlığa çevrilən Azərbaycan ÇK üzvlərinin «nüfuzu birə beş artdı». Çünki onlar təkcə qaçaq hərəkatına və ayrı-ayrı qaçaqlara deyil, eyni zamanda dinc əhaliyə də divan tuturdular. Bəhs etdiyimiz «nüfuz» da bu qorxu hesabına yaranmışdı.

O illərdə ÇK-nın (fövqəladə komissiyanəın) qorxunc fəaliyyətini əks etdirən şeir nümunələri də yaranmışdır. Görkəmli Azərbaycan şairi Səməd Mənsur «İki aşığın deyişməsi» adlı şeirində yazırdı:

**Qoca aşıq**

O nədir ki, surətləri soldurur?
O nədir ki, cibişdanı doldurur?

O nədir ki, toyuqları güldürür?
Buna cavab verən aşıq var olsun!

**Cavab**

O ÇEKAdır surətləri soldurur,
O rüşvətdir cibişdanı doldurur,
Təriflərdir toyuqları güldürür,
Söz soran aşığa allah yar olsun.

Eyni fikri Əmin Abid «Çeka» adlı şeirində bir qədər başqa şəkildə belə ifadə edirdi:

İçində zəhərdən bir hava əsən,
Yoxluğun zəhərli bir diyarıdır.
Yolçu, içərisinə girmək istərsən,
Həyatından ümüd kəs də, öylə gir.

Bu illərdə böyük səlahiyyətlərə malik olan Çekaçıların qarşısında duran əsas vəzifələrdən biri də Azərbaycan Xalq Cümhuriyyəti dövründə müxtəlif siyasi partiyalarda və ayrı-ayrı təşkilatlarda fəaliyyət göstərən şəxslərin işi ilə maraqlanmaq, bolşeviklərə, eləcə də sovetləşməyə münasibətini müəyyənləşdirmək və ölkədə «sabitlik yaratmaq» idi. Bu «sabitlik» isə ayrı-ayrı ziyalıların, vəzifəli şəxslərin, eyni zamanda onların ailə üzvlərinin həbs edilməsi və güllələnməsi yolu ilə yaradılırdı.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə də barışmaz mövqedə olan, ictimai həyatın eybəcərliklərini həmişə, hər şəraitdə tənqid edən H.K.Sanılı 28 iyul 1937-ci ildə dindiri-

lərkən onunla dialoqda olan tərəfmüqabilin kim: vulqar tənqidçi, yoxsa peşəkar müstəntiq olduğunu ayırd etmək çox çətindir:

«**Sual:** Siz bir aya yaxındır ki, özünüzün əksinqilabi millətçi fəaliyyətiniz barəsində açıq ifadə verməkdən boyun qaçırırsınız. İstintaq bir sıra faktlar aşkar etmişdir. Əgər gələcəkdə də açıq danışmasanız, onda sizi üzləşdirməyə məcbur olacağıq. Siz düzgün ifadə vermək fikrindəsinizmi?

**Cavab:** Mən özümü onda günahlandırıram ki,... bir sıra əsərlərimdə əksinqilabi millətçi formada qolçomaq həyatını və məişətini tərənnüm etmişəm. Belə əsərlərə «Aran köçü» də aiddir. Kənd qolçomaq təbəqəsinin ideoloqu olaraq, mən bu əsəri elə qolçomaqlara həsr etmişəm. Hal-hazırda ideloji cəhətdən özünü doğrultmadığına görə bu əsər nəşriyyatdan götürülmüşdür.

**Sual:** Deməli, siz həbs olunana qədər əksinqilabi qolçomaq və millətçi mövqedə durmusunuz?

**Cavab:** Bəli, bəyəndiyim və ifadə etdiyim qolçomaq-əksinqilabi millətçi ideologiyanı mən öz əsərlərimdə göstərmişəm. «Aran köçü» əsərindən başqa mən «Namus davası» poemasını da yazmışam. Bu poemada mən poetik dillə iri feodallar (mülkədar) Cavad xan və Şəmsəddin bəyi Nəsib Sultan arasında gedən müharibəni tərənnüm etmişəm»[77].

Həqiqətən də «Namus davası» poemasında Nəsib Sultanla Cavad xan arasındakı münaqişə öz əksini tapmışdır.

[77] MTN-in arxivi. H.K.Sanılının istintaq qovluğu, 1937, PR – №25606.

Lakin məsələlərə yalnız bu aspektdən yanaşmaq sadəlövhlük olardı. Əsərdən aydın olur ki, Qazax mahalından olan Nəsib Sultan gözəlliyi ilə ad çıxaran Cəvahir xanımla ailə həyatı qurur. Cəvahir xanımın hədsiz gözəl olduğunu eşidən Cavadxanın ona marağı artır və nəyin bahasına olursa olsun onunla ailə qurmaq istəyir. Bunun üçün o, müxtəlif yollar axtarır. Dağıstandan Gəncə mahalına hücum edən və əhalinin mal-qarasını aparan ləzgilər Cavad xana öz çirkin niyyətini həyata keçirməyə şərait yaradır. O, Nəsib Sultana bir məktub göndərərək onu ləzgilərlə vuruşmağa, Gəncə mahalının kəndlərindən onları uzaqlaşdırmağa çağırır.

Şöhrətpərəst və təkəbbürlü Nəsib Sultan döyüşə getməyə razılıq verir. O, ləzgilərlə döyüşdüyü zaman Cavad xan Nəsib Sultanın adından Qazağa məktub göndərərək Cəvahir xanımı Gəncəyə dəvət edir:

Mümkün deyil, gəlmək mənə Qazağa,
Qoşunlardan gedə bilməm uzağa.
Yaxşı olar sən Gəncəyə gələsən,
Mənim ilə danışasan, güləsən.
Mən burada gözləyirəm yolunu,
Arzulayır boynum şimşək qolunu.

Bu məktubu aldıqdan sonra Cəvahir xanım Gəncəyə gəlir. Gecə onun namusuna təcavüz etmək istəyən Cavad xanın niyyəti boşa çıxır. Namusunu Cavad xanın var-dövlətindən üstün tutan Cəvahir xanım bir təhər onun əlindən çıxıb qaçır. Bu xəbər Dağıstanda Nəsib Sultana yetişir.

Nəsib Sultan geri qayıdır və Cavad xanla vuruşmağa, ondan qisas almağa çalışır. Gəncə ətrafında qanlı döyüşlər başlayır. Müəllif əsərdə qardaş qanının necə töküldüyünü real boyalarla belə təsvir edir:

> Kəsik başdan, qırıq qoldan axan qan,
> Qarışıb Şəmkirə edirdi tufan.
> Çayın suyu qıpqırmızı axırdı,
> Vayıltı-ufultu, can verən, ölən,
> Yarasın bağlayan, qanını silən,
> Atından yıxılan, yəhəri dönən,
> Tozların üstündə şam kimi sönən,
> Daşların sayınca gəlirdi gözə,
> Düşmüşdü meyitlər çaylara, düzə.

Qanlı vuruşma xeyli uzanır. Gəncə mahalının qocaları Nəsib Sultandan bu döyüşün qurtarmasını, əhalinin qırılmasına son qoymasını xahiş edir. Nəsib Sultan nəinki döyüşü dayandırır, hətta qocalara bildirir ki, Tiflisdə məskunlaşmış «rusları imdada çağırıb, Cavad xanın qanını tökəcəyəm».

Tarixi mənbələrdən də aydın olur ki, çar qoşunları Azərbaycanı işğal etmək üçün məqam, fürsət gözləyirdilər. Nəsib Sultanın bu hərəkətləri ruslara arzularının həyata keçməsi üçün şərait yaradır. Rusların Azərbaycan torpaqlarına daxil olacağından və talançılıqdan narahat olan ağsaqqallar ikinci dəfə Nəsib Sultanın yanına gedir və rusların bu regiona daxil olmalarına kəskin etirazlarını bildirirlər:

Dedilər qocalar: «Belə yaramaz!
Adam qisasını bu təhər almaz!
Bizim ölkə cana yetib xanlardan,
Yaxasını qurtarmamış onlardan
İmperator gəlsə daha zülmdür.
Minər boynumuza istibdadlı çar
«Qayış baldır» kimi yapışar, qalar».

Şəxsi hissləri milli duyğulardan xeyli ucada duran Nəsib Sultan qocaların bu ağıllı məsləhətlərini qulaq ardına vurur, onları eşitmir.

Fikrimizcə, əsərdəki qocalar xalqın ümumiləşdirilmiş obrazıdır. Onlar Rusların Azərbaycan torpaqlarına ayaq basmasına və bu torpaqlarda ağalıq edərək xalqa olmazın əzablarını verəcəklərinə heç cür razı ola bilmir. Müəllif göstərir ki, qocaların etiraz və üsyanından qorxan Nəsib Sultan elini, obasını unudaraq «prim» deyib bərk-bərk ruslardan yapışır və onların Gəncə üzərinə yeriməsinə nail olur.

Qocalar kimi Gəncə xanı Cavad da rusların gəlişini müsbət qarşılamır, hətta onlara məktubla müraciət edərək bildirir ki, nə qədər mal-mülk istəsəniz verərəm, təki bu torpaqları tərk edin. Məktubda oxuyuruq:

Baxın bir siz hara, bu yerlər hara
Nə olub sizləri eliyən vadar.
Qəsdinizdən bizi edin xəbərdar
Gəlib bura sizlər cəfa çəkirsiz
Qanınızı hədər yerə tökürsüz.

Qoyun bizi azad olub yaşayaq
Yükümüzü biz özümüz daşıyaq...
Nədir muradınız, dövlətdən maldan.
Alın, çıxın gedin bizim mahaldan.

Cavad xan yaxşı anlayır ki, rusların bu mahala gəlişi, yalnız onun faciəsi deyil, həm də millətin faciəsidir. Çünki onlar öz gəlişləri ilə bu millətə əlavə dərd, əzab və iztirablar gətirəcək, onları qula çevirəcək.

İmperiya qoşunlarının Gəncəyə hücumunu görən əhali Cavad xanın ətrafında sıx birləşir və ruslarla mübarizəyə qalxır. Rusların dörd ay arası kəsilmədən edilən hücumları bir nəticə vermir. Yalnız dörd aydan sonra uzun nərdivanlardan istifadə edən çar qoşunları qalanı aşıb şəhərə daxil ola bilir. Göründüyü kimi, müəllif yalnız sağlam milli-mənəvi məfkurə nümayiş etdirmir, tarixilik baxımından da həqiqətə sadiq qalır. Doğrudur, bəzi mənbələr Cavad xanın məğlub olmasının səbəblərindən birini əhalinin onu müdafiə etməməsində görür. Lakin tarixi faktlar göstərir ki, bu tamamilə yanlış bir fikirdir. Gəncə hadisələrini qələmə alan və çoxlu təhriflərə yol verən N.F.Dubrovinlə H.K.Sanılının fikirləri bu nöqtədə üst-üstə düşür: «Şəhər dəhşətli bir hala düşmüşdü. Şəhərin küçələri həlak olmuş insan cəsədləri ilə örtülmüşdür. Ayaq atmaq mümkün deyildi. Əsgərlər küçələri təmizləməli oldular. Qadınların ah-nalələrindən qulaqlar tutulurdu. Onların qışqırıqları insanda müdhiş vahimə yaradırdı»[78].

[78] N.F.Dubrovin. İstoriya Vaynı i vladıçestva ruskix na Kavkaze. T. IV. SPB. 1888, s.11)

P.N.Kovalevski 1915-ci ildə yazdığı «İstoriya zavoyevaniya Kavkaza» adlı əsərində göstərir ki, rus qoşunları Gəncə şəhərini çox çətinliklə tutduqdan sonra məlum oldu ki, döyüşlərdə 1750 nəfər gəncəli həlak olmuş, 17724 nəfər isə əsir götürülmüşdür. Təxminən eyni fikrə Rəşidbəy İsmayılovun «Azərbaycan tarixi» əsərində də rast gəlirik: «Gəncə müharibəsində yaralananlardan savayı iki mindən ziyadə həlak olmuşdular, on səkkiz minədək əsir tutulmuşdular»[79].

Gəncə döyüşlərinin şahidi olan Əbdürrəhmanağa Dilbazoğlunun aşağıdakı şeiri də əhalinin Cavad xanı qəhrəmanlıqla necə müdafiə etdikləri «Namus davası»ndakı obrazlı, bədii tarixiliyin xeyrinə həll edir:

Yığdı ləşkər, girdi meydanə ədavət qıldılar
Qırdılar ədayi ol dəmdə fərağat qıldılar,
Xub döyüşdü Gəncə xalqı bir rəşadət qıldılar,
Haqu yolunda bəzi kəs ol dəm şəhadət qıldılar.

Nağı bəy Şeyxzamanlı Türkiyədə çap etdirdiyi kitabında əsgərlərinin Cavad xana olan sevgisini belə ifadə edirdi: «...zabitlərlə qala bürcünə çıxan bir rus çavuşu Cavad xanın meyidini küfr edir və cəsədə bir qılınc zərbəsi vurur. ...Döyüşçü silahsız vəziyyətdə olduğunu bir anlıq unudaraq cəld əlləri ilə rus çavuşunun xirtdəyindən yapışır. Mübarizənin sonunda ikisi də cansız halda yerə sərilir. Rus çavuşu döyüşçünün dəmir barmaqlarının gücündən,

---

[79] Rəşidbəy İsmayılov. Azərbaycan Tarixi. Bakı, 1993, səh. 105.

Azəri döyüşçüsü isə boğarkən digər rus döyüşçüsünün vurduğu qılınc zərbəsindən həlak olur»[80]. Əlbəttə, bu kimi misalların sayını istənilən qədər artırmaq da olar, lakin bizə elə gəlir ki, deyilənlər əhalinin Cavad xanı necə müdafiə etdiyini tamamilə sübut edir.

Cavad xanın məğlub olmasının əsas səbəblərindən biri Gəncədəki ermənilərin xəyanəti, satqınlığı və digər xanların onu lazımınca dəstəkləməməsi olmuşdur.

Tarixi həqiqətlərə sadiq qalan H.K.Sanılı Cavad xanı say və silahca ondan qat-qat üstün olan rusların qarşısından qaçmadığını, düşmənlə mərdliklə vuruşduğunu da göstərirdi:

Qorxulu bir bürcdə durub Cavad xan,
Əlində qılıncı yırtıcı aslan,
Vurun deyib, hərdən nərə çəkirdi
Soldatları pəncər kimi tökürdü.

Nəsib Sultanın namusu ilə əlaqədar başlayan döyüş getdikcə daha ictimai xarakter alır. Əsərdə simvolik xarakter daşıyan namus davası fərdin yox, millətin namusudur. İndiyə qədərki tədqiqatlarda göstərilir ki, bu dava Nəsib Sultanın namusu üzərində köklənmiş davadır.

Əsərdə Nəsib Sultanın deyil, millətin tapdanan namusu daha qabarıq verilir və poemanın leytmotivini təşkil edir. Poemanın əvvəlində çirkin əməlləri ilə oxucunun qə-

---

[80] Nağı Keykurun (Şeyxzamanlı). Azərbaycan istiqlal mücadiləsinin xatirələri, İstanbul, 1964, səh. 7.

zəblə andığı Cavad xanı əsərin sonunda millətin mənafeyi, onun əsarət zəncirinə düşməməsi uğrunda apardığı mübarizə meydanında rəğbətlə yad edir. «Namuslu» Nəsib Sultan döyüş meydanında görünmür. Cavad xan isə düşmənlə üz-üzə vuruşur və xalqın namusu uğrunda qəhrəmanlıqla həlak olur.

Doğrudur, şair əsərdə Cavad xanı bəzən «murdar», «Qacar», «məlun» adlandırır. Lakin bu adları Cavad xana müəllifdən əvvəl, zamanın özü vermişdi. Ona görə də müəllif Cavad xanı müsbət bir tarixi şəxsiyyət kimi təqdim edə və onun ruslarla apardığı mübarizəsini, bu mübarizənin tarixi əhəmiyyətini hər tərəfli açıqlaya bilmirdi. Əsərdə Cavad xan ziddiyyətli bir obraz kimi təqdim olunur. Lakin müəllif Gəncə xanının elə bir tarixi xidmətini qabardır ki, onun bütün çatışmamazlıqlarını kölgədə qoyur. Tarixdən də məlumdur ki, Cavad xanın apardığı mübarizənin mərkəzində vətənin yadelli işğalçıların əlinə keçməməsi və vətən övladlarının xilası ideyası durur. Məsud Əlioğlu yazır: «Sultanın xəyanəti xanın xəyanəti ilə müqayisədə daha iyrənc mahiyyət alır. Şair xəyanətin hər iki növünü dərin ürək ağrısı ilə lənətləyir; fərdi, şəxsi mənafeyə edilən xəyanət, nəticədə ictimai xəyanətə, xalqı, ölkəni və vətəni satmağa gətirib çıxarır ki, bu da namus üstündə başlanan müharibələrin romantik ruhunu, əzəmətli mənasını kiçildir»[81].

Əgər müəllif «Namus davası» əsərində Azərbaycanın imperiyanın qanlı caynaqları arasına necə düşməsini gös-

[81] «Azərbaycan» jurnalı. 1966, № 9, səh. 199.

tərirdisə, «Turut qaçaqları» (1935) poemasında artıq bu imperiyaya qarşı çevrilmiş qaçaq hərəkatını təsvir edirdi.

Əsərdə Osman, Nəbi, Əjdər, Nağı və sairə kimi dəliqanlıların azadlıq uğrunda mübarizəsi ön plana çəkilmişdir. Qaçaqlar Azərbaycanda ağalıq edən qubernatorlara, pristavlara, naçalniklərə və onların əlaltıları olan yerli bəylərə, xanlara... qarşı mübarizə apararaq yoxsulların müdafiəçisi kimi çıxış edirlər:

İgidlər igidi Şəmkir qaçağı,
Söylədi: «Yoldaşlar!» bu polis misir
Yoxsul camaatı çox asır-kəsir.
Çoxdandır etmişəm mən bunu dilək,
Gərəkdir dəftərdən adını silək.
Qanıbdır, görünür o, fikrimizi,
Qaçıbdır bənizi, titrəyir dizi.
Deyirəm məclisi eyləyək tamam,
Alaq hökumətdən bala intiqam:
Örnək olsun geri qalanlarına,
Yetişsin xəbəri rus çarına».

Qaçaqların yoxsulları müdafiəsi onların gücünü bir az da artırır. Yoxsul kəndlilər yeri düşdükcə qaçaqları ərzaq və silahla təmin edir. Onların ələ keçməməsi üçün əllərindən gələni edirlər. Bəzən əhali öz həyatlarını təhlükə qarşısında qoyaraq qaçaqlar çar qoşunlarının əlinə keçməsin deyə, onları evlərində gizlədirdilər. Ona görə də çar qoşunları və məmurlar onları məğlub edə bilmirdi. Qaçaqların gündən-günə artan şücaəti gedib Peterburqda Nikola-

yın özünə də çatır. Qaçaqların xalq tərəfindən müdafiəsi Nikolayı çox narahat edir. Hadisələrin gələcək inkişafından qorxuya düşən Nikolay əsəbi vəziyyətdə deyir:

«Qaçaqlara, çörək, paltar verəni,
İstərsə müsəlman, istər erməni,
Tutub cümləsini, çatın qolqola,
Sibirin buzuna tez salın yola.

Cərimə eləyin müqəssir kəndi,
Qubernat, naçalnik, var hər nə fəndi
İşlədib qaçağı tutsun ya qırsın,
Xanları, bəyləri kömək çağırsın».

Əsərdə təsvir olunan ərazilər şairin görüb gəzdiyi yerlər olduğundan onların təsviri real və canlıdır. Onun «Aran köçü», «Namus davası», «Trut qaçaqları» və s. əsərlərindən aydın olur ki, o, xalqın adət-ənənələrini, mərasimlərini dərindən bilmiş və yeri gəldikcə əsərlərində istifadə etmişdir. Adları çəkilən əsərlər tarix, dilçilik, folklorşünaslıq, etnoqrafiya baxımından da zəngin material verir.

Onlarla səciyyəvi örnəkdən yalnız birini misal gətirdiyimiz bu ibrətli nümunə də göstərir ki, özünü bir sinfin və bir partiyanın diktaturası elan etmiş yarı hərbi - bürokrat rejimin narahat olmağa və total repressiya əməliyyatına başlamağa, şübhəsiz, haqqı və əsası vardı. Birinci növbədə ziyalılara qarşı çevrilmiş tikanlı məftillərsiz və konslagerlərsiz gələcək qırmızı imperiyanı qurmaq mümkün olmazdı. Bütun bunlar Sanılını tarixə, kökə, istiqlal kodlu və şifr-

li yaddaşa bağlayan amillər idi ki, reaksiyasız qala bilməzdi. İlk qurbanlardan biri kimi Sanılı 1937-ci ildə yenidən həbs edildi (Sovet dövründə bu onun 5-ci həbsi idi - C.Q).

Tək Sanılı yox, H.Cavid, S.Mümtaz, Ə.Cavad, F.Köçərli, S.Hüseyn, Qantemir, Ə.R.Şamçızadə, V.Xuluflu, M.Müşfiq, A.İldırım və onlarca başqaları da müstəqillik və istiqlaliyyət ideyalarının qurbanları olmuşlar.

«Ziyalı və inkvizasiya» tipologiyasına tarixdən, dünya ədəbiyyatından çox misallar gətirmək olar. XX yüz ilin üçüncü on ilində Azərbaycanda baş verən hələlik son «inkvizisiya» özünü mənəvi sərvətlərə qarşı çevrilmiş kütləvi, total repressiya şəklində göstərdi. Bu repressiyanı miqyas və əhatəcə hürufilərin orta əsrlərdə rast gəldiyi dini-feodal irtica və zorakılıqlarla müqayisə etmək olar. XV əsrin əvvəllərində Azərbaycan ədəbiyyatının və fəlsəfi fikrinin yaşadığı tragik-dramatik taleyi XX əsrin birinci yarısında bu ədəbiyyat sanki yenidən yaşadı. Hürufilər, eləcə də dərisi soyulan Nəsimi istila və zülm, nadanlıq və cəhalət əleyhinə mübarizəyə qan tökən, atəş sovuran qoşun toplamadı. Gəzdirdikləri «qılınclar» taxtadan hazırlanmış rəmzi qılınclar oldu. Cahangirlər hüzuruna kamalla və ağılla çıxmağa üstünlük verdilər. Sanki böyük Füzuli də babalarının ideyalarından ruhlanaraq ölkələr fəth edən şahlarla özünün hər biri bir pəhləvan olan söz ordusunu qarşı-qarşıya gətirdi və onlara sözlə meydan oxudu.

Uca sözlə qapalı rejim arasında tarixi - təkbətək savaş sonuncu dəfə də - XX əsrdə də çılpaq fiziki mənada zorun və qılıncın xeyrinə qurtardı. İslam və türk dünyasında ilk müstəqil, demokratik, milli dövləti quranlar hürufilər ki-

mi taxta qılıncla çıxmasalar da, Füzuli kimi qələmi mənəvi yüksəklikdə - zirvədə saxladılar. Cümhuriyyətin süqutundan sonra hürufilər kimi Azərbaycan Xalq Cümhuriyyətinin də mübariz oğulları Vətəndən didərgin salındı, irtica, istibdad, təqiblər və siyasi repressiyalar başlandı.

## 2. Siyasi repressiyanın təşəkkülü və mərhələləri.

Azərbaycanda siyasi repressiya anlayışı hər şeydən qabaq XX əsrin 37-ci ilini yada salır. Lakin zirvə məqamı, kulminasiya nöqtəsi kimi 37-ci il öz başlanğıcını, qaynağını çox-çox əvvəllərdən alır. Ona görə də 30-cu illərə aparan yolu müəyyənləşdirmədən siyasi repressiyalara düzgün qiymət vermək mümkün deyil.

Siyasi repressiyaya məruz qalmış şəxsiyyətlərdən bəhs edən məqalə və kitablarda repressiyaya ilk dəfə kimin məruz qalması və repressiyaların nə zamandan başlaması axtarışının daha çox təshihə ehtiyacı olsa da bu əsasən doğru bir fikirdir ki, «...30-cu illərin faciəsi» heç də 1937-ci ildən başlamır. «1937-ci il» V.İ.Leninin vəfatından sonra ölkəmizdə yenicə bərqərar olmağa başlayan demokratiyanın öz relsindən çıxarılmasının məntiqi nəticəsi idi. Bolşevizmi inqilabi inkişaf və yaradıcılıq yolundan sapdırıb, onu inzibati amirlik aparatına çevirmək meylləri artıq 20-ci illərin ortalarında bir sıra leninçi bolşeviki narahat etməyə başlamışdır»[82].

---

[82] Cəmil Həsənov. «Ağ ləkə»lərin qara kölgəsi. Bakı, 1991, səh. 125.

Müşahidələr göstərir ki, 20-ci illərin repressiyaları 30-40-cı illərin repressiyalarından fərqlənir. Hətta bəziləri 20-ci illərdə bu prosesin 30-cu illərə nisbətdə zəif, ləng getdiyini qeyd edirlər: «20-ci illərdə repressiyaların zəifliyi və miqyas darlığı bir də onunla bağlı idi ki, hələ kimi nəyin üstündə repressiya etmək reseptləri tam hazır olmamışdı»[83].

Müəllifin unutduğu mühüm cəhət ondan ibarətdir ki, bolşeviklər əvvəlcə ölkələri, sonra isə şəxsiyyətləri və mənəvi sərvətləri məhv edirdilər. 20-ci illərin əvvəllərində ölkələri fəth etmə prosesinin özü başa çatmamışdı, başqa sözlə, SSRİ hələ tam qurulmamışdı. Birinci mərhələ başa çatmadığından şəxsiyyətlərin repressiyası prosesi 20-ci illərdə bir qədər yumşaq xarakter daşıyırdı. «Miqyas darlığı» məsələsinə gəldikdə isə deməliyik ki, bolşeviklər 20-ci illərdə kifayət qədər adamı məhv etmişdilər. Bolşeviklərin Azərbaycana daxil olduqları zaman öldürdükləri və sonrakı illərdə baş verən üsyanlar zamanı qırdıqları, sürgün və mühacirətdə yaşamağa məcbur etdikləri qurbanların sayı dediklərimizə sübutdur və bu heç də 37-38-ci illərdəkindən az deyildi..

Göründüyü kimi, kimin necə və niyə siyasi repressiyaya məruz qalması sualına cavab axtarışı mövcud tədqiqatlarda daha qabarıq şəkildə göstərilir. Lakin siyasi repressiyalara fərdin, şəxsiyyətin necə və niyə məruz qalması sualına cavab verməzdən əvvəl hansı xalqın, ölkənin, millətin

---

[83] «Can sözdür, əgər bilirsə insan...» (məqalələr məcmuəsi), Bakı, 1997, səh. 25.

necə və nəyə məruz qalması sualına cavab axtarmaq lazımdır.

Məsələyə bu miqyasda və bu aspektdən yanaşılsa görərik ki, siyasi repressiya zaman etibarı ilə Azərbaycanda iki müstəqil respublika (Azərbaycan Xalq Cümhuriyyəti və Azərbaycan Respublikası) arasındakı məsafədən uzundur və repressiyaya ilk dəfə məruz qalan Azərbaycan Xalq Cümhuriyyətinin özü olmuşdur. Məsələlərə bir qədər də dərindən yanaşsaq görərik ki, repressiyanı tarixən hazırlayan mənbələrin, qaynaqların sorağı Gülüstan-Türkmənçay müqavilələrinin sənədlərindən gəlir. Və məsələlərə sovet lüğətlərində olduğu kimi repressiya «cəzalandırmaq» deməkdir, prizmasından deyil, daha qlobal yanaşsaq çılpaq görünər ki, sovet siyasi repressiyaları bolşevikləşmə illərində yeni məna və çalar qazandı, o cəzalandırmaq yox, «əzmək», «məhv etmək» funksiyasını icra etməyə başladı, sosializmin idarə və iş üsuluna çevrildi. Deməli, məhv edilən və əzilən təkcə şəxsiyyətlər yox, həm də dövlət, milli ideologiya və maddi-mənəvi sərvətlər oldu.

Çar Rusiyasının iti caynaqlı və ikibaşlı yırtıcı qartallı bayrağı ilə, Sovet imperiyasının biçməyə və əzməyə hazır olan oraq çəkicli bayrağı arasında Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli, ay ulduzlu bayrağını da görürük. Təxminən 80 ilin arxasından görünən bu üç rəngli, ay ulduzlu bayraq o zaman da bu iki imperiya bayrağı arasında indi olduğu kimi demokratikliyi ilə seçilirdi. Xalqın istək və arzularından yaranan Azərbaycan Xalq Cümhuriyyəti repressiyaya məruz qaldıqdan sonra, onun yaranmasında və yaşamasında xüsusi xidmətləri olan, eləcə də olmayan

bir çox şəxsiyyətlər - ictimai-siyasi xadimlər təqib və təzyiq qarşısında qaldılar. Şəxsiyyətin və mənəvi sərvətlərin məhvi - keçmişlə, əcdadla, yaddaşla, klassik irslə mənəvi əlaqənin və mənəvi ünsiyyətin məhvi demək idi. Xalq tarixi dövlətçiliyini, müstəqilliyini və mənəvi zənginlik irsini qorumaq üçün uzunmüddətli mübarizəyə qalxdı. Bir çox yerlərdə üsyanlar başladı. Məmməd Əmin Rəsulzadə «Çağdaş Azərbaycan tarixi» adlı məqaləsində göstərirdi ki, Azərbaycanın Daxili İşlər Naziri Bağırov 1925-ci ildə verdiyi bir raportda 52-dən artıq üsyan hadisəsinin olduğunu qeyd etmişdir. Bu fakt bir daha göstərir ki, sovetləşmənin sonrakı illərində də azərbaycanlılar öz azadlıq və müstəqillikləri uğrunda mübarizə aparmışlar. M.Ə.Rəsulzadə yazırdı: «Bu əməli müqavimət hadisələri ilə bərabər məmləkətdə siyasi konspirasiya, yəni gizli çalışma aktları da güclü şəkildə davam etdi. Gizli bəyannamələr, hətta qəzetlər nəşr olundu. Bakıda, «Çeka»nın lap yaxınlığında gizli bir mətbəə işləyirdi: burada çap edilən «İstiqlal» qəzeti 19-cu nömrəsini buraxmağa müvəffəq olmuşdu»[84].

Azərbaycanlılar Şura hökumətinin gəlişini yalnız mərkəzdə, paytaxtda deyil, ayrı-ayrı əyalətlərdə də müsbət qarşılamamış, bu hökumətə və onun üsul-idarəsinə qarşı mübarizə aparmışlar. 1920-ci illərdə sovetlərə seçki kompaniyası daha kəskin ictimai etiraz hissi ilə qarşılanmışdır. Fikrimizcə, bu etirazları tam aydınlığı ilə görmək üçün Mirzə Bala Məmmədzadənin 1929-cu ildə çap etdirdiyi

---

[84] M.Ə.Rəsulzadə. «Əsrimizin səyavuşu», «Çağdaş Azərbaycan tarixi», «Çağdaş Azərbaycan ədəbiyyatı». Bakı, Gənclik, 1991, səh. 93.

«Azərbaycan həyat və mətbuatından» adlı məqaləsindəki müxtəlif qəzet materiallarından götürülmüş faktlara nəzər salmaq kifayət edər. «Sovetlərə seçki Azərbaycan həyatında olduqca mühüm bir hadisə oldu. Azərbaycan qəzalarından alınıb da Bakı və Tiflis qəzetlərində dərc olunan raportlar bolşevikləri məmnun edəcək xəbərlər deyildir. Lənkəran qəzasında seçki komisyonunu hallı köylülərlə ortabab köylülər işğal edərək, kommunistləri qovmuşlar. Hətta bir çox yerlərdə öldürmüşlər. («Zarya Vostoka» № 299).

Yenə «Zarya Vostoka»nın eyni nüsxəsində yazıldığına görə Cəbrayıl qəzasında köylülər: «Sinfi mücadilə və sinfi düşmənlik yaratmamalıdır. Biz bir-birimizə lazımıq və bir-birimizi sevməliyik. Bu torpaqda göyərən taxıl bizim müştərək alın tərimizin məhsuludur. Seçkilərə müştərəkən gedəlim, ehtiyaclarımızı bilən vəkillər seçəlim...» şüarları ilə birləşərək Sovet hökumətinin tərtib etdiyi icmaları dağıtmışlar.

«Kommunist» qəzetinin (№ 2503) yazdığına görə, Salyanda köylülər kommunist firqəsinin seçki yığıncaqlarını dağıdaraq kommunistləri döymüşlər və kəndiləri tərtib etdikləri listlərini başlarına keçirməyə and içmişlər.

Gəncə qəzasında köylülər daha çox fəaliyyət göstərirlər. Bir çox nahiyələrdə sovetləri və seçki komisyonlarını tamamilə işğal edərək, kommunistlərin yalnız yoxsullara məxsus çağırdıqları seçki yığıncaqlarını müştərək köylü yığıncaqlarına çevirmişlər («Kommunist», № 2486). Qəzet əlavə edir ki:

«Gəncə qəzasının Sərkar, Söran, Bəyəhmədli, Şamxor, Samux, Dəlilər, Dəliməmmədli və s. kimi nahiyələrində seçki zamanı və bu vuruşmalarda 13 kommunist öldürülmüşdür».

Yenə eyni qəzetin eyni nüsxəsində oxuyuruq ki, Göyçay, Ağdaş, Şəki və Quba qəzalarında hallı köylülərlə ortabablar birləşərək seçki komisyonlarını işğal etmiş və kommunistlərlə tərəfdarlarını ölüncəyə qədər döydükdən sonra icmaları dağıtmışlar.

«Zarya Vostoka» qəzetinin (№ 278) yazdığına görə Qazax, Tovuz və Nuxa qəzalarında köylülər kommunistlərin çağırmış olduqları seçki yığıncaqlarını zorla dağıdaraq kəndiləri istədikləri adamlardan ibarət seçki komisyonları düzəltmişlər və kəndi listələri mövcubunca seçkiyə başlamışlar.

Ağdam qəzasında köylülər «bolşevik seçkilərini boykot» şüarı ilə sovet seçkilərinə iştirakdan imtina etmişlər.

Seçkilər mücadiləsində Ağdamda bir çox kolxoz, sovxoz və sovet müəssisələri yandırılmış, bir kaç kommunist diri-diri yandırılmışdır. Lənkəran və Salyan tərəflərində 17 kommunist qətl edilmişdir»[85].

Göründüyü kimi, azərbaycanlılar sovetləşməni, bolşeviklərin dedikləri kimi, heç də gül-çiçəklə qarşılamamış, əksinə, totalitar rejimin amansızlıqlarına baxmayaraq ona qarşı mübarizə aparmış, müstəqilliklərini müdafiə etməyə çalışmışlar.

---

[85] Mirzəbala Məmmədzadə. Azərbaycanın həyat və mətbuatından, «Odlu yurt» jurnalı, İstanbul, 1929, № 2, səh. 55-56.

Bunlara baxmayaraq sovet hökuməti həyatın bütün sahələrində, o cümlədən sənət və ədəbiyyat sahəsində, diktatorluqla proletar hegemonluğu yaratmağa çalışırdı. 20-ci illərin əvvəllərində kommunist partiyasının sənətin müxtəlif sahələrinə aid çıxardığı qərar, qətnamələr, eləcə də verdiyi fərmanlar və yaratdığı müxtəlif təşkilatlar, bu sahədə atdığı digər addımlar da dediklərimizə sübutdur.

Belə ki, 1921-ci ildə Azərbaycan K(b)P Bakı Komitəsi yanında «Ədəbiyyat heyəti», 1922-ci ildə «Azərbaycan Zəhmətkeş Ədib və Şairlər İttifaqı» (az sonra bu ittifaq «İldırım» adlandırılmışdır - C.Q), 1925-ci ildə «Ədəbiyyat cəmiyyəti», 1926-cı ildə «Qızıl qələmlər ittifaqı», 1928-ci ildə «Azərbaycan Proletar Yazıçılar Cəmiyyəti» yaradıldı. Yaradılmış hər bir cəmiyyət və ittifaqın əsas məqsədi yazıçı və şairləri, eləcə də gənc ədəbi qüvvələri müasir «notlar üzərində kökləmək», onları yeni həyatın təbliğinə səsləmək idi. Kommunist partiyasının bu tələblərinə cavab verməyən təşkilatlar ya ləğv edilir, ya da digəri ilə birləşdirilirdi. Məsələn, «Ədəbiyyat cəmiyyəti» işin öhdəsindən gələ bilmədiyindən 1926-cı ilin 30 noyabrında Gənc Qızıl Qələmlərlə birləşdirildi və 1927-ci ildən «Maarif və mədəniyyət» jurnalı «Qızıl qələmlər»in orqanına çevrildi.

Gənc qızıl qələmlərin fəaliyyətindən bəhs edən Əli Nazim yazırdı: «Azərbaycan ədəbiyyatı qızıl cəmiyyətində toplanan qızıl gənclər göstərdilər ki, onlar bir tərəfdən, əski ədəbiyyat, çürük fəlsəfələr, bədii düşüncələr, xəstə duyğular, matəmli baxışlar və acı-ümidsiz gülüşlərinə qarşı canlı cəsarətlər, qüvvətlər, ümidli nəşə və qalibiyyət sevincləri ilə dolu qızıl şeirlərə malik olduqları kimi, digər

tərəfdən sufiyanə fəlsəfələrə, mistik görüşlərə, dini hisslərə və alçaq milli təəssüb və turançılıqlara qarşı marksizm dialektikası ilə yoğrulmuş materialist həyat görüşünə, proletar beynəlmiləlçiliyinə, leninizm məfkurəsinə malikdirlər»[86].

RK(b)P MK-nın «Partiyanın bədii ədəbiyyat sahəsindəki siyasəti haqqında» 18 iyun 1925-ci il tarixli qətnaməsi ədəbi prosesin inkişafında yeni mərhələ hesab olunurdu. Bu siyasi sənədin əsas məzmununu mövcud mərhələdə proletar ədəbiyyatının bədii və nəzəri naliyyətlərinə partiyanın rəhbərliyi təşkil edir. Bu sənəddə iki cəhət - ədəbiyyatın proletarlaşdırılması və ona partiya rəhbərliyi tələbi daha qabarıq görünürdü. Qətnamədən aydın olur ki, bolşeviklər proletar ədəbiyyatını hegemon bir ədəbiyyata çevirmək istəyirlər, proletar yazıçıları, kəndli yazıçıları və cığırdaş yazıçılar arasında nisbəti proletar yazıçıların tam hegomonluğu vəziyyətinə çatdırmaq üçün konkret təşkilati və ideoloji proqram həyata keçirmək istəyirlər.

Partiya hegemonluğu proletar yazıçılarına verirdi. Qətnamədə kəndli yazıçılara dostcasına münasibət bəslənilməsi bildirilsə də onların artan kadrlarını proletar ideologiyası relsləri üzərinə gətirilməsi əsas vəzifələrdən biri kimi irəli sürülürdü.

RK(b)P MK-nın qətnaməsində «cığırdaş» yazıçılar da unudulmamışdır. «Cığırdaş»lar tezliklə hər cür axtarış, tərəddüd, büdrəmə psixologiyasından uzaqlaşmalı, «proletar relsləri» üzərinə keçməli idilər.

[86] «Maarif və mədəniyyət» jurnalı, 1927, №6, səh. 26.

Məqsəd bütün sənət adamlarını, o cümlədən görkəmli yazıçıları da marksist-leninçi platformaya yaxınlaşdırmaq, onların şüur və düşüncə tərzində də sosialist inqilabı etmək idi: «Məlumdur ki, xüsusən, 1920-25-ci illərdə inqilabdan əvvəl fəaliyyətə başlamış yazıçılar aparıcı mövqeyə malik idilər. Bu, bir növ yeni ədəbiyyatın əvvəlki ilə haqq-hesab dövrü idi. Keçmişin ədəbi irsindən, XX əsrin realist demokratik ədəbiyyatından, habelə yeni Azərbaycan romantizmindən nəyi və necə götürmək məsələsini ədəbiyyatşünaslıq həll etməli idi. Bu mərhələdə ən çətin məsələ yazıçının inqilabi cəmiyyətdə və inqilabi sənətdə mövqeyini düzgün təyin etməkdən ibarət olmuşdur...»[87].

Əslində bu siyasi xətt bütün yazıçılara, sənətin bütün sahələrinə aid idi.

Yuxarıda bəhs etdiyimiz qətnamə 1925-ci ildə qəbul olunsa da onun əsas müddəaları V.İ.Leninin 1905-ci ildə yazdığı «Partiya təşkilatı və partiya ədəbiyyatı» adlı məqaləsindən irəli gəlirdi.

V.İ.Lenin 1905-ci ildə yazdığı «Partiya təşkilatı və partiya ədəbiyyatı» adlı məqaləsində ədəbiyyatı və sənəti proletar işinin bir vintciyinə, təkərciyinə çevirməyi planlaşdırmışdı: «Partiyalı ədəbiyyat prinsipi nədən ibarətdir? Bu prinsip yalnız ondan ibarət deyil ki, sosialist proletariat üçün ədəbiyyat işi şəxslərin və ya qrupların asan qazanc əldə etməsi üçün vasitə ola bilməz, bu iş ümumiyyətlə, ümumproletariat işindən asılı olmayan fərdi iş ola bilməz. Rədd olsun bitərəf ədəbiyyatçılar! Rədd olsun fövqəlbəşər

[87] Nizaməddin Babayev. Ədəbi mübahisələr, Bakı, 1986, səh. 8.

ədəbiyyatçılar! Ədəbiyyat işi ümumproletariat işinin bir hissəsi, bütün fəhlə sinfinin bütün şüurlu avanqardı tərəfindən hərəkətə gətirilən vahid, böyük-sosial-demokrat mexanizminin «təkərciyi və vintciyi» olmalıdır»[88].

Belə bir təlimi əsas tutan bolşeviklərə görə Kommunist partiyasının üzvü olub-olmamasından asılı olmayaraq, bütün sənət adamları öz start xətlərini marksist-leninçi platformadan götürməli idilər. Deməli, bütün elm və sənət adamlarının özləri olmasalar da, bütün elmlər və bütün sənət növləri Kommunist partiyasının «üzvü» olmalı idi.

M.Rəfili bu məsələyə öz münasibətini «Partbiletsiz kommunist» şeirində belə ifadə edirdi:

Ətrafında firqənin
Toplaşmaq gərək
Olmasa partbilet belə!
Bu bir qanun olsun gərək
Partbiletsiz kommunistə:
Hər nə firqə əmr edirsə
Cavab versin:- Baş üstə![89]

Qeyd-şərtsiz, etirazsız-filansız partiyanın göstərişlərinə müti qul kimi «baş üstə» - demək, proletar inqilabının sovet xalqlarına «kommunist cənnəti» gətirdiyini təsdiqləmək, həbsləri, sürgünləri, konslagerləri, qəsdləri görə-görə «ələmdən nəşəyə» keçdiyini elan etmək ümumsovet el-

[88] V.İ.Lenin. Əsərləri, 4-cü nəşr, 10-cu cild, Bakı, 1967, səh. 32.
[89] Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə, I cild, Bakı, 1967, səh. 606.

mindən, ümumsovet mədəniyyəti və ümumsovet ədəbiyyatından, eləcə də kəndlidən, fəhlədən, ziyalıdan, bir sözlə, sovet adamından tələb olunurdu.

Əlbəttə, 70 illik Sovet ədəbiyyatının üzərinə tamamilə qara xətt çəkmək, ondan imtina etmək də ciddi metodoloji problemə bolşevikcəsinə yanaşmaq demək olardı. Vəzifə yaxın ədəbi keçmişə obyektiv-elmi və tarixi dialektik şəkildə yanaşmaq ciddi uğurlarla yanaşı, bolşevik ideologiyanın və total diktatura rejiminin nəticəsi olan neqativ bədii hadisələri də olduğu kimi göstərməkdən ibarətdir. Belə «neqativ məqamlar» isə ədəbi prosesdə həddən artıq çox olmuşdur.

Bəşər tarixinin idrakda və düşüncədə keçdiyi yola «fəlsəfə bugün olduğu kimi, iki min il bundan əvvəl də partiyalı idi» (V.İ.Lenin) prizmasından yanaşan ehkamçı, doqmatik, sinfi, partiyalı şüur - marksist-leniniçi metodologiya Nizamini utopik sosialist, Bağdadda, Kərbəlada yaşayan Füzulini ateist elan etdi. Sufilik və hürufilikdən doğan, lakin bu təriqətlərə sığmayan, bunların hər ikisindən uca və böyük görünən Nəsimi də «həq məndədir» fəlsəfi fikri ilə sosialist tənqidinin köməyi nəticəsində sufilikdən ateizmə qədər yol gəldi. Nəsimiyə sığan iki cahan - sufilik və hürufilik öz məcrasından çıxarıldı, onun sələf və xələflərindəki fənafüllahlıq, başqa sözlə eşqlə allahda əriyib yox olmaq, onda təcəlli etmək ateizmə doğru yol kimi mənalandırıldı. Bu sənətkarların dini-fəlsəfi (irfani, sufi, hürufi...) əsərləri nəşr olunmadı və ya «qayçılanmış halda», «montaj şəklində» çap edildi. Nəticədə Nizami, Nəsimi və Füzuli sənəti bütövlüyünü, əzəmət və qüdrətini, sovet

ədəbiyyatşünaslığı isə obyektivliyini itirdi. Doğrudur, sosializm dövründə də Nizami, Nəsimi, Füzuli, Vaqif və digər klassiklər bir zirvə kimi əsrlərin arxasından görünürdü. Lakin bütün əzəmət və qüdrəti, bütün zənginlik və mürəkkəbliyi, axtarışları, təzad və ziddiyyətləri ilə yox. Çünki onlar yaşadıqları obyektiv-tarixi mühit, mənsub olduqları təşkilat və təriqətlər (əxilik, sufilik, hürufilik və s.) işığında deyil, məhz marksist-leninçi platformadan öyrənilir, daha doğrusu, təftiş edilirdilər. 1000 illik tarixi ənənəsi olan Azərbaycan ədəbiyyatının, obrazlı desək, milli qiyafəsi soyunduruldu və əvəzində ona 10-15 yaşlı sosialist köynəyi geyindirildi. Bu 10-15 ildə vulqar-sosiologiya nəinki ədəbiyyatı, eləcə də sənətin bütün sahələrini öz ağuşuna çəkdi. Marksizmin necə gəldi tətbiqi və təbliği sənətə böyük zərbələr vurdu.

Ümumiyyətlə, tarixi böhranlar, siyasi çevrilişlər, sosial kataklizmlər vaxtı həmişə olduğu kimi, sovetləşmə zamanı da ən böyük zərbə ziyalıya, yaddaşa və mənəviyyata dəydi. Ziyalıların mənəvi cəhətdən parçalanması, siyasi cəhətdən təbəqələşməsi prosesi getdi. Mənəvi parçalanma mənəviyyat adamlarının haçalanması, ikiləşməsi, mövcud rejimi qəbul və inkar edənlərə bölünməsi ilə nəticələndi. Yeni imperiya da əvvəlincisi kimi onların hər ikisini qarşı-qarşıya gətirdi və əzdi.

«Zamanın bağları qırıldı», nəsillər və ənənələr arasında tarixi keçid - irsiyyət qanunları pozuldu. Keçmişin, köhnənin inkarı sosializmin öz faciəsini doğurdu. Sənət, xalq, ədəbiyyat - millət münasibətləri kustar, utilitar səviyyə aldı, dünyaya yeni göz açan cəmiyyətin tərbiyəsi tərif və di-

firambalar oldu ki, bu da şəxsiyyətə pərəstişlə nəticələnməli idi.

İfrat sosiologizm, nihilizm, həyat həqiqətlərini «günün tələbləri səviyyəsində» qurmaq kompaniyası, partiyanın mövqelərinə sənətdə cavab vermək zərurəti konyuktur ədəbiyyatın yaranmasına səbəb oldu. Bunlar təkcə konyuktur mövqeli əsərlərin yaranmasına səbəb olmadı, eyni zamanda klassiklərin əsərləri də «müasir tələblər səviyyəsində» təhriflərə uğrayaraq nəşr edildi. Sənət adamlarının milli ədəbi prosesdə yeri və mövqeyi nə etdiyi ilə deyil, nəyi etmədiyi və nə üçün etmədiyi ilə ölçüldü. Yəni, ədəbi tənqidin əsil vəzifəsində, məzmununda və mahiyyətində zəruri bir komponent kimi ittihamçılıq, ifşa, nüfuzdan salma, hətta təhqir elementi durdu. Başqa sözlə ədəbi tənqiddə ədəbiyyatşünaslıq terminləri əvəzinə hüquqi terminlər və müttəhimə söylənilən ifadələr (cinayətkar, sovet quruluşunu dağıdan, burjua millətçi, terrorist, əksinqilabçı, quldur, qaçaq, böhtan, mürtəce, mühafizəkar, yaramaz və s.) geniş vüsət tapdı. Ədəbi tənqid bədii prosesə istiqamət vermək, yazıçıya ictimai-siyasi həyatın eybəcərliklərini, neqativ hallarını dərk və əks etdirməsi işində ona yardımçı olmaq funksiyasını itirdi. Yazıçılar müttəhimə, tənqidçilərin bir çoxu isə müstəntiqə çevrildilər. Başqa sözlə, yazıçı iki müstəntiq - xüsusi xidmət orqanları və tənqidçilər qarşısında hesabat vermək məcburiyyətində qaldı. Bunlardan hər hansı birinin zövqünü oxşamayanlar ciddi cəzalandırıldı.

Ədəbiyyatın özündə də hərbiləşmə prosesi gedirdi. Millətçiləri, qolçamaqları bir sinif kimi ləğv etməli, faşist-

lərə qarşı amansız olmalı, şairlər ordusu, komandan və s. ifadələr poeziya, nəsr və çıxışların əsas leksikonuna çevrilirdi.

Hansı şəxsiyyətlər ilkin olaraq təqib edildi?

Məlumdur ki, sovetləşmədən dərhal sonra bolşeviklər «proletkult» mədəniyyəti deyilən bir təlimi, siyasəti həyata keçirməyə başladılar. Həmin təlimə görə sənətin bütün növləri «formaca milli, məzmunca sosialist» olmalı idi.

Sosializm prizmasından baxdıqda «milli» sözü ilə millətçi sözü bir-birinin sinonimi kimi görünürdü. Ona görə də 20-50-ci illərdə «milli» sözü demək olar ki, ayrılıqda deyil, müəyyən epitetlə işlədilirdi. Ədəbiyyatşünaslıqda da «milli ədəbiyyat» anlayışını «formaca milli, məzmunca sosialist ədəbiyyat» anlayışı əvəz etdi. Əslində bu formilənin «formaca millilik» tərəfi formal xarakter daşıdı. Məzmunca sosialistlik isə aparıcı mövqedə dayandı. Həm forma, həm də məzmunca milli olanlar daha tez təzyiqlərə məruz qaldılar. 20-ci illərdə bu proses bir qədər yumşaq şəkildə həyata keçirilirdi. Belə ki, bəzi sənətkarlar həbs edilir, onlarla müəyyən «tərbiyələndirmə» işi aparıldıqdan sonra azadlığa buraxılırdılar. Məsələn, 20-ci illərdə Ə.Cavad 2 dəfə, C.Cabbarlı 1 dəfə, H.K.Sanılı 4 dəfə, Ö.F.Nemanzadə 2 dəfə, Ə.R.Şamçızadə 1 dəfə, S.Hüseyn 1 dəfə və s. həbs olunsalar da sonradan azadlığa buraxılmışlar. İstintaqa cəlb olunmayan bir çox yazıçıları isə ədəbi məhkəmələr və dövri mətbuat vasitəsi ilə sosializmin süfrəsi başına gətizdirməyə çalışırdılar. Bu tədbirləri həyata keçirməkdə əsas məqsəd yeni cəmiyyətin məddahlarını hazırlamaq idi. Həmin illərdə mədhiyyə, diframba ədəbiyyatı ilə yanaşı, dis-

sedent ədəbiyyat da yaranırdı. Əslində dissedent ədəbiyyat qadağa, senzor, hədə və təqib güclənəndə yaranır. Başqa sözlə sadaladıqlarımız dissedent ədəbiyyat üçün zəmin yaradır.

Əlbəttə, bu dissedentçilik bir qədər qapalı xarakter daşıyırdı. İrtica və istibdad gücləndiyindən görkəmli sənətkarlar yaratdıqları əsərlərdə öz ideyalarını böyük sənətin sətiraltı çalarlarında kodlaşdırırdılar.

Ümumiyyətlə, 20-50-ci illərin Stalin rejimi altında yaranan və formalaşan Azərbaycan ədəbiyyatında açıq dissedentçilik axtarmaq tamamilə yanlış olardı. Bizcə, bu illərin ədəbiyyatında içində azadlıq odu alovlandıran rəmzlər və simvollara bələnmiş «qapalı» dissedentçilik axtarmaq daha doğru olardı. M.Ə.Rəsulzadə haqlı olaraq qeyd edirdi ki, «bu rəmzlər çekist ruhlu tənqidçilər tərəfindən deşifrə olunub şairə (Ə.Cavad nəzərdə tutulur - C.Q) hücum üçün bir vasitə olur»

Həqiqətən də, Ə.Cavadın «Göy göl» əsərində qaldırdığı problemlər, eləcə də əsərin ruhunda özünə yuva tapan müstəqil Azərbaycan yanğısı deşifrə olundu və şair həbs edildi.

Onda belə bir sual doğur, bəs kommunistlər - Nəriman Nərimanov, Eyyub Xanbudaqov, Atababa Musaxanlı, Mustafa Quliyev, Ruhulla Axundov və s. nə üçün təqiblərə məruz qaldı?

Faktlar göstərir ki, aprel çevrilişindən sonra hakimiyyət kürsüsündə əyləşən kommunistlərin heç də hamısı sosializmin mahiyyətini eyni dərəcədə duymur və ona səda-

qətlə xidmət etmirdi. Daha doğrusu, hakimiyyətə gələn siyasi qüvvələrin çoxunun öz məqsəd və məramı var idi:

1. Azərbaycan Xalq Cümhuriyyəti dövründə iqtidar nümayəndələrindən incik düşən və hazırkı şəraitdə şəxsi ambitsiyalarından əl çəkməyən qüvvələr.

2. Xalqın qurtuluşunu, nicat yolunu sosializmdə görən, milli «mən»ə və milli intellektə malik olan qüvvələr.

3. Mərkəzin (Moskvanın) siyasətini həyata keçirən və müxtəlif millətlərin nümayəndələrini təmsil edən qüvvələr.

4. Azərbaycanlılardan intiqam almaq eşqi ilə yaşayan erməni millətçi qüvvələr.

Bu qüvvələr arasında mərkəz daha çox ermənilərə inanır və əsasən onların fikirləri ilə hesablaşırdılar. Azərbaycanın bütün dövlət, o cümlədən təhlükəsizlik orqanlarında ermənilər çoxluq təşkil edirdi. Bundan istifadə edən ermənilər isə bir tərəfdən tarixi düşmənçiliklərini davam etdirir, digər tərəfdən, milli düşüncəli kommunistləri Moskvanın gözündən salaraq məhv edirdilər.

N.Nərimanov, Eyyub Xanbudaqov da kommunist olmalarına baxmayaraq məzmun və formaca milli şəxsiyyətlər idi. N.Nərimanovun Leninə, Stalinə və oğluna yazdığı məktublar bunu bir daha təsdiq edir. Bu məktublar bir tərəfdən tragik-dramatik ömür yaşamış N.Nərimanovun imperiyaya, eləcə də ermənilərə qarşı ittiham aktı idisə, digər tərəfdən aldanışının, «kommunist cənnəti»nə inanışının dərki idi. N.Nərimanov inanırdı ki, bolşeviklər nəinki Azərbaycanı, bütöv Şərqi azad edəcəklər. O, Leninə yazırdı: «...bizim məzlum Şərqi xarici zülmkarlardan azad

etmək və Şərqə öz həyatı ilə azad yaşamaq imkanı vermək vədimiz hamını Sovet Rusiyası ətrafında birləşdirdi»[90].

Az keçməmiş N.Nərimanov vədlə əməl, sözlə iş arasındakı uyğunsuzluğu gördü və dərk etdi ki, bolşeviklər Şərqə baxışlarında tamamilə mürtəce mövqedədilər. O, yaxşı görürdü ki, Şərqə «kommunist cənnəti» vəd edən bolşevik Rusiyası çardan fərqli olaraq azərbaycanlıları məzlumluqdan azad etmir, əksinə məzlum manqurd yetişdirir. Bu siyasətin həyata keçirilməsi işində ermənilərin fəallığını, onların azərbaycanlılara qarşı soyqırımı yeritmək siyasətini də N.Nərimanov görür və ifşa edirdi.

N.Nərimanov yazırdı: «Yoldaş Stalin, necə olur ki, həmişə millətçi mövqedə olan Mikoyan dönüb beynəlmiləlçi oldu, 20 il bundan əvvəl «Bahadır və Sona» kimi beynəlmiləl ruhlu bir əsər yazan Nərimanov millətçi?»[91].

Kirov Leninə göndərdiyi şifrteleqramada yazırdı ki, Nəriman Nərimanova tam mənada inanmaq olmaz, çünki o, axıra qədər bizim deyil.

N.Nərimanovu M.C.Bağırovla ayıran, ondan fərqləndirən, eyni qütbün adamına çevirməyən əsas cəhət də bundan ibarət idi. Nərimanov millətin dərdlərini dərk etdi, xalqın düşdüyü mövcud mühitə, rejimə, sistemə qarşı çıxdı. Millətin dərdləri onun bəlasına, məhvinə, Mir Cəfər Bağırovun isə qarşısında yeni koryera üfüqlərinin açılmasına, yüksək kürsülərə qalxmaq üçün tranpilinə çevrildi.

---

[90] N.Nərimanov. Ucqarlarda İnqilabımızın tarixinə dair, Bakı, 1992, səh. 12.
[91] Yenə orada, səh. 26.

Başqa sözlə, Nərimanovun xoşbəxtliyi başlanan nöqtədən Bağırovun bədbəxtliyi, faciəsi başlanır.

Nərimanov uduzduqlarını, milli faciəsini tez anladı və yolun yarısından qayıtmağın böyük hünər olduğunu yazdığı etiraz dolu məktublarla nümayiş etdirdi. M.C.Bağırova isə yatmış vicdanı bu yolun zirvədən sonrakı ucunu görməyə imkan vermədi.

Göründüyü kimi, N.Nərimanovun faciəsi anlamağın, dərk etməyin faciəsi idi. Aldanışını dərk edən N.Nərimanov bu gün də bəzən bütün tərəf və cəhətləri, uğur və uğursuzluqları, gücü və gücsüzlüyü ilə dərk olunmur, əksinə bolşevikcəsinə tənqid atəşinə tutulur.

Bunun əksinə olaraq M.C.Bağırov çağdaş mətbuatda bütləşdirilir, totalitar rejimin qəhrəmanı kimi təqdim edilir. Təbii ki, bir şəxsiyyət kimi onun da Azərbaycana rəhbərlik etdiyi illərdə müsbət işləri olmuşdur. Lakin millətin gen yaddaşına, mənəvi sərvətlərinə, adət-ənənələrinə, şəxsiyyətlərinə qarşı etdiyi xəyanətlər (repressiya və deportasiyalar) Bağırovun bütün xidmətlərini kölgədə qoyur və onu dövrünün «qəhrəmanından» çıxarıb, zamanın cəlladına çevirir. O, dövrünün «qəhrəmanı» kimi istədiyi adamın - imza yerinə barmaq basandan mütəfəkkir şəxsiyyətə qədər başını kəsə bilirdi. Ayrı-ayrı adamların və bəzi tədqiqatçıların canfəşanlıqla Mir Cəfər Bağırovu müdafiə etmələrinə baxmayaraq tarix və zaman ona cəllad möhürünü çoxdan vurub.

Totalitar rejim amilini unutmadan Mir Cəfər Bağırovla tarixdəki yox, S.Vurğunun yaratdığı Qacar obrazı arasında bərabərlik işarəsi qoymaq olar. Bu bərabərlik işarəsi

daha çox özünü hər iki qəhrəmanın xaraktercə çılğınlığında, milli «mən»ə və milli təfəkkürə malik olmamasında ifadə edir. Klassik tarixdə adətən böyük və mütəfəkkir şəxsiyyətlər həmişə müdrik, ədalətli şahlar tərəfindən müdafiə, mühafizə olunmuş, Bağırov isə milli təfəkkürə malik olanları, düşüncə sahiblərini inkvizasiya və irtica ilə üz-üzə qoymuşdur.

N.Nərimanov manqurd olmaqdan imtina etdiyi halda, Bağırov buna çevrilməyə və sədaqətli manqurd olmağa xüsusi həvəs göstərdi. Nərimanovu millətinin və dövlətinin taleyi, Bağırovu isə SSRİ və onun başçılarının maraq və mənafeyi düşündürdü.

Bu baxımdan onların hər ikisinin - birinin oğluna, digərinin isə müttəhim kimi məhkəmə kürsüsündən hakimə (əslində hər ikisinin xalq qarşısında) etdiyi etiraflar daha xarakterikdir: «Əziz oğlum! Əgər mənim həyatımı araşdırsan, sən əmin olacaqsan ki, mən 1925-ci ilədək başqaları üçün yaşamışam. Bəs sonra? Sonra belə də davam edəcək. Məhz belə ictimai fəaliyyətdə mən təskinlik tapıram, xüsusilə ona görə ki, hazırda Rusiyadakı quruluş mənim mənəvi aləmimlə uyğun gəlir.

Mən insanın insan tərəfindən istismarının əlyehinəyəm. Mən bütün varlığımla harada olursa-olsun köləliyin əleyhinəyəm. Mən bəşəriyyətin tezliklə azadlığa çıxması, nadanlıqdan, habelə köləlikdən azad olması yollarını axtarırdım.

Mən sosial-demokrat idim, lakin bu təşkilat getdikcə daha çox idealdan uzaqlaşır. Mən bolşeviklərin proqramını xüsusi inamla qəbul etmişəm, belə ki, mən bunda öz

məramımın: dünyada köləliyin məhvinin həyata keçməsini görürdüm...

... İndi mən bu sətirləri sənə yazarkən iş o yerə çatıb ki, Lenindən sonra özlərini onun «qanuni varisləri» adlandıranların dövləti idarə etməyi bacarmamaları nəticəsində əmələ gəlmiş böyük nöqsanlarımız barədə kommunistlər öz aralarında da danışa bilmirlər.

Bütün bunlar haqda sən mənim MK-ya yazdığım geniş məruzəmdən biləcəksən. Bu məruzədən sənə çox şey aydın olacaqdır, həmin məruzədən sənə bəlli olacaq ki, bir çoxlarının cəsarəti çatmadığı, öz vəzifə və hakimiyyətlərini itirəcəklərindən qorxaraq susduqları şeylər haqqında sənin atan danışmaqdan çəkinməmişdir»[92].

Minlərlə adamı müttəhimlər kürsüsündə əyləşdirən, axırda isə həmin kürsüyə özü qalxan M.C.Bağırov isə bir müttəhim kimi belə deyirdi: «Mənim əsas səhvim odur ki, Beriyaya və onunla bağlı olan və onun düşmən mövqeyini müdafiə edən, orqanlarda birgə iş üzrə onunla uzun illər boyu əlaqədə olan Sumbatov, Borşev, Qriqoryan, Markaryan və başqalarına göz yummuşam, onların iç üzünü tanımamışam.

Mən onlara inanaraq XDİK orqanlarını onlara etibar etmişəm. Bu işdə xalqın qarşısında günahlarım o qədər böyükdür ki, məni güllələmək azdır, asmaq azdır, məni şaqqalamaq, parça-parça etmək lazımdır»[93].

---

[92] Nəriman Nərimanov. Ucqarlarda inqilabımızın tarixinə dair (çapa hazırlayanı P.Əzizbəyova), Bakı, Azərnəşr, 1992, səh. 65-66.

[93] Mir Cəfər Bağırovun məhkəməsi (tərtibçilər: Nərgiz Rüstəmli, Telman Alıyev), Bakı, Yazıçı, 1993, səh. 115.

Göründüyü kimi, etiraf anında Nəriman Nərimanovu millətə, dövlətə sədaqət, ayıq və oyaq vicdan, milli intellekt dilləndirdiyi halda, B.C.Bağırovun dilini hakim və müstəntiqlər açır, vicdanını isə faktlar, sənədlər, şahidlər, üzləşmələr oyadır. M.C.Bağırov intellekt məndən tamamilə uzaq olmuş, xoşuna gəlməyən adamın hökmünü hakimdən əvvəl özü oxumuş, ona «vətən xaini», «xalq düşməni» damğasını da o, özü vurmuş, özü də birbaşa yığıncaq, plenum, qurultay kürsülərindən. İcraçı məmurlar isə Bağırovun hökmlərinə min bir bəhanə və saxtakarlıqla hüquqi don geyindirmiş, «əsaslandıraraq» güllələmişlər.

Arxiv sənədləri, stenoqramlar, sənədlər üzərinə qoyulmuş dərkənarlar, XDİK orqanlarının ona ünvanladığı hesabatlar və həmin orqanlardan MK-ya göndərilən güllələnənlərin siyahıları, 30-40-cı illərin qurbanlarının yaxınlarının xatirələri sübut edir ki, M.C.Bağırov son sözündə və etirafında da səmimi deyildir. Belə ki, Sumbatov və Borşevlərin, Markaryan və Qriqoryanların törətdiyi bütün əməllərdən onun nəinki xəbəri olmuş, hətta həmin cinayətlərdə o şəxsən iştirak etmişdir.

XDİK orqanlarının məmurlarının verdiyi ifadələrdə də göstərilir ki, bəzən müttəhimləri M.C.Bağırov özü döyür və ya fiziki işgəncələr nəticəsində yalan ifadələr verdiklərini ona bildirən məhbuslara qəzəblənərək «Deməli, sizi az döyüblər» - deyirmiş[94].

Deyilənlər bir daha təsdiqləyir ki, bolşevizmin Azərbaycanda bərqərar olmasında xüsusi xidmətlər göstərdiyi-

---

[94] Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, 1993, səh. 65.

nə görə N.Nərimanov M.Ə.Rəsulzadənin, M.C.Bağırov isə repressiv aksiyaların Azərbaycanda icraçısı kimi N.Nərimanovun qarşısında müttəhim kimi dayanır.

İmperiya öz missiyasını yerinə yetirmişləri də məhv edirdi. Artıq imperiya öz işini görüb başa çatdırmışdı. Yəni millətçiləri, əksinqilabçıları, azadlıq və istiqlaliyyət uğrunda mübarizə aparanları məhv etmişdi. Doğrudur, bu məhv etmədə imperiynın yalanlarına uyan, lakin vətənə və millətə sədaqətlə xidmət edən aldanılmışlar da var idi. İmperiya - iblis artıq hiss edirdi ki, onlar aldanıldıqlarını hiss edirlər. Ona görə də onları sıradan çıxarmağı qərara aldı və beləliklə də bir çox kommunist ziyalılar məhv edildi. Demək olar ki, məhv edilənlərin böyük əksəriyyəti mövcud ictimai-siyasi prosesi görən, lakin göstərməyə cəsarət etməyən kommunistlər idi.

Son vaxtlar (xüsusilə 90-cı illərdə) 30-cu illərin repressiya burulğanından yaxa qurtaranlar da ayrı-ayrı mətbuat səhifələrində və tədqiqat əsərlərində tənqid hədəfinə çevrilir, H.Cavid, Ə.Cavad, M.Müşfiq, S.Mümtaz, V.Xuluflu və onlarca başqaları böyük təəssüflə anıldığı halda, S.Vurğun, S.Rüstəm, M.Rahim, M.Hüseyn və s. XDİK orqanları tərəfindən ittiham olunmamaqda günahlandırılırlar. Deməli biz eyni anda həm əzən, fəlakətlər gətirən imperiyanı, həm də imperiyanın məhv etmədiyi şəxsləri ittiham edirik. Belə çıxır ki, Azərbaycanda həqiqətən vətən xainləri olmuş və bunlar ölənlər deyil, qalanlar imiş. Maraqlı məntiqdir. Biri öldürdüyünə, digəri isə öldürülmədiyinə, sağ qaldığına görə ittiham olunur.

Vaxtı ilə tənqidçi Əmin Abid yazırdı: «Bir ədəbi dövr, yaxud bir ədəbi sima haqqında doğru bir nəticə çıxarmaq üçün mühəqqəq onun müttəəssir olduğu ictimai və ədəbi şərtləri tədqiq etmək lazım gəldiyi kimi, əsərlərin xarici qiymətini təyin edə bilmək üçün də təsiri altına düşdüyü mühitin və onun zövqü üzərindəki təsir dərəcəsini təyin etmək icab edər»[95].

Ona görə də, 90-cı illərdən 30-cu illəri seyr etməklə obyektiv nəticələr əldə etmək olmaz. Ümumiyyətlə, hər hansı bir şəxsiyyətə qiymət verən tənqidçi və ya tədqiqatçı onun yaşadığı mühitə enməli, həmin dövrün ab-havası ilə yaşamalıdır. Yalnız o zaman obyektiv nəticələr əldə etmək mümkündür.

Deyilənə görə, görkəmli şair S.Vurğun 30-cu illərdə həbs edilibmiş, M.C.Bağırova zəng edən Stalin təsadüfən soruşub: «Bizim o qarabala necədir?» Bunun nə dərəcədə həqiqət olduğunu deyə bilməsək də bir həqiqət vardır ki, S.Vurğun həqiqətən Xalq Daxili İşlər Komissarlığı (NKVD) orqanları tərəfindən həbs olunmuş və tezliklə həbsxanadan azad olunduğu üçün onun barəsində cinayət işi qaldırılmamışdır. MTN-in arxivində qorunub saxlanılan siyasi repressiya qurbanlarının istintaq materialları fikrimizi tamamilə təsdiqləyir. Belə ki, Tağı Şahbazinin PR-24690 saylı istintaq işinin 71-ci səhifəsində S.Vurğunun həbsxanada olduğu qeyd edilir.

[95] Əmin Abid. Zərərli tənqidlər, «İnqilab və mədəniyyət» jurnalı, 1929, № 10, səh. 31.

Eyni fikri Mir Cəfər Bağırovun məhkəməsi zamanı şahid kimi ifadə verən, Xalq Daxili İşlər Komissarlığının əməkdaşı Xentov Pavel Vladimiroviç də təsdiqləyir. O, öz ifadəsində deyirdi: «Məlumdur ki, 1937-1938-ci ilərdə Bağırovun sanksiyası ilə Azərbaycanın istedadlı şairi Səməd Vurğun həbs edilibmiş. Xarakterikdir ki, istintaqın gedişində ondan heç bir şey əldə edə bilmədikdə Bağırov «allah tərəfindən göndərilmiş xilaskar» rolunda çıxış etdi və onu həbsdən özü azad etdi. Ancaq onun əleyhinə material toplamağa özü icazə verdi. Yemelyanov 1952-ciilədək bu işlə məşğul olurdu»[96].

S.Vurğunun 50-ci illərə qədər həqiqətən nəzarət altında olmasını, təqib və təzyiqlərdən yaxa qurtarmamasını başqa faktlar da sübut edir. Belə ki, M.C.Bağırov 1952-ci ildə keçirilən Azərbaycan K(b)P-nin XIX qurultayında çıxış edən S.Vurğunun sözünü kəsərək demişdir: «Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan»[97].

Oxucuların nəzərinə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin istintaq şöbəsinin baş müstəntiqi mayor Abdullayev tərəfindən 6 yanvar 1956-cı ildə imzalanmış Mikayıl Müşfiqin PR - № 22290 saylı istintaq işinin 87-ci səhifəsindəki arayışı da çatdırmaq istərdik. Həmin arayışda göstərilir ki, həbs olunanlar arasında SSRİ və Azərbaycan SSR Ali Sovetinin deputatı, V.İ.Stalin mükafatı laureatı Səməd Vurğun Xalq Daxili İş-

---

[96] Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, 1993, səh. 65.
[97] «Ağ ləkələr» silinir. Bakı, 1991, səh. 13.

lər Komissarlığı tərəfindən əksinqilabçı millətçi və ya trotskiçi kimi heç vaxt həbs olunmamışdır.

Yuxarıda deyilənlər bu arayışın qeyri-real olduğunu sübut etdiyindən biz bunun üzərində geniş dayanmağı məqsədəuyğun hesab etmirik.

Siyasi repressiyalara məruz qalan şair ömrünün sonuna kimi Vətənini və millətini sevmiş, onun tanınması və inkişafı naminə əlindən gələni etmişdir. Doğrudur, o, kommunist partiyasını «bəşərin vicdanı, eşqi, ürəyi» adlandırıb, Leninə, Stalinə, Oktyabra və 26-lara aid əsərlər də yazıb, sovet dövlətinə inanaraq onu təqdir də edib. Lakin bütün bunlarla xalqın işıqlı gələcəyinə kölgə salmayıb. Onun adət-ənənəsinə böyük hörmət və məhəbbətlə yanaşıb. Eyni zamanda o bir şair kimi içində yaşadığı zamana öz etirazını da bildirmişdir. Təbii ki, bu etirazlar açıq-aşkaranə, çılpaq şəkildə olmamış, poetik sözün sətiraltı mənalarında gizlədilmişdir ki, o da bu günkü prizmadan baxdıqda tam aydınlığı ilə görünür.

Şairin bütün yaradıcılığı üçün səciyyəvi olan bu cəhət onun «Vaqif» pyesində xüsusilə qüvvətlidir. Çünki bu əsəri o, zindana atılmamışdan əvvəl yazmağa başlasa da onu zindandan çıxdıqdan sonra bitirmişdir. **Əsərdə XVIII əsrdə yaşamış görkəmli şair Molla Pənah Vaqifin tarixi faciəsi ön plana çəkilsə də, onun fonunda 30-cu illərin dəhşət və vəhşətləri, elə Səməd Vurğunun öz faciəsi də aydı şəkildə əksini tapmışdır.** Yəni şair tarixi bir mövzuya müraciət etməklə, onun fotosurətini çəkməmiş, yeri gəldikcə içində yaşadığı zamanın eybəcərliklərini də XVIII əsrin ictimai-siyasi hadisələri fonunda əks etdirməyə çalış-

mışdır. Çünki bu şairlərin yaşadıqları dövrlər zaman etibarı ilə bir-birindən uzaq olsa da, tarixi tale baxımından bir-birinə çox yaxındır. Hər iki dövrdə Azərbaycanın rus imperiyasına ilhaq edilməsi bu şəxsiyyətlərin faciəsinin əsasını təşkil edir. **Bu faciə vaqifliyin və biliciliyin, anmağın və anlamağın, duymağın və dərk etməyin faciəsidir. Hər iki dövrdə (XVIII və XX əsrdə) kəllələrdən qurulmuş qalaların başında Molla Pənah Vaqiflərin başı qoyulurdu, intellekt və ağıl, düşünən baş hədəf seçilirdi. Deyilənlərdən aydın görünür ki, M.P.Vaqifin prototipi elə Səməd Vurğunun özüdür.** Ona görə də aşağıda deyilənlərin Molla Pənah Vaqifdən daha çox Səməd Vurğununa aidiyəti var:

**İbrahim xan**
(Birdən Vaqifin əlindəki əsaya baxaraq)
Vəzir, əlindəki o əsa nədir?

**Vaqif**
Rusiya padşahı o zülmükardan-
Yakaterinadan bir hədiyyədir.

**İbrahim xan**
Aha...De, sən hara, Rusiya hara?
Yoxsa satılmısan o kafırlara?

**Vaqif**
(Əsanı göstərərək)

Buna şəkil verən bir sənətkardır,
Mənim sənətkara hörmətim vardır.

**İbrahim xan**
Bəs onu göndərən
Yakaterina?

**Vaqif**
Yalnız nifrətim var, inanın, ona!
Onu da boğacaq gedən üsyanlar,
Azadlıq uğrunda tökülən qanlar.

Göründüyü kimi, düşdüyü mühitlə həm xanı, həm də şairi «barışmağa» vadar edən daxili, mənəvi tələbat deyil, hər ikisinin içində yaşadığı zamanın öz gerçəkliyidir.

Maraqlıdır ki, S.Vurğun əsərdə 30-cu illərdə rəsmi dövlət sənədlərində və məişətdə tez-tez işlədilən «vətən xaini» ifadəsini də böyük ustalıqla poeziyaya gətirmişdi. **«Vətən xaini» ifadəsi XVIII əsrin deyil, daha çox XX əsrin leksikonunda ümumişlək istilaha, xüsusilə sənət adamlarının taleyinin embleminə, etiketinə çevrilmişdi. Bu ifadəni işlətməklə şair 30-cu illərin tragik-dramatik mənzərəsində vətən və yurd sevgisinin, eləcə də klassik poeziya ilə ənənə, varislik əlaqəsinin «vətən xaini»nin sinoniminə yaxınlığına işarə etmişdir.** Bolşeviklər mövcud, oturuşmuş ənənələrlə əlaqələri süni surətdə qırmaq və poeziyanı (bütövlükdə sənəti) yeni yaranan sosialist ənənləri üzərində kökləməklə (buna tam nail ola bilməsələr də) onun ləngərini, ritmini pozdular. Klassik irsdən və

klassik qaynaqlardan (kökə, yaddaşa qayıtmaq anlamında) bəhrələnmək şairlərə qadağan edildi. Sovetləşmənin ilk illərində ictimai həyatın bütün sahələrində olduğu kimi, sənət adamlarının hiss və duyğuları da «dövlət mülkiyyətinə» çevrildi, poeziyada lirik «mən»in keçmiş zamanla, tarixlə ünsiyyətinin sərhədləri daraldı, millətin dərdi və qayğıları dövlətin təbliği və mədhinə xidmətlə əvəzləşdirildi. Şairlər və illər arasındakı harmoniya pozulduğundan bir müddət poeziyada xaos əmələ gəldi, şairlər günün tələblərinə uyğun əsərlər yaratmamaqda ititham edildi və nəhayət, «vətən xaini» kimi damğalandılar.

**Şeyx**
(Xanı qızışdıraraq)
Aman! Ayaqladı müqəddəs dini,
Bu tanrı düşməni, vətən xaini!

Tanrı düşməninə çevrilməmək, allahsızlaşmamaq 30-cu illərin qadağası, asanlıqla vətən xaininə çevirtdirilmək isə sənətkarın məhvi, xofu və qorxusu idi. Zamanın qadağası ilə Zamanın xofunun və qorxusunun yanaşı işlədilməsi sənətkarın cəsarəti, milli adət-ənənələrə sədaqəti, özünü müdafiəsi və mühafizəsidir. Məlumdur ki, nə M.P.Vaqif, nə də S.Vurğun tanrı düşməni və vətən xaini olmamışlar. Təsadüfi deyildir ki, 30-cu illərdə dinə, eləcə də əski əlifbaya münasibət tamamilə mənfi idi. **Siyasi repressiyaların tüğyan etdiyi 30-cu illərdə adamları yalnız əski əlifba ilə yazılmış hər hansı bir siyasi məqalə və əsərə görə deyil, eyni zamanda «şanlı məktub»a görə də**

**ittiham edirdilər. Belə bir qorxunc zamanda S.Vurğun zamanın qadağasından qorxmayaraq «Vaqif» pyesinin pərdəsini böyük şair Vidadinin namazı ilə qaldırırdı.** Vidadi namazdan sonra bu duanı oxuyur:

Xdaya İnsanın halı yamandır,
Nələr çəkdiyimiz sənə əyandır,
Mənası varmıdır min təriqətin?
Aç... aç qapısını sən həqiqətin.
Nə olur bir yeni işıq ver bizə,
Bizim kor yaranmış gözlərimizə -
Bəlkə də yaxşını seçək yamandan ,
Ta ki, qansız keçən bir güzərandan
Biz də ilham alaq, sevinək barı!
İşıqlat bu dibsiz qaranlıqları..
Yazıqdır dünyanın əşrəfi insan,
Böyüksən, adilsən keç günahından!
Qoyma ki, yerlərdə sürünsün bəşər,
Dünyada qalmasın nə pislik, nə şər.
Yaxşılıq insana bir sənət olsun,
Dünya başdan-başa bir cənnət olsun...

Göründüyü kimi, dünyanın əşrəfi olan insanın bir günü də qansız keçmir. Belə bir zamanda qapıçıdan Qacara qədər hamı öz taleyindən narazıdır. Qacar kor bəxtindən, Vaqif cahan mülkündə heç bir həqiqət görmədiyindən, Vidadi bəşərin aldanmasından, Xuraman dönük taleyindən, qaçaqlar azad olmamalarından, qapıçı isə maddi çətinlik-

dən. Qacar kimi Qarabağ xanı İbrahim xan da tale və zamandan, cah-cəlalının pozulacağından narazıdır.

O yandan Türkiyə, bu yandan İran
Burdan da Rusiya göndərir fərman...

Azərbaycanın XVIII əsrin sonunda rastlaşdığı bu tarixi tale məsələsini XX əsrin əvvəllərində öz müstəqilliyini tapmış Demokratik Cümhuriyyətdə də müşahidə etmək olur. Bütün bunlar göstərir ki, S.Vurğun Azərbaycanda baş verən ictimai-siyasi hadisələrə biganə qalmamış, yeri düşdükcə onlara öz münasibətini də bildirmişdir. Bizcə, onun Azərbaycanın başına açılan oyunları açıqlığı ilə satirik tənqid hədəfinə çevirə bilməməsini «Şair, hökmdarın hüzurundasan!» ifadəsində axtarmaq lazımdır. «Bunu sizsiz belə düşünürəm mən» - deyən şair əhv etməyi bacarmayan hökmdara tək özünün deyil, hamının (xalqın) hökmdar hüzurunda dayandığını xatırladır. Bütöv bir xalq (həm də SSRİ xalqları) hökmdar (həm də diktator) hüzurunda dayanmışdır.

Xalqın ən böyük faciəsi onun hökmdar hüzürunda dayanmasıdır. Şair bu faciənin səbəbini Vaqifin dili ilə belə ümumiləşdirir; «Buna müqəssirdir şübhəsiz zaman». Bu elə bir zaman idi ki, o dövrdə nəinki Allahdan qorxur, hətta Allahın özünü də ittiham edirdilər. Dostunun azad olunması üçün Qacarın yanına xahişə gəlmiş şair Vidadi ona başa salmaq istəyəndə ki, Vaqif şairdir bəzən vəcdə gələrək zəmanəsini də tənqid edir. Şeirin və şairin Allah tərəfindən sevildiyini bildirir. Cavabında Qacar ona deyir:

Allah da çox sevir?
Allaha yalvar,
Onun məndən də çox ədaləti var,
Əgər bacarırsa, qoy sağ saxlasın.

Deməli, zamanın hakimi olan İblis özünü allahdan da güclü sayır. Onun məhv edəcəklərinə Allahın da mane ola bilməyəcəyini bildirir. Bunlar 30-cu illərin reallıqları idi. Ona görə də hər hansı bir sənət adamının şəxsiyyətinə və yaradıcılığına elmi qiymət verərkən bu amil unudulmamalıdır. Əks təqdirdə vaxtı ilə Puşkini, Dostayevskini, hətta Məhəmməd Füzulini «müasirlik gəmisindən» atmaq istəyənlərin səhvlərini təkrar etmiş olarıq.

Əlbəttə, biz bütün sovet ədəbiyyatının keçdiyi yola da bu cür yozmalarla yanaşıb, paralellər aparmaq və 20-50-ci illər ədəbiyyatını «dissident ədəbiyyat» adlandırmaq fikrində deyilik.

Bu heç də o demək deyildir ki, bolşeviklər istədiklərinə maneəsiz, qurbansız və qansız nail olmuş və heç bir sosial, ictimai, subyektiv maneəyə rast gəlməmişlər. Əksinə, Azərbaycanın mübariz oğulları bu qırmızı terrora qarşı mübarizə aparmaq üçün təşkilatlanmışlar da. **Təəssüf ki, son vaxtlar dövri mətbuatda çıxan yazıların bəzilərində repressiya qurbanları ilə bağlı «guya antisovet təbliğatı aparıb», «guya türkpərəst olub», «guya islamçı olub», «guya millətçi olub», «guya əksinqilabi millətçi təşkilatın üzvü olub», «guya...» kimi ifadələr və epitetlər işlədilir, bununla da əməl, məqsəd, məram, ideya yolunda qurban və şəhid təsəvvürü, dövrün üsyançı şəxsiyyət**

**simvolu «günahsız müqəssir» obrazına çevrilir.** Belə çıxır ki, nə müstəqil Azərbaycan Cümhuriyyəti yaranıb, nə o, süqut edib, nə də onun bərpası uğrunda mübarizə cəhdləri olub. Həmin müəlliflərin «günahsız müqəssir» adlandırdıqları şəxslərin çoxunun əslində, əlbəttə, «günahı» olmuşdur. Həmin günahlar indiki nəslə örnək ola biləsi, fəxr ediləsi, qürurlanası günahlardır və onları pərdələmək tarixi təhrifdən başqa bir şey deyildir. Məsələnin belə qoyuluşu sovet dövründə məqbul sayılsa da, bu gün çox təəccüblü görünür. **Əlbəttə, biz repressiyaya məruz qalanların hamısını müstəqil Azərbaycan uğrunda mübarizə aparan və şəhid olan, zərərdidə kimi də qələmə vermək fikrindən uzağıq. Məsələ ondadır ki, öz müstəqilliyini tələb edən xalqa və onun mübariz oğullarına qarşı düzgün mübarizə metodu seçilməmiş, bolşeviklər tərəfindən böyük ədalətsizliyə və cinayətkarlığa yol verilmişdir.** Azadlıq və müstəqillik uğrunda mübarizəyə qoşulanlar, xüsusilə ziyalılar repressiya, siyasi terror və qətllərlə üzləşdi: despot və diktator üsullarla məhv edildilər. Bu üzləşmə və məhv etmələr inkvizasiya ilə irticanın, demokratiya ilə diktaturanın, xeyirlə şərin, mələklə iblisin qarşılaşması, ikincilərin zahiri və müvəqqəti qələbəsi idi.

Məlumdur ki, sovetləşmə zamanı bolşeviklər siyasi partiyaların fəaliyyətini dayandırdı. Artıq siyasi partiyalar gizli fəaliyyətə başlamaq məcburiyyətində qaldılar. Dövlət gizli siyasi fəaliyyətə başlayan partiyalara qarşı sərt tədbirlər gördü və heç bir demokratik prinsip gözlənilmədən onların böyük əksəriyyəti «panturanist», «pantürkist»,

«panislamist», başqa sözlə «Əksinqilabi millətçi təşkilat»ın üzvləri kimi ciddi təqiblərə məruz qaldılar.

Bolşeviklər tərəfindən «Əksinqilabi millətçi təşkilat»ın üzvləri adlandırılanlar onların yeritdiyi siyasətə qarşı etiraz edənlərdi. «Əksinqilabi millətçi təşkilat» dedikdə bolşeviklər müsavatçıları, ittihadçıları, turançıları, bir sözlə milli azadlıq uğrunda mübarizəyə qoşulanları, bolşevizmə qarşı çıxanları nəzərdə tuturdu. Bəzi tədqiqatçılar belə bir mübarizənin olduğunu, gizli təşkilatların fəaliyyətini şübhə altına alaraq onları mif adlandırır. Arxiv materialları hələ bu gün də «guya» epitetləri ilə işlətdiyimiz, "mif" adlandırdığımız təşkilatların həqiqətən mövcud olduğunu və müstəqil Azərbaycan naminə mücadilə apardığını təsdiq edir. Bunun doğruluğunu aşağıdakılar da isbatlayır.

**1) Əməliyyat məlumatları.**

MTN-in arxivində olan yüzlərlə əməliyyat məlumatı göstərmək olar ki, həmin təşkilatlar həqiqətən mövcud olmuş və Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmışdır. Əməliyyat məlumatlarında daha çox bu təşkilatın üzvlərinin sovet hökuməti əleyhinə apardığı danışıqlar və gördüyü işlər barədə söhbət gedir.

**2) İstintaq materialları və ya müttəhimlərin verdikləri ifadələrin stenoqramları.**

Təkzib olunmaz faktdır ki, gizli fəaliyyət göstərən siyasi partiyalar içərisində Sovet hökumətinə qarşı ən aktiv mübarizə aparan "Müsavat" partiyası idi. Onlar heç nədən çəkinmədən müxtəlif bəyannamələr yayır, ictimai-siyasi vəziyyəti xalqa izah etməyə çalışırdılar: «Müsavatın gizli fəaliyyətinin ən coşğun olan üçüncü mərhələsi 1926-

31-ci illəri əhatə edir. Bu dövrdə müsavat gənclər arasında təbliğat işini gücləndirir, xalq arasında bəyannamələr yayır, kollektivləşmənin, ruslaşmanın əleyhinə çıxır, SSRİ-nin İngiltərə ilə münasibətlərinin gərginləşməsindən istifadə edərək silahlı üsyan cəhdlərinə meyllənir»[98].

Milli Təhlükəsizlik Nazirliyinin arxivində də deyilənlərin təsdiqinə aid kifayət qədər faktlar-sübutlar vardır. Həmin sənədlərdən aydın görünür ki, Sovet hökumətinə qarşı gizli mübarizə ictimai-siyasi həyatın bütün sahələrinə nüfuz etmişdir. Gizli fəaliyyətdə elm və maarif xadimləri daha ciddi, daha mühüm işlər gördüklərindən biz məhz bu sahədə görülən işləri daha qabarıq göstərmək istəyirik.

Azərbaycanda mədəni və ideoloji cəbhədə mütəşəkkil əksinqilabi fəaliyyət 20-ci illərin əvvəllərindən başlasa da, 1926-cı ildə Bakıda keçirilən türkoloji qurultaydan sonra daha da gücləndi. İstintaq materiallarından öyrənirik ki, qurultayın nümayəndələrindən biri, türk professoru Köprülüzadə Bakı şəhərində olarkən, Azərbaycan ziyalılarının ayrı-ayrı nümayəndələrini pantürkist istiqamətdə hazırlamışdı. O zamanlar, Azərbaycan Xalq Maarifinin rəhbərliyində duran Türkiyənin protektoratı altında Azərbaycanı burjua respublikasına çevirməyə hazırlıq üzrə mütəşəkkil işi genişləndirən, «nərimanovçular» və «xanbudaqovçular» milli-təmayülçülər qrupunun iştirakçıları - Bünyatzadə Dadaş, Quliyev Mustafa, Cəbiyev Həbib və b. Köprülüzadənin göstərişlərini həyata keçirmək üçün fürsət axtarırdılar. Bu məqsədlə, xaricdən ideoloji cəhətdən yabançı

---

[98] Nəsiman Yaqublu. Müsavat Partiyasının tarixi. Bakı, 1997, səh. 141.

olan dərsliklər və pantürkist ədəbiyyatlar sifariş olunurdu. Təhsil ocaqları üçün türk müəllim və «alimləri» (prof. İsmayıl Hikmət, Xəlil Fikrət, Abdul Cəfər Əfəndi, Akif bəy və b.) dəvət olunurdular. Azərbaycana dəvət olunmuş türklər ziyalılar və gənclər arasında təbliğat apararaq onlarda müstəqillik ideyalarını daha da gücləndirir və onları bu iş uğrunda ardıcıl mübarizəyə çağırırdılar[99].

İstiqlaliyyət və müstəqillik uğrunda apardığı mübarizəyə görə həbs olunanların bir çoxunun verdiyi ifadələrdə təşkilatın əməli və konkret əksinqilabi işi barədə bildirilirdi: «...Bizim təşkilatın xətti üzrə praktik və konkret əksinqilabi işimiz əsasən aşağıdakılardan ibarət idi.

1. AK(b)P-nin Mərkəzi Komitəsinin orqanı olan «Kommunist» (Azərbaycan dilində) qəzetindən bizim millətçi təşkilatın əksinqilabi mənafeyinə uyğun istifadə etməkdən.

2. Xalq Maarif Komissarlığı aparatının diqqətini mədəni-maarif cəbhəsində əksinqilabi millətçi təzahürlərlə mübarizənin vacibliyi məsələsindən yayındırmaqdan.

3. Xalq Maarifi Komissarlığında əksinqilabi millətçi işin müvəffəqiyyətlə genişlənməsi üçün şəraitin və mühitin yaradılmasından.

4. Əksinqilabi iş xətti üzrə onların üzərinə düşən məsələlərin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün bizim təşkilatın ayrı-ayrı üzvlərinə himayəçilik və kömək etməkdən ibarət idi.

[99] MTN-in arxivi. P – №297.

Mənim 1934-36-cı illər ərzindəki əksinqilabi fəaliyyətim bizim millətçi əksinqilabi təşkilatın bütünlükdə mənafeyinə cavab verirdi və tamamilə onun məqsəd və tapşırıqları ilə uyğun gəlirdi».

Hacıbaba Nəzərli 5 noyabr 1937-ci ildə verdiyi ifadəsində özünü aşağıdakılarda təqsirkar bilirdi:

«1. Mən - Nəzərli Hacı həqiqətən Azərbaycanı SSRİ tərkibindən ayırmaq və «müstəqil» Azərbaycan burjua-demokratik respublika yaratmaq məqsədi olan Azərbaycan əksinqilabi millətçi təşkilatın üzvü olmuşam.

2. Bu əksinqilabi millətçi təşkilata mən Ruhulla Axundov tərəfindən 1936-cı ilin iyul ayının axırları və ya avqust ayının əvvəllərində cəlb edilmişəm.

3. Əksinqilabi millətçi təşkilatın fəal üzvü olmuşam və onun say tərkibini artırmaq məqsədi güdərək, şəxsən mən bu təşkilata 2 nəfər cəlb etmişəm.

Bundan başqa, Ruhulla Axundovdan aldığım göstərişlərə əsasən mədəni cəbhədə əksinqilabi millətçi baxışların təbliğ edilməsi yolu ilə ziyankarlıq işləri həyata keçirmişəm.

a) Burjua millətçi-müsavatçı yazıçılara himayədarlıq edərək, onların «yaradıcılığını» populyarlaşdırırdım.

b) 1936-ci ildə Kirovabad və Lənkəran teatrlarının repertuarlarına burjua millətçi yazıçı Hüseyn Cavidin ideoloji cəhətdən yetişməmiş «Şeyx Sənan» mistik pyesini daxil etmişəm.

v) Elə həmin 1936-cı ildə Şekspirin əksinqilabi millətçi yazıçı Axundov Cavad tərəfindən Azərbaycan dilinə key-

fiyyətsiz tərcümə edilmiş və təhrif olunmuş «Romeo və Culyetta» faciəsini tamaşaya qoymağa imkan vermişəm.

q) Azərbaycanın rus yazıçılarının yaradıcılıq qabiliyyətlərinə etinasızlıq göstərirdim və digər əksinqilabi millətçi yazıçılarla birlikdə göstərilən yazıçıların bölmələrinin bağlanması və onun dərnəyə çevrilməsi mövqeyində durmuşam.

d) 1935-36-cı illər dövründə müsavatçı yazıçılardan Musaxanlı Atababa, Əhməd Cavad ilə sıxı əlaqə yaratmışam və onlara Ələkbərli ilə birlikdə rəhbərlik etdiyim «İnqilab və mədəniyyət» jurnalında özlərinin əksinqilabi ideyalarını təbliğ etməyə imkan vermişəm.

e) Azərbaycan yazıçıları arasında «Azərbaycan xalqının mədəniyyətinin hazırkı şəraitdə inkişaf etmək imkanı yoxdur» kimi əksinqilabi baxışlar yaymışam və məsələn, Gürcüstanda mədəniyyətin inkişaf etməsinə daha böyük imkanlar verdiklərini təsdiq edərək, Azərbaycanın mədəniyyətinin inkişafına əksinqilabi provokasiya (və ya fitnəkarlıq) mövqeyindən baxmışam»[100].

Məmməd Kazım Ələkbərli özünün əksinqilabi fəaliyyəti ilə bağlı aşağıdakıları bildirirdi:

«1. 1931-ci ildə Əli Heydər Qarayevin əksinqilabçı təşkilatına cəlb olunaraq, Azərbaycan burjua-millətçi əksinqilabçı təşkilatın üzvlüyünə daxil oldum.

2. 1934-cü ilin avqust ayında Bakıya gəlişimdən sonra Azərbaycanda əksinqşilabi burjua-millətçi təşkilatın rəh-

---

[100] MTN-in arxivi. Hacıbaba Nəzərlinin istintaq qovluğu, PR - №12493, səh. 50-52.

bəri Ruhulla Axundovla mütəşəkkil əlaqə yaradaraq, özümün Azərbaycanda Sovet hakimiyyətinə qarşı mübarizə aparmaq üçün arzumu-razılığımı bildirdim.

3. Burjua-millətçi təşkilatın aşağıdakı məsələlər üzrə məqsəd və məramı ilə tamamilə razı idim:

a) Azərbaycanda Sovet hakimiyyətinə qarşı üsyan qaldırmaq,

b) Sovet və İran Azərbaycanı ərazisində faşizm tipli burjua-millətçi dövlətin yaradılması.

v) Azərbaycanda kapitalizmin yenidən qurulması.

4. Kənd təsərrüfatı, ticarət, mədəniyyət, maliyyə sahələrində və sovet aparatında əksinqilabi burjua-millətçi təşkilatın apardığı ziyankar işlərindən xəbərim var idi.

5. Burjua-millətçi əksinqilabi təşkilatın terrorçu məqsədləri ilə tamamilə razı idim və AK(b)P MK-nın Katibi Bağırova qarşı R.Axundovun və M.Hüseynov tərəfindən hazırlanan sui-qəsd haqqında məlumatım var idi.

6. Burjua-millətçi əksinqilabi təşkilatın tapşırığına görə:

a) mətbuat və ədəbiyyat işçiləri arasında əksinqilabi təşkilata üzvlüyə cəlb etmə işini aparırdım.

b) Əhməd Cavadın, Hüseyn Cavidin və b. əksinqilabi burjua-millətçi yazıçıların əsərlərinin çapını təşkil edirdim.

v) fəhlə rayonlarında və ali məktəblərdə əksinqilabi dərnəklər təşkil edirdim.

7. Şəxsən mən burjua-millətçi əksinqilabi təşkilata: yazıçı Sanılını, yazıçı Qantəmiri, yazıçı Mikayıl Müşfiqi cəlb etmişəm və əvvəllər cəlb olunmuş yazıçılar: Hüseyn Cavid, Əhməd Cavad, Səməd Vurğun, Salman Mümtaz, Vəzirov Yusif və b. ilə əksinqilabi əlaqə yaratdım.

8. 10 nəfər yazıçıdan ibarət olan əksinqilabi qrupa rəhbərlik edirdim.

9. Ruhulla Axundovun türk kəşfiyyatı ilə əlaqəsinin olması, eləcə də SSRİ daxilindəki vəziyyət haqqında məlumatlar verməsini bilirdim[101].

Təhlükəsizlik orqanlarının əməkdaşları müxtəlif elm və təhsil müəssisələrində millətçi təşkilatın antisovet təbliğatının hansı müəssisələrdə və kimlər tərəfindən aparılmasını da müəyyənləşdirmişdir:

**Ali təhsil müəssilərəində əksinqilabi iş:**

**Azərbaycan Pedaqoji İnstitutunda:** akademik heyətdən təşkilatın üzvləri; 7 professor (Rizabəyli Fətullabəy, Şahbazi Tağı, Xuluflu Vəli və b.), 14 nəfər elmi işçi və müəllim (Əli Nazim, Xocayev Xalid Səyid, Tağızadə Abdulla və b.) idi.

**Azərbaycan Dövlət Universitetində:** akademik heyətdən; təşkilatın üzvləri 6 professor (Həsənbəyov Balabəy, Əliyev Məmmədbəy, Bayramov Məmməd və b.), 10 nəfər elmi işçi və müəllim (Rəhimli Mikayıl, Həsənov İdris, Məmmədov Ağamir və b.) idi.

**Tibb İnstitutunda:** akademik heyətdən təşkilatın üzvləri; 5 professor (Qədirli Mövsüm, Atayev Əli Riza, İsmayılzadə İbrahim və b.), 10 nəfər elmi işçi və müəllim (Adıgözəlov Ələkbər, Abdullabəyov Həmidullabəy, Nərimanbəyli Natəvan və b.) idi.

**Xalq Təsərrüfatı İnstitutunda:** müəllim heyətindən təşkilatın üzvləri; 5 professor (Vəkilov Mustafa, Quliyev

---

[101] MTN-in arxivi. M.K.Ələkbərlinin istintaq qovluğu, PR - №25583, səh. 48-49.

Məcid, V.N.Belyayev və b.), 12 nəfər elmi işçi və müəllim (Əliyev Yusif, A.Məmmədzadə, Q.Mehdiyev və b.) idi.

Ali təhsil ocaqlarında təşkilatın əməli əksinqilabi fəaliyyəti əsasən aşağıdakı xətlər üzrə aparılırdı: Vahid türk-tatar dili haqqında əksinqilbi pantürkist «ideya» tədris edilirdi. Azərbaycan SSR-nin tarixi elə şəkildə təqdim olunurdu ki, buradan da Azərbaycanı müstəqil respublika deyil, SSRİ-dən asılı müstəmləkə olması açıq-aydın görünürdü.

«...Biz təsdiq edirdik ki, SSRİ-də türk-tatar respublikalarının guya ki, müstəqilliyi yoxdur, onların hamısı öz mahiyyəti etibarı ilə guya ki, köhnə çar rusiyasının müstəmləkəçilik siyasətini davam etdirən mərkəzi hakimiyyətə tabedirlər». (15-17 oktyabr 37-ci ildə A.M.Tağızadənin verdiyi ifadədən).

İstintaq materiallarında göstərilirdi ki, tədris planları pantürkist və millətçi istiqamətdə tərtib edilir, hər cəhdlə rus dilinin tədrisinə diqqət verilmir və təhrif olunurdu.

«... Təşkilatın tərəfimizdən yaradılan əksinqilabi qrupunun praktik işi aşağıdakı ümumi cəhətlərlə xarakterizə olunurdu:

1. Pantürkizmin təbliğatı və populyarlaşması. Ali təhsil müəssisə gənclərinin bu istiqamətdə tərbiyə edilməsi. Buna görə də ilk növbədə: tarix və mədəniyyət məsələlərinə dair məruzə, mühazirə, disputlardan, tələbələr arasında əksinqilabi pantürkist ədəbiyyatın yayılması, əksinqilabi pantürkist və millətçi təbliğatın aparıldığı «elmi» işlərin nəşri və dərsliklərin tərtib edilməsi kimi leqal imkanlardan istifadə olunurdu. Bu dərslik və işlərin nəşri təşkilatın

üzvləri (mən-Çobanzadə, Feyzulla Qasımzadə, Zeynallı Hənifə, Qarabağlı, Tağızadə Abdulla və b.) tərəfindən xalq maarif komissarlığının instansiyalarından keçirilmək yolu ilə təmin olunurdu».(5 mart-37-ci il B.Çobanzadənin verdiyi ifadədən.)

Türk mədəniyyətinin Yaxın Şərq xalqları üçün mədəniyyət nümunəsi olması haqqında əksinqilabi baxışlar geniş yayılır və bütün türk-tatar xalqlarına vahid mədəniyyətin olmasının vacibliyi haqqında «ideya» təbliğ edilirdi.

«...1. Mən belə hesab edirdim ki, sovet hakimiyyətinin siyasəti praktik olaraq şərqi milli respublikaların ruslaşmasına, milli kadrların sıxışdırılması və aradan götürülməsinə aparır, nəticədə şərq xalqlarının milli mədəniyyətlərinin inkişafına maneçilik törədir.

2. Mən hesab edirdim ki, şərq xalqları, «türk-tatar xalqları adlanan lakin SSRİ-yə daxil olan xalqlara milli mədəniyyətin inkişafı üçün nümunə olan türk mədəniyyəti daha çox uyğundur. Bununla əlaqədar, mən elə hesab edirəm ki, şərq xalqlarının milli mədəniyyətini pantürkistlər daha yaxın təmin edə bilərlər.

3. Mən hesab edirdim ki, SSRİ-dən ayrılmaqla türk-tatar xalqlarının vahid «müstəqil» dövlətdə birləşməsi lazımdır...»(3-5 mart 37-ci ildə B.Çobanzadənin verdiyi ifadədən).

**Mətbuat sahəsində əksinqilabi iş:**

Əksinqilabi millətçi kadrlar mətbuat və nəşriyyat sahəsində də yerləşdirilmişdir.

Təhlükəsizlik orqanlarının müstəntiqləri apardıqları təhqiqatlar nəticəsində müəyyənləşdirmişdir ki, nəşriyyat

və poliqrafiya sənayesinin başında əksinqilabi təşkilatın üzvləri dururdular. (Axundov Ruhulla, Axundov Əsəd, Triniç Əhməd və b.) Özünün orta dəstələrində də nəşriyyat aparatı təşkilat iştirakçılarının əlində idi və müsavat-millətçi elementləri ilə zibillənmişdi. Məsələn, bədii-ədəbiyyat şöbəsini Sadıxzadə Seyid Hüseyn, Zeynallı Hənifə, Eminbəyli İbrahim və b., tədris pedaqoji şöbəni Kərimov Əli, Ağayeva Nəzakət, Vəzirov Yusif və b., orfoqrafiya, tərcümə və korrektura sahəsini Məmədbəyov Paşa, İbrahimov Xəlil, Hüseyn Müznib və b. idarə edirdilər.

**Nəşriyyat və mətbuat xətti üzrə əksinqilabi iş** aşağıdakı istiqamətlərdə aparılırdı:

Nəşr olunan ədəbiyyatın dilinə və ideoloji məzmununa əksinqilabi pantürkist və müsavatçı təsir tətbiq olunurdu.

«...Bununla əlaqədar:

a) türk ədəbiyyatının, Türkiyə Respublikasının və «Həmrəylik və tərəqqi» partiyasının xadimlərinin (Ənvər Paşa, Kamal Paşa və b.) populyarlaşdırılması;

b) türklər tərəfindən Azərbaycanın zəbt edilməsi dövründə əksinqilabi millətçi əhval-ruhiyyədə olan Azərbaycan ziyalıları arasında ideallaşdırma;

v) Azərbaycanın Türkiyə ilə birləşməsinin vacibliyinin təbliği (Cabbar Əfəndizadə bu sahədə fəal rol oynamışdır)». (3-5 mart 1937-ci ildə B.Çobanzadənin verdiyi ifadədən).

Azərbaycan ərazisində yaşayan digər millətlərin dilində nəşr olunan ədəbiyyatlara (əsasən dərsliklərə) əhəmiyyət verilmirdi.

Əksinqilabi millətçi, pantürkist və açıq-aydın böhtan xarakterli əsərlər («Studentlər» Y.Vəzirov, «Şənlik arasında» B.Talıblı, «Namus» T.Şahbazi, «Çalı quşu» Rəşad Nuri, «Azərbaycanda inqilabi hərəkatın tarixi»- Rayevski və b.).

Atababa Musaxanlının dindirmə protokolu. 06 aprel 1930-cu il.

Axtarış zamanı mənim evimdən tapılmış ədəbiyyata aid verilən suala cavab olaraq bildirirəm:

1. «Bizim Ellər Deyir ki» şeirini hal-hazırda sürgündə olan Surxay Hüseynovdan onun mənzilində 1926-cı ildə köçürmüşəm. Mən onun toyuna getmişdim. Mənim orada imzamın olmasına baxmayaraq, şeiri mən yazmamışam. Surxayın sözlərinə görə bu şeir onun qardaşı Qara Hüseynov tərəfindən yazılmışdır. O vaxtlar bunlar mənə millətçi ruhunda yazılmış şeirlər kimi göndərilmişdi, indi isə başa düşürəm ki, bu şeirlər tamamilə açıq-aşkar müsavatçı xarakteri daşıyır və antisovet ruhda yazılmışdır. Bu şeirləri mən heç kimə oxumamışam və heç kimə göstərməmişəm.

2. Ə.Cavadın «Göy-göl» və «Çoban qızı» şeirlərini özüm köçürmüşəm və özümdə saxlamışam. Bunlar dərsliyə daxil edilmək üçün bir material kimi məsləhət görülmüşdü, lakin bunu tərtib edən komissiya tərəfindən millətçi xarakter daşıyan şeirlər kimi rədd edilmişdir. O ki, qaldı «Leyla» şeirinə, öz həyat yoldaşı tərəfindən üzərinə sulfat turşusu tökülmüş Leyla adlı bir xanıma aid olan bu şeiri Ə.Cavadın özündən köçürmüşəm. Şəxsən mən belə güman edirəm ki, bu şeirlərin başqa əsası yoxdur.

3. Mənə təqdim olunan 6 şeir gənc şair Almaszadə İldırımın qələminə mənsubdur və onun 1926-27-ci illərdəki ədəbi yaradıcılığına aiddirlər. Bu şeirlərdə Ə.Cavadın güclü təsiri hiss edilir, ona görə də bütün şeirləri («Ay ilə Günəş» şeiri istisna olmaqla) millətçi-müsavatçı xarakter daşıyır. Bu şeirlər şəxsən Almaszadə İldırım tərəfindən mənə baxılmaq və mənim rəyimin bildirilməsi üçün verilmişdi. Mən ona şifahi olaraq dedim ki, onun şeirlərində simvolizmin təsiri hiss olunur, ona görə də onlar yararsızdır. Bu şeirlər o vaxtdan məndə qalıb və mən onları oxumaq üçün heç kimə verməmişəm.

4. «Ati» şeiri Hüseyn Sadıxın həyat yoldaşı, vətəndaş Ümmügülsümün qələminə mənsubdur. Onlar ədəbiyyat kitabına daxil edilmək üçün təqdim olunmuşdu, lakin onu tərtib edən komissiya tərəfindən millətçi-müsavatçı xarakter daşıdığından rədd edilmişdi.

5. «Alov» şeiri gənc şair Adil Hicatın (özü də Adil Əfəndizadə) qələminə mənsubdur və 1925-ci ildə yazılmışdır. Dərsliyə daxil edilmək üçün təqdim edilmişdi, lakin mistisizm özünü büruzə verdiyi üçün komissiya tərəfindən qəbul edilməmişdir.

Ümmügülsümün «Ati» şeiri 1925-ci ilin nəşri olan «Örnək» toplusunda, Adil Hicatın «Alov» şeiri isə 1925-ci ilin nəşri olan «Ədəbi parçalar» toplusunda dərc edilmişdir.

6. Hacı Kərim Saniyev (Sanılı) tərəfindən yazılmış «Muğan» şeiri bir az millətçi xarakter daşıdığına görə dərsliyi tərtib edən komissiya tərəfindən rədd edilmişdir.

7. 1924-cü ildə mən «Uçuqlar arasında» şeirini Şuşa şəhərinin təsiri altında yazmışam. Orada millətçi ruh yox-

dur. Şeirləri və ümumiyyətlə, dərsliyi tərtib edən komissiya tərəfindən rədd edilmiş materiallar göstərilən komissiyanın katibi kimi məndə qaldı, komissiyanın sədri isə Hənifə Zeynallı idi[102].

İstintaq materiallarına görə partiya ədəbiyyatlarının buraxılışında qəsdən təhrifə, səhvlərə yol verilirdi, ayrı-ayrı məsələlər isə açıq-aydın əksinqilabi mövqedən işıqlandırılırdı (kənd təsərrüfatı artelinin Nizamnaməsi, Leninin əsərlərinin tərcüməsində, Stalinin «Leninizmin məsələləri»ndə və b.).

Sənədlərdə göstərilir ki, Sovet Yazıçılar İttfaqının tərkibi Müsavatçı, millətçi və pantürkist elementlərlə dolu idi. Belə ki, belletristik və bədii ədəbiyyatı Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Sanılı Hacı Kərim, Əfəndiyev Qafur (Qantəmir) və b. idarə edirdilər.

«...Qantəmir, Mikayıl Müşfiq, Hacı Kərim Sanılı təhsil müəssisələrində və təşkilatlarda onlar tərəfindən yaradılmış ədəbiyyat dərnəklərinin üzvləri arasında əksinqilabi millətçi təbliğat aparırdılar, əksinqilabi təşkilatın xüsusi sifarişi ilə millətçi ədəbiyyat yazırdılar, bu haqda öz ifadələrimdə ayrıca demişəm». (15-17 sentyabr 37-ci ildə M.Ələkbərliinin verdiyi ifadədən).

MTN-in arxiv materiallarında göstərilir ki, əksinqilabi pantürkist və millətçi ideologiya daşıyan elmi işlər və dərsliklər buraxılırdı («SSRİ xalqalrının tarixi» - Ə.Qubaydullin, «Türk dilinin metodikası» - B.Çobanzadə, «Səlcuq

---

[102] MTN-in arxivi. Musaxanlı Atababanın istintaq qovluğu, PR - №23294, səh.17-18.

dövlətinin daxili quruluşu» - V.Xuluflu, «Ədəbiyyat üzrə müntəxabat» - H.Zeynallı, «Müsavatın aqrar siyasəti» - M.Ağayev, «Mahmud Kaşkarinin seçilmiş əsərləri» - X.S.Xocayev və b. və bir çox jurnallar). Yazıçıların yaradıcılıq fəaliyyəti millətçi, pantürkist göstəriş və müddəaların yeridilməsi xətti üzrə aparılırdı. Bunun nəticəsində də: Sovet Azərbaycanı tutqun rənglərdə tərənnüm edilirdi. («Əbədiyyət nəğməsi» - Mikayıl Müşfiq, «Göy-göl» - Əhməd Cavad və b.) Sovet Hakimiyyətinə və kommunist partiyasına qarşı əksinqilabi böhtanlar atılır, beynəlmiləlçilik məsələrinin üstü malalanır, xalqların qardaşlıq münasibətləri təhrif olunurdu («Moskva»-Əhməd Cavad). Azərbaycan xalqının mütərəqqi tarixi şəxsiyyətlərinin təhrif olunması yolu ilə quldur üsyançı hərəkat ideallaşdırılır («Turut qaçaqları» - Sanılı və b.). Sinfi mübarizə məsələlərinin üstü malalanırdı. Xanlar, bəylər müsbət tiplər kimi təsvir olunurdular («Aran köçü»-Sanılı və b.) və s.

Məmməd Kazım Ələkbərli göstərirdi ki, 1935-1936-cı illərdə «SYİ»-yə (Sovet Yazıçıları İttifaqı) rəhbərlik etdiyim müddətdə bir sıra əksinqilabi millətçi əsərlər hazırlanmış və həmin əsərlər işıq üzü görmüşdür:

1. «Turut qaçaqları», Azərbaycanda banditizmi populyarlaşdıran və üsyançı hərəkatı təbliğ edən əsər idi. Bu əsərin ikinci hissəsi mənim xüsusi tapşırığım ilə əksinqilabçı təşkilatın üzvü Sanılı Hacı Kərim tərəfindən yazılmışdır.

2. «Tələbələr» romanı, faşist xarakterli əsərdir. Bizim əksinqilabi təşkilatın üzvü Vəzirov Yusif tərəfindən mənim rekdaksiyam altında yazılmışdır.

3. «Şura qızı» əsərinin ikinci hissəsi pantürkist xarakter daşıyırdı və Özbəkistanda, Azərbaycanda və digər türk-tatar respublika və vilayətlərin türk-tatar xalqlarının ümumiliyini xüsusi olaraq nəzərə çatdırırdı. Mənim və R.Axundovun tapşırığı ilə əksinqilabi təşkilatın üzvü Qantəmir tərəfindən hazırlanmışdır.

4. «Kolxozstan» - açıq-aşkar millətçi əsərdir. Əksinqilabi təşkilatın tapşırığı ilə yazıçı Qantəmir tərəfindən yazılmışdır.

5. «Sədəf» (əsərin adıdır) müsavatçılığı tərənnüm edən əsərdir. Əsərin qəhrəmanını burjua-millətçi əksinqilabi təşkilatın üzvü Xavər Qarayevanın simasından yazılmışdır. Əsər əksinqilabi təşkilatın üzvü Əhməd Cavad tərəfindən yazılmış, mənim müsbət resenziyam olandan sonra isə istehsala verilmişdir.

6. «Aşıqlar ailəsi», «Sınmış saz», «Qaçaqlar» və digər şeirləri bizim təşkilatın tapşırığı ilə şair Mikayıl Müşfiq tərəfindən yazılmışdır. Bu şeirlərində Müşfiq Sovet hakimiyyətinin devrilməsinə, Böyük Azərbaycanın yaranmasına və s. çağırır. Mənim fəal iştirakım ilə işıq üzü görmüşdür.

7. «İblisin intiqamı» pyesində millətçilik təbliğ edilirdi, əksinqilabi təşkilatın tapşırığı ilə onun üzvü Hüseyn Cavid tərəfindən yazılmışdır.

8. R.Axundov və M.Hüseynov ilə razılaşdırıldıqdan sonra Hüseyn Cavidin «Siyavuş» pyesi (pantürkizm təbliğatı) və s. daxil edilməklə əsərlərindən ibarət tam külliyyatı çapa hazırlanırdı.

9. Millətçi Məhəmməd Hadinin Qlavlit tərəfindən müsadirə edilmiş 15.000 nüsxədən ibarət olan külliyyatı nəşr olunmuşdu. Külliyyat Əli Abbas Müznib tərəfindən Əhməd Cavadın redaktorluğu və Əsəd Axundovun fəal iştirakı ilə təşkil edilmişdi. Bu haqda mənə də məlum idi.

10. Əksinqilabi təşkilatın üzvü Salman Mümtaz tərəfindən «100 şair» albomu buraxılışa hazırlanmışdı. Burada bir sıra millətçilər tərənnüm edilirdilər. R.Axundovun, Əsəd Axundovun və mənim - Ələkbərli Kazımın tapşırığı ilə quraşdırılmışdır[103].

**İncəsənət sahəsində əksinqilabi iş:** Azərbaycan incəsənəti sahəsində də əksinqilabi millətçi fəaliyyət aparılırdı. İncəsənət işləri üzrə idarənin başında əksinqilabi təşkilatın üzvləri dururdular (Axundov Ruhulla, Rəsulzadə Davud və b.).

**Opera teatrı üzrə:** Şahbazov Müseyib, Şahnəzərov və başqaları..

**Dramatik teatr üzrə:** Ülvi Rəcəb, Şərifov Abbas Mirzə, Kazımzadə Kazım Ziya və b.).

«...Əli Kərimovdan alınan tapşırıqların yerinə yetirilməsi üçün mən aşağıdakı əksinqilabi işləri görmüşəm:

1. Mən şəxsən əksinqilabi millətçi üsyançı təşkilatda əməkdaşlığa cəlb etmişəm:

a) Kirovabad teatrının aktyoru, bitərəf, hal-hazırda Bakı şəhərinə köçmüş, Əzizbəyov adına teatrda işləyən Kazım Ziyanı;

[103] MTN-in arxivi, M.K.Ələkbərlinin istintaq qovluğu, PR - №25533, səh. 12-26.

b) Kirovabad teatrının aktyoru, komsomolun üzvü Məmmədov Səmədi.

2. 1936-37-ci il mövsümündə 15-16 dəfədən az olmayaraq, burjua-millətçi Hüseyn Cavidin pyesini - «Şeyx Sənan» tamaşasını sovet tamaşaçılarına təqdim etmişəm.

3. Mirzə Fətəli Axundovun «Hekayəti Vəziri xani Lənkəran» pyesinə keyfiyyətsiz tərtibatda quruluş vermişəm. Bu sahədə özümün əksinqilabi işimi dərinləşdirə bilmədim, belə ki, bütün quruluşlar incəsənət və yerli təşkilatların işi üzrə komitənin nümayəndələri daxil olan komissiya tərəfindən baxıldıqdan sonra səhnəyə buraxılırdı...» (10 fevral 1938-ci ildə Seyfi Ələkbər Seyfulla oğlunun verdiyi ifadədən).

Teatr səhnələri əksinqilabi millətçi «ideyaların» və pozuculuq meyllərinin həyata keçirilməsi üçün istifadə olunurdu. Kino şəkillərin buraxılması üçün ayrılan vəsaitlərin dağıdılması xətti üzrə böyük pozuculuq fəaliyyəti (kino sənayesində) inkişaf etmişdi. Layihələr, smetalar və montajlar yenidən işlənirdi, bununla da buraxılışın müddəti uzanırdı.

Qəsdən yad xarakterli, əksinqilabi cəhətdən təhrif olunmuş və zərərli kino-filmlər («Məhəbbət oyunu», «Almaz», «26 Komissar» və b.) buraxılırdı.

**3) Üzləşmələr, şahid ifadələri və danoslar.**

Repressiv aktlara məruz qalanlar və repressiyalardan yaxa qurtaranların bəzilərini gen zədələndiyindən mühit sıxıb «danosçuya», «şahidə», «sovet adamına» çevirə bildi. Cəmiyyətdə və NKVD orqanlarında elə bir mühit yaradıl-

mışdır ki, şahid olmamaq ən azı qəhrəmanlıqdı və həqiqətən də belə qəhrəmanlar var idi. Maraqlıdır ki, şahidlərin, üzləşmələrdə iştirak edənlərin əksəriyyəti ayrı-ayrı kamerada saxlanılan müttəhimlər idi. Belə ki, S.Mümtazla üzləşdirilən Qubaydullin[104], Cavidlə üzləşdirilən Kərimov Əli və Əli Nazim Mahmudzadə[105], Vəli Xuluflu ilə üzləşdirilən Hənəfi Zeynallı[106], Hənəfi Zeynallı ilə üzləşdirilən Biləndərli Hüseynəli Süleyman oğlu və Ruhulla Axundov[107] və s. kənardan deyil, məhz kameradan gətizdirilir, məcburi fiziki və mənəvi təzyiqlər altında ifadələr verir və axırda hər ikisi məhv edilirdi. Salman Mümtazla Çobanzadənin, sonra isə Qubaydullinin üzləşməsinə fikir verək:

**Sual** (Çobanzadəyə): Siz nə zaman Əsgərzadə ilə əksinqilabi əlaqəyə girmisiniz və bu əlaqə nədən ibarətdir?

**Cavab:** S.Mümtazla mən 1925-ci ildə, mənim Azərbaycana birdəfəlik gəlişimdən sonra tanış olmuşam. Azərbaycana gələndən sonra və əksinqilabi iş aparmaq məqsədi ilə mən bir çox əksinqilabi millətçi azərbaycanlılarla - onlardan şəxsən Baharlı, Həşim Feyzullazadə, S.S.Axundov və başqaları ilə əks inqilabi əlaqəyə girmişəm. Göstərilən şəxslər və başqa əksinqilabçılar mənə S.Mümtazı necə bir əksinqilabçı millətçi, pantürkist kimi təqdim edərək onunla əksinqilabi əlaqə yaratmağa zəmanət vermişlər. Azərbaycana gələndən sonra mənim evimə əksinqilabi əlaqə yaratdığım bir sıra millətçilər gəlməyə başladı. Onlar ara-

[104] S.Mümtazın istintaq qovluğu. PR - №25082. səh. 68-70.

[105] H.Cavidin istintaq işi. PR - №18845, səh. 101, 102.

[106] H.Zeynallının istintaq qovluğu PR - №26385, səh. 363-371.

[107] H.Zeynallının istintaq qovluğu PR - №26385, səh. 359-360: 372-376.

sında S.Mümtaz da var idi. Çox yaxın zamanda mənim əlaqələrim S.M.Əsgərzadə ilə yaxınlaşdı və hər ikimiz ardıcıl olaraq görüşlər zamanı əksinqilabi millətçi baxışlarımızı bir-birimizə danışırdıq. Sovet hökumətinin və partiyanın milli siyasətini əksinqilabi mövqedən tənqid edirdik. Söhbətimiz əsasən bu məzmunda gedirdi. Mən də S.Mümtazla birlikdə Azərbaycanın Sovet İttifaqından ayrılması mövqeyində dayanmışdıq və onun «müstəqil» burjua demokratik dövlət olmasını istəyirdik. S.Mümtaz Kamal türkiyəsini idializə edir və «müstəqil» Azərbaycanın gələcəyini Türkiyəyə istiqamətləndirməkdə görürdü. S.Mümtaz dəfələrlə deyirdi azərbaycanlı kadları sıxışdırırlar və partiyanın siyasəti Azərbaycanı ruslaşmaya aparır. Və gürcü millətçiləri öz işlərində bizdən xeyli irəlidədirlər. 1926-29-cu illərədən başqa bizim şəxsi münasibətlərimiz yaxşı deyildi, Mənim və Mümtazın ÜK(b)P və Sovet hökuməti ilə mübarizəmiz mənim həbs edildiyim zamana kimi davam edirdi. Bizim münasibətlərimiz 1929-cu ildə Cəbiyevin gəlişindən sonra tamamilə düzəldi. Və biz hər ikimiz ADPİ və Az.FAN-da S.Mümtazla birlikdə işləyirdik.

**Sual** (Çobanzadəyə): S.Mümtazı necə bir əksinqilabi millətçi təşkilatın üzvü kimi tanıyırsınızmı?

**Cavab:** S.Mümtazın əksinqilabi millətçi təşkilatın üzvü olmağı mənə 1935-ci ilin payızında məlum olmuşdur. R.Axundov S.Mümtazı mənə ən yaxşı tərəfdən xarakterizə edib və deyib ki, S.Mümtaza bir əksinqilabi təşkilatın üzvü kimi müəyyən tapşırıqlar verib. S.Mümtazla görüşlərin birində Az.FAN-nın binasında birində o, mənə dedi ki, yaxın gələcəkdə Azərbaycan hökumətinin rəhbərliyində də-

yişiklik olması gözlənilir. Bununla əlaqədar əksinqilabi millətçilərə rəhbər vəzifələri ələ almaq mümkün olacaqdı və xüsusilə qeyd etdi ki, R.Axundov XKİS sədri, və Hüseyn Rəhmanov isə Tiflisə işə keçən Bağırovun yerinə AK(b)P-nın MK-nin katibi olacaqdır.

**Sual** (Mümtaza): Deyilənlər düzdürmü?

**Cavab:** Çobanzadə ilə mən 1925-ci ildə tanış olmuşam, onunla ADPİ-da və Az.FAN-da işləmişəm. İfadələrin bu hissəsini mən təsdiq edirəm. Amma bu biri hassəsini, harada ki, Çobanzadə ifadə verir mən onunla əksinqilabi əlaqə saxlamışam və mən əksinqilabi millətçi təşkilatın üzvüyəm bunların hamısını qəti rədd edirəm. Çobanzadə mənim haqqımda yalan ifadələr verir.

**Sual:** (Çobanzadəyə) Siz öz ifadələrinizi təsdiq edirsinizmi?

**Cavab:** Öz ifadələrimi üzləşmədə tamamilə təsdiq edirəm, mən ancaq düzgün danışmışam və öz ifadələrimin üstündə dayanıram.

İfadə bizim sözlərimizlə düzgün yazılıb və bizə şəxsən oxunub. İmza.

****

10.10.37-ci il üzləşmə protokolu

**Sual** (Qubaydullinə): Siz nə zaman Əsgərzadə ilə əksinqilabi əlaqəyə girmisiniz və bu əlaqə nədən ibarətdir?

**Cavab:** Mən S.M.Əsgərzadə ilə ilk dəfə 1926-cı ildə Bakı şəhərində keçirilən Türkoloji qurultayda tanış olmuşam. Onunla daha yaxınlığım 1927-ci ilə təsadüf edir. Bizim əlaqələrimiz yaxşılaşanda S.Mümtaz mənə deyirdi ki, o, Tatarıstanın, Başqırdıstanın və Türkistanın bir hissəsi-

nin əksinqilabi pantürkist hərakatının messenat və himayəçisi Xusainovla əlaqədə idi. Mən və S.Mümtaz necə bir pantürkist kimi Tatarıstanın, Başqırdıstanın və Türkistanın pantürkist hərakatının rəhbərlərinə böyük hörmətlə yanaşırdıq. Biz ikimiz Sovet hökuməti və ÜK(b)P-sı ilə mübarizədə əksinqilabi pantürkist millətçi mövqedə dayanmışdıq və hesab edirdik ki, Sovet hökuməti ilə mübarizə yoluyla Azərbaycanı SSRİ-dən ayırmaq, müstəqil Azərbaycan dövlətini burjua demokratik idarə üsulu ilə yaratmaq lazımdır. Mən necə bir pantürkist kimi sözsüz ki, məsələləri daha geniş qoyurdum. Məsələn, vahid türk-tatar dövlətini yaratmaq və onu SSRİ-dən ayırmaq. S.Mümtaz da mənimlə həmfikir idi, ancaq o, məndən fərqli olaraq yerli millətçi təməyüllü mövqedə idi. 1926-cı ildə Bakıda pantürkistlərin mərkəzi yaranmışdı və həmin təşkilat mənə Azərbaycanın görkəmli hökumət işçilərini bu təşkilata cəlb etməyi həvalə etmişdir. Bu təşkilata S.Mümtaz da cəlb edilmişdi. S.Mümtazı bu təşkilata cəlb etmək üçün böyük səy göstərilməmişdi. Ona görə ki, o, əksinqilabi millətçi, pantürkist mövqedə dururdu. Mən həbs edilənədək S.Mümtazla əksinqilabi əlaqə saxlayır və görüşən zaman biz partiyanın və Sovet hökumətinin milli məsələlər üzrə siyasətini əksinqilabi mövqedən tənqid edirdik. 1936-cı ildə əksinqilabi millətçi təşkilatın fəal üzvlərinin birindən mənə məlum oldu ki, S.Mümtaz əksinqilabi millətçi təşkilat tərəfindən cəlb edilib və orada işləyir.

**Sual** (Mümtaza): Bunlar düzdürmü?

**Cavab:** Mən təsdiq edirəm ki, Qubaydullinlə 1926-cı ildə Türkoloji qurultay zamanı Bakı şəhərində tanış olmu-

şam və mən ona öz olduğum və başqa şəhərlər barəsində danışmışam. Ancaq mən Qubaydullinlə əksinqilabi əlaqədə olmağımı qəti surətdə etiraz edirəm. Mən əksinqilabi mövqedə durmamışam və Qubaydullin məni əksinqilabi təşkilata cəlb ertməyib. Qubaydullinin ifadələri yalandır, mən onlara qəti etiraz edirəm.

**Sual** (Qubaydullinə): Siz öz ifadələrinizi təsdiq edirsinizmi?

**Cavab:** Mən öz ifadələrimi tamamilə təsdiq edirəm. Mən yalnız həqiqəti demişəm və öz ifadələrimin üzərində dururam. İfadələr mənim sözlərimələ eynidir, mənim tərəfimdən oxunub və imza edilib. Üzləşməni apardı: NKVD 4-cü şöbə 3-cü bölməsinin rəisi Qalstyan[108].

Yeri gəlmişkən qeyd edək ki, S.Mümtazın qızı mərhum Şəhla Mümtazzadə bu üzləşmələr barədə belə deyir: «Atama yemək apararkən mənə dedi ki, Qubaydullin üzümə durdu və müstəntiq çölə çıxarkən ayaqlarıma düşdü, dedi ki, bilirəm Salman duz-çörək kəsmişik, amma neynim incidirlər, dözəmmirəm». Bunlar bir daha təsdiqləyir ki, ifadələrin və üzləşmələrin çoxu təzyiqlər altında keçirilmiş, daha çox adam məhv etmək üçün bu üsuldan bir vasitə kimi istifadə edilmişdir. Sultan Məcid Əfəndiyev fiziki işgəncələrdən təngə gələrək bildirirdi ki, mən heç bir əksinqilabi millətçi təşkilatın üzvü olmamışam, lakin nəyə deyirsinizsə verin imza atım[109].

---

[108] MTN-in arxivi. S.Mümtazın istintaq qovluğu, PR - №25082.

[109] MTN-in arxivi. S.M.Əfəndiyevin istintaq qovluğu. PR - №16647.

Eyni fikirlərə başqa istintaq materiallarında da rast gəlmək olur. Belə ki, Mahmudzadə Əli Nazimin 01 iyun 1937-ci ildə verdiyi ifadəsində oxuyuruq: «Mən məcburam boynuma alım ki, həbs olunan vaxta kimi əksinqilabçı mövqedə olmuşam və praktik olaraq əksinqilabi iş aparmışam. Mən etiraf edirəm ki, AK(b)P-nin daxilində olarkən riyakar əksinqilabçı olmuşam[110].

01.07.37-ci il tarixdə verdiyi ifadədə isə o belə deyirdi: Mən məcburam boynuma alım ki, Elmlər Akademiyasının Azərbaycan filialındakı Azərbaycan ziyalıları arasında əksinqilabi millətçi qrupun iştirakçısı olmuşam.

**Sual:** Bu əksinqilabçı millətçi qrupun təşkilatçısı və rəhbəri kim olmuşdur?

**Cavab:** Bu əksinqilabçı millətçi qrupun təşkilatçısı və rəhbəri Elmlər Akademiyasının Azərbaycan filialının keçmiş sədr müavini Ruhulla Axundov idi[111].

Maraqlıdır ki, istintaqın təqib və təzyiqlər altında aparılmasını 30-cu illərdə NKVD orqanlarında işləyən və istintaqı aparan şəxslərin özləri də etiraf edirdilər: «Müstəntiqlər iş keyfiyyətinə, siyasi və əməli hazırlığına, agentura ilə işləmək qabliyyətinə görə yox, dustaqdan yalan ifadələr ala bilmək məharətinə görə qiymətləndirilirdi. Dustaq nə qədər çox əksinqilabi təşkilat nümayəndələrinin adını çəksəydi, müstəntiq bir o qədər çox təriflənirdi. Müstəntiqin xidmət tərcümeyi-halı, onun işlədiyi müddətdə güllələnməyə məhkum etdiyi dustaqların sayı ilə müəyyən olu-

---

[110] MTN-in arxivi. Mahmudzadə Əli Nazimin istintaq qovluğu. PR - №28010, səh. 95.

[111] Yenə orada. səh.103-104.

nurdu. Güllələnmə qərarı nə qədər çox olsaydı onu çıxaran müstəntiq də bir o qədər qiymətli hesab olunurdu»[112].

Elə ona görə də istintaq materiallarında «Siz kimlərlə əksinqilabi əlaqədə olmusunuz» sualı daha çox vurğulanırdı:

**Sual:** Azərbaycan Elmlər Akademiyasının filialında sizə yaxın olan yoldaşlarınızın adını deyin?

**Cavab:** Yaxın dotluq əlaqəsi saxlayıram: Tarix şöbəsinin rəhbəri Bukşpanla, Arxeoqrafiya sektorunun rəhbəri Həsən İmanovla, Dil və Ədəbiyyat institutunun direktoru Z.İ.Zifeldamla, Az.FAN nəşriyyatının müavini Zakirov Zinnətlə, təsərrüfat müdiri Arutyunovla, Dil və Ədəbiyyat institutunun direktor müavini Qulam Bağırovla, elmi əməkdaş Əli Kazımovla, tərcüməçi Həsənzadə Vahabovla.

**Sual:** Az.FAN-da olmayan dostlarınızın adını çəkin?

**Cavab:** Azərbaycan Sovet Ensiklopediyası Terminologiya şöbəsinin rəhbəri Yusif Əliyev, ASE-nin tarix şöbəsinin əməkdaşı Rəşid Ruhullayev, ASE-nin təbiət elmləri şöbəsinin rəhbəri Yaqub Zəki, Az.SSR Qlavlitin rəisi Eminbəyli İbrahim, Yelenedoftarsi zootexnik stansiyasının aparıcısı Mirzə Sadıxov, Mərkəzi arxiv idarəsinin rəisi Məmməd Bayramov, Azərbaycan Tarix Muzeyinin direktoru Mövsüm Salamov, ADU-nin professoru Qubaydullin, Mərkəzi arxiv idarəsinin elmi katibi Gülnəzərov.

**Sual:** Siz professor Çobanzadəni tanıyırsınızmı?

**Cavab:** Bəli, onunla ancaq rəsmi surətdə tanış olmuşam.

---

[112] Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, 1993, səh. 104.

**Sual:** Lakin istintaqa məlumdur ki, Siz Çobanzadə ilə dostluq əlaqəsi saxlayırsınız. Bunu təsdiq edirsinizmi?

**Cavab:** Bəli təsdiq edirəm ki, mən təxminən 1927-ci ildən Çobanzadə ilə dostluq əlaqəsindəyəm.

**Sual:** Çobanzadə haqqında 1-ci suala nə üçün siz cavab verdiniz ki, onunla ancaq rəsmi tanışam?

**Cavab:** Mən sizi o dəqiqə başa düşmədiyimdən səhv etdim.

**Sual:** İstintaq belə hesab edir ki, siz bilərəkdən əlaqənizin həqiqi xarakterini gizlətməyə cəhd etdiniz. Bunu təsdiq edirsinizmi?

**Cavab:** Təsdiq etmirəm. Mən əvvəldən səhv etdim deyəm ki, Çobanzadə ilə əlaqəm rəsmidir. Protokol şəxsən mənə oxunmuş və düzgün yazılmışdır. Sorğunu apardı: 4-cü şöbənin rəisi DT kapitanı Avanesyan[113].

Müttəhim Xuluflu Vəli Məmməd Hüseyn oğlunun 29 yanvar 1937-ci ildə verdiyi ifadədən: Ruhulla Axundov haqqında mənə məlumdur ki, o son vaxtlara kimi keçmiş müsavatçı, hal-hazırda yazıçı Seyid Hüseyn Sadıxzadə ilə çox yaxın əlaqədə olub. Onunla çox hesablaşırdı, xüsusilə də orfoqrafiya sahəsində. Millətçi kimi tanıdığım və bu günə kimi yeni əlifbanı prinsiplə (inad göstərərək) öyrənməyən Salman Mümtaz da Ruhulla Axundova yaxındır. Axundov dəfələrlə onu işə düzəldib. Bundan başqa mənə məlumdur ki, Axundov molla oğlu Cavad Bağırov adlı birini, tacir oğlu Abdul Əzizi (familiyası yadımda deyil) və

---

[113] MTN-in arxivi PR - №25014.

bir neçə belə adamı Leninqradda təhsil almaq üçün məktəbə düzəldib[114].

Müttəhim Zeynallı Hənifə Baba oğlunun 15-20 may 1937-ci ildə verdiyi ifadədən:

...Tağı Şahbazi 1933-cü ildə yenidən Yazıçılar İttifaqında işə başladı. Publisist-ədəbiyyatçı işində böyük stajı və fəal millətçi olduğu üçün Tağı Şahbazi yazıçılar dairəsində köhnə millətçi kadrlar arasında böyük nüfuz və inam qazanaraq Sanılı, Seyid Hüseyn Sadıxov, Vəzirov Yusif, Müşfiq, Qafur Əfəndiyev, Seyid Bədrəddin, Hüseyn Cavid və digər əksinqilabçı millətçi və müsavatçıları öz ətrafında qruplaşdırdı. Şəxsən mən Əli Kərimdən Tağı Şahbazinin bizim təşkilatın üzvü olduğunu və Yazıçılar İttifaqında əksinqilabçı iş aparmağını eşidəndə təəccüblənmədim[115].

Müttəhim Talıblı Böyükağanın 17 avqust 1937-ci ildə verdiyi ifadədən:

SYİ-nın əksinqilabi əhvali ruhiyyəli və əksinqilabi iş aparan üzvlərindən mənə aşağıdakılar məlumdur:

Mehdi Hüseyn, H.Nəzərlinin əksinqilabçı qrupunun üzvü və onun Azərbaycandakı averbaxovçular işini aparılmasında sadiq köməkçisi. Yığıncaqlarda riyakarlıqla müsavatın əleyhinə çıxış edir, şəxsi həyatında isə həmişə onlarla ünsiyyətdə olur, mənzilinə gedir və onları öz evinə dəvət edirdi. Azərnəşrin bədii ədəbiyyat şöbəsinin müdiri kimi bütün müsavatçı yazıçıların tərəfində olurdu, onların

---

[114] MTN-in arxivi. Seyid Hüseynin istintaq qovluğu, PR - №23430.

[115] Yenə orada. səh.36.

əsərlərini nəşr etdirirdi və onlara həddindən artıq qonorar verirdi. H.Cavid, Ə.Cavad, Y.Vəzirov, Seyid Hüseyn və başqaları onun vasitəsilə öz əsərlərini nəşr etdirmək imkanı malik idilər və onların bir kitabını da o yararsız hesab etməmişdir. Onu da əlavə edim ki, o Averbax ilə şəxsən tanış idi[116].

Müttəhim B.Çobanzadənin 7-9 fevral 1937-ci ildə verdiyi ifadədən: APİ-nin dosenti, AK(b)P-yə keçmiş namizəd Əli Nazim mənə əksinqilabçı millətçi kimi məlumdur. Əli Nazimin keçmişindən mənə məlumdur ki, o İran tacirinin oğludur, 1927-ci ildə Türkiyədə olub, orada pantürkistlərin orqanı olan «Türk yurdu» jurnalında əksinqilabi və böhtan xarakterli məqaləsini çap etdirmişdir. Əli Nazim mənimlə dəfələrlə olan söhbətlərində aşağıdakı əksinqilabçı millətçi fikirlər söyləyirdi:

1. SSRİ-də yaşayan şərq xalqları Türkiyə ilə bərabər olmalıdırlar. Bu onun bütün əksinqilabçı millətçi fikirlərində qırmızı xətt kimi keçirdi[117].

Müttəhim Saniyev Hacı Kərim Hüseyn oğlunun 13 iyun 1937-ci ildə verdiyi ifadədən:

Etiraf edirəm ki, bəzi yazıçıların: Səməd Vurğun, Müşfiq və Əli Nazim arasında mənim yanımda əksinqilabçı millətçi mövzuda söhbətlər olmuşdur. Bu söhbətlərin təşəbbüskarı Əli Nazim idi. Əli Nazim öz söhbətlərində bildirmişdi ki, o, Acarıstanda böyümüş və tərbiyə almışdır, bu xalqı o yaxşı tanıyır. Əli Nazim deyirdi ki, Sovet haki-

---

[116] MTN-in arxivi. Seyid Hüseynin istintaq qovluğu, PR - №23430.

[117] MTN-in arxivi. Əli Nazimin istintaq qovluğu, PR - №28010.

miyyəti acar xalqının assimilyasiya olunması siyasətini aparır. Müşfiq və Səməd Vurğun da Əli Nazimin əksinqilabçı millətçi baxışlarını təsdiq edir və tamamilə onunla həmrəy olduqlarını bildirirdilər[118].

Müttəhim Xuluflu 25-28 fevral 1937-ci ildə göstərirdi ki, Əli Nazim millətçi kimi mənə 1927-28-ci illərdən, hələ Leninqradda Şərqşünaslıq institutunda oxuyarkən məlumdur. O, İstanbula ezam olunmuş və orada Türk mətbuatında antisovet məqalələrlə çıxış etmişdir. Əli Nazim mənimlə olan sistematik söhbətlərində əksinqilabi mövqedən ÜK(b)P-nın və Sovet hakimiyyətinin milli siyasətinə böhtanlar yağdırır, Azərbaycanda elmi kadrlara qiymət verilməməsi üçün partiya rəhbərlərinə qarşı olan narazılıqlarını bildirirdi. O narazılıq edirdi ki, Azərbaycanda milli kadrlar yetişdirmirlər. 1934-cü ildə mənim evimdə Əli Nazim əksinqilabi bir söhbətdə iştirak etmişdir. Bu söhbətdə ZSFSR hökumətinin büdcə siyasətinin düzgün aparılmamasından narazılıq edirdi. O deyirdi ki, guya Gürcüstan büdcədən Azərbaycan SSR-dən daha çox vəsait alır[119].

Bu ifadələr zamanı müəyyən təzyiqlərin, fiziki işgəncələrin olduğu da istisna edilmir. Lakin bu heç də o demək deyildir ki, bütün ifadələr fiziki işgəncə yolu ilə alınmışdır. Faktlar, sənədlər təsdiq edir ki, həqiqətən də Azərbaycanın müstəqilliyi uğrunda mübarizə aparmışlar. Hətta onlar arasında fiziki təqiblərə məruz qalanların bəziləri is-

---

[118] MTN-in arxivi. Əli Nazimin istintaq qovluğu, PR - №28010.
[119] MTN-in arxivi. Əli Nazimin istintaq qovluğu, PR - №28010.

tintaqa az adam cəlb edilsin deyə müxtəlif formalardan istifadə edirdi. Belə ki, məhkum olunanların bir qismi əksinqilabi millətçi kimi artıq həbs olunmuşların adlarını verirdi. Qantəmir Əfəndiyev istintaq zamanı müxtəlif adlar çəkir və 02.02.39-cu ildə verdiyi ifadəsində bildirirdi ki, mən özüm-özümə böhtan atmışam və bu adları ona görə vermişəm ki, onlar artıq həbs olunmuşdular:

«...Bütün məsuliyyətimlə bildirirəm ki, əksinqilabi təşkilatın üzvü olmamışam və müstəntiq mənə qarşı cəza tədbirləri gördüyündən (ayaq üstə qalmaq) və günahlarımı boynuma alıb-almamağımdan asılı olmayaraq, mənim işimin məhkəməyə aidiyyəti üzrə xüsusi kollegiyaya verilməsini və orada da mənim üçün təcrid edilmiş düşərgədə qalmaq üçün hökm çıxarılacağını tez-tez yadıma saldığından və mən ora düşmək istəmədiyimdən özüm-özümə böhtan yağdırmışam.

**Sual:** Deyin görək, Siz ayaq üstündə fasilələrlə və ya fasiləsiz dururdunuz.

**Cavab:** Mən deməliyəm ki, fasilələrlə ayaq üstündə dururdum, yəni mən həm ayaq üstə dururdum, həm də otururdum, lakin oturmaq vaxtı ayaq üstündə durmaq müddətini üstələmirdi.

**Sual:** İfadə vermisiniz ki, əksinqilabi təşkilata sizi Azərbaycan SYİ-nin sədri M.K.Ələkbərli cəlb etmişdir. Bu belədirmi?

**Cavab:** Bəli, mən belə ifadə vermişəm... Ancaq mən artıq dedim ki, özüm-özümə böhtan yağdırmışam.

**Sual:** Siz özünüzün 5 aprel 1938-ci ildə verdiyiniz ifadənizdə Ələkbərlidən eşitdiyiniz əksinqilabi təşkilatın üzvlərinin adını çəkmisiniz. Siz bunu təsdiq edirsinizmi?

**Cavab:** Onların əksinqilabi təşkilata mənsubiyyətləri haqqında mənə heç nə məlum deyil və Ələkbərli də onların həmin təşkilata mənsubiyyətləri haqqında mənə heç nə deməmişdir. Mən onlar haqqında yanlış ifadə vermişəm. Mən Ruhulla Axundovun, Mikayıl Hüseynovun və b. əksinqilabi təşkilatın üzvlərinin adlarını ona görə çəkdim ki, onlar məndən əvvəl həbs olunmuşlar.

**Sual:** Siz düz danışmırsınız. Yusif Vəzir də Sizə məhbus kimi tanışdır?

**Cavab:** Xeyr, Y.Vəzir məhbus kimi mənə tanış deyil.

**Sual:** Beləliklə, Sizin əvvəlki suala cavabınız həqiqətə uyğun deyil. Siz bunu etiraf edirsinizmi?

**Cavab:** Düzdür, mən Yusif Vəzirin əksinqilabi təşkilatla əlaqəli olması haqqında düzgün ifadə verməmişəm.

**Sual:** Digərləri haqqında necə?

**Cavab:** Öz cavabımı təsdiq edə bilərəm ki, həbs olunmaları ilə əlaqədar olaraq onların əksinqilabi təşkilatın üzvü kimi adlarını çəkmişəm. Protokol mənim verdiyim ifadələrə uyğundur[120].

Şübhəsiz ki, bütün bunları mütləq həqiqət kimi qəbul etmək sadəlövhlük olardı. həqiqətən də bu ifadələr və üzləşmələr zamanı müəyyən təzyiqlər, fiziki işgəncələr ol-

[120] MTN-in arxivi. Qantəmir Əfəndiyevin istintaq qovluğu. PR - №23199. səh. 65-70.

muşdur. Hətta onlar arasında «çar babaya inam» əhval-ruhiyyəsində olanlar da az olmamışdır.

«Mənim işimi təhqiq edərkən aşağıdakı göstərişimi nəzərə almağınızı xahiş edirəm:

Mən 1905-ci ildə yoxsul kustar ailədə doğulmuşam. Atam 1919-cu ilə qədər fəhlə, sonra kustar və 20-ci ildən etibarən ittifaqın üzvü, hökumət qulluğunda artist olmuşdur. 1921-ci ildə ölmüşdür.

Mən Oktyabr inqilabı dövründə 12 yaşında olmuşam. 1924-cü ilə qədər təhsilə davam etmişəm. 1920-ci ildən şura mədəni maarif işlərində fasiləsiz çalışıram. Orta və ali təhsilimi şura məktəbində almışam.

On illik işimdə həmişə proletar sinfinə sadiq qalaraq heç bir əks şura fəaliyyətinə qarışmamışam və hər hankı tərzdə olursa olsun əks şura işini proletar türk kütləsi mənafeinə zərərli və duşman hesab edərək, bu yolla olan hər hankı işdən və fikirdən uzak olmuşam. Bənim, öz ixtisasım dairəsində olan işim həmişə məsul rəhbər yoldaşlar tərəfindən təkdir olunmuşdur.

İstintak əsnasında bana karşı irəli sürülən təksirlər həmin mədəni-məarif işində olan fəaliyyətilə əlakədar olduğundan bu xsusda bəzi təfsilatı yersiz görmüşəm.

1. 1920-ci ildən 1924 təhsilim ilə bərabər «Əli Bayramov» kutubxanəsində müdür sifəti ilə çalışarak mədəni cəbhədə dar milletçilik və xırda burjua əlakələrı hakim olduğu «Yaşıl yapraklar» çıxdığı bir dövrdə ən sol cənahda kommunist yoldaşların rəhbərliyi ilə kutubxanə, firqə məktəbində və «Yeni yıldız» məcmuəsi nəşrində çalışmışam. Bu dövrdəki işim hakkında Əli Tərekulov, M.S. Or-

dubadi, Mehdi İsmayılov, Talıblı, Şahbazi yoldaşlar məlumat verə bilər. Sənə həmin dövrə aid çap məqalələrim və məktəb işlərim məni müsbət tərəfdən əks etdirir.

1924-27-ci illərdəki pedaqoji fəaliyyətimdə o zamankı müəllimlərin və nəşriyyatın (ədəbi həyat) təsiri ilə bəndə ilk zamanlarda milli təmayül tərəddüdçülüyü olmuş, rus çapı öyrənərək Marksizm və Leninizm ədəbiyyatı və üsulu ilə tərindən və ətraflı tanış oldukca həmin təsirdən özümü kurtarmış və 1927-ci ildən etibarən pedaqoji və ədəbi fəaliyyətimdə Marksizm nöqteyi-nəzərini rəhbər tutarak «bitərəf, mütərəddüd» ziyalı psixilogiyasından xilas olarak çalışmışam.

1927-ci ilə qədər işlərimdə bugünkü ölçülərə görə səhvlərim olmuşdur. Bən bunları burada keyd etməyi özümə vicdanı bir vəzifə bilirm:

İstintakda göstərdiyim kibi, 25-26-cı ildə komision tərəfindən tərtib edilən «Türk dili və ədəbiyyatı proqramı»nda milli əsərlər tövsiyə edilirkən siyasi və elmi zəifliyimin nəticəsi olaraq komisionda etiraf etməmiş, bununla obyektiv surətdə, proqramların zərərli çıkmasında iştirak etmişəm. Fəkət sonra həmin proqramlara görə dərs kitabları və 1928-ci ildə şəxsən tərtibi bana tapşırılan proqramlar tərtibində həmin səhvi anlayarak düzəltmişəm. R.Axundov və M.C.Bağırov yoldaşlar Bakı firqə konfransında məktəblərdə və mətbuatda millətçilik əleyhinə çıxış və dəvətlərinə türk müəllimləri içərisindən ilk dəfə səs verərək, metodbüro, maarif evi dərnəkləri rəhbərliklərində, məqalələrində və məruzələrində türk dili və ədəbiyyat dərslərinin Marksizm və leninizm əsası ilə oxudulması yolunda ciddi

və aktiv çalışmışam. Bəlkə bu işlərimdə də səhvlərim olmuşdur. Fəkət bən heç zaman əks şura məqsədi təqib etməmiş və bolşevik firkəsinin ədəbiyyat cəbhəsindəki siyasətini məktəb sahəsinə keçirməyə çalışanlardan biri olmuşam.

26-cı il proqramları bu gün üçün qüsurlu olmaqla bərabər, o zamankı proqramlara nisbətən çox yeni olduğunu qeyd etməmək olmaz. Mənim proqramdakı qüsurum ümumi vəziyyətdən irəli gəldiyini qeyd etmək üçün proqramların Xalq Maarif komissarı, Dövlət elmi şura müəllimlərinin konfransı və Azlit tərəfindən təsdiq edildiyini və sonra intişar (?) edildiyini xatırlatmaq kifayətdir. Bənim bu dövrdəki fəaliyyətim həqqında məqalə və yazılarımdan... məsul yoldaşlardan M.Quliyev, H.Musayev, A.Sultanov, P.Qasımov, Z.Qaibli və qeyri yoldaşlar məlumat verə bilər.

Benim evimdə axtarış zamanı götürülən şeirlər 25-26-cı illərə aid, əksərisi şura mətbuatında çap edilən parçalardır. Bunların bir qismi «ədəbiyyat dərsləri» kitabları materiallarından olub xırda burjua bədbinliyi, milli dar gözlülük ifadə etdiyi üçün tənqid edilərək çıxarılmışdır. Bu şeirlər komission katibi olduğum üçün bəndə kalmışdır. Bunları saxlamaqda heç bir əks şura məksədim olmamışdır və bunların saklanılmasının kanunən məmnu (?) oldukunu bilməmişəm. Ben istintak əsnasında məktəblərdə milli tərbiyəçilikdə itham edilməmə dair irəli sürülən məsələləri tamamilə əsassız hesab etməlidir. Bu xüsusda vəktilə komsomol katibi yol. Muradov komsomol kurultayında

da bəhs etmiş, yenə bu cihətdən «Gənc işçi» qəztəsi beni tənkid etmişdir.

Bakı Pedaqoji texnikumu məsələsi ilə əlakədar olarak bu ittiham vaxtilə ali firkə və həmkarlar orqanlarının təhkiki və kərarı ilə tekzib edilmişdir. Bu münasibətlə yol. Ə.H.Qarayevin «Necə tənqid etmək olmaz» sərləvhəli məkaləsi buna şəhadət edir.

Bu xüsusda yəqinlik hasil etmək «ÜK AKP» və «ÜKK AKP», «Azpros» qərarlarını nəzərdən keçirməyinizi və şəxsən benim işimdə olan rəyi nəzərə almağınızı xahiş edirəm. Öz cavan qüvvə və biligimi şura-proletar kuruluşu yolunda sərf edən və sərf etməgə hazır olan namuslu və sadik bir vətəndaş kibi Sizə müraciət edərək işimlə ətraflı tanış olarak azad yaşamağıma imkan vərmənizi rica edirəm. Bən bütün didiklərimin məsuliyyətini üzərimə alarak sədakətimi hər vəchilə isbat etməgə hazır olduğumu məlum edirəm. 05.05.30. A.Musaxanlı.

Totalitar rejimin tırtılları altında qalan, «Vətən xaini» və «Xalq düşməni» elan edilən yalnız şəxsiyyətlər deyil, eyni zamanda həmin sənət adamlarının əsərləri idi.

Ayrı-ayrı əsərlər bu dəfə ədəbi məhkəmələrdə yox, bir başa müttəhimlərin öz ifadəsi ilə millətçi, əksinqilabi adlandırılır və müxtəlif ifadələrlə təsdiqini tapır və müəllifə oxunan hökm, onun əsərlərinə də şamil edilirdi. Qubyadulin öz ifadəsində bildirirdi ki, «Azərbaycanı öyrənən cəmiyyət»in üzvləri bir sıra əksinqilabi əsərlər çap etdirirdi: 1) B.V.Çobanzadənin «Türk-tatar dialektologiyası»; 2) X.S.Xocayevin «Türk dillərinin müqayisəli qramatikası»; 3) M.Baharlının «Azərbaycanın Tarixi-iqtisadi icmalı»; 4)

Q.S.Qubaydullinin «Xəzərlərin mənşəyi məsələsinə dair» və s[121].

Eyni halı başqa yazıçıların ifadələrində də görmək olur. 07.02.39-cu ildə Qantəmirə verilən suallara müraciət edək: **Sual:**»Şura qızı» əsərini nə vaxt yazmısınız?

**Cavab:** «Şura qızı» əsərini mən 1933-34-cü illərdə yazmışam.

**Sual:** Sizin əsəriniz nəşr edilmişdirmi?

**Cavab:** Xeyr, o nəşr olunmamışdır. Mən onu Az.SSR XKS çağırışına əsasən yazmışam, oraya da həmin əsərin iki nüsxəsini göndərmişəm. Sonradan Sovet Yazıçılar İttifaqı tərəfindən həmin nüsxələrdən birini geri aldım. Mənim həbs olunduğum zaman yuxarıda qeyd olunan nüsxə, yəni Az.SSR Yİ-dan geri aldığım nüsxə-əlyazma mənim mənzilimdən tapılmışdır. Protokol mənim verdiyim ifadələrdən düzgün tərtib edilmişdir[122].

**3) Mühacirət həyatı yaşayan azərbaycanlıların xaricdə çap etdirdiyi əsərlər.**

Siyasi mühacirətdə olanlar - M.Ə.Rəsulzadə, Mirzə Bala Məmmədzadə və başqaları da Azərbaycanda gizli təşkilatların varlığını və fəaliyyətini təsdiqləyirdilər.

M.Ə.Rəsulzadə yazırdı: «Bu əməli müqavimət hadisələri ilə bərabər məmləkətdə siyasi konspirasiya, yəni gizli çalışma aktları da güclü şəkildə davam etdi. Gizli bəyannamələr, hətta qəzetlər nəşr olundu. Bakıda, «Çeka»nın

---

[121] MTN-in arxivi. Q.S.Qubaydullinin istintaq işi PR - №25993.

[122] MTN-in arxivi. Qantəmir Əfəndiyevin istintaq qovluğu. PR - №23199. səh.71.

lap yaxınlığında gizli bir mətbəə işləyirdi: burada çap edilən «İstiqlal» qəzeti 19-cu nömrəsini buraxmağa müvəffəq olmuşdu. Bu mətbəənin sirri yalnız bir təsədüf nəticəsində açıldı: polis qəlp pul düzəldən maşın axtararkən «Müsavat» mətbəəsinin üstünə çıxdı»[123].

Mirzə Bala Məmmədzadə bu xüsusda yazırdı: «İstilaya qarşı mübarizədə 1920-ci il aprelin 29-da yaranan gizli mərkəzi komitə tamamilə gənc və ziyalı qüvvələrin əlinə keçmişdi. Bunların bir qismi ali təhsilini yenicə başa vurmuş, bir qismi isə hələ oxuyan tələbələr idi. «Müsavat»ın çarizm dövründəki konspirativ sistemi bərpa edilmişdi. Müdhiş təqib və terrora baxmayaraq bu gənc kadrlar Bakı və ətrafında, sonra isə qəzalardakı təşkilatını yenidən quraraq xüsusilə gənclər və məktəblilər arasında, fəhlə və kəndlilər içində fəaliyyətə başlamışlar. Gizli mətbəə yaradılmış, istiqlal dövründə çıxan «İstiqlal» qəzeti gizli şəkildə çap olunmağa başlamışdır»[124].

O, 20-ci illərin əvvələrində ÇK-nın sədri M.C.Bağırovun 1925-ci ildə Azərbaycan kommunist partiyasının XVI Bakı konfransındakı çıxışına da münasibətini bildirir və yazırdı: «Bağırovun təlimat dediyi şey «Müsavat» firqəsi mərkəzi yanındakı gizli ali siyasi məktəbin proqramı idi. Bu proqram 1923-cü ilin həbsləri zamanı ələ keçmişdi»[125].

Azərbaycanın istiqlaliyyəti uğrunda mübarizə aparanlardan biri - Əbdül Vahab Yurdsevər müsavatın gizli fəa-

---

[123] M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan tarixi, Bakı, Gənclik, 1991, səh. 93.

[124] Mirzə Bala Məmmədzadə. Milli Azərbaycan hərəkatı, Bakı, Nicat, 1992, səh. 155.

[125] Yenə orada. səh. 158.

liyyəti barədə yazırdı: «Emin bəyin də razılığı ilə gizli təşkilatın başına Mirzə Bala Məmmədzadə gətirilmişdir. Müavin sifəti ilə Bakı komitəsinin təşkili mənə tapşırılmışdır. Bakı və onun xaricində Azərbaycanın digər bölgələrində köhnə müsavat komitələrini canlandırmaq və yenilərini qurmaq vəzifəsi Məmməd Sadıq Quluzadəyə verilmişdi. Təşkilat məsələlərini ödəmək işi Məmmədhəsən Baharlıya həvalə olunmuşdu. Ümumi mərkəzin baş katibliyinə isə Cəfər Cabbarlı seçilmişdi. Bu vəzifə bölümünə görə ümumi mərkəz yanında tədricən ilgili komisyonlar da qurulmuşdur. Bu komisyonlar aşağıdakılardır: 1. Siyasi işlər komisyonu, 2. Təşkilat və propaqanda komisyonu, 3. Maliyyə komisyonu»[126].

Əbdül Vahab Yurdsevər xatirələrində yazır ki, bolşeviklərin hər yalan şüarı müsavat tərəfindən təkzib edilir, sovet hakimiyyətinin işğalçı məqsədi adamlara izah olunurdu. Hər baxımdan güclü təbliğatçılar yetişdirmək üçün müsavat gizli siyasi kurslar və məktəblər açırdı. Digər tərəfdən mədəni-ədəbi təbliğat üçün sovet kitabxanalarından və klublarından istifadə edilirdi. Müsavatçılar o dövrün Sabir və Məşədi Əzizbəyov kitabxanalarına tam hakim idilər[127].

Əbdül Vahab Yurdsevər gizli müsavat təşkilatının strukturu barədə yazırdı: «Təşkilat üçər kişilik hücrələr (özəklər) şəklində qurulmuşdu. Hər hücrə bir təmsilçilik vasitəsiylə daha yuxarı hücrə ilə bağlanmış bulunuyordu.

---

[126] «Müsavat» bülleteni, 1962, № 4, səh. 15.

[127] B.Rəfiyev. Asberqin sualtı hissəsi, Bakı, 1995, səh. 26.

Yalnız şəhər komitələri və onlar ətrafında qurulan komissiyalar və Mərkəzi Ümumi komissiyaları beşər və yeddisər kişidən qurula bilirdi»[128].

**4) Üsyan və ya qiyamlar.**

Faktlar göstərir ki, bolşevizmə qarşı mübarizə nəinki gizli, hətta açıq üsyan və qiyamlar şəklində də həyata keçirilirdi. 20-30-cu illərdə baş verən Gəncə, Şəki, Quba, Qusar, Naxçıvan və s. üsyanlar dediklərimizə sübutdur. Bir faktı xüsusilə qeyd etməliyik, M.C.Bağırov MK-ya ünvanladığı hesabatında bildirirdi ki, 1925-ci ilə kimi Azərbaycanda 52 üsyan aksiyası qeydə alınmışdı. Bu müqavimət hərəkatı deyilmi? (Bu barədə bu C.Qasımovun «Yaddaşın bərpası» (1999) kitabında ətraflı bəhs edilmişdir).

**5) Məntiq.**

Əgər biz mübarizə aparanların mübarizəsini kölgə altına alaraq «guya» epitetlari ilə «günahsız müqəssir» obrazı yaradırıqsa onda belə çıxır ki, Azərbaycan xalqı öz müstəqilliyi uğrunda mübarizə aparmamış, o heç müstəqilliyini elan etməmiş və «28 aprel» gecəsi hamı bir nəfər kimi «tövbə» edərək sövet hökumətini alqışlamış və onun çiçəklənməsi istiqamətində iş aparmışdır.

İstiqlal savaşına qoşulanlar, türk-tatar xalqlarının birləşməsi ideyaları uğrunda mübarizə aparanlar təhlükəsizlik orqanları tərəfindən xarici kəşfiyyatın agenti adlandırılır və onlar casusluqda ittiham edilirdilər.

---

[128] Ə.V.Yurdsevər. Gizli «Müsavat» - təşkilatının xarakteristik vəzifələri, «Azərbaycan», Ankara, N 282, 1991.

İstiqlaliyyət uğrunda mübarizə aparanlar casusluq niyyəti ilə yox, müstəqilliyin bərpası məqsədilə xarici dövlətlərlə və həmin dövlətlərdə yaşayan emiqratlarla həqiqətən də əlaqə yaratmağa çalışırdılar. Bu işdə Azərbaycan ziyalıları fəallıq göstərmirdi, eyni zamanda zorla SSRİ-yə qatılmış türk dövlətlərinin mübariz oğulları qoşulmuşdular. Sənədlərdə göstərilir ki, əksinqilabi pantürkist mərkəzin əsas məqsədi Azərbaycan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Tatarıstan, Krım, Başqırdıstan və Dağıstan ərazisində vahid türk-tatar dövləti yaratmaq olmuşdur.

Bu faktın özü bir daha təstiqləyir ki, bolşeviklər bu dövlətləri zorla birləşdirmiş və həmin dövlətlərin ayıq və oyaq düşüncəyə malik şəxsiyyətləri öz azadlıqları uğrunda mübarizə aparmışlar.

Bu da inkar edilməz faktdır ki, Sovetlər İttifaqında totalitar rejim milli genefondunu yaratmış millətlərə və fərdlərə qarşı daha amansız mövqedə oldu. Bu baxımdan SSRİ-də baş verən repressiv zəlzələnin episentri Azərbaycana düşdü. Frinovski.M.P 1932-ci ildə Moskvaya göndərdiyi məruzəsində göstərirdi ki, Qafqazda ən çox təqiblərə məruz qalan azərbaycanlılar olmuşdur.

«Guya» epiteti öz mənəvi-hüquqi təsdiqini tapırsa onda belə bir sual doğur: bəs necə oldu ki, heç bir aktiv fəaliyyət göstərməyən, Azərbaycan Xalq Cümhuriyyətini bərpa etməyi qarşısına məqsəd qoymayan 400 mindən çox Azərbaycan vətəndaşı repressiyaya, konslagerə, sürgün, təqib və təzyiqlərə məruz qaldı?

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, siyasi repressiya yalnız məruz qalanların deyil, eyni zamanda bu qi-

yam və qətllərdən qurtara bilən sənət adamlarının, bütövlükdə xalqın içindən, taleyindən keçdi, bu tragik-dramatik vəziyyəti, ağrını bütöv bir xalq yaşadı.

Bu baxımdan 20-50-ci illərdə ziyalıların yaşadığı taleyi və tərcümeyi-halı 3 mərhələyə bölmək olar.

**Birinci mərhələ** - mənəvi ideoloji fəaliyyətin bütün sahələrində, o cümlədən, mədəniyyətdə və ədəbiyyatda özünüdoğrultma, mədh etmə, «özəlləşdirmə» və bolşeviklərə xidmət üçün hələ hamıya təmin olunan imkanın davam etdiyi mərhələsidir. Bu mərhələdə sənətdə, yaradıcılıqda qanuni, hiquqi, rəsmi status kəsb edə bilməyin, birinci şərti isə yeni yaranmış dövləti mədh etməkdən ibarətdir. Sənətindən, peşəsindən və partiyalılığından asılı olmayaraq hər bir şəxs marksist-leninçi platformadan çıxış etməli və onların baxışlar sistemini həyata keçirməli idi. Müstəqil düşünmək qabiliyyətinə malik olanları isə totalitar rejimin işgəncələri gözləyirdi.

**İkinci mərhələ** - mənəvi mədəniyyət tarixində və ziyalı tərcümeyi-halında artıq «siyasi özünütəsdiq» üçün verilmiş şansın, zamanın, vaxtın, möhlətin qurtardığı, şəxsiyyətə qəsd, həbs, sürgün, və fiziki məhv etmə, mənəvi işgəncələrin başladığı mərhələdir. Bu mərhələnin əsas xarakterik xüsusiyyəti ondan ibarətdir ki, rejim Sovet hökumətini mədh etməyənə, yeni sovet adamına çevrilməyənə, çevrilərsə də şübhəli görünənlərə qarşı barışmaz, amansız mövqe nümayiş etdirirdi.

Stalin 3 mart 1937-ci ildə trotsksizmlə mübarizəyə həsr edilmiş plenumdakı çıxışında 30-cu illəri belə xarakteriza edirdi: «Partiyalı yoldaşlarımıza izah etmək lazımdır ki,

xarici kəşfiyyat orqanlarının diversantlıq-ziyançılıq və casusluq işinin aktiv elementləri olan trotskiçilər çoxdan bəridir ki, daha işçi sinfində siyasi cərəyan deyillər, onlar, işçi sinfinin interesləri ilə bir yerə sığacaq hər hansı bir ideyaya çoxdan bəridir ki, daha xidmət etməyirlər, onlar xarici kəşfiyyat orqanlarına prinsipsiz və ideyasız ziyançılar, diversantlar, casuslar və qatillər bandasına çevrilmişlər.

İzah etməlidir ki, hazırkı trotskizmə qarşı mübarizədə indi köhnə metodlar deyil, diskussiyalar metodu deyil, yeni metodlar, kökünü kəsmək və darmadağın etmək metodları lazımdır»[129].

30-cu illər xalqın yaddaşında dərd ili, ağrı ili kimi qalmışdır. Bu faciənin əsas səbəbkarları və qatilləri «ellər atası» ləqəbini qazanmış Stalin, vaxtı ilə Azərbaycan Xalq Cümhuriyyətinin təhlükəsizlik xidmətində işləyən və son günlərə qədər Azərbaycan Xalq Cümhuriyyətindəki fəaliyyəti ilə bağlı sənədləri seyfində saxlayan Beriya, «məni öldürmək azdır, asmaq azdır, məni şaqqalamaq lazımdır» - deyən Bağırov olmuşdur. Bu üçlüyün bilavasitə başçılıq etdiyi rejim Azərbaycanın mənəvi sərvətlərini, görkəmli elm, ədəbiyyat və sənət adamlarını məhv etmiş, tarixi şəxsiyyətlərini vətən xaini adlandıraraq, onların hətta qohumlarını da sürgünlərə məruz qoymuşlar. Azərbaycan ədəbiyyatının ən görkəmli yazıçılarından olan, öz deyim və yozum tərzi ilə seçilən, gözəlliyə və sevgiyə tanrısı kimi baxan H.Cavidi, Azərbaycanın müstəqilliyi uğrunda daima mübarizə aparan, onun bayrağına, ordusuna nəğmələr

[129] «Şərq qadını» jurnalı, 1937, №7, səh. 6.

qoşan Ə.Cavad və onların gənc dostları M.Müşfiq, görkəmli mollanəsrəddinçilərdən Əli Razi Şamçızadə, həmin jurnalın işıq üzü görməsində əvəzsiz xidmətləri olan Ömər Faiq Nemanzadə, eləcə də bəzən jurnalın redaktoru olmuş şair-publisist Rzaqulu Həcəfov, gözəl tarixi romanları və tədqiqat əsərləri ilə yadda qalan Yusif Vəzir Çəmənzəminli, Şərqin bədii və elmi sərvəti ilə arxivini zənginləşdirən S.Mümtaz və onlarca başqaları bu illərin qurbanı olmuşlar.

40-cı illərin repressiyası daha çox hərbi əsirlər və legionerlərlə bağlıdır. Müharibə qurtardıqdan sonra Vətənə qayıdan əsirlərin hamısı bir nəfər kimi filtirasiyadan keçmiş, faşizm rejimindən və qanlı müharibədən qurtulanlar yenidən bolşevik repressiyası ilə üz-üzə qalmış və onların bir çoxu həbs edilmişdir.

Bolşeviklər təkcə ayrı-ayrı şəxsiyyətləri deyil, eyni zamanda özlərinin oxuya bilmədikləri ərəb, fars və türk dilində yazılmış kitab və əlyazmalarını da məhv edirdilər, millətin mədəniyyətini, onun çox qədim və zəngin tarixi keçmişi ilə əlaqəsini qırmağa, yaddaşdan, kökdən, dünəndən qoparmağa xidmət edirdi. Bu da zəngin və qədim tarixi yaddaşa və mədəniyyətə, müstəqilliyə, dinə, dilə, adət-ənənəyə malik olan hər hansı milləti məhv etmə üsullarından biri idi. Digər tərəfdən isə kitab və əlyazma ağıla, zəkaya işıq çilədiyindən, ictimai-siyasi həyatda baş verən hadisələri dərk etməyə şərait yaratdığından və nəhayət, həmin kitab və əlyazmalarda «xalqa azadlığı» dadızdırmaq ideyaları olduğundan onlar götürülməli və yandırılmalı idi. Böyük imperiyaya azadlıq toxumu səpən,

ayıq və oyaq düşüncəyə səsləyən kitab və sənət adamları deyil, simasız manqurd və müti, kölə yetişdirən yeni kitablar və sənətkarlar lazım idi. Ona görə də siyasi repressiyaya məruz qalan kitabların sayı adamların sayından qat-qat çox idi.

**Üçüncü mərhələ** - şəhid, yaxud zərərdidə ziyalıların taleyinin və tərcümeyi-halının artıq hüquqi və mənəvi bəraət aldığı mərhələni əhatə edir ki, bu da əsasən 50-ci illərin əvvəli ilə üst-üstə düşür.

Bu mərhələnin özü də və həmin mərhələdə dövlət səviyyəsində həyata keçirilən siyasi-inzibati və hüquqi fəaliyyətin məzmunu da həm funksional missiya, metod, icranın üsul və vasitələri, həm də mənəvi-əxlaqi mahiyyət və məna baxımından ciddi təkzib, təshih düzəlişlərə material və əsas verir. Belə ki, vaxtı ilə yol verilən kütləvi cəzalar, qəsdlər və həbslər kimi, indi onlara verilən əfv, bəraət və xitamlar da tələsik, total, reklamvari kompaniya səviyyəsi daşıyır, arxiv, sənəd və ittihamnamələrin lazımi səviyyədə obyektiv, elmi tədqiqi və təhlilində çıxarılan informasiyaya əsaslanmırdı.

Bəraət almışların bir çoxunun əsərləri hələ də bəraət almamış, «zərərli məhsul» kimi məhv edilmişdi. Digər tərəfdən, bəraət sənədlərində və onlara əsaslanan sonrakı əsərlərdə H.Cavid, Ə.Cavad, M.Müşfiq, H.K.Sanılı, Ə.Abid, Ə.Müznib, S.Mümtaz, Ə.R.Şamçızadə kimi açıq milli məfkurə fədailəri, «qapalı dissedentlər» hamısı bir ucdan sosializmin müdafiəçiləri kimi təqdim edilmişlər.

# III FƏSİL

## Bədii düşüncədə və ədəbi prosesdə repressiyaların tətbiq sahələri və formaları

### 1. Ədəbi məhkəmələr

Bədii düşüncə və ədəbi prosesdə siyasi repressiyalar vahid ssenari əsasında müxtəlif yollarla həyata keçirilirdi. Qarşı-qarşıya qoyma, üzləşdirmə, dövri mətbuatda və qurultay, plenumlarda ifşa bu ssenarinin əsasını təşkil edirdi. Əslində isə 3 üsul daha qabarıq görünürdü: dövri mətbuatda və yığıncaqlarda tənqid, ədəbi məhkəmələrdə gözdən salmaq, təhlükəsizlik orqanları tərəfindən həbs.

20-ci illərin dövri mətbuatında sənət adamlarının necə qarşı-qarşıya gətirilməsini, onların bir-birini açıq şəkildə tənqid, hətta təhqir etmələrini görmək o qədər də çətin deyildir.

1920-ci illərin əvvəllərində oxucuların qəzet səhifələrində tez-tez rastlaşdığı elanlardan biri də ədəbi məhkəmələr idi. Onlardan bir neçəsinə nəzər salaq.

«Kommunist» qəzeti müdiriyyətinin təşəbbüsü ilə ədəbi əsərlər və ictimai tiplər üzərində bir çox mühakimələr qurulması təhdi qərara alınmışdır.

Bu yaxınlarda «Şeyx Sənan» üzərində mühakimə qurulacaqdır. Bu münasibətlə məzkur pyes dekabrın 4-də dövlət teatrında tamaşaya qoyulacaqdır»[130].

---

[130] «Kommunist» qəzeti, 30 noyabr, 1924.

«Dekabrın 12-də «Kommunist» qəzeti tərəfindən «Şeyx Sənan» üzərində ictimai-ədəbi mühakimə qurulur. Bu münasibətlə ayın 11-də Dövləti Akademik teatrda «Şeyx Sənan» pyesi tamaşaya qoyulacaqdır. Mühakimə ilə teatr tamaşasının çox mərbut olması və biri-birinə nə qədər yardım etməsi qabaqkı təcrübəmizdən görünmüşdür. Ona görə bütün maraqlıların həm teatra, həm də mühakiməyə gəlməsi ayrıca tövsiyyə olunur»[131].

«Hüseyn Cavidin «Şeyx Sənan» əsərinin ədəbi məhkəməsi.

Məhkəmə sədri: Həbib Cəbiyev

Üzvlər: Əsgərov, Xudadov, katib Akif.

Prokuror sifətilə: Səfərəlibəyov, Cəfər Cabbarzadə.

Müdafiəçilər: Yusifov, Xəlil İbrahim.

Şeyx Sənan - Hüseyn Sadiq, Zəhra - Dostu xanım»[132].

«İctimai-ədəbi mühakimə

Bu gün ayın 19-da «Kommunist» qəzeti ədəbiyyat dərnəyi tərəfindən Dövlət tənqid-təbliğ teatrında «Şeyx Sənan» üzərindəki ictima-ədəbi mühakimə davam edəcəkdir.

Mühakimə tam saat 12-də başlanacaqdır. Bütün qəzet müxbirləri, ədib, şair, mühərrir və hər bir ədəbiyyatçı, ictimaiyyətin maraqlananları məhkəməyə dəvət olunurlar. İdarə»[133].

«İctimai-ədəbi mühakimə.

---

[131] «Kommunist» qəzeti, 11 dekabr 1924.

[132] «Yeni yol» qəzeti, 15 dekabr 1924.

[133] «Kommunist» qəzeti, 19 dekabr 1924.

Dekabrın 19-da tənqid-təbliğ teatrında Hüseyn Cavidin əsəri «Şeyx Sənan»ın qəhrəmanı Şeyx Sənan mühakiməsi münasibətilə vüqu olan ikinci məhkəmə iclasının təfsilatı qəzetimizin səhifəsində müfəssəl dərc ediləcəkdir»[134].

«Bu gün Dövlət teatrında «Şeyx Sənan».

Dekabrın 25-də gündüz Şaiq adına pedaqoji texnikumun ədəbiyyat dərnəyi tərəfindən H.Cavidin «Şeyda» pyesindən Qara Musa üzərində ədəbi-ictimai mühakimə olacaqdır»[135].

«Azərbaycan Lenin Kommunist Gənclər İttifaqının Mərkəzi Komitəsi və «Gənc işçi» redaksiyası aprelin 27-də C.Cabbarlının «Od gəlini» əsəri üzərində ədəbi mühakimə keçirəcək və bu barədə Hənəfi Zeynallı məruzə edəcəkdir»[136].

Bu elanlardan da görünür ki, ədəbi mühakimələrə daha çox yaşlı və ortayaşlı nəslin nümayəndələrinin əsərləri cəlb edilirdi. Bu, bir tərəfdən, onların yaddaşında daşlaşdırdığı və təbliğ etdiyi milli adət-ənənələrə və özlərindən əvvəlki sənətkarların ideyalarının daşıyıcıları olduqlarına görə edilirdisə, digər tərəfdən gənc nəslin həmin ənənələrə yiyələnməmələrinə xidmət göstərirdi.

Onu da qeyd etmək lazımdır ki, ədəbi məhkəmələr zamanı daha çox dram əsərləri mühakimə edilirdi. Bunun əsas səbəbi 20-30-cu illərdə teatrların kütləvi xarakterə malik olması idi. Məlumdur ki, elmi-texniki tərəqqi zəif

---

[134] «Kommunist» qəzeti, 23 dekabr 1924.

[135] «Kommunist» qəzeti, 25 dekabr 1925.

[136] «Kommunist» qəzeti, 25 aprel, 1928.

olduğundan və ictimaiyyətin aldığı bilgilərin özəyini birbaşa bədii informasiya təşkil etdiyindən teatrlara gedənlərin sayı qat-qat artıq idi. Teatr əsərlərinin mühakiməsi xalis siyasi təbliğat xarakteri daşıyırdı. Belə ki, mühakiməyə verilmiş əsərlərdə keçmişlə bağlı olan və sovet cəmiyyətinin tələblərinə cavab verməyən əsərlərin qəhrəmanları ittiham edilirdi. Bir çox hallarda qəhrəmanların siyasi mənsubiyyəti də nəzərə alınırdı. Çünki sovetləşmə illərində qarşıda duran «ən mühüm, ən çətin məsələlərdən biri də «yeni həyat» məsələsi»[137] idi. Məqsəd də yeni həyata alqış deməyən, onun neqativ hallarını göstərən ziyalıları və onların əsərlərini aradan götürmək idi. Ədəbi məhkəmələrin təşkilatçıları kimin və nəyin ittihamı sualına açıq şəkildə belə cavab verirdilər: «Əvvala, kimi ya nəyi mühakimə etməliyiz? Mənim nəzərimcə təşkil edəcək olduğumuz ictimai mühakimələrdə hal-hazırda davam edən şura quruluşunun möhkəmlənməsinə və qabağa getməsinə cürbəcür yollar və hərəkətlər ilə maneəçilik göstərən şəxsləri mühakimə etməliyik»[138].

Məqalə müəllifi göstərir ki, buraya ictimai həyatımıza, «yeni həyata» doğru gedişimizə müqavimət edən qüvvələr hamısı daxildir.

Mühakimələr zamanı əsas məqsəd nə idi? Bu suala həmin dövrün mətbuatında belə cavab verilirdi: «Mühakimələrdə əsas məqsədimiz nə olmalıdır? Aşkardır ki, belə

[137] Ə.Yusifov. İctimai mühakimələr təşkili. «Kommunist» qəzeti, 20 noyabr, 1924, № 259.

[138] Ə.Yusifov. İctimai mühakimələr təşkili. «Kommunist» qəzeti, 20 noyabr, 1924, № 259.

mühakimələrdə bir şeyi, ya bir şəxsi mühakimə etdikdə adi ədliyyə mühakimələri verdiyi nəticə verilməməlidir»[139]. Lakin çıxardığı «hökmlərə» görə 20-ci illərin ədəbi məhkəmələri o illərin cinayət məhkəmələrindən heç də geri qalmırdı. Buna səbəb isə ədəbi və cinayət məhkəmələrinin eyni rejisor tərəfindən idarə olunması idi.

Ədəbi məhkəmələr zamanı qarşıya qoyulan əsas məqsədlərdən biri də bədii əsərdəki hər hansı bir obrazı mühakimə etdikdən sonra onun nəticələri barədə dövri mətbuatda müfəssəl məlumat vermək idi.

Ədəbi məhkəmələr açıq şəkildə, klublarda və teatr binalarında keçrilirdi. Bu məhkəmələr elə təşkil olunurdu ki, ora gələnlərin sayı klub və teatr binasında yerləşdirilən otracaqların sayından qat-qat çox olurdu. Məhkəmə heyəti əhalinin çoxluğunu nəzərə alaraq ədəbi mühakimələrin daha geniş binalarda keçirilməsi haqda qərar qəbul edirdi. Məsələn, «Kommunist» qəzeti «Ədəbi mühakimə» başlıqlı yazısını bu sözlərlə başlayırdı: «Kommunist» qəzeti idarəsinin «Stalin» klubunun «ədəbiyyat» dərnəyi tərəfindən Cəfər Cabbarzadənin «Aydın» adlı əsərinin «Gültəkin» qəhrəmanının... 31-nə təyin edilən ədəbi mühakiməsi «Stalin» klubunda yer azlığına görə Əli Bayramov klubunun salonunda Həbib Cəbiyevin sədarəti altında açıldı»[140]. Təxminən eyni sözlərə H.Cavidin «Şeyx Sənan» əsərinin mühakiməsində də rast gəlirik: «Dekabrın 12-də Əli Bayramov klubunda yoldaş Həbib Cəbiyevin sədrliyi, Cəfər

---

[139] Ə.Yusifov. İctimai mühakimələr təşkili. «Kommunist» qəzeti, 20 noyabr, 1924, № 259.

[140] «Kommunist» qəzeti, 3 noyabr, 1924.

Cabbarzadə və Şirinbəy Səfərəlibəyov yoldaşların müddəi-ümumiliyi və Akif Kazımovun katibliyi ilə Hüseyn Cavidin «Şeyx Sənan» əsərinin qəhrəmanı Şeyx Sənanın mühakiməsi başlanmışdır... Yerdə qalan şahidlərin dindirilməsi və müdafiəçiləri gələn cüməyə təxir edilərək mühakimə 4 yarım saatda kəsilir.

Məhkəmə salonu dopdolu idi. Yer olmadığından bir çoxları qayıtmağa məcbur oldu. Məhkəmə xalqın bu həvəs və arzusunu nəzərə alıb gələn iclası türk tənqid-təbliğ teatrında toplamağa qərar verdi»[141].

Məhkəməydək mühakimə olunacaq əsər tamaşaya qoyulur və geniş kütlələrə göstərilirdi. Məhkəmə zamanı tamaşada iştirak edən aktyorlar da şahid sifəti ilə məhkəməyə cəlb edilirdi. Hətta elə hallar olurdu ki, aktyorun səhhətini yoxlamaq üçün xüsusi tibbi komissiyalar yaradılırdı. Belə komissiyalardan biri Aydının sağlamlığını yoxlamaq üçün yaradılmış, onu müayinə etdikdən sonra, həkimlərin çıxardığı qərar məhkəmədə oxunmuş və sonra məhkəmə öz işinə başlamışdır. Aydın barəsində həkimlərin çıxardığı qərarda deyilir: «Təbiblər komissionu Aydının səhhəti və xüsusa səhhətini müayinə etdikdən sonra bu qərara gəlir ki, Aydının şüuru sağlamdır. Fəqət həyatında keçirdiyi məşəqqətlər, aclıq və sairə, şübhəsiz səhhətinə təsir etmiş, əsəbiliyinə bais olmuşdur. Şahid tam səhhəti üzrə əqli-səlimə malikdir»[142].

---

[141] «Kommunist» qəzeti, 14 dekabr, 1924.

[142] «Kommunist» qəzeti, 3 noyabr, 1924.

Hər hansı bir əsərə və orada qaldırılan problemlərə görə müəllifin ittihamı dünya praktikasında mövcuddur. Sovetləşməyə qədər Azərbaycanda da belə hallar olmuşdur. Dərisi soyulan Nəsimi, Əlabbas Müznib, sovet hakimiyyəti illərində sürgün edilən, qətlə yetirilən B.Çobanzadə, S.Mümtaz, H.Cavid, Ə.Cavad, M.Müşfiq, Ə.Abid, Ə.R.Şamçızadə, S.Hüseyn H.K.Sanılı, H.Zeynallı, Qantemir, T.Şahbazi və s. ideyalarına görə təqib olunmuşlar. Lakin müəllifi zalda əyləşdirib onun əsərindəki bir obrazı mühakimə etmək yeni hadisə, daha doğrusu, siyasi aksiya idi. Belə siyasi aksiyalar keçirməklə Azərbaycan ədəbiyyatının yönünü dəyişdirmək, onu zəngin tarixi ənənələrindən ayrı salmaq, yeni ədəbiyyat - sovet ədəbiyyatı yaratmaq və formalaşdırmaq istəyirdilər.

Bolşeviklər bu yolla sənətkarı yeni yaranan cəmiyyətin arzu və istəklərinə uyğun yazmağa, onu özünün ideyalarının ruporuna çevirməyə çalışırdılar. Azərbaycan ədəbiyyatında «Şeyx Sənan», «Şeyda», «Od gəlini», «Ölülər» və s. ədəbi məhkəmələrdən keçdi. Bu əsərlərin bəziləri ədəbi məhkəmələrdə bəraət alıb yenidən yaşadılarsa da bir çoxu burjua-millətçi yarlığı ilə damğalanıb ədəbi səhnədən çıxarıldı.

Ədəbi məhkəməyə cəlb olunan ilk şəxs «Aydın» pyesinin qəhrəmanı Gültəkin olmuşdur. Gültəkin nədə ittiham edilirdi? Gültəkinin təqsirnaməsində oxuyuruq:

«1. Aydın kimi səadət və istirahəti ancaq özünün əməyilə hazırlayan zəhmətkeş bir gənc tələbənin həyat yoldaşı olmasına baxmayaraq özünün atası evində aldığı burjuaziya ruh və tərbiyəsini dəyişə bilməmişdir.

2. Öz heysiyyat və şərəfini saxlaya bilməyib Dövlət bəyin qucağına atılmış, onun-bunun alçaqcasına olan xahiş və arzularını yerinə yetirməklə qadınlıq izzəti-nəfsini təhqir etmiş, iradəsi zəif olduğundan düşdüyü çirkabın içərisindən çıxa bilməmişdir.

3. Aydından daha ayrılmadığı bir halda könlünü Dövlət bəyə vermiş. Onu sevmək qədər bir qəbahət yapmışdır.

4. Əski burjuaziya ruhunu dəyişmədiyi üçün əlbisə və zinət düşkünü olmuşdur.

5. Böylə bir əxlaqilə Aydının fəlakətinə səbəb olmuşdur»[143].

Elə bu beş maddədən ibarət olan təqsirnamənin özündən də görünür ki, Gültəkinin ittihamı Gültəkindən çox burjua cəmiyyətinin, sərmayədarların, böyük mülk sahiblərinin, varlıların ittihamıdır. Burjua cəmiyyətinə nihilist münasibət bu məhkəmə prosesində tam aydınlığı ilə görünür. Məhkəmənin gedişinə diqqət yetirilsə görərik ki, burada yeni həyatla köhnə cəmiyyətin müqayisəsi gedir və bütün hallarda üstünlük yeni cəmiyyətə verilir. Gültəkin və onun atası Aslan bəy isə bu iki cəmiyyət arasında fərqi göstərə bilən əsas stimula çevrilir. «Gültəkin kimi iradəsi zəif, aldığı tərbiyənin təsirini özündən uzaqlaşdırmayan qadınlar hazırkı cəmiyyətimiz üçün mənfi şəxsiyyətlər olduğunu etiraf etmək, elələrinin cəmiyyət qarşısında təqsirin göstərmək mühit və zəmanəmizin icabatıdır»[144].

---

[143] «Kommunist» qəzeti, 3 noyabr, 1924.
[144] «Kommunist» qəzeti, 3 noyabr, 1924.

Gültəkin ittiham edilərkən onun ictimai mənşəyi - bəy ailəsindən çıxması əsas götürülürdüsə, Aydının da əməkçi bir ailədən olduğu xüsusi vurğulanırdı. Gültəkinin əsas eyiblərindən biri də Aslan bəyin qızı, bir sözlə varlı bəy nəslindən olması idi. Məhkəmədə müddəi ümumi sifətilə çıxış edən S.Hüseyn deyirdi: «...Gültəkin Aslan bəyin qızıdır. O həyatında qətiyyən ehtiyacın nə olduğunu hiss etməmişdir. Öylə zənn ediyordu ki, hər bir şey yalnız istəməklə əldə etmək mümkün olur. Çünki atası evində öylə də tərbiyə görmüşdü. Kəndisinə uzadılan əlləri qəbul etməyib Aydını intixab etdi. Çünki Aydın gənc bir tələbə idi. İyi tar çalıyordu, parlaq bir istiqbalı var idi. O, Aydına gəlirkən burasını düşünməmişdi ki, Aydın onu möhtəşəm imarətlərdə saxlaya bilməyəcək... İştə Aydının da faciəsi buradan başlayır»[145].

Bizcə, Gültəkini ailə tərbiyəsinə görə ittiham etmək, onun başına gələn oyunları, yalnız ailə tərbiyəsi ilə bağlamaq doğru deyildir. Çünki Gültəkin kimə getdiyini, həqiqətən Aydının onu möhtəşəm imarətdə yaşada bilməyəcəyini yaxşı bilirdi. Hətta o özünün dediyi kimi «yoxsul evciklərini» atasının və başqa bəylərin imarətlərindən daha üstün tutur, səadəti, xoşbəxtliyi bu kiçik evlərin divarları arasında görürdü: «Səadət ancaq bizim bu qaranlıq evciyimizdə imiş... Gördüyüm böyük binalar, möhtəşəm salonlar, heç birisi mənə bu kiçik evciyimiz qədər doğma və əziz olmadılar»[146].

[145] «Kommunist» qəzeti, 3 noyabr, 1924.
[146] C.Cabbarlı. «Seçilmiş əsərləri». 4 cilddə, II cild, Bakı, 1983, səh. 221.

Aydınla onu birləşdirən də niyyətli yox, təmiz, saf məhəbbət olmuşdur. Gültəkini Aslan bəyin ağuşuna gətirən də Aydına olan məhəbəbəti, sevgisiydi. Aydın ailəsinin maddi ehtiyaclarını ödəyə bilmədiyindən və sarsıntılar keçirdiyindən, Gültəkin belə bir addım atmağa məcbur olmuşdur. Məhkəmə zamanı Gültəkin (məhkəmədə həmin rolu ifa edən aktyor dindirilir - C.Q) özünün son sözündə deyir: «...Yenə deyirlər ki, bəs altuna satılmısan. Bu yalandır. Öylə olsa idi mən atamın evində ikən yüzlərlə məni istəyən miliyonerdən birinə gedərdim. Mən Aydının yoxsulluğunu və onunla keçirəcəyim əziyyətli illəri görərək və düşünərək onu sevdim. Həmin bu sevginin uğrunda da mən bütün altunlarımı, zinətlərimi, hər bir şeyimi verdim»[147].

«Aydın» pyesinin özündə də buna açıq işarələr vardır: «Barmağındakı brilyantlar qaranlıq otaqları işıqlandırırdı. Ətrafını şahzadələr kimi qulluqçular bürümüşdü. Bir məbud kimi bütün gənclərin səcdəgahı idi»[148].

Həqiqətən də, əgər Gültəkin altun düşkünü və əyyaş bir qadın olsaydı Aydını yox, zəngin bəylərdən birini seçərdi, öz həyatını beləcə altun içərisində başa vurardı. Lakin Gültəkinin yaşadığı mühit onu iki yol ayrıcında qoymuşdu: o ya Aydını yaşatmalı, ya da özünü öldürməli idi. O, bu yollardan birincisini seçir. Əsərdə Gültəkin Aydına deyir: «Mən nə etdimsə ancaq sənin üçün elədim. Mən öz varlığımı sənin eşqinə qurban verdim. Fəqət məni anlama-

---

[147] «Kommunist» qəzeti, 3 noyabr, 1924.

[148] C.Cabbarlı. «Seçilmiş əsərləri». 4 clddə, II cild, Bakı, 1983, səh. 172.

dılar, məni aldatdılar, mənim könlümü, iradəmi zorladılar. Mərhəmət üçün tapınmış gücsüz, zavallı bir qadını yırtıcı bir canavarlar kimi diddilər, çeynədilər, parçaladılar. Ox, mən səni xilas etmək üçün özümü məhv etdim»[149].

S.Hüseyn Gültəkinin bəzənməsinə də etiraz edirdi: «... Gültəkin bu podrayı kim üçün kullanıyordu. Əgər o desə ki, mən bunu Aydın üçün istemal ediyordum düz deməmiş olur. Çünki Aydının ən çox nifrət etdiyi o yapma gözəlliklər idi. Gültəkin bu podrayı yalnız Dövlət bəy üçün kullanıyordu»[150].

Onun bəzənməsini yalnız Dövlət bəylə əlaqələndirmək özü də, fikrimizcə, yanlışdır. Çünki hər bir qadın kimi Gültəkin də gözəl görünmək istəyirdi. Maraqlıdır ki, sosialistlər keçmişlə bağlı gözəlliyin özünə də burjua cəmiyyətinin eybəcərliyi, əxlaqsızlığı kimi baxırdı ki, bu da doğru deyildi.

Uzun-uzadı ittiham və mühakimələrdən sonra Gültəkinin işinə baxan Bakı ictimai ədəbi mühakimə heyəti vulqar-sosioloji məzmunda tipik bolşevik qərarı qəbul etmişdi:

«1. Kapitalizm cəmiyyəti daxilində, ya xüsusi xırda burjua və ziyalı kütləsi içində qadınların hüququ və şəxsi əlində qalıyor. Çünki iqtisadi cəhətdən qadın tamamilə erkəklərdən asılı bulunuyor. Ailə başı olan kişinin mübarizə həyatında aciz bir halda qalması köhnə ənənənin ictimai əsaslarını qırıyor və ümumiyyətlə qaranlığı burjua cəmiy-

[149] C.Cabbarlı. «Seçilmiş əsərləri». 4 cilddə, II cild, Bakı, 1983, səh. 221.
[150] «Kommunist» qəzeti, 3 noyabr, 1924.

yətinin ona vermiş olduğu ailəvi və qeyri-hüquq və adətləri qırmağa və bu adətlərdən kənara çıxmağa vadar ediyor.

2. Hə özünü və nə arvadını lazımi iqtisadi cəhətdən təmin etməyə müqtədir olmayan avara ziyalı «Aydın»ın acizliyi Gültəkini, öz ailəsini fəlakətdən qurtarmaq məqsədilə Dövlət bəyin əlinə təslim olmağa vadar ediyor və bu kimi məcburi «xəyanət» sayəsində köhnə ailə münasibətinin kökünə zərbə vuruluyor və o ailə dağılıyor.

3. Burjua cəmiyyəti daxilində hər gün müşahidə etdiyimiz bu kimi əhvalat kişi ilə qadın arasındakı köhnə ailəvi münasibətin qırılması qayət təbii bir hadisə olaraq davam ediyor.

4. İctimai mühakimə heyətini yuxarıdakı 3 maddədə qeyd olunan Gültəkinə isnad edilən təsiri rədd etməklə Gültəkinin hərəkətində bir cinayət olmadığını elan ediyor. Mühakimə heyəti bütün Gültəkinə isnad edilən təqsiri kapitalizm cəmiyyətinin şəraitində görüb proletar əxlaqı nöqteyi-nəzəri ilə Gültəkini tamaHmilə bəraət ediyor[151].

Göründüyü kimi, əsas mühakimə olunan Gültəkin yox, keçmiş kapitalizm cəmiyyəti idi. Lenin vaxtı ilə yazırdı ki, «Kapitalistlər aləmindən insan ləyaqəti axtarmağa dəyməz»[152].

Kapitalist aləminə belə nihilist münasibət sovetləşmə illərində daha da gücləndi və ədəbi mühakimələr zamanı əsas prinsip kimi götürüldü. Keçmişin müəyyən cəhətləri-

[151] «Kommunist» qəzeti, 14 dekabr, 1924.
[152] V.İ.Lenin. Əsərləri. 24-cü cild. Bakı, 1957, səh. 13.

ni tənqid edən əsərlər vasitəsi ilə bu ideyalar həyata keçirildi. Maraqlıdır ki, ədəbi mühakimələr zamanı müsavat hökuməti - Azərbaycan Xalq Cümhuriyyəti də unudulmur, xalqda Azərbaycan Xalq Cümhuriyyətinə nifrət oyatmaq, onun mürtəce, xalqın qanını soran,.onu fəlakətə sürükləyən bir dövlət olduğunu göstərmək üçün dəridən-qabıqdan çıxırdılar. Belə ki, məhkəmədə müdafiəçi kimi çıxış edənlərdən biri Gültəkinin faciəsinin səbəblərindən birini də «müsavat cəmiyyətinin» olmasında görürdü: «...Birisinin gündə 2000000 manat gəliri var ikən o birisi zəif, xəstə, olduğu halda gündəlik qutlayışa möhtac olmasıdır. Əgər cəmiyyətdə müsavat olmasa idi, əgər cəmiyyətdə bir xəstənin acından ölməsi, həlak olması təhlükəsi olmasaydı, əgər Gültəkin çirkin təklifləri rədd etdikdə Dövlət bəy əlində onun ərini xidmətdən çıxarmaqla ailə yaşayışını pozmaq imkanı olmasaydı, şübhəsiz ki, Gültəkin böylə hərəkətdə bulunmağa məcbur olmazdı»[153].

Çox təəssüf ki, sonrakı bir neçə on ildə də C.Cabbarlının tədqiqatçıları bu fikri daha da inkişaf etdirdi və müsavatı xalqın düşməni elan etdi: «Aydın»dakı tənqid «Oktay Eloğlu»nda bir çox cəhətdən davam etdirilmişdir. «Oktay Eloğlu»nda müəllif burjuaziyanın sənətə münasibətini, burjua sənətinin satqınlığını da ifşa etmişdi. Oktay kimi istedadlı bir sənətkarın səfalətə düşməsi, Qaraçıxanov kimi yırtıcı bir miliyonerin rejissorları rüşvətlə satın alması teatrda aktrisa yoxluğu və sairə Azərbaycanda mənfur müsavatçıların hakimiyyət sürdüyü dövrdə sənətin və sənət-

[153] «Kommunist» qəzeti, 3 noyabr, 1924.

karın acınacaqlı vəziyyətini canlı və realistcəsinə əks etdirmişdir»[154].

Belə elanlardan biri də «Ölülər» əsəri barədə idi. Əslində ədəbi mühakiməyə əsər bütövlükdə təqdim edilməmişdi, burada yalnız İskəndər mühakimə olunurdu.

«Ölülər»in ədəbi mühakiməsində prokuror sifəti ilə çıxış edən Cəfər Cabbarlı İskəndəri, əsasən, aşağıdakılarda suçlu hesab edirdi:

«Əvvəla, İskəndər əxlaqca zəifdir. Çünki hər zaman sərxoşdur. Hər kəsə qarşı tərbiyəsizcəsinə hərəkət ediyor və hətta atalıq vəzifəsində ona qarşı heç bir qüsuru olmayan ixtiyar atasının üzünə tüpürür, hər kəsə sataşır, mənasız olaraq it küskürür və bu kimi hərəkətlərlə əyləniyor.

Saniyən, iradəcə zəifdir. Çünki qövlü ilə feli bir deyildir. Sözdə dediyini, fikrində düşündüyünü həyatda tətbiq üçün özündə qüvvə, cəsarət görməyir. Bacısı Nazlıya o qədər də gizli bir şey yoxkən yaşadıqları mühitdən çıxıb getməyi təklif etdiyi halda, sonradan fəlakət gəlincə yardım belə etməyir.

Salisən canidir. Çünki Şeyx Nəsrullahın cinayətlərinə qarşı imkan varkən bir ciddi təşəbbüs və hərəkətdə bulunmayır. Nazlı kimi məsum və zavallı qızların bədbəxt olması faciəsinə yalnız bir tamaşaçı olaraq qalıyor. Hətta Nazlını belə rədd ediyor. Bunun üçün qanun, ədalət böylə bir şəxsiyyəti başqa birinə ibrət olmaq üçün cəzasız buraxmaması qətiyyən mətlubdur»[155].

---

[154] Məmməd Arif. «Seçilmiş əsərləri», 2 cilddə, II cild, Bakı, 1968, səh. 74.

[155] C.Cabbarlı. Ədirnə fəthi. Bakı, Elm, 1996, səh. 209.

Buradakı ittihamların böyük əksəriyyəti ilə razılaşmaq olmaz. Əsərlə tanış olanlar yaxşı bilirlər ki, İskəndər heç yerdə atasının və ya böyüklərin üzünə tüpürmür. O, bu fanatik cahillərin tutduğu hərəkətləri xatırladır və bildirir ki, «gələcək nəsillər bu qanlı səhifələri vərəqlədikcə deyəcəklər - tfu sizin üzünüzə». Özü isə onların bu hərəkətlərini yalnız pisləməklə kifayətlənir. İskəndər ilk dəfə Şeyx Nəsrullahın və onun şagirdinin üzünə tüpürərək «Tfu şarlatanlar» - deyir. İskəndərin kiminsə üzünə tüpürməsi əxlaqsızlığından və ya tərbiyəsizliyindən deyil, ölülüyə etirazından, gedən proseslərlə barışmamazlığından irəli gəlir.

İskəndər Fransadan kefli dönməmişdi. Qeysi Məcnuna çevirən mühit İskəndəri də «kefliyə» çevirmişdi.

C.Cabbarlının qəhrəmanı Almaz mübarizədən qalib çıxır. Çünki Almaz düşdüyü mühit və zamanla iqtidar olduğu halda, Məcnun və İskəndər müxalifətdə idi. Başqa sözlə, Almazı zamanı və mühiti təbliğ və təqdir etdiyi halda, Məcnunu və İskəndəri əzərək «dəli», «kefli» adlandırırdı. Almaz hakim ideologiyanın təbliğatçısı, Məcnun və İskəndər isə zamanın və onun adət-ənənələrinin tənqidçisi idi. Almaz bir sovet müəllimməsi kimi dövlət siyasətinin icraçısı, Məcnun və İskəndər isə öz arzularının, ideyalarının həyata tətbiqinin qurbanlarıydı.

Maraqlıdır ki, İskəndəri Almazın da mühiti bəyənmir və tənqid edir. Nə üçün? Çünki İskəndərin mühakiməsi sovet cəmiyyətindəki ziyalıların mühakiməsidir. Ədəbi mühakimələrdə çıxış edənlər İskəndəri bir ziyalı kimi daha çox passivlikdə, mübariz olmamaqda, «bir ölü kimi hərəkətsiz qalmaqda» ittiham edirlər. C.Cabbarlı yazırdı:

«Hakim əfəndilərin müsaidəsilə kefli İskəndər ki, mühitin ona verdiyi bu adı təhlil etdikdə əxlaqsız, tərbiyəsiz, işsiz-gücsüz, tənbəl, birisinə it küskürər, o birisini yalandan aldadar, çocuqları yoldan çıxarıb səfalətə alışdırmağa çalışar, mühitin adətlərilə, ənənələrilə hesablaşmaz, heç bir sözün yerini, heç bir hərəkətin vaxtını bilməz, başsız-ayaqsız bir səfil, bir sərxoş qarşısında mühiti, bu bədbəxt, qaranlıq xalqı cəhalət didiyor, əziyor, parçalayor, məhv ediyor, möminlərlə Şeyx Nəsrullah bu bədbəxtləri aldadaraq namuslarına toxunuyor, irizlərini-namuslarını canavarlar kimi çamurlara çırpıb tapdayor, bunların həpsini görüyor, bir ölü kimi hərəkətsiz qalıb ona müəyyən bir yol göstərməyir, onun üçün çalışmayır, xalqın səadəti üçün bir diləyi yox, bir ideyası yox, ictimai işlər üçün bir procesi yox, öylə səfil bir halda diyirlənib gediyor»[156].

Doğrudur, İskəndər o qədər də mübariz deyil, o, mübarizə meydanında bəzən geri də çəkilir. Lakin bütün bunlar ona passiv deməyə əsas vermir. O, «ölülər» mühitinin yeganə diri adamıdır. Əgər o passiv olsaydı, Şeyx Nəsrullah İskəndəri görəndə narahat olmaz, çəkinməzdi və müəllif onu da «ölü» adlandırardı.

C.Cabbarlı göstərir ki, İskəndər Fransada 10 il təhsil almasına baxmayaraq, xalqa müəllim ola bilmir, daha doğrusu bunun üçün o, ayıq vaxt tapmır[157]. 10 il Fransada təhsil almaq xalqa müəllim olmağa əsas vermir və İskəndər təhsil almağa gedərkən qarşısına «xalqa müəllim olmaq»

[156] Cabbarlı C. Ədirnə fəthi. Bakı, «Elm», 1996, səh. 204.

[157] Cabbarlı C. Ədirnə fəthi. Bakı, «Elm», 1996, səh. 207.

məqsədini qoymamışdı. İskəndərin içmək məsələsinə gəldikdə isə deməliyik ki, içmək, sərxoşluq onun mübarizə silahı deyil. Onun şüru ölmüşlərlə mübarizə silahı gülüşdür, qəhqəhədir. Bu silah öz gücünü keflilikdən alır. İskəndərdə keflilik, sərxoşluq ölülüyə yox, ayıqlığa xidmət edir. Ölülər və ölü dirildənlər arasında ayıq qalmaq İskəndər üçün çox ağırdır. Ona görə də o, sərxoşluqdan mübarizə vasitəsindən daha çox müdafiə vasitəsi kimi istifadə edir. İskəndər elm oxumaq, özünü və dünyanı dərk etməklə, sərxoşluq arasında bir yaxınlıq görür. Qardaşı Cəlala məhz oxuduqdan sonra onun da İskəndər kimi «küplərin dibində yatacağını» elan edir.

İskəndər ölülər dünyasının sakinlərini öz dünyasına qaldıra, özü isə həmin dünyanın dibinə enə, ölü sakinə çevrilə bilmir. Daha doğrusu onun özünü və dünyanı dərki, əhatəsində olduğu cahil və nadanların baxışları ilə, eyni müstəvidə əks qütblər olduqlarından bunlar bir-birinə mane olur. Şeyx Nəsrullah və «ölülər»lə İskəndərin mübarizəsi də buradan doğur.

Tənqidi realistlərin, eləcə də Mirzə Cəlilin qəhrəmanlarının bir çoxu öz ideyalarını həyata keçirmək üçün hərəsi bir vasitədən istifadə edir. «Şallaq» və «Dəyənək» obrazı kimi «Sərxoşluq» da ictimai məzmun daşıyır. «Şallaq» və «Dəyənək» dirilmənin qarşısını alma, ölüləşdirmə, şokda saxlama, «Sərxoşluq» isə bir vasitə kimi ayıltma, oyatma, diriltmə məqsədi güdür.

«Ölülər» əsərində bir yox, iki ölü dirildən vardır. Biri Arazın o tayından gəlmiş Şeyx Nəsrullah, digəri isə bu xalqın içindən çıxmış, Fransada təhsil almış İskəndərdir.

İskəndər «diri ölüləri» Şeyx Nəsrullah isə çoxdan ölmüşləri, rəhmətə getmişləri diriltmək istəyir. Əsərdəki ən maraqlı konflikt də İskəndərlə Şeyx Nəsrullah arasında yox, «diri ölülər»lə rəhmətə getmişlər arasında baş verir. «Diri ölülər» artıq rəhmətə getmişlərin dirilməsinə razılıq vermir, hamı fikirləşməyə gedir. «Ölü diriltmə oyununun» baş tutmamasına səbəb Şeyxin ətrafına toplaşanların öz yaramazlıqları və cinayətləridir.

Ədəbi məhkəmədə İskəndəri ittiham edənlər onu Şeyx Nəsrullahdan daha «bədtar cani» adlandırırlar. «...İskəndər bütün mədəniyyəti, bütün elmi, maarifi, onun əsil məna və əhəmiyyətini məhv etdi. İskəndər onların ölümünə bais oldu. İştə buna görə də İskəndər Firəngistanda keflənib qalsaydı, öz evini yaxmış olurdu, fəqət gəlib bu zavallı mühit içində keflənmiş, minlərlə evləri yaxmış, ailələri məhv etmiş, minlərlə zavallı cəlladların qaranlıq pəncəsində can çəkişməsinə səbəb olmuşdur. Ona görə bu gün ona bəraət qazandırmaq istəyənlərəsə, bütün gəncliyin haqqı vardır ki, qalxıb bir səslə bağırsın: Qaldırın onu mühitdən, o, bizə gərək deyildir. O gələcək nəslin qatilidir. O, Şeyx Nəsrullahdan daha bədtər canidir. Yolları ayrı, fəqət hədəfləri birdir. Şeyx Nəsrullah xalqı elmdən uzaqlaşdırıyor, qaranlıqda boğuyur. İskəndər elmi xalqdan uzaqlaşdırıyor, xalqı tapdayor, öldürüyor, məhv ediyor. Mən sözümü bitiriyor və əsil mühakiməyi möhtərəm hakimlərə tapşırıyoram, qoy onlar özləri kəsdirsinlər, kim daha böyük müqəssirdir?»[158]

[158] Cabbarlı C. Ədirnə fəthi. Bakı, «Elm», 1996, səh. 207-208.

İskəndər elmi xalqdan uzaqlaşdırmır, əksinə dünyəvi elmləri öyrənməyi təbliğ edir. Əsərin lap əvvəlində onun qardaşına dediyi sözləri xatırlayaq: «Sokrat bir adam idi; çoxdanın adamı idi. Çox, çox çoxdanın adamı idi. Sokrat deyərmiş ki, «mən dərs oxumamış elə xəyal edərdim ki, dünyada bir zad bilirəm; amma elm oxuyandan sonra yəqin elədim ki, heç zad bilmirəm». Xa... xa... xa!.. Yəni araq içməyi də bilmirəm! Cəlal, ay Cəlal! İndi sən məndən qaçırsan, deyirsən ki, mən kefliyəm; amma and olsun Qara ağac pirinə ki, sən də mənim kimi dərs oxuyub qurtarandan sonra, başlayacaqsan İskəndər dadaşın kimi küplərin dibində yatmağa. Xa... xa... xa!»[159]

Göründüyü kimi, İskəndər qardaşına cəhalətdən, nadanlıqdan, Avropada təhsil almasına baxmayaraq düşdüyü mühitdə ona və onun elminə hörmət qoyulmamasından şikayətlənir.

Və nəhayət, ədəbi məhkəmə (prokoror - C.Cabbarlı, müdafiəçilər S.Hüseyn, Ə.Cavad və H.Zeynallı idi - C.Q) belə bir qərar qəbul etmişdi: İskəndər müvəqqəti olaraq ictimai həyata müğayir bir şəxsiyyət kimi mədəni hüquqdan məhrum edilsin. Lakin Şeyx Nəsrullaha qarşı üsyanı müsbət bir hərəkət kimi qeyd edilsin.

Bütün bunlar ziyalıları bolşevik ideyalarının həyata keçirilməsində onlara yaxından kömək etməyə, «ölülərin» dirilib öz haqlarını tələb etməsinə mane olmağa yönəlmiş siyasi aksiyalar idi. Bu işdə İskəndər kimi «passivlik» göstərənlər və yaxud da çağdaş zamana müxalif mövqedə

---

[159] C.Məmmədquluzadə. Əsərləri, I cild, Bakı, 1966, səh. 33.

duraraq onun təbliğatçısına çevrilməyənlər cəmiyyət üçün (əslində bolşevik cəmiyyəti üçün) artıq adamlardı. Guya Şeyx Nəsrullahın məqsədi «ölüləri» dirildib İskəndər (diri!) etməkdir. Əgər bütün ölülər dirilib İskəndər olarsa, onda Şeyx Nəsrullahın düşdüyü vəziyyəti göz önünə gətirmək o qədər də çətin deyildir. Dirilər mühitində Nəsrullahlara yer yoxdur. Yeni cəmiyyət də ölüləri ayıldıb İskəndər edərsə, onda bolşeviklərin də vəziyyəti aydınlaşar. Deməli, yeni cəmiyyətin İskəndəri - ziyalısı əks qütbülü təbliğat aparmalı Nəsrullahların - bolşeviklərin mövqeyindən çıxış etməli idi. Əslində Şeyx Nəsrullahın və bolşeviklərin bir məqsədi vardı, diriləri «öldürmək». Yalnız bu zaman onlar qarşıya qoyduqları məqsədə nail ola bilərdilər.

«Şeyx Sənan» da isə «Ölülər»dən fərqli olaraq ictimai-siyasi həyatda baş verən yeni bir məsələ Şeyx Sənanın timsalında din xadimlərinə münasibət məsələsi mühakimə olunur. Məlumdur ki 20-ci illərin əvvəllərində din və mollalar hələ böyük nüfuz sahibləriydi və yeni cəmiyyətin qarşıya qoyduğu tələbləri həyata keçirməyə mane ola bilirdi. Ona görə də bolşeviklərə ateizmi gücləndirmək üçün dinin və mollaların nüfuzunu qırmaq və gözdən salmaq lazımdı. Həmin illərdə bu istiqamətdə müəyyən işlər görülmüş, komsomolçulara və partiyaya tapşırıqlar verilmişdir.

«Ölülər»in məhkəməsi zamanı Şeyx Nəsrullah ittiham edilmir. Çünki Şeyx Nəsrullah lotu kimi Mirzə Cəlilin özü tərəfindən ittiham edilmiş bir obrazdır və bir fırıldaqçı kimi yeni cəmiyyətin ideya istiqamətlərini müəyyənləşdirməyə əsas vermir. Bunun üçün şeyxlərin dahisi, daha irəli

getmişi və istedadlısı seçilməli idi ki, bu da Şeyx Sənan idi. Nə üçün dinin ifşası üçün «Peyğəmbər» yox, «Şeyx Sənan» seçilir? Peyğəmbər ki, allaha daha yaxın olan yarımallahdır. «Peyğəmbər»də qoyulmuş bir çox problemlər öz başlanğıcını «Şeyx Sənan»dan alır. Peyğəmbərin fəaliyyətində təkcə dini yox, həm də siyasi motivlər vardı. Belə ki, Peyğəmbər bütün ərəbləri birləşdirməyə çalışırdı. Cavid də bütün türk dövlətlərini birləşdirmək arzusundaydı.

Bu məsələləri ədəbi məhkəmələrdə müzakirə etməyə hələlik ehtiyac yox idi. Bunun əvəzində həmin əsər peyğəmbərin idealizəsi adı altında daim tənqid edildi və demək olar ki, tamaşaya qoyulmadı.

Maraqlıdır ki, «Peyğəmbər» əsərinin tamaşaya qoyulmasını nədənsə müəllif özü də istəmirdi. H.Cavid dostu Ə.Şərifə yazırdı: «Əlan yeni təb edilmiş «Peyğəmbər»i zakoznoy olaraq sənə göndərirəm. Təbii, mütaliə edib, bir vaxt nöqteyi-nəzərini yazarsan. Lakin bir rica edəcəyəm. Burada oynanılmadığı kimi, oradakılara da rast gəlsəniz, oynanılmamasını tənbeh və tövsiyə edəsiniz. Şimdilik mən razı olmayıram»[160].

Digər bir tərəfdən dinə zərbə vurmaq üçün Şeyx Sənan daha çox material verirdi. Belə ki, Peyğəmbər gürcü qızına (xristian gözəlinə) vurulmur, şərab içmir, donuz otarmır, Quranı yandırmır, xaç asmır və s. Şeyx Sənan eşqdən başqa hər şeyə tövbə edir.

Eşqdən başqa, hər nə varsa, əvət,
Tövbə, min tövbə...Eylədim tövbə.

---

[160] «Yeni fikir» qəzeti. 8 fevral, 1924.

Əslində mələk simalı Xumar tanrı ilə insan, Yerlə Göy, mərifət mərhələsinə çatmış Sənanın Həqqə, Tanrıya qovuşması arasında bir əlaqəçidir. Ona görə də o, şeyxlərin, din xadimlərinin deyil, Xumarın çağrışına qoşulur.

Sənanın Xumara məhəbbəti dünyəvi məhəbbət deyil, ilahi bir eşqdir. Ədəbi məhkəmədə çıxış edən «Şeyx Sənan» deyirdi: Bütün ömrümdə mən ehtizasatdan qaçmış və yalnız ruhani ehtiyacları hiss ediyordum»[161]. Sənanın Quranı yandırmasına və xaç taxmasına isə öz fəlsəfi baxışları vardı. Onun fikrincə, yanan Quran yox, kağız və mürəkkəbdir, xaç taxmaqla isə gümüş üzük taxmaq arasında elə bir ciddi fərq yoxdur. Digər tərəfdən isə o, xaçla özü arasında heç bir fərq görmür. Yəni insanın forması elə xaç şəklindədir:

İbni Məryəm asıldı darə, fəqət
Onu təkrarə varmıdır hacət?
Bumu İsanın ərşə meracı?
Mən nəyim şimdi?
Canlı dar ağacı.

Şeyx Sənan əsasən aşağıdakılarda ittiham edilirdi:
1. Hissiyatının, şəhvət və ehtirasatının əsiridir.
2. İradəsi zəifdir.
3. Səbatsızdır.
4. Yalançıdır.
5. Zəhra və Xumarın fəlakətinə bais olmuşdur.

---

[161] «Kommunist» qəzeti, 3 noyabr, 1924.

Onun barəsində oxunan təqsirnaməyə fikir verək: «Şeyx Sənan (35 yaşında) turan əhllərindən kiçik vaxtından Ərəbistana gedib, Şeyx Kəbirin qızı Zəhraya aşiq olub, təhsilini bitirdikdən sonra onunla tahl etmək vəd etmiş isə də 6 ildən sonra islamə intişar vermək qəsdilə səyahətə çıxmış və səyahət əsnasında Gürcüstanda gürcü Platonun qızı Xumara bənd olduqda fikrindən büsbütün daşınıb onun uğrunda hər bir şeyi qurban ediyor. Xumarı almaq üçün keşişin çaxır içmək, xaç taxmaq və «Quran»ı yandırmaq kimi təkliflərini qəbul edib, Xumarı almaq üçün onun atasının donuzlarını iki il otarıyor və nəhayət Xumarı da fəlakətə düçar ediyor»[162].

Məhkəmə iştirakçıları əsəri realist bir dram kimi aldıqlarından və yozduqlarından ciddi yanlışlıqlara yol vermiş, oradakı dini-mifik, fəlsəfi anlamlar da düzgün açıqlanmamışdır. «Fəqət Sənan Xumarı ona görə sevməyir ki, cəmiyyəti-bəşəriyyəyə xeyirdir, ona görə sevir ki, Xumar gözəldir, döşünə yatır. Xaçı ona görə asmayır ki, onun xeyri vardır, ona görə asır ki, Xumarı almaq üçün o bir vasitədir. Burada məqsəd Xumar, mühərrik isə, onun nəfsi, onun qadınçılığı, onun daxilindəki saxlanmaz adi, bayağı ehtiraslar. İştə həmin bu ehtiraslara da Sənan bütün əməlini, diləyini, ictimai məqsədlərini, məfkurəsini, məsləkini qurban verir[163].

Xaç asmaq Xumarı almaq üçün vasitə deyil, əksinə Xumar özü Sənanla Tanrı arasında bir vasitədir. Məhəmməd

---

162 «Kommunist» qəzeti, 14 dekabr, 1924.
163 C.Cabbarlı. «Ədirnə fəthi». Bakı, Elm, 1996, səh. 249.

peyğəmbər Hürr dağında Allahla danışarkən bayılır. Sənan da mələk simalı Xumarla danışarkən bayılır. Məhəmmədin Allahla qarşılaşması peyğəmbərliyin təsdiqi, Sənanın Xumarla görüşü isə mərifət mərhələsindən həqiqətə qovuşmağın başlanğıcı idi. Əsərin əsas süjet xətti də bu iki mərhələ arasında baş verən vaqeələrdir. Bu mərhələlər arasındakı körpü isə Xumardır.

Sənanın dərvişlə görüşündən sonra ondakı ilahi eşq daha da güclənir. O artıq tənha yaşamağa üstünlük verir. Əsərin sonunda dərviş onun düşdüyü halı belə xarakteriza edir:

Baxma, şeyxim, şu halı-pürqəminə,
Giriyorsun həqiqət aləminə.
Fəzli-həqq runəma kəmalında,
Parlıyor nuri-həqq cəmalında.
Səndə bir əhli-hal əlaməti var,
Səndə əlan xuda qiyafəti var.

«Şərab» klassik şairlərin ən çox müraciət etdikləri obrazdır. Şəraba münasibət klassik ədəbiyyatda, eləcə də təriqətlərdə müxtəlif cür olmuşdur. Bəziləri ona bolluq, bərəkət kultu, bəziləri dərk olunmaz Tanrını dərk etməkdə köməkçi vasitə, bəziləri məkruf, haram, şeytan əməli, bəziləri qəm dağıdan, kef gətirən kimi baxmışlar. Sufilər də şərabdan istifadə edir və bunu Tanrının dərki kimi mənalandırırdılar. Əlbəttə, onlar Tanrının dərkini yalnız şərab içməklə ölçmürlər. Eyni zamanda, Sufi şairlər şərabdan nəşələnmək, kef çəkmək, dünyadan zövq almaq üçün də

istifadə etmir. Əksinə, onlar şərab içdikdən sonra hamı üçün dərkolunmaz hesab edilən Tanrını dərk etməyə başlayırlar. Ona görə də şərab içməyi sufilər qəbahət hesab etmirlər. Sufilərin fikrincə, din nəticə etibarı ilə həqiqətdir, yəni Tanrıda, Allahda əriyib yox olmaqdır. Lakin dinlə həqiqət arasında keçilməsi o qədər də asan olmayan yollar vardır. Sufilər üçün bu yol dörd mərhələdən ibarətdir. Birincisi, şəriyyətə, müsəlman dininin qoyduğu qanunlara dərindən bələd olmaq və onları pozmamaq. İkincisi, təriqət mərhələsi, könüllü və şüurlu olaraq gerçək aləmdən və öz iradəsindən əl çəkmək, yoxsul və tamahsız yaşamaqdır. Üçüncü mərhələ - mərifətdir, «idrakdır», sufi şəhvət hissi istəyindən əl çəkmək, «təkliyə» qapılmaqdır. Dördüncü mərhələ - həqiqətdir. Bu mərhələyə çatmış sufi Tanrı ilə daim ünsiyyət mərhələsində olur. Daha doğrusu o, Tanrı nurunda əriyib yox olur.

Sufilər qarşılarına bu dörd mərhələni keçməyi məqsəd qoyur və mövcud mərhələlərin mərkəzində yalnız Tanrı və Tanrıya sevgi dayanır. Cüneyd Bağdadi yazırdı: «Sufilər o şəxslərdir ki, allah-taala ilə onların işi olur, sufilər üçün yalnız allah mövcuddur». Sufi nəzəriyyəçisi və şairi Cəlaləddin Rumi isə bu məsələyə münasibətini belə ifadə edirdi: «Sevənlərin (sufilər nəzərdə tutulur - C.Q) etiqadı bütün etiqadlardan fərqlənir. Sevənlərin etiqadı və dini allah-taaladır»[164].

---

[164] Ş.Sultanov, K.Sultanov. Ömər Xəyyam, Bakı, «Gənclik», 1991, səh. 269.

Hər yerdə və hər şeydə yalnız allah-taalanı görən və axtaran sufilər yerdə qalan dini qaydalara, adət-ənənələrə o qədər də əhəmiyyət vermirlər. Ona görə də Şeyx Sənanın şərab içməsi sufi təlimində qəbahət yox, fəzilətdir. Şərab içmək məsələsinə Sənan öz münasibətini belə bildirir: «Ürəfa məşrəbincə var miqyas»[165]. Şəraba münasibət elə Quranda da buna oxşar şəkildə qoyulmuşdur. Bu məsələ ilə əlaqədar Rafael Hüseynov yazır: «Quran»da şərabla bağlı bir sıra yasaqlı ayələr var. «Ən-Nəhl» surəsinin 67-ci ayəsi: «Xurma ağacından və üzümlüklərin barından səkər - məstedici içki - və yaxşı ruzi alırsınız». Bu ayədə şərab kultunun izi var, çünki məstedici içki bar-bərəkət, ruzi kimi xatırlanır. Amma «Ən-Nisə» - Qadınlar - surəsinin 43-cü ayəsi şərabı rədd edir (hərçənd ki, tam yox. Ehtiyatla. Yerli-dibli içməməyi yox, namaz qılarkən sərxoş olmamağı tələb edir): «Ey iman gətirənlər! Məst ikən namaza yaxın düşməyin ki, nə dediyinizi biləsiniz...». «Əl-Maidə» - Süfrə surəsinin 90-cı ayəsində: «Ey iman gətirənlər! Şərab, qumar, bütlər və qismət oxları şeytan əməlindən olan murdar şeylərdir. Onlardan iraq olun ki, bəlkə uğura yetəsiniz» deyən və 91-ci ayədə: «Şeytan şərab və qumarla sizin aranıza ədavət, kin-küdurət salmaq, sizi Allahı yad etməkdən və namaz qılmaqdan...» xəbərdarlığını irəli sürən «Quran» şəraba tərs münasibətini, ikrahını bariz göstərir. Bununla belə son olaraq «Quran» bilərəkdən, ya şüuraltı hislə şərab kultu mövqeyindədir. Əvvələn, «Əl-Mutaffi-

[165] Hüseyn Cavid. «Seçilmiş əsərləri». 4 cilddə, II cild, Bakı, 1982, səh. 68.

fin» - Əskik verənlər surəsinin 25-ci ayəsində cənnətə düşmək qazanan müsəlmanlara o dünyada digər nemətlərlə yanaşı «raqih məxtum» - ağzı möhürlənmiş köhnə çaxır vəd olunur. İkincisi də «Məhəmməd» surəsinin 15-ci ayəsində cənnətdə «içənlər üçün ləzzətli olan xəmr - şərab çaylarının» varlığı bildirilir. Şərab çayı «Quran»dakı qrotesk obrazlarından biridir»[166].

**Xristianlıq.** «Bəzi sufi şeyxləri dini təlimləri inkar eləməklə təsdiq edirdilər ki, onlar bütün peyğəmbərlərin və müqəddəs sayılan müxtəlif dinlərin ən yüksək keyfiyyətlərini özündə təcəssüm etdirirlər»[167]. Sənan qeyd edir ki, allah birdirsə, onun nuru bütün insanlara eyni dərəcədə siraət edirsə, onda insanları xristiyan və ya müsəlman dünyasına bölməyə ehtiyac varmı?. Sənanın xristiyanlığa münasibəti insana münasibəti ilə eyniyyət təşkil edir. Yəni Sənan üçün dinlərdən əvvəl böyük hərfli İNSAN vardır. O hamıya insan - tanrının yaratdığı kimi baxır:

Birsə həqq, cümlə din də bir... naçar,
Xəlqi yalnız ayırmış azğınlar,
Hər kəs uymuş cahanda bir hissə...

Sənan onu əhatə edən din adamlarını (şeyxdən mömminə, keşişdən papayadək) hiyləgərlikdə ittiham edərkən də insanlar arasında dini seçkilik salmamaq fəlsəfəsinə söykənir. Qatı millətçi sifətilə ittiham edilən H.Cavid də öz

[166] Rafael Hüseynov. «Məhsəti – Necə varsa». Bakı, «Yazıçı», 1989, səh. 169-170.
[167] Ş.Sultanov, K.Sultanov. Ömər Xəyyam, Bakı, «Gənclik», 1991, səh. 269.

qəhrəmanı kimi bütün insanları müqəddəs bilir və onlar arasında fərq aramırdı.

Şeyx Sənan iki il donuz otarır. Başqa sözlə o, şeyx libasını çoban qiyafəsinə dəyişir. Şeyxlikdən çobanlığa qayıdış Sənanın kütlük və savadsızlığı yox, sadəliyi və kamilliyi idi. Hüseyn Bayqara yazır: «Kamil insan Fəzli-həqq məqamına yetincə, şəriətin inkarında təsdiqini tapır, təriqətin inkarında özünü görür»[168].

Sənandakı dini «inkarçılıq» da əslində özünü tanrıda tapma və özünü şəriətdə görmə idi. O, yaxşı anlayırdı ki, Tanrı dərgahına getmək üçün zahiri qiyafə, üst qat, rütbə, titul yox, ağıl, əməlisalehlik, mənəvi təmizlik, mənəvi saflıq, mənəvi kamillik... lazımdır. Və burada da sufizmə zidd ola biləcək heç nə yoxdur. Sufizmdə «müridin şeyxin iradəsinə tamamilə tabe olmasını istiqamətləndirən xüsusi təlimlər işlənib hazırlanırdı. Cəlaləddin Rumi göstərirdi ki, sufilər şagirdin sınaqdan çıxmasına min bir gün ayırırdılar. O, iqamətgahda 40 gün mehtər vəzifəsini yerinə yetirir, 40 gün ayaqyolunu təmizləyir, 40 gün su daşıyır, 40 gün həyəti süpürür, 40 gün odun doğrayır, 40 gün aşbaz işləyirdi və s. Nəyin bahasına olursa olsun sınaq müddəti keçənin məğrurluğunu qırmaq, şeyxin hər bir sərəncamını yerinə yetirmək onun hazır və razı olduğunu sınaqdan keçirmək lazım idi»[169].

Cavid də hadisələrə yaradıcı yanaşmış, onu estetik idalına uyğun şəkildə vermişdir. Bizcə, Cavid donuz otarmaq

---

[168] Hüseyn Bayqara. Tanrıdan Tanrıya doğru. «Azadlıq» qəzeti. 29 noyabr, 1997.

[169] Ş.Sultanov, K.Sultanov. Ömər Xəyyam, Bakı, «Gənclik», 1991, səh. 278.

süjetini dini bir hədisdən almışdır. Həmin hədisdə göstərilir ki, dini elmlərə bələd olan bir müridi bir şeyxin yanına göndərirlər ki, bu elmi daha dərindən mənimsəsin. Həmin mürid təhsilini başa vurub qayıtdıqdan sonra aqil bir qoca ondan nələri öyrəndiyi ilə maraqlanır və həmin mürid də öyrəndiklərini ona danışır. Aqil qoca bildirir ki, sənə bir şeyi öyrətməyiblər, mən onu öyrədərəm, lakin bir şərtim var. Gərək sən iki il qoyun otarasan, sonra deyəm. Əlacı kəsilən mürid aqil qoca ilə razılaşmağa məcbur olur. O, iki ili tamam olduqdan sonra aqil qocadan öyrənmədiyinin nə olduğu ilə maraqlanır. Qoca cavab verir ki, sənin öyrənmədiyin o şey səbr idi ki, onu da bu iki ildə öyrəndin.

Bütün bunların ədəbi məhkəmələrdə tənqidi İslam təəssübkeşliyidirmi? Xeyr. Bolşeviklər bununla ilk zərbəni islama və islami dəyərlərə vururdular. Onlar yaxşı anlıyırdılar ki, islami dəyərlərin xalqın yaddaşından silinməsi bu xalqın Şərqlə, eləcə də mənəvi irslə, kök, yaddaş və şəcərə ilə əlaqənin kəsilməsidir.

«Fəqət başındakı bir fikri, inandığı bir əqidəyə doğru sandığı bir məsləki, bayrağını gəzdirdiyi bir orduyu ancaq öz şəxsiyyətinə, öz mənfəətinə, öz şəxsi səadət və ehtiraslarına fəda edən bir adama nə ad vermək olar. Doğrusu mən tapmadım. Ona görə də, təqsirnamədə də yazmamışam. Ancaq indi başıma bir söz gəldi ki, o da xain kəlməsidir. Bu sözün nə qədər münasib olduğunu məhkəmə heyəti qərar çıxararkən düşünə bilər»[170].

[170] Cabbarlı C. «Ədirnə fəthi». Bakı, «Elm», 1996, səh. 246.

«Xain» sözü 20-ci illərdə tez-tez işlədilən ifadələrdən biri idi. İndi də bədii əsər qəhrəmanlarına bu adı verirdilər. Sonrakı illərdə isə şəxsiyyətləri «vətən xaini» adı ilə ləkələyirdilər. Şeyx Sənan heç nəyə və heç kimə xəyanət etməmiş, öz ideyaları uğrunda mübarizə apararaq bütün maneələri dəf etmişdir.

**Şeyx Sənanın ittiham edilməsinin əsas səbəblərindən biri də onun Zəhraya olan məhəbbəti və bu məhəbbətin axıra qədər olmaması, Zəhranın Xumarla əvəzləşdirilməsidir. Vaxtı ilə Mövlanə Cəlaləddin Rumi deyirdi ki, «mən Leyliyə yox, onu yaradana aşiqəm». Şeyx Sənan da Zəhraya və Xumara deyil, onları yaradana aşiqdi.**

Sənandakı eşqi Zəhra özü də çox gözəl anlayır və bilir ki, Sənan ona xəyanət etməmiş, ilahi eşqə düşdüyündən onu tərk etmişdir. Elə ona görə də Zəhra Sənanı bağışlayır, «keçən keçmiş». - deyir:

Daha bir çarə yox, keçən keçmiş;
Çünki Sənan ürəklə and içmiş.
Həp qadınlardan eyliyor nifrət,
Başqa bir fikrə bəsliyor hörmət.

Sənan ərə getməyi ölüm hesab edən, yalnız monastrlara meyl göstərən Xumara qadın yox, mələk kimi baxır. Əslində elə əsərdə də Xumar həmişə mələk timsalında təsvir edilir. Sənan da onu həmişə mələk kimi görür. Onun Şeyx Mərvana dediyi sözlər də fikrimizi təsdiqləyir:

Onu seçməz sənin gözün əsla,
O mələkdir, qadın deyil, haşa!..

Məhkəmədə prokuror sifəti ilə çıxış edən C.Cabbarlı deyirdi: «Əvvala, oğlum - deyə müraciət edən bir adamın qızına göz əymək, onunla xəlvətdə görüşüb əlaqəyə girmək insanda nə qədər saxlanmaz bir etiraz, nə qədər alçaq bir nəfs olması lazım olduğunu mən təsəvvür etmirəm.

Pək eyi, tutalım ki, bu bir şey deyildir. Ata-oğulluq məsələsini bir tərəfə buraxalım. Qızdır, oğlandır. Görmüş, sevmiş, vəd etmiş, nəticə etibarı ilə Zəhrayı alacaq və məsələ də bununla bitmiş olacaqdır. Fəqət Sənan bunu da yapmayır. 6 il yazıq cocuğu başda gəzdirib bir çox macəralar keçirdikdən sonra nəhayət, ondan doyur, soyuyur, usanır. Şimdi o öz fikrində, öz təsəvvüratında mavi gözlü yeni bir qadın yaradır. Və öylə bir qadın bulmaq istəyir»[171].

Deyildiyi kimi, H.Cavidin əsas məqsədi Sənan-Zəhra məhəbbətini və bu məhəbbətin tragik-dramatik taleyini yox, ondakı «eşqi-ruhani»yi, bu yolda çəkdiyi sarsıntı və iztirabları göstərməkdir. Sənan Zəhranı atmır. Onun mavi gözlü mələk bulması da məhəbbəti əyləncəyə, Zəhranı isə bu əyləncənin oyuncağına çevirmir. Əgər həqiqətən belə olsaydı onda bu macəradan 10 il keçdikdən sonra Zəhranı görən Sənan:

> Ah Zəhra, zavallı solğun nur,
> Səni Sənan görüncə alçalıyor-

- deyərək, keçirdiyi mənəvi əzabları biruzə verməzdi. Sənanın Zəhranı tərki şəhvani hislərin, «zövqi-nəfasi»nin

---

[171] Cabbarlı C. «Ədirnə fəthi». Bakı, «Elm», 1996, səh. 242.

tərki, aradığı, bulduğu isə ilahi eşq, tanrı sevgisidir. Sənan Zəhranı Xumara yox, Tanrıya dəyişir. Tanrı isə əsil dindar üçün bütün Zəhralardan üstündür:

Mən otuz il cahanda zahidvar,
Bilmədim qız-qadın nədir zinhar.
Nə qədər məndə varsa hissü həyat,
Ehtirasatə düşmənim... heyhat!
Mana biganə zövqi-nəfasi,
Sevdiyim Yalnız eşqi-ruhani...
Daha könlümdə qeyri eşqə, inan,
Yer bulunmaz, xayır, xayır...

Şeyx Sənan məhkəmə iştirakçıları, eləcə də əsərdə Papas tərəfindən dindən və məzhəbdən uzaq adam olmaqda məzəmmət edilir. Şeyx Sənan Papasa belə cavab verir:

Arif ol, arif!.. Atma vicdanı,
Ara qəlbində dini, imanı.

Sufilərin əsas sevgisi Tanrı olduğundan və onu çox sevdiklərindən zahiri əlamətlərə, görüntüyə, üst qata o qədər də fikir vermirdilər. Dini və məzhəbi onlar Tanrıya olan sevgilərinə qurban verməyə hazırdılar və yeri gələndə verirdilər də. Bu, onlarda dinsizliyə yox, dinə, allaha sevgiyə xidmət edirdi. Sufilər çalışırdılar ki, Tanrı ilə onların arasında heç nə qalmasın. Onlar həmişə və hər yerdə Allahla ünsiyyətdə olsunlar. İbadət zamanı hamını haqqa dəvət edən Şeyx Bistami Allaha üz tutaraq deyirdi: «Allah,

səninlə mənim aramda «mən» durduğuna görə mənə ölüm ver»[172]. Göründüyü kimi, Şeyx Bistami tanrıya qovuşmağa mahe olan hər nə vardısa onu aradan götürməyə çalışırdı. Daha doğrusu onun, əsas məqsədi tanrı ilə özləri (sufilər) arasında olan «mən» maneəsini aradan qaldırmaq idi.

Məhkəmə də son söz deyən Şeyx Sənan özünün müqəssir olmadığını bildirir və məsələlərə belə aydınlıq gətirirdi: «Şeyx Sənan müttəhim edildigi təqsirlərin heç birində özünü müqəssir bilməyib bunların onun haqqında iftira olduğunu bəyan ediyor, deyir ki: Mən türk ikən türklər arasında islam yayıldığı zaman təhsil üçün Ərəbistana getmiş və orada sözümü islamlığın dar çərçivələrinə salmışdım. Türklərdə bir azadlıq qanı cərəyan etdiginə görə islamlıq məni sıxmış və islamlıq qəbul etmişəmsə də, bir çox məsələlərdə (merac və bu kimiləri) tərəddüd edib, fikrimdə bir çox dolaşıqlıqlar var idi. Şeyx Kəbirin nəsihətlərinə görə qadınların insan üçün bir fəlakət mənbəyi olmasına zahib olaraq qadınlardan həzər edib onlara nifrət bəslərdim. Zəhra Şeyx Kəbirin qızı olduğundan ona yalnız ehtiram edərdim, amma sevməzdim. Bütün ömrümdə mən ehtizasatdan qaçmış və yalnız ruhani ehtiyacı hiss ediyordum. İnsaniyyətin məadətini din ixtilaflarını qaldırmaqda və hamını bir islam dini ətrafında birləşdirməkdə görərək mən bu məqsədlə də səyahətə çıxdım. Qafqasiyaya getdikdə buranın təbiəti əski qanımı cuşə gətirdi. Və is-

---

[172] Ş.Sultanov, K.Sultanov. Ömər Xəyyam, Bakı, «Gənclik», 1991, səh. 266.

lamın xaricində də məqsud yaşamağın mümkün olduğunu din haqqındakı tərəddüdlərim daha da qüvvətləndi!»[173]

Deyilənlərdən bir daha aydın olur ki, sufilər öz sevgilərini yalnız Allaha yönəldir və bu arzularına çatmaq üçün bütün maneələri dəf etməyə çalışırdılar.

Ədəbi məhkəmədə bu deyilənlərin heç biri nəzərə alınmadı, əsər sosializm realizm prinsiplərindən təftiş edildi və «Kommunist» qəzeti, 16 yanvar 1925-ci ildə «Şeyx Sənan» haqqında ədəbi-ictimai mühakimənin qərarı» başlıqlı materialda məhkəmənin çıxardığı 9 maddədən ibarət böyük bir qərarı çap etdi. Həmin qərarın 9-cu maddəsində oxuyuruq: «İştə Qeyd edilən maddələrə görə ictimai-ədəbi məhkəmə Şeyx Sənanın hazırkı ictimai tərbiyə nöqteyi-nəzərindən cəmiyyət içərisində yaramaz, mənfi bir tip, yalnız özünə müvafiq xəyalat uçurumlarına layiq olduğuna qərar verdi.

Sədr - Həbib Cəbiyev,

Məhkəmə ezaları: Hənəfi Zeynallı, A.Şərif, Nəsrulla Əsgərov, V.Məmmədov,

Katib - Akif».

Belə bir qərarın çıxarılmasına baxmayaraq, əsər yenə də repertuardan düşmədi. Lakin bundan sonra Şeyx Sənan rolunun ifaçıları onda günahlandırılırdılar ki, məhkəmə zamanı zalda iştirak edən aktyorlar ordakı iradları nəzərə almırlar: «Şeyx Sənan» mühakimə edilərkən aktyorlardan bir çoxu iştirak edirdilər. Buna görə də onlar bu ro-

---

[173] «Kommunist» qəzeti, 14 dekabr, 1924.

lun və Şeyx Sənanın kim olduğunu layiqincə düşünməli idilər»[174].

Deyilənlərdən aydın olur ki, ədəbi məhkəmələr, düşünülmüş şəkildə həyata keçirilən siyasi repressiyanın əsas formalarından biri idi.

**2. Dini təqib və təzyiqlər**.

«Din xalq üçün tiryəkdir» şüarını dünyaya bəyan edən bolşeviklər, hakimiyyəti ələ almaq üçün bir müddət dinə toxunmadı və hətta müxtəlif yağlı vədlər də verdilər. Belə ki, 1917-ci il noyabrın 22-də «Rusiyanın və Şərqin bütün müsəlman zəhmətkeşlərinə» müraciətində və həmin ilin dekabrın 5-də «Şərqin bütün müsəlmanlarına»[175] çağrışında din xadimlərinə proletariatın bir üzvü kimi baxan, gələcəkdə onların diqqət və qayğısına qalacaqlarını vəd edən bolşeviklər Aprel çevrilişindən sonra hər şeyi unutdular.

Azərbaycan İnqilab Komitəsinin 1920-ci il 5 may tarixdə verdiyi «Torpaq haqqında dekret»indən sonra dindarlara, din xadimlərinə, məscid və mədrəsələrə qarşı kommunist və komsomolçular tərəfindən hücumlar başladı. Bütün bunlar əhali arasında çaşqınlıq saldı və dövlətin bu siyasətinə qarşı ciddi narazılıqlar yaranmağa başladı. Azərbaycan K(b)P-nin 1920-ci ilin oktyabrında keçirilən II qrultayında bu məsələyə də münasibət bildirildi. N.Nərimanov öz çıxışında deyirdi: «Bizdə elə müsəlman kom-

---

[174] «Yeni yol» qəzeti. 11 mart, 1925.

[175] «Pravda» qəzeti. 5 dekabr, 1917.

munistlər var ki, kəndə girən kimi adamları məsciddən qovur və deyir ki, məscidləri bağlayın. Bu faktdır və belə kommunistlər öz əməlləri ilə fəxr edirlər ki, guya böyük iş görürlər. Onlar elə güman edir ki, bizim inqilabımızı genişləndirir və möhkəmləndirirlər. Mən belələrini əksinqilabçı adlandırıram, çünki bunlar bizim işlərimizi korlayırlar. Şərqdə din məsələsi olduqca vacib məsələdir. Bu məsələdə son dərəcə ehtiyatlı olmaq lazımdır, çünki burada bütün həyat bu qanundan asılıdır»[176].

20-ci illərin sonlarında dinə münasibət xüsusilə kəskinləşdi. İnsanın əlindən tanrı nuru, Allaha qovuşmaq və onda əriyib yox olmaq sevgisi alındı. Tanrı nurunu itirən insan günəş işığından da məhrum oldu. Kora parlaq gələcəkdən məruzələr oxundu. Mollaların bir çoxu ifşa edildi, müxtəlif təhqirlərə məruz qaldı, həbs olundu, Quran zərərli bir kitab kimi qadağan edildi. Həmin illəri xatırlayan S.Rüstəm yazırdı: «Xanəndələr Füzulinin şeirini oxuyurdular: «Yarəb, bəlayi-eşq ilə qıl aşina məni!» Onu od götürdü: (Həmin illər ədəbi sahəyə rəhbərlik edən nəzərdə tutulur - C.Q) - Net! Po-novomu nado! Po-naşemu: «Yoldaş, bəlayi-eşq ilə qıl aşina məni!»[177].

Böyük Füzulinin işlətdiyi «Yarəb» əvəzinə «yoldaş» sözü yazmaq istəyirdilər. O illərdə allah sözünün işlədilməsinə nəinki qadağa qoyulur, hətta irtica sözü ilə eyniləşdirirdilər. Lenin M.Qorkiyə ünvanladığı məktubunda yazırdı: «Allah ideyasını indi Avropada da, Rusiyada da hər

---

[176] AR SPİH MDA. F. 1, siy. 1, iş 8, v. 195.

[177] «Gənclik» jurnalı, 1986, № 1, səh. 11.

cür, hətta ən incə, ən xoşniyyət şəklində müdafiə etmək və ya ona bəraət qazandırmaq, irticaya bəraət qazandırmaq deməkdir»[178].

İrticadan qorxanlar teatr səhnəsində də, allah sözünü işlətməməyə, daha doğrusu onun yoxluğunu sübut etməyə çalışırdılar. «Od gəlini» əsərini tamaşaya qoyan Tuqanov yazırdı: «Məşq zamanı, xüsusən tamaşa zamanı teatrda bütün diqqət iki qardaşın - Aqşinlə Elxanın həbsxanada qarşılaşması səhnəsinə cəlb edilirdi. Bu rolları ifa edən aktyorlara tapşırılmışdı ki, dialoq vasitəsi ilə gərcin mübarizə aparırkən hər kəs öz dininin üstünlüyünü ən mütəəssib bir dinçi kimi müdafiə etsin. Aktyorlar bu tapşırığa əməl edirdilər. Məhəmməd dininin naşiri olan Aqşin islam dinini tərif edərkən səhnə arxasından azan səsi eşidilir. Cəfər və mən hər şeydən artıq əsərin bu yerindən çox qorxurduq. Qorxurduq ki, birdən həmən bu yerdən alqış səsləri ucala, tamaşaçılar bu yeri tamamilə əksinə qəbul edələr. Biz səhnənin bu yerini ürək döyüntüsü ilə gözləyirdik. Lakin Elxanın ağzından çıxan «Yoxdur allah!» sözləri elə bir qüvvətlə səsləndi ki, onun sözlərini tamaşaçıların alqış səsləri örtdü və beləliklə də tam bir qələbə əldə edildi»[179].

Göründüyü kimi, Leninin qoyduğu prinsiplər eyni inam və sədaqətlə Azərbaycanda da həyata keçirilirdi. Daim marksist platformadan çıxış edən və axırda ağasının qəzəbinə düçar olan M.Quliyev yazırdı: «Yarım vəhşi

---

[178] V.İ.Lenin ədəbiyyat haqqında. Bakı, «Yazıçı», 1979, səh. 136.

[179] Məmməd Arif. Seçilmiş əsərləri, 3 cilddə, 2-ci cild, Bakı, 1968, səh. 114.

ərəblərin adət və ənənələrindən ibarət olub sultanlar və xanlar tərəfindən təhkimçilik üsuluna uyğunlaşdırılmış, istifadə edilmiş və istifadə edilməkdə olan islamiyyət və şəriət, Azərbaycanın mədəni hərəkatı yolunda bir çin hasarı (səddi) təşkil edir. Oktyabr inqilabı bu divarı deşmiş, böyük bir qalafa açmışdır. Lakin biz onu tamamilə məhv etməli, qəti qələbə yolunu təmizləməliyik[180].

Bu təlimin tərəfdarları gənc nəsli millət və din əleyhinə mübarizə ruhunda tərbiyə etməyi məqsədəuyğun hesab edirdilər. Belə ki, 1928-ci ildə «Kommunist» qəzeti gənc nəslin kommunizm ruhunda tərbiyə edilməsi üçün aşağıdakıları təklif edirdi:

«1. Maarif komissarlığı məktəblərdə millət və din əleyhinə tərbiyə məsələsinin mahiyyət və üsullarını müəyyən etməli və bu xüsusda məktəblərə qəti direktiv verməlidir.

2. Bu direktivə görə millətçi müəllimlər məktəblərdən çıxarılmalıdır.

3. Müəllimlərin proletar sinfindən olmasına əhəmiyyət verilməlidir.

4. Komsomol və pioner dərnəkləri məktəblərdə kəndi fəaliyyətlərini artırmalıdır və millət əleyhinə proqramlarını çoxaltmalıdırlar.

5. Rusiyada başlanmaq üzrə olduğu kimi Azərbaycanda dəxi milli və dini bayramları tamamilə qaldıraraq bunların yerinə inqilab bayramların qoymalıdır.

---

[180] Mustafa Quliyev. Mədəni inqilab və islam. Bakı, «Azərnəşr», 1928, səh. 33.

6. Məktəblərimizdə milli və dini təsirləri davam etdirən böyük amilin ailələrimiz olduğu inkar edilməz. Bununla da sadə məktəb vasitəsi ilə mübarizə etmək qabil olmayacaqdır. Cocuqlarımızın ata-anaları arasında millət, din və s. mübarizə işlərini qüvvətləndirmək üçün «Allahsızlar cəmiyyəti»nin işlərini canlandırmalıdır»[181].

Tənqidçi Əli Nazim 1924-cü ildə yazdığı məqalələrinin birində yeni yaranmış cəmiyyətin ictimai həyatın bütün sahələrində olduğu kimi ədəbiyyatın da dövlət mülkiyyətinə çevrildiyini qeyd edirdi: «İstehsal alətləri xüsusiyyətdən çıxıb ümumiləşmiş, iş və mənfəət işçinin öz əlinə verilmiş, maarif və ədəbiyyat dini, milli və xüsusilikdən çıxarılmış, ictimai həyat yeni bir şəkil almışdır»[182].

Əsrimizin 20-ci illərində «Maarif və ədəbiyyat dini, milli və xüsusilikdən çıxarılmış», bəs qazandığı nə olmuşdu? Proletar mədhiyəçiliyi, plakatçılıq, şüarçılıq... Sənətin və şəxsiyyətin obyektiv dərki proletar mədhiyəçiliyində deyil, sənətkarın yaşadığı Zamanın işığı və ağrı-acıları ilə birgə dərkində özünü büruzə verir. Əks təqdirdə obyektivlik itir.

Proletar mədhiyəçiliyi, əsasən, «kommunist cənnəti»nin gəlməsini, sovet həyatının başdan-başa gözəlləşdiyini təbliğ edirdi. Belə çıxırdı ki, bütün eybəcərliklər, həyatın bütün qara səhifələri Oktyabr inqilabının arxasında qalmışdı. İndi rahatca sevinc yaylığı ilə gözlərimizin yaşını silə bilərik. Artıq sovet adamları dərddən, kədərdən

---

[181] «Kommunist» qəzeti. 1928, № 2446.

[182] Əli Nazim. «Yeni həyat və yeni ədəbiyyat», «Yeni yol» qəzeti, 2, 9, dekabr, 1924, № 40, 41.

uzaqlaşmış, onlar nəşələnmə, «kommunist cənnəti» mərhələsinə qədəm qoymuşdur: «Mövzular çılpaq şəkildə aktual, qəsdən publisist, konfliktlər - inqilabi və «ideyalı», plakat, mitinq, şüar dərəcəsində «sinfi» idi. Avaza, övqata gəldikdə isə mütləq kədərdən, mütləq nikbinliyə - «Ələmdən nəşəyə» qədər yolu, mənzili keçib gəlmək üçün (Süleyman Rüstəmin artıq 1927-ci ildə çapdan çıxmış kitabının adı belə idi) poeziyaya nə az, nə çox, cəmisi yeddicə il vaxt lazım olmuşdu»[183].

20-ci illərin sonlarında dövlət tərəfindən dinə qarşı geniş tədbirlər planı da hazırlanıb həyata keçirilir, sənət adamlarının qarşısında belə bir məsələ qoyulurdu ki, onlar öz yaradıcılıqlarında dinin tənqidinə geniş yer versinlər. Bu illərdə «Bismillah» filmi ən yaxşı əsər kimi təbliğ edildiyi və haqqında xeyli resenziyalar yazıldığı halda Ə.Cavadın «Bismillah» şeiri daima tənqid hədəfinə çevrilirdi: «Bu dövrün şöhrətlənmiş şairlərindən Cavad Axundzadə mart hadisəsini, müsavat bayrağını mədh edir. Burjuaziyaya... vətənpərvərlik hissini irad etdikdə ruhani atalara və mömin müsəlmanlara əsaslanır və şeirlərini «Bismillah» ilə başlayır»[184].

Bunun nəticəsində Tanrı, peyğəmbər və imamlar, din xadimləri və dini dəyərlər bədii ədəbiyyatın, ümumiyyətlə sənətin mənfi qəhrəmanına çevrildilər. Dövrünün aparıcı şairlərindən olan xalq şairi Səməd Vurğun «Dar ağacı» (1935) poemasında zamanın diqtəsi ilə Məhəmməd pey-

---

[183] Yaşar Qarayev. «Tarix: yaxından və uzaqdan», Bakı, «Sabah», 1996, səh. 482.

[184] «İnqilab və mədəniyyət» jurnalı. 1930, № 12.

ğəmbəri yalançı, lovğa, acgöz, kinli bir adam kimi təsvir edir və ulu peyğəmbəri təhrif edirdi.

Maraqlıdır ki, peyğəmbəri və peyğəmbərləri nüfuzdan salan bu kimi əsərlər dövrün ən gözəl sənət nümunələri hesab edildiyi halda, Hüseyn Cavidin «Peyğəmbər»i idealizmdə günahlandırılır və şairi ittiham üçün bir vasitəyə çevrilirdi.

Totalitar rejimin ideoloji təbliğatı və zorakı basqıları nəticəsində həyatda və ədəbiyyatda dini məbədgahların, məscidlərin qarşısına it bağlandı. Məscid və molla komsomolçu mirpaşaların əyləncə mərkəzinə, gülüş və qəhqəhə hədəfinə çevrildi.

Bu gün də 20-50-ci illərin kifayət qədər elmi, ədəbi-bədii və publisistik «təsərrüfatı» vardır. Lakin bu «təsərrüfata» diqqətlə nəzər saldıqda görürük ki, alim, yazıçı və şairlərin özlərinin təfəkkür süzgəcindən keçərək qələmə alınan və tənqidə məruz qalanlardan sistemin yazdırdığı və təbliğ etdiyi əsərlər daha çoxdur. O da maraqlıdır ki, sənətkarlıq və ideya-məndəricə baxımından çağdaş zamanın işığında vaxtı ilə tənqid hədəfinə çevrilən əsərlər daha qiymətli, daha sanballı görünür.

Kollektivləşmə illərində dinə qarşı mübarizə daha da qüvvətləndi. Mərkəzdə, eləcə də əyalətlərdə böyük sürətlə «Allahsızlar» cəmiyyətinin özəkləri yaradılırdı. 1929-cu il aprel ayının 9-da AK(b)P MK-sı kənddə «Allahsızlar» cəmiyyətinin işini daha da gücləndirmək məqsədilə plenum keçirdi. Plenum dinə qarşı mübarizə, çadranın və papağın atılması ilə bağlı məsələni müzakirə etdi və qərara gəldilir ki, «təxirə salınmadan qabaqcıl ictimaiyyətçilərdən, kol-

xozçu və komsomolçulardan ibarət cəmiyyətin kənddə özəyini yaratmaq lazımdır»[185].

Bir qədər sonra cəmiyyət öz fəaliyyətini daha da genişləndirərək «Mübariz Allahsızlar İttifaqı»na çevrildi. İttifaq üzvləri belə hesab edirdilər ki, din sinfi düşmənin sonuncu dayağıdır. Ona görə də kənddə sinfi düşmənə qarşı mübarizə çadraya qarşı mübarizə ilə eyniləşdirilir və onlara qarşı birgə mübarizə aparılırdı. Plenumun qərarında göstərilirdi: «Bütün kəskinliyi ilə qeyd etmək lazımdır ki, çadra sinfi mübarizənin əsas sahələrindən biridir və bu cəbhədə sosializmin hücumunu gücləndirmək zəruridir. Çadra arxasında sinfi düşmənlərimiz olan qolçomaqlar, nepmanlar, mollalar və müsavatçılar dayanırlar»[186].

1929-cu ilin yazında elliklə kollektivləşmə ərəfəsində dinə, milli adət-ənənələrə, milli məişətə və hətta milli musiqiyə (xüsusilə tara - C.Q) qarşı kompaniya xeyli təhlükəli xarakter almışdı. Geniş kompaniya nəticəsində 1929-cu ilin birinci yarısında Gəncə qəzasında 1800 qadın, Şamaxı qəzasında 520, Zaqatala qəzasında 122 qadın, Lənkəran qəzasında 82 qadın, Səlyan qəzasında 500 qadın, Quba qəzasında 817 qadın, Nuxa qəzasında 920 qadın, Ağdam qəzasında 460 qadın, Cəbrayıl qəzasında 97 qadın, Bakı qəzasında 12305 qadın, Naxçıvan MSSR-də 3307 qadın çadrasını atmışdı. Ümumilikdə respublika əleyhinə aparılan mübarizə nəticəsində 1928-ci ildə 12573 nəfər, 1929-cu ildə isə 20387 nəfər qadın çadradan imtina etmişdi.

---

[185] «Kommunist» qəzeti. 11 aprel, 1929.
[186] «Kommunist» qəzeti. 11 aprel, 1929.

Belə statistik göstəricilərin olmasına baxmayaraq çadra və yaşmağın atılmasına etiraz edənləri, bu etiraza görə qolçomaq, quldur, millətçi, sovet cəmiyyətinin irəliyə inkişafına mane olan, burjua məfkurəli mürtəce şəxslər kimi cəzalandırırdılar.

Çadraya qarşı aparılan bu dövlət siyasətinə ədəbiyyat və sənət də biganə qalmır, onun təbliğatçısına çevrilirdi. Bu sahədə Cəfər Cabbarlının «Sevil» əsəri də az iş görməmişdi. Ona görə də «Sevil» əsəri teatrların repertuarlarından düşmür, ətalətə, geriliyə, xurafata, eləcə də köhnəliyə (burjua cəmiyyətinə) qarşı mübarizə üsullarından biri kimi istifadə olunurdu.

Çadraya qarşı bu cür mübarizə bir çox yerlərdə ikrah hissi ilə qarşılanırdı. 1928-ci ilin oktyabrında Bakıda çadra məsələsinə həsr edilən yığıncaq Azərbaycan SSR MİK-dən xahiş edirdi ki, qadınların çadra örtməsini qadağan edən dekret versin. Lakin əhali arasındakı narazılıqdan narahat olan və bunun doğura biləcəyi mənfi nəticələri nəzərə alan Azərbaycan SSR MİK həmin dekreti qəbul etmədi. Eyni zamanda, kompaniya xarakterli mübarizə daha da genişləndirildi, bir qədər də kobud xarakter aldı.

Bəzi kəndlərdə dövlətin yeritdiyi bu siyasətə etiraz əlaməti olaraq keçirilən yığıncaqlarda göstərilirdi ki, «bu gün sizi çadranı atmağa, sabah isə avropalı paltarı geyməyə məcbur edəcəklər. Onda siz türk qadınına oxşamayacaqsınız». Belə yığıncaq keçirənlər hesab edirdilər ki, onlar türk qadınlarının əxlaqını müdafiə edirlər. Belə tədbirlərin iştirakçılarının tələb və xahişlərinə nəinki baxılmır, hətta onlarla izahat işi aparılmır və əksinə dövlət siyasətinə qarşı

keçirdikləri yığıncaqlara görə amansız cəzalandırılırdılar. Onların ən fəalları həbs edilir, digərləri isə komsomolçular tərəfindən döyülür və təhqir edilirdilər. Komsomolun «mədəni yürüşündə» qadınların çadrasının zorla çıxarılması, din xadimlərinin və kənd ağsaqqallarının təhqir edilməsi o qədər eybəcər şəkil almışdı ki, AK(b)P MK-nın aprel (1929-cu il) Plenumunda belə xuliqanlığın qarşısının alınması zəruri hesab edildi. «Rədd olsun çadra», «Rədd olsun papaq» deyə qışqıran «yürüşçülərin» mollaları döyüb ələ salması, məscidləri talan etməsi, məscid xidmətçilərini təhqir etmələri kənd camaatının gözü qarşısında baş verirdi. Ona görə də aprel (1929) plenumunun qərarında qeyd edilirdi ki, «partiya xuliqanlıq edən ayrı-ayrı komsomolçulara qarşı inzibati tədbirlər görməklə yanaşı, geniş kəndli və fəhlə kütlələri arasında izahat işi aparıb bildirməlidirlər ki, din bayrağı və din adətləri adı altında antisovet iş aparan dini təşkilatların başçılarına qarşı (rövzəxanlar, şeyxlər, mollalar və s.) repressiya tədbirləri görəcəkdir».

20-ci illərin sonunda təkcə dinə, çadraya qarşı deyil, milli məişətdə uzun zaman formalaşmış milli ənənələrə qarşı da müharibə elan edilmişdi. Xüsusən şərq üslubunda papağın Avropa baş geyimi ilə əvəz edilməsinə çağırış kəndin geniş dairələrinin narazılığına səbəb oldu. Milli adət-ənənə baxımından kişilik nişanəsi kimi qiymətləndirilən papağın atılmasına çağırış əslində kəndin geniş dairələrinin mənliyinə toxunurdu. Ona görə də bu təhlükəli meyldən tez imtina edildi. Və papağın Avropa baş geyimləri ilə əvəz edilməsi kompaniyasını AK(b)P MK bəyən-

mədi. Lakin müəllimlərin, şagirdlərin, ümumilikdə gənclərin papağı atması mədəni inqilabın əsas vəzifələrindən biri hesab edilirdi. Kollektivləşmənin ən çox ziyan vurduğu yerlərdən biri də məscidlər oldu. Azərbaycan qəzalarında əslində elə bir məscid qalmadı ki, ya dağıdılmasın, ya da anbara, kluba, kitabxanaya çevrilməsin. Məsələn, təkcə Quba qəzasında 1928-ci il dekabrın 15-dən 1929-cu il yanvarın 6-dək - 22 gün ərzində 18 məscid anbara və mədəni-maarif idarələri binasına çevrilmişdi. «Bakinski raboçi» qəzeti yazırdı: «Qubada böyük bir məscid plakatlarla və rəhbərlərin portretləri ilə bəzədilmişdi. Məsciddə çadranı atmış qadınlar toplanmış, qırmızı bayraqlarla və musiqi çala-çala kəndi gəzib dolaşmışdılar»[187].

20-ci illərin axırı və 30-cu illərin əvvəllərində min illərlə xalqın yaddaşında kök salmış «Novruz» bayramı da din pərdəsi altında yasaq edildi. İllər boyu küçə və meydanlarda böyük ruh yüksəkliyi ilə keçirilən bu milli bayramı xalq artıq gizli olaraq evində keçirməyə başladı. Bunu bilən dövlət məmurları evlərdə də bu tədbirin keçirilməsini qadağan etdi. Bütün qadağalara, təqib və təzyiqlərə baxmayaraq xalq bu bayramın unudulmasına imkan vermədi, onu qoruyub saxlaya bildi. Başqa sözlə nə bolşevik təbliğatı, nə də hüquq-mühafizə orqanlarının gördüyü tədbirlər «Novruzu» yaddaşlardan birdəfəlik silə bilmədi, sadəcə bu bayramın məkanı dəyişdi, küçədən, meydandan çıxaraq, evlərə, ürəklərə daxil oldu. Lakin dərsliklərdə, eləcə də müxtəlif ədəbiyyatlarda «Novruz»un İslam dini ilə əla-

---

[187] «Bakinski raboçi» qəzeti. 6 yanvar, 1929.

qəsi məsələsinin cürbəcür uydurmalarla sübut etmə prosesi də dayanmadı.

Dinin təbliği, hətta dinlə maraqlanmaq, yalnız aktiv komsomol və partiya işçilərini deyil, eyni zamanda, təhlükəsizlik orqanlarının da nəzər diqqətindən yayınmırdı. Təhlükəsizlik orqanlarında dinlə məşğul olan şəxslərin adları siyahıya alınır və onların fəaliyyəti antisovet təbliğatı kimi qiymətləndirilirdi. Təkcə 20-30-cu illərdə deyil, eyni zamanda, müharibədən sonra da din xadimləri təhlükəsizlik orqanları tərəfindən ifşa olunurdu. Belə ki, 1948-ci ildə Mərkəzi Komitəyə ünvanlanmış bir arayışda ayrı-ayrı əyalətlərdə mollaların əhali arasında hələ də böyük nüfuza malik olmaları, antikolxoz və antisovet təbliğatı aparmaları xüsusi qeyd edilirdi. Apardıqları təbliğata görə yüzlərlə molla həbs edilmişdir. Onların həbs olunma səbəblərindən biri də evlərində gizli şəkildə mədrəsələr təşkil etmələri və gənc nəslə islami dəyərləri öyrətmələri olmuşdur. Belə mədrəsələrdən biri də Naxçıvanın Nehrəm kəndinin mollası Niftalıyev Kərbalayı Niftalı Kərbalayı Cəbrayıl oğlu tərəfindən açılmışdır. Öz evində gizli açdığı mədrəsədə o, şagirdlərə «Quran»ı və şəriətlə bağlı digər məsələləri öyrədirdi. Eyni zamanda, Molla Yusif Babayev kolxozçular arasında «Quran»ın və şəriətin uşaqlara öyrədilməsi barədə təbliğat apardığından həbs edilmişdir. O, bildirmişdir ki, Sovet məktəbləri uşaqlara yaxşı heç nə vermir, bundan başqa, sovet dövləti çox yaşaya bilməz, bunu siz görəcəksiniz. Müharibə başlayanda Türkiyə qalib gələcəkdir[188].

---

[188] MTN-in arxivi. P – 37, səh. 44.

Təəccüblüdür ki, yas mərasimlərində istifadə olunan Sitri-kafır özü də qaçaq malı kimi qadağan edilmiş və buna görə də adamlar cəzalandırılmışdır. Milli Təhlükəsizlik Nazirliyinin arxivində olan bir sənəddə göstərilir ki, Zəngilan rayonunun Məmmədbəyli kəndində yaşayan kolxozçulardan Allahverdiyev Cəmil Astanxan oğlu, Bağırov Musa Həsən oğlu və Bayramov Hüseyn Həsən oğlu qaçaq malı hesab edilən Sitri-kafır saxladıqlarına görə həbs edilmişdir. C.Allahverdiyev 10 min, M.Bağırov isə 12 min rubl cərimə edildikdən sonra azadlığa buraxılmış, H.Bayramov barəsində isə cinayət işi qaldırılmışdır[189].

Təhlükəsizlik orqanları tərəfindən dini ayinlərin keçirilməməsi istiqamətində də bir sıra işlər görülmüşdür. 20-50-ci illlərdə xalq arasında məhərrəmlik kimi tanınan və qeyd edilən ayinlərin keçirilməsi də qadağan edildi. Mərsiyyəxan şair və aşıqlar bu istiqamətdə təbliğat apardıqlarına görə olmazın əzab və müsibətləri ilə qarşılaşdı. Uzun illər Azərbaycanda yaşıyan mərsiyyə ədəbiyyatı ideoloji cəhətdən zərərli bir ədəbiyyat kimi ədəbi səhnədən çıxarıldı, onun yaradıcıları isə xalqa pessimist əhvali-ruhiyyə aşılayan şair, millətçi, burjua sənətkarı kimi həbs edilərək güllələndi və şaxtalı Sibirə göndərildi.

Belə mərsiyyəxanlardan olan Ələkbərov Ağadadaş Dərviş Hənəfi oğlu dini təqiblərin gücləndiyi bir dövrdə dini təbliğ edən əsərlər yazdığına görə 16 dekabr 1937-ci ildə həbs edildi. Bu onun ilk həbsi deyildi. O ilk dəfə 1926-cı, ikinci dəfə isə 8 fevral 1930-cu ildə əksinqilabi millətçi

[189] MTN-in arxivi. P – 15, səh. 66.

kimi həbs olunmuş və üç il müddətinə Sibirə sürgün edilmişdir. 26 mart 1931-ci ildə Sibirə göndərilən Ağadadaş Dərviş 1934-cü ildə vətənə qayıtmışdır.

Ağadadaş Dərviş vətənə döndükdən sonra, yenə də əvvəlki kimi mərsiyələr yazmış və mərsiyyə janrının yaşaması uğrunda mübarizə aparmışdır. Elə ona görə də o, üçüncü dəfə 3525 saylı həbsetmə orderi ilə həbs olunmuşdur[190]. Həbs olunan zaman o gözətçi, həyat yoldaşı Ziba süpürgəçi, oğlu Əlövsət isə aktyor işləyirdi.

Ağadadaş Dərvişin dindirməsi bu dəfə çox uzun çəkmir, cəmi iki dəfə dindirilir. 19 dekabr 1937-ci il dindirməsi zamanı o, 30-cu ildə qısaca olaraq kimlərlə və nə üçün həbs olunduğundan danışır, ikinci dindirmə (29 dekabr 1937) zamanı isə onun barəsində alınmış ifadələr ona oxunur və o, həmin ifadələrdəki fikirlərlə razılaşmadığını bildirir. 31 dekabr 1937-ci ildə Azərbaycan SSR XDİK üçlüyünün iclasında Ağadadaş mütamadi olaraq sovet hökumətinin əleyhinə əksinqilabi iş apardığına və sovet hökumətinin əleyhinə böhtanlar atdığına görə ittiham edildi və barəsində əmlakı müsadirə olunmaqla ölüm hökmü çıxarıldı[191]. Beləliklə, 16 dekabr 1937-ci ildə həbs olunan Ağadadaş Dərviş 16 yanvar 1938-ci ildə güllələndi.

Cəmi bir ay müddətində hər hansı bir adamı mühakimə etmək və güllələmək bir tərəfdən totalitar rejimin eybəcərliyini, yırtıcılığını, digər tərəfdən isə milli ənənələrə,

---

[190] MTN-in arxivi. Ələkbərov Ağadadaş Dərviş Hənifə oğlunun istintaq qovluğu, PR - №30478.

[191] MTN-in arxivi. Ələkbərov Ağadadaş Dərviş Hənifə oğlunun istintaq qovluğu, PR - №30478.

dini dəyərlərə qarşı amansız odluğunu göstərirdi. A.Dərvişin də günahı, dini dəyərlərə sadiq qalması, Tanrısını unutmaması, allahsızlarla deyil, Allahla ünsiyyət etməsi ilə bağlı idi. Bir sözlə, A.Dərviş Allah olmaq iddiaslnda deyildi, Allah adamı olmaq iddiasında idi. Allah adamı olanları isə edam və eşafot gözləyirdi.

Ağadadaş Dərviş kimi, Məhəmməd Bağırzadə Biriya da ömrünün sonuna qədər, harada və hansı şəraitdə olmasından asılı olmayaraq İslam dininin təəssübkeşlərindən biri kimi mübarizəsini davam etdirmişdir. Heç kimdən və heç nədən çəkinmədən sovet idarə üsuluna qarşı çıxan Məhəmməd Bağırzadə Biriya maraqlı şəxsiyyət olduğundan onun haqqında bir qədər ətraflı danışmağı məqsədəuğyun hesab edirik.

Biriya 1914-cü ildə Təbriz şəhərində dülgər Qulam Məhəmmədbağır oğlunun ailəsində dünyaya gəlmişdir. Atası Qulam kişi 1920-ci ildə ailəsi ilə birlikdə Bakıya köçdüyündən 7 yaşlı Məhəmmədi də özləri ilə gətirmişdilər. Onlar təxminən bir il burada yaşadıqdan sonra İranın Xorasan vilayətinə qayıtmışlar. Məhəmmədin artıq məktəb yaşı çatdığından onu atası Xorasanda mədrəsə məktəblərindən birinə qoymuşdu. Lakin anasının xəstəliyi ilə əlaqədar olaraq atası yenidən Bakıya qayıtdığından M.Bağırzadə təhsilini bu şəhərdə davam etdirmişdir. O zaman Azərbaycanda baş verən ictimai-siyasi hadisələr, həyata açıq gözlə baxan M.Bağırzadənin baxışlarının formalaşmasında az rol oynamışdır.

O, 1931-ci ildə anası Rübabə xanımı itirmiş və 1933-cü ildə atası Qulam kişi ilə birlikdə yenidən İranın Təbriz şə-

hərinə qayıtmışdır. Məhəmməd Bağırzadənin gah İrana, gah da Azərbaycana gəlməsi və iki bir-birinə zidd quruluşla tanışlığı onun dünyagörüşündə müəyyən iz buraxmışdır. İranda baş vermiş hadisələri həm şah, həm də sovet rejimi prizmasından təhlil edərək müəyyən nəticələr çıxarmağa başlamışdır.

İranda olarkən Məhəmməd Bağırzadə bir müddət fəhlələr üzərində nəzarətçi işləmiş, orada işləyən fəhlələrin ağır həyat tərzini gözləri ilə görmüş və həmkarlar ittifaqında işlədiyi zaman onların güzaranlarının yaxşılaşdırılması sahəsində xeyli iş aparmışdır. İran ordusunda 1940-cı ildə hərbi xidmətini başa vurduqdan sonra Tehran-Təbriz dəmiryolunda baş nəzarətçi işləmişdir. O, 1941-ci ildən İran Azərbaycanında başlanan demokratik hərəkata qoşulmuş, 1943-cü ildə isə Təbrizdə «Tudə» partiyasına daxil olmuş və Biriya («Biriya» fars sözüdür səmimi deməkdir) təxəllüsü ilə yazdığı azadlıq ruhlu şeirlərini «Azərbaycan» və «Vətən yolu» qəzetlərində çap etdirmişir. Məhəmməd Bağırzadə siyasi biliyə və əhali arasında böyük nüfuza malik olduğundan 1945-ci ildə Cənubi Azərbaycan zəhmətkeşlərinin nümayəndəsi kimi Parisə ümumdünya konfransına göndərilmişdir.

M.Bağırzadə demokratik hərəkat zamanı əhalinin dünyagörüşünün və siyasi savadının xeyli aşağı olduğunu görmüş və öz fəaliyyətində xalqın maariflənməsini daha çox təbliğ etmişdir. Maarif və mədəniyyətin inkişafı sahəsindəki xidmətlərini nəzərə alan demokratik hökumətin başçıları 1945-ci ilin dekabr ayında onu maarif naziri vəzifəsinə təyin etmişlər. Maarif naziri işlədiyi müddətdə o,

bütün məktəblərdə dərslərin Azərbaycan dilində tədrisini təşkil etdi. Qısa müddətdə ibtidai siniflər üçün Azərbaycan dilində dərsliklər hazırlandı və çap edildi. Demək olar ki, İranda azərbaycanlıların maarif və mədəniyyəti heç vaxt bu illərdəki qədər inkişaf etməmişdir.

1944-cü ildə Bakıda, Azərnəşrdə M.Briyanın «Ürək sözü» adlı bir kitabı çap olundu. 5 min nüsxədə çap olunan bu kitabın oxunuşu onun həbsindən sonra (1948-ci ildə) qadağan edildi.

İranda demokratik hökumət yıxıldıqdan sonra o, 1947-ci ilin mart ayında Sovet səfirliyi vasitəsilə Bakıya gəlmiş və təxminən bir aydan sonra partiya məktəbinə daxil olmuşdur. Marksın və Leninin baxışlar sistemini təbliğ edən partiya məktəbində 5-6 ay oxuduqdan sonra ailəsini və qohumlarını görmək üçün Təbrizə qayıtmaq istəmiş və bu münasibətlə İranın Bakıdakı konsulluğuna müraciət etmişdir. Lakin onu doğma vətəninə getməyə qoymamışlar. Bütün bunlardan sonra ona dövlət idarələrində və hüquq mühafizə orqanlarında münasibət tamamilə dəyişmişdir.

Azərbaycana pənah gətirən qonağı Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) əməkdaşları da yaxşı qarşılamadı. Belə ki, 1948-ci ilin avqust ayının 10-da onu casusluqda təqsirləndirib həbs etdilər və SSRİ DTK yanında Xüsusi Müşavirənin 27 noyabr 1948-ci il tarixli qərarına əsasən müddəti 11 avqust 1948-ci ildən hesablanmaqla və cəzasını İslah Əmək Düşərgəsində (İƏD) çəkməklə 10 il müddətinə azadlıqdan məhrum edildi[192].

---

[192] MTN-in arxivi. M.B.Biriyanın istintaq qovluğu, PR - № 42268.

Bu mübariz insan İƏD-də də mübarizəsini davam etdirmiş, yazdığı şeirlər və etdiyi söhbətlərlə məhbusları mübarizəyə, vətənin və millətin azadlığına səsləmişdi. Bütün bunlara görə 1950-ci ilin noyabr ayının 20-də düşərgə məhkəməsi tərəfindən RSFSR CM-in 58-10 maddəsi ilə 10 il müddətinə azadlıqdan məhrum edilmişdir.

Verilən 10 il həbs cəzası onu qorxutmamış o, yenə də mübarizəsini davam etdirmişdir. Ona görə də 1951-ci ilin avqust ayının 23-də SSRİ DİN-in Luqovsk düşərgəsində olduğu zaman türmədə saxlanmaq şərti ilə 1 il müddətinə azadlıqdan məhrum edilmişdir.

Maraqlıdır ki, bir il ərzində (1950-1951) iki dəfə ittiham olunan, M.Bağırzadə az bir müddətdən sonra bəraət aldı. Belə ki, 1956-cı ilin sentyabr ayının 1-də Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyasının təyinatına əsasən onun haqqında SSRİ DTK-nın Xüsusi Müşavirəsinin 27 noyabr 1948-ci il tarixli qərarı ləğv edilmiş və fəaliyyətində cinayət olmadığına görə iş xətm edilmişdir.

1956-cı ilin oktyabr ayının 29-da SSRİ Ali Soveti Rəyasət heyətinin 1956-cı ilin 14 sentyabr fərmanına əsasən müttəhim M.Bağırzadə məhbusluqdan azad edilərək Bakı şəhərinə gətirilmişdir.

1956-cı ilin noyabr ayının 19-da Qazaxıstan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə kollegiyası düşərgə məhkəməsinin 31 dekabr 1950-ci il tarixli hökmünü Bağırzadəyə ittiham edilən təqsir sübut edilmədiyindən xətm etmişdir.

M.Bağırzadə azadlığa buraxıldıqdan sonra 16 fevral 1957-ci ildə Voroşilov rayon milis şöbəsinin əməkdaşları tərəfindən üstündə sənədi olmadığından saxlanılmış və milis şöbəsinə gətirilmişdir. Rayon milis şöbəsinin əməkdaşlarının yazdıqları raportdan məlum olur ki, axtarış zamanı ondan antisovet məzmunlu şeirlər götürülmüş və bir neçə saat saxlanıldıqdan sonra buraxılmışdır. Sənəd məsələsinə gəldikdə deməliyik ki, onu yaxından tanıyanların ifadəsinə görə M.Bağırzadə Sovet pasportu almağı özünə alçaqlıq saymışdı. Bizcə onun Təbrizə-doğma yurduna can atmasının əsas səbəblərindən birini də burada - Sovet vətəndaşı olmamaq istəyində axtarmaq lazımdır.

Təkcə milis əməkdaşları deyil, Azərbaycan SSR XDİK-i də M.Bağırzadəni rahat buraxmamış, onu addım-addım izləmişdir. Azadlığa çıxdıqdan sonra o, doğma Təbrizinə getməyə can atsa da, buna mane olmuş onu buraxmamışlar. Görünür imperiya hələ onunla haqq-hesab çəkib qurtarmamışdı. Ona görə də 13 mart 1957-ci ildə Bağırzadə Məhəmməd Qulam oğlunun yenidən həbs olunması və mənzilində axtarış aparılması barədə order imzalandı. Onun yaşadığı Bakı şəhəri, Nizami küçəsi ev 37, mənzil 40-da aparılan axtarış zamanı evindən müxtəlif əlyazmalar, qəzet-jurnallar, o cümlədən Quran kitabı, namaz qılmaq üçün möhür ailə üzvlərinin foto şəkilləri və s.əşyalar götürüldü.

Məhəmməd Qulam oğlu Bağırzadənin yenidən həbs olunmasına səbəb nə idi?

Məhəmməd Bağırzadə hər şeydən əvvəl böyük əqidə və məslək sahibi idi. O, Marksizm-leninizm ideyalarına

qarşı çıxır və öz şeirlərində sovet həyat tərzindəki bir çox neqativ halları cəsarətlə tənqid edirdi. 26 mart 1957-ci ildə dindirilərkən bu məsələ ilə əlaqədar olaraq müstəntiqə deyirdi:

«**Sual:** Sizin 1947-ci ildə düzgün olmayaraq məhkum edilməyiniz Sovet orqanları tərəfindən yoxlanılmış və ləğv edilmişdir. 1950-ci ildə sizə verilən cəzadan vaxtından əvvəl azad edilmisiniz və sizə lazımi şərait yaradılmışdır. Belə olduğu halda ayrı-ayrı şəxslərin qanunsuz hərəkətləri nəticəsində Sovet hökumətindən və Kommunist partiyasından narazılıq etməyi düzgün hesab edirsinizmi?

**Cavab:** Doğrudur, mənim 1947-ci ildəki məhkumluq işim Sovet orqanları tərəfindən yoxlanılıb puç edilmişdir və 1950-ci ildə mənə verilən cəzadan vaxtından əvvəl azad edilmişəm. Həbsdən azad olunandan sonra mənə Bakıda yaşamaq üçün lazimi şərait yaradılmışdır. Bunların müqabilində mən Sovet Hökumətindən və Kommunist partiyasından razı olmalıydım, lakin mənim fikrim İrana - öz ailəmin yanına getmək olduğu üçün həmin məktubları və şeirləri yazmışam ki, İrana göndərilim. Əlavə edirəm ki, mən öz millətçiliyimi inkar etmirəm və göstərirəm ki, öz məktublarımda və şeirlərimdə milli məsələni irəli sürmüşəm. Mənim milli məsələ haqda olan fikrim Marks, Engels, Lenin və Stalinin fikirləri ilə düzgün gəlmir».

Onun həbs olunmasına səbəb olan əsas məsələlərdən biri də 18 yanvar 1957-ci ildə yazdığı və Azərbaycan Respublikasının rəhbərləri - İ.Mustafayevin, M.İbrahimovun, S.Rəhimzadənin adına göndərdiyi 16 maddədən ibarət

məktubdur. Ona görə də istintaq işində müstəntiqlər bu məktuba və onun məzmununa xüsusi fikir verirdilər:

«**Sual:** Bu məktub Sovet hökumətinin əleyhinə, millətçi ruhda yazılmışdır. Bu məktubu yazmaqda siz özünüzü günahkar edirsiniz ki, Sovet hökumətinin əleyhinə və millətçi xarakter daşıyan fikirlər yazmısınız?

**Cavab:** Mən İranda doğulmuşam, ömrümün çox hissəsini də İanda keçirmişəm. Hər iki ölkənin qanunlarından xəbərim vardır. Məşrutəçilik qanununda deyilir ki, şair öz fikrini azad ifadə edə və mətbuatda çap etdirə bilər. Sizin bir balaca qanun əsasınız vardır, onu fars dilinə də tərcümə etmişdilər. Orada yazılır ki, söz azaddır, dil azaddır, mətbuat azaddır. Mən də bu şeylərdən istifadə edib öz fikrimi hökumət başçılarına bu şəkildə yazmışam.

**Sual:** Mən bir şeyi sizin nəzərinizə çatdırmaq istəyirəm. Söz və mətbuat azadlığı deyəndə Sovet hökumətinin mənafeyinə olan azadlıq nəzərdə tutulur. Sovet hökumətinin əleyhinə olan sözlərə biz yol verə bilmərik. Bizim ölkəmiz çoxmillətli ölkədir, heç bir vətəndaşa icazə verilmir ki, Sovet ittifaqında yaşayan millətləri bir-birinə vursun.

**Cavab:** Onun hansı maddəsi Sovet hökumətinin əleyhinədir?

**Sual:** Məsələn sərhədlərin açılması məsələsi. Siz istəyirsiniz ki, kapitalistləri və diversantları buraxaq sovet ölkəsinin daxilinə. Bu birinci maddədir (düz deyildir, bu fikir yeddinci maddədə yazılmışdır - C.Q). Bunu siz Sovet hökumətinə dostluqla yazmısınızmı?

**Cavab:** Bu bir həyati məsələdir. Sərhədləri bağlayıb 200 milyon adamı niyə saxlamısınız? Açın sərhədləri, bu-

raxın camaatı kim hara istəyir getsin. Əgər xarici diversantlar öz işlərini aparmaq istəsələr sizin orqan onlarla mübarizə aparar»[193].

M.Bağırzadə yaxşı anlayırdı ki, türk dilli millətləri birbirindən ayırmaq vasitələrindən biri sərhədlərin bağlanması idisə, digəri də əlifbanın dəyişdirilməsi idi. Şairin fikrincə, əlifbanın dəyişdirilməsi eyni millət arasındakı min illik tarixi əlaqənin qırılmasına, millətin soyundan, kökündən, yaddaşından uzaqlaşdırılmasına xidmət edirdi. Buna görə də M.Bağırzadə kiril əlifbasına qarşı çıxır və yenidən əski əlifbaya keçilməsini tələb edirdi. Bağırzadənin fikrincə, «gözəl, pak olan» əlifba əski əlifbadır.

Hanı bizim o gözəl pak olan əlifbamız
Bu «ъ»di, «й»di və ya «ц»dı anlayan deyiləm.

M.Bağırzadənin məhz ərəb əlifbasına keçilməsi fikrini təkidlə irəli sürməsi onun şəxsi istək və arzularından doğurdu.

M.Bağırzadənin 1957-ci ildə həbs olunmasının əsas səbəbi aşağıdakı məktub idi. Şairin dövlət rəsmilərinə ünvanladığı həmin məktubu olduğu kimi təqdim edirik.

**Azərbaycan hökumət başçıları**
**İbrahimzadə Mirzə,**
**Mustafazadə İmam və**
**Rəhimzadə Sadıq cənablarına**

---

[193] MTN-in arxivi. M.B.Biriyanın istintaq qovluğu, PR - № 42268.

**Aşağıdakı yazılı təkliflərin əməl olunmasını arzu edirəm.**

**1. Məscidləri abad etmək (haliyə onların bəziləri kolxozlarda ambar olub tamamilə boşaltmaq, dini xadimlərin ixtiyarına qoymaq).**

**2. Marksizm-leninizm məktəblərini bağlamaq.**

**3. K.Marks, F.Engels, V.Lenin və İ.Stalinin heykəllərini götürmək.**

**4. Əlifbanı dəyişib islam aləminin iftixarı olan ərəb əlifbasını qəbul etmək.**

**5. Kremlə Azərbaycan xalqı tərəfindən nümayəndə göndərmək.Daxili və xarici məsələlərdə Kreml başçıları ilə həmkarlıq etmək.**

**6. Aləmi islamın düşməni olan erməniləri Azərbaycandan xaric etmək.**

**7. Sərhədləri açmaq.**

**8. Sair islam millətləri kimi cümə günlərini tətil elan etmək.**

**9. Tatarıstan xalqına istiqlal vermək. Krım yarım cazirəsini Ukraynadan ayırmaq. Müstəqil Tatarıstan cümhuriyyətinə vaqüzar etmək.**

**10. Sürgünə məhkum olan Qafqaz millətlərini, xüsusilə çeçenləri vətənlərinə qaytarmaq.**

**11. Ruslardan başqa sair yerli olmayan mütəxəssiləri idarələrdən kənar etmək və respublikalara göndərmək.**

**12. Ruslardan başqa sair millətləri Azərbaycan ordusundan kənar etmək.**

**13. İran dövlətləri ilə dostluğu möhkəmləndirmək.**

**14. Dini azadlığına lazımi surətdə imkan yaratmaq. (bunun üçün xüsusi qəzetə radio-jurnal vasitələrindən istifadə etmək).**

**15. Gələcəkdə nəslimizin aradan getməməsi üçün Azərbaycan oğullarına sair millətlərin qızları ilə və habelə sair millətlərin oğullarına Azərbaycan qızları ilə evlənməyi qadağan etmək.**

**16. Öləndən sonra meyidlərin təşpih olunmasına mane olmaq. Adları doktor özləri cəlladdan daha bettər olan insan qəssablarının əlindən ölüləri xilas etmək.**

**Artıq ehtiramlarla:**
**Azərbaycan millətinə**
**səadət arzu edən**
**iranlı şair** **Məhəmməd Biriya**
18.01.1957-ci il.

M.Bağırzadənin «Aləmi-islamın düşməni olan erməniləri Azərbaycandan ixrac etmək» lazımdır fikrinə müstəntiq 23 aprel 1957-ci il dindirməsi zamanı ondan bu məsələyə münasibət bildirməsini tələb edir. O isə müstəntiqə belə cavab verirdi: «Mən öz fikirlərimin üzərində ömrümün axırına qədər dayanacağam. Ermənilər 1906-cı və 1918-ci illərdə müsəlmanları qırdılar. Biz onlara lazımi qədər hörmət etmişik, indi onların Azərbaycanda nə işləri var?»

Azərbaycanlılar arasında ermənilərin fitnəkarlığını duyanlar az olmamışdır. Lakin millətlərin «bərabərliyini» istəyən sovet rejimi belə adamlara qarşı amansız olmuş, ermənilərin yürütdüyü separatçı siyasətə qarşı mübarizə

aparmaq əvəzinə, belə siyasət yürüdənlərə nəinki laqeyd yanaşmış, əksinə bütün bunları görənləri və hiss edənləri əzmişlər. Bir sözlə, ermənilər Qafqazda imperiyanın vuran əli, dəyənəyi rolunu oynayırdı. İmperiya bu dəyənəyi istədiyi vaxt Qafqazda yaşayanların üzərinə qaldıra bilirdi. Ona görə də ermənilər Qafqazda ona havadarlıq edən Sovet imperiyasının ərköyün uşağına çevrilmişdi. Bunu görən ərköyün uşaq isə imperiyanın əli ilə Qafqazdan, xüsusilə də Azərbaycandan daha çox şey tələb edirdi. Belə ərköyünlüyə dözməyənlər ağır işgəncələrə məruz qalırdı.

M.Bağırzadə Azərbaycanda islam dininə geniş yer verilməsini tələb edirdi. Bir müddət İranda yaşadığından və Quranı, eləcə də bir sıra dini kitabları dərindən oxuyub mənimsədiyindən, bu dinin daha mütərəqqi olduğunu dərk etdiyindən, Sovet hökumətinin islama münasibəti ilə barışmır və Azərbaycanda məscidlərin açılmasını dinin təbliğini tələb edir, eləcə də bu məsələni Sovet Azərbaycanının dövlət rəhbərləri qarşısında qaldırırdı. Təsadüfi deyildir ki, 18 yanvar 1957-ci ildə yazdığı və Azərbaycanın dövlət başçılarına göndərdiyi məktubun birinci maddəsində Sovet hökuməti dövründə idarə və ya ambara çevitdirilmiş məscidlərin abad edilərək din xadimlərinin ixtiyarına verilməsini tələb edirdi. 50-ci illərdə dövlət rəhbərləri qarşısında məsələni bu şəkildə qoymaq onlara və imperiyaya ittiham aktı oxumaqdan başqa bir şey deyildi.

Şahidlərin verdiyi ifadələrdən də məlum olur ki, M.Bağırzadə əsil şair olmaqla yanaşı, həm də yaxşı dindar idi. Belə ki, o, İrandan gələn demokratları və əhalini Marksın, Leninin allahsızlığından əl çəkib, islam dininə itaət etmə-

yə çağırırdı. Bildirilirdi ki, o Nizami muzeyində olarkən Marksın və Leninin əsərlərinin yığışdırılmasını və əvəzində Quranın təbliğ edilməsini təklif etmişdir. O, kiçik yaşlı uşaqlar arasında dini təbliğat aparır, onlara hansı dinə mənsub olmalarını izah edirdi.

Bağırzadə islam dininə sidq ürəkdən bağlı adam idi və onun qanunlarına harada olmasından asılı olmayaraq riayət edirdi. Maraqlıdır ki, həbsxanada olarkən orucluq ayı olduğundan o, ifadə verməkdən imtina etmişdir. 1 aprel 1957-ci ildə tərtib edilmiş aktda oxuyuruq: «Mən, Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin istintaq şöbəsinin rəisi podpolkovnik Məmmədov və Azərbaycan SSR prokurorunun köməkçisi ədliyyə müşaviri Əliyev həmin aktı yazırıq ona görə ki, məhbus Bağırzadə 1 apreldə saat 16.00-dan 16.45-ə kimi istintaqda ifadə verməkdən imtina edərək göstərdi ki, orucluq qurtarmayınca ifadə verməyəcəyəm»[194].

O, həbsxanada olduğu zaman məhbusların həyat tərzi ilə yaxından tanış olmuş onların bəzilərinin günahsız həbs olunduğunu müəyyənləşdirmiş və şeirlərində bu məsələlərə öz münasibətini bildirmişdir. Onun 16 mart 1957-ci ildə verdiyi ifadəsində oxuyuruq:

«**Sual:** Siz şeirlərinizdə göstərirsiniz ki, guya dustaqlara təzyiq olunur. Bu təzyiq nədən ibarətdir?

**Cavab:** Demək olar ki, bəzi səhvlər nəticəsində bir çox adamlar haqsız olaraq təqib edilib, düşərgələrə göndərilmişlər. Bu adamlar düşərgənin idarələri tərəfindən istər

[194] MTN-in arxivi. M.B.Biriyanın istintaq qovluğu, PR - № 42268.

paltar və istərsə yemək cəhətdən lazımi surətdə təmin olunmur, məcburi surətdə işə göndərilirlər. Buna əsasən bir sıra şeirlər yazmışdım.

**Sual:** Deyirsiniz dustaqlar düzgün tutulmayıblar. Bu sizə haradan məlumdur?

**Cavab:** Dustaqların özlərinin dediklərinə və 1953-cü ildə Beriya və onun əlaltıları ifşa edildikdən sonra sizin mətbuatda dərc etdirdiyiniz məlumatlara əsasən.

**Sual:** Sizin 1950-ci ildə dustaqların vəziyyəti haqqında yazdığınız şeirlər Sovet quruluşuna tamamilə böhtandır. Siz bunu təsdiq edirsinizmi?

**Cavab:** Xeyr, mən bunu böhtan hesab etmirəm».

O, başqa bir ifadəsində bildirirdi ki, mən yazdığım məktub və şeirlərdə öz fikirlərimi ifadə etmişəm. Bu fikir və ifadələri isə matah edib İrandan gətirməmişəm. Məndə bu fikirlər həbsxanada olandan sonra əmələ gəlmişdir. Bu məsələ tək bir Azərbaycan millətinin yox, başqa 16 respublikanı belə əhatə edir.

Göründüyü kimi, hələ Cənubi Azərbaycanda olarkən demokratik hərəkata qoşularaq rus ordusunu, eləcə də onun xalqa bəxş edəcəyi azadlığı təbliğ edirdisə, sovet hökumətinə gəldikdən və sovet partiya məktəbində təlim aldıqdan sonra bəşəriyyətə azadlıq vəd edən Marks, Englis və Leninin ideyalarının yalnız kağız üzərində olduğunu görür və onlara ikrah hissi ilə yanaşırdı.

26 mart 1957-ci ildə 111 saylı istintaq işi ilə tanış olan Azərbaycan SSR NS yanıda DTK-nın istintaq şöbəsinin rəisi Q.Ə.Məmmədov bildirirdi ki, Bağırzadə (Biriya) Məhəmməd Qulam oğlu onda müqəssir bilinir ki, o, həbsdən

azad edildikdən sonra Sovet hökuməti əleyhinə təbliğat aparmaqla məşğul olmuş, antisovet və millətçi məzmunda məktublar yazaraq Respublika rəhbərlərinə göndərmiş, antisovet xarakterli şeirlərini əhali arasında oxumuşdur. Bunları əsas götürən İstintaq şöbəsinin rəisi belə qərara gəlmişdir ki, həmin işdə müqəssir sifəti ilə cəlb edilib Azərbaycan SSR CM-nin 72-ci maddəsinin 1-ci hissəsi M.Bağırzadəyə təqsirnamə elan edilsin və bu qərarın surəti prokurora göndərilsin.

Beləliklə, 18 iyun 1957-ci ildə şahidlərin, (bəzi şahidlər məhkəməyə gəlməmişdir) vəkilin iştirakı ilə məhkəmə iclası öz işinə başladı. İki gün davam edən məhkəmə iclasında müttəhim öz son sözünü belə bitirdi: «Mən öz antisovet hərəkətlərimdən dönməyəcəyəm, mənim məhkəmədən heç bir xahişim yoxdur. Ancaq xahiş edirəm məni öz vətənimə İrana qaytarasınız»[195].

Öz məslək və əqidəsindən dönməyəcəyini görən məhkəmə kollegiyası M.Bağırzadə haqqında belə bir hökm verdi ki, Bağırzadə (Biriya) Məhəmməd Qulam oğlu Az.SSR CM-in 72-ci maddəsinin 1-ci hissəsi ilə müqəssir bilinib, həmin maddə ilə **YEDDİ İL** müddətinə azadlıqdan məhrum edilsin. Cəza çəkmək müddəti 13 mart 1957-ci ildən hesab edilsin. Hökm qətidir kasasiya qaydasında şikayət vermək olmaz[196].

Beləcə, DTK əməkdaşları Azərbaycanın mübariz şairlərindən biri olan Bağırzadə (Biriya) Qulam oğlu Məhəm-

[195] MTN-in arxivi. M.B.Biriyanın istintaq qovluğu, PR - № 42268.
[196] MTN-in arxivi. M.B.Biriyanın istintaq qovluğu, PR - № 42268.

mədi məhv etməyə səy göstərsələr də onu sındıra və öz əqidəsindən döndərə bilmədilər.

1967-ci ildə Biriya Bakıya qayıdır. Lakin bir müddət keçdikdən sonra milis işçisini guya təhqir etdiyinə görə 2 il müddətinə azadlıqdan məhrum edilir.

1969-cu ilin avqustunda cəza müddəti başa çatdığından Bakıya qayıdır. SSRİ Daxili İşlər Nazirliyi ona yalnız Tambov vilayətinin Yaraslav kəndində yaşamağa icazə vermişdir. Beləcə həmişə Təbriz həsrəti ilə yaşayan Məhəmməd Biriyanı Bakıdan da uzaqlaşdırırlar.

Uzun zillət və süründürməçilikdən sonra 29 sentyabr 1980-cı ildə ona Bakıdan doğma Təbrizinə getməyə icazə verilir. Belə bir mübariz insanın Təbrizə dönüşü yoxsul kütlələri sevindirsə də, hakim dairələri məyus edir.

M.Bağırzadə 1980-ci ildə İrana döndükdən sonra onu ailəsi qəbul etmir. İranda xalqın azadlığı uğrunda mübarizəsini davam etdirən şairi mürtəce qüvvələr həbs edərək zindana salır və sovet hökumətinin casusu kimi mühakimə edirlər. Azadlığa buraxıldıqdan sonra xəstə və baxımsız şairin gedəcək yeri olmadığından kimsəsizlər evinə yerləşmək məcburiyyətində qalır. Qısa bir müddət orada qalan M.B.Biriyanın səhhəti pisləşir və o, 19 fevral 1985-ci ildə kimsəsizlər evində dünyasını dəyişir. Digər bir məlumata görə onu mollalar döyə-döyə öldürmüşlər.

Mən bu meydana qədəm qoymamışam şöhrət üçün
Mal üçün, izzət üçün, şövkət üçün, sərvət üçün.
Yaradıb haq məni öz millətimə xidmət üçün,
Hazıram canı fəda etməyə bu niyyət üçün.

Biriyanın ömür yolu ilə tanışlıq bir daha sübut edir ki, o, bu misraları gəlişi gözəl söz kimi deməmiş, sözün həqiqi mənasında xalq üçün, millət üçün yaşamışdır.

Dinin təəssübkeşi və «İttihad» partiyasının liderlərindən biri kimi Sultan Məcid Qənizadə də (istintaq işində onun soy adı Qəniyev kimi qeyd edilmişdi – C.Q.) 30-cu illərin repressiya burulğanından yan keçmədi.

S.M.Qənizadə 1866-cı ildə (istintaq işində onun 1868-ci ildə doğulduğu qeyd edilmişdir - C.Q) Şamaxı şəhərində doğulmuşdur. Görkəmli şair-pedaqoq S.Ə.Şirvanidən və maarifçi-publisist Cəlal Ünsüzadədən dərs almışdır. Şamaxı şəhər məktəbini «əla» qiymətlərlə başa vurduqdan sonra orada bir illik pedaqoji kurs bitirib müəllimlik vəsiqəsi almışdır. O, 1883-1887-ci illərdə Tiflisdə Aleksandrovski Müəllimlər İnstitutunda oxumuşdur.

S.M.Qənizadə Həbibbəy Mahmudzadə ilə birlikdə Bakı şəhərində ilk «Rus-müsəlman» məktəbinin əsasını qoymuş, müxtəlif dərsliklər, dram əsərləri, publisist məqalələr, onlarca hekayələr və s. yazıb çap etdirmiş, ömrünü Azərbaycan xalqının mariflənməsinə və mənəvi yüksəlişinə həsr etmişdir. 1918-1920-ci illərdə fəaliyyət göstərən Azərbaycan parlamentinin üzvü olmuşdur.

1937-ci ilin iyulunda (gün göstərilməyib - C.Q) Xalq Daxili İşlər Komissarlığının Dövlət Təhlükəsizlik İdarəsinin 4-cü şöbə 4-cü bölməsinin rəisi Dövlət Təhlükəsizlik baş leytenantı Qriqoryan Azərbaycanın maarif və mədəniyyətinin inkişafında misilsiz xidmətləri olan, böyük yazıçı və pedaqoq S.M.Qənizadə haqqında arayış hazırladı. Arayışda göstərilirdi ki, ümumittifaq pantürkist təşkilatı-

nın həbs olunmuş üzvlərinin ifadələrinə əsasən müəyyən edilmişdir ki, S.M.Qəniyev Azərbaycan SSR-də olan əksinqilabi «İttihad» təşkilatının üzvlərindən biridir. O Türkiyə və İranda yerləşən əksinqilabi emiqrant dairələri ilə əlaqədədir.

Yuxarıdakılara əsasən S.M.Qəniyevin həbsini vacib hesab edirik və onu Az.SSR CM-in 72-73-cü maddələrinə əsasən məsuliyyətə cəlb etmək şərti ilə XDİK-ə və Azərbaycan SSR prokurorluğuna məlumat veririk.

Qriqoryanın bu arayışından sonra Az.SSR prokuror köməkçisi, istintaq işləri üzrə rəis müavini Yarovoy S.M.Qənizadənin həbs olunması haqda 25 iyul 1937-ci ildə qərar qəbul etdi.

Respublika prokuroru vəzifəsini icra edən Pinkis həmin gün onun həbs olunması barədə sanksiya verdi.

25 iyul 1937-ci ildə Bakı şəhərində Az.SSR XDİK-i DTİnin 4-cü şöbəsinin rəisi, DT kapitanı Tsinman 12493 nömrəli istintaq işinə baxaraq belə qərara gəlmişdir ki, Sənaye Akademiyasında müəllim işləyən, azərbaycanlı, Az.SSR vətəndaşı, bitərəf S.M.Qəniyev əksinqilabi ittihadçı təşkilatın üzvü olduğuna görə Az.SSR CM-nin 72-73-cü maadələrndə nəzərdə tutulan cinayətlərdə ittiham edildiyindən həbs edilməli və XDİK-in həbsxanasında nəzarət altında saxlanılmalıdır.

Həmin qərara baş leytenant Qriqoryan imza atmış, XDİK-in rəis müavini dövlət təhlükəsizlik (DT) mayoru Gerasimov təsdiq etmişdir. S.M.Qəniyevi həbs etmək üçün bütün «hüquqi» sənədlər hazır idi. Hətta mənzilində axtarış aparmaq niyyəti ilə iyulun 25-də 854 №-li order də

imzalanmışdı. Həmin orderə əsasən 26 iyul 1937-ci ildə onun yaşadığı Bakı şəhəri Nijni Kladbişenskoye küçəsi ev 81, mənzil 20-də axtarış aparıldı. Axtarış zamanı onun evindən müxtəlif qiymətli əşyalar, əlyazma və kitablar da götürülmüşdür. Bunlar arasında bizcə daha çox maraq doğuranı özünün müxtəlif ünvanlara yazdığı və müxtəlif ünvanlardan aldığı qiymətli əlyazmalar, məktublar, eləcə də 15 səhifədən ibarət tərcümeyi-halı idi. Heç şübhəsiz ki, həmin məktublarda Azərbaycan ədəbiyyatının, maarif və mədəniyyətinin bir çox problemləri öz əksini tapmışdır. Axtarış zamanı götürülənlər arasında maraq doğuranlarla yanaşı təəccüb doğuranlar da vardı. Təccüb doğuran o idi ki, belə bir yazıçı guya evində revolver (tapanca), beşbarmaq və fin bıçağı saxlayırmış.

Həyatı böyu insanları humanizmə, birliyə, dostluğa, qardaşlığa səsləyən yazıçıya, müəllimə görəsən beşbarmaq və yaxud da tapança, bıçaq nə üçün lazım idi? Bu suala cavab tapmaq çox çətindir. Ümumiyyətlə, siyasi repressiyaya məruz qalanların istintaq işlərində cavabsız qalan sual çoxdur.

29 iyul 1937-ci ildə ilk dindirmə zamanı kiçik leytenant H.Musatov ittihadçılar və müsavatçılarla, eləcə də S.M.Qəniyevin inqilabdan sonra ittihadçılara rəhbərlik edib etməməsi ilə maraqlandı:

**Sual:** İstintaq müəyyən edib ki, siz həbs olunana qədər Azərbaycandakı əksinqilabi ittihad təşkilatının rəhbəri olmusunuz. Bunu təsdiq edirsinizmi?

**Cavab:** Qəti rədd edirəm.

Bu dindirmə müstəntiqi o qədər də razı salmadı. Çünki müstəntiqin «İttihad» təşkilatına rəhbərliyi siz etmisiniz» sualına müsbət cavab verilməmişdi. Ona görə də ikinci dindirmədə - 2 mart 1937-ci ildə müstəntiq məhz həmin məsələ ilə bağlı sualla müraciət edir:

**Sual:** İstintaqa məlumdur ki, siz həbs olunana qədər fəal pantürkist olmusunuz və «İttihad» təşkilatında fəal əks inqilabi iş aparmısınız. Bunu boynunuza alırsınızmı?

**Cavab:** Xeyir, mən bunu boynuma almıram. Keçmişdə mən «İttihad» təşkilatının fəal üzvü olmuşam, lakin Azərbaycanda Sovetləşmə gedəndən sonra mən siyasi işlərlə məşğul olmamışam.

**Sual:** İstintaqa izah edin, inqilabdan əvvəl siz hansı partiyanın üzvü olmusunuz?

**Cavab:** İnqilabdan əvvəl mən heç bir siyasi partiyanın üzvü olmamışam, ancaq çarın quruluşuna qarşı mübarizə aparmışam.

**Sual:** Müsavat vaxtında hansı siyasi partiyanın üzvü olmusunuz?

**Cavab:** Müsavat dövründə mən «İttihad» partiyasının üzvü olmuşam. Bu partiya mütləqiyyət devrildikdən sonra təşkil olunmuşdu. Bu partiya «Müsavat» partiyasının əleyhinə mənim tərəfimdən təşkil edilmişdi və parlamentdə necə bir müstəqil partiya kimi «Müsavat» partiyasından ayrılmışdı.

Parlamentdə mən «İttihad» partiyasının nümayəndəsi idim. Mən parlamentin üzvü olanda (Müsavat parlamenti) məni təhsil naziri təyin etmək istəyirdilər. Lakin mən razılıq vermədim və Azərbaycanın sovetləşməsi gününədək

«İttihad» partiyasının nümayəndəsi kimi Müsavat parlamentinin pullu üzvü olmuşam. «İttihad» partiyasından orada 11-12 üzv var idi. Parlamentdə bizim «İttihad» partiyası sağ istiqamətli partiya idi və o sistematik olaraq iqtidar kimi «Müsavat» partiyasının əleyhinə çıxış edirdi.

Bunun da əsas səbəbi o idi ki, Müsavat partiyası İrana meyl göstərirdi və inqilabdan qabaq Azərbaycana müstəqillik tələb edirdi.

**Sual:** Hansı rayonlarda İttihad təşkilatı fəaliyyət göstərirdi və onları kim yaratmışdı?

**Cavab:** İtihat təşkilatı Göyçay, Quba, Şamaxı rayonlarında mənim təşəbbüsümlə yaranmışdı. Azərbaycanda bu təşkilatın neçə nəfər üzvü olduğunu deyə bilmərəm, ancaq qeyd etməliyəm ki, «Müsavat» partiyasına nisbətən olduqca az idi.

... **Sual:** Siz deyirsiniz ki, sovetləşmədən sonra İttihat təşkilatının üzvü olmamısınız. Biz buna inanmırıq. Siz nəyinki bu təşkilatın üzvü olmusunuz, hətta bu təşkilatda rəhbər vəzifədə olmusunuz. Bunu boynunuza alırsınızmı?

**Cavab:** Mən bir də elan edirəm ki, sovetləşmədən sonra «İttihad» təşkilatının üzvü olmamışam.

Kiçik bir haşiyə çıxıb S.M.Qənizadənin ifadəsində göstərdiyi Azərbaycan parlamentində «İttihad» partiyasından 11-12 nəfər üzv olması fikrini dəqiqləşdirmək istərdik. 1918-ci ildə yaradılmış ilk Azərbaycan parramentinə cəmi 120 nəfər millət vəkili seçilməli idi. Lakin parlament 120 deyil, 85 nəfərdən ibarət yaradıldı. Bu barədə M.Ə.Rəsulzadə yazırdı: «Məclisi məbusan 85 məbusdan ibarət idi. Bundan 10-u erməni, 5-i rus, 5-i də müxtəlif millətlərdən

olmaq üzrə 20-si qeyri-müsəlman olub, mütəbat 65-i islam və tamamilə türk idi. Firqə etibarı ilə məclis bu surətlə təmsil olunmuşdu. Müsavat firqəsi - 27, Müsavata qoşulan bitərəf qrup - 6, İttihad firqəsi - 11, Sosialist bloku - 11, Əhrar firqəsi - 7, Müstəqil fikirlilər - 3».

İkinci dindirmə zamanı S.M.Qənizadə daha çox müsəlman xalqlarını birləşdirilməsində fəal iştirakına və tanınmış jurnalist, «Tərcüman» qəzetinin redaktoru Qasprinski ilə Şərq xalqları arasında apardığı təbliğata görə ittiham edilirdi:

**Sual:** İstintaqa məlumdur ki, siz tanınmış pantürkist Qaspirinski ilə Şərqdə hər yeri gəzərək təbliğat aparmısınız ki, bütün müsəlmanlar birləşsinlər.

**Cavab:** Bu düzdür. Qaspirinski ilə biz üç gün Buxara əmirliyində olmuşuq və əmirlə cəmi yarım saat söhbət etmişik. Yadımda deyil ki, Qaspirinski çarın əleyhinə, yoxsa lehinə danışıb. Ora getməkdə məqsəd müsəlman xalqlarının birləşməsi məsələsi deyildi. Mən şəxsən Buxara əmirliyinin yanında Qaspirinski ilə görüşmüşəm.

**Sual:** Siz bi çox şahidlərin ifadələrinə əsasən necə bir əksinqilabçı, ittihadçı kimi təsdiq olunmusunuz. Amma buna baxmayaraq siz təslim olmamısınız. Əks təqdirdə Sovet hökumətinin düşməni kimi qalırsınız.

«Sovet hökumətinin düşməni kimi» qalan Sultan Məcid Qənizadəyə əksinqilabi millətçi olduğunu, silahlı üsyan mövqeyində durduğunu sübut etmək istəyirdilər. Ona görə də tez-tez ayrı-ayrı həbs edilənlərin ifadələrindən oxunan parçalarla, eləcə də ayrı ayrı şəxslərlə üzləşmələrlə onu təslim olmağa çağırırdılar və hər dəfə eyni ca-

vabı alırdılar. İfadələrdən aydın olur ki, Qənizadənin mənsub olduğu «İttihad» təşkilatının əsas məqsəd və məramı gəncləri millətçi ruhda tərbiyə etmək, Almaniyada, Türkiyədə, Pakistanda, Fransada və s. yaşayan emiqrantlarla iş aparmaq, Sovet hökuməti ilə mübarizə mövqeyində dayanmaqdır.

Üzləşmə zamanı Qəniyev yenə də Sovet hökuməti qurulduqdan sonra heç bir əksinqilabi millətçi təşkilata rəhbərlik etmədiyini bildirmiş və qeyd etmişdir ki, o, özünü günahkar hesab etmir. Müstəntiqlər üçün isə o, günahkardı və ittiham olunmalı idi. «Günahkar» olduğuna görə də heç bir məhkəmə olmadan onun barəsində Az.SSR XDİK üçlüyünün 14 mart 1938-ci il iclasında aşağıdakı kimi qərar qəbul edildi:

**EŞİDİLDİ:** 10207 №-li istintaq işi, 1868-ci ildə doğulmuş, bitərəf Sultan Məcid Qəniyev.

**QƏRARA ALIHDI:** S.M.Qəniyev pantürkist olduğuna, mədəniyyət cəbhəsində ziyanverici iş apardığına, silahlı üsyan mövqeyində dayandığına görə güllələnsin və əmlakı müsadirə edilsin. Üçlüyün katibi Savçenko.

Bu günədək ədəbiyyat tarixlərində, eləcə də tədqiqiat əsərlərində S.M.Qəniyevin ölüm tarixi 1942-ci il kimi qeyd edilmişdir ki, bu doğru deyildir. Bu yanlışlıq da təbii ki, Xalq Daxili İşlər Komitəsinin əməkdaşlarının siyasi repressiyayalara məruz qalanların hətta ölümləri barədə də düzgün məlumat verməmələri ilə bağlıdır. Bunu nəzərə alaraq istintaq işində olan 69 №-li aktdan çıxarışı olduğu kimi təqdim edirik:

Sledstvennoe delo № 10207

## VIPİSKA İZ AKTA

Postanovleniem Osoboy Troyki NKVD Az.SSR ot 14 marta 1938 q. o rasstrele Qanieva Sultan Medcid Qadcı Mursal oqlı, 1868 qoda rojdeniya.

Privedeno v ispolnenie v noç s 21 na 22 marta 1938 qoda[197].

Beləliklə, Azərbaycanın görkəmli elm və maarif adamlarından biri də beləcə öldürüldü.

29 oktyabr 1956-cı ildə Azərbaycan SSR Ali Məhkəməsinin cinayət işləri üzrə məhkəmə Kollegiyası işə yenidən baxmış və S.M.Qənizadəyə bəraət vermişdir.

Bu faktlar bir daha göstərir ki, sovet cəmiyyətinin milli və dini dəyərlərə qarşı yönəldilmiş siyasəti möhkəm iradə və əqidə sahiblərinin heysiyyatına toxunmuş və ona mane olmağa çalışmışlar.

Dinə qarşı mübarizə elə kəskin kompaniyaya çevrilmişdi ki, 1929-cu ilin yazında Azərbaycan mətbuatının milli iftixarı olan «Molla Nəsrəddin» jurnalını daha «mübariz» jurnalla əvəz etmək ideyası ortaya atıldı.

«Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım» xitabı ilə ədəbi həyata atılan və Molla Nəsrəddin ədəbi məktəbini yaradan Cəlil Məmmədquluzadə, eləcə də onun nəşr etdiyi jurnal da dini və din xadimlərini ifşa etməməkdə günahlandırıldı.

[197] MTN-in arxivi. M.B.Biriyanın istintaq qovluğu, PR - № 42268.

Məlum həqiqətdir ki, 1922-ci ildə «Molla Nəsrəddin»i İrandan Bakıya Azərbaycan hökumət özü dəvət etdi.

Məramı və məqsədi xalqa xidmət etmək olan Mirzə Cəlil bu dəvəti qəbul etdi və Bakıya gəldi. Beləliklə, Cəlil Məmmədquluzadənin həyatında yeni bir mərhələ başladı: «C.Məmmədquluzadənin həyatında sovet dövrü öz xarakterinə görə yeni mərhələdir. Bu, ictimai-siyasi gedişatdan asılı olaraq bir müddət ümid və inamla, qaynar fəaliyyətlə, sonra isə tədricən şübhə və sarsıntılarla, ziddiyyətlərlə şərtlənən xüsusi bir tarixi dövrdür. Göstərilən mərhələ Mirzə Cəlilin həyatı və mübarizəsinin yekunu, dramatik finalıdır. Ədib illər uzunu uğrunda çalışdığı amallara heç olmazsa Sovet dövründə çatmağa can atmışdır. Lakin çox keçmədən, cəmi beş-altı illik ümid qığılcımlı günlərdən sonra bu axırıncı gümanın da lazımi səviyyədə reallaşa bilməyəcəyi ona bəlli olmuşdu»[198].

İşıq üzü görəndən hakim dairələri narahat edən jurnal burada da müsbət qarşılanmadı və bir müddətdən sonra tənqid hədəfinə çevrildi. «Tənqidçilər» Mirzə Cəlili daha çox «günün tələblərinə cavab verməməkdə», «əski ruh və köhnə ənənələri təkrar etməkdə», «jurnalı şəxsi orqanına» çevirməkdə ittiham edirdilər. «Molla Nəsrəddin» məcmuəsini islah etməli və bu günün təlabatına cavab verə biləcək bir şəklə salmalıyız» məqaləsinin müəllifi jurnaldan aşağıdakıları tələb edirdi: 1. «Molla Nəsrəddin» jurnalı allahsızlar ittifaqının orqanı olsun, 2. Məcmuənin ətrafına

---

[198] İsa Həbibbəyli. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri, Bakı, 1997, səh. 384.

proletar yazıçılar toplansın, 3. Məcmuənin əski karikatura və üslubu tamamilə dəyişdirilsin və s. Eyni fikri İ.Dubinski «Dinlə mübarizə cəbhəsində» adlı məqaləsində bir qədər başqa şəkildə ifadə edirdi: «...Şuralar Azərbaycanında liberal və azad fikirli «Molla Nəsrəddin» məcmuəsi nəşr olunur. Məcmuənin nəşri üçün kifayət qədər vəsait buraxılır. Lakin bu məcmuə əsil həqiqətdə öz redaktorunun orqanıdır.

Elə güman edirik ki, bu keyfiyyətə nəhayət veriləcək və nəticə etibarı ilə mübariz allahsız işçi sinfinin öz məcmuəsi, orqanı düzələcəkdir»[199].

İ.Dubinski əvvəlki müəllifdən fərqli olaraq Mirzə Cəlili həm də dövlət mülkiyyətinə çevrilməməkdə, müstəqil olmaqda təqsirləndirirdi. Bütün bu təzyiqlərə baxmayaraq jurnal əvvəlki məramına uyğun fəaliyyət göstərirdi. Hətta xarici ölkələrdə gedən proseslərə öz münasibətini bildirməkdən də çəkinmir, başqa sözlə, öz məslək və əqidəsinə sadiq qalmağa çalışırdı.

«Molla Nəsrəddin»in xarici dövlətlərin həyatından bəhs edən yazıları həmin dövlətlərin səlahiyyətli nümayəndələri tərəfindən ikrah hissi ilə qarşılanır. Mirzə Cəlilin İran həyatından, xüsusilə də Rza şahdan bəhs edən felyeton, karikatura, məqalə və digər yazıları İranın hökumət dairələri arasında narazılıqla qarşılandığından 1926-cı ildə respublika hökuməti qərar çıxarmışdır: «Qarayaev yoldaş

---

[199] Dubinski İ. Dinlə mübarizə cəbhəsində, «İnqilab və mədəniyyət» jurnalı, 1930, № 1.

redaktor ilə danışıb jurnalın İran hökumətinə, nisbətən, xüsusilə, Rza şaha qarşı tutduğu mövqeyi yumşaltsın».

İttiham edilən təkcə «Molla Nəsrəddin» olmadı, eyni zamanda Mirzə Cəlillə Bakıya qayıdan və Kəhrizlidə məskunlaşan həyat yoldaşı Həmidə xanım və onun yaxın qohumları da təqiblərə məruz qaldılar. Kəhrizlidə ona qarşı yönəldilmiş təqiblərə dözə bilməyən Həmidə xanım Mirzə Cəlilə ünvanladığı məktubunda yazırdı: «Cəlil. Hər şeyi atıb şəhərə köçməyə ürəyim gəlmir. Burada dözülməz, ağır şərait yaranmışdır. Burada bir neçə idarə vardır, biri o birinin qərarını rədd edir, camaatı bir-birinin canına salırlar. Lap hərc-mərclikdir»[200].

İctimai-siyasi həyatda baş verən hərc-mərclikləri, keçmiş bəy nəslindən olanlara bugünkü münasibəti yaxşı görən C.Məmmədquluzadə Həmimdə xanıma Bakıya qayıtmağı məsləhət görürdü: «Əziz Həmidə... Burada Mərkəzi Komitədə qərar çıxarılmışdır ki, keçmiş mülkədarların bütün torpaqları alınsın... Bununla səni xəbərdar etmək istəyirəm ki, dedi-qoduya yol verməmək üçün torpaq şöbəsindən yer götürmə, fərqi yoxdur sənin xeyirxah niyyətlərin axırda pis qələmə veriləcəkdir.

Səndən acizanə xahiş edirəm ki, Bakıya köçməyi birdəfəlik qərara alasan. Burada sən həm uşaqların tərbiyəsi ilə məşğul olarsan, həm də istəsən, mənim işlərimə kömək edərsən»[201].

---

[200] Sabir Gəncəli. İşıqlı ömrlər, kövrək talelər. Bakı, 1991, səh. 65.
[201] Sabir Gəncəli. İşıqlı ömrlər, kövrək talelər. Bakı, 1991, səh. 66.

Mirzə Cəlilə və onun ailəsinə, eləcə də qohumlarına qarşı yönəlmiş təzyiqlər onu sarsıtsa, mənəvi əzab versə də mövqeyindən döndərmirdi. "Qələmin müqəddəs vəzivəsi xalqa xidmətdir" – deyən Mirzə Cəlil öz məsləkinə sədaqətini bu ağır günlərində də qoruyub saxlayır, təqib və təzyiqlərə boyun əymirdi.

Mirzə Cəlilin mövqeyi dəyişmədikcə ona qarşı təzyiqlər də güclənirdi. Hətta elə bir vəziyyət yaradıldı ki, Mirzə Cəlil jurnalı bağlayıb təqaüdlə dolanmaq, gününü birtəhər keçirmək qərarına gəldi. O, M.S.Ordubadiyə yazırdı: «Mənim qəti qərarım budur ki, dəxi «Molla Nəsrəddin» jurnalını çıxarmaqdan bilmərrə əl çəkmək, evdə oturmaq və hökumətimizdən 5-10 manat pensiya istəmək ki, elə bilirəm, ona bəlkə haqqım da ola. Pensiya da olmasa bir özgə mənbədən bir müxtəsər xərclik axtarmaq».

Geniş oxucu kütləsinin «Molla Nəsrəddin» adı ilə tanıdığı jurnalın adını birdən-birə dəyişdirib «Allahsız» qoymaq istəyirdilər. Bu haqsızlığa etiraz edən Cəlil Məmmədquluzadə Mərkəzi Komitənin katibliyinə yazdığı məktubda jurnalın «Allahsız» adlandırılmasına etirazını bildirir və xahiş edirdi ki, onun keçmiş xidmətlərini nəzərə alaraq jurnalın davamına icazə versinlər[202]. Mirzə Cəlilin ciddi cəhdlərinə baxmayaraq jurnalı və jurnalın Allahsızlar İttifaqının orqanı kimi ilk nömrəsi 1931-ci ilin avqust ayında çap edildi. Bundan bir neçə ay sonra - 1932-ci il yanvarın 4-də Mirzə Cəlil beyninə qan sızdığından dünyasını dəyişdi. Azərbaycanın görkəmli simalarından olan Cəlil Məm-

202 Məmmədli Q. «Molla Nəsrəddin» salnaməsi, Bakı, 1966, səh. 539.

mədquluzadə də 30-cu illərin repressiya burulğanından yaxa qurtara bilmədi. 30-cu illərin necə amansız olduğunu onun 1930-cu ildə ömür gün yoldaşı Həmidə xanıma yazdığı məktubdan da görmək olar. O yazırdı: «İndi elə bir zaman gəlmişdir ki, qəpikləri sayanda da ehtiyatlı olmaq lazımdır».

Bu fikirdə 30-cu illərin real həqiqətləri və qarşıdan gələn təhlükənin izləri də görünür. Mirzə Cəlil qarşıdan gələn təhlükəni hiss edir və ailəsinə ehtiyatlı davranmağı məsləhət görürdü.

Deyilənlərdən aydın olur ki, Azərbaycan ədəbiyyatının və mədəniyyətinin 20-ci illərdə keçdiyi bu yol onu 30-cu illərin daha ciddi və daha sərt repressiyalarına aparırdı.

## 4. Teatr ittihamları

20-50-ci illərdə Azərbaycan teatr sənətində müəyyən irəlləyişlər, uğurlar, böyük və qüdrətli aktyor ansamblı, dövrü üçün müasir olan səhnə dekorasiyası yaransa da, teatr ilkin qaynağından, mifdən, folklordan, məzhəkədən, klassik ənənədən uzaq salındı. Sənətin başqa sahələrində olduğu kimi, teatrda da təbii inkişaf öz yerini bolşevik ədəbi təlimindən gələn inqilabi, ideyalı, sinfi sovet realizminə - «import» edilmiş saxta beynəlmiləlçiliyə verdi. Sovet teatrının da qlobal mənəvi inkişaf proqramının əsasını Marks-Engels-Lenin üçlüyünün simvolikləşdirilmiş başları təşkil etdi. Teatr afişaları kimi, hər yeri bəzəyən və gəzən bu simvolik başlar fərdlərin və cəmiyyətlərin deyil, bütövlükdə bəşəriyyətin əvəzindən düşünən, təbiət və cə-

miyyətin inkişaf istiqamətlərini müəyyənləşdirən düşüncə tərzi kimi təbliğ olunur və bəşəriyyətə təqlid edilirdi ki, Marks, Engels, Leninin baxışlar sistemindən kənarda heç nə mövcud deyil. Bəşəriyyətin inkişaf modelini bu üç baş hazırlamışdır və bunların düşüncə tərzinə müdaxilə etmək, eləcə də bunlardan fərqli fikir söyləmək, bu platformadan kənara çıxmaq mürtəce, millətçi, antisovet... olmaqdan başqa bir şey deyil. Bütün elm sahələri kimi teatrın da pərdəsi bu üç simvolik başın işığında qalxmalı və enməli idi. Bolşevik «Tənqid-təbliğ» teatrı da ilk pərdəsini iki sistemi, iki epoxanı, iki quruluşu, iki mənəvi-əxlaqi burjua-bolşevik dünyagörüşü, iki qəhrəmanı - «qırmızı» Cahangir və Əmiraslan ağanı üz-üzə qoyan Süleyman Sani Axundovun «Laçın yuvası» ilə açılır, «Aprel çevrilişi» xalqın faciəsi kimi yox, «kommunist cənnəti» kimi təbliğ və təqdir olunurdu: «Ədibin seçdiyi dramatik münaqişədə iki dünyanın, iki epoxanın, iki nəslin təmsil etdiyi iki əxlaqi dəyərlər qütbü üz-üzə gəlir. Ölüm - həyat savaşında gerçəkləşən faciənin tragik-fəlsəfi qəhrəmanı, dramatik düyünün həqiqi hədəfi «qırmızı» Cahangir yox, ağsaqqal, ağsaçlı Əmiraslan ağa və onun məskən saldığı qartal qalası, laçın yuvası olur. «Sosialist realizmi» deyilən dövrün ehkamçı, sxolast tənqid, nəşr, tədris təcrübəsində bu vaxta qədər bu əsərin nəinki şərhi, üstəlik, həm də nəşri, mətni təhriflərə məruz qalmış, faciənin ideyası birtərəfli, məhdud, total «vahid axın» mövqeyindən təfsir edilmişdir. Halbuki, əsərdə müəllif məhz sixemdən və şablondan qaçır, özü də bədii uğura dəqiq detalda, təfərrüatlı psixologizmdə yox, epik əhatə və vüsətdə, açıq, sərbəst drama-

turji düşüncədə nail olur və tarixi keçid dövrünün ilk klassik dramını yaradır»[203].

Ümumiyyətlə, 20-50-ci illərdə Azərbaycan ədəbiyyatının yaşadığı taleyi, bütövlükdə incəsənət, o cümlədən teatr da yaşayırdı. Bunun əsas səbəbi milli teatrın da sənət əsərləri kimi kütləvi və güclü təsirə malik olması idi.

Teatr sənətinin inkişafı və tərəqqisi həmin dövrdə ciddi bir məsələ kimi ortaya atılsa da, sənətin bu sahəsi də marksist-leninçi platformaya uyğunlaşdırılır və yeni cəmiyyətin təbliğatçısı rolunu oynayırdı.

Belə ki, C.Cabbarlının «Od gəlini» əsərinin qəhrəmanı Elxan 20-ci illərin sonunda «Mənəm allah!» nidasını millətə səhnədən elan etdi. Sevil geriliyinin səbəblərini çadrada gördü və öz çadrasını səhnədə atdı. Bolşeviklərin qolçamaq və qolçamaqquyruğu adlandırdıqları qüvvələrə də ilk zərbə səhnədə dəydi. Millətə kollektivləşmənin məqsəd və məramı da rəsmi sənədlərdən daha anlaşıqlı dillə səhnədən teatr dili ilə çatdırıldı. Və beləliklə də, teatr və səhnə müəyyən mənada marksist-leninçi ideyaların (bu ideyalar milli ənənədən və milli düşüncədən də xali deyildi) ruporuna çevrildi.

20-50-ci illərdə yeni teatrların açılmasına baxmayaraq onların repertuarları dövlətin tam nəzarətində idi və o əsərlər tamaşaya qoyulurdu ki, həmin əsərlərdə sosialist inqilabı ilə ilişkili nəsə var, eləcə də həmin əsərlərdə dinin, bir sözlə keçmişin tənqidi qabarıq qoyulub. «Kommunist

[203] Yaşar Qarayev. Tarix: yaxından və uzaqdan, Bakı, «Sabah», 1996, səh. 483-484.

partiyası və sovet hökumətinin tədbirləri sayəsində çox keçmədən səhnə xalqın mənəvi tələblərinə, ideya-estetik tərbiyəsinə xidmət edən qüdrətli vasitəyə çevrildi. Azərbaycanlıların tarixinə, ənənəsinə, milli qüruruna yad olan, dini xurafatı, devrilmiş hakim siniflərin ideologiyasını təbliğ edən əsərlər səhnədən çıxarıldı; onların yerinə Sovet varlığını, yeni həyat quruculuğunu əks etdirən zəhmətkeş xalqın mənəvi-estetik yüksəlişinə kömək edən sağlam ideyalı əsərlər tuturdu»[204].

Teatrlarda klassiklərin əsərlərinə müraciət edilərkən bir çox hallarda əsərin ümumi ideyası unudulur, yersiz rejissor müdaxiləsi, yenilik xatirinə müasirləşdirmə prosesi gedirdi. Belə ki, «Hacı Qara» komediyasında müsbət planda verilmiş çar məmurları mənfi, nökər obrazı isə tam müsbət planda, ən şüurlu insan kimi təqdim edilirdi. Ə.Şərif haqlı olaraq yazırdı: «Rza Təhmasib «Hacı Qara» komediyasını geniş ictimai planda götürüb onun hər cəhətdən dolğun, canlı səhnə tamaşasını verdi. Mirzə Fətalinin yaratdığı surətlərin çoxunu səhnədə canlandırdı. Bu surətlərdən səhnə taleyi ən uğursuz olan Kərəməlini şüurlu bir insan kimi verdi, Hacı qaranı, bəyləri, Sona xanımı, erməni kəndlilərini realistcəsinə yaratdı. Beləliklə, «Hacı Qara» pyesini səhnədə geniş aspektdə canlandırdı, ancaq Mirzə Fətəlinin müsbət planda göstərdiyi çar məmurlarını, adi insan və mənsəb sahibləri yox, özü istədiyi kimi canavar və yırtıcı surətində verdiyi üçün onun səhnə əsəri

---

[204] Qulam Məmmədli. «Azərbaycan teatrının salnaməsi» (2-ci hissə. 1920-1930-cu illər), Bakı, «Yazıçı», 1983, səh. 3-4.

öz canlılığını, realistliyini itirdi: Mirzə Fətəlinin böyük əsəri bu yamağı qəbul eləmədi»[205].

Rejissorun və hətta aktyorun əsərə müdaxiləsi təbii bir haldır. Lakin o müdaxilələr müəllifin ideyalarına xələl gətirməməli, əsərin daha güclü səslənməsinə səbəb olmalıdır. Başqa sözlə, klassik əsərə müraciət edilərkən zamandan və ictimai-siyasi quruluşdan asılı olmayaraq, həmin əsər hər hansı bir sinfin ideologiyasına xidmətə yönəldilməməlidir. «Hacı Qara»dakı bu cür yanaşma və müdaxilə üsulu hər şeydən öncə çar rejiminə və proletariatın keçmiş nümayəndələrinə münasibətdən doğurdu. Guya çar zamanında bütün məmurlar qan içən, kasıblar isə ağıllı, mərd, mübariz olmuşlar. Doğrudur, əsərdə Kərəməli mənfi obraz kimi verilmir, eyni zamanda, müəllif onu yüksək şüura malik bir insan (ağıl dəryası) kimi də təqdim etməmişdir.

Başqa bir mühüm cəhətə diqqət yetirək. Faktlar göstərir ki, həmin illərdə teatrlarda repertuar məsələlərində bir çox hallarda teatr sənətindən heç bir xəbəri olmayan fəhlələr də iştirak edirdilər. Təəccüb doğuran odur ki, bu halın özü dövri mətbuatda müsbət bir hadisə kimi qiymətləndirilirdi: «...İstehsalçı fəhlələr, əvvəllər tez-tez müşahidə edildiyi kimi, susub oturan adamlar deyil, teatrın istiqamətini müəyyənləşdirən və onun bütün fəaliyyətinə nəzarət edən fəal iştirakçılardır. İstehsalatçı fəhlələr bu və ya digər pyesin müzakirəsində iştirak etməkdən əlavə, mübahisəli pyesləri öz istehsalatlarının teatr həvəskarları olan

---

205 Əziz Şərif. Tapıntılar. Bakı, «Yazıçı», 1987, səh. 59.

fəhlələr arasında qabaqcadan müzakirə edib, onların əhvali-ruhiyyəsini də nəzərə alaraq, həmin pyeslər barədə özləri məruzə edirlər»[206].

İntellektual səviyyəyə malik olmayan və teatr sənətinin sirlərinə bu və ya digər dərəcədə yiyələnməyən «teatr həvəskarı olan fəhlələrin» belə bir ciddi məsələdə iştirakı və müdaxiləsi Azərbaycan teatr sənətinə zərbələr vururdu. Belə ki, repertuarlara daha çox rus və ya həmin dildən tərcümə edilmiş əsərlər daxil edilirdi. Psixologiya məsələlərini anlamayan fəhlələr həmin əsərlərin fərqinə varmadığından rus psixologiyası (yad xarakter) səhnə vasitəsilə Azərbaycan məişətinə daxil olurdu.

Milli mütəxəssislərin teatr işinə başçılıq etməməsi bir tərəfdən kadr çatışmamazlığından irəli gəlirdisə, digər tərəfdən imperiyanın maraqlarından doğur, milli hislərin öldürülməsinə xidmətə yönəldilirdi. Müşahidə edilən bu hal təkcə teatr sahəsində deyil, eləcə də incəsənətin başqa sahələrində özünü qabarıq şəkildə göstərirdi. Vaxtı ilə qeyri millətdən olan şəxslərin türk həyatından film çəkmələrinə etiraz edən böyük dramaturq Cəfər Cabbarlı yazırdı: «Hazırda Azərkino öz işini kökündən dəyişmək və türk işçilərinə müraciət edərək türk həyatı, mühiti ilə tanış olmayan, işçilərdən yaxa qurtarmaq əvəzinə tamamilə başqa bir istiqamət götürmüşdür, yəni öz iş sistemində elə dəyişikliklər etmişdir ki, indi Rusiya, rus kəndlilərinin həyatından filmlər çəkməyə cəhd göstərir. Əgər türk olmayan işçilər türk

---

[206] Cəfər Cabbarlı. «Ədirnə fəthi», Bakı, «Elm», 1996, səh. 275.

həyatını çəkə bilmirlərsə, çəkməsinlər, heç bu işə girişmək də lazım deyil»[207].

C.Cabbarlı «Birinci komsomolçu» və «Rusiya məhv oldu» filminin çəkilişi zamanı milli kadrların cəlb edilməməsini, aktyorların başqa yerlərdən dəvət edilməsini tənqid edir və göstərirdi: «...Aktyorlar da Leninqraddan, Odessadan, Azərbaycan və Bakıdan başqa SSRİ-nin hər yerindən dəvət olunublar. Çəkilişə hazırlanan «Rusiya məhv oldu» filmində isə, işə hətta bir nəfər bakılının cəlb edilməsinə baxmayaraq, rahatlıq və asanlıq naminə türk həyatından da, kəndindən də imtina edilib»[208].

Əslində bir filmin çəkilişinə yüz minlərlə pul xərclənməsinə baxmayaraq (bu pullar Azərkinonun büdcəsindən çıxırdı - C.Q) həmin filmlər Azərbaycan həyatından bəhs etmirdi. Bundan başqa yerli kadrların hazırlanması işi də olduqca zəif təşkil olunmuşdu: «Düzdür, planda hər il Azərkinonun əməkdaşlarının sayının artması nəzərdə tutulub. Lakin burada türklərin cəlb edilməsi barədə bir kəlmə də deyilmir. İşçilərin dəvət olunması ifadəsinin Azərkino rəhbərlərinin lekskonunda hansı mənanı verdiyini isə biz öz acı təcrübəmizdən çox yaxşı bilirik. Belə ki, ya tamamilə qocalıb iş qabiliyyətlərini itirmiş adamlar, ya da təzəcə işə başlayan və hələ uzunmüddətli təhsilə və təcrübəyə ehtiyacları olan gənclər - elə məhz bu səbəblərə görə boş qalmış və başqa heç bir kino təşkilatı tərəfindən qəbul edilməmiş ən müxtəlif çeşidli keçici elementlər dəvət olu-

---

[207] Cəfər Cabbarlı. «Ədirnə fəthi», Bakı, «Elm», 1996, səh. 275.

[208] Cəfər Cabbarlı. «Ədirnə fəthi», Bakı, «Elm», 1996, səh. 275.

nurlar. Birincilər bir müddət maaş alaraq başlarını girləyirlər və nəhayət, heç bir iş görmədən çıxıb gedirlər. İkincilər də bizdə müəyyən təcrübə keçdikdən sonra işləmək üçün öz yerlərinə qayıdırlar»[209].

Milli kadrlara az yer verilməsi ideoloji sahədə düşünülmüş surətdə həyata keçirilən ruslaşdırma siyasəti idi. C.Cabbarlı yazırdı: «Azərkinonun rəhbərlərinə sual verəndə: nə üçün Sizdə, fabrikin nəzdində yerləşən mətbəədə dörd mürəttibdən (özü də onların ikisi yenicə işə götürülüb) biri də türk deyil və türk yazıları bu dili bilməyənlər tərəfindən elə təhrif olunur ki, «gözəl qızlar» - «gözəl qozlar» kimi yazılır, onlar cavab verirlər ki, türk mürəttibləri yoxdur, burada isə türk mürəttibi özü üçün gəzir və nərd oynayır. Soruşanda ki, nə üçün Sizdə türk qadını rolunda türk qadını çəkilmir, dedilər türk qadınları yoxdur. Lakin elə buradaca fabrikdə türk qadını Orucova (Azərkinonun türk olmayan 125 işçisinin içərisindən həmin 8-9 türkdən biri, gözəl aktrisa) makinaçı işləyir. Kişi rollarına aktyorlar nə üçün Moskvadan, Leninqraddan, Xarkovdan dəvət olunur sualına isə heç kəs aydın cavab verə bilmir və direktor rejissorun, rejissor operatorun üstünə yıxır və s»[210].

Göründüyü kimi, sənətdə milliliyi öldürmək üçün milli kadrlara yer verilmir, eyni zamanda, teatrın aktyorları yeni cəmiyyətin təbliğatçılarına çevrilmədikdə kəskin tənqid edilir və əksinqilabçı millətçi kimi təqiblərə məruz qalırdılar. Azərbaycan teatrının ən görkəmli nümayəndələ-

[209] Cəfər Cabbarlı. «Ədirnə fəthi», Bakı, «Elm», 1996, səh. 275.
[210] Cəfər Cabbarlı. «Ədirnə fəthi», Bakı, «Elm», 1996, səh. 275.

rindən olan Ələkbər Seyfi, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb Şaşıqzadə, Kazım Ziya Kazımzadə və başqaları belələrindən idi. Qulam Məmmədli bolşevikləşməyə qədərki teatrlardan bəhs edərkən öz müasirləri kimi üstünlüyü tam mənada yeni dövrə verir, 20-ci illərə qədər teatr xadimlərinin təqib olunmaları barədə danışsa da, sovetləşmə illərindəki repressiyalardan, həbs, sürgün və güllələnmələrdən geniş məlumata malik olsa da bəhs etmir. Daha doğrusu, ona, eləcə də digər qələm sahiblərinə bu barədə danışmaq və yazmaq yasaq edilir. O yazırdı: «...Hüseyn Ərəblinski, Cahangir Zeynalov, Əbülfət Vəli, Mirzağa Əliyev kimi böyük istedad sahibi olan fədakar səhnə xadimləri teatrı irticaçı, köhnəpərəst zümrələrin tabeçiliyindən qurtarmaq, onu xalqa xidmət edən sənət tribunasına çevirmək istədikdə sürgün edilir (Mirzəağa Əliyev), öldürülür (Hüseyn Ərəblinski), baxımsız qalıb ölüm yatağına düşür (Cahangir Zeynalov), nakam vəfat edirdilər (Əbülfət Vəli). Sağ qalanlar isə (Abbas Mirzə Şərifzadə, Sidqi Ruhulla, Mustafa Mərdanov və başqaları) qastrollarda həyat keçirməyə məcbur olurdular»[211].

Keçmişin ifşası üçün cəhalət və nadanlığın qurbanı olanlar da (Hüseyn Ərəblinski), evində nakam ölənlər də (Əbülfət Vəli) o dövrün eybəcərliyi adlandırılırdı. Lakin adları çəkilən Əli Kərimovun, Əhməd Triniçin, Abbas Mirzə Şərifzadənin, Ülvi Rəcəbin, Ələkbər Seyfinin güllələnməsi, Kazım Ziyanın həbs edilərək mənəvi iztirablar

---

[211] Qulam Məmmədli. «Azərbaycan teatrının salnaməsi» (2-ci hissə. 1920-1930-cu illər), Bakı, «Yazıçı», 1983, səh. 3-4.

çəkməsi və onlarca başqalarının müxtəlif cür təqib və təzyiqlərə məruz qalması, sürgün edilməsi faktının üzərindən sükütla keçirdilər. Daha doğrusu, bütün bunlar haqqında danışmağı total rejim yasaq etmişdi.

Milli hiss və duyğuların oyuncağa çevrildiyi bir dövrdə buna etiraz edən və ya Azərbaycanda sənətin milliləşməsinə səy göstərən şəxslər 30-cu illərdə təhlükəsizlik orqanları tərəfindən həbs edildi. Bunlar arasında teatr xadimləri də az deyildi. 30-cu illərdə həbs olunanların və XDİK əməkdaşlarının dilində Abbas Mirzə Şərifzadə və Ülvi Rəcəbin adları yanaşı hallanmağa başlayırdı.

Abbas Mirzə Şərifzadə və Ülvi Rəcəbin adları indi XDİK orqanlarının sənədlərində, Gerasimovların dərkənarlarında, vaxtı ilə teatr afişalarında da yanaşı işlənmişdir. Onlar Cəfər Cabbarlının «Od gəlini» əsərində tərəfmüqabil kimi Elxanı (Ü.Rəcəb) və Aqşini (A.M.Şərifzadə) oynamışlar. Maraqlıdır ki, bu personajların fəlsəfsi, baxışlar sistemi, ictimai-siyasi dünyagörüşləri və mənəvi-əxlaqi aləmləri özünün kulminasiya nöqtəsinə zindanda çatır və bütün bunlar zindan səhnəsində açılır. Cabbarlının yaratdığı zindanda vətəni yadların əlindən xilas etmək istəyən Elxan və Elxanı təslimçiliyə səsləyən Aqşin mələk və iblis kimi üz-üzə gəlir.

Elxan səhnədə öz doğma qardaşından imtina edir: «Artıq mənim qardaşım yoxdur. Mənim qardaşım, bax, bu qaranlıq zindanların bucaqlarında öz azadlığı uğrunda inləyən, çeynənən ərlər, bu qarşı meydanda öz diləkləri yolunda dar ağacından asılmış, daşqalaq edilmiş igidlər... əməkçilər, qul-

lar, bütün mənlikləri tapdanıb təhqir edilən zavallı insanlardır»[212].

Bunun qarşılığı kimi Aqşin Elxanı islamı qəbul etməyə, allahın varlığına inanmağa çağırır. Elxan isə ərəb-islam əsarətini rədd edir, azad yaşamaq istəyirdi. Səhnədə ərəb-islam əsarətini təbliğ və inkar edən Aqşin (Ü.Rəcəb) və Elxan (A.M.Şərifzadə) ictimai-siyasi həyatdakı rus-ateist əsarətindən də bixəbər deyildi. Elə ona görə də onların adları XDİK tərəfindən hallanırdı.

1937-ci il iyul ayının 22-də Azərbaycan Xalq Daxili İşlər Komissarının müavini Gerasimov tərəfindən şöbə müdiri Tsinmanın ünvanına belə bir sənəd göndərilir: «Yoldaş Tsinman! Yadımdadır ki, Əli Kərimovun ifadələrində Şərifovun, eləcə də Ülvinin adları çəkilir. Onlar təxirə salınmadan həbs edilməli və istintaqa cəlb olunmalıdırlar. İmza. Gerasimov»[213].

Araşdırmalar göstərir ki, 1937-ci il oktyabrın 13-də əksinqilabi millətçi kimi güllələnmiş Azərbaycan Dövlət Dram Teatrının müdiri Əli Kərimov heç vaxt belə ifadə verməmiş, əksinə o, 1937-ci il iyulun 23-26-da verdiyi ifadəsində müstəntiqin: «Artist Abbas Mirzə Şərifov əksinqilabi təşkilata daxil idimi?» - sualına belə cavab vermişdi: «Bunu rədd edirəm! Bir daha təkidlə deyirəm ki, Şərifov əksinqilabi millətçi təşkilata daxil olmayıb»[214].

Abbas Mirzə Şərifzadə də 1937-ci il dekabrın 31-də verdiyi ifadəsində Əli Kərimovla heç bir əlaqədə olmadığını bildirirdi:

---

[212] Məmməd Arif. Seçilmiş əsərləri, 3 clddə, II cild, Bakı, 1968, s. 107.
[213] MTN-in arxivi. A.M.Şərifzadənin istintaq qovluğu, PR - №16641.
[214] MTN-in arxivi. Əli Kərimovun istintaq qovluğu, PR - №12493.

«Sual: Əli Kərimovla münasibətiniz necə idi?

Cavab: Mənim onunla bircə dəfə ciddi söhbətim olub, o da Mövsüm Sənaninin teatrdakı mövqeyi haqqında idi. Həm də bu söhbət partkom Abdullayevin iştirakı ilə olub»[215].

Bu idi sovet demokratiyasının fəlsəfi əsası: kiminlə danışmağın, kiminlə hansı münasibətdə olmağın və yoldaşlıq etməyin haq-hesabını vermək zamanı gəlmişdi. Davranış və ünsiyyət mədəniyyəti sənət və peşəsinin əsasını təşkil edən aktyor və teatr xadimlərini ünsiyyətə görə ittiham etmək təkcə şəxsiyyətə deyil, həm də sənətə hörmətsizliyin ifadəsi idi.

Hələ sağlığında «səhnəmizin qəhrəmanı» adını qazanmış A.M.Şərifzadə haqqında həmin il dekabrın 3-də Azərbaycan SSR XDİK Dövlət Təhlükəsizliyi İdarəsi 3-cü bölməsinin rəis müavini baş leytenant Borisov aşağıdakı məzmunda bir arayış tərtib edir: «Şərifov Abbas Mirzə Rəsul oğlu, 1891-ci ildə anadan olub, azərbaycanlıdır. Azərbaycan Dövlət Dram Teatrının artistidir. Əldə edilmiş məlumatlara görə Şərifov Abbas Mirzə Rəsul oğlu bir xarici dövlətin xeyrinə casusluqda ifşa olunur.

Qeyd olunanlara əsasən Şərifov Abbas Mirzə Rəsul oğlu həbsə alınıb Azərbaycan SSR CM-nın 68-ci maddəsi ilə məsuliyyətə cəlb edilməlidir»[216].

Belə əmr cümlələri ilə danışmağa alışmış təhlükəsizlik orqanlarının müstəntiqləri bir çox hallarda müttəhimləri

---

[215] MTN-in arxivi. A.M.Şərifzadənin istintaq qovluğu, PR - №16641.
[216] Yenə orada.

azadlığa buraxacaqları barədə yalan vədlər verir, onlara nicatın yalnız «düzgün» ifadə verməkdə olduğunu bildirir və göstərirdilər ki, əgər müttəhimlər bu ifadələrə imza atarlarsa və ya belə bir ifadə verərlərsə rəhbərlik onları bağışlayacaqdır. Onlar yalan, hiylə, riyakarlıq və fiziki-mənəvi işgəncələrlə Ruhulla Axundovdan 1937-ci il iyulun 24-də belə bir ifadə almışdılar: «Şəxsən mən hesab edirdim ki, hər bir işi kadrların hazırlanmasından, yəni adamların cəlb edilməsindən başlamalıyıq. Təşkilata cəlb olunan şəxslər öz növbələrində bura digər şəxsləri cəlb etməlidirlər. Mənim tərəfimdən cəlb olunmuş Əli Kərimov (Azdramanın müdiri) öz növbəsində Abbas Mirzə Şərifovu və Mirzə Ağa Əliyevi təşkilata cəlb etmişdi»[217].

Əli Kərimovun 1937-ci il fevralın 19-21-də verdiyi ifadələrin stenoqramaları bu fikirlərin doğruluğunu şübhə altına alır. O, ifadəsində bildirirdi ki, mən əksinqilabi millətçi təşkilata Əhməd Triniç tərəfindən cəlb edilmişəm.

Bolşeviklər əksinqilabi millətçi damğası ilə müsavatçıları, ümumiyyətlə istənilən adamı məhv edə bilirdilər. 1937-ci il oktyabrın 11-də dindirilən Ruhulla Axundov belə müsavatçılardan aşağıdakı şəxslərin adını çəkir ki, onlar arasında Abbas Mirzə Şərifov da vardır: «Bakıdakı antisovet müsavat təşkilatının rəhbər üzvləri aşağıdakılar idi: Dövlət dumasının sabiq üzvü Məmməd Yusif Cəfərov, Yazıçılar İttifaqının üzvü Hüseyn Sadiq, şair Əhməd Cavad, yazıçı müsavatın İstanbuldakı konsulu Yusif Vəzirov, məşhur pantürkist şair Hüseyn Cavid. 1926-cı ildə şəxsən

---

[217] MTN-in arxivi. R.Axundovun istintaq qovluğu, PR - №16629.

mənim təşəbbüsümlə Mirzoyan və Qarayev onu xaricə müalicəyə göndərmişdilər; bədii texnikumdan Rəfibəyov, Novruz Ağayev, Əbdürrəhim Əşrəfov, Oruc Orucov, İsabəy Aşurbəyov, yazıçılar ittifaqından Atababa Musaxanlı; bəstəkar Üzeyir Hacıbəyov; xalq artistləri Mirzə Ağa Əliyev və Abbas Mirzə Şərifzadə»[218].

Bu faktlar əsasında XDİK 1937-ci il dekabrın 3-də Abbas Mirzə Şərifovun məsuliyyətə cəlb edilməsi haqqında qərar qəbul edir: «Mən Azərbaycan SSR XDİK DTİ-nin 3-cü şöbəsinin müvəkkili leytenant Kovricenko vətəndaş Şərifov Abbas Mirzənin bir xarici dövlətin xeyrinə casusluq işilə əlaqədar kifayət qədər ifşa olunduğunu nəzərə alaraq qərara gəldim: Abbas Mirzə Rəsul oğlu Şərifov Azərb.SSR CM-nin 68-ci maddəsi üzrə müttəhim sifətilə məsuliyyətə cəlb edilərək həbsə alınsın»[219].

Bu qərardan sonra həbs edilən, Şərifzadənin 1937-ci il dekabrın 9-da XDİK DTİ-nin 3-cü şöbəsi, 2-ci bölməsinin rəisi V.A.May tərəfindən ilk dindirməsi başlayır:

**Sual:** Sizin qohumlarınızdan xaricdə kim var?

**Cavab:** Qardaşım Qulamrza Şərifov Tehrandadır. O, Tehrana 1921-ci ildə mühacirət edib.

**Sual:** Son illərdə siz Azərbaycan SSR-də olan xarici konsulluqlara getmisinizmi?

**Cavab:** 1932-ci ildə mən Gəncədə olan İran konsulluğuna iki, ya üç dəfə getmişəm. O vaxt konsul Vafi idi. O

---

[218] MTN-in arxivi. R.Axundovun istintaq qovluğu, PR - №16629.

[219] MTN-in arxivi. A.M.Şərifzadənin istintaq qovluğu, PR - №16641.

demək olar ki, hər axşam bizim teatra gəlirdi, sonra isə artistləri qonaq çağırırdı. Bunların içində mən də var idim.

**Sual:** Vafi Bakıya köçəndən sonra siz onunla görüşmüsünüzmü?

**Cavab:** Bir dəfə mən ona küçədə rast gəldim. İkinci dəfə o mənə telefonla dedi ki, onun yanına qonaqlar gələcək və xahiş etdi ki, mən də gəlim. Mən razılıq vermədim. Bundan sonra daha onu görmədim və konsulluq məmurlarından heç kəsi tanımıram.

**Sual:** Bakıdakı türk konsulluğu məmurları ilə sizin münasibətiniz necə idi?

**Cavab:** Onlardan heç kəsi tanımıram. Nə indi, nə də keçmişdə[220].

Dindirmə zamanı İran və Türkiyənin adlarının tez-tez çəkilməsi pantürkizm və panislamizm amili ilə bağlı idi.

Yeri gəlmişkən qeyd edim ki, uzun illər anket doldurarkən «xaricdə qohumunuz varmı» sualı da elə-belə xarakter daşımırmış, bu çox ciddi və təhlükəli bir məsələdən soraq verirmiş.

1938-ci il fevralın 8-də Şərifov Abbas Mirzənin işi haqqında daha bir qərar çıxarılır: «Mən Az.SSR XDİK DTİ-nin 4-cü şöbə 2-ci bölməsinin müvəkkili H.Petrunin Azərb. SSR CM-nın 68-ci m. ilə məsuliyyətə cəlb olunan Şərifov Abbas Mirzə Rəsul oğlunun 6453 nömrəli cinayət işinə baxıb müəyyən etdim: İstintaq materiallarından göründüyü kimi müttəhim A.M.Şərifov əksinqilabi burjua-millətçi təşkilatının üzvüdür və buna görə də qərara gəldim:

---

[220] MTN-in arxivi. A.M.Şərifzadənin istintaq qovluğu, PR - №16641.

Müttəhim Şərifov Abbas Mirzə Rəsul oğlunun istintaq işi 10497 nömrəli ümumi işin tərkibinə daxil olunsun və bu barədə DTİ-nin 8-ci şöbəsinə xəbər verilsin».

İttihamnamədə göstərilirdi ki, Şərifov Abbas Mirzə Rəsul oğlu İran kəşfiyyat orqanlarının xeyrinə Mahmudov Mahmud Balaəmi oğlunu casusluğa cəlb etməkdə özünü müqəssir bildi. İran casusu Mahmudov Mahmudun ifadəsinə və onunla keçirilən üzləşməsinə görə Şərifov Abbas Mirzə Mahmudovu İran kəşfiyyatının xeyrinə casusluğa cəlb etməsində ifşa olunur. İran casusu, İran təbəəsi Əli Həsən Abbas oğlunun ifadələri və onunla keçirilən üzləşməsinə görə Şərifov Bakıdakı İran konsulu Pirnəzərlə əksinqilabi rabitədə ifşa olunur. Şərifov Əli Həsən Abbas oğlunun vasitəçiliyi ilə Pirnəzərdən gizli olaraq İrandan xarici qəzet və məktub alırdı.

İran kəşfiyyatçısı, Bakıdakı İran konsulluğunun keçmiş məsul işçisi Ərşadinin ifadələri ilə Şərifov Abbas Mirzə İstanbulda mühacirət etmiş keçmiş müsavat lideri olan öz qardaşı Şərifzadə Qulam Mirzə ilə və Bakıdakı İran konsulluğunun keçmiş konsul müavini Mövsüm xan Vafi ilə antisovet əlaqələri saxlayan əksinqilabçı millətçi kimi ifşa olunur.

Azərbaycan SSR-də olan millətçi antisovet təşkilatının rəhbəri olan Ruhulla Axundovun ifadələri ilə Şərifov Bakıdakı müsavat təşkilatının rəhbəri kimi ifşa edilir.

Əməliyyat məlumatlarından aydın olur ki, Abbas Mirzənin qardaşı, xaricdə olan müsavatçıların rəhbərlərindən biri olan Qulam Mirzə Şərifzadə, indi İranda, SSRİ-nin sər-

həddi yaxınlığında olub müsavatçı üsyançı dəstələri təşkil edir.

Deyilənlərə əsasən Şərifov Abbas Mirzə Rəsul oğlunu ittiham edən istintaq işi SSRİ XDİK-nin 00485 nömrəli əmrinə uyğun olaraq Üçlüyün baxılmasına təqdim olunsun».

Beləliklə, Az.SSR XDİK Xüsusi Üçlüyü 1938-ci il oktyabrın 19-da keçirilən iclasında qərara alır: «1891-ci ildə anadan olmuş, bitərəf Şərifov Abbas Mirzə Rəsul oğlu haqqında olan 10497 nömrəli istintaq işi. Qərara alındı: «Şərifov Abbas Mirzə Rəsul oğlu casusluq fəaliyyətinə görə güllələnsin, əmlakı müsadirə olunsun».

Azərbaycan SSR XDİK Xüsusi Üçlüyünün Şərifov Abbas Mirzə Rəsul oğlunun güllənməsi barədə qərarı 1938-ci il noyabrın 16-da yerinə yetirildi. Səhnədə həmişə tragik rollar oynayan Abbas Mirzə şərifzadənin öz ömrü də totalitar rejim dövründə tragik bir sonluqla başa çatdı.

20-ci illərdə Azərbaycan teatr həvəskarlarının afişalarda tez-tez rastlaşdığı adlardan biri də Ülvi Rəcəb idi. Tbilisi teatrında profesional səhnə fəaliyyətinə başlayan Ülvi Rəcəb 1925-ci ildə Azərbaycan Maarif Komissarlığının dəvəti ilə Bakıya gəlir və Azərbaycan Dövlət Dram Teatrında fəaliyyətə başlayır. Azərbaycan teatr tarixində özünəməxsus yeri və mövqeyi olan A.Tuqanov Ülvi Rəcəbdəki böyük istedadı görərək Hamlet rolunu ona tapşırır.

Şaşıqzadənin Hamlet rolu üzərindəki işi onun özünü tərənnümdən özünü təsdiqə keçdiyini sübut etdi. Demək olar ki, bu rolundan sonra onun da adı Azərbaycanın görkəmli aktyorları ilə bir sırada inamla çəkildi. Bundan sonra o, bir-birinin ardınca M.Qorkinin «Həyatın dibində»

(Satin), C.Cabbarlının «Od gəlini»ndə (Aqşin), «Dönüş»ündə (Qüdrət), «Sevil»ində (Balaş), «Yaşar»ında (Yaşar), «1905-ci ildə» (Eyvaz), A.Qlebovun «Zaqmuk»unda (Hingir-Sin), H.Cavidin «Knyaz»ında (Anton), «Şeyx Sənan»da (Şeyx Sənan), V.Hüqonun «Gülən adam»da (Huinplen), V.Şeksprin «Otello»sunda (Otello), C.Məmmədquluzadənin «Ölülər»ində (İskəndər), M.İbrahimovun «Həyat»ında (Süleyman) və s. əsərlərdə xarakterik obrazlar yaratdı.

Bu qədər xarakterlər tipajı yaradan Ü.Rəcəbin 1937-ci ildə bütün xidmətləri unudularaq «vətən xaini» adlandırıldı. Azərbaycan SSR XDİK DTİ-nin 4-cü şöbəsinin rəisi dövlət təhlükəsizliyi kapitanı Tsinmanın tərtib etdiyi arayışda göstərilirdi ki, «...tərəfimizdən həbs edilmiş əksinqilabi burjua millətçi təşkilatın üzvünün ifadəsinə görə, Ülvi Rəcəb Şaşıqzadə əksinqilabi burjua millətçi təşkilatın üzvüdür.

Göstərilənləri nəzərə alaraq, XDİK-ə nəzarət edən Az.XDİK DTİ-nin 8-ci şöbəsini və prokuroru xəbərdar etməklə Şaşıqzadə Ülvi Rəcəbi Az.SSR CM-nin 72, 73-cü maddələri üzrə cinayət məsuliyyətinə cəlb edərək həbs etməyi zəruri sayıram»[221].

Beləliklə də 1822 saylı həbsetmə orderinə əsasən 1937-ci il sentyabrın 16-də həbs edilən Ü.Rəcəb sentyabrın 20-də XDİK DTİ 4-cü şöbə 2-ci bölməsinin əməliyyat müvəkkili Petrunin tərəfindən dindirildi.

[221] MTN-in arxivi. Ülvi Rəcəbin istintaq qovluğu, PR – №7783.

«**Sual:** Siz əksinqilabi burjua-millətçi təşkilatın üzvü olduğunuzu etiraf edirsinizmi?

**Cavab:** Xeyr, mən heç bir təşkilatın üzvü olmamışam»[222].

Səhnəmizin Hamleti bu dəfə səhnədə və həyatda yox, zindanda **«Olum ya Ölüm»** dilemması qarşısında qalmışdı. Burada Hamlet sualına Hamletsayağı cavab vermək o qədər də asan deyildi. Çünki zindan dünyası Hamletin düşdüyü dünyadan qat-qat ağır, mürəkkəb, fiziki və mənəvi işkəncələrlə dolu bir dünyaydı. Hamleti əhatə edən mürtəce və mühafizəkar qüvvələrin arasından bir inam, ümid işığı sezdiyi halda, bu zindanda o inam və ümid də yoxdu. Hamletin qoyduğu iki sualın burada yalnız bir cavabı vardı. Ölüm.

Hamlet səhnədə hərdən teyflə görüşür və bu görüşlər onu həyəcanlandırsa da cinayəti törədənləri, qatilləri tapmaq üçün ona ümid verir. Ü.Rəcəb isə, demək olar ki, hər gün müstəntiqlə görüşür və hər görüşdən sonra onun ümid çırağı sönür, yaşamağa inamı azalır, həyatda etdiyi və etmədiyi «günahların», hətta «cinayətlərin» törədicisi olduğunu etiraf edir.

«**Sual:** Siz əksinqilabi burjua - millətçi təşkilatın üzvü olduğunuzu etiraf edirsinizmi?

**Cavab:** Bəli, mən 1935-ci ildən həbs olunduğum günədək əksinqilabi burjua - millətçi təşkilatın üzvü olmuşam»[223].

---

[222] Yenə orada.

[223] MTN-in arxivi. Ü.Rəcəbin istintaq qovluğu, PR – №7783.

**XDİK-in zindanlarında etiraf müttəhimin özünün güllələnmə hökmünə imza atmağı, bu cəlladlarla razılaşmağı idi. Bu ümumi suala verilən «Bəli» cavabından sonra onu konkret işlərdə - sovet hakimiyyəti əleyhinə mübarizə aparmaqda günahlandırmağa başladılar və ümumi suallardan konkret suallara keçdilər.**

«**Sual:** Əli Kərimov sizin qarşınızda nə kimi vəzifələr qoydu?

**Cavab:** Mən əksinqilabi millətçi təşkilata cəlb ediləndən sonra Əli Kərimov qarşımda aşağıdakı vəzifələri qoydu:

1. Azərbaycan Dövlət Dram Teatrının əməkdaşları arasında əksinqilabi millətçi təbliğat aparmaq.

2. Əksinqilabi burjua-millətçi təşkilata yeni üzvlər cəlb etmək.

3. Teatrın repertuarına ideoloji cəhətdən səbatsız və ziyanlı əsərləri yeritməyə imkan yaratmaq.

4. Ruhulla Axundovu Azərbaycan xalqının rəhbəri kimi şöhrətləndirmək»[224].

Həmin istintaq zamanı Ü.Rəcəb Mircəfər Bağırova qarşı sui-qəsd aksiyanın keçiriləcəyini də etiraf edir:

«Rustaveli adına teatr Bakıya gələndən sonra aktyorlar yazıçı Cəfər Cabbarlının qəbrini ziyarətə gedərkən, yolda Xorava və Vasadze kollektivdən arxada qalaraq mənə dedi ki, onlar millətçidirlər və rəhmətlik Cəfər Cabbarlının söhbətinə görə, mənim əksinqilabi millətçi baxışlarımdan xəbərləri var. Cavabımda əksinqilabi millətçi əhval-ruhiy-

[224] MTN-in arxivi. Ü.Rəcəbin istintaq qovluğu, PR – №7783.

yəmi və sovet hakimiyyətindən narazılığımı təsdiq etdim. Və beləliklə, bizim aramızda əksinqilabi əlaqə yarandı.

...Vasadze və Xorava mənə bildirdi ki, Tbilisi şəhərində sovet hakimiyyətini yıxmaq, partiya və dövlət rəhbərlərinə, o cümlədən millətçilərin amansız düşməni olan Beriyaya qarşı terror aktları keçirməyi qarşısına məqsəd qoyan əksinqilabi millətçi təşkilat fəaliyyət göstərir. Xorava və Vasadze eyni zamanda, məni əhatə edən adamlar arasında, o cümlədən əsasən Əzizbəyov teatrı işçiləri arasında terrorçuluq meyllərini yaratmağı məsləhət gördülər»[225].

Ülvi Rəcəb 1937-ci il noyabırın 15-də keçirilən dindirmədə öz ifadələrini belə ümumiləşdirdi: «Mən boynuma alıram ki,

1. Mən əksinqilabi millətçi təşkilatın üzvü idim və bu təşkilata məni 1935-ci ildə onun fəal üzvü Əli Kərimov cəlb etmişdi.

2. Əksinqilabi burjua-millətçi təşkilatın Azərbaycanda burjua-millətçi dövlətin yaradılması üçün respublikada Sovet hakimiyyəti əleyhinə silahlı üsyan qaldırılması qərarı ilə tamamilə razı idim.

3. 1936-cı ildə Azərbaycan K(b)P MK katibi Mircəfər Bağırovun əleyhinə hazırlanan sui-qəsd haqda bilirdim.

4. Azərbaycan Dövlət Dram Teatrında əksinqilabi burjua-millətçi təşkilatın üzvlərindən dörd nəfərdən ibarət əksinqilabi millətçi dəstənin olmağından xəbərdar idim.

---

[225] MTN-in arxivi. Ü.Rəcəbin istintaq qovluğu, PR – №7783.

5. Əli Kərimovun tapşırığı ilə 1935-1937-ci illərdə dram teatrın əməkdaşları arasında əksinqilabi millətçi təşviqat aparırdım.

6. 1935-ci ildə Bakıya qastrola gələn gürcü terrorçular Xorava və Vasadze ilə əksinqilabi əlaqə yaratdım. Bunlar Tiflisdə partiya və hökumət rəhbərlərinin əleyhinə sui-qəsd hazırlamaları haqda mənə xəbər verib, mənimlə Bakıdakı aktyorlar arasında terrorçuluq əhval-ruhiyyəsini yaymaq haqda sözləşdilər. Mən buna öz razılığımı verdim»[226].

1938-ci il yanvarın 1-də Bakı şəhərində Hikitçenkonun sədrliyi, İyevlevin və İşenkonun üzvlüyü, Kudryavtsevin katibliyi və baş prokuror Rozovskinin iştirakı ilə keçirilən hazırlıq iclasında müəyyənləşdirildi:

1. İş öz icraatı üzrə qəbul edilsin,

2. Yekun ittihamnaməsi təsdiq edilsin,

3. Azərbaycan SSR cinayət məcəlləsinin 73, 64 və 70-ci maddələri üzrə ittiham olunan 1 dekabr 1934-cü il qətnaməsini tətbiq etməklə Ülvi Rəcəb Şaşıqzadənin işi məhkəməyə göndərilsin.

İşə məhkəmənin qapalı iclasında şahidlər çağrılmadan, ittihamçı və vəkilin iştirakı olmadan baxılsın.

Məhkum haqqında müəyyənləşdirilmiş həbs qəti imkan tədbiri olduğu kimi saxlanılsın[227].

2 yanvar 1938-ci ildə keçirilən yekun məhkəmə iclasında Şaşıqzadə Ülvi Rəcəb barədə belə bir hökm çıxarılır:

---

[226] MTN-in arxivi. Ü.Rəcəbin istintaq qovluğu, PR – №7783.

[227] MTN-in arxivi. Ü.Rəcəbin istintaq qovluğu, PR – №7783.

«Şaşıqzadə Ülvi Rəcəb şəxsən ona məxsus bütün əmlakı müsadirə olunmaqla ən yüksək cəzaya-güllələnməyə məhkum edilsin. Hökm qətidir və SSRİ MİK-nin 1 dekabr 1934-cü il qətnaməsinə əsasən dərhal yerinə yetirilsin»[228]. İstintaq işindəki arayışdan görünür ki, hökm həmin gün Bakı şəhərində yerinə yetirilmişdir.

Milli-ictimai həyatın, konkret tarixi inkişaf və hərəkətin, real gerçəkliyin fəlsəfəsini, qanunauyğunluğunu özünəməxsus ifadə və deyim tərzi ilə birbaşa səhnədən, geniş auditoriyadan xalqa çatdıran, fenomen yaddaş sahibi Kazım Ziya Kazımzadə də total rejimin ağrı-acısını daddı, 30-cu illərin mənəvi-psixoloji sarsıntılarını təkcə ictimai həyatda yox, həm də XDİK məhbəsinin dar kameralarında iki dəfə yaşadı. Lakin möhkəm iradəsi, dözümü və sabit xarakteri ilə XDİK müstəntiqlərinin ona qarşı hazırladığı uydurma, saxta, fakt və sənədlərini, müttəhim ifadələrini, danosları inamla rədd etdi. Səhnədə xalqı, milləti, zindanda isə vicdanı ölmüş müstəntiqləri öz haqq işinə, mənəvi-əxlaqi təmizliyinə inandıra bildi.

Səhnədə oynadığı obrazlar və qiraət etdiyi şeirlərlə altun dünyasına, insanın istismarına, nadanlığa, cəhalətə lənət oxuyan, özü isə kasıb bir aktyor həyatı yaşayan K.Ziya 1932-ci ildə valyuta saxlamaqda ittiham edildi. Müstəntiq araşdırmaları və istintaq sübut etdi ki, valyuta ilə onun həyat tərzi arasındakı məsafə «zülmət» kəlməsi ilə «Ziya» sözü arasındakı leksik-semantik mənadan da uzaqdır.

---

[228] MTN-in arxivi. Ü.Rəcəbin istintaq qovluğu, PR – №7783.

1932-ci ildə o, azadlığa buraxılsa da, NKVD nəzarətindən kənarda qalmadı, barəsində yeni-yeni sənədlər və faktlar toplandı, həbs olunan teatr xadimlərindən fiziki-mənəvi işgəncələrlə ifadələr alındı. Kazım Ziyanın iş yoldaşı Ələkbər Seyfinin həbsi onun da zindana salınmasına şərait yaratdı.

Beləliklə, 1896-cı ildə Ordubad rayonunun Yuxarı Əylis (Əkilis) kəndində kəndli ailəsində anadan olan, Məşədi Əzizbəyov adına teatrın aktyoru Kazımzadə Kazım Ziya Cəfər oğlu əksinqilabi millətçi üsyançı təşkilatın üzvü kimi Az.SSR CM-nin 64, 73-cü maddələri ilə təqsirli bilinərək yenidən həbsi barədə 22 mart 1938-ci ildə Az.SSR XDİK-in müavini DT mayoru Borşev tərəfindən qərar qəbul edildi[229].

Kazım Ziya Əkbərin evində axtarış aparılması üçün 23.03.38-ci il tarixdə K-746 saylı order imzalanmış və 24.03.38-ci il tarixdə əməliyyat müvəkkili Qaravəliyev onun Vodovoznaya 13 küçəsindəki 12 №-li mənzilində axtarış aparmış, pasport, hərbi və həmkarlar bileti, müxtəlif yazışmalar və fotoşəkillərdən başqa heç bir şey tapmamışdır. 01.08.38-ci ildə tərtib edilmiş akta əsasən axtarış zamanı Kazım Ziyanın evindən tapılmış müxtəlif yazışmalar və sənədlər istintaq üçün əhəmiyyət kəsb etmədiyindən məhv edilmişdir.

02.08.38-ci ildə Az.XDİK DTİ-nin 4-cü şöbəsinin rəis müavini, DT baş leytenantı Atakişiyev tərəfindən təsdiq edilmiş qərarda Kazımzadə Kazım Ziya Cəfər oğluna ək-

[229] MTN-in arxivi. K.K.Ziyanın istintaq qovluğu, PR - №11722.

sinqilabi millətçi üsyankar-terrorçu təşkilatın iştirakçısı kimi əlavə olaraq Azərbaycan SSR CM-nin 21/70-ci maddələri ilə də ittiham irəli sürüldü[230].

Bu istintaq işində irtica və inkvizasiya, yalan və həqiqət, xeyir və şər, zalım və adil, iblis və mələk üz-üzə, göz-gözə dayanır. Bir aktyor kimi Kazım Ziya irtica, yalan, şər və iblisə qarşı öz oyununu məharətlə, həm də geniş və işıqlı səhnədə, tamaşaçı qarşısında deyil, kamerada, dar və qaranlıq məhbəsdə, müstəntiq qarşısında oynamalı idi. Bu bir aktyorun monoloqu deyil, Xeyirlə Şərin, İblislə Mələyin və nəhayət, müttəhimlə müstəntiqin dioloqu idi.

NKVD müstəntiqlərinin hazırladığı ssenaridən K.Ziya bixəbər idi. O, bu tamaşada hər hansı bir ədəbi əsər qəhrəmanını yox, məhz özünü oynamalı, mənəvi-əxlaqi keyfiyyətlərini açmalı, vahidliyini, bütövlüyünü göstərməli idi.

İlk məşqlər - istintaq zamanı Kazım Ziya dublyorsuz və suflyorsuz özünü oynadı, yəni 1938-ci il martın 25-də, aprelin 22-də və iyulun 23-də verdiyi ifadələrində əksinqilabi millətçi təşkilatın üzvü olmasını qətiyyətlə inkar etdi.

Zamanın, rejimin və rejissorun (oxu müstəntiqin) müdaxilə, remarka və replikaları, fiziki işgəncə və mənəvi iztirabları ona özünün obrazını yaratmağı yox, NKVD-nin istədiyi Kazım Ziyanı təqlid etməyi diqtə etdi.

Beləliklə də, müstəntiqin arzu və istəyinə uyğun obraz yaradan Kazımzadə Kazım Ziya 28-29 iyul 1938-ci ildə verdiyi ifadəsində Azərbaycanda fəaliyyət göstərən əksinqilabi millətçi təşkilatın üzvü olduğunu «etiraf» edir. O

---

[230] MTN-in arxivi. K.K.Ziyanın istintaq qovluğu, PR - №11722.

həmçinin etiraf edir ki, 1928-ci ildə Tiflisə qastrol səfərinə gedərkən tanış olduğu Kirovabad Dövlət Teatrının direktoru Seyfi Ələkbər (o zaman Seyfi Ələkbər «Zarya Vostoka» qəzeti redaksiyasında işləyirdi - C.Q) tərəfindən 1936-cı ilin sonunda bu təşkilata cəlb olunmuşam. Bakı teatrına dəvət olunduqdan sonra mən ilk günlərdən onunla ən yaxın münasibət qurdum, bundan sonra tez-tez xidməti və şəxsi görüşlərimiz oldu.

Müstəntiqin «əksinqilabi millətçi təşkilata cəlb edilməyinizin səbəbləri barədə ətraflı danışın» replikasına o belə cavab verir: «Seyfi Ələkbərə mənim xüsusi hörmətim var idi və onun hər bir məsləhətinə, hər bir sözünə hörmətlə yanaşırdım. O, mənə inanır və demək olar ki, hər bir şəxsi və xidməti məsələlər üzrə mənimlə dərdləşirdi. Ona görə də Kirovabad teatrında (1937-38-ci illərdə) işləyərkən o, mənə Sovet quruluşundan və əksinqilabi mövqeyindən narazı olduğunu bildirərək «bizi, mədəni azərbaycanlıları hökumət qiymətləndirmir və hazırkı cəmiyyətdə azərbaycanlıların hüquqları məhdudlaşdırılmışdır. Azərbaycanlılar üçün rəhbərliyin yanına getmək çətinləşmişdir, hər yerdə rus dilini bilmək tələb olunur» - dedi. O, demək olar ki, tez-tez Sovet hakimimyyətinə və ÜK(b)P-na qarşı böhtanlar yağdırır, bunlar haqqında bəzən lətifə şəklində danışırdı.

Bütün bu antisovet millətçi xarakterli söhbətlər mənə müvafiq əksinqilabi təsir göstərirdi. Mən həmişə Seyfi Ələkbərin dedikləri ilə razılaşırdım. Mənim söhbətlərimdən də, Seyfi Ələkbər mənim teatr fəaliyyətim dövlət tərəfindən qiymətləndirilmədiyinə görə, Azərbaycandakı Sovet hakimiyyətinə və kommunist partiyasının rəhbərliyinə

qarşı mənfi münasibətdə olduğumu bilirdi. Mən bir neçə dəfə əməkdar artist adı almaq iddiasında olmuşam. Beləliklə də, mən antisovet mövqeyində möhkəmlənmişəm.

1936-cı ilin sonunda Seyfi Ələkbər ilə olan görüşlərimizin birində o, mənə bildirdi ki,»Sovet quruluşundan təkcə biz səninlə deyil, bir neçə nəfər azərbaycanlı da vardır ki, narazıdırlar və onlar da Sovet hakimiyyətinin əleyhinədirlər və Azərbaycanın K(b)P MK-nın rəhbərlərinə qarşı mütəşəkkil mübarizə aparırlar. Söhbətimizin sonunda o, mənə bildirdi ki, Azərbaycanda millətçi təşkilat fəaliyyət göstərir və ona böyük məsul şəxslər rəhbərlik edirlər. O, incəsənət işləri üzrə komitənin keçmiş rəisi R.Axundovun, Az.SSR kommuntəsərrüfatın keçmiş xalq komissarı H.Sultanovun və Mikayıl Hüseynovun adlarını çəkdi. Bundan sonra o, mənə əksinqilabi təşkilata üzv olmağı və bu təşkilatın işində iştirak etməyi təklif etdi. Seyfi Ələkbərin təklifinə mən razılıq verdim[231].

Kazım Ziya bu təşkilatın vəzifə, məqsəd və məramını aşağıdakı kimi açıqlayırdı:

1. Silahlı üsyan təşkil etmək yolu ilə Azərbaycanda millətçi dövlət yaratmaq.

2. Siyasi hakimiyyəti və bütün hakim mövqeləri ələ keçirmək.

3. Fərdi terror tətbiq etmək yolu ilə kommunist partiyasının rəhbərlərinə qarşı mübarizə aparmaq.

4. Əksinqilabi təşkilata yeni adamlar cəlb etmək.

5. Millətçi ruhda təbliğat aparmaq.

---

[231] MTN-in arxivi. K.K.Ziyanın istintaq qovluğu, PR - №11722.

Seyfi Ələkbərin əksinqilabi təşkilatın Sizə bildirdiyi vəzifələri ilə həmrəy idinizmi sualına - «bəli, əksinqilabi təşkilatın vəzifələri ilə tamamilə həmrəy idim», - deyə cavab verir.

Kazım Ziya əksinqilabi millətçi təşkilatın ona məlum olan üzvlərinin adlarını da müstəntiqdən gizlətmir: «Mənə əksinqilabi təşkilatın üzvlərindən «Kirovabad bolşeviki» qəzetinin redaksiyasının keçmiş işçisi Cəfər Bağır, M.Əzizbəyov adına teatrın keçmiş aktyoru Ülvi Rəcəb məlum idi.

Hətta Kazım Ziya əksinqilabi millətçi kimi Seyfi Ələkbərdən aldığı tapşırıqları da müstəntiqə elan edir:

1. Teatrın aktyorları arasında antisovet təbliğatı aparmaq, onlarda sovet hakimiyyətinə qarşı qəzəbli əhval-ruhiyyə yaratmaq.

2. «Osman-türk» ləhcəsini populyarlaşdırmaq və səhnə vasitəsilə onu Azərbaycan dilinə daxil etmək.

3. Teatrda tamaşaların pozulması və quruluşların aşağı keyfiyyətdə olmasına gətirib çıxaran ziyankarlıq və təxribat işi aparmaq.

4. Əksinqilabi təşkilata cəlb etmək üçün münasib şəxslərin seçmək.

Kazım Ziya başqaları kimi özünə də böhtanlar atır və hansı aktyorlar arasında təbliğat apardığını belə açıqlayırdı: «Millətçi ruhda söhbətləri mən ayrı-ayrılıqda Kirovabad teatrının aktyoru İsmayıl Talıblı, teatrın aktyorları Səməd Məmmədov və Mir İbrahim Həmzəyevlə aparmışam. Bu şəxslər arasında antisovet söhbətləri lətifə formasında etmişəm. İsmayıl Talıblıya türk millətçi şairi Emin bəyin

şeirlərindən oxumuşam. Mən ona əmək haqlarının vaxtında verilməməsi, teatrda aktyorların şəraitinin pis olması və bunların Sovet hakimiyyətinin, partiyanın düzgün olmayan siyasətinin nəticəsi olduğunu demişəm. Səməd Məmmədov şeirlər yazırdı, mən də onları oxuyub düzəlişlər edirdim. Beləliklə, mən onlarla yaxınlıq edir və antisovet təbliğatı aparırdım. Onların heç biri mənim dediklərimin əleyhinə bir söz demir və mənə müqavimət göstərmirdilər[232].

31 iyul 1938-ci ildən etibarən K.Ziya əvvəlki ifadələrindən imtina etməyə, tədricən özünü oynamağa başladı. Bunu görən müstəntiqlər onu əvvəlki ifadələrinə qaytarmaq məqsədi ilə 27 aprel 1938-ci ildə Seyfi Ələkbər Seyfulla oğlu ilə üzləşdirdilər. Üzləşmə zamanı da Kazım Ziya əksinqilabi təşkilatın üzvü olmadığını bildirdi. (Yenə orada. səh.59)

Kazım Ziya özünün mənəvi-əxlaqi simasını hələ tam açmırdı, müstəntiqin çaldığı havanı zəif də olsa yenə oynayırdı, o maskasız və kaskasız, qrimsiz və geyimsiz görünmək üçün primyera gününü - məhkəməni gözləyirdi:

Nəhayət, 13.03.39-cu ildə Bakı şəhərində Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Tribunalının hazırlıq iclası keçrilir. İclasın sədri 2-ci ranq hərbi hüquqşünas Kapustin, üzvləri kapitan Qetmanskiy və baş leytenant Danielyan, katib isə 3-cü ranq hərbi hüquqşünas Xolin olmuşdur.

**İclasda eşidildi:** Kazımzadə Kazım Ziya Cəfər oğlunun Azərbaycan SSR cinayət məcəlləsinin 21-70 və 73-cü

[232] MTN-in arxivi. K.K.Ziyanın istintaq qovluğu, PR - №11722.

maddələri ilə ittihamı üzrə iş Hərbi Prokurorluğun təklifi ilə məhkəməyə verilsin.

**Müəyyən edildi:** Kazımzadə Kazım Ziya Az.SSR CM-nin 21-70, 73-cü və əlavə olaraq 21-64-cü maddələri ilə məhkəməyə verilsin. İttihamçı və müdafiəçi iştirak etmədən, ittihamnaməyə əlavə edilmiş siyahıda adları çəkilən (Kirovabad teatrının baş rejissoru İsmayılov Həbib Əkbəroviç, Cavadov Ağa Hüseyn Xəlil oğlu və Yermakova Mariya Frolovna) şahid qismində çağırılmaqla iş qapalı məhkəmə iclasında baxılmaq üçün təqdim edilsin. Müttəhim K.Z.Kazımzadə üçün cəza tədbiri dəyişdirilməməklə həbs qüvvədə saxlanılsın[233].

Yeri gəlmişkən qeyd edim ki, 30-cu illərin çoxsaylı və çoxcildli istintaq qovluqlarında saxlanılan sənədlərdə qapalı məhkəmədə şahid qismində kiminsə iştirakı təsadüfən müşahidə olunan hadisə idi. O illərdə, bir qayda olaraq bütün məhkəmələr qapalı keçirilir və orada şahidlər, müdafiəçilər iştirak etmirdi. Bəlkə də bu ilk hazırlıq iclası idi ki, belə bir qərar qəbul edirdi.

30 iyun 1939-cu ildə Kirovabad şəhərində Zaqafqaziya Hərbi Dairəsinin Hərbi Tribunalının Səyyar Sessiyası Kazım Ziya Kazımzadənin ittihamı üzrə qapalı məhkəmə iclası keçirdi. Məhkəmə öz işinə saat 19.00-da başladı. Şahid kimi İsmayılov Həbib Əkbəroviç, Cavadov Ağa Hüseyn Xəlil oğlu və Yermakova Mariya Frolovna çağırılmışdılar. Çağırılmış şahidlərdən iclasa ancaq Yermakova Mariya gəlmişdi. Əvvəlki iki nəfərin məhkəməyə gəlməməsinin

[233] Yenə orada. səh.70.

səbəbi həmin şəxslərin Bakı şəhərində yaşaması ilə izah edilirdi.

Məhkəmənin sədri Kazımzadədən hər hansı bir xahişi olması barədə soruşduqda o, məhkəməyə şahid kimi artist Cəfərzadə Məmməd Abasqulu oğlunu və aktrisa Orlinskaya Nina Georgiyevnanın çağırılmasını xahiş etmişdir. O qeyd etmişdir ki, onlar mənim direktor Seyfi Ələkbər ilə olan münasibətim haqqında ətraflı danışa bilərlər.

Əvvəl adları çəkilən şahidlərin məhkəmə iclasına gəlməmələri üzürlü sayılır, müttəhim K.Z.Kazımzadənin digər şahidlərin çağırılması haqqında xahişi qəbul edilir.

Əsl məqam yetişmişdi və indi müttəhim Kazımzadə özünü oynamalı, əsil həqiqətləri bəyan etməli idi. O öz monoloquna belə başladı:

«Mənim həbsimdən sonra, məni dindirməyə başladıqda 4 ay müddətində mən özümü heç nədə müqəssir hesab etmirdim, çünki mən əksinqilabi millətçi təşkilatın üzvü olmamışam və heç kim tərəfindən də bu təşkilata cəlb edilməmişəm. Belə bir təşkilatın mövcudluğu da mənə məlum deyildi. Lakin 4 ay həbsdən və mənə qarşı törədilən repressiyadan sonra özümə böhtan yağdırmağa, eyni zamanda müstəntiqə uydurulmuş məlumat verməyə başladım. Əksinqilabi təşkilatın olması haqqında mən heç nə bilmədiyimə və belə bir təşkilatın üzvü olmadığıma görə müstəntiqə dedim ki, «Sizə yalan danışım» Müstəntiq mənə cavab verdi ki, «Siz yalan danışın, biz aydınlaşdırarıq». Bundan sonra mən müstəntiqə hər cür cəfəngiyat danışmağa, özümə və başqalarına böhtanlar atmağa başladım. Kirovabad teatrının keçmiş direktoru Seyfi Ələkbərin məni görməyə gözü yox idi. Mənim həyat yoldaşım ilə Seyfi

Ələkbərin həyat yoldaşı küsülü idilər. 1935-ci ildə Seyfi Ələkbər məndən başqa bütün artistlərin əmək haqqlarını artırdı, bununla əlaqədar mən işdən çıxdım. 2 ay mən işsiz gəzdim. Bu haqda şəhər partiya komitəsində Nağıyevə danışdım. Məni teatra yenidən bərpa etmək üçün iclas keçirildi və direktor Seyfi Ələkbərə təklif olundu ki, məni yenidən teatra bərpa etsinlər. Mən teatrdan çıxıb gedəndən sonra mənim rollarımı teatrın rejissoru İsmayılov Həbib oynayırdı və buna görə də məni yenidən teatra qəbul etmək istəmirdilər, deyirdilər ki, «teatrda yer yoxdur». İsmayılovun bir rejissor kimi teatrda artistlərin rolunu oynamağa ixtiyarı yox idi. Bundan sonra mən Bakıya gəldim, Əzizbəyov adına teatra düzəldim. Kirovabadda olarkən mən sadə yaşayırdım. Mən Seyfi Ələkbər tərəfindən heç bir əksinqilabi təşkilata cəlb olunmamışdım. Bütün bu uydurma ifadələri müstəntiqə qorxumdan verirdim ki, mənə qarşı repressiya törətməsinlər. Üzləşmədə mən müstəntiqə bildirdim ki, Seyfi Ələkbər mənim haqqımda düz danışmır. Mənim Cavadov Ağa Hüseyn ilə münasibətim pis deyildi. Seyfi Ələkbər isə Cavadov Ağa Hüseyn ilə münasibətləri çox yaxşı idi. Məsələn, Seyfi mənə mənzil vermədi, Cavadova isə verdi»[234].

Buradan belə nəticəyə gəlmək olar ki, elə Seyfi Ələkbər də müstəntiqlərin fiziki təzyiqlərinə dözə bilmədiyindən Kazım Ziya haqqında yalan ifadələr verməyə məcbur olmuşdur. Döğrudur, Kazım Ziyanın və şahidlərin ifadələrindən aydın olur ki, onların bir-birinə münasibəti o qədər də yaxşı olmamışdır. Lakin işdə baş verən bu inciklik heç

[234] Yenə orada.

vaxt düşmənçilik səviyyəsinə qalxmamışdır. Onları teatr, səhnə və ya həyat yoldaşlarının küsülü olması yox, istintaq prosesində müstəntiqlər süni surətdə bir-birinə düşmən etmişdi.

Məhkəmə zamanı adı və ünvanı, hətta telofon nömrəsi açıq şəkildə göstərilən 20.01.39-cu ildə Az.SSR XDİK-nə ünvanlanmış bir danos da ifşa edici və nüfuzdan salıcı bir fakt kimi Kazım Ziyaya oxunur: «Xalq düşməni, artist Kazım Ziya haqqında Sizə aşağıdakıları bildirməyi özümə borc bilirəm:

Mən onu 1925-ci ildən tanıyıram. 1930-cu ildə, Türk fəhlə teatrında işləyərkən onunla orada rastlaşmışdıq. Onda mən onu necə lazımdır tanıdım. O, öz ətrafına gənc, fəaliyyətə yeni başlayan artistləri toplayaraq millətçi və pantürkist ideyaları genişləndirirdi. Gənc artistlər arasında qadağan olunmuş osman dilindəki ədəbiyyatı yayırdı. Eləcə də osman pantürkist kitablarından müxtəlif şeirlər köçürüb onlara paylayırdı. Həmçinin pantürkist xarakterli əfsanələr danışırdı. O, osman pyeslərinin bizim teatrın repertuarına daxil edilməsi üçün təbliğat aparır və aktyorlar üçün yalnız pantürkist təxəllüslər seçirdi. Azərbaycan dilində rus sözləri işlədilməsinin qəti əleyhinə idi, deyirdi ki, bizim dilimiz bizə yad sözlərlə zibillənmişdir.

1928-ci ildə Türk Fəhlə Teatrının aktyoru İsmayıl Talıblı (indi respublikanın əməkdar artistidir, Kirovabad teatrında işləyir) konsertdə çıxış edərkən açıq-aşkar millətçi şair olan Məmməd Eminin şeirini ifa etmişdir. Şeirin məzmunu belədir: «Ey, bizim vətənin göylərində qışqıran, bayquş, Sus, öz gülüşünü dayandır, mənfur...»

Bu şeirlər açıq-aşkar əksinqilabi xarakter daşıyırdı. Onda mən bu mövzuda İsmayıl Talıblı ilə söhbət etdim. O, mənə cavab verdi ki, konsertdə bunu ifa etməyi mənə Kazım Ziya tövsiyə etmişdir. Kazım Ziya dəfələrlə öz rollarında düşmən obrazı yaratmış, onları böyük hiss ilə oynamış və bununla onlara böyük rəğbət bəslədiyini bildirmişdir.

Keçən il, Kazım Ziya Kirovabaddan qayıtdıqdan sonra İncəsənət məsələləri üzrə Komitə onu bu teatra işə qəbul edilməsi təklifi ilə bizim teatra göndərmişdi. Mən onunla həmkarlar təşkilatının sədri və teatrın rəhbər işçilərinin yanında söhbət etdim. Mən ona hansı günahın sahibi olması barədə açıq etiraf etməsini təklif etdim. O cavab verdi ki, onun heç bir günahı və səhvi yoxdur. O bildirdi ki, Kirovabadda olarkən onun əleyhinə intriqa (və ya fitnə-fəsad) yaradılmışdır. O zaman mən ona xatırlatdım ki, 1930-cu ildə onun əhvalı necə idi. O tutularaq cavab verdi ki, o vaxtlar xalqın düşmənləri elə şərait yaratmışdılar ki, ziyalıları incimişdilər[235].

Bəşəriyyətə «Bütün dünyanın proletarları, birləşin!» şüarı ilə müraciət edən və guya beynəlmiləlçilik prinsiplərinə üstünlük verən Sovet İttifaqında Türkiyədə yazılmış hər hansı bir əsəri tamaşaya qoymaq, hətta türk şairlərinin kitablarını oxumaq yasaqlanır, eyni zamanda həmin artist, oxucu və ya tamaşaçı üçün cinayət tərkibli iş hesab edilirdi.

Müttəhim K.Z.Kazımzadə bu danosa öz münasibətini belə bildirdi: «Mən İsmayıl Talıblıya ifa etmək üçün heç

---

[235] MTN-in arxivi. K.K.Ziyanın istintaq qovluğu, PR - №11722.

bir şeir verməmişəm və Kirovabad teatrının repertuarına osman pyeslərinin salınmasını təklif etməmişəm. Mən ... ərizəsini doğru hesab etmirəm».

Məhkəmədə Beriya adına Kirovabad Dövlət teatrının aktrisası Yermakova Mariya Frolovna şahid kimi bildirirdi ki, Mən Kirovabad teatrının keçmiş direktoru Seyfi Ələkbəri, eləcə də müttəhim Kazım Ziyanı da tanıyıram. Kazımzadə ilə Seyfi arasında münasibətlər yaxşı deyildi. Seyfi Ələkbər Kazımzadəni 1937-ci ildə işdən çıxarmışdı. İclasda keçmiş müsavat zabiti kimi etibarsız bir şəxs olduğu üçün Kazımzadənin əleyhinə danışdı. Sonra Seyfi Ələkbər həbs olundu. Kazımzadə teatrda baş rollarda oynayırdı, aparıcı artist idi və yaxşı oynayırdı. Kazımzadə millətçi idi, rusları sevmirdi. Sonra mən başa düşdüm ki, mən yanılmışam. Əksinə bizim birgə işimizdə mən azərbaycanlı qadın aktrisaları hazırlayırdım. Kazımzadə müsavat zabiti kimi cəmi bir gün olmuşdur.

Müttəhim K.Z.Kazımzadə izahat verir: «Köhnə artistlər Sarabski, Sidqi Ruhulla, Yeva Alenskaya məni çoxdan tanıyırlar, təsdiq edə bilərlər ki, mən müsavat ordusunun zabiti olmamışam və zabit formasında heç vaxt gəzməmişəm. Mən müsavat dövründə, məktəbdə oxuduğum zaman səfərbər olunmuşdum və əsgər formasında gəzirdim. Bu formanı əynimdə cəmi 15 gün gəzdirmişəm...»[236].

Şahid kimi dindirilən aktrisa Orlinskaya Nina Georgiyevna və Cəfərzadə Məmməd Abasqulu oğlu Kazım Ziya ilə Seyfi Ələkbərin arasında narazılığın olduğunu təsdiq etdilər. Məhkəmədə Orlinskaya Nina Georgiyevna bildir-

---

[236] MTN-in arxivi. K.K.Ziyanın istintaq qovluğu, PR - №11722.

di ki, K.Z.Kazımzadə ən yaxşı artistlərdən biridir və o millətçi deyil.

Şahid kimi dindirilən Cəfərzadə Məmməd Abasqulu oğlu isə Kazımzadənin gənc nəslə qrammatikanın öyrənilməsində köməklik göstərirdiyini xüsusilə vurğuladı.

01 iyul 1939-cu il saat 11.45-də məhkəmənin sədri Kazımzadənin istintaqı ilə bağlı bildirdi: «Tribunal müəyyən etmişdir: məhkəmənin bəraət hökmü çıxarması ilə əlaqədar, Kazımzadə haqqında əvvəl müəyyən edilmiş cəza tədbiri ləğv edilsin və o dərhal həbsdən azad olunsun». Məhkəmə iclası saat 11.50-də başa çatmışdır.

Bütün bunlar göstərir ki, istər ədəbi məhkəmələr, istər dini təqiblər, istərsə də teatr ittihamları zamanı yalnız bir məqsəd güdülürdü, sənət adamlarını marksist-leninçi platformaya çıxarmaq, bu təlimi sənətin gücü ilə ictimai həyata və kütlənin şüruna tətbiq etmək.

# IV FƏSİL

## Sənətkar və zaman, repressiya və şəxsiyyət problemi

### 1. 30-cu illərin repressiyası və sənətkar şəxsiyyəti

XIX əsrin «qızıl», XX əsrin «gümüş» elan olunduğu klassik rus ədəbiyyatından fərqli olaraq, Azərbaycanda ədəbi-bədii tərəqqi son iki yüz ildə yüksələn xətt üzrə davam edir. Orta əsrlərin böyük romantik ənənəsi öz bədii yekununu əsası «Füyuzat» ədəbi məktəbi ilə qoyulan «XX əsr Azərbaycan romantizmi»ndə tapır, maarifçi-realist ənənə isə zirvə məqamına «Molla Nəsrəddin» məktəbi kimi formalaşan «tənqidi realizm ədəbiyyatı»nda çatır. Bədii prosesdə özünü göstərən zəngin, hələ bu vaxta qədər misli görünməmiş dərəcədə mürəkkəb, təzadlı ideya axtarışları, ən çeşidli, əlvan poetika, üslub, metod, janr tipologiyası dövrün ədəbiyyatından bütünlükdə əvvəlki on əsrin varisi kimi danışmağa bizə haqq verir.

Varis-irs əlaqəsi, əsrlər və nəsillər, mənəvi, əxlaqi, estetik dəyərlər arasındakı təbii keçid ahəngi və qanunauyğunluğu iyirminci illərdə də (1920-1934), «sosialist realizmi»nə hazırlıq və tam keçid ərəfəsində də müəyyən çərçivədə və ölçüdə hələ davam edir. Körpü rolunu o zaman hələ sağ olan və yazıb-yaradan canlı klassiklər özü - H.Cavid, A.Şaiq, Y.V.Çəmənzəminli, C.Məmmədquluzadə,

N.Vəzirov, S.S.Axundov, Ə.Haqverdiyev, B.Talıblı, Qantəmir kimi «yeni dünyaya» köhnəsindən çıxıb gəlmiş şair, dramaturq və nasirlər oynayır. Həmçinin, poeziyasının apogeyi məhz keçid dövrünə təsadüf edən növbəti nəslin nümayəndələri - H.K.Sanılı, Ə.Cavad, C.Cabbarlı, M.Müşfiq, A.İldırım kimi şairlər də həm sənətdə, həm də tərcümeyi-halda «iki dünyanın» sakinləri və şairləri kimi qızğın fəaliyyət göstərirlər.

Sonrakı on illərin «saf sovet poeziyası»nı, bütünlükdə digər janrlarda da «sosialist realizmi»nin xalis, monolit, klassik təcrübəsini yaradanlar da, əslində qeyri-məskun, xam səhraya ilk toxumu səpənlər deyildilər. ADR dövrünün intibah şeiri, tənqidi realizmi və yeni romantizmi, nəsr və dramaturgiya təməli olmasa idi, quru, boş məkanda nə Səməd Vurğun, Rəsul Rza və Süleyman Rüstəm, nə də Süleyman Rəhimov, Mirzə İbrahimov və Mehdi Hüseyn vahid sovet sənət sarayının ən uca bürclərindən birini yarada bilməzdilər.

Lakin artıq növbəti on ildən bədii proses ədəbi ənənənin təbii və tədrici növbələşməsi yox, qarşılıqlı, total inkarı əlaməti altında keçir. Kazarma rejimi, hərbi-polis, diktatura, hakim, rəsmi ehkamçı doktrina öz iradəsini mənəvi, ideoloji və ədəbi prosesə birbaşa diktə edir. Milli mədəniyyətdə ADR inqilabı ilə «sosialist» dirçəliş arasında otuzuncu illərin zorakılıq dövrü durur, zirvəsinə «proletar realizmi»nin, tənqidi realizmin və maarifçi romantizmin sovet dövründəki on illik dinc yanaşı davamından sonra yekdil, monolit «sosialist realizmi»nə tam keçidin baş verdiyi iki qütb, iki mərhələ durur, bədii prosesə total, əzici təzyiq

amili kimi, ortaq partiya - dövlət cəza maşını kimi, sənətə proletar, bolşevik təsir tərzinin vulqar - irticaçı və ifrat - zorakı icra mexanizmi kimi repressiya və onun epoxası durur.

Məhz «cəza maşını» və «icra mexanizmi» kimi «repressiya» hansı struktur modelə və funksional aparata, hansı ideya-nəzəri və siyasi-metodoloji meyar, prinsip sisteminə, hansı hüquqi-inzibati realizə arsenalına malik idi? Həmin qlobal kompaniyanı dövlət və partiya siyasəti səviyyəsində hazırlayan, onun mənəvi, əxlaqi, psixoloji cəhətdən həyata keçməsini təmin edən total siyasi təlim, hakim strateji konsepsiya, vulqar doktrina hansı idi?..

Əlbəttə, söhbət keçmiş sovet məkanında yekdil, vahid monolit dövlət siyasətindən gedir. Məsələni ayrıca «Azərbaycan repressiyası» şəklində qoymaq və qiymətləndirmək tarixi-elmi baxımdan əsla özünü doğrultmazdı. Burada yalnız «sovet repressiyası»nın Azərbaycan şəraitində kəsb etdiyi konkret fərdi çalardan, əlavə milli-ideoloji «kolorit»dən söz gedə bilər. Belə «kolorit» isə olmuşdur: hadisələrin, əməliyyat və mərasimləri spesifik yerli şəraitə tətbiqinin həm miqyasında, həm də forma və üsul çeşidində; həm irticanın, zorakılığın şiddət şkalasında və nəhayət, həm də təqib və təzyiq, cəza və ölüm üçün seçilən motivlərin səbəb-bəhanə tərkibində.

Hər yerdə kütləvi ölüm və qətl hökmləri xalis sinfi-siyasi ittiham çərçivəsində, Azərbaycanda isə, üstəlik həm də milli, qövmi, etnik müstəvidə və əsasda irəli sürülürdü. Hər yerdə edam kötüyünə qurbanı qurşunun gözlədiyi eşafota, yaxud sürgünə və konslagerə gedən günahkar və

ya günahsız məhkumun bir adı var idi: «xalq düşməni!» Azərbaycanda isə həm ruha, həm də vücuda eyni vaxtda basılan bu möhürə, faksimelə ikinci, üçüncü damğa da əlavə olunurdu: «pantürkist», «panislamist»! Hər yerdə hökmü oxuyan səs və qətli icra edən əl eyni bir slavyan-mankurtun və bolşevik cəlladın səsi və əli idi, Azərbaycana həm şimaldan, həm də qərbdən uzanan kabusun vücudunda isə qoşa əl və qoşa səs həmişə ittifaq təşkil edirdi: bolşevik-daşnak tandemi, erməni-rus kəlbətini!

Nəhayət, bir «kolorit» də, milli-etnik «spesifika» da vahid, total repressiyanı Rusiyada və Azərbaycanda bir-birindən ayırırdı: «Stalinin və Beriyanın Moskvada bir qaba çəkdiyini Bağırov və Atakişiyev Bakıda beş qaba çəkirdi. Orda dırnaq kəsiləndə, burda baş kəsirdilər»[237].

Repressiyanın bütün keçmiş sovet məkanı (bütünlükdə keçmiş dünya sosializm lageri) üçün ümumi olan nəzəri əsası, siyasi zəmini və ideya platforması isə hələ bolşevik inqilabından çox-çox əvvəl V.İ.Leninin «Partiya təşkilatı və partiya ədəbiyyatı» adlı məqaləsi ilə (1905), bu məqalədə «ümumproletar işində» ədəbiyyata və incəsənətə ayrılan «təkərcik və vintcik» rolu ilə, ümumiyyətlə, həm V.İ.Leninin, həm də L.D.Trotskinin, L.Averbaxın, A.Lunaçarskinin, Proletkultun, LEF-in, RAPP-ın, VOAPP-ın və sairin qalib gəlmiş sinfin «proletar diktaturası ədəbiyyatı» haqqında təlimi ilə qoyulmuşdur. Sonralar ta altmışıncı illərə qədərki partiya qərar və qətnamələrində daha da inki-

---

[237] Cəlal Qasımov. Repressiyadan deportasiyaya doğru, Giriş sözü, Bakı, «Mütərcim», 1998, səh. 12.

şaf etdirilərək bütöv sistem və doktrina halına gətirilmişdir. Məhz bu doktrinanın cisimləşdiyi, zorakı-cismani alətə çevrildiyi repressiya adlı bürokrat-hərbi mexanizminə bolşevik-mankurd maşının zəhmi, qorxusu, vahiməsi ilə dövlət və sənət, rəsmi ideologiya və bədii ədəbiyyat arasında münasibətlərin minillik sistemi və səhmanı tamamilə dəyişmiş, sivilizasiya tarixində hələ bu vaxta qədər görünməmiş metamarfoza baş vermişdir: ümummilli şüur-sinif diktaturasına, tarix konyuktor məqama, istedad və şəxsiyyət total siyasi ehkama, poeziya konselyariyaya tabe edilmişdir. Məhz «sinif səngəri, səddi və sərhəddi ilə bir millət iki millətə, bir ailə iki ailəyə ayrılmış, ər arvadına, arvad anasına, Pavlik Morozov doğma atasına qarşı çıxmışdır. Məhz «repressiyadan keçərək» həm fərdi, həm də milli şüur sinifləşmiş, ailə artelləşmiş, kənd kolxozlaşmış, əlifba kirilləşmiş, zavod da, fabrik də milliləşmiş, hətta torpaq da tarixdə xüsusi inhisara, bolşevik (sosialist) mülkiyyətinə çevrilmişdir: bolşeviklər kəndlə və qolçomaqla, zamanla və keçmiş irslə, sənət və estetik fikirlə (Qorqudla, Yəsəvi ilə və Füzuli ilə) istədikləri kimi rəftar etmişlər. Daha doğrusu, bolşevik firqə, rəhbər, öndər idarəçilikdə sənət və istehasalata, ekologiya ilə kolxoza, heyvandarlıqla mədəniyyətə rəhbərlik üsulu, tərzi arasında fərqə yol verməmişdir.

Əlbəttə, repressiya (faşizm, inkvizisiya, genosit, KQB, SAVAK...) bir kateqoriya və Hadisə kimi özünün ayrıca, məxsusi fərdi elmi tarixinə malik olmur. Qeyri-təbii, qeyri-bəşəri vəzifəni, ekologiya, insan və cəmiyyət əleyhinə çevrilmiş şər və iblis missiyasını sadəcə olaraq bir alət, bir

mexanizm kimi yerinə yetirir. Odur ki, onun heç məxsusi hüquqi siması və milli mənsubiyyəti də olmur və repressiyanın tarixi də əslində elə bu qəsd və qətllərin xronikası ilə, ölüm sobalarının, əsir düşərgələrinin şəhid qəbirlərinin düzümü və sırası ilə yazılır.

Özünün xüsusilə dəhşətli, amansız formasını repressiya «əxlaqi-estetik» doktrina mundiri geyəndə və mənəviyyata, yaddaşa qarşı çevriləndə alır. Çünki qəsdin hədəfinə və qurbanına bu zaman ən bəşəri, ən əbədi dəyər və sərvətlər - sivilizasiyaya özü çevrilir. Digər tərəfdən, repressiya-özlüyündə birbaşa və məxsusi olaraq «antiədəbiyyat» bir mexnizm və struktur kimi də formalaşmayıb. Oktyabr çevrilişindən sonrakı ilk on ildə repressiyanın əsas maraq dairəsinə hələ sənət və sənətkar daxil deyildi. Bolşeviklər millətləri və torpaqları «bolşevikcəsinə» milliləşdirməklə məşğul idilər və repressiyadan hələlik eserlər və Martov əleyhinə, Rusiyadakı digər partiyalar, çar ailəsi və Denikin əleyhinə istifadə edirdilər. V.İ.Leninin birbaşa göstərişi ilə müəllimi, həkimi, uşağı, xəstəsi ilə birlikdə Uralda ucqar bir sığınacağa pənah aparmış, silahsız, mühafizəsiz çar ailəsinin barbarcasına məhvi və cəsədlərinin yandırılaraq gizlədilməsi gələcək imperiyanı gözləyən qlobal, total və faşist bir repressiyadan xəbər verirdi və zamanın, əsrin hələ yalnız bugün günahı yuyulan cinayəti idi.

Həmin cinayətin baş verməsi ilə etirafına, hüquqi, əxlaqi, mənəvi qiymətini almasına qədərki dövr arasında da bolşevik rejiminin bütün tarixi fəaliyyəti (ən çeşidli sahələrdə və səviyyələrdə) eyni günahın və cinayətin kontekstində davam etdi. Unitar kommunist doktrina öz total-

kütləvi, dəmir-beton icra silahını, hüquq, ekologiya və yaddaş əleyhinə çevirdi. Həmin silahın rəsmi adı – siyasi repressiya idi.

Hərbi kommunizm, NEP, mədəni inqilab, çoxsaylı ədəbi-bədii cəmiyyət və dərnəklər... - ədəbiyyatda kommunist siyasətinin hələ repressiyaya qədərki dövrünün faktları və hadisələri idi. Yeni meyar və dəyər axtarışı, «həyatda inqilab, mənəviyyatda inqilab, sənətdə inqilab» eyforiyası artıq çox geniş intişar və miqyas almışdı, lakin rədd olunan köhnə düşüncə, əxlaq, sənət tərzinə yeni, bolşevik alternativ axtarışları hələ əlvan bir polifoniya təşkil edirdi. Bu polifonizmdən qlobalizmə - vahid, mütləq, monolit normativə və stereotipə qəti dönüş hələ qabaqda idi. Köhnə ilə, keçmişlə haq-hesab artıq çəkilib qurtarmışdı. Zəhmli, demonik, yarı hərbi irtica, ölüm, zorakılıq maşını öz tırtılını, repressiv konveyeri artıq bədii tərəqqinin bu vaxta qədərki bünövrə, təməl qanunauyğunluğu əleyhinə çevirmişdi. Ən böyük, yeni, çağdaş münaqişə isə indi təklif və tövsiuə olunan yeni variantların və onların icrasını öhdəyə götürən cəmiyyət və təşkilatların öz arasında idi. Təsadüfi deyil ki, məhz bunların növ və tip çeşidi ta 34-cü ilə qədər davam edir.

«Qızıl qələm» dövrünün cəmiyyətləri arasında qüvvələr nisbətini təsəvvürə gətirməuə S.Rüstəmin aşağıdakı sözləri kömək edir: «Bizi İsmayıl Hikmətlərin, Cənnətilərin, Səməd Mənsurların vahiməsi basmışdı»[238].

[238] S.Rüstəm «Qızıl qələm»in keçdiyi mübarizə yolları. «İnqilab və mədəniyyət», 1931, № 3-4, səh. 21.

Bütün sovet məkanında repressiya amilinin bilavasitə təsiri və diktatı ilə formalaşan yeni nəzəri-estetik fikrin hakim ideoloji postulatlarından biri - ədəbiyyatlar, milli mədəniyyətlər arasında «təsir və əlaqə» problemi ilə bağlı idi. Milli ədəbi-bədii təcrübələrdə qabaqcıl nə varsa hamısı «mütərəqqi rus mədəni təsirinin» nəticəsi, bəhrəsi elan olunurdu. Tarixi dövr və bədii üslub baxımından bir-birindən uzaq azəri və rus yazıçıları arasında da müəllim-şagird münasibətləri axtarılırdı (keçmiş mədəniyyət nazirlərindən birinin - «Mayakovskinin Sabirə böyük təsiri olub» kimi lətifəvari rəvayətlər 30-50-ci illər üçün çox səciyyəvidir).

Təəssüf ki, tədqiq etdiyimiz dövrdə yaxşı, qabaqcıl olan hər şey yox, vulqar və doqmatik olan, repressiya ilə bağlı hər şey «mütərəqqi rus təsirinin» nəticəsi, bəhrəsi kimi Azərbaycana gəlir və burada ikinci, təkrar dalğa rolunu oynayır. RAPP, LEF, Proletkult və digər bu kimi bütün vulqar struktur, təşkilat və ideya çeşidləri (yeri gəlmişkən deyək ki, repressiya Proletkult, RAPP və LEF-in kəsişdiyi, qovşaqda təzahür edə və fəaliyyət göstərə bilmişdir) hamısı milli Azərbaycan mühitində də öz «qövmi», «etnik» variantlarını formalaşdırır.

«Bədii ədəbiyyat sahəsində partiyanın siyasəti haqqında» (1925), «Ədəbi bədii təşkilatların yenidən qurulması haqqında» (1932) kimi məşhur qərar və qətnamələrdən sonra Azərbaycanda «Gənc qızıl qələmlər» (1925), «Qızıl qələmlər» (1926), «Azərbaycan Proletar Yazıçılar Cəmiyyəti» (1927) və nəhayət, «Azərbaycan Sovet Yazıçılar İttifa-

qı» (1934) kimi yazıçı və tənqidçiləri öz ətrafında birləşdirən təşkilatlar əmələ gəlir.

Mərkəzdən (rus ədəbi mühitindən) bizə artıq tanış «repressiya qabağı» polifoniya burada da hələ özünü göstərir. Xalq Maarif Komissarı Dadaş Bünyadzadə «ana dilində məktəblərin açılması, dərsliklərin nəşri» üçün xüsusi «ədəbiyyat heyəti» yaratmaq barədə qərar qəbul edir. Mirzə Cəlil Sovet Azərbaycanına dəvət olunur. Bakıda Sabirə heykəl ucaldılır. «Kommunist» qəzeti nəzdində «Ədib və Şairlər İttifaqı» (1923), «İldırım» yazıçılar birliyi (sədr - S.S.Axundov, müavin - H.Zeynallı, katib - M.Sidqi, bax: «Kommunist» qəzeti, 1923, 31 avqust) yaranır. «Ədəbiyyat cəmiyyəti» (1925) toplama və tədqiqat işləri ilə də məşğul olur. Cəmiyyətin təqdimatı ilə «Kommunist» səhifələrində, «Xalq ədəbiyyatı həyatdan doğar» silsiləsində folklordan və klassik irsdən nümunələr çap olunur. (S.Mümtazın sonralar repressiya arxivlərində məhv edilən Nəsimi, Vaqif, Vazeh, Zakir haqda materialları qismən burada çap olunur).

O da maraqlıdır ki, Cəmiyyətin fəxri sədri Əlibəy Hüseynzadə idi və onun işində əsasən klassik irsi, ənənəni özündə təcəssüm etdirən yazıçılar iştirak edirdi: Cəlil Məmmədquluzadə, Nəcəfbəy Vəzirov, Süleyman Sani Axundov, Abdulla Şaiq, Məmməd Səid Ordubadi, Əbdürrəhimbəy Haqverdiyev, Yusif Vəzir, Cəfər Cabbarlı.

«Gənc qızıl qələmlər» (1926), «Yaşıl yarpaqlar»da (1926), M.Müşfiq, M.Rahim və A.İldırım hələ eyni sıralarda çıxış edirdilər.

Ali məktəblərdə Türkiyədən dəvət olunmuş müəllimlərin böyük bir dəstəsi çalışırdı.

Proletar şeirini təmsil edənlərlə yanaşı, həmişəki, klassik üslubda və məcrada yazan ənənəvi müəlliflər də, həmçinin novator, sərbəst, avanqard poeziya kitabları da yanaşı çap olunurdu: «Üfüqlər qızaranda» (Abdulla Faruq), «İrmaqlar», «Həyatdan səslər» (1930, Ə.Fövzi), «Pəncərə», «Lirik şeirlər» (1929, M.Rəfili) və s.

Ə.Haqverdiyevin «Ağac kölgəsində» (1926), A.Şaiqin «İldırım» (1927) kimi təzə ruhlu qələm məhsulları bu vaxt işıq üzü görür. H.Cavid isə «Xəyyam» dramına görə Xalq Komissarları Şurasının Qərarı ilə mükafata layiq görülür.

Firidun bəy Köçərlinin «Azərbaycan Ədəbiyyatı materialları» (1925-1926), İsmayıl Hikmətin «Azəri ədəbiyyatına bir nəzər» (1926) kitabları alternativli inkişafın artıq ədəbiyyatşünaslıqda ifadəsi və nümunəsi idi.

Beləliklə, gördüyümüz kimi, tamam inkar olunan keçmiş və tamam təzədən qurulan müasirlik ab-havasında və çərçivəsində olsa da, sovetlərdən sonrakı ilk on ildə hələ ədəbi dəstələr, birliklər, cəmiyyətlər və dərnəklər var idi, ədəbi prosesdə onlar hətta təşkilatlana bilir və müəyyən bədii-estetik polifoniyadan xəbər verirdilər.

YİK(b)P-nin «Ədəbi-bədii təşkilatların yenidən qurulması barədə» 23 aprel 1932-ci il tarixli Qərarı belə təşkilatların bütün şəbəkəsi aradan götürüldü və iki il sonra 1934-cü ildə qələm sahiblərinin vahid birliyi - SSRİ Yazıçılar İttifaqı yaradıldı, həmçinin elə həmin qurultayda sosialist realizmi vahid yaradıcılıq metodu elan edildi. Cərgədən çıxan, bu vahid metodda və təşkilatda birləşə bilməyənlər

daha üç il sonra - 1937-ci ildə artıq fiziki şəkildə məhv edildi.

Ədəbi cəbhədə yüzlərlə ifşa, həbs, sürgün, mənəvi və fiziki darmadağın aktları buna hazırlıq idi. Polifonizmdən qlobalizmə keçid artıq baş vermişdi. Və bu dəfə də artıq işdə, təcrübədə polifoniyadan monopoliyaya keçidin müəllifi - baş icraçı Repressiya idi...

Lakin qeyd etdiyimiz kimi, bu polifoniya sovetləşmədən sonrakı ilk on - on beş ildə də iki qütblü idi. Nəinki, rəsmi ideologiyada, ədəbi-bədii və nəzəri-estetik fikrin özündə də otuzuncu illəri onun tufanlı sosial faciələrini estetik cəhətdən hazırlayan elə bədii təcrübənin özündə - mənəvi dəyərlər və nəsillər arasında baş verən təzadlı, paradokslu rəftar və davranışın bütün inadlı, sürəkli davamı və nəticəsi idi.

Elə bil ki, H.Cavidin «İblis» tamaşasında, son epizodda səhnədən qovulan İblis öz cəhənnəm səltənətinə, o dünyaya yox, yenidən bu dünyaya, teatrdan tamaşaçılar arasına, sənətdən canlı siyasi, mənəvi, əxlaqi gerçəkliyə qayıdır və «inqilab şeytanı» rolunu da çox uğurla oynadıqdan sonra indi daha dəhşətli bir əcinnə - «repressiyanın demonu» rolunu öhdəsinə götürür. «Kurtkalı komissar», «sapoqlu ideya rəhbəri», ən çox isə «soldat», kəndli və fəhlə arasından çıxmış «tüfəngli adam» cildinə girir, öz «iblis işi»ni həm həyatın, həm də sənətin ən müxtəlif qatlarında davam etdirir. «Tüfəngli adam»ın bu dəfəki sərgüzəşti əvvəlcə fövqəladə hərbi səhra üçlüyündə - «troyka» tərkibində kənddə-kəsəkdə, kolxoz idarəsində, yaxud, şəhərdə, fəhlə sexində, daha sonra yazıçı məclislərində, qurultay və ple-

numlarda, mətbuatda geniş miqyas kəsb edir və ən nəhayət, onun yuva qurduğu, lövbər saldığı daimi yer - məhz «baş iblis» statusunda seçdiyi dəyişməz, sabit iqamətgah - NKVD, KQB olur. Fasiləsiz əbədi yanğına, dünya «permansit inqilablar silsiləsinə» məhz buradan rəhbərlik edir. «Oktyabr - gözlənilən dünya inqilabları silsiləsində yalnız ilk mərhələdir» (L.D.Trotski). «Oktyabr - dünya inqilab yanğını üçün partladıcı fitildir» (N.İ.Buxarin). Onu mühakimə etmək olmaz. «Proletar çevrilişi üçün inqilabi tərbiyənin» ideal sistemi kimi (L.D.Trotski) ondan yalnız öyrənmək olar. İblisin bu dəfə artıq ali inzibati məmur «konselyariya demonu» qiyafəsində mərkəzdən aldığı «qlobal instruktaj» isə belə idi.

İblisi öz əbədi məkanından qovmaq, onu cəhənnəm səltənətinə göndərmək Milli Təhlükəsizlik Nazirliyinin öhdəsinə düşüb və o bu missiyanı çox ləyaqətlə yerinə yetirir: **«...Vaxtı ilə «İblis»i yazmış və həyatda, cəmiyyətdə iblisləri ittiham etmiş Caviddən İblisin intiqamını KQB almışdı. İndi Cavidin intiqamını KQB-dən MTN alır»**[239] (Qeyd etməliyik ki, görkəmli alim Yaşar Qarayevin son cümləsi ilk variantda belə idi. «İndi Cavidin intiqamını KQB-dən Cəlal Qasımov alır». Mənim xahişimlə o, bu cümləni dəyişdirdi - C.Q.).

«Mələk» qiyafəli iblis - SSRİ məkanını həbsxanalar düşərgəsinə çevirsə, hər evdə, hər ailədə, hər nəsildə özünün əzrail missiyasını uğurla və artıqlaması ilə yerinə yetirsə

---

[239] Cəlal Qasımov. Repressiyadan deportasiyaya doğru, Giriş sözü, Bakı, «Mütərcim», 1998, səh. 15-16.

də özünün «ölüm mələyi» yox, mərhəmət və xoşbəxtlik mələyi imicini formalaşdıra və mühafizə edə bilmişdi. Əzən, qan tökən, fəlakət, bədbəxtlik gətirən repressiya maşını və rejimi eyni vaxtda ikinci bir funksiyanı (adil, mərhəmətli hökmdar, ölüm, sürgün, həbs və fəryadlardan bixəbər olmağı) məharətlə diqtə və təbliğ edə bilmişdi. Təsadüfi deyildir ki, repressiyaya məruz qalanlar onları əzən ağzı qanlı manyaklara (hətta tanıya-tanıya) məktubla «ali rəhbər», «mərhəmətli başçı», «əzizimiz Stalin», «əzizimiz Mir Cəfər» - deyə müraciət edir, onlardan mərhəmət, ümid diləyirdilər: «Əziz İyosif Visarionoviç! İkinci dəfədir ki, mən öz dərdimi Sizinlə bölüşdürürəm və ümidvaram ki, Siz mənə rəhm edərsiniz. Mən Ümmügülsüm Əbdüləziz qızı Sadıqova Azərbaycan yazıçısı Seyid Hüseyn Sadıqovun həyat yoldaşı kimi 8 il müddətinə azadlıqdan məhrum edilmişəm. 6 ay Bakıda həbsxanada qaldıqdan sonra Temlaqa sürgün olunmuşam. Mənim evdə 4 uşağım qalmışdır, onlardan böyüyünün 17, kiçiyinin isə 8 yaşı vardı. Əziz dahi rəhbərimiz, uşaqlarla ayrılığın necə ağır və dəhşətli olduğu Sizə aydındır. Mənim heç bir günahım yoxdur. Bir Azərbaycan atalar sözü var, «ətlə dırnağı ayırmaq olar, ana ilə övladı yox». Mən hər bir fiziki ağrıya dözərəm, ancaq uşaqlarla ayrılığa yox. Yalnız Sovet hökuməti bizi əzizləyib və bizə bərabər hüquq veribdi... Siz bizə doğmasınız. Bizi Siz cəzalandırmısınız, bizi Siz də bağışlayacaqsınız, baxmayaraq ki, biz öz cəzamızın səbəbəini bilmirik.

Əziz İyosif Vissarionoviç, 8 aydır ki, mən göz yaşı tökürəm, Sizə gözü yaşlı xahiş edir, yalvarıram ki, mənə və

mənim uşaqlarıma rəhm edəsiniz. Məni onların yanına qaytarasınız, mənə onları böyütməyə, tərbiyə etməyə imkan verəsiniz. 15.07.38, İmza Ümmügülsüm»[240].

Lakin bunlar arasında qan tökməkdən, adam öldürməkdən plan verən manyakları bütün varlığı və vəhşilikləri ilə görən, onlara ittiham oxuyanlar da var idi: «Mənim «qəhrəman» rəhbərlərim! Mir Cəfər Bağırov vəhşi, insanın, mədəniyyətin düşmənidir ki, bizə bu əziyyətləri vermişdir. Qardaşımı, dayımı, yoldaşımı, qaynımı öldürmüşdür. Məni də 18 il məhbus etmişdir» (16.10.56-cı il)[241].

Sovet repressiya illərində, xüsusilə 30-cu illərdə total rejim ədəbi tənqiddə «donos» janrını da yaratdı. «Donos» janrı həm dövri mətbuata, həm də təhlükəsizlik orqanlarına ayaq açdı. Bu «yeni» janrın yaradıcıları arasında ədəbi aləmdə tanınanlarla yanaşı, gənc həvəskarlar da var idi.

Yeni janrın yaradıcılarının əsas qayə və amalı yeni cəmiyyətin tərəfkeşi, dəstəkçisi olduqlarını göstərmək idi. Əslində bu yazılar kiminsə evini yıxmaq, kimisə məhv etməkdən daha çox özünümüdafiə (nə qədər ləyaqətsiz müdafiə olsa da) xarakteri daşıyırdı. İstər gənc, istərsə də yaşlı nəslin nümayəndələri böyük canfəşanlıqla özlərinin «sosialist süfrəsi başına gəldiklərini» sübut etmək istəyirdilər. Maraqlıdır ki, onlar nə qədər canfəşanlıq etsələr də, sonradan (hamısı olmasa da) məhv edildilər. Donosçuların bir çoxunun təhlükəsizlik orqanlarına göndərdiyi məktublar adi, «şanlı» məktublar olmamış, yəni bu məktublar məlu-

---

[240] MTN-in arxivi. Ümmügülsüm Sadıqovanın istintaq qovluğu, PR - №8816.

[241] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

mat verməkdən daha çox ittiham aktı olmuş və bir çox hallarda öz rolunu məharətlə oynaya bilmişdir.

Həmin donoslardan birində oxuyuruq: «Yazıçı Qafur Əfəndiyev (ədəbi təxəllüsü Qantəmir) yazmağa 1926-27-ci illərdən başlamışdır. O «ədəbi fəaliyyətə» heç bir bədii, ideya və tərbiyəvi əhəmiyyəti olmayan xırda, şablon hekayələrlə başlamışdır. O zaman qəzet və jurnallarımızın başında oturan alçaq xalq düşmənlərinin yaxın köməyilə öz cəfəngiyatını asanlıqla dərc etdirməyə müvəffəq olan Əfəndiyev sonradan bunları bir yerə toplayıb «Ağıl dəryası» və «Şarlatanlar» adlı kitablar da nəşr etdirmişdir.

Bu hekayələr tematika cəhətindən qətiyyən heç bir yeniliyə, heç bir orijinallığa malik deyildir. Bunların əksəriyəti müxtəlif çeşidli anekdotlar, uydurmalar, sovet həyatına yabançı olan xəyali hadisələr üzərində qurulmuşdur. Bu hekayələr oxucuların ədəbi-bədii zövqünü oxşamır, onların şüurunu, düşüncəsini sosializm quruluşunun qələbələrindən, düşmən siniflərlə mübarizədən, partiyamıza və hökumətə sədaqətlə çalışan, canını verməyə hazır olan sovet adamlarından kənara çəkir, onların zehnini, sayıqlığını kütləşdirir.

...Qantəmir öz «yaradıcılıq» praktikasında bizim ədəbiyyatımıza düşmən olan zərərli üsullarla hərəkət edir. O, şüurlu olaraq bizim həyatımızın ancaq təsadüfi cəhətlərini, sosializmin dünya əhəmiyyətli qələbələri üçün qətiyyən xatakterik olmayan ayrı-ayrı cizgiləri, qəhrəman sovet xalqı üçün qətiyyən tipik olmayan adamları-avantüristləri və şarlatanları təsvir edir. Onun «yaradıcılığının» əsl düşmən mahiyyəti orasındadır ki, o, bu təsadüfi hadisələri və

nöqsan cəhətləri öz əsərlərində qəsdən həddindən artıq şişirdir, böuüdür və sadəlövh adamların nəzərinə xarakterik bir hadisə kimi çarpdıraraq sovet quruluşunu, sovet adamlarını, sovet hökumətini onların gözündən salmağa çalışır...

...Qantəmirin «yaradıcılığı» heç bir zaman, heç bir cəhətdən, heç bir dərəcədə Azərbaycan sovet ədəbiyyatı ilə, bu ədəbiyyatın böyük və şərəfli vəzifələrlə Azərbaycan xalqının duyğusu, düşüncəsi və mübarzəsilə sovetlər ölkəsinin dünya əhəmiuutli qələbələrilə, partiya və hökumətimizlə bağlı olmamışdır. Bu «yaradıcılıq» bütün öz xüsusiyyətlərilə boy atan və çiçəklənən Azərbaycan sovet ədəbiyyatının inkişaf dalğaları ilə kənara atılmağa məhkum idi»[242].

Ümumiyyətlə, həmin illərdə yazıçının istedadı, həyatı necə əks etdirmək gücü meuara çevrilmədi, əksinə ən zəuif yazıçının sovet cəmiyyətini layiqincə əks etdirə bilməməsi həmin yazıçının bu cəmiyyətə qarşı xəyanəti, təxribatı kimi qiymətləndirilirdi.

Tarixin dəqiq reqlament içinə alındığı, ssenarisi sanki əvvəldən yazılmış inqilabi, sosial qanunauyğunluqların sistemli və planlı şəkildə gerçəkləşdiui barədə mifə materialist, marksist «elmi» inam lap başdan gəlirdi. Bu qanunauyğunluqları əvvəldən «dərk edən», onların icrasına hamiliyi və rəhbərliyi (!) öz öhdəsinə götürən ən böyük, öndər «proletar ideoloqu» Vladimir İliç RK(b)P-nin VIII qurultayındakı çıxışında (1918) deyirdi: «Sovet hakimiyyətini

[242] MTN-in arxivi. Qantəmirin istintaq qovluğu, PR - № 23199.

həyata keçirməklə biz proletar diktaturasının xalqlararası ümumdünya formasının nə olduğunu əyani şəkildə hiss etdik... Dünyada heç bir qüvvə ümumdünya kommunist inqilabının ümumdünya Sovet respublikasına doğru hərəkətini dayandıra bilməz». «Diktatura» anlamının məzmununda repressiya tərkibi açıq-aşkar aparıcı yeri tutur. «Bütün dünya proletarları» «Ümumdünya Sovet Respublikasına» doğru məhz «repressiya» adlı qara lokomotivdə, dəmir cəza maşınında, qiyamçı «Avrora»da hərəkət edirdi. Yeri gəlmişkən, sonralar repressiyanın qurbanı, hələlik isə nəzəriyyəçisi Q.Zinovyev dünya fəhləsini dünya Sovet Respublikasına aparan gücün ən qaba zorakı - repressiv səciyyəsinə daha aydın işarə edir: «Deyirlər: iş təməl üstündə o vaxt möhkəm dayanır ki, altından qan şırıltı ilə axır. Bizim III İnternosionalın altında kifayət qədər qan şırıldayır... Bizi tezliklə beynəlxalq kommunist respublikasına aparacaq qələbə, şübhəsiz, artıq təmin olunub».

«Dünya proletar və ya kommunist respublikasına» tələsən və «çatan» adamlar o zaman Azərbaycan respublikasında da az deyildi. Tələsənlər ən müdrik, etibarlı, doğma üslubda, ləngər və təmkinlə, ağır-ağır addımlauanları tənqid edirdilər: «Biz yıldırım sürətilə irəliləyərkən Cavid tısbağa kimi yürüməyi tərk etmədi» («Kommunist» qəzeti). Yaxud: Cavidin əsərinin «Adı özünə uyğundur: sənətcə topaldır» («Gənc işçi»)[243]. Əli Vəliyevin yazdığı və Cavidi tənqid etdiyi silsilə məqalələr üçün də örnək Rusiya mət-

[243] Ə.Babayeva. Yazıçı mühiti və ədəbi tənqid. «Ədəbiyyat və incəsənət» qəzeti, 18 mart, 1988.

buatı və tənqidi idi: «Pilnyak və Zamuatinin kitabları ağqvardiyaçılar tərəfindən xaricdə çap olunduğu kimi, onun əsərləri də Türkiyədə nəşr olunur»[244].

«Madam ki, Cavidin şeirləri müsavatçıların əlində bizə qarşı silah olaraq işlədilir, demək Cavid o şeirləri müəyyən məqsəd üçün yazmışdır» - Bu isə S.Rüstəmin səksəninci yox ... iyirminci illərdə yazdığı sözlərdir[245].

Yenicə yaradılmış RAPP-ın nümunə və təqlid dalğası o zamankı bütün sovet ədəbi paytaxtlarında öz ifadəsini tapır: 1928-ci ilin yanvar ayının 13-də Bakıda Azərbaycan Proletar Yazıçılarının I Qurultayı çağrılır və elə həmin qurultayda «Azərbaycan Proletar Yazıçıları Cəmiyyəti» (Az.PYC) təsis olunması barədə qərar qəbul olunur. Bədii düşüncədə, tənqid siyasətində və bədii təsərrüfatda «proletarçı hərəkat» daha da güclənir. Nəinki müasir yazıçılar, həmçinin, Nizamidən başlayaraq bütün klassiklər permansit dünya inqilablarına tələsən proletar mənafeyi və dünyagörüşü baxımından təftiş olunur: Vaqif - «saray zadəganlığı şairi», S.Ə.Şirvani «burjua ruhlu liberal ruhani şairi», Zakir – «Mühafizəkar mülkədar şairi», M.F.Axundov «çar dövlət qulluqçusu olan liberal dünyagörüşlü şair» təsnifinə daxil edilir. Bədii ədəbiyyatda siyasi tipologiyanın zənginliyi və əlvanlığı baxımından «ədəbi döyüşlər» kitabı (M.Hüseyn, Bakı, 1932.) xüsusilə seçilir. Cəmiyyəti repressiyaya hazırlayan məfkurəvi - psixoloji təlimin ideoloqu və nəticə etibarilə elə həmin ideologiyanın da

---

[244] «Bakinskiy raboçiy» qəzeti. 12 noyabr, 1928.

[245] S.Rüstəm «Sübut edə biləriz». «Kommunist» qəzeti, 3 noyabr, 1929.

qurbanı olan ədəbi tənqid xadimlərinin irsindən və taleyindən aşağıda daha geniş danışılacaqdır. Rusiyada olduğu kimi, Azərbaycanda da repressiyaya hazırlığın ssenarisi bir məqamda da ortaq tipologiya təşkil edir: ən kəskin, güzəştsiz, səlahiyyətli səs ən yuxarı səviyyələrdən eşidilir. Və təəssüf ki, həmin səs də yaradıcılıq hadisələrinə ixtisaslı münasibətdən eyni dərəcədə uzaq olur.

O dövrün hadisələrinin canlı şahidi və fəal iştirakçısı olmuş S.Rüstəm, yəqin ki, Azərbaycan partiya təşkilatının katiblərindən və M.Hadini «hə, o pyaniska» - deyə xatırlayanı - H.Həsənovu nəzərdə tutaraq yazır: «Xanəndələr Füzulinin şeirini oxuyurdular: Yarəb, bəlayi-eşq ilə qıl aşina məni!» Onu od götürdü: - Net. Po novomu nado. Po naşemu: «Tovariş, bəlayi-eşq ilə et aşina məni!»[246].

Özü də eyni nadanlıqdan, cəhalətdən gələn qəsdə təkcə uzaq Füzuli məruz qalmırdı, çağdaş Əhməd Cavad, hətta böyük sovet poeziya ideoloqu Səməd Vurğun də yeri gəldikcə eyni taledən boyun qaçıra bilmirdilər: Ə.Cavadın «Ləzgi qızları» şeirini oxuyub Mir Cəfər Bağırov - «Arvadın hamilə olduğu üçün yerli sovet qızlarını «üşüyürəm» adı ilə aldadıb, dilə tutub namuslarına təcavüz etməyə çalışırsan? Bəs bunlar əxlaqsızlığı, fahişəliyi, inqilabdan əvvəl gördüyün pritonları, qəhbəxanaları bərpa etmək deyil, bəs, nədir, nə?»[247].

---

[246] Süleyman Rüstəm. O illəri xatırlayanda gərək hər şeyi necə var, eləcə də danışasan. «Gənclik» jurnalı, 1985. , № 1, səh.11.

[247] Əli Saləddin. Zamanın çarxı tərsinə dövran edəndə, «Azərbaycan» jurnalı, 1990, № 12.

5 mart 1937-ci ildə Stalinin ÜİK(b)P plenumunda elan etdiyi «...indi biz məhv etmək yolunu tutmalıyıq» direktivindən sonra Azərbaycan kommunistlərinin XIII qurultayında Mir Cəfər Bağırovun verdiyi replika məhz davam edən zorakı irticada - repressiyanın özündə dönüşü və «irəliyə» doğru addımı ifadə edirdi: «Bir baxın, Yazıçılar İttifaqında kimlər əyləşmişdir. Hazırda ifşa edilmiş Hüseyn Cavid, Əhməd Cavad, Mikayıl Müşfiq, Əli Nazim, Böyükağa Talıblı, Tağı Şahbazi, Əhməd Triniç və başqa əclaflar!»

Bizə ən yaxın, klassik repressiv psixilogiya ilə bağlı («qan şırıltısını» arxayınçılığın atributu sayan Trotskinini sözlərini xatırlayaq) son fakt da sənətə, tribunada danışan şairə münasibətdə öz ifadəsini tapan kompetensiya baxımından əvvəlki üç nümunədən heç nə ilə fərqlənmir. 1952-ci ildə Azərbaycan K(b)P-nin XIX Qurultayında Mir Cəfər Bağırovun xitabət kürsüsünə qalxmış Səməd Vurğunun sözünü kəsərək dediyi kəlmələrin də arxasından «qan şırıltısı» eşidilir: «Sən ləngimədən kommunizmin əlifbasından başlamalısan, yoxsa məhv olacaqsan»[248], görkəmli filosof Heydər Hüseynov barəsində dediyi başqa bir xarakterik misal: «Milçəyi öldürəndə izi qalır, biz səni elə məhv edəcəyik ki, heç o da qalmasın».

Beləliklə, repressiyanın hələlik tırtılı altında yox, sükanı arxasında duranlar əllərindən nə gəldisə, etdilər, istisnasız, fərdi şüur və istedad sahibi olan hər kəsi standart, stereotip, klişe istehsal edən repressiya maşınına saldılar.

[248] «Ağ ləkələr silinir». Bakı, 1991, səh. 13.

Hətta Cavidə bolşevik və sosialist xammaldan «marksist mundir» sifariş elədilər. Lakin, hətta özü geymək istəsə belə, bolşevik libas «Peyğəmbər» və «Sənan» müəllifinin əyninə gəlmədi. Gələ də bilməzdi, əgər gəlsəydi Cavid dərhal yox olardı və yerində yeni bir Məmməd Rahim, yaxud da Süleyman Rüstəm qalardı. Oyaq, şüurlu intixabla bərabər, təbiətdə bir fitri, kortəbii «bioloji sığmamazlıq» qanunu da var. Və artıq onun qarşısında hər şey - hətta repressiya da gücsüzdür.

«Zaman və sənətkar», «repressiya və şəxsiyyət» dedikdə biz məhz bu «bioloji qanunauyğunluqla» mənəvi, əxlaqi, vicdani prinsipin həmişə, hər şəraitdə uca tutulan və hətta repressiyaya da duruş gətirən vəhdətini nəzərdə tuturuq. Zamanla üzbəüz, təkbətək dayanan insan həm də şəxsiyyət (!) olduqda nə mənəvi qələbə, nə də əxlaqi cinayət üçün məsuliyyəti artıq zaman daşımır, şəxsiyyət özü daşıyır. «Günah şəraitdədir», «taxsırkar zamandır», «suçlu rejimdir»... «şəxsiyyət olmayanların» günahına bəraət üçün uydurulmuş rəvayət və təsəllidir.

Beləliklə, repressiya - sənət münasibətləri tarixində 37-yə qədərki ilk mərhələ artıq bitmiş oldu. Azərbaycan Xalq Cümhuriyyətinin süqutu ilə və ölkədə «bolşevik - proletar hakimimyyəti»nin qurulması ilə başlayan bu dövrə (1920-1934) sovet yazıçılarının Birinci Qurultayı ilə yekun vurulur. Ehkamçılığın özü ilə gətirdiyi istilah və anlayış kimi konkret elmi məzmunu axıra qədər açılmamış qalan «sosialist realizmi» ədəbiyyatda və incəsənətdə yeganə, hakim, hegemon yaradıcılıq metodu elan edildi.

Həm ideologiyada, həm də sənətdə çeşidli fikirlər, üslublar, ideyalar arasında dialoqa birmənalı şəkildə ənənəvi, ümumbəşəri inkişafın əbədi magistralına son qoymaq təşəbbüsü idi. Elə ona görə də çox çəkmədi ki, (cəmi iki ildən - 1937-ci ildən sonra) bütün ədəbiyyat (bütün sovet məkanında ədəbi proses) artıq eyni bir repressiyanın eyni bir xitabla, eyni xalqa oxuduğu vahid monoloqa bənzədi.

37-nin qələbəsi artıq 34-də təmin olunmuşdu. Repressiya - baş tutmuşdu. Heç olmasa sovet məkanında (xatırlayaq ki, son miqyas kimi dünya məkanı nəzərdə tutulurdu) «tarixi missiya» yerinə yetirilmişdi. Qarşıda ancaq problemin fiziki şəkildə icrası mərhələsi qalırdı...

Azərbaycan ədəbiyyatının sovet dövrü tarixinin ikinci böyük mərhələsi də (1934-1956) birinci növbədə 1937-ci ilin bütün sovet miqyasında total, qlobal repressiyası ilə və ta əllinci illərin ortasına qədər onun davamı olan hadisələrlə xarakterizə olunur.

Repressiyanın bədii şüurda yaratdığı intuitiv filtrin - avtomatlaşmış daxili «qlavlitin» açıq-aşkar izi qalan əsərlər həm nəsrdə, həm də poeziya, dramaturgiya və tənqiddə özünü göstərir. S.Babayevskinin «Qızıl ulduzlu qəhrəman», V.Apayevin «Moskvadan uzaqlarda» kimi konfliktsiz roman və poemaları hər yerdə yerli , «milli» dalğada davamını - ikinci nəşrini tapır. Nəsrdə «General» - H.Abbaszadə, «Qartal əfsanəsi» - Ə.Əfqan, «Mübahisəli şəhər» - S.Vəliyev, «Nəğməli könül» - X.Hasilova, «Anamın gəlini» - C.Əlibəyli dramaturgiyada - «Çiçəklənən arzular», «Zərif tellər» - C.Məşədibəyov, «Aydınlıq» - S.Rəhman, «Bahar suları», «Atayevlər ailəsində» - İ.Əfəndiyev və s. Buraya

Z.Xəlilin, G.Fəzlinin, İ.Kəbirlinin, həmçinin, S.Vurğun, S.Rüstəmin, M.Rahimin süni poetika və ibtidai mədh üsulunda yazdığı onlarla poemanı, şeiri də əlavə etmək olar.

«Azərbaycan sovet ədəbiyyatının vəziyyəti və onu yaxşılaşdırma tədbirləri haqqında» (1948) M.Rəfili və Ə.Sultanlı kosmopolit elan olunur. Mətbuatda «İnsan» (S.Vurğun) faciəsini mücərrədlikdə ittiham edən bir silsilə məqalələr çıxır. M.Hüseynin «Şeyx Şamil» dramı MK səviyyəsində tənqid və rədd olunur.

Cəfər Xəndanın, Mir Cəlalın XX əsrə aid tədqiqləri, həmçinin M.Cəfərin «Səni kim unudar» (M.Hadi haqqında) məqaləsi geniş diskusiyaya səbəb olur: «Alimlərimiz Məhəmməd Hadini ən mütərəqqi bir adam kimi təqdim etməklə tarixi həqiqəti təhrif etmiş, onu mürtəce, millətçi cəhətlərinə bəraət qazandırmışlar»[249]. M.Rəfili, H.Araslı, F.Qasımzadə, Mir Cəlal ədəbiyyat tarixinə «vahid axın» mövqeyində yanaşmaqda, Ə.Vahidi qəzəl janrına yeni həyat verməkdə, Abdulmyin Niyazi, Ağadadaş Dərviş mərsiyə ədəbiyyatı yaratmaqda və pessimist əhval-ruhiyyə təbliğ etməkdə ittiham olunurlar.

Nəhayət, davamlı, sürəkli repressiya tarixinin hətta bu yeni, stabil mərhələsi də onun mənzərəsini sürgünsüz, həbssiz, ölümsüz təsəvvürə gətirməyə imkan və əsas vermir. Süleyman Vəliyev, Gülhüseyn Hüseynoğlu, Əkrəm Cəfər, Cəfər Rəmzi məhz bu dövrdə həbs olunur və uzaq Sibirə göndərilən milli ziyalıların son nəslini təmsil edirlər (Bax: Süleyman Vəliyev. Qanadı sınmış quş da uçarmış:

[249] «Ədəbiyyat məcmuəsi». IX cild, 1949, səh. 5.

«Azərbaycan» jurnalı, 1988, N 3, səh. 98). 37-nin bəraət kompaniyalarında 47-nin bu «son mogikanları» da təqsirsiz elan olunub vətənə qayıdırlar.

1950-ci ilin ortalarında Azərbaycanda mənəvi və ideoloji-elmi mühit dəhşətli bir hadisədən sarsılır: Azərbaycan Elmlər Akademiyasının vitse-prezidenti, fəlsəfə elmləri doktoru, professor Heydər Hüseynov Mərdəkanda bağda damarını kəsərək özünə qəsd edir. Repressiv qəsd birinci dəfədir ki, vahiməli Bayıl qalasında, yaxud uzaq Nargində yox, Abşeironda, açıq havada baş verir. Mənəvi qətli rəsmi, səlahiyyətli repressiv aparatın baş kahini özü şəxsən icra etmişdi. Odur ki, fiziki icraçının kim olmasının, əslində heç bir mənası yox idi.

Görkəmli alim və ictimai xadim H.Hüseynov «XIX əsr Azərbaycan ictimai və fəlsəfi fikir tarixindən» (Bakı, 1949) adlı əsər yazmış, ciddi nəzəri-tarixi və fəlsəfi məziyyətlərinə görə monoqrafiya Moskvada, SSRİ Dövlət Mükafatı Komitəsi tərəfindən ilin Stalin mükafatına layiq görülmüşdür. MK plenumunda Mir Cəfər Bağırovun məxsusi məruzəsindən sonra mükafat geri alınmış və müəllif tarixi, sosial-fəlsəfi hadisələri saxtalaşdırmaqda ittiham olunmuşdu...

Bu ittihamların icraçısı təkcə Mir Cəfər yox, həm də, total rejimin əzib qula çevirdiyi ziyalılar oldu. 20-ci illərin ədəbi məhkəmələri yenidən təkrarlandı. Bu dəfə ittiham üçün qəhrəman bədii ədəbiyyatdan yox, həyatın özündən seçildi. 40-cı illərin ədəbi məhkəmələrinin əvvəlkilərdən fərqi onda idi ki, burada «müttəhimə» son söz demək, çıxış etmək imkanı və fürsəti verilmədi. Hakimiyyət orqan-

larının təqib və təzyiqləri, «ziyalıların» məzəmmət və tənələri H.Hüseynovu həyatdan iyrəndirdi. Nəticədə o, özünə qəsd etdi. Lakin onun izini itirməyə, xidmətlərini inkar etməyə və yaddaşlardan silməyə nə diktator hakimlərin, nə də total rejimin gücü çatmadı.

Nəhayət, ilk qisas günü gəlib çatır. Repressiyanın bir dəmir qanunu da, bu dəfə artıq obyektiv-tarixi və mənəvi-əxlaqi həqiqət gücü ilə səslənən bir qanun da icrasını tapır: başqalarını repressiyaya məruz qoyanlar mütləq özləri də repressiv akta məruz qalırlar: 1953-cü ilin iyulunda Azərbaycan KP Mərkəzi Komitəsinin və Bakı Komitəsinin Plenumlarının birgə iclasında Mir Cəfər Bağırovu, otuz illik rəhbərlik, repressiya və deportasiya fəaliyyətinə qiymət verilir. Daha sonra isə SSRİ Dövlət Prokuroru Rudenkonun Baş prokuror statusunda iştirakı ilə Mir Cəfər Bağırovun məhkəməsi olur[250].

Elə əllinci illərin sonundan başlayaraq, Mir Cəfər Bağırova bədii ədəbiyyat özü də məhkəmə qurur. Mir Cəfərin obrazları müxtəlif adlar altında - Mollayev (M.Hüseynin «Yeraltı çaylar dənizə axır»), Mir Cəllad (R.Rza - «Qızılgül olmayaydı»), Mir Qəzəb (İsa Hüseynov - «İdeal» və s.) nəsrdə və poeziyada yaradılır. Daha ümumiləşdirilmiş, rəmzi, alleqorik formalarda «repressiya və Bağırov» mövzusu - «Dəhnə», «Ölüm hökmü» (Elçin), «Qətl günü» (Yusif Səmədoğlu), «Ailə sirri» (Çingiz Hüseynov), «Köç» (Mövlud Süleymanlı) kimi əsərlərdə öz ifadəsini tapır.

[250] MTN-in arxivi. Mir Cəfər Bağırovun istintaq qovluğu, PF - №473.

İ.V.Stalinin, L.P.Beriyanın ölümündən və Mir Cəfər Bağırovun məhkəməsindən sonra 1956-cı ilin iyulunda çağrılan Sov.İKP XX qurultayında ilk dəfə olaraq, «şəxsiyyətə pərəstiş kultu» adı altında, əslində, «repressiyaya pərəstiş kultuna» və onun üç on ildə sovet və sosializm lageri miqyasında cinayətlərinə dövlət və partiya səviyyəsində rəsmi-siyasi qiymət verilir. Lakin bu qiymətdə, gözlənildiyi kimi, məhdud və birtərəfli olur: sistemin, rejimin, bir doktrina və məfkurə səviyyəsində bolşevizmin, ittifaq miqyasında vahid sosial-siyasi strukturun qüsuru, günahı, cinayəti bir adama və onun şəxsi kultunun üzərinə yıxılır.

Şübhəsiz, İ.V.Stalin, V.İ.Lenin özü də müəyyən sosial-siyasi dünyagörüşünün, istismarı, müstəbid, kalonial çar sisteminin yüz faizli məhsulu idilər. Və bu onların idarə üsulunda da şəxsiyyət və rəhbər kimi əxlaqında da öz əyani əksini tapmışdır.

Odur ki, qeyri-prinsipial, yarımçıq, saxta etiraf, tənqid və islahatla («perestroyka» ilə) qırmızı imperiyanı - ilk gündən repressiv siyasi-inzibati qurum kimi döğuran mexanizmi - repressiya quruluşunu cilalamaq mümkün olmadı. SSRİ-nin dağılması obyektiv-tarixi qanunauyğunluğun ifadəsi oldu. Və tamamilə qanuni olaraq bu son böyük imperiyanın xərabələri üzərində suveren, müstəqil xalqların milli dövlət sarayları ucaldıldı.

Repressiyanın mənəviyyat, mədəniyyət, ədəbiyyat tarixinə zərbələri və nəticələri barədə həm keçmiş sovet, həm də milli Azərbaycan ədəbiyyatşünaslığında ümumi şəkildə çox yazılıb. (İlk fəsildə biz onlara icmal verdik). Lakin bu hadisələr barədə ilk mənbə və təfsilat, yasaqsız, qada-

ğasız bütöv həqiqət on illər boyu «tamamilə məxfi», yarlıqlı ştamp, möhür, kilid, qıfıl altında qalıb. İmperiyanın, repressiyanın özünün dağılmasından sonrakı şəraitdə, suveren, müstəqil Azərbaycanda birinci dəfədir ki, ilk mənbədən alınmış təfsilatlı həqiqəti geniş, monoqrafik elmi araşdırmanın, ayrıca tədqiqat işinin predmeti, hədəfi etməyə imkan yaranıb.

İndi məhz bu günki MTN-in arxivlərindəki yeni sənədləri ilk dəfə üzə çıxararkən, həm repressiv aktlarda, həm də repressiyaya məruz qalmış əsər və müəlliflərlə bağlı həqiqətlərdə bu vaxta qədər naməlum, gizli və alt qatlarla tanış olarkən, hadisələr gözlərimiz qarşısında tamamilə təzə bir rakursda, bu hadisələrə məhz azad, suveren, milli (!) təfəkkürdən, qürurdan və ağrıdan düşən işıqda əsil tarixi bütövlüyü və əxlaqi həqiqəti ilə görünür. Odur ki, bu qısa, yığcam icmaldan sonra, «zaman və sənətkar», «repressiya və şəxsiyyət» probleminə bu yeni kontekstdə - sənədlərin, əlyazmalarının ittiham protokollarının, həm hüquqi, həm «ədəbi» məhkəmələrin, həm də Azərbaycanın mənəvi mühitində baş verən bu günki hadisələrin birləşdiyi, vəhdət, bütövlük təşkil etdiyi bir müstəvidə daha miqyaslı və konkret - predmetli təhlillər verməyə başlamaq olar.

20-50-ci illərin Stalin rejimi altında yaranan və formalaşan Azərbaycan ədəbiyyatında açıq dissedentçilik axtarmaq tamamilə yanlış olardı. Bizcə, bu illərin ədəbiyyatında içində azadlıq odu alovlandıran rəmzlər və simvollara bələnmiş «qapalı» dissedentçilik axtarmaq daha doğru olardı. Ona görə də həqiqi sənət adamları estetik hiss və

duyğularını sözün sətraltı mənası ilə ifadə etməyə və xalqa çatdırmağa çalışmışlar. M.Ə.Rəsulzadə haqlı olaraq qeyd edirdi ki, «bu rəmzlər çekist ruhlu tənqidçilər tərəfindən deşifrə olunub şairə (Ə.Cavad nəzərdə tutulur - C.Q) hücum üçün bir vasitə olur».

Dissedent ədəbiyyat diktatura, qadağa və senzor güclənəndə yaranır. Daha doğrusu, dissedent ədəbiyyat üçün zəmin diktatura şəraitinin özüdür. Belə bir şəraitdə sənət adamları öz fikirlərini sözün içində gizlətməyə, «kodlaşdırmağa» məcbur olmuşlar.

Maraqlıdır ki, bu qədər qadağaların olmasına baxmayaraq, sovet cəmiyyəti demokratik, humanist bir cəmiyyət kimi qələmə verilirdi. O dövlət ki, bir başla idarə olunur, o xalq və o millət ki, bir nəfərə itaət göstərir, orada demokratiyadan və demokratik prinsiplərdən danışmaq olmaz. «Ellər atası» Stalinin dediyi hər bir söz təkcə dövlət adamları yanında deyil, ucqar əyalətlərdən mərkəzə qədər hamı üçün qanun idi. Demokratiya estetik hissin, duyğunun və bütün sağlam düşüncələrin azadlığıdır. Demokratik dövlətdə fərdin, «mən»in yox, xalqın, «biz»in fikrinə söykənilir. «Mən» özü ilə dövlətə demokratiya deyil, siyasi repressiya və şəxsiyyətə pərəstiş gətirə bilər.

Arxiv materiallarından aydın olur ki, bolşeviklər Azərbaycanda repressiyalara ADR-in fəaliyyət göstərdiyi illərdən başlamışlar. Bu əvvəllər terror, təxribat xarakteri daşısa da sovetləşmənin ilk günlərindən kütləvi siyasi repressiyaya çevrilmişdir. Bu siyasi repressiyanın ilk qurbanı isə, artıq qeyd etdiyimiz kimi, Azərbaycan Demokratik Respublikasının özü olmuşdur. Təqribən iki il fəaliyyət göstə-

rən bir dövləti bolşeviklər «dəfn etməyə» cəhd etdilər və xalqın yaddaşından bu iki illik zamanı silib atmağa çalışdılar. Bu proses müxtəlif yollarla həyata keçirilirdi ki, bunlardan biri də Azərbaycanın maarif, mədəniyyət adamlarının və ziyalılarının, birinci növbədə isə böyük sənətkarların məhv edilməsi idi.

Sənətkarın böyüklüyü, bütövlüyü onun yaradıcılığı ilə şəxsiyyətinin vəhdətində özünü tapır. Bu bütövlük onun sözü ilə işi, yaratdıqları həyatda mənəviyyat və əxlaqı ilə, şəxsiyyəti, sənətdə fərdi «mən»i arasında ahəngdən yaranır. Bu vəhdət pozulanda sənətkarla zaman arasında da harmoniya pozulur, nəsillər və illər arasında da səhman mehvərdən çıxır, «zamanın bağları» qırılır.

Bu qanunauyğunluq zamanla ədəbiyyat arasında münasibətlərin, istisnasız, bütün tarixində özünü göstərir, amma xüsusilə qabarıq, açıq, klassik formaları - zorakılıq, irtica, inkviziasiya və repressiya dövrlərində alır.

«Əsiri olduğum bir şey varsa, o da həqiqət və yenə həqiqətdir» - deyən Cavidin idealına olan sədaqət tam aydınlığı ilə görünür. Cavid sənətdə və Cavid həyatda - bu iki Cavid arasında təzad yoxdur. Əslində Cavid sənətdə bir və həyatda ayrı bir Cavid kimi ikiləşmir, bir tam olaraq qalır. Həyatdakı Cavid sənətdəkini, sənətdəki Cavid isə həyatdakını tamamlayır.

Cavid gözəllik və estetik təlimini elə bir vaxtda irəli sürürdü ki, hakim doqmatik az qala bütün sənətkarlardan kommunist partiyasının üzvü olmağı tələb edirdi. Təsadüfi deyildir ki, Nəsimini marksist və leninist, Nizamini utopik sosialist, Bağdad kimi dini bir yerdə yaşayan Füzulini

ateist edənlər də tapıldığı kimi, bu vaxt Cavidi də «dindarlıqda», «Peyqəmbər»i idealizədə ifşa edənlər az olmadı..

Belə bir zamanda hiss və duyğuya söykənən müasir sənət adamları, o cümlədən, şairlər duyğularını cilovlamağı bacarmalı, Marksın, Engelsin və Leninin baxışlar sistemindən kənara çıxmamalı idi. Əks təqdirdə həmin şairlər görkəmli tənqidçilər tərəfindən proletar ədəbiyyatının vintciyinə və təkərciyinə çevrilmədiklərinə görə tənqid atəşinə tutulurdu: «Şübhəsiz ki, məmləkətin son hadisələrindən az mütəəssir olan bu ədəbiyyat zümrəsi, təəssüflə deməliyəm ki, kəndisini bitərəf bir cəbhəyə doğru çəkir. İlhamını ya əski turan istilalarından («Topal Teymur» - Hüseyn Cavid), ya əski Ərəbistan çöllərindən («Peyğəmbər» - Hüseyn Cavid) alır, yaxud da «Qız qala»larından (Cəfər Cabbarzadə) və ya «Göy göl»ün füsünkar və simvolik mənzərələrindən ruhlanır (Cavad). Məmləkətdə nə yapıldığı, yıxılan və qurulan işləri, yaradılan yenillikləri guya görmək belə istəmirlər»[251].

Deməli, bütün düşüncə və fikirlər Marks, Engels və Leninin üçlüyünün təlim və baxışlar sistemindən kənara çıxa bilməzdi. Sovet adamı üçün hər şey bu üçlüyün başında həll olunaraq hazır gəlmişdi. Sadəcə adamlara düşünmədən bu təlimi öyrənmək kifayət edərdi. Xalqların müstəqilliyi əlindən alındığından içində azadlıq ideyaları baş qaldıranlara qarşı imperiyanın öz siyasəti vardı. «Hər hansı bir istismar olunanın hər hansı bir imperatorluqdan ay-

---

[251] Əli Nazim. «Maarif və mədəniyyət» jurnalı, 1926, № 9.

rılması - inqilab, hər hansı bir məmləkətin Sovetlər birliyindən çıxması əksinqilabdır» (İ.V.Stalin).

Beləcə, Azərbaycanın azadlığı və müstəqilliyi uğrunda mübarizə aparanlar əksinqilabçı adlandırılaraq siyasi repressiyalara, təqib və təzyiqlərə məruz qalırdılar.

Romantizmin əsas xüsusiyyətlərindən olan uzağı görmə, zamanı qabaqlama bəşəriyyətin iblisə uyduğu bir vaxtda çox qorxulu və təhlükəli idi. Belə bir zamanda H.Cavid «İblis»i, həm də iblis - mələyi deyil, iblis - insanı yaratdı. Onları göydə deyil, yerdə dolaşdırdı.

İblisin romantik monoloqu əslində bəşər tarixinin, xüsusilə XX əsrin tragik yaşantı və dramının ən gerçək poetik duyumu və yozumudur.

Üstəlik, burada yaxın və uzaq gələcəklə də bağlı çox aydın düşüncə, müdrik fəlsəfi proqnoz və işarə vardır: bəşərin iblisli, yaxud iblissiz gələcəyi məhz iyirminci yüz ildə İnsan-İblis münasibətlərinin həllindən bilavasitə asılı olacaqdır...

İblis - insanın 20-ci illərdə Abbasmirzə Şərifzadənin rejissorluğu ilə səhnəyə gəlişi və çoxlarının mələk simasında tanıdığı İblisin insan qiyafəsində geniş kütlələrə təqdimi, İblisin intiqamına gətirib çıxarmalı idi. Cavid dinc durmayan, insan qanına susayan İblisin törədəcəyi fəlakətləri də gördü və beləliklə də 1936-37-ci illərdə «İblisin intiqamı» yarandı. İblisin intiqamı hər şeydən əvvəl, iblis insanın insandan, zülmətin işıqdan, şərin xeyirdən intiqamı idi. İblis ilk növbədə intiqamı onun törətdiyi və törədə biləcəyi şər işləri, şər əməlləri əvvəlcədən görəndən və hiss edəndən alır. Cavid isə İblisin törətdiklərini və törədəcəklərini nə-

inki görürdü, həm də göstərirdi. Görən və göstərən Cavid artıq İblisin caynaqları arasında idi. Həm də təkcə Cavid yox, «İblis»in rejissoru və tamaşaçıları cəzalandırıldı: Cavid bəşəri və ölməz ideyalarına, Abbasmirzə Şərifzadə rejissor işinə, tamaşaçılar isə gəldikləri dəhşət və vəhşətə görə. Sözün geniş mənasında bütün xalq və millət İblisin – Sovet İmperiyasının cənginə keçmişdi. İblisin caynaqları arasında olan Cavid, 1920-ci illərin əvvəllərindən müxtəlif qəzetlərdə və jurnallarda yavaş-yavaş tənqid hədəfinə çevrilirdi. Başqa sözlə «yolunu azmış» Cavidi «haqqa» çağırırdılar: «Cavid bir «Şeyda» yazar, bir «Uçurum» açar, bir «Afət» doğurar, «İblis» rəqs etdirər, «Peyğəmbər»i yaratmağa qeyrət edər. Bəlkə də şimdi bir Çingiz, yarın bir İsgəndər, ertəsi gün də bir Lenin diriltməyə can atacaqdır. Bu gün Cavid bu yolu tutub getməkdədir»[252].

Göründüyü kimi, Sosialist inqilabından az keçməmiş Cavidi «Leniniana» yazmağa, «həyatın nəbzini tutmağa» çağırırdılar. Cavid isə «Lenininananı» deyil, «Teymurnamə» yaradırdı, buna görə də zaman və zamanı idarə edənlər tərəfindən «döyülürdü». Topal Teymur da şair Kirmaniyə «Teymurnamə» yazdırırdı. Fərq oradadır ki, XIV əsrin Teymurunun «Sənin kimi dəyərli simaların qiyməti anlaşılsaydı, mənim kimi topallar soldakı sıfır qədər mənasız qalardı» - deyə qiymətləndirdiyi şair Kirmanini XX əsrin Teymuru məhv edirdi. XIV əsrin Teymurunda tiranlığın, topallığın, «məğrurları əzmək üçün yaradılmış bir

[252] H.Zeynallı. «Ədəbi parçalar», «Maarif və mədəniyyət» jurnalı, 1925, № 1.

allah bəlası» olmağın etirafı və acı dərki, XX əsrin Teymurunda insan öldürməyin, qan tökməyin böyük həvəs, ehtiras və qüruru duyulur.

20-30-cu illərin tənqidçiləri Cavidi «Teymur kimi qəddar bir istilaçını və o zamankı həyatı ideallaşdırmaqda» (M.K.Ələkbərli) günahlandırırdılar. 70-80-cı illərin tənqidi isə burada idealizə olmadığını iddia edir və əsas arqument kimi onu gətirirdilər ki, əgər belə olsaydı Cavid Teymura «topal» deməzdi. Həqiqətən də müəllif öz qəhrəmanını idealizə etməmişdir. Ümumiyyətlə nəyin və kiminsə idealizəsi obyektivlikdən uzaq düşmək, obyekti olduğundan daha güclü, daha şişirdilmiş formada verməkdir. Cavidin seçdiyi qəhrəmanlar, Məhəmməd, Səyavuş, Xəyyam... eləcə də Teymur idealizədən tamamilə uzaqdırlar. Əgər Cavid Teymuru idealizə etsəydi onun göstərdiyi qəhrəmanlıqlarla dolu hərbi yürüşləri, cahangirlik və cəngavərlik səhnələrini qələmə alardı. O isə bunların əksinə olaraq iki böyük türk sərkərdəsinin (Əmir Teymurun və Yıldırım Bəyazidin) apardığı mübarizələri daha çox qabartmışdır. Belə bir əsəri yazmağa onu nə vadar etmişdir?

Professor Y.Qarayev öz tədqiqatlarında Cavidin Teymura müraciətini tiranlıqla bağlayır və yazırdı: «...Cavid nifrət və lənət etdiyi «qan püskürən, ataş sovuran» «şahlar, ulu xaqanlar» haqda da mədhiyyə yaza bilməzdi. Teymurləng də bu məqsədlə seçilməmişdi. Cavid «İblis»də şəri şər dühasının - İblisin dili ilə təhlil və tənqid etdiyi kimi, «Topal Teymurda»da eyni üsuldan istifadə edir: tiranları ifşa üçün tiranların ən zalımını və ən dahisini - Teymuru seçir!»[253]

---

[253] Yaşar Qarayev. «Ədəbi üfüqlər», Bakı, 1985, səh. 148.

Bizcə bu əsərdə tiranlığın tənqidi ilə yanaşı, Cavid ikinci bir problemə - Teymurda özünün turançılıq ideyalarına zidd cəhətlər gördüyünə görə müraciət etmişdir. Hüseyn Cavidi Əmir Teymurdakı tiranlıqdan daha çox (Cavid əfəndi ümumiyyətlə tiranlığın əleyhinə idi), əcdadlarından - hunlardan, avarlardan, Göy türklərdən, oğuzlardan və nəhayət, Çingiz xandan miras qalmış turançılığın süqutu narahat edirdi.

Ziya Göyalp «Türkçülüyün əsasları» kitabında yazır: «Həqiqətən, Turan ülküsü keçmişdə bir xəyal deyil, bir gerçək idi. Miladdan 210 il öncə hun hökmdarı Mete «hunlar» adı altında bütün türkləri birləşdirdiyi zaman Turan ülküsü bir gerçək halına gəlmişdi. Hunlardan sonra avarlar, avarlardan sonra göy türklər, göy türklərdən sonra oğuzlar, bundan sonra qırğız-qazaxlar, daha sonra Kür xan, Çingiz xan və sonuncu olaraq Teymurləng Turan ülküsünü gerçəkləşdirmədilərmi?»[254].

Əslində gerçək olan turançılıq Teymurla başa çatdı. Teymurun apardığı hərbi yürüşlər (o yürüşlərin böyük əksəriyyəti türk torpaqlarında və türklərlə aparılırdı) daha çox türklərə zərbə vurdu. Doğrudur, özünü hərb allahı elan edən Teymur döyüşlərdən həmişə qalib çıxırdı. Lakin bu qalibiyyətin türk elinə vurduğu zərərlər və gətirdiyi bəlalar daha çox idi. Bu da turançılığın məhvinə gətirib çıxarılmalı idi. Əsərdə də buna açıq işarlər vardır. Belə ki, Cavid Teymurla müharibə etmək istəyən Yıldırım Bəyazidə Şeyx Buxarinin dili ilə deyir: «Zənnimcə qəzəb və hid-

[254] Ziya Göyalp. «Türkçülüyün əsasları», Bakı, 1991, səh. 39.

dət əfəndimizi yanlış mühakimələrə sövq ediyor. Teymur da Sizin qədər qəhrəman, Sizin qədər cəsur və sarsılmaz bir hökmdar. Boş yerə türk övladlarının qanını tökdürməyin və ətrafınızı saran düşmanları kəndi fəlakətinizə güldürməyin»[255].

Burdan belə bir nəticəyə gəlmək olmaz ki, Cavid Teymuru başqa millətləri deyil, məhz türkü türkə qırdırdığına görə ittiham edirdi. Yox, Hüseyn Cavid özünün «məhəbbət» fəlsəfəsinə burada da sadiq qalırdı. O nəinki türkün, bütövlükdə insanın, həm də yer üzünün əşrəfi olan insanın öldürülməsinə razı deyildi.

Turançılıq xüsusilə bolşeviklər tərəfindən uzun müddət təhrif edilərək bəşəriyyətə fəlakətlər gətirəcək qorxulu bir ideologiya kimi təbliğ olunmuş və onun mahiyyəti üzərinə kölgə salınmışdır. Turançılığın mahiyyətini açıqlayan Ziya Göyalp yazırdı: ««Turan» sözü «turlar» yəni «türklər» demək olduğu üçün, sadəcə türkləri içinə alan bir topluluğun adıdır. Deməli, «Turan» sözünü bütün türk boylarını içinə alan böyük Türküstan üçün işlətməyimiz lazımdır. Çünki «türk» sözü bu gün yalnız Türkiyə türklərinə verilən bir ad olmuşdur. Türkiyədəki türk kültürünə - harsına daxil olanlar təbii ki, yenə bu adı alacaqdılar. Mənim inamıma görə, bütün oğuzlar yaxın bir zamanda bu ad altında birləşəcəklər. Ancaq tatarlar, özbəklər, qırğızlar, ayrı kültürlər - harslar ortaya çıxardıqları zaman, ayrı-ayrı millətlər halını alacaqlar və buna görə də yalnız öz adları ilə anılacaqlar. O zaman bütün bu əski qohumları,

---

[255] Hüseyn Cavid. «Dram əsərləri», Bakı, 1974, səh. 318.

qövmi bir topluluq halında birləşdirən ortaq bir ada ehtiyac duyulacaqdır. Bax, bu ortaq ad «Turan» sözüdür.

Türkçülərin uzaq ülküsü - məfkurəsi Turan adı altında birləşən oğuzları, tatarları, qırğızları, özbəkləri, yakutları dildə, ədəbiyyatda və kültürdə - harsda birləşdirməkdir»[256].

Göründüyü kimi, burada bəşəriyyət üçün qorxu törədə biləcək heç nə yoxdur. Caviddə də turançılıq məkan və ərazi bütövlüyünə, torpaq iddiasına, coğrafi hüdudların genişləndirilməsinə yox, bütün türk dilli xalqların mənəviyyat, əqidə, ünsiyyət, ədəbiyyat, din və mədəniyyət bütövlüyünə xidmət edirdi. Cavidin fikrincə Teymur bir hökmdar kimi turançılığı işğal və müharibələr yolu ilə deyil, türkü türkə dost etməklə qorumalı idi.

Əsərin sonunda Teymurun «əcaba məğrur Yıldırım nə düşünüyor?» sualına Y.Bəyazid belə cavab verir: «Düşünəcək bir şey yox . Əvət, sən qalibsin. Lakin bu qələbə türk əqvamının deyil, yalnız fürsət bəkləyən qonşu hökumətləri məmnun etdi (acı bir köks keçirdikdən sonra, pək mütəəssir və şiddətli). Ah, daha doğrusu islam aləmini başsız qoydu»[257]..

«Topal Teymur»dakı Moskvadan gətirilmiş Olqa obrazı da bu ideyanın açılışına xidmət edir. Hər sözün məna və siqlətini dərindən dərk edən Cavid, şübhəsiz ki, Olqa obrazını bu əsərə təsadüfən daxil etməmişdir. Maraqlıdır ki, Cavid Olqanı müharibə aparan dövlətlərin döyüş mey-

---

256 Ziya Göyalp. «Türkçülüyün əsasları», Bakı, 1991, səh. 38.
257 Hüseyn Cavid. «Dram əsərləri», Bakı, 1974, səh. 330.

danlarında, yaxud əzab çəkən xalqın arasında yox, məhz müharibənin taleyini həll edən hökmdarların hər ikisinin sarayında dolaşdırır. Dramaturq Olqanı Teymur sarayından Bəyazid sarayına qanı, canı, dili və dini bir olan qardaş arasına təfriqə salmaq üçün aparır. Yəni Cavid görürdü ki, türk qoşunlarının qarşı-qarşıya gətirilməsində yabançı dövlətlər də az rol oynamırdı. Ona görə də Xristofer Marlonun (1564-1593) Avropa ədəbiyyatında «Böyük Tamerlan» (1587) kimi tanıtdığı Əmir Teymuru Cavid Şərq ədəbiyyatına «Topal Teymur» kimi daxil etdi. Cavid turançılığa zərbə vurduqlarına görə Əmir Teymura «topal», Yıldırım Bəyazidə isə «kor» demişdir. Cavid «topal» və «kor» ifadəsini fiziki eybəcərlik (tarixən onlardan biri axsaq olsa, digəri zəif görsə də) mənasında yox, mənəvi mənada, ağılın topallığı, ağılın korluğu mənasında işlətmişdir. «Topal» sözünün Teymur sözü qarşısında epitet kimi işlədilərək əsərin sərlövhəsinə çıxarılmasının başqa bir səbəbi isə, 20-ci illərdə Cavidə, həm də istibdaddan və irticadan qorunmaq və müdafiə olunmaq üçün lazım idi. Yəni Cavid Əmir Teymura «Topal Teymur» deməklə, «çekist ruhlu» (M.Ə.Rəsulzadə) tənqidçilərdən öz böyük ideyalarını gizlətməyə çalışmışdır. H.Cavidin qəhrəmanlarının «gah İrandan, gah da Turandan» gəlməsi də bu ideala xidmət edirdi.

Maraqlıdır ki, Caviddəki turançılıq ideyalarını 20-ci illərin tənqidi görmüş, göstərmiş və ən çox məhz bununla da şairi ittiham etmişdir. Ədibin bəraətindən sonrakı illərdə turançılıq ideyası tədqiqat obyektindən kənarda qalmışdır. Sosializmin sonrakı mərhələlərində də turançılıq

tamamilə zərərli və mürtəce bir ideya kimi təbliğ olunduğundan Cavid sənətinin böyüklüyünə xələl gətirən və onu yenidən ittiham obyektinə çevirən faktor olduğuna görə tədqiqatçılar bu məsələyə, demək olar ki, toxunmamışlar.

Cavidi Leniniana yazmağa çağıranlar onu da qəhramanı Şeyx Sənan kimi dilemma qarşısında qoyurlar. Yüksək bir qaya üzərində dayanmış Şeyx Sənanı aşağıdan din əhli, şeyxlər, üləmalar, yuxarıdan isə **MƏŞUQƏSİ - XUMAR - HAQQ - ALLAH səsləyir. AŞİQİN - RUHUN - ŞEYX SƏNANIN MƏŞUQƏYƏ - XUMARA - ALLAHA** olan sevgisi onu din əhlindən, şeyxlərdən ayıraraq yüksəkliyə TANRIYA aparır, TANRIYA qovuşdurur. Cavid də ya onu difirambaçılığa çağıranlara qoşulub sosializmi mədh etməli, konyukturaya və ehkamçı dəbə, cari, ötəri, bayağı kompaniyaya qoşulmalı idi, ya da məslək və idealına sadiq qalaraq Sənan kimi mənən ucalmalı, haqqa, əbədiyyətə qovuşmalı idi. Cavid ikinci yolu seçdi.

Tənqid illər keçdikcə haqlı və ya haqsız olaraq Cavidə və onun məsləkdaşlarına qarşı daha sərt mövqe tuturdu: «Peyğəmbəri təsəvvür edilən maziləsindən düşürüb adi bir insan şəklinə salmaq gərək idi ki, «Peyğəmbər» dediyimiz adam başqa palçıqdan yoğrulmamış, o da bizim kimi adi bir fərd olmuş, bəlkə əsrinin, zamanın ən sadiq bir övladı olmuşdur»[258].

Bu illərdə təkcə Cavid, Cavad, Müşfiq və s. deyil, eləcə də yaddaşından milli azadlıq ideyalarını silməyən, keçmişi anan, yaxın və uzaq illərin tarixi həqiqətlərini bədii sö-

---

[258] «Maarif və mədəniyyət» jurnalı. 1926, № 1.

zün qüdrəti ilə nəsillərə çatdıran digər sənət adamları marksist tənqidin hücumlarına məruz qalırdı. 1928-ci ildə «Dan ulduzu» jurnalının 6-cı sayında «Yeni Azərbaycan ədəbiyyatı» adlı məqalənin müəllifi yazırdı: «Hüseyn Cavid və Cavad bugünkü Azərbaycan burjuaziyasının tipik müəssislərididir. Bunlar Aprel inqilabından sonra, burjuaziyanın yıxılması ilə öz iqtisadi təməllərini itirdilər, yeni quruluşu heç anlamadılar. Cavid isə öz siyasi ideallarının və ruhi yaşayışının simvolları bulunan «Ay» və «Göy göl»lərdən ilham almağa başladı. Bunlar gah isə bir taqım əsərləri ilə («Topal Teymur») köhnə zehniyyətlərin yeni, dumanlı və daha incə bir şəkildə gəncliyə aşılamağa başladılar. Son zamanda hər iki şair yeniləşmək, qızıllaşmaq istəyərək «yeni ruhda» hər taqım əsərlər yazmağa başladılar» (Hüseyn Cavid «Azər»).

30-cu illərdə isə tənqid daha mürtəce mövqedə dayanmışdı. Artıq Cavidin adı tez-tez, həm də rəsmi dairələrdə hallandırılırdı.

20-ci illərdə öz əsərləri ilə dram-teatrların repertuarını bəzəyən Cavid tədricən səhnədən sıxışdırılır, əsərlərinin oynanılmasına icazə verilmirdi: «Cavidin dramları, faciələri isə 30-cu illərin başlanğıcında səhnədən demək olar ki, çıxmışdı, daha doğrusu, çıxarılmışdı. Nəzəriyyə aləmindəki hərc-mərclik, saxta-sosioloji tənqid, o vaxt qılıncının dalı da, qabağı da kəsən «proletkultçuluq» və proletkultçular Cavidin əsərlərinin səhnədən sıxışdırılıb çıxarılmasında az iş görmürdü»[259].

[259] Mehdi Məmmədov. «Acı fəryadlar, şirin arzular», Bakı, 1983, səh 6-7.

Bu elə bir dövr idi ki, Cəlil Məmmədquluzadənin 17 sentyabr 1930-cu ildə ömür-gün yoldaşı Həmidə xanım Məmmədquluzadəyə yazdığı kimi «hətta qəpikləri də saymaq və ehtiyatlı tərpənmək lazım» idi. Lakin 1937-ci ildə artıq heç bu da - «qəpiklər» səviyyəsində həssaslıq da artıq kömək etmirdi.

1934-cü ildə M.K.Ələkbərli yazırdı: «Əski yazıçılarımızdan şüurlu və ya şüursuz surətdə inad ilə yenidən qurulma məsələsinə soyuq baxan və bu uğurda əhəmiyyətsiz addımlar atan Hüseyn Caviddir».

Həmin fikrin davamı kimi Azərbaycan Sovet Yazıçılar İttifaqı idarə heyətinin sədri S.Şamilov «Ədəbiyyatda bolşevizm ideyaları uğrunda» («Kommunist» qəzeti 17 mart 1937-ci il) adlı məqaləsində yazırdı: «Yazıçılar içərisində Azərbaycan həyatı ilə daha az maraqlanan və Azərbaycan əməkçilərinin mübarizəsinə yad olan əsərlər yazmaqdan əl çəkməyən H.Caviddir. Biz bilirik ki, H.Cavid burjua romantizminin məktəbində yetişmişdir. Bununla bərabər o, Azərbaycan sovet və partiya təşkilatlarının onun üçün yaratdığı imkanlara və hətta əsərinə verdiyi mükafatlara baxmayaraq, yenə Azərbaycan əməkçilərinin mübarizəsinə dair bir şey yazmamışdır»[260].

Bütun bu diqtələr Bakıdan deyil, Moskvadan edilirdi. Həm də təkcə Bakıya deyil, SSRİ yaradan qardaş respublikaların hamısına edilirdi. 5 mart 1937-ci ildə Stalinin YİK(b)P MK plenumundakı çıxışından dərhal sonra Azər-

---

[260] Seyfulla Şamilov. «Ədəbiyyatda bolşevizm ideyaları uğrunda», «Kommunist» qəzeti, 17 mart, 1937.

baycan Yazıçılar İttifaqının üzvlərinin və üzvlüyə namizədlərin ümumi yığıncağı keçirildi (bu vaxt, artıq Cavid həbs edilmişdi) və M.C.Bağırovun «haqlı iradları» müzakirə edilirdi (10-11-12 iyun 1937 -ci il).

Ümumi yığıncaqda göstərildi ki, 17.05.37 «Kommunist» qəzetində, sonra isə «Bakınskiy Raboçi» və «Kommunist» (erməni dilində) qəzetləri Azərbaycan Yazıçılar İttifaqında vəziyyətin acınacaqlı halda olması barədə bir sıra məqalələr çap edilmişdir. Bu fakt da maraqlıdır ki, Azərbaycan yazıçılar ittifaqındakı vəziyyət erməni dilli qəzetlərdə də yayılır və ictimayət arasında, gələcəkdə törədiləcək fəlakətlərə haqq qazandırmaq məqsədi ilə Azərbaycanda səslənən bütün dillərdə, bütün millətlərə və xalqlara «tanıtmaq» üçün Azərbaycan ziyalılarının imicini formalaşdırırdılar.

Hətta ümumi yığıncaqda idarə heyətinə erməni ədəbiyyatının Azərbaycanda inkişafına ciddi nəzər yetirməsi də diqqətdən yayınmamışdır. Fikrimizcə, Azərbaycanda erməni millətindən olan onlarla xalq şairi, xalq yazıçısı, xalq artisti, bir sözlə, ədəbiyyat və mədəniyyət xadimlərinin olmasına da repressiya illərində aparılmış siyasətin davamı kimi baxmaq lazımdır.

Ümumi yığıncaqda «Ədəbiyyat qəzeti»nin də ünvanına iradlar söylənildi və bildirildi ki, bu qəzet yalnız «Pravda», «İzvestiya» və «Literaturnoya qazeta»dan götürülmüş məqalələr çap edir, özü isə əksinqilabçılar, trotskiçilər, müsavatçıların Azərbaycan ədəbiyyatına soxulmaları barədə heç nə yazmır. Eyni iradlar Azərbaycan dilində çıxan «İnqilab və mədəniyyət», erməni dilində çıxan «So-

vetskiy pisatel» və rus dilində çıxan «Literaturnıy Azerbaydjan» jurnallarına da aid edildi[261].

Azərbaycan Yazıçılar İttifaqının rəhbərləri - H.Nəzərli, M.K.Ələkbərli, S.Şamilov, eləcə də S.Vurğun qatı müsavatçıları, pantürkistləri, millətçiləri - Ə.Nazim, Ə.Cavad, H.K.Sanılı, Seyid Hüseyn, Musaxanlı, M.Müşfiq, S.Mümtaz, Qantəmir, S.M.Qənizadə, B.Talıblı, T.Şahbazi, Mikayıl Rəfili, Ə.R.Şamçızadə və Zinnət Zakirovu vaxtında ifşa etmədiklərinə görə təmbeh edildi və az müddətdən sonra özləri də (M.Rəfili istisna olunmaqla) həbs edildilər.

Ümumi yığıncaqda yarıtmaz işinə və zəif rəhbərlikliyinə görə Yazıçılar İttifaqının sədri S.Şamilov və məsul katib S.Vurğun tutduqları vəzifədən, H.Cavid isə Yazıçılar İttifaqının üzvlüyündən azad edildi.

Ümumi yığıncaqda «Ədəbiyyat» qəzetinin ünvanına deyilən tənqiddən nəticə çıxaran qəzet öz səhvələrində Cavidi təhqir etməyə başladı. «Ədəbiyyat» qəzetinin 16 iyun 1937-ci il tarixli sayında dərc edilmiş bir həcvdə oxuyuruq:

Adına millətçilər dedi: «Böyük sənətkar»,
Gəlin düz araşdıraq sənin sənətinmi var?
Azərbaycan şairi olsa da murdar adın
Soltanların, şahların sinisini yaladın
O murdar arzuların torpaqlara gömüldü,
Sənin yaratdıqların özündən əvvəl öldü.

---

[261] MTN-in arxivi. H.Cavidin istintaq qovluğu, PR - №18845.

Amal və əməlləri ilə Cavidləşən-əbədiləşən sənətkara «Sənin yaratdıqların özündən əvvəl öldü» - deyir, özləri isə yaşayırdılar. Hə etmək olar, zaman elə bir zaman idi ki, əbədiləşən-Cavid «diri ölü»nü deyil, ölən əbədiləşəni-Cavidi məzəmmət edirdi. Cavid bu diri ölülərə belə deyirdi:

Mənə gülməkdəsiniz gərçi bu gün,
Var yarın sizlər üçün qorxulu gün.
O zaman iştə ölənlər dirilər,
Kim nə yapmışsa cəza çəkdirilər.

Göründüyü kimi, təqib və təzyiq, iftira və böhtan Cavidi və onun məslək dostlarını addım-addım izləyirdi. Vahid məfkurə, əqidə və məslək ətrafında birləşənləri heç nə qorxuda bilməzdi. Bu baxımdan Cavid ədəbiyyata böyük sələfi - məslək və əqidəsi uğrunda dərisi soyulmuş Nəsimi poeziyasından gəlmişdir. Cavid çox yaxşı anlayırdı ki, dərisi soyulan Nəsimi deyil, öz fəlsəfi-poetik yükü, sadəliyi və döyüşkənliyi ilə «Həq mənəm, həq məndədir»-deyə xalqı poetik hiss və duyğuları ilə öz sehrinə salan Nəsimi poeziyasıdır. Soyulan Nəsimini deyil, soyulan poeziyanı, soyulan fikri və nəhayət, soyulan sözü görən Cavid söz soyan qəssablara üzünü tutaraq deyirdi:

Ölüm var ki, həyat qədər dəyərli,
Həyat var ki, ölümdən də zəhərli.

İblisin əsas məqsədi insanı fəlakətlə üz-üzə qoymaqdır. Bu iblislər isə insanı fəlakətə salmaq üçün ilk növbədə

dostu, qardaşı, bir sözlə doğmaları üz-üzə gətirir, qarşılaşdırır və nəticədə hər ikisini məhv edirdi.

Belə bir zamanda Cavidin:

Kəssə hər kim tökülən qan izini,
Qurtaran dahi odur yer üzünü, -

sənət kredosu bir ittiham aktı kimi səslənərək bəşəriyyəti qansız yaşamağa səsləsə də yer üzünün dahiləri dahiliyi qan kəsməkdə yox, qan tökməkdə görürdülər.

Hüseyn Cavid şəxsiyyətini xarakterizə edən əsas xüsusiyyətlərdən biri və birincisi intellektual «mən»dir. Caviddəki intellektin - «mən»in işığına bir çox şəxsiyyətlər də toplanmışdı. Cavid çırağının işığına yığılanlar yuxarı siyasi elitanı daha çox narahat edirdilər. M.C.Bağırovun yüksək tirbunalardan söylədiyi nitqlər və istintaq işindəki ifadələr də bunu təsdiq edir. Bağırovun Azərbaycan K(b)P-nın XIII qurultayında Cavidin üzərində xüsusi dayanması, bu işığın artıq onun gözünü qamaşdırmasından xəbər verirdi. İntellektual «mən» və yırtıcı zaman arasındakı qarşıdurma da intellektin - «mən»in cismani məhvi əslində onun zaman üzərində mənəvi qələbəsi idi...

Zamana, total rejimə, irticaya, repressiyaya, münasibətdə eyni qətiyyəti Əhməd Cavad, Mikayıl Müşfiq, Əlabbas Müznib, Əli Razi Şamçızadə, hətta qadın şairə Ümmügülsüm Sadıqova da göstərirdi.

Ümumiyyətlə sənət və sənətkar konkret zamanla üzbəüzdə konkret sərhəd tanımır. Zaman dəyişəndə həmin sənətin və sənətkarın əzəməti və qüdrəti daha da artır. Bu

mənada Cavid, Cavad və Müşfiq üçlüyünün yaratdığı sənət nümunələri yeni zamanın işığında daha aydın görünərək fərdlərin dərkindən xalqın dərkinə çevrilir. Tarix bizdən uzaqlaşdıqca bu üçlüyün dumana büründürülmüş «Göy göl» duruluğu özünə qayıdır. Yeni zamanın işığında bu sənət numunələri duruldugca, onlardakı ecazkarlıq və cazibədarlıq duyulur və görünür. Duyulmaq və görünmək dərk və qəbul olunmaqdırsa, dərk və qəbul olunmaq isə özlüyündə əbədiləşmək və xalqın yaddaşında daşlaşmaqdır.

Hər üç sənətkarı zamanın zədəsindən qorumaq üçün onlara məişət qayğısı səviyyəsində hamilik göstərən doğmaları da başa düşmək olar. Belə ki, xeyirxah adamlar öz dostlarına repressiyalara məruz qalmamaq üçün qeyri-leqal təşkilatda fəaliyyət göstərənlərin Azərbaycandan uzaqlaşmasını məsləhət görürdülər. Hüseyn Baykara yazırdı: «Bir gün Əhməd Cavadla qeyri-leqal milli azadlıq komitəsinin rəhbəri doktor Dadaş Həsənzadə və liderlərdən biri olan Rəhim bəy Vəkilli ilə rastlaşdıq. Uzun danışıqlardan sonra mən, qeyri-leqal komitənin görkəmli nümayəndələrindən bir hissəsinin müvəqqəti olaraq Azərbaycandan çıxıb getmələrini təklif etdim. Azərbaycan azadlıq mübarizəsinin hər üç lideri də mənim təklifimə qarşı çıxdılar və dedilər ki: «Mən gedim xarici ölkəyə, sən get, o getsin, çox yaxşı, bəs bu bədbəxt və talesiz günləri millətlə kim bölüşsün?» Çox yaxşı xatırlayıram, Əhməd Cavad və Rəhim bəy Vəkilli mənim sözlərimə çox hirsləndilər və bir daha belə sözlər danışmamağı söylədilər. O vaxtdan düz yarım əsr keçmişdir. Azadlıq uğrunda müba-

rizə aparan bu üç «azadlıq aşiqləri» sözlərinə sadiq qalmış, Azərbaycan xalqının bədbəxt günlərini xalqla birgə yaşamışlar. Doktor Dadaş Həsənzadə güllələnmiş, Rəhim bəy Vəkilli özünü öldürmüş, Əhməd Cavad isə...»[262].

Əhməd Cavad da Demokratik Respublikanın yaranmasında və yaşamasında xidmətləri olan - «Vətən bir fidandır enməz bayrağı» deyərək onun bayrağına, Milli Məclisinə, ordusuna nəğmələr qoşan, milli himninin sözlərini yazan şair kimi unudulmamışdı. Belə ki, 1923-cü il dekabr ayının 1-də Azərbaycan Fövqəladə Komissiyasının əməliyyat müvəkkili İvan Makarov «Müsavat» partiyasının işləri ilə tanış olduqdan sonra belə qərara gəlmişdir ki, Əhməd Cavad Axundzadə 1918-ci ildən «Müsavat» partiyasının üzvüdür. O, Batum şəhərindən - Abdulla Ağəlidən aldığı məktubdan aydın olur ki, «Müsavat» partiyasının Gəncə şəhərində də yaradılmasını təşkil edirmiş. Bundan başqa o, Quba şəhərində müəllim işləyərkən müsavatçı qrup təşkil etmiş və Bakıdakı müsavatçılarla əlaqə saxlamışdır. Eyni zamanda Axundzadə Mirzəbala Məmmədzadənin Bakı şəhərindən getməsi üçün ona pul vermişdir. Deyilənləri nəzərə alaraq təklif edirəm ki, Ə.Cavad həbs edilsin və Azərbaycan Fövqəladə Komissiyasının (Az. ÇK) islah evində ciddi nəzarət altında saxlanılsın.

İ.Maksimovun bu arayışından sonra 5 dekabr 1923-cü ildə Ə.Cavadın həbs edilməsi ilə əlaqədar olaraq 446 saylı order imzalandı. Orderin dekabr ayının 5-də imzalanmasına baxmayaraq, nədənsə o, dekabr ayının 5-də həbs olun-

---

[262] Əli Saləddin. «Əhməd Cavad». Bakı, 1992, səh. 322-323.

mamışdır. İstintaq işindəki materiallardan aydın olur ki, vətənpərvər və maarifpərvər şair Ə.Cavad noyabr ayının 21-də həbs edilmişdir. Onun haqqında doldurulmuş anketdəki «Nə zaman həbs olunmuşdur» sualının qarşısında yazılmışdır: «21 noyabr 1923-cü il». Bundan başqa onu ilk dəfə noyabrın 21-də, yəni həbs olunduğu gün, ikinci dəfə isə noyabrın 26-da dindirmişlər. Bu faktlar bir daha göstərir ki, çekaçılar Ə.Cavadı noyabr ayında həbs etsələr də onun həbs edilməsi ilə bağlı orderi dekabr ayında imzalamışlar.

Yuxarıda Makarovun təqdim etdiyi arayışdan da göründüyü kimi, Ə.Cavadı «Müsavat» partiyasının üzvü olmaqda və müsavatçılarla əlaqə saxlamaqda ittiham edirdilər. 1923-cü ilin 21 noyabrında onunla aparılan dindirmə zamanı biz bunun bir daha şahidi oluruq:

«**Sual:** Siz haçan və harada «Müsavat» partiyasına daxil olmusunuz və sizə zəmanəti kim vermişdir?

**Cavab:** Mən 1917-ci ildə Batum şəhərində müharibədə zərər çəkənlərə yardım təşkilatında işləyərkən məktəb yoldaşım Abdulla Ağəli oğlundan (hazırda vəfat edib) məktub aldım ki, Gəncədə «Müsavat» partiyası təşkil olunur. O dostcasına məni bu partiyaya yazdırıb. Mən 1918-ci ildə Batumda ailə həyatı qurdum və 1918-ci ilin əvvəllərində Gəncəyə köçdüm. 1920-ci ildə isə müəllim işləmək üçün Bakıya gəldim»[263].

Bütün bunlara görə də əhali kütləvi surətdə təqib və işgəncələrə məruz qalmışdır. Bu təqiblərdən yaxa qurtar-

[263] MTN-in arxivi. Ə.Cavadın istintaq qovluğu, 1923, PR - №20288.

maq və gizli mübarizələrini davam etdirmək üçün həbs edilənlər çox vaxt özünü müdafiə etməli olurdu.

Müəllimlikdən aldığı əmək haqqı hesabına yaşayan ailəsinin vəziyyəti onun həbsindən sonra daha da ağırlaşır. Ona görə də onun həyat yoldaşı Şükriyyə xanım Xalq Komisarlarının sədri Musabəyova 10 yanvar 1924-cü ildə yazdığı məktubda ərinin istintaqının sürətləndirilməsini xahiş edirdi: «...mənim ərim Axundzadə Cavad 2 aydan artıqdır Az.ÇK tərəfindən həbs edilib. Həbs olunmasının səbəbi bizə məlum deyil. Onun ailəsi 12 nəfərdən ibarətdi və hazırda onları saxlayan yoxdur. Nəzərinizə çatdırıram ki, onun ailəsinin vəziyyəti ağırdır. Xahiş edirəm Axundzadənin işini tez araşdırasınız. İmza Şükriyyə».

Onun həbsdən buraxılmasını təkcə həyat yoldaşı deyil, eyni zamanda maarif sahəsində çalışan şəxslər də xahiş edirdilər. Müraciət edənlər yaxşı anlayırdılar ki, Ə.Cavadın yoxluğu təkcə ailəsi üçün deyil, Azərbaycan ədəbiyyatı, mədəniyyəti və maarifi üçün itkidir. İş o yerə çatmışdır ki, 19 dekabr 1923-cü ildə Xalq Maarif komissarının özü Az.ÇK-nın sədri M.Bağırova məktubla müraciət edərək onun həbsxanadan azad olunmasını xahiş etmişdir. Həmin məktubdan oxuyuruq: «Hazırda həbsxanada olan müəllim Axundzadə Cavad Xalq Maarif Komissarlığının fəhlə fakultəsinin və digər təhsil ocaqlarının yararlı müəllimlərindən biridir. Ona görə də Xalq Maarif Komisarlığı Sizdən xahiş edir ki, əgər mümkündürsə bunları nəzərə alasınız və onun həbsdən azad olunması işini sürətləndirəsiniz»[264].

[264] MTN-in arxivi. Ə.Cavadın istintaq qovluğu, 1923, PR - №20942.

Xalq Maarif komitəsinin göndərdiyi məktubun üzərində iki dərkənar vardır ki, onları da oxucularla bölüşdürmək istərdik. 23 dekabr 1923-cü ildə yazılmış həmin dərkənarda bildirilir ki, o, qatı müsavatçı kimi tamamilə susur. Onu heç bir vəchlə azad etmək olmaz.

Maraqlıdır ki, dərkənar sahibi Ə.Cavadın həqiqətən gərəkli bir adam olduğunu dərk etmək əvəzinə onu müdafiə edənlərlə maraqlanır, dərkanarda imza və tarixdən sonra «İnteresno, kto za neqo xlopoçet» sözlərini yazmağı da unutmur.

Belə bir dövrdə cəsarət edib çekaya bu məzmunda məktub yazmaq o qədər də asan deyildi. Çünki o illərdə Cavadları müdafiə edənlərin özləri də nəzarətə götürülür və həbs edilirdilər. Bizcə belə bir məsuliyyəti öz üzərinə götürmək hər şeydən öncə bir müəllim kimi Ə.Cavada və onun sənətinə olan sevgidən irəli gəlirdi.

25 dekabrda qoyulmuş ikinci dərkənarda oxuyuruq: «Nado slomat eqo upornoe molçanie».

Göründüyü kimi, müraciət və xahişlər həbs olunana əlavə bəlalar gətirirdi. İndi məqsəd onun dilini açmaq idi. çeka həbsxanalarında «dil açmaq üsulu» cinayətkara çox baha başa gəlirdi. Vaxtı ilə Xalq Daxili İşlər Komissarlığında (XDİK) işləyən Qoryayev Fyodor Yakovleviç həmin orqanlardakı «dil açma» üsullarını və metodlarını belə xarakterizə edirdi: «Bunun üçün şöbələrdə xüsusi «silahlar» olurdu. Məsələn, şöbə müdiri Qriqoryan da xüsusi dəstəkli qalın kəmər vardı. Həmin kəmərin uzunluğu 50-60 sm, qalınlığı, təqribən iki barmaq enliyində idi.

Xətkeşin tilindən, nazik çubuqdan, hətta təyyarə trosundan da eyni məqsədlə istifadə edirdilər.

Dustaqların otağın küncündə uzun müddət saxlanmasından, yəni «stoykadan» da geniş istifadə olunurdu. Həmin dustaqları 2-3 sutka fasiləsiz olaraq ayaq üstə saxladıqdan sonra 2-3 saatlıq kameraya - «istirahətə» aparır, sonra yenə də həmin işgəncəni davam etdirirdilər. Ta ki, dustaq günahkar olduğunu boynuna alsın.

Həmin üsul dustaqlara şöbə müdiri Xoren Qriqoryanın birbaşa göstərişi ilə tətbiq olunurdu. Onun icazəsi olmadan həmin üsuldan istifadə edilmirdi.

Ayrı-ayrı əməliyyat müvəkkilləri, məsələn, Kryuçenkov belə bir üsula da əl atırdı. «Stoykaya» qoyulmuş dustağı gimnastika hərəkətləri etməyə, məsələn oturub-durmağa məcbur edirdilər. 30-40 dəfə oturub-qalxandan sonra bəzi dustaqlar halsızlaşıb döşəməyə yıxılırdılar.Kryuçenkov onları küçə söyüşü ilə söyür gimnastika ilə də məşğul ola bilmədiklərini söyləyir və onları yenidən küncdə durmağa məcbur edirdi. Bütün bunları o, şəxsi əyləncəsi üçün, zarafat xatirinə, necə deyərlər, məzə üçün, dustaqlara nəzarəti zamanı darıxmamaq üçün edirdi.

Bütün işgəncələr, bir qayda olaraq, gecə vaxtı həyata keçirilirdi. Dustaqları gündüz yox, yalnız gecələr döymək barədə Qriqoryan hər birimizə tapşırıq vermişdi. Hətta «stoykaya» qoyulmuş müttəhimlər belə kabinetin uzaq küncünə keçirilir, onların qapı açılarkən dəhlizdən görünmələrinə yol verilmirdi. Mən bir faktı da deməyə bilmirəm. Təqribən 1937-ci ilin dekabrında Qriqoryan 11-ci şöbəyə müdir təyin olunanda şöbə müdirləri vasitəsi ilə bü-

tün müstəntiqlərə belə bir cinayətkar əmr verdi: bu və ya digər iş üzrə çalışan hər bir müstəntiq dustağın işini o yerə gətirib çıxarmalıdır ki, xalq komissarı Sumbatov, daha sonra isə Rayev həmin müttəhimi «1-ci kateqoriyaya» aid edə bilsin, Ali Sovetin hərbi kollegiyası və ya hərbi tribunal həmin dustağı ən yüksək cəzaya - güllələnməyə məhkum edə bilsin.

Bu zaman dustağın həqiqətən günahkar olub-olmamasının heç bir əməli əhəmiyyəti yox idi. O, istintaq zamanı özünü əksinqilabi təşkilatın üzvü olmaqda günahkar saymalı, onu bu işə təhrik edəni və təşkilatın digər üzvlərinin adını çəkməli idi. Bütün bu məlumatları isə müstəntiqlər yalnız bir yolla - dustaqların mənəvi və fiziki işgəncələr, əzab-əziyyət verməklə əldə edirdilər.

1938-ci ilin sonunadək işi hərbi tribunalın sərəncamına göndərməzdən əvvəl xalq komissarları Sumbatov, Rayev, xalq komissarının müavini Borşev və şöbə müdiri Qriqoryan dustağın taleyini həll edirdilər: onu hansı «kateqoriyaya» aid etmək məsələsinə baxırdılar: «birinci kateqoriya» - güllələnmə, «ikinci kateqoriya» isə həbs düşərgəsi demək idi.

Şəxsən mən elə bir hadisə xatırlamıram ki, Sumbatov, Rayev, Borşev və Qriqoryanın «birinci kateqoriyaya» aid etdiyi dustaq güllələnməyə məhkum olunmasın. Bunun üçün dustağın hərbi kollegiyanın məhkəmə iclasında özünün antisovet təşkilatın üzvü olduğunu boynuna alması kifayət idi. Bu isə aşağıdakı yolla əldə edilirdi.

İş üzrə istintaq qurtarandan sonra, xüsusilə də hərbi kollegiyanın gəlişindən qabaq Qriqoryanın göstərişi ilə

hər bir dustağın üzərində cidd-cəhdlə iş aparılırdı. Onu müxtəlif yollarla inandırırdılar ki, əgər o, məhkəmə zamanı özünü günahkar sayıb, əksinqilabi təşkilatın üzvü olduğunu səmimiyyətlə boynuna alsa onda onun həyatının mühafizə olunmasına təminat verilir. Əgər əvvəlki ifadələrindən imtina etsə onsuz da məhv ediləcək və xalq düşməni kimi güllələnəcək.

Hərbi kollegiya hər gün 60-70 adamın işinə baxırdı. Əvvəlcə birinci kateqoriyaya aid edilənlərin işinə baxılırdı, sonra isə o birilərin. Bütün yığıncaqlar kobud, mən deyərdim ki, cinayətkar qanun pozuntuları şəraitində keçirdi. Onu demək kifayətdir ki, əgər bir iş üzrə məsuliyyətə bir neçə nəfər cəlb olunurdusa, onların hamısı eyni vaxtda məhkəmə salonuna çağırılırdı. Bir-birindən təcrid olunmuş şəkildə ifadə verirdilər. Bir qayda olaraq, sədirlik edən hər bir müttəhimə eyni iki sualı verirdi: Müttəhim özünü günahkar sayırmı və əksinqilabi təşkilatın üzvü olubmu? Hər bir müttəhimin dindirilməsinə cəmisi 2-3 dəqiqə vaxt ayrılırdı.

Şəxsən mən belə hesab edirəm ki, hərbi kollegiyanın məhkəmə iclasları sadə adamlara divan tutulmasında formal bir şey di. Dustaqların taleyini faktiki olaraq NKVD rəhbərləri, onların müavinləri və şöbə müdirləri həll edirdi.

Müstəntiqlər iş keyfiyyətinə, siyasi və əməli hazırlığına, agentura ilə işləmək qabliyyətinə görə yox, dustaqdan yalan ifadələr ala bilmək məharətinə görə qiymətləndirilirdi. Dustaq nə qədər çox əksinqilabi təşkilat nümayəndələrinin adını çəksə idi, müstəntiq bir o qədər çox təriflənərdi. Müstəntiqin xidmət tərcümeyi-halı, onun işlədiyi

müddətdə güllələnməyə məhkum etdiyi dustaqların sayı ilə müəyyən olunurdu. Güllələnmə qərarı nə qədər çox olsa idi onu çıxaran müstəntiq də bir o qədər qiymətli hesab olunurdu.

Odur ki, müstəntiqlərin çoxusu hansı yolla olursa olsun, dustağı daha çox əksinqilabi təşkilat nümayəndəsinin adını çəkməyə, onlara böhtan, ləkə atmağa məcbur edirdi.

Bu cür «mütəxəssis»lərdən 11-ci şöbədə daha çox şöbə müdiri Qriqoryan, onun köməkçisi Aksuanov, şöbə müdiri Kudin, əməliyyat müvəkkili Kryuçenkov şöhrətlənmişdilər. Onu demək kifayətdir ki, onların istintaqa cəlb etdikləri müttəhimlərin əksəriyyəti məcburiyyət qarşısında özlərini günahkar saymış, hər biri onlarla başqa adamın adını çəkərək onların məhvinə səbəb olmuşlar».

Bizcə, siyasi repressiya ilərində müttəhmlərin hansı şəraitdə və necə ifadə vermələrinə əlavə şərhə ehtiyac yoxdur.

Bu cür təzyiqlər altında ifadə verməsinə baxmayaraq, yenə də Ə.Cavad özünün günahkar olmadığını bildirir və 2 fevral 1924-cü ildə Az.ÇK-nın sədrinin müavininə yazdığı ərizədə göstərirdi ki, «məni «Müsavat» partiyasının işlərinə görə həbs ediblər. Guya mən S.T.Sadıqova demişəm ki, mənim yanıma kim isə gəlib və Mirzəbala üçün pul istəyib. Bildirirəm ki, bu yalandır və mən 1920-ci ildən sonra Müsavatda işləməmişəm və gələcəkdə də işləməyəcəyəm. Əgər gələcəkdə müəyyənləşdirilsə ki, mən Mirzəbala ilə əlaqə saxlamışam onda məni ən yüksək cəzaya məhkum edərsiniz»[265].

[265] Mir Cəfər Bağırovun məhkəməsi. Bakı, 1993, səh 103-105.

Məktubdan da göründüyü kimi, Ə.Cavada müxtəlif fiziki cəza vermələrinə baxmayaraq dilini aça bilməmiş, ona görə də 1924-cü ilin 2 fevralında 952 saylı azad etmə orderi imzalamışlar.

Azad etmə orderinin imzalanmasında Quba qəzasında maarif müdiri işləyən, şairin sədaqətli dostu Hüseyn Musayev də az rol oynamamışdır. Şairin həyat yoldaşı Şükriyyə xanım o günləri belə xatırlayır: «Cavad Quba qəzasında Mir Cəfərlə bir yerdə işləyəndə orada maarif şöbəsinin müdiri olan Hüseyn Musayev Cavadın taleyindən xəbər tutur, Bağırovla görüşür, Cavadın günahsız olduğunu ona başa salır. Ə.Cavadın adını «Qırmızı siyahı»dan pozdurur. Sonralar öyrəndik ki, bu «Qırmızı siyahı» deyilən siyahı, güllənəcək adamların siyahısı imiş. Cavad azad edilib evə qayıdır. O, otura bilmirdi, zopaların yeri qapqara qaralmışdı. Bir aya yaxın yanına təpitmə qoyduq. Yaxşı anamla (Yaxşı Ə.Cavadın anasıdır - C.Q) birləşib onu sağaltdıq»[266].

Az.ÇK-nın əməkdaşlarından Teymur Quliyev 952 saylı istintaq işi ilə tanış olaraq 2 fevral 1924-cü ildə müəyyənləşdirmişdir ki, Ə.Cavad 1918-ci ildə «Müsavat» partiyasına daxil olmuş və 1920-ci ilə kimi həmin partiyada fəaliyyət göstərmişdir. Ondan sonra bu partiya ilə əlaqə saxlamamış və onlarla bütün əlaqəsini tamamilə kəsmişdir. Ona görə də T.Quliyev onun həbsxanadan buraxılması qərarına gəlmişdir.

---

[266] Əli Saləddin. «Əhməd Cava», Bakı, 1992, səh. 208.

5 fevral 1924-cü ildə Az.ÇK-nın rəyasət heyəti belə bir qərar çıxarmışdır ki, Axundzadə Cavad həbsdən azad edilsin, şəxsi sənədləri qaytarılsın və iş dayandırılsın.

Beləliklə şairin dilini aça bilmədiklərindən onu azad etdilər. Lakin bu «azadlıq» şairin istədiyi azadlığa bənzəmirdi, zəncir və buxovlar yenə də qollarında idi. Şair fikri, düşüncəsi, xalqı, milləti, Vətəni ilə birgə azad olmaq istəyirdi.

Vaxtı ilə bu cəhəti A.Səhhət şeirlərinin birində belə ifadə edirdi:

Vətənə, millətə məni sanma dildadə,
Yazmaq olmaz, fəqət olmazsa, qələm azadə,

Ə.Cavad azad olduqdan sonra da bir şair kimi mübarizəsini davam etdirmişdir. 1924-cü ildən sonra onun yaradıcılığında simvol və rəmzlərə əvvəlki illərlə müqayisədə daha çox yer verilmişdir.

1916-cı ildə Ə.Cavad yazırdı:

Oldun yadlar oyuncağı,
Yurdun arsızlar ocağı.
Tapınma azğın şeytana,
Yüksəldi «birlik» sancağı!
Sən ey yatan oyan, oyan!
Qiyamətdir, olmuş əyan!

1918-ci ildə H.Cavid yazırdı:

Çox əzildin, yetər, ər oğlu ər ol,
Çırpınıb çareyi xilas ara, bul!

Göründüyü kimi, o dövrün sənət adamları millətin oyanması və azadlığı uğrunda mübarizəyə qoşulması məsələsini ciddi şəkildə qoyurdular.

Ə.Cavad da bu müqəddəs və ülvi hisslərdən bəhrələnmiş, müəllimlərinin yolunu uğurla davam etdirmişdir.

XX əsrin ilk iyirmi ilində yaranan və formalaşan ədəbiyyatda «atılan toplara diksinməyən» (M.Ə.Sabir) millətə daha çox «oyan», «ayıl» və «çırpın» xitabı, həmin əsrin son iyirmi illiyində isə «Qalx ayağa, Azərbaycan!» nidası eşidilirdi.

Bütün bunlar göstərir ki, şairlər və illər, illər və nəsillər arasında ənənə qırılmamış, təqib və təzyiqlərə baxmayaraq bu müqəddəs ənənə zaman-zaman daha da inkişaf etmişdir.

1920-ci ildən sonrakı illərdə Azərbaycan ədəbiyyatında azad vətən və azad millət yanğısı daha da güclənmişdir.

Bizcə, bu problemin özünə də iki aspekdən yanaşılmalıdır.

Azərbaycanda yaşayan, təqib və təzyiqlərə məruz qalan yazıçılar və mühacirətdə olanlar.

Bu sənət adamları təqiblərdən yaxa qurtarmaq üçün öz yaradıcılıqlarında sovetləşmənin ilk illərində açıq deyə bildiklərini sonrakı mərhələdə pərdələməklə verməyə məcbur olmuşlar. Bəzən onlar öz mübarizələrini açıq şəkildə aparmışlarsa da bu keçici xarakter daşımışdır. Belə ki, şairə Ümmügülsüm 1920-ci ildə yazdığı «Bayrağım enərkən» adlı şeirində Azərbaycanın milli bayrağı endirildiyindən «üzərinə doğacaq günəşlərdən» bezdiyini bildirir və öz fikirlərini açıq-aydın ifadə edirdi:

Sən Bayrağım! O yüksək şanlarınla enərkən,
Mavi göyə bir duman gəldiyini sezdim mən.
Qoynundakı ağ nurlu ay-yıldızım sönərkən,
Üzərimə doğacaq günəşlərdən bezdim mən.

Lakin sonrakı illərdə sərt, totalitar rejimi gördüyündən və həyat yoldaşı Seyid Hüseynin 14 iyun 1923-cü ildəki həbsindən sonra o da öz fikirlərini bir qədər üstüörtülü verməyə məcbur olmuşdur.

30-cu illərdə bu cür alovlu şeirlərinə görə 8 il müddətinə Sibirə sürgün edilən şairə «Hicran» adlı şeirində gələcəkdə azadlıq günəşinin yenidən döğacağı ümidi ilə yaşayırdı:

Günəşim bir daha doğmayacaqmı?
Vəhşi qaranlığı boğmayacaqmı?
Kölgələri şəfəq qovmayacaqmı?
Sordum, ümidini qırma dedilər.

Bu illərin ağrı-acılarını yaşayan, «qorxulu bir düşmən» kimi əvvəlcə Dağıstana, 30-cu illərdə isə Türkmənistana sürgün edilən, oradan İrana qaçan, olmazın işgəncələrini çəkən, sonra Türkiyəyə gedən Almas İldırımın (1907-1952) «Əsir Azərbaycanım» şeirində oxuyuruq:

Hanı məni gül qoynunda doğuran,
Xəmirimi göz yaşı ilə yoğuran,
Beşiyimdə, «layla balam» çağıran...
Azərbaycan, mənim baxtsız anam oy...
Neçə ildir həsrətinlə yanam oy...

Salam desəm, rüzgar alıb götürsə,
Ağrı dağdan Alagözə ötürsə,
Gur səsimi göy Xəzərə yetirsə
Xəzər coşub zəncirini qırsa oy...
Hökm etsə bu sərsəm gediş dursa oy...
Xəbər alsam Muğanımdan, Milimdən,
Nazlı Bakım, o neft qoxan gülümdən,
Kim demiş ki, düşmüş adı dilimdən...
Azərbaycan mənim eşqsiz yurdum oy...
Ölməz eşqim, içimdəki dərdim oy!..
Könlümə tək Kəbə etdim səni mən,
Sənsiz neylim qürbət eldə günü mən,
Sənsiz neylim Allahı mən, dini mən...
Azərbaycan, mənim tacım, taxtım oy!..
Oyanmazmı kor olası baxtım oy!..

Didərgin şair «Əlvida Bakı» adlı şeirində Azərbaycanı əsir edən qüvvələrin adını və ünvanını da göstərir.

Mühacir ədəbiyyatında hiss, duyğu və nisgil, Vətən həsrəti sonradan siyasi məzmun kəsb edir. Belə ki, «Əlvida, Bakı!» şeirində şair Bakını - boya - başa çatdığı Çəmbərəkənd və Pirvənzəli məhlələrini necə həsrətlə andığını, axırıncı bəndlərdə isə Azərbaycanı əsir edən qüvvələrin konkret ünvanını göstərir:

Bax nə deyir yenə bu coşqun Xəzər
Qoynunda Şimaldan gələn yad gəzər,
Bu dərddir ki, məni ömrümcə əzər,
Salır məni haldan hala əlvida...

İstiqlal şairlərinin demək olar ki, hamısı ən çətin anlarında dağa, suya, selə müraciət etmişlər. Şifahi xalq ədəbiyyatında, Azərbaycan xalqının mifik təfəkküründə dağ və su həmişə saflıq, təmizlik, güc və qüvvət rəmzi kimi yad edilmişdir. Sanki bu şairlər də öz itirdiklərini dağa, suya tapınmaqda, ondan yeni güc almaqda görmüşlər. A.İldırımın «A dağlar» şeirində oxuyuruq:

Çiçəkli qoynunda bir bağça tikdim,
Suvarıb onu mən göz yaşı tökdüm,
Gecə-gündüz əməyini mən çəkdim.
Yoldu meyvəsini ellər, a dağlar!..

Meyvəsini yadlar dərən ölkəsinə yenidən qayıdacağını, onu yadlara verməyəcəyini bildirən A.İldırım yazırdı:

Bir gün gəlir qoşaraq yurdumun harayına,
Mən atəş edəcəyəm düşmanın sarayına,
Nə düşər yurdu getmiş bir igidin payına:
Ya şərəfli istiqlal, ya qızıl qan, a dağlar!

Ə.Cavad da Gəncə şəhərində yazdığı «Azərbaycan» şeirində Müstəqil Azərbaycanından ayrı düşdüyünə işarə edir və bildirirdi ki, səndən ayrı düşdüyümdən ilhamımın nəfəsi kəsilmiş, əgər belə olmasaydı mən sənə şairlik edərdim:

Nə gücdür ayrılıq doymamış yardan,
Artırdı dərdimi hər keçən karvan!
Duysaydım səsini bir yanıq tardan,
Bilməsən nə söylər, neylərdim sana!

Boğar dəryasından bir quşun səsi,
Söylər ki, könlünün yox mu gecəsi?
Sənsiz ki, ilhamın gəlməz nəfəsi,
Gəlsəydi şairlik eylərdim sana!

Burdan belə bir nəticəyə gəlmək olmaz ki, Ə.Cavad bədbin idi. O, da bir çox şair dostları kimi xoş gələcəyə olan ümidini itirmir, gec-tez vüsalla qucaqlaşacağını elan edirdi.

Hicranlar, ələmlər, tufanlar içrə
Qısıq bir səs kimi öləcəyəm bən!
Böylə göz yaşıyla keçən ömrümün
Sonunda bir acı güləcəyəm bən!

Eşqimin nə imiş bilməm günahı?
Yıxıldı qəlbimin istinadgahı.
Nəsibim olsada dünyanın ahı,
Bir gün göz yaşımı siləcəyəm bən!

Yaxında didarın nəsib olmasa,
Ümidsizlik bəni düşürməz yasa!
Alaraq əlimə dəmirdən əsa
Bir gün hüzuruna gələcəyəm bən!

Tutuldum tufana sarıldım sana,
Sən ey qırıq qələm, gəl bir tüğyana!
Dözmək güc olarsa böylə hicrana,
Səninlə dərdimi böləcəyəm bən!..

«Peyğəmbər» şairinə müraciətlə yazdığı «Ay»a şeirində də o gözəl günləri unutmadığını bildirirdi:

Kiçik bir quş kimi kölgəsiz, adsız
Uçduqca uçardım qolsuz-qanadsız.
Əsla keçməyirdi günlərim hədər,
Ah o gözəl dəmlər, o gözəl günlər.

Tarixi keçmişin tərənnümü hakim dairələrin maraqlarına uyğun gəlmirdi. Çünki tarixi keçmişin tərənnümü hər şeydən öncə bu xalqın ulu keçmişə malik olduğundan soraq verirdi. «Göy göl» şeirində müəllif imperiya tərəfindən «dəfn edilən» böyük bir dövlətin yaşadığını simvollarla göstərirdi:

Sənin gözəlliyin gəlməz ki, saya,
Qoynunda yer vardır yıldıza, aya!
Oldun sən onlara mehriban daya,
Fələk büsatını quralı, Göy göl.

Göy gölün qoynunda yer verib dayəlik etdiyi ay, ulduz rəmzdir. Bununla şair 1918-20-ci illərdə Azərbaycanın səmasında dalğalanan ay-ulduzlu bayrağına işarə edirdi. Bədxahlar tərəfindən yerə endirilən bayrağı şair müqəddəs bir varlıq kimi dağa - Kəpəzə söykənən, bakirəlik, paklıq və gözəllik rəmzi kimi verilmiş Göy gölün qoynunda gizlətmişdir. Əslində gizlətməmiş Göy gölə əmanət etmişdir. Fikrimizcə, Göy göl yaddaşın, onun söykəndiyi dağ isə xalqın, duman isə içində yaşadığı zamanın rəmzi-

dir. Deməli, Ə.Cavad AXC-nin bayrağını zamandan - dumandan və tufandan qorumaq üçün çox möhkəm bir yerə, xalqın yaddaşına əmanət etmişdir. O, yaxşı bilirdi ki, bu xalqın mentalitetində əmanətə xəyanət yoxdur. Həm də bu bayrağı ona görə yaddaşa əmanət etmişdir ki, milli oyanışlar, fırtınalar və intibahlar zamanı o yenidən dalğalandırılsın. «Bir kərə yüksələn bayraq bir daha enməz» hökmünü verən M.Ə.Rəsulzadə də şübhəsiz ki, xalqa və onun yaddaşına söykənirdi.

Sual doğur, Ə.Cavad bu bayrağı nə üçün Xəzərə yox, Göy gölə əmanət etmişdir? Əvvala bayraqda öz əksini tapmış ay-ulduz ən gözəl rəmzlər kimi göydən, ucalıqdan, yüksək bir yerdən alınmışdı. Bu ucalıq və gözəllik Göy gölün adında və hüsnündə öz əksini tapmışdı. Digər tərəfdən isə Xəzərə yaxın olan Bakıda oraq çəkicli bolşevik bayrağı dalğalanırdı. Professor Yaşar Qarayevin təbirincə desək, oraq biçmək, çəkic isə əzmək, döymək üçün bolşeviklərə lazım idi. Ucalıqdan, göydən gələn ayı, ulduzu biçilmək və əzilməkdən qorumaq üçün onu bir az uzağa aparmaq lazım idi.

«Göy göl» şeirində Azərbaycan bayrağındakı rəng çalarlarını da görmək çətin deyildir. Şair «göy», «yaşıl» sözlərini işlətdiyi halda «qırmızı» sözünü işlətməmişdir. Qırmızı sözünü isə «Bəzənmiş eşqinlə çiçəklər, otlar» misrasındakı «bəzənmiş çiçəklər»in arasında gizlətmişdir. Əslində bəzənmiş çiçəklərin və otların arasında bu üç rəngin üçü də aydın görünür.

Ə.Cavadın «Göy göl» şeiri 8 bənddən ibarətdir. Şairin tanınmış tədqiqatçılarından olan Əli Saləddin bu şeirin 8

bənddən ibarət olmasını belə izah edir: «Sual oluna bilər ki, niyə klassik şairlərin əksəriyyəti daha artıq «7» rəqəmlərini işlətdikləri halda Ə.Cavad «8» rəqəminə üstünlük vermişdir? Dünyanın «Yeddi möcüzəsi» olduğu da məlumdur. Bəs bu «8» hardan gəldi? Bizim fikrimizcə həmin «8» Ə.Cavadın 8-ci möcüzəsidir»[267].

Bizcə, Ə.Saləddinin işlətdiyi «7 rəqəmlərini» ifadəsi dəqiq ifadə olunmamışdır. Əgər söhbət klassik şairlərdən gedirsə onlar «7» rəqəminə o qədər də üstünlük verməmişlər. «4, 7 və 40» rəqəmləri və 7 hecalı şeir daha çox şifahi xalq ədəbiyyatında işlədilmişdir. 7 bəndlik şeir nümunələri də klassik şairlərdən daha çox Ə.Cavadın müasirlərinin yaradıcılığında istifadə olunmuşdur. Ə.Saləddindən fərqli olaraq biz bu qənaətdəyik ki, Ə.Cavad bu şeiri bilərəkdən «8» bənd etmişdir. Bu «8» Azərbaycanın bayrağında öz əksini tapmış ulduzun 8 güşəsinə işarədir.

Ümumiyyətlə, Ə.Cavadın təbiətlə bağlı lirik şeirlərinin nüvəsində xalqın, millətin tarixi və taleyi dayanır. Bu şeirlərdə təbiətin təsviri ikinci plana keçir və öz yerini Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələrin poetik təqdiminə verir.

Total rejimin təqibinə məruz qalmamaq üçün cəmiyyətdə baş verən ictimai-siyasi hadisələri başqa əşyaların, xüsusilə təbiətin üzərinə köçürmək ədəbiyyatda yeni hadisə deyildi. Vaxtı ilə Ə.Xaqani də dövrünün eybəcərliklərini tənqid etdiyindən həbs edilərək «Şabran» qalasına atılmış, Nizami də «qulluq halqasına düşdü qulağım» de-

---

[267] Əli Saləddin. «Əhməd Cava», Bakı, 1992, səh. 169-170.

yərək zəmanədən şikayətlənmiş və bəzən fikrini başqa əşyaların üzərinə köçürmüş, alleqorik obrazlarla ifadə etmişdir:

Eşşək başına yaraşmayır qızıl tac,
Eşşək üçün yaranmışdır, noxta, palan və ağac

Akademik Məmməd Cəfər yazır: «bəzi hallarda, xüsusən irticanın amansız olduğu illərdə bu yazıçılar özlərinin siyasi-ictimai görüşlərini açıq bildirmək imkanından məhrum olduqları zaman, rəmzi, simvolik obrazlardan, təşbehlərdən istifadə etməyə, ictimai həyat hadisələrini daha çox təbiət təsvirləri yolu ilə verməyə məcbur olurdular. Əslində diqqət edilsə, Şərq şeirində də bu eyhamlı obrazlar sisteminin çox işlənməsinə səbəb elə məhz Şərqdə ruhani və cismani despotizmin uzun əsirlər hökm sürməsinin, azad fikirli mütəfəkkir şairlərin təqib edilməsinin nəticəsi olmamışdırmı? Klassik şairlər də, Axundovun Mollayi-Rumi haqqında dediyi kimi, beləcə rəmzi obrazlar sistemi ilə «məğzi-mətləbi gizlətməyə məcbur olurdu»[268].

Ə.Cavad da irtica və istibdaddan yaxa qurtarmaq üçün təbiət təsvirləri ilə yanaşı, təbiətin özünə müraciət edir, mövzunu da təbiətdən götürür, «məğzi-mətləbi» gizlədir. Digər tərəfdən təbiətə müraciət şairə dünəni, keçmişi, süni surətdə unutdurulmuş tarixi xatırlatmaq üçün lazım idi.

---

[268] Məmməd Cəfər. «Seçilmiş əsərləri», 2 clddə, II cild, Bakı, 1974, səh. 71-72.

O, təbiətin şəkilini çəkmir, ona ictimai-siyasi məzmun verir.

«Göy göl» şeirinə görə həbs edilən Ə.Cavad azadlığa buraxıldıqdan sonra «Ey Göy gölüm» adlı bir əsər də yazır. Həmin əsərdə mübariz şair həbs olunduğundan peşiman olmadığını, bu dar qəfəsin də Göy göl olduğunu zənn edir. Füzulinin qəhrəmanı Məcnunu da «ağıllandırmaq» üçün ibadətgahlara aparırlar, o isə hər yerdə Leylisini görür. Çünki onda Leyliyə eşq vardır. Ə.Cavad da Göy gölə aşiqdir. Çünki o dağlara tapınan Göy göldə müstəqilliyini və azadlığını «gizlətmişdir»:

Nəsən, kimsən sən?
Nisgilimsən sən!
Qoy açıq deyim,
Sevgilimsən sən!
Borana düşdüm,
Yüz qana düşdüm!
Adını çəkdim,
Zindana düşdüm!
Könlüm tel olsun!
Yaşım sel olsun!
Bu dar qəfəs də
Qoy Göy göl olsun!..

Azərbaycanlı mühacir şair doktor Alazan Baycan 1972-ci ildə Ə.Cavadı anaraq yazdığı eyni adlı şeirində «Göy göl»dəki rəmzləri «soyundararaq» öz fikirlərini belə ifadə edirdi:

Qurtulmaq istədi bu gözəl yurdun,
Çardan ayrılaraq bir dövlət qurdun.
Yeni Qızıl çara sən qarşı durdun,
Yetmədi qüvvətin savaşa, Göy göl!

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, bu şeirdə siyasi motivlər güclüdür. Maraqlıdır ki, şair 1937-ci ilin 25 iyulunda verdiyi ifadəsində də, «Kür» poemasında və «Göy göl» şeirində müsavatçı ideyalarının olduğunu təsdiq edir və bildirirdi ki, mən öz şeirlərimdə (o, «Kür» və «Göy göl» şeirini nəzərdə tuturdu - C.Q.) əksinqilabi millətçi ideyalarımı davam etdirirdim[269].

Əsərlərinə, xüsusilə də «Göy göl» şeirinə görə başı olmazın bəlalar çəkən, həbsxana künclərinə atılan şair dövri mətbuatda da tez-tez tənqid atəşinə tutulurdu. Bu tənqidlərdən yaxa qurtarmaq üçün o özü də mətbuat səhifələrində çıxış etmək məcburiyyətində qalırdı. «Kommunist» qəzeti 19 noyabr 1929-cu il, 271-ci sayında çap etdirdiyi «İzah» adlı məqaləsində yazırdı: «Göy göl» özü-özlüyündə lirik bir parçadır. Onun belə olduğundan ümumiyyətlə lirizmə məxsus bir səciyyə etibarilə, müxtəlif mənalar verilə bilər. Lakin nə «Göy göl»də, nə də mətbuatda çıxan başqa yazılarımda bilxassə 1924-cü ildən sonra heç bir siyasi məqsəd tutduğum yoxdur. Şeirimdəki hüzn və üzüntü yalnız şəxsidir, özümə aiddir. Böylə bir hüznün ta cocuqluğumdan başlayaraq yazmaqda olduğum parçaların cümləsində olduğunu ədla uğraman yoldaşlar da çox gö-

[269] MTN-in arxivi. Ə.Cavadın istintaq qovluğu, 1937, PR - №22316.

zəl bilir. Bən burada böylə bir hüznün bu günkü ədəbiyyata da xeyirli olduğu deyil, bəndəki hüznün siyasi olmadığını söyləmək istəyirəm».

Həqiqətən də, onun yaradıcılığında hüzn, qəm, kədər motivləri vardır. Şair 1921-ci ildə yazdığı «Kölgəm ilə mən» şeirində öz kölgəsinə müraciət edərək ondan uzaq durmasını tələb edir. Kölgəsi isə onunla bir saatda dünyaya gəldiyini və ayrılmayacağını bildirir. Fikrimizcə, şairin daxili dialoqa girdiyi kölgə elə həmin hüzn və ağrılardır ki, onunla birgə doğulmuşdur. Şair burada onu məcazi mənada kölgəsi kimi təqdim etmişdir.

Bir gün bezdim, mən kölgəmə dedim ki:
– Bəsdir daha, əl götür bir yaxamdan!
Gecə-gündüz işin-peşən yox mudur?
Çəkilməzsən bir dəqiqə arxamdan.
Uf deməm, aylar-illər uzunu,
Mən görməsəm o mübarək üzünü!

Kölgəm dedi: – Ey vəfasız, səninlə
Bir saatda gəlmədikmi dünyaya?
Dadsız ömrü nə eylərdim? Əzəldən,
Mən səninçün düşmədimmi qovğaya?
Eh, bilsən də, bilməsən də eyniyik–
Mənə qalsa biz ayrılan deyilik.

Başqa bir şeirində oxuyuruq:

Gündüzüm tar, gecəmsə yox,
Sevincim az, kədərim çox!

Dilim qabar, sözüm «ah», «ox»,
Ah amandan ayrılmaz!

Və yaxud da:

Nə gözəl giryədir, bu giryə xuda?!
Nə qədər dilfərib por sevda!
Giryeyi-qəmmi? Ya ki həsrətmi?
Hasili hüzn, ya məsərrətmi?
Giryə həm xəndəyə edər mail,
Seyr edən kimsəyi qılar sail.
Bilməzəm ağlayımmı bu halə?
Güləyim qoysa kətmi əhvalə?
İki sevdazadə bulub vəslət,
Hicr əlindən tutub dilər fürsət!
Ağlamaq hicridən şikayətdir,
Xəndələr firqətə nəhayətdir![270]

Ə.Cavaddakı hüzn və kədər şairin özünün dediyi kimi «şəxsi» idisə, yəni təbiətindən, içindən gəlirdisə, onun digər mənbəyi isə romantizmdən gəlirdi. Hətta romantiklərin bəziləri insan kədərindən yazmağı sənətkarın vəzifəsi hesab edirdi. Dərdin, kədərin, qəmin poeziyaya gəlişi XX əsrdən çox-çox əvvələ təsadüf edir. Lakin dərd bir obraz kimi özünü böyük Füzulidə tapmışdır. Təsadüfi deyildir ki, Füzuli dərdə öz sevgilisi kimi eşq elan edir.

[270] Cavad Ə. «Seçilmiş əsərləri», 2 cilddə, I cild, Bakı, 1991, səh 43.

Mən sevirəm bəlanı,
Çün sevir bəla məni.

Yaxud da

Ya rəb, bəlayi eşq ilə qıl aşina məni,
Bəlayi eşqidən qılma, bir dəm cida məni.

XX əsrin romantiklərində dərd, kədər və qəm Füzulidən fərqli olaraq daha çox ictimai-siyasi məzmun kəsb edir.

İldırımlar saçaraq fırtınalar icad et!
Nəzmə çək qəmli təəssürlərini inşad et!

A.Səhhətdən gətirdiyimiz bu beytdən də aydın olur ki, şair öz həmkarlarına müraciət edərək onları «qəmli təəssürlərini» - ictimayi həyatdakı eybecərlikləri yazmağa çağırırdı. Həmçinin Hadi «Şair, hücreyi-iştiğalı və düşüncələri» şeirində şairə müraciətlə yazır:

Nə qəmlidir, nə ələmli həyatın ey şair!
Edərmi şad səni sanihatın, ey şair?

Bir az sonra:

Təxayülata qapılma, bir az da kəndinə bax.

-deyərək müəllif şairi xəyallar içində çırpınmaqdan çəkindirmək istəyir. Beləliklə, M.Hadi açıqca deyir ki, ey şa-

ir, sanihat, yəni xəyala gələn şeylər, çox düşünmədən doğan fikirlər səni şad edə bilməz, onlar sənin şeirinin mövzusu olmaqdan çox-çox uzaqdır. Bunun üçün öz həyatından - yəni «qəmli, ələmli» həyatından yaz, həm də qəmli, ələmli sən deyilsən, ümumiyyətlə həyatın dərdlərindən, kədərlərindən yaz»[271].

Ə.Cavad da dünyaya yas saxladığını elan edirdi. Füzuli göylərə yüksələrək fələkləri yandıran ahınından arzularının şamını yandırmadığı üçün gileyləndiyi kimi, Ə.Cavad da öz dərdlərini bilən olmamasından şikayətlənirdi.

Dünyaya yas tutdum ürəyimdə mən,
Axan göz yaşımı silən olmadı!
Cahanı güldürüm, diləyimdə mən,
Özümün dərdimi bilən olmadı, -
Axan göz yaşımı silən olmadı! (Qitələr, 1916, səh 55).

Füzulidən başlayan, XX əsr romantizmində davam edən və hətta repressiya dövrünün Cavid-Cavad məktəbində də davam edən bu əxlaqi idealın gənc davamçıları da vardı. Bunlar arasında ən qədim ənənənin təsiri altında orijinal sənət nümunələri yaradan A.İldırım və M.Müşfiq kimi istedadlı gənclər xüsusilə seçilirdi. Bu gənclər proletariatın məddahına çevrilmədiklərinə görə dövri mətbuatda Cavid-Cavad məktəbinin nümayəndələrindən biri kimi yerli-yersiz tənqid olunurdu. Tənqidçi Əli Nazim 1926-cı

[271] Kamran Əliyev. «XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri», Bakı, 1985, səh. 67.

ildə «Maarif və mədəniyyət» jurnalının 9-cu sayında çap etdirdiyi «Bugünkü ədəbiyyatımız haqqında» adlı məqaləsində həmin gəncləri nəzərdə tutaraq yazırdı: «Bunların taleləri gələcək vəziyyət və fəaliyyətlərindən asılıdır».

1937-ci ildə keçirilən Azərbaycan Sovet Yazıçılar İttifaqının plenumunda Ə.Cavada hücum edən Ə.Seyfi adlı birisi deyirdi: «Bu gün yazıçını əsər müdafiə edir və əsər də ləkələyir»[272].

Ə.Seyfinin bu fikrini belə də oxumaq olar: «bu gün istənilən yazıçını, istənilən əsəri ilə ləkələmək olar». M.Müşfiq də öz sənət dostları kimi əsərlərinə görə dövri mətbuatda tənqid hədəfinə çevrilirdi.

1931-ci ildə «Hücum» jurnalının 7-8-ci saylarında (iyul-avqust nömrələrində) Zəngilli imzalı birisi yazırdı: «Müşfiqin təsvirə aldığı qızlar əməkdən uzaq adamlardır. Onun kitabındakı «Telefon», «Ellər», «Gülüşlər», «Buludlar» və «And olsun» kimi parçalar da bu sıra şeirlərdəndir. Müşfiq bu parçalarında həyata tamaşaçı kimi qalır. Nəticə etibarı ilə deyə bilərik ki, Müşfiq «Küləklər» əsərində öz vaxtının sürətindən geri qalmışdır. Müşfiq yaradıcılığı Türkiyə inqilabçı xırda burjua şairlərinin və bəzən Cavad və Cavidin təsirindən qurtarmayır...»

Müşfiq doğurdanmı vaxtın sürətindən geri qalırdı? Bizcə Müşfiq vaxtı, zamanı qabaqlayanlardan idi və «Küləklər» şeirində də «öz vaxtının sürətindən» geri qalmamışdır. Şairin «dünyanı dolaşan bəxtəvər küləklər»ə müraciəti də maraqlı detallar üzərində qurulmuşdur. O, kü-

---

272 Əli Saləddin. «Əhməd Cava», Bakı, 1992, səh. 123.

ləklərdən «Məni də alınız, uçayım dağlara» xahişini edir. Çünki bu küləklərdən Müşfiq «hər yerin qoxusu»nu alır. Dağlara uçmaq, Müşfiqə ucalmaq, yüksəlmək üçün lazım deyil, könlünün dərdlərini açmaq üçün lazımdır. Müşfiqin dağ boyda dərdini ancaq, dağa söyləmək olar.

Ey çılğın küləklər, nəşəniz daşarkən,
Bağların şehindən mey sorub coşarkən,
Nalqıran dağları atlayıb aşarkən,
Məni də alınız, uçayım dağlara,
Könlümdə nə varsa açayım dağlara!

Gurlayın, ilhamım, sənətim gurlasın!
Fırtınam, qasırğam, qüdrətim gurlasın!
Şimşəyim parlasın, zülmətim gurlasın!
Ey məni sərazad bəsləyən küləklər,
Bir dağın başından səsləyən küləklər!

Başqa bir müəllif isə «...əgər Müşfiq Cavadın təsirindən qurtarmaq cəhdi ilə marksizm-leninizm təhsilinə ciddi girişməzsə, proletar dünya görüşü əldə etmək üçün bütün qüvvəsi ilə çalışmazsa, qoy təpiklərimiz altında sınmış sümüklərinin fəryadını tərənnüm etsin»[273] - deyirdi.

Bu sözlər Müşfiqi ittiham edən müstəntiqlərin ittihamından da sərt və dəhşətli idi. Eyni zamanda bu ittihamlarda M.Müşfiqin necə bir mühitdə yazıb yaratdığını da tam aydınlığı ilə görmək olar.

---

[273] Əsəd Əyyubi. «Düşmən boğazına bolşevik yumruğu», «Gənc işçi» qəzeti, 17 iyul, 1933, № 164.

Təəccüblüdür ki, bu illərdə sovet cəmiyyətinin «azad» yazıçısı, daha çox «necə yazdığına» görə deyil, «nədən yazdığına» görə tənqid hədəfinə çevrilirdi. Yəni sənətkarlıq bir qədər arxa plana keçmiş, onun yerini sovet quruluşunun, kolxoz qruculuğunun təbliği tutmuşdu.

Azərbaycan Yazıçılar İttifaqı plenumunun 21 mart 37-ci il tarixli 4-cü səhər iclasında səslənənlər də dediklərimizi sübut edir. M.K.Ələkbərli (sonradan o da siyasi repressiya qurbanı olmuşdur) deyirdi: «Müşfiq, sənə Xəyyamı kim tərcümə etməyə vermişdir? Bununla bərabər yoldaşlara göstərməliyəm ki, Hüseyn Sadiq, Müşfiq və başqaları Əli Bayramov adına olan Mədəniyyət Sarayı ilə «doqovor» bağladığı zaman bundan Yazıçılar İttifaqının qətiyyən xəbəri olmamışdır. Onlardan heç kəs gəlib bu məsələni deməmişdir. Bu o zaman idi ki, hətta məni təşkilatlar çağırıb dedikdə ki, get sən bu əsərləri oxu, mən dedim ki, ittifaqın bundan xəbəri yoxdur, mən oxuya bilmərəm»...»...Cavadın məsələsini ortalığa qoyduqda mütləq Müşfiqin də adını qoymaq lazımdır. Əgər biz birinin təqsirini başqasının günahı ilə yuyuruqsa, bu düzgün deyildir. Müşfiq-Müşfiq kimi tənqid olunmalıdır. Müşfiq sovet konstitutsiyasına səs verib, hal-hazırda onun sovet Konstitusiyası ilə seçib-seçilməyə haqqı vardır. Belə adama heç bir zaman deməməliyik ki, sən Cavadın təsiri altına düşübsən. Onunla bərabər Müşfiq ilə mübarizə aparmaq asandır. Onun gizlində heç bir şeyi yoxdur»[274].

---

[274] Əhməd Cavad. «Seçilmiş əsərləri», 2 clddə, II cild, Bakı, 1992, səh. 216-218.

«Sevgim mübarizə, sevgilim həyat» sözlərini özünün sənət kredosuna çevirən şair bu cür haqsız tənqidlərdən qorxmur və qiyamət gününün hələ qabaqda olduğunu bildirirdi:

Sevgim mübarizə, sevgilim həyat,
Yəhərlənmiş mənə qanadlı bir at.
Gör nə deyir sizə çaldığım qanat:
Hələ bundan sonra qiyamətim var.

Şair mənəvi estetik düşüncələrində yanılmamışdır. Qiyamət gününün qabaqda olduğunu bilə-bilə, imperiya quluna çevrilməkdən imtina etmiş və sözünü deməyə özündə vətəndaşlıq cəsarəti tapmışdır. Zülm və istibdadla nəşələnən Zaman cəsarəti, mərdliyi, milli mənliyi, xeyiri və işığı yox, ətaləti, qulu, şəri qiyamətləndirirdi. Ona görə də 3 iyun 1937-ci il gecəsi Azərbaycan SSR XDİK-in nümayəndələri Azərbaycanın üç böyük sənətkarının, məslək və ideya dostlarının - Hüseyn Cavidin, Əhməd Cavadın, Mikayıl Müşfiqin evində oldular və gecə qaranlığında onları böyük milli ideyalarından, eləcə də ailələrindən ayırıb birdəfəlik apardılar. O gecə yalnız üç şairimiz deyil, həm də zülmə, istibdada boyun əyməyən poetik duyğu və düşüncələrimiz həbs edildi.

Maraqlıdır ki, ortaq tipologiya Cavid-Cavad-Müşfiq üçlüyünün təkcə yaradıcılığında yox, həm də taleyində, hətta məhbus tərcümeyi-halında, onlara aid sorğu və ittihamların stenoqramlarında da var.

Cavid öz simasını, qürür və ləyaqətini məhbəsdə də qoruyub saxlayır, hətta «HKVD» təcridxanasında verdiyi ifadələrə atdığı imzanın altında kirillə deyil, məhz latın əlifbası ilə yazırdı. Doğrudur, həmin illərdə təkcə Cavid deyil, demək olar ki, hamı bu əlifba ilə yazırdı. Lakin istintaq materiallarında belə hallarla təsadüfən rastlaşmaq olur. Müstəntiq qarşısında dayananların demək olar ki, böyük əksəriyyəti rusca ifadə vermiş və ya kirillə yazmışlar. 1937-ci ilin qasırğa və tufanlarına məruz qalmış bir adamın təcridxanada latın əlifbası və osmanlı şivəsi ilə yazması böyük cəsarət tələb edirdi. Bəzi istintaq materialları ilə tanışlıq göstərir ki, istintaqa cəlb edilənlərin bir çoxları xilas olmaq naminə müxtəlif bəhanələr gətirmiş, ayrı-ayrı şəxsiyyətlərin adlarını çəkmək məcburiyyəti qarşısında qalmışlar. Böyük iradə və dözüm sahibi olan Cavid isə heç kəsin adını çəkmədən bütün əzab və işgəncələrə dözmüşdür.

Cavidin ömür yoldaşı Mişkinaz xanım Cavidin və Cavidlər ailəsinin iyunun 3-də və 4-də keçirdiyi hiss və həyəcanları belə xatırlayır: «3 iyun. Həmişəki kimi şad və gülər üzlə Cavid saat 10-da «salamat qal» deyib evdən çıxdı. Mən də həmişəki kimi onu pilləkənin yanına qədər yola saldım. Qayıdıb öz işimlə məşğul oldum. Uşaqların biri məktəbdən, biri institututdan qayıtdı. Cavidi gözləyirdik ki, gəlsin bir yerdə nahar edək. Hədənsə bu gün çox gec gəldi. Uşaqların xörəyini verib özüm Cavidi gözlədim. Axşam saat 6-da gəldi. Qapıdan girən kimi dedi: «Hə istəsən alacam. Ancaq birinci mən deyəni alacam».

Onun qulağa yapışan brilyant sırğadan xoşu gəlirdi. Çoxdan istəyirdi ki, mənə bir cüt belə sırğa alsın.

Mən əlimi qaldırıb uşaqları göstərdim: «Mənim pudlarla brilyantlarım var. Ona ehtiyacım yoxdur». Sonra da əlavə elədim ki, xeyir ola bu sərvət əcəb?

Dedi: «Bu saat kinostudiyadan gəlirəm. Bu gün «Koroğlu» ssenarisinin müqaviləsini bağladıq. Ayın beşində 5 min alacam. Qalanını da film çəkilib qurtardıqdan sonra».

Qara günün yelimi dəymişdi, ya nə idisə çox narahat idim. Adama bir bədbəxtlik üz verəndə elə bil əvvəlcədən duyur.

Saat 8-də Cavid yuxudan durdu, üzünü yudu, çay içdi. Dedi: «Hə, indi işləmək lazımdır».

Üzümə baxdı: «Deyəsən kefin yoxdu?»

- Heç bilmirəm. Elə darıxıram ki, bilmirəm nədəndi.

- Darıxma, bu gün işim çoxdur. Sabah gedərik gəzməyə. Amma istəyirsən elə indi çıxaq bir saat hava alaq, sonra gəlib işləyərəm.

- Yox, yorularsan sonra işləyə bilməzsən.

- Əslində elə özümün də bu gün işləməyə sən deyən həvəsim yoxdur. Ancaq bəzi kağızlar var ki, gərək yazıb sabah təhvil verəm.

... Cavid işləyirdi, uşaqlar yatmışdılar. Mən həmişəkindən tez - saat 11-də keçdim yataq otağına. Bir qədərdən sonra qapını açıb dedi: «Yatmısan?»

- Yox, nə lazımdı?

- Heç elə bildim yatağına girməmisən. Qəhvə istəyirdim. Mən qalxdım ki, geyinim. Qoymadı:

- Özüm bişirərəm. Sən yat.

Çox vaxt qəhvə qabını qoyardım bufetin üstünə, gecələr işləyəndə özü bişirərdi.

... Yuxuda gördüm böyük bir ilan mənə tərəf gəlir. Çığırıb yuxudan ayıldım. Yarıyuxulu, qorxmuş halda özümə gələndə evdə qarışıq səslər eşitdim. Heç bir şey ayırd edə bilmədim. Elə bu vaxt Cavid qapını açıb ömrümdə eşitmədiyim narahat bir səslə: «Qalx geyin», - dedi.

Qapının arasından baxıb tanımadığım adamları gördüm. Aman allah bunlar kimdi?

O vəziyyəti demək çox çətindir. Əllərim əsirdi, geyinə bilmirdim. Saniyələr bir il qədər uzun idi. Birtəhər geyinib çıxdım. Cavid qapının yanında ayaq üstə durmuşdu. Rəngi ağappaqdı. Onu elə görəndə başım hərləndi. Mən onun hər dəqiqəsinin rahat olmasına fikir verərdim. Bu qara bulud haradan gəldi? Qolumdan tutmasaydı yıxılardım. Qolumu bərk sıxdı: «Otur, sakit ol». Qolumu sıxmaqla demək istəyirdi ki, bu başlanğıcıdı.

Qapını açıb bu biri otağa keçəndə birinci bufetin üstünə baxdım ki, görüm qəhvə qabı ordadımı, Cavid qəhvə bişiribmi? Qəhvə qabı orda yox idi. Bu da mənə bir niskil oldu. İçərimdə özümü danladım ki, niyə sözünə baxdım? Niyə özüm durub qəhvə bişirmədim.

O vaxtdan indiyədək bir dəfə də olsa qəhvə içməmişəm. Baxmayaraq ki, özüm qəhvə xoşlayanam.

Gələnlər 3 nəfər idilər. Bir nəfər də qonşudan çağırdılar. Gecə birin yarsından səhər yeddinin yarsınacan evi ələk-vələk etdilər. baxılmayan yer qızımın yataq otağı oldu. Kiçik olduğu üçünmü, ya nəsə onu oyatmadılar. Amma onlardan biri hey deyinirdi ki, niyə ora baxılmadı?

Cavid o gecə bir qutu yarım papiros çəkdi. Kibritini yandıranda onlardan da biri cibindən papiros çıxardı. Cavid öz papirosunu yandırıb, ev sahibi kimi odu qonağa sarı tutdu. O yandırmadı. Cavid çöpü söndürüb udqundu. Nələr dedi o udqunmaqla! Qəmli-qəmli üzümə baxdı. Qaşlarını qaldırıb ah çəkdi.

O gündən bəri bir-birinin papirosunu yandıran adamları görəndə Cavidimin əsəbi üzü, dərdlərimin başlanğıcı yadıma düşür»[275].

Çox təəssüf ki, Mişkinaz xanımın yuxuda gördüyü ilan çin çıxdı. İlanın ağına da lənət, qarasına da.

İyun ayının 4-də XDİK-in 509 nömrəli axtarış aparma orderinə əsasən (bu order də 3 iyun 1937-ci ildə imzalanmışdı - C.Q) Bakı şəhəri, Kommunist küçəsi ev 8-də yaşayan H.Cavidin mənzilində axtarış apardılar. (27 sentyabr 1937-ci ildə Bakı Soveti evlər idarəsinin rəisi Jurbanın 11/03 nömrəli sərəncamına əsasən H.Cavidin ailəsi -36 yaşlı həyat yoldaşı Mişkinaz xanım, 16 yaşlı oğlu Ərtoğrul və 13 yaşlı qızı Turan Sovetski küçəsi, 92 nömrəli evə, bir otaqlı mənzilə köçürülür). Axtarış zamanı XDİK əməkdaşları tərəfindən Cavidə məxsus olan 549349 nömrəli pasport, 23 ədəd müxtəlif fotoşəkil, 115 ədəd türk, ərəb, fars və başqa dillərdə yazılmış müxtəlif kitablar, 1 zənbil H.Cavidə məxsus əlyazma və 15 rubl məbləğində gümüş sovet pulu və bir çox başqa əşyalar götürülmüşdür. (Sonradan - 14 mart 1939-cu ildə 15 rubl istintaq üçün əhəmiy-

[275] Mişkinaz Cavid. «Cavidi xatırlarkən», Bakı, 1976.

yət kəsb etmədiyindən şairin həyat yoldaşı Mişkinaz xanıma qaytarılmışdır)[276].

Maraqlıdır ki, axtarış zamanı götürülənlər arasında XDİK əməkdaşlarının diqqətini daha çox özlərinin oxuya bilmədikləri ərəb, fars və türk dilində yazılmış kitab və əlyazmalar cəlb edirdi. Bu daha çox zaman-zaman, damla-damla toplanmış və inkişaf etmiş bir millətin mədəniyyətini, onun çox qədim və zəngin tarixi keçmişi ilə əlaqəsini qırmağa, yaddaşdan, kökdən, dünəndən qoparmağa xidmət edirdi. Bu da zəngin və qədim tarixi yaddaşa və mədəniyyətə, müstəqilliyə, dinə, dilə, adət-ənənəyə malik olan hər hansı milləti məhv etmə üsullarından biri idi.

Cavid ilk dəfə 1937-ci ilin 5 iyununda müstəntiq Platonov tərəfindən dindirildi. Həmişə bəşəri ideyalar carçısı olan, nəhəng filosov Platonla daxili dialoqa, danışığa girən və estetik irsi, eləcə də fəlsəfi baxışları ilə ona söykənən, ondan qidalanan Cavid, bu gün cılız, hissiyyatsız müstəntiq Platonovla təkbətək, üzbəüz dayanmışdı. Bu dindirmə qəribə bir məqam üzərində qurulmuşdur. Müstəntiq hər şeyin asanlıqla başa gələcəyini düşündüyündən birbaşa mətləbə keçir:

**Sual:** İstintaq müəyyən etmişdir ki, siz gizli əksinqilabi millətçi təşkilatın üzvüsünüz. Bunu boynunuza alırsınızmı?

**Cavab:** Qəti rədd edirəm.

**Sual:** Sizə əksinqilabçılardan və müsavatçılardan kimlər məlumdur?

---

[276] MTN-in arxivi. Hüseyn Cavidin istintaq qovluğu, PR - №18845.

**Cavab:** Keçmiş müsavatçılardan mənə Əhməd Cavad Axundov, Seyid Hüseyn Sadıqov və Xəlil İbrahim məlumdur. Bu gün onların müsavatçı olmaları mənə məlum deyil və mənim onlarla heç bir əlaqəm yoxdur. Bunlardan başqa müsavatçılardan və millətçilərdən heç kəsi tanımıram[277].

Cavidin sərrast və sərbəst cavabları müstəntiqi əlavə suallar verməkdən çəkindirir. Müstəntiq anlayır ki, kimdənsə döyə-döyə aldıqları ifadələrlə Cavidi ram etmək mümkün deyil. Buna görə də müstəntiq iki sualla öz işini bitmiş hesab edir və uzun müddət Cavidlə sorğu aparmır. Görünür, müstəntiq Platonovun suallarına onu qane edə biləcək cavablar verilmədiyindən Cavidi «tərbiyə etmək» lazım idi. Beləliklə onu təxminən 4 ay «tərbiyə» edirlər. Sabit xarakterli Cavidi «tərbiyə etmək», onu belə asanlıqla ələ almaq mümkün deyildi.

İkinci sorğu-sual 21 dekabr 1937-ci ildə aparıldı və birincidən fərqli olaraq bu dəfə Cavidə suallar başqa adam tərəfindən verilirdi. Dindirmə protokolundan görünür ki, müstəntiqi Cavidin soyuqqanlılığı çox əsəbləşdirir. Cılız və heysiyyatsız, izsiz və imzasız, manqurtlaşdırılmış müstəntiqlə, təmkin və müdrikliyi, daxili və mənəvi bütövlüyü ilə heykəlləşən Cavid qarşılaşması:

Sual: Siz bütün istintaq boyu inad göstərərək əksinqilabçı və millətçi təşkilatın tərkibinə daxil olmağınızı inkar etməyə cəhd edirsiniz. İstintaqa düzgün ifadə vermək və boynunuza almaq niyyətiniz varmı?

---

[277] MTN-in arxivi. Hüseyn Cavidin istintaq qovluğu, PR - №18845.

Cavab: Bir daha bildirirəm ki, mən – Hüseyn Cavid millətçi əksinqilabçı təşkilatda olmamışam.

Bu dindirmə zamanı Cavidə onun haqqında ayrı-ayrı şəxslərin verdiyi ifadələrdən müəyyən parçalar oxunsa da o, qəti olaraq heç bir əksinqilabi millətçi təşkilatın üzvü olmadığını bildirdi. Dindirmə zamanı Cavid onu da bildirdi ki, «1926-cı ilə qədər mənim əsərlərimdə «səhvlər» olub, həmin səhvlər bunlardan ibarətdir:

1) Öz əsərlərimdə mən sovet mövzusundan uzaq olmuşam və sovet həqiqətlərindən yazmamışam;

2) Mən əsərlərimi kütlənin başa düşmədiyi bir dildə yazmışam; Partiya və sovet təşkilatları tərəfindən təklif olunan sovet həqiqətlərindən yazmağı rədd etmişəm və mən öz səhvlərimi boynuma alıram, lakin bu səhvlərimi sonrakı illərdə tədricən düzəldirdim».

Doğurdan da, Cavidin yaradıcılığına diqqətlə nəzər salsaq görərik ki, onun dediyi bu «qüsurlar» həqiqətən də vardır. Lakin Cavidin sovet mövzusundan uzaq düşməsi daha çox öz idealına sadiq qalmaqdan irəli gəlirdi. Cavid vahid konsepsiyası, tendensiyası olan şair idi və bir qrup zümrə üçün yazmırdı, kütlə üçün yaşamırdı. Onu daha böyük amallar və ideyalar yaşadırdı. Elə bu amal və ideyalar da Cavidi buraya - XDİK zindanlarına gətirmişdi.

Cavid sabit xarakterə malik idi. Onun üstünə qışqırmaqla, hədələməklə istədiyinə nail olmaq mümkün deyildi. Şairin həyat yoldaşı Mişkinaz Cavid «Cavidi xatırlarkən» (Bakı, 1976-cı il) adlı kitabında yazırdı: «Cavid uşaqlıqda başına gələn bir hadisəni belə nağıl edərdi:

- Bir gün həyətdə oynayırdım, anam evdə heç kəs olmayanda məni yanına çağırdı ki, ay Hüseyn, gəl sənə təzə köynək tikmişəm. Gey görüm necədir? Demə anamın məqsədi başqa imiş. Mən evə getdim. Anam dərhal qapını bağladı, təzə köynəyi göstərib dedi: «al, bunu gey, baxım». Elə ki, əynimdəki köynəyi çıxartdım, o, əvvəlcədən hazırladığı çubuqla məni döyməyə başladı. Hazik çubuq, çılpaq bədən, gəl buna döz görüm, necə dözürsən? Vurduqca mənə deyirdi: «Sən molla olmaq istəmirsən?!» İşin xarab olduğunu görüb and-aman elədim ki, daha sabahdan molla məktəbinə gedəcəyəm. Anam qapını açdı. Tez köhnə köynəyimi götürüb otaqdan qaçdım. Həyətdəki tut ağacının başına çıxıb oradan dedim: Hə edirsən et, mən molla məktəbində oxumayacağam, istəyirsən əlli təzə köynək tik, məni də döy öldür, molla olmayacağam vəssəlam!» [278].

Cavidin inadcıllığı və sözündə bütöv olması barədə həmin kitabın başqa bir yerində Mişkinaz xanım belə yazırdı: «Cavid deyərdi ki, xoş səsi və gözəl moizələrilə məşhur olan atam məni körpəlikdən elmlə məşğul olmağa sövq etmişdir. Atamla mənim aramda ağlım kəsəndən sonra, tarix, ədəbiyyat, sənət haqqında çox ciddi söhbətlər olardı. Biz bəzən ata oğul kimi yox qarşı-qarşıya durmuş rəqiblər kimi, bu və ya başqa tarixi hadisələr, şəxsiyyətlər haqqında söhbətlər edər, hər birimiz öz fikrimiz üstündə möhkəm durardıq. Deyəsən inadkarlıqda mən ona oxşamışam»[279].

---

[278] Mişkinaz Cavid. «Cavidi xatırlarkən», Bakı, 1976, səh. 51.
[279] Mişkinaz Cavid. «Cavidi xatırlarkən», Bakı, 1976, səh. 8.

Molla Hacı Abdullanın oğlu Cavidi ana çubuğu, ana kötəyi molla edə bilmədiyi kimi, müstəntiq tənbehi, «HKVD» xofu və dəyənəyi də «tərbiyə edə» və qorxuda bilməzdi.

Cavid «tərbiyə» olunmadıqca müstəntiqlər onu «yola gətirmək» üçün müxtəlif metodlara əl atırdılar. Bu dəfə onlar Cavidi öyrənməyə, həm də başqalarından deyil, Cavidi Caviddən öyrənməyə məcbur oldular. 21 mart (Cavidi 21 mart «Novruz» bayramı günü dindirirdilər. Bu günü təkcə H.Cavidin, Ə.Cavadın və M.Müşfiqin ailəsi deyil, bütün Azərbaycan xalqı bayram kimi qeyd etmirdi. Çünki «Novruz» bayramı Caviddən, Cavaddan və Müşfiqdən əvvəl siyasi repressiyaya məruz qalmışdı) 1938-ci ilin dindirmə protokolundan oxuyuruq:

Sual: İnqilabdan əvvəl sizin atanız nə işlə məşğul olmuşdur?

Cavab: Mənim atam Molla Hacı Abdulla dini fəaliyyətlə məşğul olub.

Sual: Bəs siz inqilabdan əvvəl nə işlə məşğul olmuşsunuz?

Cavab: Mən 13-14 yaşından «Rus-tatar» məktəbində oxumuşam.

Sual: Neçənci ildə Siz xaricdə olmusunuz?

Cavab: «Rus-tatar» məktəbini bitirdikdən sonra mən İrana-Təbriz şəhərinə getmişəm. Onda mənim 20 yaşım var idi.

Sual: Siz Təbrizdə nə işlə məşğul idiniz?

Cavab: Təbrizdə mən ruhani məktəbində oxuyaraq, ərəb dilini öyrənirdim. Mənim böyük qardaşım Məmməd

Rasizadə də Təbrizdə idi və ruhani seminariyasında oxuyurdu. Mən də oraya getdim və bir il ərzində ruhani məktəbində oxudum.

Sual: İrandan neçənci ildə qayıtdınız və nə işlə məşğul oldunuz?

Cavab: İrandan 1 ildən sonra qayıtdım və Naxçıvandakı «Məktibi-tərbiyə» məktəbində türk və fars dili dərslərini deməyə başladım. İl yarımdan sonra yəni 1905-ci ildə ticarətlə məşğul olmağa başladım.

Sual: Türkiyədə neçənci illərdə olmusunuz?

Cavab: 1905-ci ildə mən bir neçə xalça aldım və onları satmaq üçün Türkiyəyə getdim. Bu xalçaların ümumi məbləği o vaxt 2000 rubl edirdi. Xalçaları satandan sonra mən gözümü müalicə etdirmək üçün Konstantinapolda tanınmış göz həkimi Ziyaya müraciət etdim. Ziya həkim dedi ki, oxumaq sənin gözlərinə zərər verməz. Ona görə də mən Konstantinapol şəhərində evdə şair Rza Tofiqdən təhsil aldım. 1 ildən sonra mən onun zəmanəti ilə tarix-ədəbiyyat fakültəsinə daxil oldum. 1910-cu ildə mən Türkiyədən Naxçıvana qayıtdım.

Sual: Siz Türkiyədən qayıdandan sonra nə işlə məşğul olmuşsunuz?

Cavab: Mən Türkiyədən xəstəliyimə görə qayıtdım. 2-3 ay Naxçıvanda müalicə olunduqdan sonra Bakı şəhərinə gəldim və burada Bakıda yaşayan iranlılar üçün İran səfiri tərəfindən təşkil edilmiş «İttihad» məktəbində Azərbaycan dili müəllimi kimi fəaliyyətə başladım. Bu məktəbdə Azərbaycanlılar da təhsil alırdı. Məktəbə rəhbərlik İran səfiri tərəfindən edilirdi. Mən bu məktəbdə 1,5 il işlədim.

Sual: «İttihad» məktəbində dərs demək üçün Sizə zəmanəti kim vermişdir?

Cavab: Türkiyədə Rza Tofiqin yanında Kirovabaddan olan Abdulla Məmmədzadə (söhbət Azərbaycanın görkəmli simalarından olan Abdulla Surdan gedir - C.Q) ilə birlikdə təhsil alırdıq. O, Türkiyədən məndən əvvəl qayıtdı. Mən Bakıya gələndə onunla görüşdüm və onun zəmanəti ilə həmin məktəbə işə qəbul edildim. Belə ki, Abdulla Məmmədzadə özü də həmin məktəbdə dərs deyirdi. (Sonra o vəfat etdi).

Sual: «İttihad» məktəbindən gedəndən sonra nə işlə məşğul oldunuz?

Cavab: «İttihad» məktəbindən mən maddi təminatımı ödəmədiyimdən getmişəm. 1912-ci ildə Gəncəyə (indiki Kirovabad) getmişəm. Burada mən təxminən 1913-cü ilə kimi «mədrəseyi-ruhaniyyə»də dərs demişəm. 1913-cü il də mən Kirovabaddan Tiflisə getdim. Burada mən imperialist müharibəsinə kimi - 1914-cü il İran səfirliyinin rəhbərlik etdiyi «İttifaq» məktəbində dərs demişəm.

Sual: «İttifaq» məktəbindən gedəndən sonra nə ilə məşğul olmuşsunuz?

Cavab: «İttifaq» məktəbindən gedəndən sonra mən Kaxetiyaya getdim. Burada mən dəmiryolu xətti üzrə işçi qüvvəsini qeydiyyata alan tabelçi kimi xidmət etmişəm.

Ora mən xəstəliyimlə əlaqədar - havamı dəyişmək üçün getmişəm. Oradan mən xəstəliyimlə əlaqədar Yesuntikiyə getdim. Bütün bunlardan sonra mən Bakı şəhərinə gəldim və 1918-ci ilə kimi Tağı Nağıyev tərəfindən təşkil olunmuş «Səfa» məktəbində dərs dedim. Mart hadisələ-

rində mən İrana getdim və 2 aydan sonra Naxçıvan şəhərinə qayıdıb məktəbdə müəllim işlədim.

Sual: 1918-19-cu illərdə siz harada idiniz və nə işlə məşğul olmuşsunuz?

Cavab: «Müsavatın» hökmranlığı dövründə mən seminariyada, sonra qızlar məktəbində şəriətdən dərs demişəm.

Sual: 1919-cu ildə «Müsavatın» hökmranlığı dövründə siz hansı əksinqilabi müsavat jurnallarında iştirak etmişsiniz?

Cavab: 1919-cu ildə «Müsavat» hökmranlığı illərində mən «Qurtuluş» və «Yaşıl qələm» jurnallarında iştirak etmişəm.

Sual: 1919-cu ildə «Müsavat» partiyasına, xüsusilə də onun lideri M.Ə.Rəsulzadəyə münasibətiniz necə olub?

Cavab: O vaxt mən «Müsavat» partiyası və onun lideri M.Ə.Rəsulzadə ilə heç bir əlaqədə olmamışam.

Sual: Sovet hakimiyyəti qurulduqdan sonra Siz neçənci ildə və hansı xarici ölkədə olmuşsunuz?

Cavab: 1926-cı ildə mən müalicə olunmaq məqsədi ilə Almaniyada - Berlində, Badenbadendə olmuşam. Mən ora keçmiş Azərbaycan Xalq Təhsili komissarı Mustafa Quliyev tərəfindən göndərilmişəm.

Sual: Xaricdə olarkən siz müsavatçılardan kimlərlə görüşmüşsünüz?

Cavab: Mən xaricdə olanda müsavatçılardan heç kimlə görüşməmişəm.

Sual: Xaricdə olanda sizi gizli polisə çağırıblarmı və harada?

Cavab: Mən xaricdə olarkən heç bir gizli polis tərəfindən çağırılmamışam. Mən 1914-cü ildə Tiflisdə «İttifaq» məktəbində işləyərkən, yalnız Çar Gizli Polisi (ÇGP) tərəfindən çağrılmışam.

Sual: Çar Gizli Polisi tərəfindən siz ora çağrılmışdınız?

Cavab: Məni Tiflisdə Çar Gizli Polisinin rəisi çağıraraq yarım saat müddətinə söhbət etdi.

Sual: Belə uzun bir söhbət nə barədə idi? (Qoy, Çar Gizli Polisinin apardığı yarım saatlıq söhbətin XDİK müstəntiqinə uzun görünməsi oxucuya qəribə gəlməsin. Doğurdan da 15-20 dəqiqəlik vaxt ərzində hər hansı bir adama ölüm hökmü oxuyanlar üçün bu çox böyük vaxt idi).

Cavab: Mənim şəxsiyyətimi müəyyənləşdirəndən sonra, rəis mənim harada təhsil almağımla maraqlandı. Mənim cavabımdan sonra o haqda ki, mən təhsili Türkiyədə almışam gizli polisin rəisi mənə yenə sual verdi. Mən siyasi partiyalarla hər hansı bir əlaqə saxlayırammı? O cümlədən Sosial Demokrat partiyası ilə. Mən cavab verdim ki, yox. Bu söhbətlərdən sonra çar gizli polisinin rəisi dedi ki, mənim şəxsiyyətim onlar tərəfindən şübhə altına alınmışdı. Ona görə də mənim şəxsiyyətimi aydınlaşdırmaq məqsədi ilə məni çağırmışdır. Bundan sonra mən getdim. Çar gizli polisi tərəfindən çağrılana qədər ibtidai məktəbin süpürgəçisi və evimin qulluqçusu mənə dedilər ki, bir neçə gündür, yaşadığım evə və məktəbə hansısa vətəndaşlar gəlir və mənim haqqımda soruşurlar. Bu barədə mən ÇGP rəhbərliyinə məlumat verdim.

Sual: Tiflisdəki ÇGP-nə Sizin tərəfdən hansı iltizam verilmişdir?

Cavab: Mənim tərəfimdən Çar Gizli Polisinə heç bir iltizam verilməmişdir.

Sual: Tiflisin Çar Gizli Polisi sizə hansı tapşırıqları verirdi?

Cavab: O, mənə heç bir tapşırıq vermirdi.

Sual: Sizin cavablar səmimi deyil? İzah edin, 1914-cü ildə Tiflisdə ÇGP rəisi sizə hansı tapşırıqları vermişdi?

Cavab: Mən öz cavablarıma heç nə əlavə edə bilmərəm.

Sual: Siz düzgün cavab vermkdən yayınırsınız? Sizdən bir daha soruşuruq: Tiflisdə ÇGP-nin rəhbərliyi sizə casusluq işi üzrə hansı tapşırıqlar verirdi?

Cavab: Casusluq xətti ilə ÇGP rəisi mənə heç bir tapşırıq verməmişdi.

Sual: Siz Çar Gizli Polisinin xeyrinə olan işinizi istintaqdan gizlətməyə cəhd edirsiniz. Biz israr edirik düzgün ifadə verəsiniz.

Cavab: Mənim cavablarım səmimidir. ÇGP-nin xeyrinə mən qətiyyən işləməmişəm.

Sual: Bəs Türkiyədə Siz hansı pantürkistlərlə əlaqə saxlamışsınız?

Cavab: Türkiyədə mən pantürkistlərdən heç kimlə əlaqə saxlamamışam.

Sual: Bəs siz Bakı şəhərində türklərdən kimlərıə əlaqə saxlamışsınız?

Cavab: Mənim Bakıda türklərdən İsmayıl Hikmət və Xəlil Fikrətlə təsadüfi tanışlığım olub.

Sual: Siz İ.Hikmət və Xəlil Fikrətlə əlaqənizi nə ilə izah edə bilərsiniz?

Cavab: Mən onlarla ildə bir dəfə Yazıçılar İttifaqında olan gecələrdə və görüşlərdə rastlaşırdım (İmza Cavid)[280].

21 mart 1938-ci ildə aparılmış bu dindirmə protokolunu, çox olmasına baxmayaraq, olduğu kimi təqdim etməkdə məqsəd Cavidin ömür yoluna aydınlıq gətirə biləcək bəzi vacib mətləbləri onun tədqiqatçılarına və oxucularına çatdırmaqdan ibarətdir. Belə ki, şairin Türkiyədən təhsildən nə zaman qayıtması məsələsi bu gün də öz elmi həllini tapmamışdır. Mərhum professor Ə.Şərif onun Türkiyədən 1910-cu ildə, M.Cəfər 1909-cu ildə Azərbaycana qayıtdığını qeyd edir.

H.Cavidin 1909-cu ilin axırında Bakıda olmasını görkəmli jurnalist Q.Məmmədli də təsdiqləyir.

Naxçıvanda Qurbanəli Şərifova (5 mart 1910-cu il) sözləri ilə başlayan məktub haqqında professor Ə.Şərifin 1977-ci ildə nəşr etdirdiyi «Keçmiş günlər» adlı əsərinin 69-cu səhifəsində oxuyuruq: «Bu məktubu yazıb göndərəndən təxminən 9 ay keçəndən sonra H.Cavid İstanbuldan öz səkkizinci və sonuncu məktubunu yazır».

Buna etiraz edən yorulmaz tədqiqatçı və görkəmli jurnalist Qulam Məmmədli yazırdı: «H.Cavidin 1909-cu ilin dekabrından 1910-cu ilin iyunadək «Həqiqət» qəzetinin səhifələrində günaşırı şeir və məqalələrlə çıxış etdiyi nəzərə alınarsa, «səkkizinci məktubun» İstanbuldan deyil, Bakıdan yazıldığı aydın görünər»[281].

---

[280] MTN-in arxivi. Hüseyn Cavidin istintaq qovluğu, PR - №18845.

[281] Qulam Məmmədli. «Cavid – ömrü boyu», 1980, səh. 44.

Cavid özü isə ifadəsində Türkiyədən 1910-cu ildə Naxçıvan şəhərinə gəldiyini qeyd edir. Bunları qeyd etməkdə məqsədimiz bu sahədə xüsusi tədqiqat aparmaq olmasa da, «şübhədir həqiqətin atası» - deyən Cavidin elmi tərcümeyi-halını yaratmaq istəyən tədqiqatçıların nəzər diqqətini bu faktlara yönəltməklə gümandan həqiqətə gedən yola azacıq da olsa işıq salmaqdır.

Dindirmə zamanı Cavidi başqa bir məsələdə - millətçilikdə də ittiham edirdilər. «Mənim tanrım gözəllikdir, sevgidir!..» - deyə bəşəriyyətə sevgi ilə yanaşan Cavid imperiyanın yürütdüyü sevgidə özgədən başlamaq fəlsəfəsinə qarşı çıxaraq, özündən başlamaq fəlsəfəsini qoyur və bildirirdi ki, özünü - öz millətini, öz Vətənini sevməyən başqasını sevə və belə bir fəlsəfi fikir yaşaya bilməz. Doğrudur, Cavid millətçi idi. Lakin Caviddəki millətçilik məhəlləçiliyə deyil, bəşəriliyə aparan millətçilikdir. Bəşəriyyətə sevgi üstündə köklənən millətçiliyin heç bir qorxusu yoxdur. Cavid Şekspiri də, Puşkini də, Tolstoyu da eyni dərəcədə sevirdi və Hüseyn Cavid sevgisinin miqyas və tutumu ümümtürk dünyasının çoğrafi hüdudlarından daha böyük idi.

Cavidi millətçilikdə ittiham edənlər sübut etməyə çalışırdılar ki, o, söhbətlərində rus dili ilə Azərbaycan dilinin quruluşundakı qeyri oxşarlıqdan danışmış, eləcə də alınma sözlərin rus dili vasitəsi ilə deyil, birbaşa alınmasını bildirmişdir. 22 mart 1938-ci ildə aparılmış dindirmə protokoluna müraciət edək:

Sual: İstintaqa məlumdur ki, sizin əsərləriniz pantürkizm və Tükiyəyə meyli ilə doludur.

Cavab: Mən etiraz edirəm, mən öz əsərlərimdə Tükiyəyə meyl etməmişəm.

Sual: Siz yalan danışırsınız. Biz sizin yalanınızı sübut etmək üçün gənc yazıçı Rzaquluyev Mikayıl Manaf oğlunun ifadəsindən bir parçaya müraciət etmək məcburiyyətindəyik: «Mənimlə şəxsi söhbətdə H.Cavid deyirdi ki, Siz cavan yazıçılar rus siyasətinin təsiri altına düşərək köhnə yazıçıları tənqid edirsiniz və (özünüz) «Azərbaycan dilinin ruslaşdırılmasını» həyata keçirirsiniz. O, iddia edirdi ki, rus ədəbiyyatına deyil, osmanlı-türk ədəbiyyatına meyl etmək lazımdır. Və deyirdi ki, rus terminalogiyasının sonluğu «üiə» - stanüiə, kollektivizaüiə və s. Azərbaycan dilinin quruluşuna uyğun deyil. Əcnəbi sözləri biz gərək rus dili vasitəsi ilə deyil, birbaşa alaq». Bu barədə Siz nə deyə bilərsiniz?

Cavab: Mən Rzaquliyevə demişəm ki, bəzi terminlər xüsusən «üiə» sonluğu ilə bitənlər Azərbaycan dilinin quruluşuna uyğun deyil. Bunu mən ona görə deməmişəm ki, mən rus dilinin və ya ədəbiyyatının əleyhinəyəm və Türk ədəbiyyatının istiqamətində olan meylimə görə də yox. Rzaquluyevin qalan ifadələri ilə razı deyiləm.

Sual: Siz əksinqilabi məsələnin mahiyyətinin üstünü malalamaq və istintaqdan öz əksinqilabi baxışlarınızı gizlətmək istəyirsiniz. Biz məcburuq həmin yazıçı Rzaquliyevin ifadəsindən daha bir parça ilə Sizin yalan ifadələrinizin üstünü açaq: «H.Cavid mənimlə müasir ədəbiyyat və yaradıcılıq mövzusunda vaxtaşırı söhbətlərdə öz əks inqilabçı millətçi mövqelərini bildirərək iddia edirdi ki, Azərbaycanda milli kadrları «sıxışdırırlar» və Azərbaycan dili

rus ədəbiyyatının təsiri altında qalarkən tədricən öz mənasını itirir, ruslaşır və s». Biz sizdən tələb edirik ki, inadınızı yerə qoyasınız və düzgün ifadə verəsiniz.

Cavab: Mən buna etiraz edirəm, çünki Rzaquliyev yalan danışır. Rzaquliyevlə mənim söhbətlərim əksinqilabi millətçi xarakter daşımırdı.

Maraqlıdır ki, M.Rzaquliyev 20 fevral 1956-cı ildə verdiyi ifadədə Cavidin heç bir burjua əksinqilabi fəaliyyət göstərmədiyini, öz ədəbi-bədii yaradıcılığında Türkiyəyə meyilli olmadığını, Sovet hökumətinin ünvanına heç nə demədiyini, bir sözlə siyasətdən uzaq olduğunu bildirir və 13 mart 1938-ci ildə isə Cavidin millətçiliyi, əksinqilabi təşkilatla əlaqəsi, Türkiyəyə meyilliliyi barədə heç bir ifadə vermədiyini və həmin dövrdə onun verdiyi ifadələrin təhrif edildiyini qeyd edir:

Sual: Siz Azərbaycan şairi Hüseyn Cavidi tanıyırsınız və onunla hansı münasibətdə olmusunuz?

Cavab: Hüseyn Cavid Azərbaycanın məşhur şairidir, onu mən təxminən 1926-cı ildən tanıyırdım, ancaq onunla yaxın münasibətdə olmamışam. Şair kimi olduqca güclü idi. O bir sıra iri əsərlər və pyeslər yaratmışdır. Ən yaxşı və məşhur əsərlərinə «Şeyx Sənan», «Siyavuş», «Dəli Knyaz» və s. aiddir. İri pyeslərinin əksəriyyətini Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonra yaratmışdır. Həbs olunmamışdan əvvəl Azərbaycan Yazıçılar İttifaqının üzvü idi.

Sual: Şair Hüseyn Cavidi siyasi cəhətdən xarakterizə edin?

Cavab: Hüseyn Cavid hələ inqilaba qədər də böyük şair idi, o əmək və fəhlələr haqqında bir sıra əsərlər yazmışdı. Bu əsərlərin adı mənim yadımda deyil, bu əsərlərində o, fəhlələrə rəğbət bəsləyir, istismarçılara isə nifrət edirdi. Özünün «İblis», «Dəli Knyaz» kimi əsas əsərlərində xırda burjua şairi kimi siyasi məsələlərə də toxunurdu. Mən bildiyimə görə o heç bir siyasi partiyaya mənsub deyildi. O belə hesab edirdi ki, poeziya siyasətdən kənarda yaşamalıdır. İncəsənət incəsənət üçündür.

Sual: Hüseyn Cavidin əksinqilabi və millətçilik fəaliyyətindən Sizə nə məlumdur?

Cavab: Hüseyn Cavidin əksinqilabi və millətçilik fəaliyyətindən mənə heç nə məlum deyil. Təbiətinə və xasiyyətinə görə o əksinqilabçı və millətçi ola bilməz, ona görə ki, o siyasətdən kənar adam idi, siyasət ilə məşğul olmağı xoşlamırdı.

Sual: Hüseyn Cavid ilə əlaqədar Siz 1938-ci ildə dindirilmisinizmi? O vaxt Siz onun haqqında hansı ifadəni vermisiniz?

Cavab: Bəli, həqiqətən 1938-ci ildə mən Hüseyn Cavid ilə əlaqədar olaraq dindirilmişəm, ancaq hansı ifadələr verdiyim yadıma gəlmir.

Cavab: 1938-ci il 13 mart dindirilməsində Siz aşağıdakıları demisiniz: «Onunla tanışlığımdan H.Cavid burjua əksinqilabçı, millətçi, öz bədii və ədəbi fəaliyyətində Türkiyəyə istiqamətlənən, siyasi baxışları olan bir adam kimi mənə məlumdur». Bu haqda nə deyə bilərsiniz?

Cavab: 1938-ci il 13 mart dindirilməsində mən Hüseyn Cavidi əksinqilabçı və millətçi kimi xarakterizə etməmi-

şəm. Mən onda da indi verdiyim ifadəni vermişəm, lakin məni dindirən müstəntiq ifadələrimi təhrif edərək yuxarıdakı «əksinqilabçı və millətçi» sözlərini artırmışdır. Bir daha bildirirəm ki, Hüseyn Cavid haqqında bu cür ifadələr verməmişəm. O, əksinqilabçı olmamışdır. Mən heç vaxt dindirilmə zamanı deməmişəm ki, o özünün ədəbi və bədii fəaliyyətində Türkiyəyə istiqamətlənmişdir. O vaxt, dindirilmə zamanı, mən göstərdim ki, Hüseyn Caviddə türk dilinə meyl var idi.

Sual: O vaxt dindirilərkən Siz göstərmisiniz ki, Hüseyn Cavid Sizinlə söhbət zamanı YK(b)P-nin və Sovet hakimiyyətinin milli siyasəti haqqında böhtanlar demiş, böhtançılıqla təsdiq etmişdir ki, guya Azərbaycan ədəbiyyatında və yaradıcılığında ruslaşma siyasəti aparılır. Bu haqda nə deyə bilərsiniz?

Cavab: Mənimlə söhbətdə Hüseyn Cavid heç vaxt partiyanın və Sovet hakimiyyətinin ünvanına böhtan deməmişdir, lakin o, bir dəfə, mənimlə söhbət zamanı demişdir ki, Azərbaycan ədəbi dili, guya bəzi rus sözləri ilə zibillənmişdir.

Sual: Sizə 1938-ci il 13 mart tarixində Hüseyn Cavid haqqında verdiyiniz ifadə oxunur. Siz sözünüzün üstündə durursunuzmu?

Cavab: ....Mənim 13 mart 1938-ci il dindirilməm təhrif edilmiş və qeyri-dəqiqliyə yol verilmişdir. Bu haqda yuxarıda göstərmişəm. Hüseyn Cavid burjua ideologiyasına malik olan böyük Azərbaycan şairi idi, onun poetik dili türk sözləri ilə dolu idi[282].

---

282 MTN-in arxivi. Hüseyn Cavidin istintaq qovluğu, PR - №18845.

Cavid yaradıcılığına bələd olanlar yaxşı bilirlər ki, o bütün dinlərə və dillərə məhəbbət və hörmətlə yanaşırdı. Onun, Türkiyədə oxuduğu zaman yazdığı məktublardan da görünür ki, Türkiyə təhsili ona başqa millətlərə nifrət aşılamamışdır. O, əcnəbi dillərinin mükəmməl öyrənilməsinin tərəfdarı idi və çox dil bilməyi alqışlayırdı. Alman və ingilis dillərini öyrənməyə xüsusi səy göstərən şair məktublarının birində yazırdı: «Bir əcnəbi lisanını mükəmməl bilməyə... əcnəbilərin özləri kimi mükəmməl bilməyə ehtiyac vardır»[283].

Konkret rus dilinə gəldikdə isə, «hər gününün 2-3 saatını rus dilini öyrənməyə səy göstərən» tələbə Cavidin görkəmli maarifçi Qurbanəli Şərifova, Türkiyədən göndərdiyi 14 iyun 1909-cu ildə yazdığı məktubda oxuyuruq: «Ən məsləhətlisi budur ki, ruscanı mükəmməl öyrənməyə çalışalım».

Q.Şərifova göndərdiyi başqa bir məktubda isə ondan xahiş edir ki, Türkiyədə təhsilini başa vurub qayıtdıqdan sonra ona elə bir yerdə müəllimlik işi tapsın ki, orada rus dilini öyrənməyə şərait olsun. Hətta Cavid rus dilini öyrənmək məqsədi ilə bir rus ailəsində qalmağı da arzulayır: «Mən dərs verdiyim yerdə gecələri bir tərbiyəli rus ailəsi içərisində yaşamağı arzu edirəm»[284].

Əcnəbi dilə və mədəniyyətə yiyələnməyi milli inkişafın əsas xüsusiyyətlərindən biri hesab edən şair «Şərqi-rus» qəzetinin 24 avqust 1909-cu il sayında yazırdı: «... o

---

[283] Hüseyn Cavid. «Seçilmiş əsərləri», 4 cilddə, IV cild, Bakı, 1985.
[284] Hüseyn Cavid. «Seçilmiş əsərləri», 4 cilddə, IV cild, Bakı, 1985.

rus dili ki, bizim Vətəndə bəzi həqiqətləri və məsələləri bilmək və dərk etməkdə ən lazımlı vəsait sayılır, o dili öyrənmək və bilmək lazım və vacibdir. Əgər biz yeni ixtira olunan elmlərin lüzumunu nəzərə alırıqsa, Qafqaz ərazisində rus dilindən başqa, yuxarıda adını çəkdiyimiz dillərin (türk, fars və ərəb dillərinin - C.Q) heç birində buna nail ola bilmərik. Bunun əksini düşünmək bihudə fikir və mənasız xəyaldır».

H.Cavid dilin «zorlanmasının», başqa təsir altına salınmasının əleyhinə idi. O görürdü ki, dilin «zorlanması» ilə imperiya xalqın geninə, milli yaddaşına təsir edir, fərdləri deyil, bütöv bir xalqı manqurda çevirir. Əsrimizin 20-30-cu illərində əlifbanın ərəbdən latına, latından kirilə dəyişdirilməsi də soydan uzaqlaşmağa, yaddaşsızlaşmağa, manqurdlaşmağa xidmət edirdi. Bunun tragik nəticəsi idi ki, 90-cı illərdə «biz kimik», «babamız kim olmuşdur» sualı iki dəfə Milli Məclis səviyyəsində qaldırıldı və müxtəlif qərarlar qəbul olundu.

Göründüyü kimi, Cavidi millətçiyə çevirən amillərdən biri də Azərbaycan dilinin saflaşması, ümumtürk dilləri ilə ünsiyyət və əlaqəsi idi.

Xalq şairi Məmməd Rahim «Qüdrətli sənətkar» adlı xatirə yazısında Cavidin millətçilik baxışlarını belə anırdı: «...Cavid tez tutulan idi. Hətta nərddə uduzanda da qanı qaralırdı. Ona görə də bəzən bilərəkdən uduzmaq istəyərdik. Az qalmışdı bu gün də belə olsun bunu biləndə, duyuq düşəndə acığı daha çox tuturdu. Nə isə, düşbərə gəldi, ədəbi söhbət kəsildi. Süfrə yığıldı, çay gəldi, yenə söhbət başlandı: Cavid dedi: «Mən bu fikirdəyəm ki, əsəri

zümrələr üçün deyil, insanlar üçün, dünyanı sevənlər üçün yazmaq gərəkdir». Faruq «insan məfhumu mücərrəddir» - dedi. Cavid «insan məfhumu müqəddəs və konkretdir» - deyə etiraz elədi. O, bu sözləri deyəndə ahəngində ciddilik vardı.

> Torpaq vətənim, nəvi bəşər, millətim insan,
> İnsan olur, ancaq buna izanla inandım!

- misralarını oxuyub, «böyük Tofiq Fikrətdən öyrənin» - dedi. Bunlar bir daha göstərir ki, Cavid millətçiliyi bəşəriliyə aparan, bəşəri dəyərlərə söykənən millətçilikdi. Müstəntiqin Cavid əsərlərində pantürkist meyllər tapması onu ittiham etmək üçün bir vasitə idi. Araşdırmalar göstərir ki, repressiya illərində Azərbaycanlıların türk, Azərbaycanlı olmaları onların həbs olunmaları üçün kifayət idi.

Bütün bu dindirmə və üzləşmələrdən sonra Cavid haqqında 8 mart 1939-cu ildə daha bir qərar qəbul edildi. Qərarda bildirilirdi ki, bundan əvvəlki həbs olunma qərarı öz qüvvəsində qalmaqla H.Cavid əlavə olaraq CM-nin 68-ci maddəsi ilə də günahlandırılsın.

Yeri gəlmişkən bir məsələyə də öz münasibətimizi bildirmək istərdik. Belə ki, Cəmil Həsənov yazır: «Hətta istintaq orqanlarının heç nəylə məhdudlaşmayan hər cürə yaramazlıqlarından sonra H.Cavid kimi möhkəm iradəli bir dahi özünə belə «böhtan» atırdı: «...Axırıncı üç gündə 23 fevral 1937-ci ildən (bu, 1938-ci il oxunmalıdır. Görünür, məhbusa verilən işgəncənin təsirindən illərin də yeri dəyişik düşüb) sonra istintaq qarşısında mən özümün iy-

rənc, biyabırçı hərəkətimi tam aydınlığı ilə başa düşdüm. Bəli, mən cinayət etmişəm, rəhbərliyin etmadını doğrultmayıb onları aldatmağa çalışmışam. Mən bütün deyilənləri boynuma alıram. Mən yaramaz və provakatoram. Sizə müraciət etməkdə məqsədim odur ki, partiya rəhbərliyinin yüksək humanizmi naminə mənim bir dəfəlik məhv olmağıma kömək edəsiniz»[285].

Cəmil müəllimin bu sətirləri haradan götürdüyünü deyə bilmərik (müəllif heç bir mənbə göstərməmişdir - C.Q). Lakin H.Cavidin istintaq işində buna rast gəlmədik. İstintaq boyu özünün müqəssir olmadığını bildirmişdir. İstintaqı aparan müstəntiqlər SSRİ Xalq Daxili İşlər Komissarlığı yanında Xüsusi Müşavirəyə göndərmək üçün 11 mart 1939-cu ildə tərtib etdikləri «İttihamnamədə» yazırdılar ki, «o özünü müqəssir bilmir»[286].

Cavidin istintaqının bu qədər uzadılmasının (1937-ci ilin iyunundan, 1939-cu ilin martına kimi) əsas səbəblərindən biri də üzləşmələrə, şahid ifadələrinə baxmayaraq, bütün əzab və işgəncələrə dözərək, özünün «müqəssir olduğunu» boynuna almaması idi.

1939-cu ilin 8 martında H.Cavid son söz olaraq bildirmişdir ki, mən öz ifadələrimə heç nə əlavə etmirəm, bir onu əlavə edirəm ki, əksinqilabçı təşkilatda olmadığım kimi, casusluq işi ilə də məşğul olmamışam[287].

---

285 Cəmil Həsənov. «Ağ ləkə»lərin qara kölgəsi», Bakı, «Gənclik», 1991, səh. 135-136.

286 MTN-in arxivi. Hüseyn Cavidin istintaq qovluğu, PR - №18845.

287 MTN-in arxivi. Hüseyn Cavidin istintaq qovluğu, PR - №18845.

Cavid müstəntiqə son söz deməkdən imtina etsə də, o bəşəriyyətə öz son sözünü (mənəvi, əxlaqi, estetik tərbiyə anlamında) bəyan etmişdir: «Mənim təbiyətimi bilirsiniz. Mən hamballığı, xidmətkarlığı çox sevirəm. Fəqət... mənliyimi satmaq, əsir olmaq istəməm (Əsir olduğum bir şey varsa o da həqiqətdir). Əsarət zəncirinə bağlanmaq, o müləvvəs qeydi çəkməyə razı olmayıram»[288].

Bundan sonra 17 mart 1939-cu ildə 3-cü korpusun hərbi prokuroru briqada hərbi hüquqşünası Qusev belə bir nəticəyə gəlmişdir ki, Azərbaycan SSR CM-nin 68, 72, və 73-cü maddələri ilə ittiham edilən H.Cavidin istintaq işinə baxılmaq üçün SSRİ-i yanında XDİK-in Xüsusi Müşavirəsinə göndərilsin.

Moskva şəhərində 4 iyun 1939-cu ildə Cavidin işi ilə tanış olan prokuror Pate də hesab etmişdir ki, onun istintaq işinə SSRİ XDİK-i yanında Xüsusi Müşavirəsinə verilsin və cəzasını islah-əmək düşərgəsində çəkməklə səkkiz il müddətinə azadlıqdan məhrum edilsin.

İyunun 9-da SSRİ XDİK-i yanında Xüsusi Müşavirəsinə göndərilmiş 24938 nömrəli istintaq işinə baxıldı və belə bir qərar qəbul edildi ki, o, antisovet təşkilatında və təbliğatında iştirakına görə, cəzasını islah əmək düşərgəsində çəkməklə, vaxtı 4 iyun 1937-ci ildən hesablanmaqla səkkiz il müddətinə azadlıqdan məhrum edilsin[289].

Hüseyn Cavid kimi həbsdə Ə.Cavada verilən suallar və elan olunan ittihamlar, demək olar ki, eyni idi. Burada

---

[288] Yaşar Qarayev. «Ədəbi üfüqlər», Bakı, 1985, səh. 113-114.

[289] MTN-in arxivi. Hüseyn Cavidin istintaq qovluğu, PR - №18845.

alınmış ifadələrdə göstərilirdi ki, Ə.Cavad əksinqilabi burjua-millətçi təşkilatın üzvüdür və bu təşkilatın əsas məqsədi Azərbaycanı SSRİ-dən ayırmaqdan ibarətdir. Bu barədə Klimençiç tərəfindən hazırlanmış arayışı 1937-ci il may ayının 27-də dövlət təhlükəsizlik kapitanı Tsinman imzaladı. Bu artıq onun həbsinə verilmiş razılıq idi.

3 iyun 1937-ci ildə Bakı şəhərində onun həbs olunması ilə əlaqədar Az.XDİK DTİ-nin 1-ci şöbə 4-cü bölməsinin rəisi DT leytenantı Klemençiç 12493 nömrəli istintaq işinin materialları ilə tanış olduqdan sonra belə qərara gəlmişdir ki, vətəndaş Əhməd Cavad Axundov Az SSR CM-nin 72, 73-cü maddələri ilə ittiham edilsin, həbsdən və məhkəmədən yayınmaması üçün həbs edilsin və Az.XDİK-in təcridxanasında nəzarət altında saxlanılsın[290].

Həmin qərar 7 iyunda Ə.Cavada elan edilmişdir.

Elə həmin gün onun barəsində 510 nömrəli evində axtarış aparma və həbsetmə orderi də imzalandı. Həmin orderə əsasən iyunun 3-dən 4-nə keçən gecə şair və həyat yoldaşı Şükriyyə xanım həbs edildi və 4 iyunda onun yaşadığı mənzildə axtarış aparıldı. (Şükriyyə xanım bir neçə gündən sonra azad edilmişdir). Həmin gecə şairin yaxın dostu və sənət müəllimi H.Cavid, eləcə də dostu və şagirdi M.Müşfiq də həbs edildi. (Mətbu mənbələrdə həmin gecə Vəli Xuluflunun da həbs edildiyi qeyd edilir ki, bu doğru deyildir. V.Xuluflu 68 saylı orderə əsasən 1937-ci ilin 28 yanvarında həbs edilmişdir). Beləliklə, şair təkcə qəzet, jurnal, yığıncaq, iclas, qurultay və plenumlarda tənqid hə-

[290] MTN-in arxivi. Əhməd Cavadın istintaq qovluğu, PR - №22316.

dəfinə tutularaq təftiş edilmədi, eyni zamanda müstəntiqlər tərəfindən ittiham olunmağa başladı.

Yoxlama zamanı Ə.Cavadın evindən götürülən kitab, qəzet, müxtəlif fotoşəkillər və məktublar 2 oktyabr 1937-ci ildə Qvozdev və Qusarov tərəfindən bağlanmış akta əsasən istintaq üçün əhəmiyyət kəsb etmədiyindən məhv edilmişdir. Qvozdev və qusarovlara əhəmiyyətsiz görünən, Azərbaycanın tarix və mədəniyyətindən bəhs edən bu sənədlər arasında şairin indiyə qədər işıq üzü görməmiş onlarla əsəri də vardı. Çünki özünəməxsus deyim və yozum tərzi olan şair sovet dövründə təqiblərdən yaxa qurtarmaq üçün əsərlərinin bir qismini çap etdirməmişdir.

4 iyun 1937-ci ildə aparılan əməliyyat-axtarış zamanı XDİK əməkdaşları Şükrüyyə xanımın qiymətli əşyalarını - 7 ədəd çar rusiyası dövründə istehsal edilmiş beşlik qızılını da götürmüşdülər. Görəsən bunlar da istintaqa lazımlı idi?

M.Ə.Rəsulzadə yazırdı: «...Milli cərəyanın nümayəndəsi Cavad Axundzadənin (Ə.Cavad)» işi bolşevik dövründə qətiyyən gətirmir. Əski bir «müsavatçı» olduğuna görə onu həbs edirlər. Mətbuat səhifələrində, ədəbiyyat qurultaylarında hər yerdən uzaqlaşdırılır və qovulur. Əsərlərini nəşr etmirlər və nəşr olunanları isə toplayırlar. Bütün bunlara baxmayaraq onun yazdığı parçalar əldən-ələ gəzərək gənc kommunistlərin arasında belə yayılır. Gənc bolşevik şairlər öz yazdıqları şeirlərini Cavadın tənqid və təqdirinə ərz edəcək dərəcədə onun təsirinə düşürlər»[291].

---

[291] M.Ə.Rəsulzadə. Çağdaş Azərbaycan tarixi, Bakı, 1991.

Beləcə, həmin gecə onlarla ailə, eləcə də Ə.Cavadın ailəsi - 75 yaşlı anası Yaxşı, 35 yaşlı həyat yoldaşı Şükriyyə, 20 yaşlı oğlu Niyazi, 16 yaşlı oğlu Aydın, 14 yaşlı oğlu Tukay və 2 yaşlı oğlu Yılmaz başsız qaldı. Əslində başsız qalmadılar, onlar da Ə.Cavad kimi təqib və təzyiqlərə məruz qaldılar. (Bu barədə bir qədər sonra danışılacaqdır).

Müstəntiqlər Ə.Cavadı daha çox Azərbaycanda fəaliyyət göstərən əksinqilabi millətçi təşkilatın üzvü olmaqda ittiham edirdilər. 5 iyun 1937-ci il ilk dindirmə zamanı müstəntiqin verdiyi ilk sual:

**Sual:** İstintaqa məlumdur ki, siz əksinqilabi millətçi təşkilatın üzvüsünüz, bunu təsdiq edirsinizmi?

**Cavab:** Mən 1924-cü ilə kimi əksinqilabi millətçi təşkilatın üzvü olmuşam və burjua-millətçi təşkilatın yuxarı təbəqədəki qrupları ilə - Rəhim Vəkilovla, Məmmədəli Ağamalıyevlə və başqaları ilə əlaqə saxlamışam. 1924-cü ildən sonra mən heç bir millətçi təşkilatla və əksinqilabi millətçilərlə əlaqə saxlamamışam[292].

Ə.Cavadın bu cavabı, şübhəsiz ki, müstəntiqləri təmin etmirdi. Belə hallarda yuxarıda bəhs etdiyimiz metod və üsullardan istifadə edərək müttəhəmləri «tərbiyə» edirdilər. Şairə də belə üsullar tədbiq edilmişdir. Bu məsələ ilə bağlı şairin sədaqətli ömür-gün yoldaşı Şükriyyə xanımın istintaq işində qorunub saxlanılan bir ifadəsini xatırlatmaq kifayət edər. Şükriyyə xanım bildirirdi ki, mən Bayıl türməsində həbsxanada saxlanarkən, orada vaxtı ilə bizim ev qulluqçumuz olan Mariya Sergeyevna da xırda oğurluq

---

[292] MTN-in arxivi. Əhməd Cavadın istintaq qovluğu, PR - №22316.

üstündə yatırdı. O, dustaqlara yemək verilərkən mənə dedi ki, «sənin ərini, yəni Əhməd Cavadı Bayıl türməsinin səyyar xəstəxanasına başı bintlə sarınmış halda, 40 dərəcə temperaturla gətirmişdilər»[293].

Bütün bunlar şairin hansı təzyiqlər altında ifadə verdiyini bir daha təsdiqləyir. Bu fiziki işgəncələrə dözə bilməyən şair 25 iyulda verdiyi ifadəsində hər şeyi boynuna almaq məcburiyyətində qalmışdır.

**Sual:** Həbsdə olduğunuz ay yarım müddətdə Siz əksinqilabi təşkilatla əlaqənizi təkidlə danmısınız. İstintaq Sizə bu məsələ barəsində səmimi ifadə verməyi təklif edir.

**Cavab:** Mən keçmiş və indiki əksinqilabi fəaliyyətim barədə müfəssəl danışmaq istərdim.

Mən 1923-cü ildə ÇK orqanları tərəfindən həbs edilərkən istintaqa səmimi ifadələr verməmişəm. Mən həbs olunan günə qədər «Müsavat» partiyasının rəsmi üzvü olaola, müsavat şairi kimi öz əsərlərimdə müsavat ideyalarını vəsf etmişəm, lakin bu partiyanın üzvü olduğumu inkar etmişəm.

İkincisi, mən Mirzə Bala Məmmədzadənin qaçmasını gizlətmişəm. Mən dəqiq bilirdim ki, onun üçün qaçış hazırlanır, qaçışın təşkili üçün lazım olan pulun ardınca mənim yanıma Məmmədəli Ağamalıyev gəlirdi. Düzdür, mən pul vermədim, eləcə də nəzərdə tutulan qaçış barədə məlumat vermədim və istintaq zamanı bunu gizlətdim.

Həbsdən azad edildikdən sonra, mən, müsavat partiyası ilə əlaqələrimin qırılması haqqında deklarasiya dərc

[293] MTN-in arxivi. Şükriyyə Axundzadənin istintaq qovluğu, PR - №17740.

etdirdiyimə baxmayaraq, özümün əksinqilabi müsavat fikirlərimi qoruyub saxlamış və bu baxışları «Maarif və Mədəniyyət» jurnalında çap olunan əsərlərimdə nümayiş etdirmişəm.

Mən 1924-cü ildən 1926-cı ilədək Azərbaycan ədəbiyyat cəmiyyətinin məsul katibi idim. Cəmiyyətin sədri Talıblı, müavini isə Tağı Şahbazi idi. Onlar ÜK(b)P-nin üzvü idilər və məndən özlərinin əksinqilabi millətçi baxışlarını gizlətmirdilər. Mən onların himayəsi altında cəmiyyətdə özümün əksinqilabi işimi aparırdım. Bu iş ondan ibarət idi ki, mən cəmiyyətə yalnız qoca, inqilaba qədərki yazıçıları, əsasən Müsavat düşərgəsinə mənsub olanları qəbul edir, cavan yazıçıları isə cəmiyyətə qəbul etmirdim. Bu zaman «akademizmə» əsaslanır və cəmiyyətə qəbul olunmaq üçün ciddi əsərlərin olmasını tələb edirdik. Bununla birlikdə, mən cəmiyyətə azərbaycanlılardan başqa qeyri millətlərin daxil olmasını dayandırdım.

Bu cəmiyyət tərəfindən nəşr olunan bütün əsərlər xalis millətçi xarakter daşıyır.

Cəmiyyətə böyük hörmətlə türk təbəəsi, professor, Az.SSR-in Maarif Komissarlığı tərəfindən ali təhsil müəssisələrində dərs demək üçün dəvət olunmuş İsmayıl Hikmət məhz o zaman qəbul edildi.

İsmayıl Hikmətlə birlikdə Türkiyədən olan başqa professor -Xəlil Fikrət qəbul olunmuşdu. 1926-1927-ci illərdə Bakıya məşhur pantürkist və millətçi Çobanzadə gəldi və dərhal türklərlə birləşdi. Onlar üçlükdə müsavatçı dairələr, daha doğrusu müsavatın hakim təbəqəsi ilə əlaqə yaratdılar.

1925-ci ildə mən Məmməd Həsən Baharlının mənzilində keçirilən müsavat partiyası rəhbərliyinin gizli yığıncağında iştirak etdim. İclasda İsmayıl Hikmət, Xəlil Fikrət, Bəkir Çobanzadə, Rəhim Vəkilov, Əli Yusifzadə, Dadaş Həsənov, Məmmədəli Ağamalıyev iştirak edirdilər. Orada Rəhim Vəkilov müsavat partiyasının proqram nitqi ilə çıxış etdi, sonra isə iclas iştirakçılarını «Müsavat» partiyasının gizli fəaliyyəti barədə məlumatla tanış etdi.

Məni Hikmət və Fikrətə yaxınlaşdıran əksinqilabi müsavatçı və pantürkist baxışlarım olmuşdur. Mən onlarla mütəmadi olaraq fikir mübadiləsi edirdim. Qeyd etməliyəm ki, onların hər ikisi bir neçə istiqamətdə böyük pantürkist iş aparırdı. Mənim vasitəmlə onlar özlərinin Azərbaycan dilinin osmanlaşması və Azərbaycan ədəbiyyatına pantürkist ideyalarının tətbiq edilməsi vəzifələrini yerinə yetirirdilər.

Ədəbiyyat cəmiyyətində türklər öz ətraflarına Mustafa Quliyev, Tağı Şahbazi, Cəlil Məmmədzadə, Böyükağa Talıblı, Hüseyn Cavid, Zeynallı və məndən ibarət şəxslər dairəsi yığmışdılar...

....Mən əksinqilabi və pantürkist ideyalarımı 1934-cü ilədək, Sovet Hakimiyyəti ilə mübarizəni dayandırmağa qət edənədək saxladım, ancaq əksinqilabçı-ikiüzlülərin təsiri altında qalaraq mən sovet mövqelərində çox qala bilmədim və artıq 1936-cı ildə birbaşa əksinqilabi işə - əksinqilabi təşkilatda iştiraka yuvarlandım.

20 sentyabr 1937-ci ildə şairlə üçüncü dindirmə oldu və bu dindirmə zamanı müstəntiqlər onu Türkiyə və İranla əlaqəsi məsələlərinə toxundular.

**Sual:** Siz xaricdə olmusunuzmu, nə vaxt və harada?

**Cavab:** Bəli, mən 1912-ci ildə Türkiyədə olmuşam. Mən ora ona görə getmişdim ki, türk-balkan müharibəsində türk ordusunda könüllü iştirak edim.

Mən Türkiyəyə Batumda hansısa pasport alveri ilə məşğul olan yunanlıdan aldığım fars pasportu ilə getmişəm. Mənimlə birlikdə türk ordusunda könüllü iştirak etmək üçün İdris Axundzadə (NKVD tərəfindən həbs edilib), Əli, familiyası yadımda deyil və İsa Əlizadə (hər ikisi vəfat edib) getmişdir. Biz hamımız könüllü dəstəyə qəbul olunmuşduq və onun tərkibində bolqarlara qarşı hərbi hərəkatlarda iştirak edirdik. 1913-cü ilin payızında mən Rusiyaya qayıtdım.

**Sual:** Sovet hökuməti dövründə sizin Türkiyəyə qaçmaq meyliniz olubmu?

**Cavab:** Bəli, 1924-cü ilə kimi mən SSRİ-ni tərk etmək və Türkiyəyə getmək fikrində idim. Bu mənim əksinqilabi millətçi mövqeyim və Sovet hökumətinə o vaxt məndə olan düşmən münasibətim ilə əlaqədar idi.

**Sual:** Siz nə üçün bunu yerinə yetirmədiniz?

**Cavab:** Bu dövrdə - 1924-cü ildə mən belə fikirləşirdim ki, Türkiyədə kommunist inqilabı olacaq və belə bir vaxtda SSRİ-ni Türkiyəyə dəyişməyə əsas yox idi. Sonra mən ali təhsil müəssisəsində oxumağa və dərs deməyə başladım. Mənim siyasi mövqelərim tədricən dəyişdi və Türkiyəyə getmək fikrindən daşındım.

**Sual:** Sizin türk və fars səfirliyinin işçiləri ilə nə kimi əlaqəniz vardır?

**Cavab:** Türk professorları Hikmət və Fikrət burada olan vaxt, onların vasitəsi ilə mən Türkiyə səfiri ilə münasibətdə olmuşam. Sonrakı illərdə mən Türk vətəndaşı, fəhlə fakültəsində mənimlə birlikdə dərs deyən Camal Ruhu ilə tanış idim. Lakin o, Türkiyə səfirliyinə keçdikdən sonra mən onunla əlaqələrimi kəsdim.

1930-cu ildə mən AKTİ-u ilə birlikdə Kirovabada köçdüm. Orada mən uşaqlıq dostum Seyid Əli Mirkazımov ilə tezliklə yaxın əlaqə saxladım. O varlı oğlu idi. İranlı idi, özüdə inamlı əksinqilabi millətçi idi. O dövrdə o, Kirovbadda yerləşən İran səfirliyində xüsusi tapşırıqlar üzrə məmur işləyirdi. Onunla mən o, İrana gedənə - 1933-cü ilə kimi bərk dostluq etmişəm. Biz hər zaman bir yerdə olmuşuq və bir-birimizin evinə gedib-gələrdik. Seyid Əlinin evində mən İran səfirliyinin işçisi Zendi ilə və səfir Vafi ilə görüşürdüm. Axırıncı ilə mən kart oynayardım. Vafi ilə müxtəlif mövzularda söhbət edərdik. Etiraz etmirəm ki, mən Seyid Əli Mirkazımovla vaxtaşırı əksinqilabi millətçi söhbətlər etmişəm.

**Sual:** İran səfirliyinin işçiləri sizinlə söhbətlərdə Sovet ittifaqı barədə məlumatlarla maraqlanırdılarmı?

**Cavab:** Xeyr, bu şəxslər İran əhalisindən rüşvət və pul almaqla məşğul idilər və onlarda ayrı maraq görməmişəm.

**Sual:** İrana gedəndən sonra Seyid Əli Mirkazımovla yazılı və ya şifahi əlaqə saxlayırdınızmı?

**Cavab:** Qəti bəyan edirəm ki, S.Ə.Mirkazımovla İrana köçdükdən sonra heç bir əlaqəm olmayıb. Onun bacısı tərəfindən şəxsi həyatının bəzi detalları mənə aydın olurdu.

**Sual:** Siz BK və Müsavatın Mərkəzi Komitəsinin gizli üzvü olmusunuzmu?

**Cavab:** Bəli, mən boynuma alıram ki, 1922-23-cü illərdə gizli əksinqilabi Müsavat partiyasının Bakı komitəsində və BK-da işləmişəm. Bunu mən Az.ÇK-nın istintaqdan və ümumiyyətlə bu günə qədər gizlətmişəm[294].

Bütün bu dindirmələrdən sonra şair haqqında başqa bir qərar da qəbul etdilər. Həmin qərara əsasən şair ədəbiyyat cəbhəsində zərərli iş apardığına görə Az.SSR CM 21, 69-cu maddəsi ilə də ittiham edilməli idi.

Ayrı-ayrı qəzet və jurnal səhifələrində çıxan yazılar deyəsən müstəntiqlərin köməyinə gəlirdi.

Beləliklə, 4 dindirmə və 1 üzləşmədən sonra sentyabrın 25-də istintaqın başa çatdığı ona bildirildi və ittihamnamə tərtib edildi. İttihamnamədə göstərilirdi ki, Ə.Cavad Azərbaycan əksinqilabi millətçi təşkilatının üzvü olmuşdur. Bu təşkilat trotskiçi təşkilatla birgə fəaliyyət göstərib. Həmin təşkilatın məqsədi Azərbaycanı SSRİ-dən silahlı üsyan yolu ilə ayırmaq, Kommunist Partiyası və Sovet hökuməti rəhbərlərinə qarşı terror aktları hazırlamaq, kapitalist ölkələrinin xeyirinə casusluq etməklə məşğul olmuşdur. Bundan başqa şair əsərlərində burjua-millətçi mövqedə dayanaraq ədəbiyyat sahəsində də ziyankarlıqla məşğul olmuşdur. Ona görə də o, Az SSR CM-nin 21, 69, 70 və 73-cü maddələri ilə ittiham olunur[295].

---

[294] MTN-in arxivi. Əhməd Cavadın istintaq qovluğu, PR - №22316.

[295] MTN-in arxivi. Əhməd Cavadın istintaq qovluğu, PR - №22316.

11 oktyabr 1937-ci ildə Bakı şəhərində SSRİ Ali Məhkəməsi hərbi Kollegiyasının Səyyar Sessiyasının hazırlıq iclası keçirildi. İclasın sədri İ.O.Matuleviç, üzvləri İ.M.Zaryanov və Ü.A.K.Jiqur, katib A.F.Kostyuşko olmuşdur. Hazırlıq iclasında SSRİ prokurorunun baş köməkçisi H.S.Razovski də iştirak etmişdir. Azərbaycan SSR CM-in 69, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham edilən Əhməd Cavad haqqında belə bir qərar qəbul etdilər ki, işə müdafiəçinin və şahidlərin iştirakı olmadan, qapalı iclasda baxılsın.

12 oktyabr 1937-ci ildə hazırlıq iclası aparan heyətin iştirakı ilə saat 19.40 dəqiqədə qapalı iclas öz işinə başladı. Məhkəmədə Ə.Cavad ilkin istintaq zamanı verdiyi ifadələrinə heç nə əlavə etməyəciyini və özünün tamamilə günahkar olduğunu bildirmişdir.

20.00-da öz işini bitmiş hesab edən məhkəmə ona güllələnmə hökmü oxumuşdur.

İstintaq işində olan arayışdan aydın olur ki, Ə.Cavadı 13 oktyabr 1937-ci ildə Bakı şəhərində güllələmişlər[296].

Tənha Bayıl məhbəsində məhkum sənətkardan alınan və stenoqrama düşən söz müsəntiq üçün əhəmiyyətsiz və gərəksiz hesab edilən sənəd, xalqın dünəni və gen yaddaşı ilə, bu günü arasında mənəvi varislik əlaqələrini qoruyan qiymətli sərvətdir. Bu mənəvi sərvətlər, həm də ona görə yandırılırdı ki, xalqın mənəviyyat xəzinəsi kasıblaşdırılsın. Çünki mənən kasıb və yoxsul olanlar ağalarına asanlıqla sadiq və sədaqətli qula çevrilirlər. C.Brunonu tonqala

---

[296] MTN-in arxivi. Əhməd Cavadın istintaq qovluğu, PR - №22316.

atanlar dərk etmədilər ki, onu işıq, atəş, od və tonqalla qorxutmaq və məhv etmək olmaz. C.Brunonu əsrlərin arxasından bu günə gətirən, müasirimizə çevirən özgələrin qaladığı və onu məhv etdiyi tonqalın işığı yox, özünün yandırdığı təfəkkür işığı, fəlsəfi məfkurəsi olmuşdur. Bu məfkurəsi ilə o, onun fiziki məhvinə səbəb olan tonqala və tonqal qalayanlara qalib gəldiyi kimi, əqidəsini uca tutduğundan dərisi soyulan Nəsimi də onun qətlinə fərman verənlərə əsərlərilə birgə ölümü ilə də ittiham oxudu. Ona görə də özündə iki cahanı (sufilik və hürufiliyi - C.Q) sığışdırdığı halda, özü cahana sığmadı.

Onlar ölümləri ilə sübut etdilər ki, mənəvi kamillik, yüksək əxlaq və əqidə bütövlüyü ölümsüzlüyün, mütilik, itaət isə diri ölülüyün meyarıdır. Bu cəhəti yaxşı dərk edən imperiya köklə, yaddaşla əlaqəni kəsmək, əcdad babayla müasir oğul arasındakı ünsiyyəti qırmaq üçün mənəviyyat sahibləri ilə yanaşı, bizi kökümüzə bağlayan və gələcəyə aparan mənəvi sərvətləri də məhv edirdilər.

Nəsillər üçün bu böyük tarixi və mənəvi-əxlaqi əhəmiyyətini nəzərə alaraq Müşfiqlə bağlı istintaq sənədlərindən də nümunə göstərmək və məhbəs həyatının Cavid-Cavad salnaməsini Müşfiqlə tamamlamaq istəyirik. M.Müşfiq həbs edildikdən bir gün sonra - 5 iyun 1937-ci ildə ifadə vermiş və özünün əksinqilabi millətçi təşkilatla heç bir əlaqəsi olmadığını bildirmişdir. Lakin ikinci dindirmə zamanı (20-21.10.37-ci il) o, özünün əksinqilabi millətçi təşkilatın üzvü olduğunu etiraf etmişdir:

**Sual:** Bütün istintaq boyu Siz əksinqilabi təşkilatda iştirakınızı inkar edərək, istintaqın gedişini ləngidirsiniz. İs-

tintaq bir daha Sizdən tələb edir ki, Siz əksinqilabi təşkilatda iştirakınız haqqında düzgün ifadə verəsiniz.

**Cavab:** ...Mən qərara gəldim ki, əksinqilabi fəaliyyətim barədə düzgün və əhatəli məlumat verim. Etiraf edirəm ki, mən Azərbaycandakı millətçi əksinqilabi təşkilatın üzvüyəm[297].

Müşfiq verdiyi ifadədə həmin təşkilatın gələcəkdə görəcəyi işlərə də toxunur və bildirirdi ki, bu təşkilatın əsas məqsədi Azərbaycanı SSRİ-dən ayıraraq müstəqil bir dövlət kimi yaşamasına nail olmaq idi.

O, eyni zamanda bildirirdi ki, 1936-cı ildə mən 2 şeir yazmışdım «Mingəçevir» və «Əbədiyyət nəğməsi». Mən hər iki əsərdə örtülü şəkildə Azərbaycanın ağır vəziyyətini təsvir etmişdim. Bu əsərlər «Kommunist» və «Ədəbiyyat qəzeti»ndə dərc olunmuşdur.

Müşfiqin adını çəkdiyi əsərlərin hər ikisi onun istintaq işində qorunub saxlanılır[298].

Həqiqətən də M.Müşfiq bu əsərlərində milli hiss və duyğulara bir qədər meydan vermiş. «Əbədiyyət nəğməsi» şeirinin lap əvvəlindəcə şair yeni cəmiyyətin onun «dolu xəzinəsini» tükətdiyindən, «dənizin quruduğunu», «küləyin susduğunu», «çəmənin saraldığını» bildirir. Bütün bunlara baxmayaraq o bir şey də təsəlli tapır. Bu təsəlli də odur ki, «Kainat olduqca şeir olacaq».

Bu ağır sorğular yaxarkən məni,
Sərincə bir səda keçdi içimdən:

---

[297] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.
[298] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

Şair yeni-yeni sözlər bulacaq,
Kainat olduqca şeir olacaq.

Sonrakı parçada şair keçən rüzgarı soraqlayır və «sevimli yazın» gəlməsini, «günəşin eşqiylə suların çağlamasını», rüzgarın «tarlada öz sazını dinləndirməsini» arzulayır. Müşfiqin keçmişə müraciəti onun dünəni idealizəsi deyil, bəlkə də, nəsillərdən-nəsillərə ötürülən, keçmişlə çağdaş zaman arasındakı mənəvi ünsiyyət estafetinin bərpasıdır.

Görüncə bunları vəcdə gələcək,
Çalıb, çağıracaq yenə sənətkar:
Şair yeni-yeni sözlər bulacaq,
Kainat olduqca şeir olacaq.

Şair öz fikirlərini misradan-misraya inkişaf etdirir, təbiətin sakitliyinə etiraz edir, onun çağlamasını, fırtınalar qoparmasını tələb edir və bu gərdişin, bu zamanın əlindən haray qoparır:

Ey acıqlı günəş, soyuqqanlı ay!
Haray bu gərdişin əlindən, haray!
Siz, ey ağır başlı buludlar, keçin
Başımın üstündən hey alay-alay!
Gurulda, ey səma, ağla, ey yağış!
Sən də yatağında qurcalan, ey çay!
Haydı fikrim kimi qalınlaş, orman!
Ruzgar, duyğum kimi əs qolay-qolay!

Bizə əlvan ruhlar, əlvan xəyallar
Göstərərkən hər il, hər fəsil, hər ay
Şair yeni-yeni sözlər bulacaq,
Kainat olduqca şeir olacaq!

Şair sanki birdən-birə hiss edir ki, bu sözlərin zamanı deyil. Ona görə də sözün zamanından zamanın sözünə keçir. Zamanın sözündən bir müdafiə, pərdə kimi istifadə edir. Zamanın sözü isə Şura hökumətinin və oktyabrın təbliği idi:

Sən bizə can verdin, can Oktyabr!
Altun şəfəqlərə yan, Oktyabr!
Salam, ey Leninin işçi ordusu,
Səninlə bulmuşdur şan, Oktyabr!

M.Müşfiq təkcə bu əsərində deyil, bir çox başqa əsərlərində də Zamanın sözünü demiş, bəzən sosialist realizmin tələblərinə cavab verən əsərlər də yazıb yaratmış, lakin zamanın sözünün tülü arxasında öz estetik idealına sədaqətini də gizlətməmişdir.

Şair «Mingəçevir həsrəti» poemasında başqa bir qlobal problemə - Vətənində yadellilərin tarixən gözü olduğuna, bütün bunların Azərbaycanın mənəvi sərvətlərində iz saldığına toxunur və hər gecənin bir gündüzü olacağına inanırdı.

Vətənimdə yadların,
Qaniçən cəlladların

Ta əzəldən gözü var.
Ömrümdə, həyatımda.
Ağımda, bayatımda,
Min bir dərdin izi var.
O keçən dövranımda,
Hankı «dostun» yanında
Danışmağa üzü var?
Hər gələn çapdı məni.
Oyuncaq yapdı məni,
Buna kimin sözü var?
Dayan könül, bir qədər!
Hər gecənin demişlər:
Bir aydın gündüzü var. («Duyğu yarpaqları»)

Yeri gəlmişkən qeyd edək ki, M.Müşfiq yaradıcılığında «gecə» sözü ilə tez-tez rastlaşırıq. Maraqlıdır ki, o, «gecə» sözünü həmişə işıqla yanaşı işlətmiş, qaranlığa, şərə, zülmətə işığı, ayı, ulduzu «dəvət» etmişdir. Onun yaradıcılığında işıq seli qaranlığı üstələyir, qovur, qaranlıq, şər arxa plana keçir. «Dəvət» şeirində olduğu kimi:

Bu gecə nə qədər xoş gecədir,
Bir qara qız kimi tellicədir.
Yer işıq, göy işıq,
Hər tərəf yarışıq.
Sevgilim dayanma, sahilə gəl,
Seyr elə gəl
Ulduzlar ətrafa nur səpələr,
Bir bölük uşaqdır şən ləpələr,

Onların əlində top kimi ay.
Sevgilim başında ağ kəlağay,
Sahilə gəl,
Seyr elə gəl.

«Gecə düşüncəsi» şeirinə fikir verək:

Xoşladığım bir gecə, yerlər, göylər işıqlı;
Ay bir sərxoş göz kimi, ulduzlar yaraşıqlı.

İşığın, ayın, ulduzun, xeyirin gecəyə, qaranlığa, şərə, zora qarşı qoyulması, başqa sözlə işıq-qaranlıq, xeyir-şər, iblis və mələk qarşılaşması və sonda işığın qələbəsi romantik şairin həyata nikbin baxışından, işıqlı sabaha ümid və inamından soraq verir.

Müşfiqin bəraəti ilə əlaqədar olaraq 1955-ci ildə «Mingəçevir» və «Əbədiyyət nəğməsi» əsərində də həqiqətən əksinqilabi millətçi meyllərin olub-olmaması ilə əlaqədar sədr filologiya elmləri doktoru, professor Cəfər Xəndan Hacıyev, üzvləri isə filologiya elmləri namizədi, şair Bəxtiyar Vahabzadə və şairə Mirvarid Dilbazi olmaqla ekspert komissiyası yaradıldı Komissiya 11 noyabr 1955-ci ildə şairin «Əbədiyyət nəğməsi» və «Mingəçevir» («Duyğu yarpaqları» kitabında bu əsər «Mingəçevir həsrəti» adı ilə çap olunmuşdur) əsərlərinə müsbət (unutmayaq ki, M.Müşfiqin bəraət almasında bu rəy az rol oynamırdı) rəy vermişlər[299]. Rəydə nəticə olaraq deyilir: «Beləliklə hər iki əsər

[299] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

(«Əbədiyyət nəğməsi» və «Mingəçevir» əsərləri nəzərdə tutulur - C.Q)» sovet ideologiyasına uyğun, müasir mövzuda yazılmışdır. Şair bunlarda nəcib hissləri, sağlam duyğuları və gözəl arzuları tərənnüm etməklə sovet xalqlarının daha xoşbəxt bir həyat quracaqlarına ürəkdən inanır və onların dostluğunu tərənnüm edir. Bəzi dil və üslub xətalarına baxmayaraq hər iki əsər bu gün də öz bədii dəyərini itirməmişdir.

Rəydən görünür ki, M.Müşfiq sovet hökumətini daima təqdir etmişdir. Bunu başa düşmək olar, əgər rəy başqa cür, yəni tam obyektiv yazılsaydı onda Mikayıl Müşfiq reablitasiya olunmayacaqdı.

Bütün yuxarıda göstərdiklərimizi nəzərə alaraq cəsarətlə belə bir nəticəyə gəlmək olar ki, şair Mikayıl Müşfiqin «Əbədiyyət nəğməsi» və «Mingəçevir» adlı şeirlərində millətçilik ideyası, habelə əksinqilabi görüşlər qətiyyən yoxdur»[300].

DTK 5 noyabr 1955-ci ildə bəraət məsələsi ilə bağlı Azərbaycan Sovet Yazıçılar İttifaqının sədri Süleyman Rəhimova da müraciət etmiş və Yazıçılar İttifaqının 6 nəfər üzvünün (Süleyman Rəhimov, Mehdi Hüseyn, Mircəlal Paşayev, Məmməd Arif, İlyas Əfəndiyev və Bəxtiyar Vahabzadə) imzası ilə Mikayıl Müşfiq barəsində müsbət rəy almışdır[301].

Başqa bir ifadəsində isə Müşfiqi qaynı, yəni Balaca xanımın həyat yoldaşı Şükür Şükürlü ilə əksinqilabi millətçi

[300] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.
[301] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

söhbət aparmaqda günahlandırırdılar. (30-cu illərdə Ş.Şükürlü də həbs edilmiş və güllələnmişdir).

27.10.1937-ci il dindirmə protokolundan oxuyuruq:

**Sual:** Sizin bacınızın həyat yoldaşının adı nədir?

**Cavab:** Şükür Şükürlü.

**Sual:** O, nə ilə məşğuldur?

**Cavab:** Orta məktəbdə müəllim işləyir.

**Sual:** Siz onu yaxşı tanıyırsınızmı?

**Cavab:** Bəli, bacımın əri kimi mən onu yaxşı tanıyıram.

**Sual:** İstintaqa məlum olub ki, siz Şükür Şükürlünü də üzv olduğunuz təşkilata cəlb etmisiniz. Bunu boynunuza alırsınızmı?

**Cavab:** Bunu inkar edirəm. Mənim Şükür Şükürlü ilə şəxsi əlaqəm çox pisdir. Onunla az-az görüşürəm. Heç vaxt onunla əksinqilabi söhbətlər etməmişəm.

**Sual:** M.K.Ələkbərli 15-17.09.37-ci ildə verdiyi ifadədə göstərib ki, o sizin bacınızın ərini tanıyır. Bu barədə nə deyə bilərsiniz?

**Cavab:** Ələkbərlinin ifadəsini inkar edirəm.

**Sual:** Bəs nə üçün Ələkbərli belə ifadə verib?

**Cavab:** İzah etmək çətindir. İmza[302].

Bir çox şəxslərin ifadələrindən sitatlar verildikdən sonra 27 oktyabr 1937-ci ildə istintaqın başa çatdığı M.Müşfiqə elan edildi və onun barəsində aşağıdakı məzmunda ittihamnamə tərtib edildi.

---

[302] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

**«Təsdiq edirəm»**
**Az.SSR XDİK-in 3-cü ranqının**
**DT komissarı Sumbatov**

**«Təsdiq edirəm»**
**SSRİ Prokurorunun**
**baş köməkçisi Razovskiy**
**31 oktyabr 1937-ci il.**

## İ T T İ H A M N A M Ə

İstintaqa məlumdur ki, M.Müşfiq 1926-cı ildən 1930-cu ilə qədər əksinqilabi millətçi əhvali-ruhiyyəli müsavatçılardan olan A.İldırım və Nəsir Quluzadə ilə əksinqilabi əlaqə saxlamışdır.

1930-cu ildə İsmayılzadə Nəsir Quliyevin dəvəti ilə Salman Rəhimovun Müsavatçı gənclərin gizli yığıncağında iştirak etmişdi, hansı ki, axırıncı orada əksinqilabi müsavatçı nitq söylənmişdi.

1930-35-ci illərdə İsmayılzadə əksiinqilabi millətçi təşkilatın passiv üzvü olmuş, «Müsavat» partiyasının keçmiş üzvləri Ə.Cavad, H.Cavid, o cümlədən başqa əksinqilabçı millətçilərlə əksinqilabi əlaqə saxlamışdır.

1935-ci ildən o, Azərbaycan əksinqilabi millətçi terrorist təşkilatının aktiv iştirakçısına cəlb edilmişdi. Həmin təşkilatın məqsədi SSRİ-ni silahlı üsyan yolu ilə devirmək imiş. (İttihamnamədə göstərilir ki, M.Müşfiqi guya Ələkbərli bu təşkilata cəlb etmişdi, bunu M.Müşfiq də boynuna alır). Əksinqilabi təşkilata cəlb ediləndən sonra Ələkbərli

tərəfindən İsmayılzadə tapşırıq almışdır ki, öz yaradıcılığını əksinqilabi millətçi tendensiyaya meyilləndirməli idi.

İsmayılzadə boynuna almışdır ki, həmin tapşırığı praktik olaraq yerinə yetirmişdir.

1936-cı ildə İsmayılzadə yeni əksinqilabçını öz təşkilatlarına cəlb etməyi qarşısına məqsəd qoydu. Yeni yaradıcılığa başlayan Hüseyn Natiqi və Z.Xəlili əksinqilabi ruhda şeirlər yazmaq ruhunda tərbiyə etmişdir.

İfadə edilənlər əsasında 1908-ci ildə anadan olmuş, həbs edilən zaman Azərbaycan Dövlət Nəşriyyatında redaktor və tərcüməçi işləyən M.Müşfiq aşağıdakılarda ittiham edilir.

1. 1926-cı ildə əksinqilabi millətçi ruhda hazırlanmış və 1930-cu ilədək müsavatçılardan A.İldırım və Nəsir Quluzadə ilə əksinqilabi əlaqə saxlamışdır.

2. Salman Rəhimovun Əksinqilabi Müsavatçı gənclər qrupunun gizli yığıncağında iştirak etmişdir.

3. 1930-35-ci illərdə keçmiş Müsavat partiyasının sıralarında olanlarla əksinqilabi əlaqə saxlamış və əksinqilabi təxribat aparmışdır.

4. 1935-ci ildə Azərbaycan əksinqilabi millətçi terrorist təşkilatının heyətinə cəlb edilmişdir. Bu əksinqilabi təşkilatın aktiv iştirakçısı Ələkbərli və axırıncı tərəfindən məlumatlandırılırdı ki, əksinqilabi millətçi təşkilat Sovet hökumətinə qarşı silahlı üsyan hazırlayır.

5. Özünün ədəbi əsərlərində əksinqilabi millətçi tendensiyalar əks etdirmişdir.

6. Zeynal Xəlili və Hüseyn Natiqi əksinqilabi millətçi təşkilata cəlb olunmağa hazırlamış və onlar arasında Sovet

hökumətinə qarşı lazımi silahlı mübarizə təbliğatı aparmışdır.

Bunlara görə o, Azərbaycan CM-nin 60, 70, 73-cü maddələri ilə ittiham olunur.

Özünü tamamilə müqəssir hesab edir.

Hazırkı istintaq-həbs işi 1 dekabr 1934-cü il qanununa əsasən SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərilir.

İttihamnamə 29 oktyabr 1937-ci ildə Bakı şəhərində tərtib edilmişdir[303].

Bu ittihamnamədən sonra Bakı şəhərində 4 yanvar 1938-ci ildə Nikitçenkonun sədrliyi, Kudryavçevin katibliyi, İyevlev və İşenkonun üzvlüyü və Razovskinin iştirakı ilə hazırlıq iclası keçirildi. Hazırlıq iclasında belə bir qərar qəbul olundu.

**EŞİDİLDİ:** Az.SSR CM-nin 64, 70, 73-cü maddələri ilə ittiham edilən M.Q.İsmayılzadənin istintaq işinə baxılsın.

**QƏRARA ALINDI:** İstintaq işi qəbul edilsin və bağlı iclasda şahidlərin, ittihamçının və müdafiəçinin iştirakı olmadan işə baxılsın[304].

4 yanvar 1938-ci ildə məhkəmə iclası keçirildi.

Saat 11.20-də başlayan iclas 11.40-da başa çatdı. Cəmi 20 dəqiqə çəkən məhkəmə iclasında M.Müşfiq güllələnməyə məhkum edildi.

Yeri gəlmişkən, bir məsələyə öz münasibətimizi bildirmək istərdik. O da şairin ölüm tarixi ilə bağlıdır. Adətən,

---

303 MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

304 MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

ədəbiyyatşünaslıqda hər hansı bir yazıçının doğum tarixi ilə bağlı elmi mübahisələr aparılır. İş elə gətirmişdir ki, M.Müşfiqin ölüm tarixi mübahisəli olmuşdur. Belə ki, Azərbaycan ədəbiyyatının görkəmli simalarından olan Mikayıl Müşfiqin ölüm tarixi ilə bağlı sənədlərdə yekdil fikir yoxdur. Tədqiqatçıların böyük əksəriyyəti onun 1939-cu ilin 12 martında, bir qismi isə 1937-ci ildə vəfat etdiyini qeyd edir. Məsələn, şairin ömür-gün yoldaşı Dilbər Axundzadə özünün «Müşfiqli günlərim» (Gənclik nəşriyyatı, Bakı 1968) kitabının 132-ci səhifəsində yazır: «M.Müşfiq 1939-cu ilin mart ayının 12-də vəfat etmişdir».

M.Müşfiqin tanınmış tədqiqatçılarından olan Gülhüseyn Hüseynoğlunun 1968-ci ildə Azərbaycan Dövlət nəşriyyatında çap etdirdiyi «Müşfiq: həyatı və yaradıcılığı» adlı kitabda oxuyuruq: «Şair 1939-cu ilin 12 martında həyata əbədi göz yumdu».

Şairin bacısı Balacaxanım İsmayılova da Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsinin ünvanına göndərdiyi 12 aprel 1957-ci il tarixli ərizəsində M.Müşfiqin 1939-cu ildə güllələndiyini qeyd etmişdir[305].

Bundan başqa, bir çox mənbələrdə - Azərbaycan Sovet Ensiklopediyasında, ali və orta məktəb dərsliklərində, eləcə də tədqiqat əsərlərində şairin 1939-cu ildə vəfat etdiyi göstərilir.

---

[305] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

Azərbaycan Sovet Yazıçıları İttifaqı üzvlərinin həyat və yaradıcılığı haqqında ensiklopedik səpkidə tərtib olunmuş «Azərbaycan sovet yazıçıları» («Yazıçı» nəşriyyatı, Bakı-1987, müəllif-tərtibçi Teymur Əhmədovdur) adlı məlumat toplusunda M.Müşfiqin ölüm tarixi 1937-ci il kimi göstərilmişdir (bax səh.392). Teymur Əhmədovun həmin faktı hansı mənbədən götürməsi bizə məlum olmasa da, bir şey aydındır ki, şair 1937-ci ilin 4 iyununda həbs edildiyindən görünür tərtibçi də həmin ili onun ölüm ili kimi qəbul etmişdir.

Araşdırmalar nəticəsində əldə etdiyimiz faktlar indiyədək şairin ölümü ilə bağlı qəbul edilmiş hər iki tarixi inkar edir.

M.Müşfiqin istintaq işində onun nə zaman öldürülməsi dəqiq göstərilmişdir.

Faktlara müraciət edək: Məlumdur ki, İsmayılzadə Mikayıl Müşfiq Qədir oğlu 1937-ci ildə həbs olunaraq istintaqa cəlb edilmişdir. İlk dindirmə 1937-ci ilin 5 iyununda aparılmış və istintaqın 27 oktyabr 1937-ci ildə qurtarması ona elan olunmuşdu (İstintaq işində bu haqda arayış vardır). İstintaq başa çatdıqdan sonra 1938-ci ilin yanvar ayının 4-də qapalı məhkəmə iclası olmuşdur. Qapalı məhkəməyə şahidlər, müdafiəçilər və iddiaçılar buraxılmamışdır. Yanvar ayının 4-də saat 11.20-də başlanan məhkəmə iclası 11.40-da bağlı elan edilmiş və 20 dəqiqə davam edən məhkəmə iclası 5 yanvarda belə bir hökm çıxarmışdır ki, İsmayılzadə 1926-cı ildən burjua-millətçi ideyalarla yaşayır və müsavatçılarla əlaqə saxlayırdı. 1935-ci ildə isə o, Sovet hökuməti əleyhinə millətçi-burjua, üsyançı-terrorçu

təşkilata daxil olmuşdu. Bu təşkilatın məqsədi Azərbaycanda Sovet hökumətini devirib burjua millətçi dövlət qurmaq idi. Əksinqilabi millətçi təşkilata yeni üzvlər qəbul etmək məqsədi ilə İsmayılzadə burjua-millətçilik təbliğatı aparmışdır.

Beləliklə, İsmayılzadənin Azərbaycan SSR CM-nin 64, 70, 73-cü maddələrində nəzərdə tutulan cinayətləri guya sübut olunmuşdur.

Prosessual cinayət məcəlləsinin (PCM) 316, 317-ci maddələrini əsas tutaraq SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası hökm edir:

İsmayılzadə Mikayıl Müşfiq Qədir oğlu ən ağır cinayət məsuliyyətinə - bütün əmlakı müsadirə edilməklə güllələnməyə məhkum edilsin.

Hökm qətidir və SSRİ MİK-nin 1 dekabr 1934-cü il qüvvədə olan qərarına əsasən dərhal icra olunmalıdır.

Mikayıl Müşfiqin istintaq işinin 37-ci səhifəsində hökmün icrası ilə əlaqədar aktdan çıxarış vardır. Onu olduğu kimi təqdim edirik:

Sledstvennoe delo N 12493/116

**Выписка из акта**

Postanovleniem Vıezdnoy Sessii Voennoy Kolleqii Verxovnoqo Suda SSSR ot 5-qo yanvar mesyaça 1938 q. o rasstrele İsmailzade Mikaila Muşfik Kadır oqlu 1908 qoda rojdenie. Privedeno v ispolnenie 6 yanvar mesyaça 1938 q.

Naçalnik vnutrenney tyürmı UQB serjant Qosudarstvennoy Bezopasnosti /podpis/ (Koçetkov)

Haçalnik 1-qo Speçotdela HKVD Azerbaydcanskoy SSR leytenant Qosudarstvennoy Bezopasnosti /podpis/ (Savçenko)[306]

Bu çıxarışdan aydın olur ki, hökmün icrası 6 yanvar 1938-ci il-də həyata keçirilmişdir.

İstintaq işində olan bəzi sənədlərdə işin icrasının 6 yanvarda deyil, 5 yanvarda həyata keçirildiyi qeyd olunur. Belə ki, SSRİ XDİK-nin 1-ci şöbə 12-ci bölməsinin rəisi DT leytenantı Şevelevin imzası ilə Moskvadan göndərilən sənəddə hökmün icrasının 5 yanvarda Bakı şəhərində həyata keçirildiyi göstərilir[307].

Nəzərə alsaq ki, hökmün icrasına Bakı şəhərində əməl edilmiş və həmin sənədlər Moskvaya Bakıdan göndərilmişdir, onda aktdan çıxarışdakı 6 yanvar tarixi daha inandırıcı görünər.

Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, 1908-ci ilin irticası zamanı dünyaya gələn M.Müşfiq 1937-ci ilin siyasi repressiyalarının gücləndiyi bir dövrdə - 6 yanvar 1938-ci ildə Bakı şəhərində güllələnmişdir. İstintaq işində onun harada dəfn olunması haqqında məlumat yoxdur. Şair şeirlərinin birində sanki ölərkən məzarının olmayacağını dərk etmiş və şeirlərinə də ölərsə məzarının ürəklər olmasını arzulamışdır.

Hər kəs bilir həyatın sonu ölümdür,
Ah bu qəmli dəyişmə yaman zülümdür.

---

[306] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

[307] MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

Şeirim! Bu gülünc oyun bəllidir yarın
Bizi də bəklər;
Sən də öl mənim kimi fəqət məzarın
Olsun ürəklər.

Belə bir sual doğur, necə olub ki, şairin həyat yoldaşı Dilbər Axundzadə, bacısı Balacaxanım İsmayılova (ailə qurduqdan sonra Şükürlü soyadı daşımışdır - C.Q.), araşdırıcısı G.Hüseynoğlu və başqa tədqiqatçılar onun ölüm tarixini 12 mart 1939-cu il kimi qəbul etmişlər. Araşdırmalar zamanı müəyyən etdik ki, həmin yanlışlıq da vaxtı ilə XDİK əməkdaşları tərəfindən edilmişdir. Belə ki, SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının sədr müavini ədliyyə polkovniki V.Borisoqlebskinin 13 iyun 1956-cı ildə Az.SSR DİN-in Milis Baş idarəsinin rəisinin və SSRİ DİN-in Baş Hərbi prokurorunun 1-ci xüsusi şöbəsinin rəisinin ünvanına göndərdiyi 4n-04157 nömrəli sənəddə bildirilir ki, Azərbaycan SSR Mərəzə rayonunun Nabur kəndində yaşayan İsmayılzadə Balacaxanıma çatdırılsın ki, onun qardaşı 1908-ci ildə doğulmuş M.Müşfiq SSRİ Ali məhkəməsi hərbi kollegiyasının qərarı ilə 5 yanvar 1938-ci ildə məhkum olunmuş və 12 mart 1939-cu ildə vəfat etmişdir.

Görünür, bu məlumat İsmayılzadə Balacaxanım Qədir qızına çatdırıldıqdan sonra o, qardaşının məhz bu gündə vəfat etdiyinə inanmış, Dilbər Axundzadə və G.Hüseynoğlu da həmin fakta söykənərək öz kitablarında şairin ölüm tarixini 12 mart 1939-cu il kimi qeyd etmişlər. Bundan sonrakı tədqiqat əsərlərində də həmin tarix təkrarlanmışdır. Bizcə bundan sonra indiyədək nəşr olunmuş kitab

və monoqrafiyalarda, eləcə də ali və orta məktəb dərsliklərində getmiş yanlışlığa son qoyulacaq və şairin Xalq Daxili İşlər Komissarlığının əməkdaşları tərəfindən saxtalaşdırılmış ölüm tarixini deyil, həqiqi ölüm tarixini - 6 yanvar 1938-ci ili qəbul edəcəklər.

Ümumiyyətlə repressiyaya məruz qalan sənət adamlarının ölüm tarixi gizlədildiyindən mövcud ədəbiyyatşünaslıqda onların ölüm tarixləri düzgün göstərilməmiş, daha doğrusu onların bir çoxu 1937-ci ildə həbs edildiyindən həmin ili ölüm ili kimi qəbul etmişlər. Fikrimizcə, bu məsələlərin təshihi baxımından repressiya qurbanlarının ölüm tarixlərini Müşfiqdəki kimi müfəssəl verməyə ehtiyac olmasa da qısaca qeyd etmək yerinə düşər. Əhməd Cavad 1937-ci il oktyabrın 13-də, Hənəfi Zeynallı 1937-ci il oktyabrın 13-də, Məmmədkazım Ələkbərli 1937-ci il sentyabrın 12-də, Böyükağa Talıblı 1937-ci il oktyabrın 13-də, Hacı Kərim Sanılı 1937-ci il sentyabrın 16-da (fiziki işgəncələrdən sonra həbsxananın xəstəxanasında vəfat etmişdir), Bəkir Çobanzadə 1937-ci il oktyabrın 13-də, Tağı Şahbazi 1938-ci il yanvarın 2-də, Hacıbaba Nəzərli 1938-ci il yanvarın 9-da, Ruhulla Axundov 1938-ci il aprelin 21-də, Rzaqulu Nəcəfov 1937-ci il oktyabrın 21-də, Vəli Xuluflu 1937-ci il oktyabrın 13-də, Əmin Abid 1937-ci il oktyabrın 21-də, Mustafa Quliyev 1938-ci il iyulun 3-də, Bəhlul Behcət 1938-ci il martın 21-də güllələnmişdir.

Araşdırmalar göstərir ki, bolşeviklərin yaratmaq istədiyi sovet adamları xoşbəxtliyi sovetləşmədə deyil, müstəqillik və azadlıqda axtarırdılar. Bolşeviklər formalaşdırmaq istədikləri yeni insanda ilkin olaraq qorxunu, xofu

yaradırdılar. Qorxaq və xoflu adamı aliminium məftil kimi asanlıqla qırmaq, sındırmaq və istədiyin şəkildə əymək mümkündür. Söylənilənlərə görə Makedoniyalı İskəndərin Boukefal adlı bir atı olur. Həmin atı minmək heç cür mümkün olmur. Ən məhşur çaparlar belə onun mindikdə at onları yerə çırpa bilirdi. Atın bu hərəkətlərini bir gün İskəndər öz müəllimi Aristotelə danışır. Aristotel məsləhət görür ki, atın «dəlilik» etməsinin səbəblərini öyrənsin. Hələ gənc olan İskəndər müəlliminin məsləhətinə əməl edir və müəyyənləşdirir ki, at öz kölgəsindən qorxur və ona görə də kölgəsini görən kimi kimliyindən asılı olmayaraq onu yerə yıxır. İskəndər atı minərək üzü günəşə doğru çapır və kölgəsini görməyən at bir qədər getdikdən sonra yorulub ram olur. Sövet hökuməti isə atını üzü günəşə çapanlara qarşı amansız idi və onları məhv edirdi. Qalanlarına isə işıq arxadan çilənirdi. Ona görə də onlar öz kölgələrini həmişə görürdülər. Qorxu və xof altında yaşayan insan ən böyük köləyə çevitdirilirdi. Kölәlik isə dirilikdən ölülüyə aparan yoldur. Başqa sözlə kölə diri ölüdür.

Bu siyasi repressiyalar hər şeydən öncə ağılın düşüncənin görünənləri və ya görünməyənləri görməyin - özünüdərkin faciyəsi idi. Ağıldan bəla adətən ağıl vasitə deyil, məqsədə çevriləndə baş verir. Onların isə məqsədi müstəqilliyi və azadlığı əlindən alınmış Azərbaycanın müstəqilliyini bərpa etmək idi. H.Cavid də, M.Müşfiq də, Ə.Cavad da, H.K.Sanılı da, V.Xuluflu da və minlərlə belə atını işığa, günəşə, azadlığa doğru çapan adamlar bu böyük ideal və amal uğrunda məhv edildi.

## 2. Ədəbiyyat tarixçiliyinə və ədəbi-tənqidi fikrə qəsd

Azərbaycanda ədəbiyyatşünaslıq elmi ədəbiyyat tarixi yaratmaq istiqamətində xeyli iş görmüş, daha dəqiq desək, təzkirəçilikdən fundamental ədəbiyyat tarixi yaratmaq səviyyəsinə qədər yol gəlmişdir. XX əsrin əvvəllərində bu meyl daha da güclənmiş, hər mərhələnin öz bilgiləri çərçivəsində təşəkkülü və milli ədəbiyyatın qaynaqları, mənşəyi, mərhələ təsnifi müəyyənləşdirilmişdir. Əlbəttə, bütün bunlar ədəbiyyat tarixi yaratmaq istiqamətində ayrı-ayrı axtarışlar və təşəbbüslər idi və şübhəsiz ki, mükəmməl, fundamental ədəbiyyat tarixi problemi hələ öz həllini gözləyirdi.

Azərbaycan Xalq Cümhuriyyəti dövründə ədəbiyyat tarixi yaratmaq meyli daha da gücləndi. Yusif Vəzir Çəmənzəminlinin «Azərbaycan ədəbiyyatına bir nəzər», Adilxan Ziyadxanın «Azərbaycan haqqında tarixi, ədəbi və siyasi məlumat», Əmin Abidin «Azəri türklərinin ədəbiyyat tarixi» əsərləri dediklərimizə sübutdur. Doğrudur, AXC dövründə məlum səbəblərdən bu, gərəkli və qlobal problemi axıra qədər həll etmək mümkün olmadı.

Lakin sovet ədəbiyyatşünaslığı, sosialist realizmi dövründə bu məsələnin həlli daha da mürəkkəbləşdi. Yeni ədəbiyyatşünaslıq necə ədəbiyyat tarixi yaratmaq sualı qarşısında qaldı. Axı marksizm ədəbiyyata, bütövlükdə sənətə «proletar işini hərəkətə gətirən bir vintcik» kimi baxır eyni məqsəd və vəzifələri ədəbiyyat tarixindən də tələb

edir və ədəbiyyatın tarixi inkişafı konsepsiyasını sinfi mübarizədən, siyasətdən kənarda təsəvvür etmirdi.

Ədəbiyyat tarixi yaratmaq, adətən ona görə lazım olur ki, «Azərbaycan ədəbiyyatı tarixinin vahid konsepsiya halında işlənməsi əvvəla ədəbiyyatşünaslığın nəzəri imkanlarını aşkara çıxarır, onun tədqiq metodlarını, estetik normalarını genişləndirir, digər tərəfdən gündəlik bədii məsələləri, yeni ədəbiyyat quruculuğu ilə bağlı təxirə salınmaz problemləri tarixən düzgün həll etmək, yaradıcılıq prosesinin formaca milli, məzmunca sosialist axtarışlar istiqamətində perspektivlərini obyektiv müəyyənləşdirmək üçün metodoloji imkanlar açırdı»[308]. Lakin ədəbiyyat tarixi təşəbbüslərinin heç də hamısı belə olmamışdı. Xüsusən, ilk nəşrlərdə məhz ehkamçı, vulqar sinfi sosiologiya baxımından ciddi səhvlərə də yol verilmişdi. Ədəbi-tarixi inkişafın gedişinə və qanunauyğunluqlarına qiymət verərkən, bolşevik «partiyalılıq» prinsipini mütləqləşdirmişdik: «Yaddan çıxarmışdıq ki, ədəbiyyatı sənətkar yaradır, ədəbiyyat tarixi şəxsiyyətlərin tarixidir, siniflərin, təbəqələrin, mücərrəd siyasi ideyaların, çılpaq tarixi rəqəmlərin yox»[309].

Ona görə də sənətin aynasında ədəbiyyat və zaman, onlar arasında əlaqələr öz inikasını olduğu və göründüyü kimi tapmadı.

Hazır sereotip və elmi-nəzəri konsepsiyalarla çıxış etmək 1920-1950-ci illərin (bir qədər sonrakı illərin də) ədəbi

---

[308] Nizaməddin Babayev. «Ədəbi mübahisələr», Bakı, 1986, səh. 14.

[309] Yaşar Qarayev. «Tarix yaxından və uzaqdan», Bakı, 1996, səh.30.

tənqidində aparıcı olub. Ən güclü tənqidçilər belə həyatın və bədii materialın məntiqindən daha çox öz partiyalarının qurultay, qərar və qətnamələrinə söykənib. Qaydadan kənara çıxanlar, hazır qəliblərə sığmayanlar, ədəbi prosesi öz müşahidə meyarları ilə dəyərləndirənlər isə təqib və təzyiqə məruz qalıblar.

Ona görə də 20-50-ci illərdə (hətta sonrakı illərdə də) mükəmməl Azərbaycan ədəbiyyatı tarixi yaratmaq mümkün olmadı. Çünki ədəbiyyat tarixi yaradanlardan milli yox, milliliyə yad marksist-lelinçi baxış və dünyagörüş tələb olunurdu.

Azərbaycanda «yeni tipli» ilk bolşevik «Ədəbiyyat dərsliyi» 1938-ci ildə, «XX əsr ədəbiyyatı» isə 1946-cı ildə çap olundu. Ehkamçılıq və vulqar-konyuktura ilə yüklənmiş bu dərsliklərin ilk cümləsindən son cümləsinə qədər görünür ki, sifariş və hazır reseptlər əsasında yazılmışdır. Bu da ədəbiyyat tarixçiliyinə vurulan böyük metodoloji zərbə idi.

Məlumdur ki, bədii fikrin inkişafında yazıçı yaradıcılığının düzgün istiqamətdə hərəkətinə və inkişafına təsir göstərən əsas amillərdən biri ədəbiyyatşünas-tənqidçi fikri və şəxsiyyətidir. Alim qələmi ilə yazıçı arasında əlaqələr nə qədər möhkəm və səmimi olsa, bədii inikasa münasibətində tənqidçi və yazıçı təmasının ortaq nöqtələri tapılsa, ədəbiyyat da, sənət də, ümumiyyətlə mədəniyyət tarixi də qazanmış olar.

XX əsrin əvvəllərindən başlayaraq ədəbi məhsullara ədəbi-estetik, elmi tənqidi nəzər-diqqəti daha da genişlənmiş, müxtəlif nəzəri mübahisələr ədəbiyyat tarixinin bir

sıra məsələlərinin durulaşmasına, aydınlaşmasına şərait yaratmışdır. Mətbuat səhifələrində uzun sürən müzakirələr bədii fikrin yönünü müəyyənləşdirmiş, həyata və ədəbiyyata baxışda müştərək nöqtələr tapılmışdır.

Lakin sosialist həyat tərzinin formalaşdığı dövrdə yeni quruluşun siyasətçi tərəfdarları birinci növbədə bu yaxınlaşmanın qarşısını almağı planlaşdırmışlar. Əslində həmin illərdə ədəbi-tənqidi fikrə qarşı yönələn təqiblərin də əsasında məhz bu cəhət dayanmışdır. Belə təqiblərə məruz qalan alim-tənqidçi şəxsiyyətin birincisi Firidun bəy Köçərli idi. Qori müəllimlər seminariyasını bitirən, Şərqin mənəvi sərvətlərinə sədaqət meyarı əsasında Azərbaycan ədəbiyyatı tarixi konsepsiyasının ilk yaradıcılarından olan F.Köçərliyə qarşı yönələn təzyiqlər təsadüfi deyildi.

İndiyədək F.Köçərlinin həbsilə əlaqədar sənədlər əldə olmadığından onun güllələnməsi ilə bağlı müxtəlif fikirlər mövcuddur. Bu fikir müxtəlifliyinin əsas səbəbi tədqiqatçıların həmin istintaq materiallarını əldə edə bilməməsi və uzun müddət onun bolşeviklər tərəfindən öldürülməsi faktının gizlədilməsi olmuşdur.

F.Köçərlinin öldürülməsi barədə ilk dəfə geniş məlumatı Şəmistan Nəzirli özünün 1993-cü ildə çap etdirdiyi «Qoridən gələn qatar» sənədli povestində vermişdir. Lakin Şəmistan müəllim MTN-in arxivində olan istintaq materialları ilə tanış olmaq imkanını əldə edə bilmədiyindən bəzi məsələləri geniş və dürüst verə bilməmişdir.

Kitabda qeyd edilir ki, F.Köçərli Gəncə üsyanında günahlandırılaraq həbs edilmişdir. Lakin F.Köçərlinin MTN-in arxivində saxlanan istintaq materialında (cəmi 25 səhi-

fədən ibarət olan PS-12206 saylı qovluqda F.Köçərlidən başqa bir neçə nəfərin də istintaq materialları qorunub saxlanılır) həmin fikri təsdiqləyən heç bir sənədə rast gəlmədik. Əksinə, oradakı materiallardan aydın olur ki, onu Gəncə üsyanı ilə əlaqədar həbs etməmişlər. Arxiv materiallarında F.Köçərlinin hansı gün həbs edildiyi konkret göstərilməmişdir. Hansı ki, bunun üçün xüsusi order imzalanmalı idi. Lakin bu edilmədi. 23 may 1920-ci ildə Qazax Hərbi Tribunalı tərəfindən Gəncə fövqəladə komissarı Həmid Sultanova bildirilirdi ki, Firidun bəy Köçərli artıq həbs edilib və onu azadlığa buraxmaq olmaz.

Yeri gəlmişkən qeyd edək ki, Gəncə üsyanının başlanması fikrinin özü də hələlik mübahisəli olaraq qalır. Belə ki, T.Bağırov üsyanın mayın 23-də, Şəmistan müəllim özü mayın 22-də, «Azərbaycan Sovet Ensiklopediyası»nda və bəhs etdiyimiz istintaq materialında mayın 25-də başlandığı göstərilir.

İkincisi, Ş.Nəzirli sənədli povestdə Nəriman Nərimanovla Həmid Sultanovu qarşılaşdırır və onların danışığından məlum olur ki, Gəncə Fövqəladə komissarı Həmid Sultanovun F.Köçərlinin öldürülməsindən xəbəri olmamış, bu işi Liberman özbaşına həyata keçirmişdir. Qeyd edək ki, F.Köçərlinin ölümü ilə bağlı çıxarılmış qərarı 7 nömrəli xüsusi bölmənin rəisi Liberman və Fövqəladə komissar Həmid Sultanov təsdiq etmişdir[310].

Üçüncüsü, guya F.Köçərlini keçmiş qubernator Əmirxan Xoyski ələ vermişdir. Müəllif F.Köçərlinin həyat yol-

[310] MTN-in arxivi. F.Köçərlinin istintaq qovluğu, PS - №12206.

daşı Badisəba xanımın dilindən yazır: «İndi Badisəba eşidəndə ki, Gəncə qiyamının təşkilatçılarından biri də Əmirxan Xoyskidi, narahatçılığı daha da artdı. «Gora gedən özünə yoldaş axtarar», - deyə düşündü. Şübhəsiz ki, Firidun bəyin adını verən də o olmuşdu. Tələyə düşən Qubernator «qiyamın düşünən beyni Qazaxda oturub, siz isə məni mühakimə edirsiniz»: - deyə ölüm ayağında da Firidun bəydən hayıf almışdı»[311].

F.Köçərlinin istintaq materiallarında bu məsələyə münasibət də bir qədər fərqlidir. Həmin sənədlərdən aydın olur ki, guya Azərbaycan Demokratik Respublikası dövründə F.Köçərli Əmirxan Xoyski ilə əlbir olmuş və əhalini incitmişlər. Başqa bir mühüm cəhət ondan ibarətdir ki, Gəncə üsyanı zamanı (23-30 may) Əmirxan Xoyski həbs edilməmişdir: «Şəhərə hücum (Gəncə şəhəri nəzərdə tutulur - C.Q) 29-u səhər saat 7-yə təyin olunmuşdu.

Üsyana rəhbərlik edən general Cavad bəy Şıxlınski də dəqiq müdafiə sistemi qurmuşdu. Onun ətrafında toplanan keçmiş çar ordusunda qulluq etmiş təcrübəli general və zabitlərdən Əmirxan Xoyski, Mirzə Kazım Qacar, Əmir Kazım Mirzə Qacar, Teymur bəy, İsrafil bəy, Cahangir bəy Kazımbəyovların hər biri təxmin olunan və olunmayan istiqamətlərdə müdafiə xətlərini möhkəmləndirməklə bilavasitə müdafiəyə rəhbərlik edirdilər»[312].

Göründüyü kimi, Əmirxan Xoyski may ayının 29-da hələ döyüşürdü və təxminən 5-6 gün ondan əvvəl həbs

---

[311] Şəmistan Nəzirli. «Qoridən gələn qatar», Bakı, 1993, səh. 185.

[312] T.Bağırov. «Gəncə - qiyammı, üsyanmı», «Ayna» qəzeti, 20 sentyabr, 1997, № 37.

olunmuş F.Köçərlini onun ələ verməsi fikri həqiqətə uyğun deyil. (Təəssüf ki, onun sonradan həbs olunub-olunmaması barədə biz heç bir sənəd əldə edə bilmədik).

Bəs F.Köçərli nədə günahlandırılırdı? Qazax İnqilabi Komitəsi tərəfindən 23 may 1920-ci ildə Gəncə Fövqəladə Komitəsinin sədri Həmid Sultanova ünvanlanmış təqdimata əsasən tədqiqatçı-alimin həbs olunmasının əsas səbəblərini aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Sovetləşməyə qədər, bu şəxslər («Müsavat» partiyasının sədri Firidun bəy Köçərli, vergi inspektoru Paşa bəy Vəkilov, «qolçamaq» Nadir bəy Dağkəsəmənli və pristav Məcid bəy Vəkilov nəzərdə tutulur - C.Q ) özlərinin şəxsi burjua məqsədləri üçün hakimiyyətdən və böyük səlahiyyətlərindən istifadə edərək, hər hansı alçaq addım atır və hər vasitə ilə xalqı aldadırdılar. Yüzlərlə aldadılmış və talan edilmiş adam indi İnqilabi Komitənin pəncərəsi önündə durur və kömək istəyir...

...Çevrilişə qədər onlar hər cür tədbirlərlə partiya yoldaşlarımızın işini boğurdular. Bunların təhriki ilə heç bir əsas olmadan axtarışlar aparılır və onları həbs edirdilər. Belə ki, yoldaşlardan: Muxtar Hacıyev, Məmməd Nuriyev və başqaları bir neçə dəfə həbs olunublar. Həmçinin onlar yoldaş Məmməd Kosayevin mənzilində axtarış aparıblar, onun və yoldaş Əli İskəndərovun əleyhinə (öldürmək məqsədilə) sui-qəsd hazırlayıblar[313].

F.Köçərlinin tərcümeyi-halı və yaradıcılığı göstərir ki, o, heç vaxt xalqı aldatmamış, əksinə onun tərəqqisi və ma-

[313] MTN-in arxivi. F.Köçərlinin istintaq qovluğu, PS - №12206.

ariflənməsi üçün çalışmışdır. Biz burada onun xalq qarşısındakı xidmətlərinin hamısını sadalamaq fikrində deyilik, lakin onlardan bir neçəsini xatırlatmağı vacib bilirik. Belə ki, F.Köçərli ilk dəfə olaraq Şərqin mənəvi sərvətlərini toplamış və bunlar əsasında «Azərbaycan ədəbiyyatı» kitabını yazmış, onlarla unudulmuş Azərbaycan sənətkarı onun zəhməti sayəsində yenidən xalqa çatdırılmışdır. O, xalqın tərəqqisi naminə Azərbaycandan xeyli uzaqda yerləşən Qori müəllimlər seminariyasını min bir əziyyətlə Qazağa gətirmişdir.

Elmi və publisist məqalələrində xalqın, xüsusilə də yoxsulların müdafiəçisi kimi çıxış etmişdir. Hələ o, 1908-ci ildə yazırdı: «Necə ki, təbib naxoşun naxoşluğunu bilməmiş bunu müalicə etməz, habelə də bizim intelligensiyamız... millətimizə qarışmamış, onunla müaşirət və müamilət etməmiş, onun nəfəs aldığı hava ilə tənəffüs etməmiş, onun şadlığına və qəminə şərik olmamış, onun cəhalət mərəzlərini öz yerlərində bilafasilə təhqiq və təcyizə etməmiş və üsuli-tədavisinə lazım olan dərmanları istemal qılmamış millətə həqiqi kömək edə bilməzlər»[314].

Eyni zamanda F.Köçərli rəiyyətə qarşı diqqətsiz olan, onların istək və arzularından, yaşayış tərzindən uzaq düşən ziyalıları tənqid edirdi: «...Bizim müsəlmanların nücəba və əhli-kəmalı öz kökləri və rişələri mənziləsində olan rəiyyət tayfasını, əkinçi və cütcü qardaşlarını unudub, bilmərrə onların qeydinə qalmazlar. Və hətta biz onlara bir növ nifrət və həqarət gözü ilə baxıb, onları xar və zəlil tu-

[314] «Tərəqqi» qəzeti. 1 dekabr, 1908, №115.

turuq. Mayeyi-həyatımız və səbəbi-eyşü zindəganımız olan ziraət əhlinə «qara rəiyyət» adı qoyub, onlardan özümüzü kənar tuturuq və onlar ilə ülfət və mülaqat etməyi kəsri-şanü şərafət hesab edirik»[315].

F.Köçərli A.S.Puşkinin simasında həqiqi şairin vətən və millət yolunda yorulmadan mübarizə aparmasını xüsusilə vurğulayır və müasirlərinə millətin dərd və sevincinə şərik olmağı arzulayırdı: «...həqiqi şair dəxi öz camaatının hər qisim sədasına, xah o səda suznak, nalə və fəryad olsun və xah fərəhəngiz, bəşaşət və şadyanalıq səsi olsun, gərəkdir eyni ilə cavab verə; öz səsini millətin səsinə qoşub, onun qeyrət və təəssüb damarını hərəkətə gətirə; təsirli kəlamı ilə onu qəflətdən bidiar edib, tərəqqi və maarif səmtinə cürət və cəsarət ilə dəvət edə»[316].

F.Köçərli 5 iyunda verdiyi izahatında (cəmi bircə dəfə izahat (ifadə) vermişdir – C.Q.) da xalqdan uzaq düşmədiyini, bir müəllim kimi yalnız onların maariflənməsinə çalışdığını göstərirdi: «Məni müsavatçı kimi həbs etmişlər, mənim tərəfimdən əhaliyə qarşı heç bir təqib olmamışdır və mən həmişə öz ixtisasımla məşğul olmuşam».

2. «...Minlərlə desyatin (1,092 hektara bərabər yer ölçüsü) torpaqları olduğuna baxmayaraq, onlar əhalidən bir parça torpağı hədə-qorxu ilə almağa çalışırdılar... Özünün yaşayışını güclə təmin edən kəndli polisin şallağı altında sızıldayır və günahsız yerə həbsxanalarda əzab çəkirdi»[317].

---

315 F.Köçərli. «Seçilmiş əsərləri», Bakı, 1963, səh. 109-110.

316 F.Köçərli. «Seçilmiş əsərləri», Bakı, 1963, səh. 99-100.

317 MTN-in arxivi. F.Köçərlinin istintaq qovluğu, PS - №12206.

F.Köçərli Qazax hərbi tribunalının bu iftirasına öz izahatında belə aydınlıq gətirirdi: «Mən müəlliməm və müəllim kimi 35 il fasiləsiz xidmət etmişəm, buna görə də mənim burjua niyyətim ola bilməz. Mənim atamın 60 desyatindən artıq torpaq sahəsi olmuşdur, həmin torpaqları atamın ölümündən sonra əmimin, onun ölümündən sonra isə əmim uşaqlarının adına keçiriblər. Artıq üç ildir ki, təmənnasız olaraq bu torpaqları kəndlilərə vermişəm. Bu malikanə Ayrım-Cavanşir qəzasının kəndində yerləşir. Mən heç vaxt bu malikanədən bir qəpik də olsun əldə etməmişəm...

«Müsavat» partiyasının bölməsi Qazaxda xüsusi rol oynamırdı və onun üzvlərinin sayı 20-dən çox deyildi. Qazax bölməsi tərəfindən heç vaxt hər hansı bir partiyanın əleyhinə aktiv fəaliyyət müəyyən olunmamışdır. Bizdə bütün iclasların protokolları vardır və onlardan yuxarıda qeyd etdiklərimin düzgün olduğunu müəyyən etmək olar. Müsavat ideyalarının və proqramının yayılması üçün heç vaxt və heç yerə agentlər göndərilməmişdir. Mənim rəhbərlik etdiyim Seminariyanın müəllimlərindən «Hümmət» partiyasının üzvü olanlar var, onlardan biri də kommunist Əli Hüseynovdur. Onların hamısı mənim digər partiyalarla hesablaşmağımı təsdiq edə bilərlər. Azərbaycanın bütün müəllim heyəti məni yaxşı tanıyır. Xahiş edirəm ki, mənə aid olan bütün məlumatları həm Qazax, həm də Bakı müəllimlər ittifaqından toplayasınız. Qazaxdan mənim müəllimlik və ictimai fəaliyyətim haqqında lazım olan bütün məlumatları verə bilərlər. İmza Firidun bəy Köçərli. 5 iyun 1920-ci il».

3. Firidun bəy Köçərli o zamanlar keçmiş Qazax General Qubernatoru Əmirxan Xoyskinin şəxsində möhkəm arxa taparaq, onun üzərinə qoyulmuş müqəddəs vəzifəni - Qazax Müəllimlər Seminariyasının tərbiyəçisi vəzifəsini yaddan çıxararaq, qəza üzrə öz agentlərini yayırdı və onların köməyi ilə hər cür pul vergiləri törədirdi, Qazax qəzasının əhalisini ermənilərə qarşı qızışdırırdı, pul və toqquşmalar gücünə «Müsavat» partiyasının devrilmiş hakimiyyətinin sarsılmazlığını möhkəmləndirməyə çalışırdı. Belə alçaq fəaliyyətin nəticəsində bu ilin aprel ayının ilk günlərində hamıya məlum olan erməni-tatar toqquşması baş verdi. Toqquşmalar zamanı səkkiz tatar kəndi dağıdılmış, onların əhalisi yuxarıda deyildiyi kimi böyük kütlə ilə İnqilab Komitəsinin pəncərəsi önündə dayananlar... yuxarıda adları çəkilən şəxslərin əhaliyə qarşı həyasızcasına törətdikləri alçaqlığa görə ən ağır cəza ilə məhkum olunmalarını xahiş edirlər.

Maraqlıdır ki, F.Köçərli istər dünya ədəbiyyatı klassiklərinə, istər rus, istərsə də Qafqaz xalqlarının ədəbiyyatına müraciət edəndə əsasən o əsərlərə diqqət yetirirdi ki, həmin əsərlər millətləri dostluğa, qardaşlığa, vətənpərvərliyə, insana qayğı və diqqətə çağırır. O, qafqaz xalqları arasında dostluq və qardaşlığa, xüsusi əhəmiyyət verirdi. F.Köçərli Akaki Seretelidən bəhs edərkən, gürcü şairinin yaradıcılığındakı bu cəhəti xüsusilə qiymətləndirirdi: «Akaki Seretelinin ümdə arzusu və baş fikri məhəbbət və qardaşlıqdır.

Gələcək zamanda hamı millətlərin birləşib ittihad və ittifaqı və qardaş kimi mehriban dolanmaq arzusu şairin tə-

bini güşadə edib, onun xəyalatını uca məqamlarda və bu ümumi ittifaqın ziddinə gedən təəssübkeşləri, nifaq və ziddiyyət toxumunu səpənləri və ürəklərdə kin və ədavət bəsləyənləri və filcümlə haqq üzünə pərdə çəkənləri nifrət ilə yad edib, lənət damğasını onların alnına basır. Sereteli yekpərəst və mütəassib millətpərəslərdən deyil ki, öz millətinin eyb və qüsurunu görməyib, ancaq onu layiqi-məhəbbət və təhsin bilsin. Sereteli üçün hamı millətlər müsavidir və bir-birinə qardaşdır. Şairin ibadət eylədiyi məbədgahda bütün insaniyyət sığışa bilər»[318]. Firidun bəy Köçərlinin Sereteli haqqında dediklərini birbaşa onun özünə də şamil etmək olar.

Ömrü boyu müəllimlik edən və təlim tərbiyə işləri ilə məşğul olan bir şəxsə separatçı gözü ilə baxmaq və onu belə ittiham etmək ədalətsizlik idi. Onun yaradıcılığına diqqətlə nəzər saldıqda aydın olur ki, o dünya xalqlarının adət-ənənəsinə həmişə hörmətlə yanaşmış, onların tərəqqisinə çalışmışdır. Ermənilərə gəldikdə isə F.Köçərlinin mövqeyi aydın idi. Tədqiqatçı-alim hələ əsrin əvvəllərində çar rusiyasının iki xalq arasına saldığı təfriqə, ədavət və düşmənçiliyi görmüş, buna qarşı çıxmışdır. O yazdığı məqalələrdə bu xalqların tarixi dostluğundan danışır və dəqiq müşahidələrlə bu milli qırğının üçüncü bir düşmən tərəfindən törədildiyini də göstərirdi. F.Köçərli 1906-cı ildə «Dəvət-Qoç» qəzetində çap etdirdiyi «İdarəyə məktub» adlı məqaləsində yazırdı: «Vaxta ki, biz yəqin etdik, hər iki tərəfi bir-biri ilə vuruşduran və yek-digərinin üstə qal-

[318] F.Köçərli. «Seçilmiş əsərləri», Bakı, 1963, səh.179.

xızan üçüncü bir düşməndir, onda bizə vacib olan budur ki, haman düşmənin vəsvəsinə bir də aldanmayaq və müttəhid olub, onun dəfinə və bizdən kənar olmasına çarələr tapaq... onda bizi barışdırmağa nə Qalaşapov lazım gələr, nə Levitski və qeyrisi»[319].

Həmin qırğınlar zamanı bir çoxları kimi F.Köçərli də bəzi qohumlarını itirmişdir. Lakin o, bunları kin və ədavətə çevirmir, qisas almaq, yeni qanlar tökmək həvəsi ilə yaşamır, əksinə əvvəlki mehribançılıq və səmimiyyətin yaranmasına çalışır: «Əgərki erməni müsəlman ixtişaşında həqirin evi içinin əcnası ilə yanıb tələf olubdur, dayım və onun iki nəfər cavan uşaqları qətlə yetibdir, bununla belə mən ürəyimdə büğz və ədavət bilməyib, bunu ancaq arzu edirəm ki, bu iki qonşunun arasında şeytanın iğva və vəsvəsəsi ilə bəhəmə gələn fitnə və fəsad götürülsün və yenə irəliki mehribançılıq və dostluq onların yerini tutsun»[320].

Göründüyü kimi, F.Köçərli əsil düşməni tanıyırdı və ona görə də ermənilərlə heç bir ədavəti ola bilməzdi.

F.Köçərli erməni pedaqoqu S.D.Arutyunov və «cəmiyyətin müxtəlif tərəflərinin hadisələrini düzgün və bacarıqla müşahidə edən bir müəllif» adlandırdığı erməni dramaturqu Q.Sundukyan haqqında yazdığı məqalələrdə də bu ruh aparıcı idi. O, İrəvan müəllimlər institutunda işlədiyi zaman bir çox erməni ziyalıları ilə yaxından tanış olmuş və onlarla məktublaşmışdır. Onun yazdığı məktubların əsasını bu iki xalq arasında ədəbi-mədəni əlaqələrin geniş-

[319] «Dəvət-Qoç» qəzeti, 17 iyul, 1906, №13.
[320] «Dəvət-Qoç» qəzeti, 17 iyul, 1906, №13.

lənməsi təşkil edir və o, erməni ziyalılarının bu istiqamətdə apardıqları işi alqışlayırdı. Onun 1912-ci ildə Qabriel Sundukyanın ölümü münasibəti ilə yazdığı məqalə bu baxımdan xüsusi əhəmiyyətə malikdir: «Martın 10-da mən mərhum Qabriel Sundukyandan aşağıdakı məzmunda bir məktub almışam: «Hörmətli cənab Firidun bəy! İcazə verin Sizi bir xahişimlə narahat edim. Zəhmət çəkib mənə xəbər verin görüm şair Mirzə Şəfi haqqında sizə bir şey məlumdurmu? Onun poeziyasından çap olunmuş kitablar varmı? Varsa o kitabları haradan tapmaq olar? Bu məlumatı Parisdən professor Makler təkidlə istəyir. Ümidvaram ki, mənim bu xahişim yerinə yetiriləcəkdir və mən də sizə dərindən minnətdar olacağam. Sizə həqiqi hörmət bəsləyən və minnətdar olan bəndeyi-həqiriniz Qabriel Sundukyan»[321].

O, 5 iyun 1920-ci ildə verdiyi izahatında öz mövqeyinin dəyişmədiyini bir daha qeyd edirdi: «Baş vermiş erməni-müsəlman toqquşmasında mən iştirak etməmişəm və özümün hər hansı bir burjua ideyalarıma görə iştirak etmək fikrində də olmamışam, çünki mən bu sinfə mənsub deyiləm... Mən gənclərin tərbiyəçisi, pedaqogika müəllimi olduğum halda heç cürə imkan verə bilməzdim ki, qonşu millətlər arasında qan tökülsün. Məni millətlər arasında qırğın törətmək və onu genişləndirməkdə günahlandıran ittihamçılar əsassız ittihamnamədənsə, təkzibolunmaz məlumatlar verməli idi. Bu toqquşmalar zamanı mən başqa nümayəndələrin tərkibində üç dəfə Uzuntalaya get-

[321] F.Köçərli. «Seçilmiş əsərləri», Bakı, 1963, səh. 274.

mişəm və hər dəfə hər iki tərəfə qırğını dayandırmağı və barışmağı, dinc işlərə qayıtmağı təkid etmişəm. Bunu nümayəndə heyətinin üzvləri İsmayıl ağa Qiyasbəyov, M.Şıxlinski, Hacı Axund Cəfərov, Əli Hüseynov, Hacıkərim Sanılı və Abdal Usubov da təsdiq edə bilər»[322].

İstintaq materialındakı bir cəhətə də nəzər yetirməyi vacib sayırıq. Guya F.Köçərli Xan Xoyskinin etibarlı şəxsi olmuşdur.

F.Köçərli izahatında bildirirdi: «Xan Xoyski ilə mənim heç bir münasibətim olmamışdır, Xan Xoyskinin etibarlı şəxsi də olmamışam. Keçmiş general qubernator X.Xoyskinin heç vaxt agenti də olmamışam və bunu özüm üçün təhqir sayıram. Özümün şəxsi işlərimə görə heç vaxt X.Xoyskiyə müraciət etməmişəm, əgər müraciət etmişəmsə, o da əhalinin hər hansı bir ehtiyacına görə olub və bu müraciətləri təkcə yox, şəhər başçısı ilə birlikdə edirdim».

Qazax İnqilab Komitəsinin göndərdiyi təqdimata əsaslanan 20-ci diviziyanın 7 nömrəli Xüsusi bölmə Xüsusi şöbəsinin hərbi müstəntiqi 4 iyun 1920-ci ildə (təəccüblüdür ki, qərar mayın 4-də çıxarılsa da Firidun bəy Köçərlidən izahat may ayının 5-də alınmışdır) aşağıdakı məzmunda qərar çıxarmışdı.

Mən, 20-ci diviziyanın 7 nömrəli Xüsusi bölməsinin Xüsusi şöbəsinin hərbi müstəntiqi bu gün Firidun bəy Köçərlinskinin əksinqilabçı kimi ittihamnaməsi üzrə işinə baxaraq və Qazax İnqilabi Komitəsinin ona verdiyi xasiyyətnaməni nəzərə alaraq bildirirəm ki, müttəhim Köçərlinski

322 MTN-in arxivi. F.Köçərlinin istintaq qovluğu, PS - №12206.

özünün hakimiyyətindən və böyük səlahiyyətlərindən istifadə edərək zəhmətkeş xalqa zorakılıq göstərmiş, Qazaxda «Müsavat» partiyasının sədri olarkən millətçilik ehtiraslarını alovlandırmış, nəticədə qonşu millətlər arasında toqquşmalar baş vermişdir. Onun verdiyi izahat heç bir inama layiq deyil... Müttəhim Köçərlinskinin şahidlərin dindirilməsi haqqında ərizəsini nəticəsiz qoymaq (rədd etmək) lazımdır ki, onun gələcəkdə azadlıqda qalması Qazax qəzasında əksinqilabi hərəkatın baş verməsinə, fəhlə və kəndlilərin günahsız yerə qanının tökülməsinə səbəb ola bilər.

Qərara alınır: müttəhim Köçərlinski güllələnsin.

**Hərbi müstəntiq:**
**(adı və soyadı göstərilməyib)**

**Təsdiq edirəm:**
**7 nömrəli xüsusi bölmənin**
**rəisi Liberman**

**Təsdiq edirəm:**
**Fövqəladə komissar**
**H.Sultanov[323].**

Azərbaycan ədəbiyyatının ölməz simalarından olan görkəmli tədqiqatçı alim, vətənpərvər maarifçi və böyük pedaqoq Firidun bəy Köçərli sovetləşmənin ilk aylarında beləcə qətlə yetirilmişdir.

[323] MTN-in arxivi. F.Köçərlinin istintaq qovluğu, PS - №12206.

Bəlkə də istintaq orqanlarında erməni kadrlar üstünlük təşkil etdiyi üçün dindirilmələr zamanı «erməni mövzusu» üstünlük təşkil edir: 1922-ci ildə həbs olunan Ömər Faiqlə bağlı protokoldan oxuyuruq:

«**Sual:** Nə üçün menşeviklər sizi həbs etmişdi?

**Cavab:** ...Məni ona görə həbs ediblər ki, guya mən ermənilərə kömək edirdim. O dövrdə erməni gürcü davası gedirdi»[324].

Sual doğur, doğurdanmı Ömər Faiq ermənilərə kömək etmişdi? Ədibin yaradıcılığına az-çox bələd olanlar bilirlər ki, o publisistik yazılarında Sövet hakimiyyətindən əvvəl də ermənilərin yeritdikləri siyasəti tənqid etmişdir. Sovet hakimiyyəti illərində də ermənilərin bəd niyyətlərini, Axalsixi rayonunda Siyasi Büronun tərkibində çoxluq təşkil edən ermənilərin tam qərəzli mövqedə dayandıqlarını görmüş və onları tənqid etmişdir: «Çox halda milçəkdən fil düzəltmək meyli olan Siyasi Büro kəndlilər arasında narazılıq doğurur. Bu narazılıq bir də ondan doğur ki, Siyasi Büronun tərkibi bütünlüklə eyni millətin nümayəndələrindən ibarətdir. O da yaxşı hal deyil ki, Erməni və müsəlmanların bir-birinə inamsızlığının davam etdiyi - nə qədər acı olsa da, həqiqətdir - bir vaxtda Siyasi Büronun əməkdaşlarının böyük əksəriyyəti, milisdən tutmuş məsul şəxslərə qədər ermənilərdən ibarətdir. Onları isə heç bir vəchlə milli qərəzsiz hesab etmək olmaz.

Kəndlərdəki mitinqlərin birində bir nəfər kəndli mənə çox ciddi şəkildə belə bir sual verdi: zəhmət olmasa bizi

---

324 MTN-in arxivi. Ömər Faiqin istintaq qovluğu, PR - №26592.

başa salın görək bu saat bizim Axalsix qəzasındakı hökumət bolşevik hökumətidir, yoxsa erməni hökuməti? Kəndlilər mənə belə sualları çox tez-tez verirdilər və bunlar Axalsix Siyasi Bürosunun yerlərdəki fəaliyyətini göstərən xarakterik cəhətlərdir.

Ö.F.Hemanzadənin məruzəsindən sonra 1921-ci il iyunun 13-də belə bir qərar qəbul edilmişdir: «Gürcüstan Fövqalədə Komissiyasının sədrinə təklif edilsin ki, Axalsixidəki Siyasi Büronun tərkibindən ermənilər çıxarılsın və gələcəkdə beləlləri büroya daxil olunmasın»[325].

Bütün bunlar göstərir ki, o, erməniləri heç vaxt müdafiə etməmiş və edə də bilməzdi.

Ermənilərə diqqət göstərməməkdə, onlara qarşı biganə olmaqda şair Əli Razi Şamçızadə də ittiham olunurdu, həm də təkcə yad müstəntiq tərəfindən yox, eyni zamanda Azərbaycanlı «ziyalı» tərəfindən:

Şahidlərdən biri 11.08.37-ci ildə verdiyi ifadəsində Əli Razini erməniləri sıxışdırdığına və Yazıçılar İttifaqının Kirovabad filialında onlara qayğı ilə yanaşmadığına görə, başqa sözlə millətçilikdə ittiham edirdi:

**Sual:** Əli Razi Şamçızadənin Yazıçılar İttifaqının rəhbəri işlədiyi zaman millətçi baxışlarını hiss edirdinizmi?

**Cavab:** Bu suala mən belə cavab verə bilərəm ki, Əli Razinin Yazıçılar ittifaqına rəhbərliyi dövründə Kirovabad şəhərində çoxlu gənc erməni olmasına baxmayaraq, bizim ittifaqda yalnız 1 erməni var idi. Əli Razi erməni yazıçıları ilə heç vaxt maraqlanmırdı və onların hazırlanması barədə

---

[325] Şamil Qurbanov. «Ömər Faiq Nemanzadə», Bakı, 1982, səh.68.

sual qaldırmırdı. Lakin Əli Razi Yazıçılar İttifaqının rəhbərliyindən gedəndən sonra onlarla erməni gənci ittifaqa daxil oldu.

Azərbaycan ziyalısı o günə salınmışdı ki, Yazıçılar İttifaqında say etibarı ilə özündən çox ermənini görmək istəyirdi. Ona görə də Şamçızadənin atmadığı bu addımları millətçi baxış kimi pisləyirdilər. Hansı ki, həmin illərdə ermənilər bütün sənələr üzrə müxtəlif vəzifələrdə, xüsusilə də hüquq-mühafizə orqanlarında kifayət qədər yerləşdirilmişdir və çörəyini yediyi Azərbaycanlıları kütləvi məhv edirdilər.

Əli Razi Şamçızadənin işi üzrə yanvarın 5-də hazırlıq iclası keçirildi. Hazırlıq iclasında qərara alındı ki, Şamçızadə Əli Razi Yəhya oğlu Az.CM-nin 64, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilsin, işinə şahidsiz, ittihamçısız və müdafiəçisiz bağlı məhkəmə iclasında baxılsın.

7 yanvar 1938-ci ildə, Bakı şəhərində, sədr İ.T.Nikitçenko, üzvlər V.İ.İyevlev və P.E.İşenko, katib isə L.H.Kudryavçev olmaqla SSRİ Ali Məhkəməsi hərbi Kollegiyası Səyyar Sessiyasının bağlı iclası öz işinə başladı. İclas saat 20.20-də başlamış, 20.40-da öz işini bitmiş hesab etmişdir.

Bağlı məhkəmə iclasında onu ən ağır cəzaya - güllələnməyə məhkum etmişlər. Hökmün icrası yanvarın 7-dən 8-nə keçən gecə həyata keçirilmişdir.

Azərbaycanda milli ədəbiyyat tarixçiliyinə qarşı qəsdin (hərfi, ya məcazi mənada) qurbanları çox olmuşdur. (İ.Hikmət, M.F.Köprülüzadə, bunların arxasınca Əmin Abid, Mirzə Məhəmməd Axundzadə, Mustafa Quliyev,

Vəli Xuluflu, Atababa Musaxanlı, Seyfulla Şamilov və s.). Onlar hamısı millətçilikdə ittiham edilərək yuxarıda F.Köçərlinin nümunəsində gördüyümüz standart qaydada repressiyalara məruz qalmışlar. Odur ki, onların hamısı üzərində müfəssəl durmağa ehtiyac yoxdur.

Tənqidçi və publisist fikrin təqiblərə məruz qalmasının mahiyyətini açmaq üçün isə bizə daha münasib material verən Sadıqzadə Seyid Hüseyn və Ömər Faiq Nemanzadə hesab oluna bilər.

Geniş oxucu kütləsinin Seyid Hüseyn adı ilə tanıdığı görkəmli yazıçı və tənqidçi Azərbaycan ədəbiyyatında özünəməxsus yeri və mövqeyi olan sənətkarlardandır. XX əsrin əvvəllərindən başlayaraq dövri mətbuatda maraqlı və məzmunlu yazıları ilə çıxış etmiş, «Kor kişinin arvadı», «İki həyat arasında», «Mehriban», «Yatmış kəndin qış gecələri», «Şirinnaz», «Bir küçənin tarixi» və s. əsərləri, eləcə də bir sıra tənqidi məqalələri ilə oxucular arasında rəğbətlə qarşılanmışdır. S.Hüseyn Azərbaycan yazıçılarına öz tənqidi məqalələri ilə istiqamət vermiş və romantizm haqqında maraqlı nəzəri mülahizələr söyləmişdi.

S.Hüseyn Sovet hökuməti illərində ilk dəfə 14 iyun 1923-cü ildə 201 saylı həbsetmə və axtarışaparma orderinə əsasən Azərbaycan Fövqəladə Komissiyası (Az.ÇK) tərəfindən həbs edilmişdir. Onun həbs edilməsinə səbəb isə sovet hökuməti əleyhinə yönəldilmiş işdə iştirakı idi.

Məlumdur ki, AXC-nin süqutundan sonra da onun müstəqilliyi uğrunda mübarizə açıq və ya gizli şəkildə davam etdirilmişdir. Məmməd Əmin Rəsulzadə «Çağdaş Azərbaycan tarixi» adlı məqaləsində göstərirdi ki, Azər-

baycanın Daxili İşlər Naziri Bağırov 1925-ci ildə verdiyi bir raportda 52-dən artıq üsyan hadisəsinin olduğunu qeyd etmişdir. Bu fakt bir daha göstərir ki, sovetləşmənin sonrakı illərində də Azərbaycanlılar öz azadlıq və müstəqillikləri uğrunda mübarizə aparmışlar. M.Ə.Rəsulzadə yazırdı ki, «Bu əməli müqavimət hadisələri ilə bərabər məmləkətdə siyasi konspirasiya, yəni gizli çalışma aktları da güclü şəkildə davam etdi. Gizli bəyannamələr, hətta qəzetlər nəşr olundu. Bakıda, «Çeka»nın lap yaxınlığında gizli bir mətbəə işləyirdi: burada çap edilən «İstiqlal» qəzeti 19-cu nömrəsini buraxmağa müvəffəq olmuşdu».

Azərbaycan MİK-nin katibi və rəyasət heyətinin üzvü M.Xanbudaqov 17 iyun 1923-cü ildə xüsusi şöbəyə göndərdiyi məktubda bildirirdi ki, bizdə olan məlumata görə Sizin tərəfdən Seyid Hüseyn Sadıqov və Cəfər Cabbarlı həbs edilib. Həbs olan zaman onlardan Azərbaycan MİK-nin 3-cü sessiyasının hesabatının stenoqrafiyası tapılıb... Xahiş edirəm həmin hesabatı təcili MİK-ə göndərəsiniz.

M.Xanbudaqovun göndərdiyi məktub bir daha göstərir ki, Azərbaycan ziyalıları öz siyasi fəaliyyətlərini genişləndirməyə başlamışlar.

Seyid Hüseyn Sadıqov 15 və 16 iyunda verdiyi ifadəsində bildirirdi ki, Mirzə Bala Məmmədzadə, Rəhim Vəkilov, AXC-nin keçmiş naziri Nərimanbəy Nərimanbəyov və sairlər gənclərdən ibarət siyasi mübarizləri toplayaraq Azərbaycanın müstəqilliyi və azadlığı uğrunda gizli fəaliyyətə başlamaq istəyirdilər. Bunların əsas məqsədi Azərbaycanı imperiya caynağından qoparmaq və müstəqil bir dövlət kimi yaşatmaq idi. Azərbaycanın müstəqilliyi na-

minə həyatlarını təhlükə qarşısında qoyanların əksəriyyəti sovet hakimiyyəti illərində repressiyaya məruz qaldı. Bir qrup vətənpərvər oğullarımız isə xaricə getdi və siyasi fəaliyyətlərini davam etdirdi.

Siyasi repressiyalardan yaxa qurtarmaq və mübarizələrini gizli də olsa davam etdirmək üçün bəzən həmin təşkilatın nümayəndələri fəaliyyətini danmaq məcburiyyətində qalmışlar. İlk həbsi zamanı S.Hüseyn də Mirzəbala Məmmədzadə, Vəli Mikayılov, Nərimanbəy Nərimanbəyov və başqalarının rəhbərliyi altında fəaliyyət göstərən təşkilatdakı iştirakını gizlətdi və bildirdi ki, mənə Mirzəbala tərəfindən həmin təşkilata daxil olmaq təklif olunsa da mən onu rədd etdim. Buna görə də çekaçılar ona heç nəyi sübut edə bilmədilər.

Əlbəttə, imperiyada azad qul olmaq xülyadır. O, özünün sadiq və qeyri-sadiq qullarını həmişə nəzarətdə saxlayır, onları istədiyi vaxt məhv etmək məqsədi ilə müxtəlif məlumatlar toplayırdı. Buna nail olmadıqda isə həbs altında saxladığı «cinayətkarlardan» fiziki güc və işgəncə tətbiq etməklə istədikləri adam haqqında ifadə alır və o əsasla da həmin şəxsi həbs edirdilər.

Kərimov Əli Xasbulat oğlunun 2-4 mart, 23-26 iyun 1937-ci ildə, Xuluflu Vəli Məmmədhüseyn oğlunun 5 iyul 37-ci ildə verdiyi ifadələrə əsasən DT-nin baş leytenantı Qriqoryan S.Hüseynin də əksinqilabi burjua-millətçi təşkitlatın üzvü olduğunu müəyyənləşdirmiş və arayış tərtib edərək onun Az.SSR CM-in 72, 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunmasını, eləcə də yenidən həbs edilməsini məsləhət görmüşdür. Qriqoryan tərə-

findən tərtib olunan arayış DT kapitanı Tsinman tərəfindən təsdiq olunmuşdur. Bu arayışdan sonra Qirqoryan S.Hüseynin həbs olunması barədə qərar hazırladı və həmin qərar Tsinmanla razılaşdırıldıqdan sonra 37-ci ilin iyulunda (günü göstərilməmişdir - C.Q) Az.XDİK-in idarə rəisi, 3-cü ranqın dövlət təhlükəsizlik komissarı Sumbatovun təsdiqinə verildi. Sumbatov Azərbaycan SSR CM-nin 72, 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə ittiham olunan vətəndaş Sadıqov Seyid Hüseyn Mirkazım oğlunun həbs olunması və XDİK-in həbsxanasında nəzarət altında saxlanılması haqqında qərarı təsdiq etdi.

Həbsxanada müxtəlif şəxslərdən zorla, dəyənək gücünə S.Hüseyni ifşa etmək məqsədi ilə aldıqları ifadələri ona oxumaqla onu sındırmağa cəhd edirdilər. (İşdə V.Xuluflunun, T.Şahbazinin, Ə.Kərimovun, R.Axundovun, Hənəfi Zeynallının, Mahmudzadə Əli Nazimin, Rəhim Həsənovun, Böyük Ağa Talıblının ifadələrində S.Hüseynin əksinqilabi millətçi təşkilatla əlaqəsi məsələsindən danışılır).

Bu metodla da bir iş görə bilməyən müstəntiq üzləşmə aparır. Üzləşmə zamanı bildirilmişdir ki, Sadıqov emiqrantlarla, xüsusilə də bacanağı M.Ə.Rəsulzadə ilə əlaqə saxlamışdı. Üzləşmə zamanı qeyd edilmişdir ki, S.Hüseyn formal olaraq «Müsavat» partiyasından uzaqlaşsa da onunla əlaqəni üzməmişdi. Bundan başqa o, guya «Kommunist» qəzeti redaksiyasında demişdir ki, Cəfər Cabbarlı sovet ideologiyasına keçib və köhnə əksinqilabi millətçi ideologiyanı unudub. O, Cəfər Cabbarlının «Oqtay Eloğlu», «Aydın» əsərini tərifləyir və «Yaşar» , «Almaz», «Sevil» kimi sovet mövzusunda yazılmış pyeslərini pisləyir,

H.Cavidin «İblis» və «Şeyda» dramının tamaşaya qoyulmasını təklif edirdi. Mirzə İbrahimovun «Həyat» əsərini «kal yaradıcılıq məhsulu» adlandıraraq onu Hüseyn Cavid kimi yazmağa çağırırdı.

Göründüyü kimi, S.Hüseyni əksinqilabi millətçi kimi tanıtmaq, M.Ə.Rəsulzadənin bacanağı olduğunu tez-tez yada salmaq, əsərlərində burjua millətçi cəmiyyəti təbliğ etmək və s. məsələləri qabardaraq onu məhv etmək üçün hər vasitəyə əl atırdılar. Çünki Seyid Hüseyn özünü müqəssir hesab etmir, əsərlərində millətçi mövqedə dayandığını təsdiqləmirdi. Lakin görünür müxtəlif ifadələrdən oxunan sitatlar və üzləşmə onlara imkan verirdi ki, istintaqı başa çatdırsınlar. Beləliklə 17 noyabr 1937-ci ildə istintaqın qurtardığı S.Hüseynə elan edildi.

İstintaqın bitdiyi elan edildikdən sonra ittihamnamə hazırlanmış və həmin ittihamnaməyə əsasən Seyid Hüseyn aşağıdakılara görə müqəssir bilinmişdir:

1. Formal olaraq əksinqilabi «Müsavat» partiyasından aralansa da, son ana qədər əksinqilabi millətçi mövqedə dayanmışdır.

2. Azərbaycandakı əksinqilabi millətçi təşkilatının üzvü olmuş, Azərbaycanı SSRİ-nin tərkibindən silahlı üsyan yolu ilə ayırmağı, Ziyançılıq, təxribat, casusluq və partiya eləcə də hökumətin rəhbərlərinə qarşı terror aktları tətbiq etməyi qarşısına məqsəd qoymuşdur.

3. Bu əksinqilabi millətçi təşkilatın sıralarında qalaraq Azərbaycan Sovet Yazıçılar İttifaqında iş aparmışdır.

4. Azərbaycan əksinqilabi millətçi təşkilatının rəhbəri Ruhulla Axundovla və bu əksinqilabi təşkilatın fəal üzvlə-

rindən Əli Kərimovla, Tağı Şahbazi və başqaları ilə əlaqə saxlamışdır.

Əsasən bunlarda suçlanan S.Hüseynin istintaq işi 01 dekabr 1934-cü il əmrinə əsasən SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasına göndərilməsi tövsiyyə olundu.

4 yanvar 1938-ci ildə Bakı şəhərində, SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının hazırlıq iclası keçirildi və həmin iclasda qərara alındı ki, Az.SSR CM-in 73 və 70-ci maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirkar bilinsin və işə şahidin, iddiaçının və müdafiəçinin iştirakı olmadan bağlı məhkəmə iclasında baxılsın.

Beləliklə, 5 yanvar 1938-ci ildə SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyasının Səyyar Sessiyasının bağlı məhkəmə iclası sədr Hivitçenko, üzvlər İyevlev və İşşenko, katib 2-ci ranqın hərbi hüquqşünası Kudryavçev olmaqla saat 13.20 dəqiqədə öz işinə başladı.

İttiham olunan S.Hüseyn öz əvvəlki ifadələrinə heç nə əlavə etməyəcəyini, Sovet Hökumətinin əleyhinə iş görmədiyini və özünün müqəssir olmadığını bildirdi.

Cəmi 20 dəqiqə çəkən məhkəmə iclası 13.40 dəqiqədə bağlı elan edildi.

Məhkəmənin hökmü ilə Seyid Hüseyn Sadıqov ən böyük cəzaya - güllələnməyə məhkum edildi. 5 yanvarda oxunmuş hökmün icrası 6 yanvar 1938-ci ildə yerinə yetirildi.

Onun əksinqilabi millətçi fəaliyyəti ilə əlaqədar olaraq 40 yaşlı həyat yoldaşı, şairə Ümmügülsüm xanım da həbs edildi.

Bu ailənin sonrakı taleyi barədə yazıçının oğlu, Azərbaycanın Əməkdar İncəsənət xadimi Sadıqzadə Oqtayın milli təhlükəsizlik nazirinə ünvanlanmış 29.12.91-ci il tarixli ərizəsində oxuyuruq: «...Bizi necə bir «xalq düşməninin» uşaqları kimi alçaldır, təhqir və təqib edirlər (siyasi motivlərə görə işə götürmürdülər, təhsil müəssələrindən çıxarırdılar, bu barədə mənə rəsmi bildirilmişdir, yaradıcılıq işlərinin müqavilələrinin pozulması və s.). 1941-ci ilin iyun ayının əvvəllərində mən, «xalq düşmənlərinin» uşaqlarından və cinayətkar ünsürlərdən ibarət olan inşaat batalyonuna «mobilizatsiya» olunmuşdum. Müharibə başlayan kimi bizi Altay vilayətinə (Rubsovsk, Barnaul) şəhərinə göndərmişdilər. Əməli olaraq biz də repressiyaya məruz qalmışdıq. Orada mən katorqa şəraitində hərbi inşaat obyektində demək olar ki, 6 il işlədim (Xüsusi inşaat-montaj hissəsi 15). Yerin altında zemlyankalarda yaşayırdıq, yarımçılpaq 30-40 dərəcə şaxtada yaşayırdıq, 3 sutka bizə yemək vermədilər, bizimlə işləyən nemes əsirlərinin şəraitləri bizimkindən yaxşı idi. Mənim Qardaşım Cığatay Sadıqzadə baxmayaraq ki, onun bronu vardı və xəstə idi, inşaat otryadına mobilizatsiya olunmuşdu və qeyri-insani şəraitə dözə bilməyib 24 yaşında vəfat etdi. Müharibədən sonra xəstə anamı ağır vəziyyətdə Bakıdakı evində yaşamaq hüququ olmamaq şərti ilə azad etdilər və bir neçə aydan sonra Şamaxı şəhərində vəfat etdi. Mən onu görə bilmədim»[326]. (Təəssüf ki, məktubda Oqtay Sadıqzadə qarda-

---

[326] MTN-in arxivi. Ümmügülsüm Sadıqovanın istintaq qovluğu, PR -№8816.

şı Toğrulun və bacısı Qumralın taleyindən bəhs etmir). 6 oktyabr 1956-cı ildə Seyid Hüseyn Mirkazım oğluna tam bəraət verildi.

Türkiyə casusu kimi Azərbaycan SSR Cinayət Məcəlləsinin 68-ci maddəsi ilə ittiham edilən Ömər Faiqin hərəkətlərində cinayət tərkibi tapılmadığından, 1933-cü ilin may ayının 17-də belə qərara alındı ki, onun casusluqla məşğul olması sübuta yetirilmədiyindən istintaq işi dayandırılsın, Ö.F.Nemanzadə həbsdən azad edilsin.

Bu qərar may ayının 17-də verilsə də onu həbsdən azad etmirlər. May ayının 27-də Ömər Faiqin ömür yoldaşı Abidə xanım M.C.Bağırova ərizə ilə müraciət edərək ərinin buraxılmasını xahiş edir. Bu ərizədən sonra may ayının 28-də Ömər Faiq azad edilir.

1937-ci ilin 16 iyulunda Sovet hökuməti əleyhinə yaradılmış əksinqilabi millətçi təşkilatın rəhbəri kimi, Tbilisi şəhərində, Axalsix rayon prokuroru Odabaşyanın sanksiyası ilə onu yenidən həbs edir və oktyabrın 19-da üçlüyün əmri ilə güllələyirlər.

## 2. Kitab mədəniyyətinə qarşı hücumlar

Məmməd Əmin Rəsulzadə haqlı olaraq yazırdı ki, Azərbaycanda rus-bolşevik hakimiyyətinin ruslaşdırma siyasəti iki şəkildə təzahür edir: iqtisadiyyatda mərkəzləşdirmə; mədəniyyət sahəsində ruslaşdırma[327]. Əgər iqtisadi

---

[327] Rəsulzadə M.Ə. Əsrimizin Səuavuşu, Çağdaş Azərbaycan tarixi, Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, «Gənclik» nəşriyyatı, 1991, səh. 98.

mərkəzçilikdə Azərbaycanın iqtisadiyyatı, xüsusilə də neft və pambığı Moskvanın nəzarəti altına keçirdisə, mədəniyyətin ruslaşdırılması ilə milli mədəniyyətimiz «formaca milli, məzmunca sosialist» formulu ilə maskalanırdı. Həm iqtisadi mərkəzləşdirmə, həm də mədəniyyətin ruslaşdırılması Azərbaycan xalqının faciəsi idi. Xalq ən böyük zərbəni birincidən çox ikincidən - mədəniyyətin ruslaşdırılmasından alırdı. 20-ci illərin əvvəllərindən əlifbanın dəyişdirilməsi ideyası ortaya atıldı və yeni əlifbaya - latına keçid həmin illərin mətbuatında nə qədər alqışlandısa mənəviyyatımıza dəyən zərbələr bir o qədər çoxaldı; xalq klassik yazılı abidələrindən - kökdən, yaddaşdan, əcdaddan uzaq düşdü. Bolşeviklər az keçməmiş burada da bir avropaçılıq meylləri gördüyündən 30-cu illərdən yeni bir əlifbaya, kirilə keçmək qərarına gəldilər. 1937-ci ildə keçirilən «Orfoqrafiya və terminologiya» konfransında yeni əlifbaya keçilməsinin zəruriliyi ideyası daha da gücləndi. Həmin konfransda beynəlxalq terminlərin əslində olduğu kimi deyil, rusların qəbul etdiyi şəkildə saxlanılması, rusca terminlərin tərcümə edilməməsi, türk dilində işlədilən terminlərin yaxına buraxılmaması, ərəb-fars və osmanlıcadan alınmış sözlərin rus sözləri ilə əvəz edilməsi fikri əsas götürüldü. Doğrudur, terminlərin türkcələşdirilməsi, ruslaşdırmaya imkan verilməməsi ideyalarını üstüörtülü şəkildə ortaya atanlar da tapıldı, lakin bu fikirlər konfransda öz müsbət həllini tapa bilmədi. Lenin dili Sovetlər birliyində ana dili kimi qəbul edildi. Buna qarşı çıxanlar isə millətçi, antisovet təbliğatçısı, təxribatçı və s. kimi cəzalandı-

rıldı. Beləliklə də ərəb əlifbasından uzaq salınan xalqı, latına alışmamış, kirilə keçməyə məcbur etdilər.

Bu zaman latınla və ərəb əlifbası ilə yazılan kitab irsini qoruyub müdafiə etmək də kirilə qarşı müqavimətin əsas üsullarından biri idi.

Sosializm qəlibinə sığmayanlar, xalqın, millətin kitab tarixini, yazı mədəniyyətini yaşadanlar və öz yaradıcılıqlarında irslə varis, dünənlə bu gün arasına körpü atanlar da V.İ.Stalinin və onun əyalətdəki qullarının qəzəbinə düçar olurdular. İrtica və istibdad prosesi iki yolla - dövri mətbuatda, yığıncaqda, plenum və qrultaylarda ifşa və təhlükəsizlik orqanlarının təcridxanalarında ittiham həyata keçirilirdi. Əslində yığıncaq, plenum, və qurultaydakı ifşalar da xarakter etibarı ilə ittiham idi. Bəzən elə olurdu ki, həbs olunmuş hər hansı bir şəxs haqqında müstəntiqlərin çıxarmadıqları hökmü ilk öncə «tənqidçilər» çıxarırdı. Hətta belə də olurdu ki, istintaq zamanı özünün müqəssir olmadığını təkidlə bildirən hər hansı müttəhimin dövri mətbuatda və ya toplantıda «vətən xaini» olduğu elan edilirdi. Sonra isə «tənqidçilərin» çıxardıqları «hökmlər» müstəntiqlər tərəfindən reallaşdırılırdı. Ayrı cür ola da bilməzdi, çünki belə hökm verənlərdən biri və birincisi M.C.Bağırov idi. Belə ki, o, Moskvada trotskizmlə mübarizəyə həsr edilmiş plenumda çıxış edən Stalinin «indi biz trotskizmlə, millətçilərlə 10 il bundan əvvəlki kimi mübarizə apara bilmərik, indi biz məhv etmə yolunu tutmalıyıq» devizini əldə rəhbər tutaraq Azərbaycanda da trotsksist, millətçi, müsavatçı ünsürlər axtarmağa və onlara divan tutmağa başladı.

Belə ittihamlara məruz qalanlar içərisində ən böyük cəza tədbiri Azərbaycanın görkəmli ziyalısı, böyük tədqiqatçı-alim və Şərqin mənəvi sərvətlərinin toplayıcısı Salman Mümtaza qarşı görülmüşdü. 30-cu illərdə partiyanın plenum və yığıncaqlarında, eləcə də dövri mətbuatda onun da adı bir millətçi kimi tez-tez hallandırılırdı.

Xalq Daxili İşlər Komissarlığının əməkdaşı Sinman 8 oktyabr 1937-ci ildə 12493 saylı istintaq işi ilə tanış olduqdan sonra belə qərara gəlmişdir ki, Salman Mümtaz Əsgərov əksinqilabi millətçi təşkilatın fəal üzvü olduğuna görə Az.CM-in 72, 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə müqəssir bilinsin və həbs edilərək Xalq Daxili İşlər Komissarlığının (XDİK) həbsxanasına göndərilsin. S.Mümtazın həbsi ilə əlaqədar hazırlanmış qərar bir gün sonra (9 oktyabr 1937-ci ildə) XDİK-in 3-cü ranqının DT Komissarı Sumbatov tərəfindən təsdiq edildi. (Bu qərar ona 1937-ci ilin 15 oktyabrında elan edilmişdi). Oktyabrın 9-da Azərbaycanın görkəmli şəxsiyyətlərindən biri olan S.Mumtaz 1669 saylı orderə əsasən həbs edildi[328].

9 oktyabrda həbs edilən S.Mümtazı 10 oktyabrda XDİK-in 4-cü şöbə 3-cü bölməsinin rəisi Qalstyan dindirmişdi. İlk dindirmə zamanı ona cəmi 1 sual verilmişdi:

**Sual:** İstintaqa məlumdur ki, siz həbs edilən günədək YK(b)P ilə mübarizədə millətçi mövqedə durmusunuz və əksinqilabi millətçi təşkilatın üzvü olmusunuz. Siz bunu boynunuza alırsınızmı?

[328] MTN-in arxivi. S.Mümtazın istintaq qovluğu, PR - №25082.

**Cavab:** Xeyr, almıram. İmza[329].

Çoxları kimi onu da əksinqilabi millətçi təşkilatla əlaqədə və həmin təşkilatın üzvü olmaqda ittiham edirdilər. O isə bu təşkilatla heç bir əlaqəsi olmadığını bildirirdi.

7 dekabr 1937-ci il dindirməsi zamanı Qalstyan ayrı-ayrı şəxslərin ifadələrindən gətirdiyi statlarla onun əksinqilabi təşkilatla əlaqəsini sübut etməyə çalışsa da, o, buna nail ola bilmədi. İmperiyanın əyalətlərə qarşı apardığı siyasətdən başqa, Qriqoryanların, qalstyanların da Azərbaycanla, Azərbaycan ziyalıları ilə öz haq-hesabları var idi. Bu «yanlar» yaxşı dərk edirdilər ki, ziyalılar xalqın tarixi keçmişini gözəl bilən yaddaş kitabı, mənəvi sərvətdilər. Belə mənəviyyat adamlarını məhv etmək üçün dəridən-qabıqdan çıxır, hər hansı bir vasitə ilə onları müqəssir etməyə çalışırdılar. Fiziki işgəncələr köməyə gəlmədikdə Azərbaycan ziyalılarını qarşı-qarşıya gətirərək onları üzləşdirirdilər.

Salman Mümtazın qızı Şəhla xanım xatırlayır ki, atama ailəsi ilə 15 dəqiqəlik görüş verdilər. «Həmin görüşdə atası danışdı ki, professor Çobanzadə və Qubeydullin yalandan şahidlik edib üzünə durublar. Qbeudyllinə çox yaxşılıqları keçmiş Salman Mümtaz haqqı-çörəyi itirdiyinə görə professoru məzəmmət edir. Qbaydullin ona sarı atılıb kədərli bir səslə: «Məcburam, Salman, məcbur eləyirlər, bacarmıram» - deyir. Sonra təpiklə professorun başına, ağzına vurub qan içində sürüyə-sürüyə aparıb gedirlər»[330].

---

[329] MTN-in arxivi. S.Mümtazın istintaq qovluğu, PR - №25082.

[330] «Ağ ləkələr» silinir. (Tərtibçi Osman Mirzəyev), Bakı, 1991, səh. 93.

Üzləşmələr də bu cür işgəncə, iztirab və sitəmlərlə aparılırdı. Özünün əksinqilabi təşkilatın üzvü olduğunu etiraf etməyənlər isə ikiqat cəzalandırılırdı. Salman Mümtaz da əksinqilabi millətçi təşkilatın üzvü olduğunu inkar etdikcə Qriqoryanların, qalstyanların təpikləri altında işgəncələrə məruz qalırdı. Şəhla xanım xatırlayır ki, atasını da çox incitmişdilər, dişlərinin çoxu sınmışdı. Ona görə də bu illərdə kimisə məzəmmət və ittiham etmək çox çətindir. Çünki bu illərdə allahın özünün də yaratdığını yaşatmağa gücü çatmırdı. Allahın yaratdığı allahsızlar tərəfindən öldürülürdü.

10.10.37-ci il üzləşmə protokolu

**Sual** (Qubaydullinə): Nə zaman siz Əsgərzadə ilə əksinqilabi əlaqəyə girmisiniz və bu əlaqə nədən ibarətdir?

**Cavab:** S.M.Əsgərzadə ilə ilk dəfə mən Bakı şəhərində Türkoloji qurultayda 1926-cı ildə tanış olmuşam, onunla daha yaxın 1927-ci ildə olmuşam. Ümumi söhbətlər zamanı mənə aydın oldu ki, S.Mümtazı necə bir pantürkist-əksinqilabçı, millətçi, yerli millətçi cəhətləri ilə tanımışam. Bizim əlaqələrimiz yaxşılaşanda S.Mümtaz mənə danışdı ki, o, Orenburqda, Türkstanda olub və özünün Orenburqda çap olunan «Şura» və «Vaxt» qəzetlərinin redaktorlarının yaxınlıqları barədə danışmışdır. Bu qəzetlərin naşiri məhşur panislamist və pantürkist Fəxrəddinov və Fattik Kərimli idi. S.Mümtaz həmçinin mənə deyirdi ki, o, Tatarıstanın, Başqırdıstanın və Türküstanın bir hissəsinin əksinqilabi pantürkist hərakatının messenat və himayəçisi Xusainovla əlaqədə idi. Mən və S.Mümtaz necə bir pantürkist kimi Tatarıstanın, Başqırdıstanın və Türküstanın

pantürkist hərakatının rəhbərlərinə böyük hörmətlə yanaşırdıq. Biz ikimiz Sovet hökuməti və YK(b)P-sı ilə mübarizədə əksinqilabi pantürkist millətçi mövqelərində dayanmışdıq və hesab edirdik ki, ancaq Sovet hökumətilə mübarizə yolu ilə Azərbaycanı SSRİ-dən ayırmaq lazımdır və Müstəqil Azərbaycan dövlətini burjua demokratik idarə üsulu ilə yaratmaq lazımdır. Mən necə bir pantürkist kimi sözsüz ki, məsələləri daha geniş qoyurdum. Məsələn, vahid Türk-tatar dövlətini yaratmaq və onu SSRİ-dən ayırmaq. S.Mümtaz da mənimlə həmfikir idi, ancaq o məndən fərqli olaraq yerli millətçi təmayüllü mövqedə idi. 1926-cı ildə Bakıda pantürklərin mərkəzi yaranmışdı və həmin təşkilatlar tərəfindən mənə Azərbaycanın görkəmli hökumət işçilərini bu təşkilata cəlb etmək həvalə edilmişdir. Bu təşkilata S.Mümtaz da cəlb edilmişdi. S.Mümtazı bu təşkilata cəlb etmək üçün böyük səy göstərilməmişdi. Ona görə ki, o, əksinqilabi millətçi pantürkist mövqedə dururdu. Mən həbs edilənədək S.Mümtazla əksinqilabi əlaqəni saxlayır və biz görüşən zaman partiyanın və Sovet hökumətinin milli məsələlər üzrə siyasətini əksinqilabi mövqedən tənqid edirdik. 1936-cı ildə əksinqilabi millətçi təşkilatın fəal üzvlərinin birindən mənə məlum oldu ki, S.Mümtaz əksinqilabi millətçi təşkilat tərəfindən cəlb edilib və orada işləyir.

**Sual** (Mümtaza): Bunlar düzdürmü?

**Cavab:** Mən təsdiq edirəm ki, Qubaydullinlə 1926-cı ildə Türkoloji qurultay zamanı Bakı şəhərində tanış olmuşam və mən ona öz olduğum və başqa şəhərlər barəsində danışmışam. Ancaq mən Qubaydullinlə əksinqilabi əlaqə-

də olmağımı qəti surətdə rədd edirəm. Mən əksinqilabi mövqedə durmamışam və məni əksinqilabi təşkilata cəlb etməyib. Qubaydullinin ifadələri yalandır, mən onlara qəti etiraz edirəm[331].

Dindirmə protokollarında çox təəccüblü bir hal da müşahidə olunmaqdadır. Sanki XDİK-in müstəntiqləri müttəhimlərlə danışıqlarında bütün etik normaları gözləyir və hətta onlara «Siz» deyə müraciət edirlər. Lakin minlərlə fakt gətirmək olar ki, onlar həbs edilənləri istintaqa qədər müxtəlif cəza tədbirləri ilə incitmiş, necə deyərlər, istintaqa hazırlamış və sonra dindirmişlər.

7 dekabr 1937-ci ildə istintaqın qurtardığı S.Mümtaza elan edildi və bildirildi ki, PCM-nin 206 maddəsinə əsasən istintaq işi prokurorluğa göndəriləcəkdir.

Az.SSR XDİK-in 3-cü ranqın DT komissarı Sumbatovun təsdiq etdiyi ittihamnamədə Salman Mümtaz əsasən aşağıdakılarda ittiham edilirdi:

1. 1926-cı ildən əksinqilabi təşkilatın üzvü olmuş və 1937-ci ildə həbs edilənədək Çobanzadənin və Qubaydullinin yaratdığı əksinqilabi pantürkist təşkilatın mərkəzi ilə təşkilati əlaqəsi olmuşdur.

2. Azərbaycanı SSRİ-dən silahlı üsyana hazırlaşmaq, Yİ(b)P-nın və sovet hökumətinin rəhbərlərinə qarşı terror aktları hazırlamağı və təxribat-zərərçilik aktları yolu ilə ayırmağı qarşısına məqsəd qoymuş, Bakıdakı gizli əksinqilabi millətçi təşkilatına üzv olmuşdur.

[331] MTN-in arxivi. S.Mümtazın istintaq qovluğu, PR - №25082.

3. Əksinqilabi millətçi təşkilatın mərkəzinin üzvü Ruhulla Axundovun tapşırığı ilə Azərbaycan Elmlər Akedemiyasının Filialında zərərli iş aparmışdır.

Az.SSR CM-in 64, 18, 70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə müqəssir bilinən S.Mümtaz bütün ifadələrində özünün müqəssir olmadığını bildirir.

9 yanvar 1938-ildə SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyasının hazırlıq iclası keçirilir və qərara alınır ki, Salman Mümtaz Azərbaycan SSR CM-nin 64, 18-70 və 73-cü maddələrində nəzərdə tutulan cinayətlərdə təqsirləndirilsin və onun işinə şahidsiz, ittihamçısız və müdafiəçisiz bağlı iclasda baxılsın.

9 yanvar 1938-ci ildə Bakı şəhərində sədr İ.T.Nikitçenko, üzvlər V.İ.İyevlev və P.E.İşenko, katib isə L.H.Kudruavçev olmaqla SSRİ Ali Məhkəməsi Hərbi Kollegiyası Səyyar Sessiyasının bağlı iclası öz işinə başladı. İclas saat 15-də başlamış, 15.30-da öz işini bitmiş hesab etmişdir.

Bağlı iclasda ona siyasi hüquqları beş il müddətinə əlindən alınmaqla, on il müddətinə azadlıqdan məhrum edilməsi hökmü oxunmuşdur[332].

1950-ci illərdə Stalin rejiminin buzu əridiyi zaman ona bəraət verildi (1956-cı ilin 17 noyabrında). Şərqin mənəvi sərvətlərini toplayan, öyrənən və geniş oxucu kütləsinə çatdıran görkəmli publisisitin və mətinşünas alimin özü bəraət alsa da özü ilə həbs edilən kitablarına bəraət verilməmişdir. Özünə 10 il həbs cəzası versələr də, kitablarına əbədi iş kəsilmişdir. Məhv edilən kitablar içərisində təkcə

[332] MTN-in arxivi. S.Mümtazın istintaq qovluğu, PR - №25082.

nadir əlyazma və cünglər, qiymətli kitablar olmamış, eyni zamanda xalqın zaman-zaman yaddaşında yaşatdığı folklor nümunələri də olmuşdur.

H.Cavidin, Ə.Cavadın, H.K.Sanılının, Ə.R.Şamçızadənin, Ə.Abidin, Ə.Müznibin, Qantəmirin, S.Hüseynin, H.Zeynallının və s. məhvi konkret şəxsiyyətin, sözün geniş mənasında Azərbaycan ədəbiyyatının itkisi, faciəsi idisə, S.Mümtazın, F.Köçərlinin məhvi Şərqin faciəsi idi. Çünki birincilərin özü, yazdığı, eyni zamanda oxuduğu və istifadə etdiyi əsərlər repressiyalara məruz qaldı, ikincilərin isə bunlardan əlavə min bir əziyyətlə topladığı Şərqin ən qədim əlyazma və kitabları şəhid oldu.

S.Mümtaza və onun sərvətlərinə dəyən zərbə milli mənəviyyata və əxlaqa, zəngin fəlsəfi və bədii-estetik fikir irsimizə dəydi. Mənəvi sərvət itkisi millətin milli yaddaş itkisidir. Milli yaddaş itkisini bərpa etmək olduqca ağır və çətindir, bəlkə də mümkün deyil. Bütün bunlar təkcə Azərbaycanın deyil, bütövlükdə Şərqin yaddaş repressiyası idi. Nadir əlyazmaların məhvi Azərbaycan tarixinin şübhə altına alınması, «montajı» onu elat və köçəri etmək ideyasına xidmət edirdi. Bu isə fərdlərin yox, millətin faciəsi idi.

Salman Mümtazın yaradıcılığı ilə yaxından tanış olduqca tez-tez «ilk dəfə» sözünü işlətməyə məcbur olursan. Belə ki, o ilk dəfə olaraq Şərqin qiymətli və az yayılan əlyazmalarını toplamış, ilk dəfə olaraq Azərbaycanın bir çox şairləri haqqında qiymətli fikirlər söyləmiş, ilk dəfə olaraq bir çox sənətkarların tərcümeyi-hal materiallarını apardığı elmi axtarışlar nəticəsində müəyyənləşdirmiş və ya dəqiq-

ləşdirmiş, ilk dəfə olaraq Vaqif və Vidadinin hansı əsrin nümayəndəsi olmalarını göstərmiş, ilk dəfə olaraq az tanınan və ya tanınmayan klassiklərin əsərlərini toplamış və tədqiqata cəlb etməyi vacib saymış, ilk dəfə olaraq İsmayıl bəy Qutqaşenlinin «Rəşid bəy və Səadət xanım» əsərini tapıb üzə çıxarmış, ilk dəfə olaraq...

Xalqın mənəvi-estetik sərvətlərini toplamaq olduqca vacib və xeyirxah bir əməl idi. «Çünki Vaqif ilə Füzuli, Xətai, Həbibi, Nəsimi və Nəsimidən daha neçə əsr qabaqca gəlmiş şairlərimizin aralarında sənətkarlar əlləri ilə işlənilib, o silsileyi-şeirin zərif və zərrin həlqələri artıq bir-birlərindən ayrılmış və daha doğrusu, qırılıb tökülmüşdür. O silsiləni qurmaq və qırılan ədəbi zəncirləri gözəl bir surətdə bir-birlərinə bitişdirmək üçün iki alın cəbhədə də çalışmalıyam».

Göründüyü kimi, onun əsas məqsədlərindən biri şairlər və illər arasındakı mənəvi ünsüyyəti bərpa etməkdən ibarət olmuşdur. Lakin bu mənəvi ünsiyyəti bərpa etmək o qədər də asan deyildi: «Məxəzlərim mürgənələr, güvələr ağızlarından, siçanlar və kəsəyənlər boğazlarından artıq qalmış cırıq-mırıq yarpaqlar və darmadağın cünglər və bəyazlardır. Qaynaq, mənbə - istoçniklərim isə uçuq, yıxıq qəbir daşları ilə səqfi çökmüş məscid tağları olmuşdur. İstifadə etdiyimi qəzetə və jurnallar da qoca kişilərin və çox yaşamış qadınların hafizələri və hövsələləridir, məndən qabaq gələn mühərrirlərdən bu yolda bir hazırlıq görən olsa idi, şəksiz mən bir bu qədər də çətinliyə uğramazdım. Tarixi-ədəbiyyatımızı meydana çıxarmaq imkan xaricində

olduğu üçündür ki, bu günə kimi yaxşı-yaman belə bir əsər meydana çıxmamışdır»

Azərbaycan ədəbiyyatının belə bir çətin dövründə, yəni klassik bədii materialların olmadığı bir vaxtda S.Mümtaz, necə deyərlər, qollarını çırmalayaraq ortaya atılmış və yüz illiklərin arxasında qalan yeri və ünvanı naməlum Şərqin ən qiymətli sərvətlərini toplamağa başlamışdır. Salman Mümtazın bu sahədəki xidmətlərini Azərbaycanda yalnız bir nəfərlə, F.Köçərli ilə müqayisə etmək olar. Xalqın bu iki oğlu milli mədəniyyətimizlə bağlı olan materialları toplamış, tərtib etmiş və bir qismini nəşr etdirməyə müvəffəq olmuşlar.

Bunlar elə bir sərvət idi ki, onları əldə etmədən mükəmməl Azərbaycan ədəbiyyatı tarixini yazmaq, ayrı-ayrı sənətkarlara düzgün qiymət vermək, onların Şərq mədəniyyətindəki yerini, klassik irslə müasir irs arasındakı ənənə və əlaqəni müəyyənləşdirmək, Azərbaycan ədəbiyyatının qədimliyini və zənginliyini göstərmək mümkün deyildi. Yaranmış tədqiqat əsərləri isə hələlik tədqiqatçıları qane etmirdi. Bəkir Çobanzadə yazırdı: «Azəri ədəbiyyatının tarixi, müxtəlif məsələlərə dair ayrı-ayrı tədqiqlər, monoqrafiyalar meydana gətirilmədikcə yaradıla bilməz. Bu kimi hazırlıq işi yapılmadan ortaya çıxacaq əsərlər əski Şərq biçimində yazılmış təzkirələrdən daha dərin, daha yüksək ola bilməz»[333].

---

[333] Çobanzadə B. Azəri ədəbiyyatının yeni dövrü, Bakı, 1930, səh. 4.

Təzkirəçiliyi Ə.Abid də yüksək qiymətləndirmir və göstərirdi ki, «təzkirəçilik isə feodalizm cəmiyyətinin tipik ədəbiyyat tarixidir»[334].

Buradan aydın görünür ki, 1930-cu illərə qədər yaranan Azərbaycan ədəbiyyatı tarixləri həmin illərin tənqidçilərini qane etmirdi.

Doğrudur, 30-cu illərə qədər bu sahədə müəyyən işlər görülmüşdür. Belə ki, F.Köçərli 1903-cü ildə rus dilində bir ədəbiyyat dərsliyi yazıb çap etdirmişdir. Eyni zamanda Abdulla Sur Məhəmmədzadə də hələ Türkiyədə oxuduğu illərdə (1906-1908) «Türk ədəbiyyatı tarixi» adlı 1000 səhifəlik əsər yazıb 1908-ci ildə çap olunmaq üçün «Molla Nəsrəddin» jurnalına vermiş, lakin həmin əsər bəzi səbəblərdən çap edilməmiş və itmişdir. (İndi ondan yalnız bəzi fraqmentlər qalmışdır. Bax. Azərbaycan Əlyazmaları İnstitutu, FR-544/3577).

Bütün bunlardan S.Mümtaz xəbərdar idi. Lakin S.Mümtaz belə hesab edirdi ki, Şərqin klassik şairlərinin əsərlərini kifayət qədər toplamadan mükəmməl Azərbaycan ədəbiyyatı tarixi ortaya qoymaq olmaz. Ona görə də, o, əsər və əlyazmaların toplanmasını özü üçün birinci dərəcəli işə çevirmişdi. S.Mümtaz harada və hansı şəraitdə olmasına baxmayaraq qədim kitab və əlyazmaları toplayır, həmin mənbələr əsasında materiallar çap etdirirdi. Nəcəf Nəcəfov yazır ki, onun tədqiqat əsərlərində bir pə-

---

[334] Əmin Abid. Azərbaycan ədəbiyyatı tarixi ətrafında. «İnqilab və mədəniyyət» jurnalı, 1929, №1, səh.45.

rakəndəlik vardır ki, bizcə bu onda olan materialların çoxluğundan irəli gəlirdi.

Çox materialı toplamaq və tədqiqata cəlb etmək o qədər də asan iş deyildi. O hər hansı bir əsərin sorağını eşitsəydi həmin yerə gedib əlyazmaları axtarıb tapmağa çalışardı. Digər maraqlı cəhət ondan ibarətdir ki, S.Mümtazın materialları toplamaq həvəsi onları tədqiq etmək həvəsindən daha böyük idi. S.Mümtaz materialların toplanmasını, onun Azərbaycana gətizdirilməsini tədqiqat əsərlərindən daha üstün tutur və belə hesab edirdi ki, materiallar xam mal kimi nə qədər çox toplanarsa bir o qədər də onları tədqiq etmək, doğru və düzgün elmi qənaətlərə gəlmək asan olar.

S.Mümtazı artıq qədim əlyazma və kitablar toplayan bir şəxs kimi çoxları tanıyır və bunlar arasında tapdıqları kitabları ona göndərənlər də vardı. O isə həmin əlyazmalar üzərində böyük həvəs və can yanğısı ilə çalışır, onları geniş oxucu kütlələrinə çatdırmağa səy göstərirdi. Bəzən elə olurdu ki, tədqiqatçı aylarla bir əlyazma üzərində işləyir, lakin ondan yalnız bir beyt ələ gətirə bilirdi: «Təqarüb vəznində rişteyi-nəzmə çəkilmiş o «Şahnamənin» (Ağa Məsih Şirvaninin «Şahnaməsi» nəzərdə tutulur - C.Q) bir və bəlkə də yeganə nüsxəsini Şamaxı mütəəxxirin üləmasından mərhum Mir Mehdi Ağa tapıb, mənə göndərmişdi. Nə fayda ki, iki əsrdən bəri güvələr, mürgənələr ağızlarından çıxmış və illərcə yağışlar altında qalmış o kitabdan min məşəqqətlə yalnız bir beyt oxuya bildim ki, o da tarix-

lərdə Quba, Bakı, Dərbənd, Şirvan, və Səlyan xanı olan Fətəli xanın haqqındadır»[335].

Hazırda təqaüddə olan Nəcəf Şeyxzamanlının dediklərinə fikir verək: «Mənim əmim Əhməd Kərbəlayi Qənbər oğlu Şeyxzamanlı (1905-ci il təvəllüdlü) 70-ci illərdə mənə belə bir əhvalat danışdı. «1936-37-ci illərdə görkəmli yazıçı Salman Mümtaz Gəncədə olarkən Hacı İsa bəy Şeyxzamanlının evində olub və rəhmətliyin arvadı Böyükxanım xala ilə söhbət edərkən deyib ki, Azərbaycanın böyük şairi Şeyx Nizaminin 800 illik yubileyinə hazırlıq gedir və bilirik ki, Şeyxzamanlıların nəsl şəcərəsi Şeyx Nizamiyə qədər gedib çıxır. Xahiş edirəm icazə verin Sizdəki əlyazma və kitablarla tanış olum. Böyükxanım xala deyib ki, mən savadsız qadınam, ona görə də heç nədən xəbərim yoxdur. Lakin bizdə qalmış kitablar, kağızlar hamısı taxtapuşdadır (evin banında). İstəyirsən qalx gör nə tapırsan. S.Mümtaz bir kisə kitab və başqa kar-kağızı yığıb özü ilə Bakıya aparır.İmza Nəcəf Şeyxzamanlı. 11.02.97». (Əlyazma bu sətrlərin müəllifindədir).

Təsadüfi deyildir ki, S.Mümtaz hər hansı bir elmi mübahisə düşəndə və ya hər hansı bir məsələyə aydınlıq gətirəndə həmin materiallara istinad edir, öz həmkarlarına faktik materiallara söykənərək elmi nəticələr çıxarmasını məsləhət görərdi. Fikrimizi akademik H.Araslının 1963-cü ildə S.Mümtazın kitabxanasının taleyi ilə bağlı Azərbaycan SSR Dövlət Təhlükəsizlik Komitəsinə yazdığı bir mək-

[335] Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları, Bakı, 1986, səh. 31.

tub da təstiqləyir: «Mən S.Mümtaz Əsgərovu şəxsən tanıyırdım. Onun çox zəngin kitabxanası var idi. O, hələ inqilabdan əvvəl nadir əlyazmalarını toplayırdı. Onun kitabxanasında ərəb, fars, türk, Azərbaycan və s. dillərdə əlyazmaları və nadir kitablar: divanlar, külliyyatlar, təzkirələr, cünglər, tarix kitabları, ayrı-ayrı şair və yazıçıların məktubları mövcud idi. 1936-cı ildə mən Yazıçılar İttifaqında Sarı Aşıq haqqında məruzə etmişdim. Mübahisədə Bəhlul Behçət Salmanın kitabını tənqid etdi. Salman sabahı iclasa bir böyük çemodan əlyazması gətirmişdi. Öz fikirlərini o yazmalarla sübut etmək istəyirdi»[336].

Lakin zaman elə gətirdi ki, onun bu zəngin kitabxanası XDİK əməkdaşları tərəfindən müsadirə edildi və geri qaytarılmadı. Əldə olan bəzi nümunələr isə evdən oğurlandı.

Əlyazma və kitabların axtarışı ilə məşğul olan Şəhla Mümtazzadə ərizə ilə müxtəlif ünvanlara - Azərbaycan Sovet Yazıçılar İttifaqına, Azərbaycan SSR Dövlət Təhlükəsizlik Nazirliyinə, N.Xruşşova və s. müraciət etmiş, onların üzə çıxarılması istiqamətində xeyli əziyyət çəkmiş, əlyazma və kitabların ümumi siyahısını tərtib etmişdir. Onun yazdığı ərizə əsasında Moskva Az.SSR Nazirlər Soveti yanında DTK-nın sədri S.K.Sviquna, Az.SSR Maliyyə nazirinin müavini M.Hüseynova aşağıdakı məzmunda bir məktub göndərmiş və öz tapşırıqlarını vermişdir. Məktubda göstərilir ki, S.M.Əsgərovun həbsi zamanı onun evindən «3 kisə, 1 çomadan elmi iş (qaralama və əlyazmalar), bir bağlama Əsgərovun seçdiyi xüsusi materiallar» və 12

---

[336] MTN-in arxivi, S.Mümtazın istintaq qovluğu, PR - №25082.

cild «müxtəlif kitablar» götürülmüşdür. Əsgərovdan götürülmüş kitabların, əlyazmaların taleyi və onların adları məlum deyil. Az.SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi ilə 3 oktyabr 1963-cü ildə tərtib edilmiş, nəticədə (əlyazmaların və kitabların qaytarılması haqqında) Əsgərovun varislərinin əmlak haqqındakı narazılıq iddiaları kifayət qədər əsaslandırılmamışdır. Götürülmüş əlyazma və kitablara aid ayrı-ayrı vacib suallar (göndərdiyiniz məktubda) özünü tam dolğun göstərməmişdir. Bu səbəbdən bəraət almış S.M.Əsgərovun varislərinə onun qızı tərəfindən tərtib edilən 238 adda əlyazma və kitablara qoyulmuş qiymətin ödənilməsini əsaslandırılmış hesab etmək olmaz. Yoxlama materiallarını qaytararaq sizdən xahiş edirik ki, Əsgərovun varislərinin iddialarının əlavə yoxlamalarını aparasınız. Bu məqsədlə ərizəçini, şahidləri, qonşuları və həbs zamanı müsadirə edilmiş kitabxananı təsdiq edən şəxsləri dindirmək lazımdır. Həmin məktubda yuxarıda sadalanan şəxslərə veriləcək suallar da konkret göstərilmişdir:

1. Əsgərovun maddi və ailə vəziyyətini nəzərə alaraq qiymətli kitabxanasındakı əlyazma və kitabların nə zaman və haradan əldə edilməsi; bu kitabxananın həcmi və onun mənzilin harasında yerləşməsi; Əsgərovun mənzilinin sahəsi.

2. Əsgərov həbs edilərkən onun hansı kitabları və əlyazmaları götürülməmişdir, onlar kimin öhdəsində qalmışdır və onların sonrakı taleyi necə olmuşdur.

Xahiş edirik S.M.Əsgərovun varislərinə vermək üçün yoxlamanın nəticələri rəydə əks etdirilsin, Maliyyə nazirli-

yinə göndəriləcək müsadirə edilmiş əlyazma və kitabların qiymətlərinin qoyulması və ödənilməsi məqsədi ilə müəyyən edilmiş qaydada qərar çıxarılsın.

Moskvanın bu tapşırığından sonra DTK-nın əməkdaşları məsələni aydınlaşdırmaq məqsədi ilə 8 may 1964-cü ildə Şəhla xanımı yenidən dindirdi.

**Sual:** Atanız Əsgərov Salman Mümtaz (müstəntiq bir çox yerdə Salman Mümtazın atasının adını Mümtaz yazmışdır ki, bu tamamilə səhvdir. Onun atasının adı Məmmədəmindir - C.Q) oğlunun müsadirə edilmiş kitabxanası haqqında müfəssəl danışın.

**Cavab:** Necə ki, mən xatırlayıram, atam Əsgərov Salman Mümtaz oğlu 9 oktyabr 1937-ci ildə həbs edilmişdir. Həbsin icrasını bizim mənzilə gecə saat 12-də gəlmiş Az.SSR XDİK-in iki nümayəndəsi yerinə yetirirdi. Göstərilən əməkdaşların familiyasını bilmirdim və indi də bilmirəm. Bütün gecəni onlar mənzilimizdə axtarış apardılar. Səhər saat 6-7 radələrində yük maşını çağırdılar. Maşını çağırmamışdan əvvəl kitablar qabaqcadan aşağıya daşınmışdı və podyezdə bir-birinin üstünə yığılmışdı, oradan isə onları maşına yüklədilər. Ondan əlavə kitabların və əlyazmaların ayrılmış hissəsini minik maşınına yükləmişdilər. Həmin maşında mənim atamı da həbs edib apardılar. Göstərilən əməkdaşlar tərəfindən kitabxanadan ayrılmış və aparılmış kitablar və əlyazmalar axtarış prtokoluna salınmışdır. Hazırda həmin prtokol atamın istintaq işində qorunub saxlanılır. Kitabxanının əsas hissəsi ayrıldıqca şagird dəftərindən də qalın olan vərəqlərdə qeydiyyatdan keçib. Siyahının surəti bizə verilmişdi, lakin bir neçə vaxt-

dan sonra bizim evdə ev əşyaları ilə birgə çomadanlar da oğurlanan zaman opisdə çomadanların içində olmuşdur.

Qeyd etməliyəm ki, kitabların qeydiyyatı zamanı onların içində bir neçə adi, ucuz kitab seçildi və ayrıca çomadana yığıldı. Bu karzinkada təxminən 100-150 ədədə yaxın kitab, bundan başqa bir neçə jurnal və əlyazma qaldı. Qalanlarını isə apardılar. Kitablar götürülən zaman dəvət edilən olmamışdı və qonşulardan, eləcə də qohumlarımızdan heç kəs iştirak etmirdi. Evdə yalnız bizim ailənin üzvləri, yəni mənim anam Əsgərova Zeynəb Əlhüseyn qızı, 1938-ci ildə vəfat edən nənəm Zəhra xanım və mən var idim.

**Sual:** Sizin atanızın kitabxanası hansı müddətdə və hansı vəsaitlə alınmışdır?

**Cavab:** Mənim atamın babası və babasının atası varlı idilər, ticarətlə məşğul olurdular. Onların var-dövləti atama qalmışdı. Mənim atam nadir və qiymətli kitabların həvəskarı idi. Atasının vəsaitlərini sonra isə 30 il öz vəsaitlərini istifadə etmiş, ondan da bu kitabxana əmələ gəlmişdir...

**Sual:** Bu kitablar sizin evinizdən hara aparılıb?

**Cavab:** Atamın kitabxanısının hara aparıldığını mən bilmirəm. O barədə mənə heç kəs izahat verməyib. Ancaq yadımdadır ki, o günün səhəri (bizdə axtarış aparılan günün səhəri) atamı tutdular və yuxarıda göstərilən XDİK-in işçiləri telefon vasitəsi ilə 1 yük maşını, sonra isə 2-ci yük maşını çağırmışdılar.

Birinci maşın telefon çağrışından təxminən 15-20 dəqiqə sonra gəlmişdi, kitabları ona yüklədilər və göndərdilər.

Elə o vaxtın ərzində də 2-ci maşın gəldi. İkinci maşın kiçik tipli avtobusa oxşayırdı, üstü bağlı idi. Həmin maşında özləri ilə atamı, 3 kisə, 2 çomadan, və bir neçə bağlama kitab və əlyazmanı qoyub apardılar. Bir neçə gündən sonra atamın saxlandığı yeri çətinliklə müəyyənləşdirdim. Sorğu protokolu mənə oxundu. İmza.

7 iyul 1964-cü ildə Şəhla xanım bu ifadəsinə aşağıdakıları əlavə edirdi.

Mən 1964-cü il 8 may tarixdə verdiyim ifadəyə əlavə olaraq aşağıdakıları demək istərdim: Hazırda şahidlərdən, atamın kitabxanasını evimizdən aparmaq faktını görənlərdən heç kəs qalmayıb. Bizim qonşulardan heç kəs bunu görməyib, ona görə ki, bu hadisə kitabların, əlyazmaların siyahıya alınması evin içərisində olub... Bir neçə dəftər vərəqindən ibarət olan kitabların siyahısı oğurlanan çamadanda idi. 1943-cü ildə oğurluğu qonşumuzun oğlu etmişdi, oğurluq barədə biz milisə məlumat vermək istədik, lakin oğlana hayıfımız gəldi. Təkrar edirəm ki, kitabları və əlyazmaları bizim kitabxanadan atamı həbs edən günü aparmışdılar, bizi isə 3 ay sonra Bakı şəhər sovetinin əməkdaşları evdən çıxardılar. Bizimlə bərabər mebeli də evdən çıxarmışdılar. Mebeli heç bir yerə qoymaq olmurdu. Ona görə də biz ən qiymətlilərini komisyon mağazasına qoyduq və satdıq. Çünki yaşayış üçün bizim heç bir vəsaitimiz yox idi. «09.10.37-ci il» tarixi bizim kitabxanamızın evdən çıxarılan günüdür. Həmin gün hamıya məlum gün idi. 1937-ci ildə ağızdan-ağıza kitabxananın aparılması barədə şaiyələr yayılırdı. Ancaq atamın işçilərindən heç kəs, hansılar ki, atamın yanına gəlib kitab və əlyazmalar-

dan istifadə edənlər kitabxananın aparılmasını görməyiblər. Kitabların hara aparılması və hazırda harada olması barədə mənə heç kəs heç nə deməyib. Amma mən bir şeyi bilirəm ki, bütün kitabxananı evdən Az.SSR XDİK-in 2 əməkdaşı... aparıb...

Şəhla Mümtazzadə böyük əziyyətlərlə atasının əlyazma və kitablarının siyahısının bir qismini tərtib etmişdir. Həmin siyahıda olan əsərlərin həqiqətən S.Mümtazda olduğunu yox- lamaq məqsədi ilə DTK-nın tapşırığı ilə Azərbaycanın görkəmli alimləri və S.Mümtazı tanıyan şəxslər yazılı şəkildə kitabların onda olması barədə məlumat verirlər. Biz həmin məlumatları, təhlil etmək fikrindən daşındıq və onları oxuculara olduğu kimi çatdırmağı daha məqsədəuyğun hesab etdik.

**Əvvala** ona görə ki, həmin yazılar S.Mümtaz, onun kitabxanası və bu əlyazmaları necə toplaması haqqında ümumi təsəvvür yaradar.

**İkincisi,** biz yazı ilə əlaqədar bəzi problemə toxunsaq da, bir çox məsələlər işlənməmiş qalacaqdır.

**Üçüncüsü**, bu yazılarda müəlliflər özləri haqqında da bəzi məlumat vermişlər ki, bu da onların elmi tərcümeyihallarının öyrənilməsi baxımından maraqlıdır.

**Dördüncüsü,** bunlar S.Mümtazın ədəbi mühiti və Azərbaycan ədəbiyyatında ədibin yeri məsələlərinə də aydınlıq gətirə bilər.

**Nəhayət,** bunlar indiyədək qeyri-mətbu olduğundan geniş oxucu kütləsinin, eləcə də ədəbiyyatşünasların marağını kəsb edə bilər.

***

**Azərbaycan SSR Nazirlər Soveti yanında
Dövlət Təhlükəsizlik Komitəsinə
İ Z A H A T**

Mənə verilən şifahi suala cavab olaraq bildirmək istəyirəm ki, mən Əjdərəli oğlu Ələsgərzadə mərhum Salman Mümtazı «Azərbaycanı Tədqiq və Tətöbbö Cəmiyyəti»nin mövcud olduğu zamandan tanıyırdım. O, adı çəkilən cəmiyyətdən sonra Azərbaycanda təsis edilən elmi müəssisələrdə işləmiş və axırda da Az.SSR EA-da çalışmışdır. Mən Akademiyanın yaranmasından etibarən orada işləməyə başlamış və S.Mümtaz ilə yaxından tanış olmuşam. Salman Mümtazın çox zəngin bir kitabxanası var idi. Bu kitabxana xüsusi ilə çox qiymətli nadir əlyazmaları ilə insanın nəzərini cəlb edirdi. Salman Mümtaz bir zaman Füzulinin elmi-tənqidi mətnini tərtib edirdi. Həmin iş onun kitabxanasında aparılırdı. Füzulinin elmi-tənqidi mətninin işlənib başa çatması müddəti ərzində mən Mümtazın kitabxanası ilə daha yaxından tanış oldum. Kitabxana haqqında xatirimdə qalanlar aşağıdakılardan ibarətdir:

Kitabxanada ümumiyyətlə Yaxın Şərq ölkələri və xüsusilə Azərbaycan, İran və Türkiyə klassik ədəbiyyatına aid əlyazmaları mövcud idi. Bunların içərisində Nəsiminin, Füzulinin, Xətainin, Ruhi Bağdadinin və başqa şairlərin müxtəlif tarixlərdə yazılmış divanları vardı. Əlyazmalar içərisində təzkirələr, qədim «cüng»lər və «bəyaz»lar da xüsusi yer tuturdu. Ayrıca olaraq bunu da qeyd etməliyəm ki, kitabxanada az tapılan çoxlu daş çapı kitablarda

var idi. Kitabxanadakı əlyazmaların və çap kitabların sayına gəldikdə, onların miqdarı irili-xırdalı dörd-beş mindən əskik olmaz. Tarix elmləri namizədi Ə.Ə.Ələsgərzadə Bakı 1/IY.63.

***

**Yoldaş Seyidzadə üçün**

Salman Mümtazı mən birinci dəfə görəndə 16-18 yaşında idim. O zaman mən darülmüəllimin tələbəsi idim. Əvvəllər biz, tələbələr onu şair tanıyırdıq. Sonralar bildik ki, o, kitab aşiqi, bir tacirdir. Deyirdilər ki, onun gecə-gündüz işi-gücü, nə yol ilə olur olsun xüsusi əlyazma kitabları ələ gətirməkdir. Deyirdilər ki, akademiyanın kitabxanası S.Mümtazın başındadır. Mən də o zamanları (1920-ci illərdə), şair olduğum üçün şairlərimizin əsərlərini yığıb saxlayan Salman Mümtaza hörmət bəsləyirdim. 1926-cı ildə - «Türkoloji qurultay» günlərində Salman Mümtaz rus və türk alimlərindən bir neçəsini evinə qonaq çağırmışdı, bu alimlər onun kitabxanası ilə tanış olanda, ondakı nadir əlyazmalara heyran qalmışdılar. «Elə kitab vardı ki, biri Londonda Britaniya muzeyində, ikinci nüsxəsi Salman Mümtazda idi». Bu sözləri rus akademiklərindən Oldenburq demişdi. S.Mümtaz evindəki, əlyazmaları sonralar bir-bir çap etməyə başlamışdı. İyirmiyə qədər şairin əsərini və tərcümeyi-halını nəşr etdi. Bu hələ başlanğıc idi. Məni Salman Mümtazla dostum şair M.Müşfiq tanış edəndə bilavasitə onunla mən uzun-uzadı söhbət etdim. Bu zaman mən ali təhsilli ədəbiyyatçı idim. Kitab mədəniyyətindən xəbərdar idim. Bilirdim ki, Salman Mümtazda çox qiymətli təzkirələr, cünglər, bayazlar, əlyazma nadir di-

vanlar, miniatürlər, qiymətli kilişələr var. Onda təxminən 4-5 min kitab vardı. Məsələn, Füzulinin, Nəsiminin, Xətainin, Vaqifin, Seyid Əzimin, Zakirin, Mirzə Şəfinin, Mirzə Fətəlinin yüzlərlə və köhnə alimlərimizin əlyazma əsərləri vardı ki, onlara qiymət qoymaq çox çətindir. Bu adam, ömrü boyu Azərbaycan, Gürcüstan, Ermənistan, Dağıstan, Orta Asiya, İran və s. yerləri kitab yığmaq məqsədi ilə gəzmiş nə qiymətdə olur-olsun mədəniyyət, ədəbiyyat, elm, tarix əsərlərini məhv olmaqdan xilas etmişdir. İndi siz onun ailəsinə bunun əvəzinə nə qədər əvəz versəniz, yenə az olacaq. Şərqşünaslıq institutunun baş elmi işçisi **ƏKRƏM CƏFƏR 5/IV.63-cü il.**

***

Mənə 1920-ci ildən məlumdur ki, bizim məşhur ədəbiyyatşünasımız Mümtaz Salmanın öz xüsusi kitabxanasında çox dəyərli nadir tapılan kitablar və bir çox qədim Şərq şairlərinin əlyazmaları var idi. Təxminən 1933-34-cü illərdə mən Azərnəşrdə işləyərkən Mümtaz Salmanın mənə özü demişdi ki, onda Firdovsinin «Şahnamə»sinin əlyazması, Hafiz Şirazinin «Divan»ının əlyazması, Ürfi Şirazinin «Divan» kitabı, Sədinin «Büstan» və «Gülüstan»ının əlyazmaları vardı. Bunlardan başqa mənə məlumdur ki, Şərq şairlərinin «cüng»lərinin bir neçəsi onda var idi. Bu cür kitablardan S.Mümtazın kitabxanasında mindən çox olardı. Lakin mənim yadımda qalan bunlardır. Bundan başqa bildirmək istəyirəm ki, 1933-cü il Firdovsinin 1000 illiyində S.Mümtaz EA-a Füzulinin bir divanını bəxşiş etmişdir. Həmin «Divan» Füzuli öləndən 16 il sonra (1578-ci ildə) yazılmışdır. Həmin kitablarından onun evində çox

idi, lakin adlarını bilmirəm. Azərbaycan SSR EA-sı respublika əlyazmalar fondunun şöbə müdiri **Fazil Seyidov 26.03.63-cü il.**

***

Bunlardan başqa Əjdər Ələsgərzadə (baş elmi işçi, Azərbaycan SSR EA Şərqşünaslıq İnstitutu mətinşünaslıq və mənbələri nəşretmə şöbəsinin rəhbəri), Cəfər İsmayılzadə, Məmməd Əkbər, Sabit Rəhman, Mir Cəlal, Mehdi Hüseyn, Əli Səbri, M.F.Axundov adına ADPİ-nin Azərbaycan dili və Ədəbiyyatı kafedrasının müdiri, dosent Bağırov Qulam Kərim oğlu, yazıçı-tənqidçi Əkbər Ağayev, Jurnalistlər İttifaqının üzvü Adil Əfəndiyev, Azərbaycan SSR EA Respublika Əlyazmaları fondunun kiçik elmi işçisi Avadyayev Avadyay Aşur oğlu, Az.SSR Xalq rəssamı, İncəsənət elmləri namizədi Lətif Kərimov, Azərbaycan SSR EA müxbir üzvü, professor Feyzulla Qasımzadə, Mirzəağa Quluzadə Yüzbaşı oğlu, və s. sənət adamları siyahıdakı əsərlərin S.Mümtazda olmasını təsdiqləyirlər.

Şəhla xanım bütün süründürməçiliklərə baxmayaraq atasının əlyazmalarını və kitablarını tapmağa səy göstərirdi. O axırıncı dəfə 1989-cu ildə DTK-nın sədri İ.İ.Qorelovskiyə müraciət etdi.

Şəhla xanımın yazdığı ərizəyə baxılıb ona müsbət cavab verilmədi. Azərbaycanın mənəvi sərvətləri olan kitab və əlyazmaların harada olduğundan soraq verən bir kəs tapılmadı.

***

Azərbaycanın Cavid və Cavad, Müşfiq və Seyid Hüseyn, Zeynallı və Xuluflu, Əli Razi və Əli Nazim... itkisi

fərdin, səxsiyyətin, sözün geniş mənasında Azərbaycan ədəbiyyatının itkisi və ağrısıdırsa, onlardan, xüsusilə də Salman Mümtazdan götürülmüş kitablar Şərqin, türk-islam dünyasının faciəsidir. Çünki həmin mənəvi sərvətlər türk və islam xalqlarının, eləcə də bəşəriyyətin ən qiymətli və ən dəyərli malı idi. Bu sərvətlər içərisində «Kitabi-Dədə Qorqud»un yasaq edilməsi xüsusi maraq doğurur. 20-ci illərdə A.Musaxanlı və A.Abid tərəfindən tədqiqata cəlb olunan «Dədə Qorqud» 1937-ci il oktyabrın 9-da S.Mumtazla birlikdə «həbs edildi». Bir qədər sonra isə Akademik Həmid Araslı onu kitab halında cap etdirib geniş oxucu kütlələrinin ixtiyarına verdi və əsər az bir müddət içərisində şöhrət qazandı. Hətta elə bir vəziyyət yarandı ki, «Dədə Qoqud»u başqa bir türk dilli xaıqlarda öz dastanı kimi təbliğ etməyə başladı.

Müharibə illərində «Dədə Qorqud»dakı obrazlar qəhrəmanlıq simvolu kimi təbliğ edildi. Lakin müharibədən sonra, xüsusilə də 1950-1951-ci illərdə ona qarşı hücumlar oldu. Dastan antisovetmillətçi bir əsər kimi tənqid atəşinə tutldu. Azərbaycan K(b) P-nin XVIII qurultayında (1951) M.C.Bağırov özünün hesabat məruzəsində» Dədə Qorqud» kitabı haqqında demişdir: «bəzi ədəbiyyatşünaslar və yazıçılar siyasi sayıqlığını və məsuliyyət hisslərini itrərək uzun müddət ərzində bu təhlükəli, xalqa zidd olan kitabı Azərbaycan dastanı altında təbliğ etmişlər. «Dədə Qorqud» xalq dastanı deyil. O, əvvəldən axıra kimi Azərbaycan torpaqlarına qatil və soyğuncu kimi gəlmiş oğuz köçəri tayfalarını idarə edən yuxarı təbəqələrinə həsr olunub. Kitab büst bütün millətçilik zəhərinə hopturulmuş, o

müsəlmanlara qarşı deyil başqa dinə mənsub olan, əsasən də qardaş gürcü və erməni xalqına qarşı yönəldilmişdir. Bu kitabın nəşr olunması Azərbaycan SSR Elmlər Akademiyası rəhbərlərinin və Ədəbiyyat İnstitunun kobud bir siyasi səhvi hesab edilməməlidir»[337].

Filologiya elmləri doktoru C.X.Hacıyev filologiya elmləri namizədi Mustafa Quluzadə «Literaturnaya qazeta» nın 7 iyul 1951-ci il tarixli sayında «xalqa zidd olan bir kitab haqqında»adlı məqalə ilə çıxış etdilər. Məqalədə deyilir: «Bizim böyük Vətənin bütün xalqları kimi Azərbaycan xalqı da dünya mədəniyyəti xəzinəsini xeyli zənginləşdirmişdir.

Azərbaycan mədəniyyətinin və tarixinin tədqiq edənlərin qarşısında klassik irsin öyrənilməsi və düzgün işıqlandırılması, Azərbaycan ədəbiyyatı tarixi üzrə əsl maksistit, yüksək ediyalı elmi işlərin yaradılması sahəsində mühüm vəzifələr durur lakin bu vəzifələr hələlik zəif həll olunur».[338]

Məqalə müəllifləri göstərirdi ki, ədəbiyyat elmində hələ də keçmişdə təzahür edən mürtəci ədəbiyyatın ideallaşadırılması folklora və bədii əsərlərə marksist yönündən yanaşılmaması, burjua elminin nəticələrinə və iddealarına qeyri-tənqidi münasibət faktları qalmaqdadır. Onlar buna ən parlaq misal kimi «Kitabi-Dədə Qorqud»u göstərir və bildirirdilər ki, bəzi alimlər hər bir cəhdlə bu əsəri Azərbaycan xalqının adına yazmağa çalışırdılar.

---

[337] «Kommunist» qəzeti. 26 may, 1951.

[338] «Literaturnaya qazeta». 7 iyul, 1951.

Onların fikrincə, əsərin əsas qəhrəmanları «Vaxtlarını qarətdə soyğunçuluqda və orda keçirən məşhur feodallar-bəylərdir. Tayfanın başçısı Bayandur Xan-varlı feodaldır; onun kürəkəni Salur Qazan da belə feodallardandır. Bu «qəhrəmanlar» öz var-dövlətlərinin dinc qonşu erməni və gürcü xalqlarını üzərinə vəhşicəsinə hücumu və soyğunçuluğu nəticəsində toplamışlar. Onlar təkcə soyğunçuluq ilə məşqul olmurdular, müsəlman olmayan qonşularını amansızcasına qırırdılar».[339]

Göründüyü kimi M.C.Bağırovun hesabat məruzəsində qoyulmuş tezislər Azərbaycan ziyalıları tərəfindən daha da inkişaf etdirilirdi. Təəccüb doğuran odur ki, rejim daima ermənilərin soyqırımına məruz qalan və bunun çox gözəl bilən Azərbaycan ziyalısına «qonşularını amansızcasına qırırdı» sözlərini öz əli ilə yazdırırdı.

Dastanda təsvir edilən Oğuz qərəmanlarının hamısı-çobandan Qazanadək igid və cəsurdur. Bu qərəmanlar «qaçanı qovmamış, aman diləyəni öldürməmişdir». «Dədə Qorqud» qəhrəmanları heç zaman erməni və gürcüləri qırmamışdır. «Dədə Qorqud» qətrəmanları iki düşmən qüvvəsinə qarşı vuruşurlar. Birincisi, xarici düşmənlər-bunlar Doqquztümən Gürcüstan və Anadolu ərazisində hələ Osmanlı türklərinin ora gəlməsindən qabaqkı Trabzon, Diyarbəkr, Düzmürd və.s. Anadolu təkurlarıdır. İkincisi isə məhz ölkə daxilində, hələ islamiyyəti qəbul etməmiş Albaniya məlikləridir: Qıbçaq məlik, Buqacıq məlik Qara Aslan məlik, Qara təkin məlik Cuni Sandal məlik və.s. Adların-

---

[339] Yenə orada.

dan göründüyü kimi, həmin məliklərin hamısı türk etnik qrupuna daxildir.[340]

Dastanı xalq ruhuna zidd bir əsər hesab edənlər daha çox Qaraca çobanla Salur Qazan arasındakı münasibətləri nəzərdə tutur və qeyd edirdilər ki, kitabda ən zəhmətkeş obraz çobandır, yerdə qalanlar isə feodallar və ağalardır. Feodal-çoban ağa-qul münasibətlərini qabarıq verməklə əsəri süni sürətdə sinfiləşdirərək onun feodalların mənafeyini müdafiə edən bir əsərin olduğunu sübut etməyə çalışırdılar.

Tədqiqatçılar (həm də dövlət rəhbərləri) iddia edirdilər ki, Qazan xan Qaraca çobana öz qulu kimi baxır. Hətta öz ailəsini xilas etməyə gedən Qazana kömək etmək istədikdə belə onun köməyindən imtina edir, onu ağaca bağlayır döyüşə buraxmır.

Oğuz elinin olan qəhrəmanlarından Qazan xanın Qaraca çobanı özü ilə döyüşə aparmaması heç də ona qul kimi baxmaq demək deyil. Əgər o, həqiqətən Qaraca çobana qul kimi baxsaydı nəinki onu döyüşə buraxmazdı bəlkədə daha çox onu qabağa buraxar və «ölsə də qoy qul ölsün» – deyərdi.

Qazan xan öz ailəsini xilas edilməsində Qaraca çobanın iştirakını istəməməsi onun bəylik qürurundan, düşmən üzərinə tək getmək cəsarətindən irəli gəlirdi. Əsərə diqqətlə nəzərə salsaq görərik ki, Qazan xanın düşmən üzərinə tək getməsi onun xarakterindən irəli gəlir. Ümumiyyətlə, Oğuz bəyləri arasında düşmən üzərinə tək ge-

---

[340] Şamil Cəmşidov. «Kitabi Dədə Qorqud», Bakı 1997, səh 5.

dənlərdən o yeganə adam deyildi. O nəinki, Qaraca çobanı, bəzən öz silahdaşlarını da döyüşə buraxmır və özü tək başına vuruşur. Azərbaycanın qəhramanlıq dastanlarında belə hallara tez-tez rast gəlmək olur. Belə ki, Koroğlu da döyüşə gedərkən çox vaxt dəlilərin köməyindən imtina edirdi.

Digər tərəfdən, o, Qaraca çobana qul kimi baxsa, onu incitsə, qədirini bilməsə idi, düşmən Qaraca çobana bəylik təklif edəndə o, onlarla razlaşar, Qazanın məhvinə çalışar və qardaşları ilə birlikdə düşmənə müqavimət göstərməzdi. Deməli, çobanın Qazana sədaqəti, Qazanın çobana sədaqətindən doğur.

«Dədə Qorqud» dastanı qədim Azərbaycan epik təfəkkürünün yadigarıdır. Bu onu dünya xalqlarının məşhur dastanları ilə müqayisə etmək imkanı verən geniş məzmuna və yüksək bədii keyfiyyətə malikdir» sözlərini şübhə altına alan müəlliflər öz fikirlərini belə yekunlaşdırırdı: «Bu kitabın Azərbaycan dastanı altında təbliğ edilməsi bizim ədəbiyyatımıza, tariximizə və dilçiliyimizə ciddi ziyan vurmuşdur.

Bizim xalqın qədim dilinin və qədim xalq yaradıcılığının öyrənilməsi üçün bu dilçilik və ədəbiyyat sahəsində bir sədd olmuşdur. Bizim dilçilərimiz qədim keçmişi tədqiq edərək müasir Azərbaycan dilinin əmələ gəlməsini aydınlaşdırmaq əvəzinə, XI əsrlə kifayətləniblər. Lakin yoldaş Stalinin dahiyanə göstərişlərinə əsaslanaraq qətiyyətlə təsdiq etmək olar ki, müasir Azərbaycan dilinin tarixi kökləri XI əsrdən də xeyli əvvələ gəlib çıxır.

Ədəbiyyatşünaslar və tədris müssisələrinin müəllimləri, bizim mətbuatın qarşısında elmə zidd olan tədqiqatları ifşa etmək məsələsi durur. Bir vaxtlar «Dədə Qorqud» haqqında yazan dilçilər, tarix və ədəbiyyat şünaslar buraxdıqları səhvləri dərindən və axıra kimi dərk etməlidirlər. Bu kitabın vurduğu ziyanların qətiyyətlə kökünü kəsmək vaxtı gəlib çatmışdır.

Bu kitabın nəşri Azərbaycan EA və Ədəbiyyat İnstitutunun rəhbərliyi tərəfindən buraxılmış kobud səhv kimi müzakirə olunmalıdır.

Mədəni irsimizin öyrənilməsində burjua millətçi təhriflərlə yorulmaz mübarizə aparmaq, folklor və ədəbiyyat tarixi sahəsində düşmən antimarksist ideyaların ifşa edilməsi, ədəbiyyat elminə yoldaş İ.V.Stalinin dahiyanə işlərində dilçilik məsələləri üzrə irəli sürülən fikirlərin dərindən öyrənilməsi və tətbiq edilməsi bizim ədəbiyyatşünasların və tənqidçilərin birinci dərəcəli vəzifələridir».[341]

«Dədə Qorqud»a qarşı təqiblər o qədər güclənmişdir ki, vaxtı ilə onu özünün və ya ümumtürk dastanı hesab edən tənqidçi və dövlət rəhbərləri artıq bu əsərdən imtina edirdi. Məsələn, Türkmənistan K(b)P EM-nın katibi O. Şixmuradov «Qorqud Ata» dastanı türkmən xalqına yaddır» adlı məqaləsində yazır: «... Son illər ərzində bir qrup türkmən ədəbiyyat şünasları «Qorqud Ata» kitabını türkmən xalqının qəhramanlıq dastanı kimi səylə təbliğ edirdilər. «Qorqud Ata»nın türkmən xalqına qətiyyən heç bir aidiyyatı yoxdur və ona, onun ruhuna, xarakterinə, adət-ənənə-

---

[341] «Literaturnaya Qazeta». 7 iyul, 1951.

lərinə tamamilə yaddır. «Qorqud Ata» bizim respublikada son 5-6 ildə məşhurlaşıb. «Qorqud Ata»nın məzmunu ilk dəfə Türkmənistan SYB-nin orqanı olan «Sovet ədəbiyyatı» jurnalında 1945 və 1946-cı illərdə dərc olunub. «Sovet ədəbiyyatı» jurnalının keçmiş redaktoru M.Kocayev və professor B.Karrıyev birlikdə «Qorqud Ata»nın «türkmən variantı adlanan kitabını nəşr etdirmişlər. Lakin onlar başa düşmürdülər ki, həqiqətdə isə «Qorqud Ata»nın «türkmən variantı» yoxdur. Hal-hazırda Azərbaycan ictimaiyyəti tərəfindən ifşa olunmuş və Azərbaycan K(b)P MK-nın katibi yoldaş M.C.Bağırovun çıxışında tənqid olunmuş «Dədə Qorqud»u M.Kocayev və B.Karrıyev türkmən dastanı kimi saxtalaşdırmışlar. Saxtakarlar «Dədə Qorqud»un «türkmən variantı» nda olan təcümələrində bəzi sözləri atmış və onları türkmənlərə müvafiq əvəz etmişlər. Məsələn, «Qafqaz» sözü əvəzinə «türkmən variantı» nda «Qazılıq dağı», «Qara dəniz» əvəzinə «Qara çay» və.s.

«Qoqud Ata»nın təbliğ edilməsində Türkmən nəşrin baş redaktoru O.Abdalov da günahkardır. Respublikanın bir qrup ədəbiyyatşünas və dilşünasları «Qorqud Ata»nı böyük səylə təbliğ edirdilər. Ondan hissələr ədəbiyyat jurnallarında, salnamələrdə dərc olunurdu, ədəbiyyat dərsliklərinə daxil edilirdi. 1950-ci ildə M.Kocayev tərəfindən tərtib edilmiş, redaktoru isə B.Karrıyev olan «Qorqud Ata»nın əlyazmasını Türkmən Dövlət Nəşriyyatı dərc etmişdir. Beləliklə bir neçə il türkmən xalqına düşmən olan, özündə pantürkizm və burjua millətçilik ideyalarını birləşdirən bu əsər geniş yayılırdı...

... Hətta partiya mətbuatının «Dədə Qorqud» haqqında çıxışının sonra da M.Kocayev və B.Karrıyev «Dədə Qorqud»dan güya ki, öz prinsipiallığı fərqlənən «türkmən variantı»nın olmasını sübut etməyə çalışırdılar. B.Karrıyev təsdiq edirdi ki, «Qorqud Ata» Orta Asiya şəraitində yaranmış və sonra buradan Qafqaza köçmüş və orda da müxtəlif zərərli qatlarla zibillənmişdir».[342]

Çıxışında O.Şixmuradov türkmən xalqına yad olan «Qorqud Ata»nın təbliğ olunmasında və yayılmasında Respublika Yazıçılar İttifaqının, Türkmən Dövlət Nəşriyyatının, Dil və Ədəbiyyat İnstitutunun, Maarif Nazirliyinin rəhbərlərini siyasi sayıqlıqlarının aşağı olmasında günahlandırmış və onların bir çoxunun cəzalandırmışdır: «Aşqabad partiya fəallarının yiğincağında (fevral 1952), K(b)P-nin XI qurultayında (sentyabr 1951), K(b)P MK-nın plenumunda (yanvar 1953) və başqa yığıncaqlarda «Dədə Qorqud»u Türkmənistanda nəşr edən, onun haqqında araşdırmalar aparan, ümumən qədim türkmən folkloru ilə məşqul olan Məti Kocayev, Baymühəmməd Karrıyev, O.Abdalov, A.Kekilov kimi görkəmli alimlər «xalq düşməni» adlandırıldı».[343]

Ədalət naminə demək lazımdır ki, Azərbaycanda «Kitabi-Dədə Qorqud» u nəşr etdirən, tədqiqat aparanlar və onun motivləri əsasında bədii əsər yazanlar tənqid atəşinə tutulsalar da həbsxana künclərinə atılmadılar. Hətta onlar içərisində bu dastanın Azərbaycan xalqına məxsus olma-

---

342 «Literaturnaya qazeta». 27 oktyabr, 1951.
343 «Azadlıq» qəzeti. 21 may, 1999.

dığını etiraf etməyənlər də tapıldı. Ona görə də həmin sənət adamları dövrünün tənqidçiləri tərəfindən «burjua millətçiliyi qalıqlarının ayrı-ayrı ədəbiyyatşünaslarımızın, xüsusən, qədim və orta əsr ədəbiyyatı ilə məşğul olan alimlərimizin elmi fəaliyyətinin» axıradək ifşa olunmaması kimi qiymətləndirildi. C.X.Hacıyev yazırdı: «yalnız bunu demək kifayətdir ki, «Kitabi-Dədə Qorqud» və ədəbiyyat tariximizin problematik məsələlərinin həllində səhvlər buraxan Ə.Dəmirçizadə, H.Araslı, M.Rəfili, F.Qasımzadə və başqa yoldaşlar hələlik öz yeni əsərlərində bu nöqsanlarda necə uzaqlaşdıqlarını geniş oxucu kütlələrinə bildirməmişlər».[344]

Əslində Cəfər Xəndan Hacıyevin bu fikirləri öz qaynağını Azərbaycan yazıçılarının may ayında keçirdiyi ümumi yığıncaqda səslənən aşağıdakı sözlərdən ağırdı: «Yazıçılardan M.İbrahimov və S.Vurğun özlərinin bir sıra məqalələrində və çıxışlarında «Kitabi-Dədə Qorqud» eposunun Azərbaycan xalqının qədim ədəbi abidəsi kimi tərifləmişlər. Lakin M.İbrahimov, S.Vurğun, M.Rzaquluzadə, M.Rəfili və başqaları yığıncaq qarşısında öz səhvlərini etiraf etdikləri halda Həmid Araslı səmimi danışmamış, tənqiddən boyun qaçırmağa və öz kobud səhvlərini malalamağa cəhd etmişdir».[345]

Digər tərəfdən, C.X.Hacıyevin məqaləsini cap etdirdiyi «Ədəbiyyat» qəzetinin 5 iyun 1951-ci il tarixli sayında «Ədəbiyyatşünaslığımızın bəzi məsələləri haqqında» baş-

---

[344] «Ədəbiyyat» qəzeti. 17 avqust, 1951, №23.

[345] «Ədəbiyyat» qəzeti. 5 may, 1951, №13.

lıqlı yazıda Mikayıl Rəfili «Bu xüsusda ciddi səhvlər buraxdığını və bu feodal eposunu idealizə etdiyini» etiraf edir, H.Araslı, Ə.Dəmirçizadə, M. Rzaquluzadə və başqalarını tənqid atəşinə tuturdu: «İlk dəfə «Kitabi-Dədə Qorqud»u Həmid Araslı nəşr etmiş və bu barədə məqalə yazmışdır. H.Araslının ən böyük səhvi burdadır ki, «Kitabi-Dədə Qorqud»un dilini süni bir şəkildə dəyişmiş, saxtakarlıqla məşğul olmuşdur. əsərin rusca capı da 1949-cu ildə H.Araslı və M.Təhmasibin tərtibi ilə nəşr edilmişdir. M Rzaquluzadə isə «Kitabi-Dədə Qorqud» motivlərindən ruhlanaraq zərərli, süni və uydurma hekayələr yazmış və onu yaymaqda cafəşanlıq göstərmişdir. Ə.Dəmirçizadə kitablarında və dil tarixinə aid məqalələrində «Kitabi-Dədə qorqud»u Azərbaycan dilinin kökü, bünövrəsi kimi götürməklə kifayətlənməyərək «Qaraca Çoban» adı ilə zərərli bir pyes yazmışdır Əli Sultanlı da Azərbaycan Pedaqoji İnstitutunun «əsərləri»ndə bu feodal eposunu «tipik bir qəhramanlıq dastanı» kimi qələmə vermişdir. Hətta, o, belə bir elmi nəticəyə gəlmişdir ki, «Bu qədim Azərbaycan dastanı epik, lirik, drama ədəbi növlərini özündə birləşdirmişdir». Əli Sultanlı dramının başlanğıcını belə, «Kitabi-Dədə Qorqud» da axtarır».[346]

Beləliklə də, Moskvanın göstərişinə əsasən respublika başçıları səviyyəsində tənqid atəşinə tutulan 1300 yaşlı «Dədə Qorqud» «zərərli» bir əsər kimi 1951-ci ildə yasaq edildi. Maraqlıdır ki, «Dədə Qorqud»un yasaq edilməsində ən çox maraqlı olanlardan biri də ermənilər idi. Bunun

[346] «Ədəbiyyat» qəzeti. 5 iyun, 1951, №16.

əsas səbəbi «Kitabi-Dədə Qorqud»da Oğuz elinin sərhədlərinin tam aydın göstərilməsi idi. Dastanda oğuzların Gürcüstanla həmsərhəd olduğu göstərildiyi halda bu gün ermənilərin məskunlaşdığı ərazilərdə onların yaşamadığı göstərilirdi. Bu da ermənilərin həyata keçirmək istədikləri «Böyük Ermənistan» ideyasının istər o, istərsə də sonrakı illərdə reallaşmasına mane olurdu. Ona görə də onlar Azərbaycan xalqının tarix, coğrafiya, fəlsəfə, psixologiya, ədəbiyyat, dövlətçilik, əxlaq, hüquq və s. dərsliyi olan bu mənəvi sərvəti hər vəchlə ədəbi bədii səhnədən çıxarmağa çalışırdılar. Onlar buna cəhd etsələr də məqsədlərinə nail ola bilmədilər.

***

Represiya yalnız tarixi, ictimai-siyasi aksiya deyil, eyni zamanda astrologiya ilə əlaqəsi olan bir hadisədir. Belə ki, təbiətdə baş verən hadisələr cəmiyyətə, ayrı-ayrı planetlərə, qalaktikada, kainatda baş verən astroloji dəyişikliklər isə həm cəmiyyətə, həm də təbiətə təsir edir. Məsələn, kometalar toqquşanda zərər çəkən təkcə kosmos yox, həm də yer planetinin özü olur. Biz burada mövzuya uyğun olaraq günəş sisteminin aktivliyi və onun sovet məkanında, xüsusilə, Azərbaycanda repressiv aksiyaların keçirilməsi zamanı insan taleyində buraxdığı izlərdən bəhs açmaq istərdik. Məlumdur ki, Kopernik helyosentrik sistemi kəşf edib. Onun fikrincə, Yer kainatın mərkəzi deyil. Buna qərbdə «kosmik kəşf» deyirlər. Darvin sübut etməyə çalışmışdır ki, insanın əcdadı heyvan - meymundur. Buna «bioloji kəşf» deyirlər. Freyd öz təlimi ilə sübut edirdi ki, insan nəinki xarici aləmdə, hətta öz daxilində baş verən ha-

disələri bütün təfərruatı ilə dərk edə bilməz. Buna «psixoloji kəşf» deyirlər. Çijevskinin fikrincə isə kainat özü bir orqanizmdir, orada baş verən hər hansı bir dəyişiklik orqanizmə eyni dərəcədə təsir edir. O, özünün «Физические факторы исторического процесса» (1924) kitabında günəş aktivliyinin tarixi hadisələrə təsiri problemini tədqiq edir və belə nəticəyə gəlir ki, günəş aktivliyinin tam silsiləsinin sosial-psixoloji xarakteristikasının dörd mərhələyə bölmək olar.

1.Tariximetrik silsiləsinin birinci – minimal oyanma dövrü. Bu dövrün xarakterik cəhətləri aşağıdakılardır: kütlələrin vəhdətsizliyi, siyasi və hərbi məsələlərə laqeydsizliyi, sülhsevər əhval-ruhiyyəsi, güzəştə getmək, dözümlük və.s.

Biz SSRİ-dəki siyasi repressiyaları vahid orqanizm kimi qəbul etsək görərik ki, Çijevskinin bölgüsü ilə bu hadisələr tam olmasa da, bu və ya digər dərəcədə uyğun gəlir. Məlumdur ki, repressiyalarda əsas məqsəd Azərbaycan Demokratik Respublikasının sovetləşmə illərində bərpasına mane olmaq, bu ideyanın daşıyıcıları olan mütəfəkkir şəxsiyyətləri məhv etməkdən ibarət idi. Sosializm quruculuğu illərində istiqlaliyyəti uğrunda mübarizə aparan qüvvələr pərakəndə də olsa, istər mühacirətdən, istərsə də daxildən müqavimət göstərərək mübarizə aparmışdır. Həmin illərdə günəşin aktivliyi aşağıdakı kimi idi.

| | | | | | | | |
|---|---|---|---|---|---|---|---|
| **1921** - | 31.5 | 28.3 | 26.7 | 32.4 | 22.2 | 33.7 | 41.9 |
| | 22.8 | 17.8 | 18.2 | 17.8 | 20.3 | | |
| **1922** - | 11.8 | 26.4 | 54.7 | 11.0 | 8.0 | 5.8 | 10.9 |
| | 6.5 | 4.7 | 6.2 | 7.4 | 17.5 | | |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| **1923** - 4.5 | 1.5 | 3.3 | 6.1 | 3.2 | 9.1 | 3.5 |
| 0.5 | 13.2 | 11.6 | 10.0 | 2.8 | | |
| **1924** - 0.5 | 5.1 | 1.8 | 11.3 | 20.8 | 24.0 | 28.1 |
| 19.3 | 25.1 | 25.6 | 22.5 | 16.5 | | |
| **1925** - 5.5 | 23.2 | 18.0 | 31.7 | 42.8 | 47.5 | 38.5 |
| 37.9 | 60.2 | 69.2 | 58.6 | 98.6 | | |

Bu illərdə repressiyaya məruz qalanlar da ikinci mərhələyə nisbətdə olduqca az idi. Belə ki, 1920-ci ildə 142, 1921-ci ildə 88, 1922-ci ildə 134, 1924-cü ildə 59, 1925-ci ildə 15 nəfər qətlə yetirilmişdir. Bundan başqa, baş verən üsyanlar zamanı da yüzlərlə adam güllələnmişdir. Eyni zamanda bütün partiyaların fəaliyyəti dayandırılmış və vahid partiya (Kommunist Partiyası), vahid əl, hegemon qüvvə kimi fəaliyyətə başlamışdır.

2. Tariximetrik silsilənin ikinci – oyanmanın inkişaf dövrü. Bu dövr psixoloji və tarixi mürəkkəbliklər dövrü kimi xarakterizə olur. Artıq bu dövrün əvvəllərində kütlələrin tam oyanma olmasa da, əhəmiyyətli dərəcədə oyanması prosesi başlayır. Minimal oyanma dövründə dağılmış partiya və qruplar yenidən yaranmağa başlayır, başçılar və proqramlar (gizli şəkildə olsa da) müəyyən olunur. Siyasi və hərbi məsələlər get-gedə kəskinləşir. Çijevski ikinci dövr ərzində inkişafa uyğun olaraq üç başlıca fazanı fərqləndirir: a) kütlələrdə ideyaların yaranması; b) ideyaların qruplaşması; c) üçüncü dövrün başlanğıc anında bir əsas ideyanın üzə çıxması.

Repressiv aksiyaların bu mərhələsində həqiqətən də tam oyanma olmasa da, siyasi təşkilatlanma, kütlələrin müəyyən qismin vahid ideya ətrafında birləşdirmək meyl-

ləri gücləndi. Cümhuriyyətin bərpası uğrunda mübarizə gücləndikcə irslə varis, yaddaşla çağdaş dövr arasındakı əlaqə və bağları qırmaq, total repressiya maşınını daha güclü şəkildə işə salmaq prosesi də sürətləndirildi. Maraqlıdır ki, bu illərdə günəşin aktivliyi əvvəlki illərə nisbətdə daha da artdı.

**1934** - 3.4 7.8 4.3 11.3 19.7 5.7 9.3 8.3 4.0 5.7 8.7 15.4

**1935** - 19.6 20.5 23.1 12.2 27.3 45.7 33.9 30.1 42.1 53.2 64.2 61.5

**1936** 62.8 74.3 72.2 74.9 54.6 70.0 52.3 87.0 76.0 89.0 115.4 123.4

**1937** -132.5 128.5 83.9 109.3 116.7 130.3 145.1 137.7 100.7 124.9 74.4 88.8

**1938** - 98.4 119.2 86.5 101.0 127.4 97.5 165.3 115.7 89.6 99.1 122.2 92.7

**1939** - 80.3 77.4 64.6 109.1 118.2 101.0 97.6 105.8 112.6 88.1 68.1 42.1

Göründüyü kimi, günəşin aktivliyi 1934-1936-cı illərdə tədricən artan xəttlə gedir, 1937-1938-ci illərdə birdən-birə yüksəlir və 1939-cu ildə nisbətən aşağı düşür. Həmin illərdə repressiyaya məruz qalanların da sayı artır: Apardığımız təxmini hesablamalara görə 1934-1939-cu illərdə Azərbaycanda 27458 nəfər güllələnmişdir ki, onun da böyük əksəriyyəti (təxminən 23 mini) 1937-1938- ci illərə təsadüf edir.

Repressiv aksiyaların tərkib hissələrindən biri olan deportasiyalar zamanı günəş aktivliyi yüksəlir. Azərbaycanlılar özlərinin ata-baba yurdundan, başqa sözlə Vətəndən

Vətənə deportasiya olunur. Həmin illərdəki günəş aktivliyinə fikir verək.

**1946** - 47.6 86.2 76.6 75.7 84.9 73.5 116.2 94.4 102.3 123.8 121.7

**1947** - 115.7 133.4 129.8 149.8 201.3 163.9 157.9 188.8 169.4 163.6 128.0 116.5

**1948** - 108.5 86.1 94.8 189.7 174.0 167.8 142.2 157.9 143.3 136.3 95.8 138.0

**1949** - 119.1 182.3 157.5 147.0 106.2 121.7 125.8 123.8 145.3 131.6 143.5 117.6

**1950** - 101.6 94.8 109.7 113.4 106.2 83.6 91.0 85.2 51.3 61.4 54.8 54.1

**1951** - 59.9 59.9 55.9 92.9 108.5 100.6 61.5 61.0 83.1 51.6 52.4 45.8

**1952** - 40.7 22.7 22.0 29.1 23.4 36.4 39.3 54.9 28.2 23.8 22.1 34.3

**1953** - 26.5 3.9 10.0 27.8 12.5 21.8 8.6 23.5 19.3 6.2 1.6 2.5

**1954** - 0.2 0.5 10.9 1.8 0.8 0.2 4.8 8.4 1.5 7.0 9.2 7.6

3. Tariximetrik silsilənin üçüncü – maksimal oyanma dövrü. Bu hər bir silsilənin inkişafı, bəşəriyyətin ümumdünya – tarixi problemləri həll edən və yeni tarixi dövrün əsasını qoyan başlıca mərhələdir. O, bəşəriyyəti nəhəng ağılsızlıqlar və nəhəng yaxşılıqlar etməyə həvəsləndirir: o, ideyaları qan tökmək yolu ilə həyata keçirir. Bu dövrdə iri inqilablar və xalqların nəhəng şəkildə toqquşmaları baş vermiş, bununlada bəşəriyyət tarixində yeni dövr başlamışdır. Biri digərindən uzaqlaşan iki cismin – günəş və be-

yin materiyasının fəaliyyətinin paralelizmi bu dövr ərzində xüsusi şəffaflıq və əyaniliklə üzə çıxır. Üçüncü dövrdə baş vermiş hadisələrin tədqiqi bir sıra faktorları müəyyən etməyə imkan yaradır: 1) kütlələrin birləşməsi; 2) başçıların, sərkərdələrin, dövlət xadimlərinin irəli sürülməsi; 3) kütlələr tərəfindən dəstəklənən ideyaların qələbəsi; 4) parlamentarizmin maksimal inkişafı; 5) demokratik və sosial reformalar; 6) təkhakimiyyətliliyin məhdudlaşdırılması və xalq hakimiyyəti; 7) üsyanlar, qiyamlar, iğtişaşlar, inqilablar; 8) müharibələr, yürüşlər, ekspedisiyalar; 9) emmiqrasiya, təqiblər və.s.

Bu mərhələni təxminən Azərbaycanda 1985-ci ildən sonra baş verən hadisələrlə müqayisə etmək olar. 1988-1990-cı illərdə kütlələrin maksimum oyanması və bir ideya mərkəzində xalq hərəkatı şəklində birləşməsi prosesi gedir. Millət 20-ci illərdə pərakəndə şəkildə qaldırdığı problemləri vəhdətdə həll etməyə çalışır. Onlar artıq təkhakimiyyətliliyə son qoyulması, müstəqillik və dövlətçilik uğrunda mübarizəyə qalxır. Azərbaycanın mübariz oğulları 20 yanvar qırğınları zamanı yenidən imperiyanın repressiya maşınlarının altında qalır. Bununla hadisələr başa çatmır. Qarabağ müharibəsi başlayır və imperiya yenə də istiqlaliyyət uğrunda mübarizəyə qalxan xalqı silahla yerinə oturtmağa, yaratdığı dövləti yenidən əsarəti altına almağa çalışır. 1985-1993-cü illərdə günəşin aktivliyinə fikir verək:

**1985**-16.5 15.9 17.2 16.2 27.5 24.2 30.7 11.1 3.9 18.6 16.2 17.3

**1986**-2.5 23.2 15.1 18.5 13.7 1.1 18.1 7.4 3.8 35.4 15.2 6.8

**1987**-10.4 2.4 4.7 39.6 33.0 17.4 33.0 38.7 33.9 60.6 39.9 27.1

**1988**-59.0 40.0 76.2 88.0 60.1 101.8 113.8 111.6 120.1 125.1 125.1 179.2

**1989**-161.3 165.1 131.4 130.6 138.5 196.2 126.9 168.9 176.7 169.4 173.01 65.5

**1990**-177.3 130.5 140.3 132.2 105.4 149.4 200.3 125.2 145.5 131.4 129.7

**1991**-136.9 167.5 141.9 140.0 121.3 169.7 173.7 176.3 125.3 144.1 108.2 144.4

**1992**-150.0 161.1 106.7 99.8 73.8 65.2 85.7 64.5 63.9 88.7 91.8 82.6

**1993**-59.3 91.0 69.8 62.2 61.3 49.8 57.9 42.2 22.4 56.4 35.6 48.9

Göründüyü kimi, 1988-ci ildən günəşin aktivliyi getdikcə artır və artdıqca da yeni-yeni faciələr qeydə alınır. 1993-cu ildən sonra isə aktivlik aşağı düşür. Bununla da dördüncü mərhələ başalyır.

4. Tariximetrik silsilənin dördüncü - oyanmanın aşağıdüşmə dövrü (deqradatsiya). Oyanmanın aşağıdüşmə dövrü psixoloji – tarixi baxımdan əvvəlki dövrlərdən heç də az maraqlı deyil. O da iri hadisələrlə zəngindir, lakin bu dövrdə yalnız əvvəllər baş vermiş hadisələr başa çatır.

Bu mərhələdə günəşin aktivliyi nisbətən normal olduğundan cəmiyyətdə proseslər bir qədər sakit, sülh şəraitində keçir.

**1994**- 57.8 55.5 31.7 16.1 17.8 28.0 35.1 22.5
25.7 44.0 18.0 26.2

**1995**- 24.2 29.9 31.1 14.0 14.5 15.6 14.5
14.3 11.8 21.1 9.0 10.0

Deyilənlərdən belə nəticəyə gəlmək olar ki, həqiqətən də kainatda baş verən hadisələrin təbiət və cəmiyyət hadisələrinə bu və ya digər dərəcədə təsir vardır. Deməli, günəş aktivliyi yüksəldikcə repressiyalar da güclənir.

# N Ə T İ C Ə

Aparılan tədqiqatlardan aşağıdakı nəticələrə gəlmək mümkündür:

1. Azərbaycan xalqı milli istiqlal savaşına qədim zamanlardan qoşulmuş, çar və sovet Rusiyası dövründə imperiyanın irticaçı siyasətinə dözməyərək mübarizəsini daha da gücləndirmiş, həm elmi, həm də bədii əsərlərdə bu məsələlər bu və ya digər dərəcədə işıqlandırılmış və öz təsir gücünü göstərmişdir. Milli mətbuatın, teatrın, siyasi partiyaların yaranması, inkişafı xalqın maariflənməsi və ictimai-siyasi fəallığı Azərbaycan Demokratik Cümhuriyyətinin yaradılması ilə nəticələnmişdir.

2. Azərbaycan Demokratik Cümhuriyyətinin süqutundan sonra - bolşevikləşmə illərində də «türkləşmək, islamlaşmaq, müasirləşmək» idealı uğrunda mübarizə aparan siyasi xadimlərin, mütəfəkkir şəxsiyyətlərin, yaradıcı adamların «sovet mülkiyyətinə» çevrilməsi istiqamətində xeyli təbliğat aparılmış, lakin onları öz yollarından həbs, təqib, təzyiq, sürgün, ölümlərlə də döndərə bilməmişlər. Bu mübarizə metodu yalnız şəxsiyyətlərə qarşı yox, eyni zamanda milli-mənəvi sərvətlərə qarşı da yönəlmişdir.

Total rejim ədəbi nəsillər arasında bölgü aparmış, yeni nəsillə gənc nəsli üz-üzə gətirmiş, onlar arasında qarşıdurma, münaqişə yaratmış və axırda hər ikisini məhv etmək istəsə də buna nail ola bilməmişdir.

3. Repressiyalar daha çox kütləvilik təşkil edən sahələrə tətbiq edilmişdir. Belə ki, teatr əsərləri («Ölülər», «Şeyda», «Şeyx Sənan», «Aydın» və s.) ədəbi məhkəmələrə verilmiş, həmin ədəbi məhkəmələr tamamilə siyasi məqsəd daşıdığından bədii əsərin üslubu, metodu, yazıçının ideyası nəzərə alınmadan, hər hansı bir obraz yeni cəmiyyətin tələbləri ilə uyğun gəlmədiyin-

dən ittiham edilmişdir. Əsas məqsəd isə yeni nəsli sovet ədəbiyyatı və «sosialist realizmi» ətrafında birləşdirmək və onun məddahına çevirmək olmuşdur.

4. Teatr sahəsində də millətçi ünsürlər axtarılmış, Əli Kərimov, Əhməd Triniç, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb kimi görkəmli şəxsiyyətlər güllələnmiş, Kazım Ziya Kazımzadə isə təqiblərə məruz qalmış, bir sözlə, sovet hökuməti ona da sərt üzünü göstərə bilmişdir.

5. 20-50-ci illərdə kommunistlərin, xüsusilə də, pionerlərin və komsomolçuların əli ilə islami dəyərlərə və adət-ənənələrə ciddi zərbələr vurulmuş, din xadimləri, mollalar həbs və sürgün edilmiş, məscid və mədrəsələr ambarlara çevrilmişdir. İctimai həyatda irəli sürülən bu mürtəce siyasət ədəbiyyata da təsirsiz qalmamış, artıq dini xurafat, dindəki neqativ hallar yox, bütövlükdə dinin özü tənqid hədəfinə çevrilmişdir. Bolşevik ideologiyası bütün bunlarla xalqı dünənindən ayırmağa, ədəbi əlaqələri qırmağa səy göstərmişdir.

6. «Sosialist mülkiyyətinə» çevrilmək istəməyən sənət adamları müxtəlif dərəcədə fiziki və mənəvi repressiyalara məruz qalmış, onların ailə üzvləri və tanışları sürgün olunmuş, əsərləri isə zərərli ədəbiyyat kimi yasaq və ya məhv edilmişdir. Siyasi repressiyalara ayrı-ayrı fərdlər, - «vətən xainləri», şahidlər, üzləşmədə iştirak edənlər, danos yazanlar və yazmayanlar yox, bütövlükdə xalq məruz qalmışdır.

7. İndiyədək ədəbiyyatşünaslıqda sübut etməyə çalışmışlar ki, repressiyaya məruz qalan şəxsiyyətlərin heç bir günahı olmamış, onlar sovet cəmiyyətinin təbliğatçıları olmuşlar. Belə çıxır ki, Azərbaycanda müstəqillik uğrunda mübarizə «28 aprel» gecəsi dəfn edilmiş, hamı bir nəfər kimi, yeni cəmiyyəti alqışlamış, əsarətə, irticaya, zülmə boyun əymişdir. Monoqrafiyada ilk dəfə olaraq həmin şəxsiyyətlərin «günahı» sübut olunur və göstərilir ki, onların bir çoxu həqiqətən xalqın azadlığı və müstəqil-

liyi uğrunda mübarizə aparmışlar. Lakin onlara qarşı seçilən mübarizə metodu demokratik yox, tamamilə diktator metod olmuşdur.

8. Azadlıq və istiqlal savaşına qoşulanlarla yanaşı kommunist partiyasının üzvü olan yazıçı və tənqidçilərin repressiyaya məruz qalması 20-50-ci illərin sərt rejimi (zaman amili) nəzərə alınmadan öyrənildiyindən, onlar haqlı, haqsız olaraq tənqid atəşinə tutulmuşdur. Bu gün əsas vəzifə güllələnmiş kommunisti yenidən güllələmək yox, ümumiyyətlə xalqı repressiyaya məruz qoyan, belə bir tragik-dramatik vəziyyətə salan rejimi, sistemi, onun irticaçı simasını açmaqdan ibarət olmalıdır. Unutmaq olmaz ki, kommunistlərin böyük əksəriyyəti bolşevik vədinə inanmış, imperiyanın yırtıcı simasını görməmiş, sonradan isə öz aldanışını dərk etmiş və əsərləri ilə gizli şəkildə də olsa müstəqillik və azadlıq uğrunda mübarizəyə qoşulmuşlar. Digər bir tərəfdən onların güllələnməsində mərkəzdən (Moskvadan) dəstək alan və tarixi düşmənçiliklərini davam etdirən ermənilər də az rol oynamamışlar.

9. Ədəbiyyat tarixçiliyinə və kitab mədəniyyətinə qarşı ciddi hücumlar olmuş, Şərqin mənəvi sərvətləri yandırılmış, bununla da irs-varis əlaqəsini qırmağa, məhv etməyə çalışmışlar.

10. Repressiyaya məruz qalan yazıçı və şairlər, bir sözlə, sənət adamları «xalq düşməni», «vətən xaini», «pantürkist», «panislamist», «əksinqilabçı»... elan edildiklərindən, onların həbs olunmalarının səbəbləri kimi, ölüm tarixləri də gizlədildiyindən tədqiqatçılar həmin şəxsiyyətlərin həbs edildiyi ili ölüm ili kimi qəbul etmək məcburiyyətində olmuşlar. Bunları təshih etmək məqsədilə monoqrafiyada repressiyaya məruz qalmış yazıçı və şairlərin ölüm tarixləri dəqiqləşdirilmişdir.

11. Oğuz türklərinin tarixini və taleyini özündə ehtiva edən «Dədə Qorqud» dastanının türklərə aidiyyatı olmadığı dövlət rəsmiləri səviyyəsində qaldırılsada buna nail olmadılar. Hadi-

sələrin inkişaf dinamikası bir daha göstərdi ki, xalqın yaratdığı və yaşadığı milli mənəvi dəyərləri onun əiindən almaq olmaz.

12. Tədqiqatlar göstərdi ki, qalaktikada özlüyündə vahid vücuddur. İnsan bədəninin hər hansı bir nahiyəsinə dəyən zərbənin ağrısını bütün vücud yaşayır. Deməli, günəş aktivliyinin repressiyalara təsiri də danılmazdır.

Hadisələrin sonrakı inkişafı və Azərbaycanın yenidən müstəqillik əldə etməsi bir daha göstərdi ki, imperiyanın yeritdiyi repressiya, deportasiya və genosid siyasəti illər və nəsillər arasındakı varislik əlaqəsini qıra, bu xalqın içində yaşatdığı azadlıq ideyalarını məhv edə bilməmişdir.

Deyilənlərdən aydın olur ki, 20-50-ci illər ədəbiyyatı belə bir ağır yol keçmiş və tez-tez milli oyanışı ilə yad edilən 60-cılar və sonrakı nəsillər həmin ədəbiyyatın köynəyindən çıxmışdır.

**Bakı şəhəri, 1999-cu il.**

# İSTİFADƏ OLUNMUŞ Ə D Ə B İ Y Y A T

## Arxiv materialları


1. Azərbaycan Əlyazmaları İnstitutu, FR-544/3577
2. AR SPİHMDA, f.1, siy. 1, iş 8.
3. MTN-in arxivi. Abbas Mirzə Şərifzadənin istintaq qovluğu, PR - №16641.
4. MTN-in arxivi. Atababa Musaxanlının istintaq qovluğu, PR - №23294.
5. MTN-in arxivi. Aydın Axundzadənin istintaq qovluğu, 1937-ci il, PR - №8094.
6. MTN-in arxivi. Balacaxanım İsmayılzadənin istintaq qovluğu, PR - №28895.
7. MTN-in arxivi. Bəhlul Behcətin istintaq qovluğu, PR - №30693.
8. MTN-in arxivi. Bəkir Çobanzadənin istintaq qovluğu, PR - №26926.
9. MTN-in arxivi. Böyükağa Talıblının istintaq qovluğu, PR - №27076.
10. MTN-in arxivi. Dilbər Axundzadənin istintaq qovluğu, PR - №15029.
11. MTN-in arxivi. Əhməd Cavadın istintaq işi, 1923, PR - №20942.
12. MTN-in arxivi. Əhməd Cavadın istintaq qovluğu, 1937, PR - №22316.
13. MTN-in arxivi. Əhmədov Əlabbas Müznibin istintaq qovluğu, PR - №30749
14. MTN-in arxivi. Əhmədova Nafiyənin istintaq qovluğu, PR - №3975.
15. MTN-in arxivi. Əlabbas Müznibin istintaq qovluğu, PR - №25082.

16. MTN-in arxivi. Əli Kərimovun istintaq qovluğu, PR - №12493.

17. MTN-in arxivi. Əli Razi Şamçızadənin istintaq qovluğu, PR - №11387

18. MTN-in arxivi. Əli Razi Şamçızadənin istintaq qovluğu, PR - №29861

19. MTN-in arxivi. Əmin Abidin istintaq qovluğu, PR - №32796.

20. MTN-in arxivi. Firidun Köçərlinin istintaq qovluğu, PS - №12206.

21. MTN-in arxivi. Hacı Kərim Sanılının istintaq qovluğu, 1924, PR - №20888.

22. MTN-in arxivi. Hacı Kərim Sanılının istintaq qovluğu, 1937, PR - №25606.

23. MTN-in arxivi. Hacıbaba Nəzərlinin istintaq qovluğu, PR 12493, PR - №23583.

24. MTN-in arxivi. Hənəfi Zeynallının istintaq qovluğu, PR - №26385.

25. MTN-in arxivi. Hüseyn Cavidin istintaq qovluğu, PR - №18845.

26. MTN-in arxivi. Xuluflu Fatmanın istintaq qovluğu, PR - №26117.

27. MTN-in arxivi. İdris Axundzadənin istintaq qovluğu, PR - №32001.

28. MTN-in arxivi. Kazımzadə Kazım Ziyanın istintaq qovluğu, PR - №11722.

29. MTN-in arxivi. Qafur Əfəndiyevin (Qantəmir) istintaq qovluğu, PR - №23199.

30. MTN-in arxivi. Məhəmməd Bağırzadə Biriyanın cinayət istintaq işi, PR - №42268.

31. MTN-in arxivi. Məmmədkazım Ələkbərlinin istintaq qovluğu, PR - №25533.

32. MTN-in arxivi. Mikayıl Müşfiqin istintaq qovluğu, PR - №22290.

33. MTN-in arxivi. Mir Cəfər Bağırovun istintaq qovluğu. PF - №473.

34. MTN-in arxivi. Mustafa Quliyevin istintaq qovluğu, PR - №12493.

35. MTN-in arxivi. Niyazi Axundzadənin istintaq qovluğu, 1937-ci il, PR - №8084

36. MTN-in arxivi. Ömər Faiqin istintaq işi, PR - №26592.

37. MTN-in arxivi. Ruhulla Axundovun istintaq qovluğu, PR - №16629.

38. MTN-in arxivi. Ruqiyyə Çobanzadənin istintaq qovluğu, PR - №17259.

39. MTN-in arxivi. Rzaqulu Nəcəfovun istintaq qovluğu, PR - №22897.

40. MTN-in arxivi. Salman Mümtazın istintaq işi. PR - №25082.

41. MTN-in arxivi. Seyid Hüseynin istintaq qovluğu, PR - №23430.

42. MTN-in arxivi. Səyyarə Zeynallının istintaq qovluğu, PR - №16599.

43. MTN-in arxivi. Sultan Məcid Qənizadənin istintaq qovluğu, PR - №25450.

44. MTN-in arxivi. Şükrüyyə Axundzadənin istintaq qovluğu, 1937, PR - №17740.

45. MTN-in arxivi. Tağı Şahbazinin istintaq qovluğu, PR - №24690.

46. MTN-in arxivi. Ülvi Rəcəbin istintaq qovluğu, PR - №7783.

47. MTN-in arxivi. Ümmügülsüm Sadıqovanın istintaq qovluğu, PR - №8816.

48. MTN-in arxivi. Vəli Xuluflunun istintaq qovluğu, PR - №25014.

49. MTN-in arxivi. Yusif Vəzir Çəmənzəminlinin istintaq qovluğu, PR - №16870.

50. MTN-in arxivi. Zümrüd Şamçızadənin istintaq qovluğu, PR - №27978.

51. MTN-in arxivi. PR - №8816.

52. MTN-in arxivi. PS - №12206.

53. MTN-in arxivi. P - №297.

54. MTN-in arxivi. P - №37.

55. MTN-in arxivi. P - №15.

56. MTN-in arxivi. P - №44.

## Elmi və bədii kitablar

1. Azərbaycan cümhuriyyəti. «Elm» nəşriyyatı, Bakı, 1990.

2. «Ağ ləkələr» silinir» (tərtibçi Osman Mirzəyevdir). Azərbaycan Dövlət Nəşriyyatı, Bakı, 1991.

3. Axundzadə D. Müşfiqli günlərim. Bakı, «Gənclik» nəşriyyatı, 1968.

4. Azərbaycanın didərgin salınmış övladı şair Almas İldırım şeirləri ilə (tərtib edən Hacı Hacıyev). Bakı, 1990.

5. Babayev N. Ədəbi mübahisələr. Bakı, «Yazıçı» nəşriyyatı, 1986.

6. Böyükağa Talıblı. Seçilmiş əsərləri (tərtib edəni Əzizağa Məmmədov). Bakı, «Yazıçı» nəşriyyatı, 1983.

7. Bünyadov Z. Qırmızı Terror. «Azərbaycan Dövlət Nəşriyyatı», Bakı, 1993.

8. Cabbarlı C. Seçilmiş əsərləri. 4 cilddə. 2-ci cild. Bakı, «Yazıçı» nəşriyyatı, 1983.

9. Cabbarlı C. Ədirnə fəthi (tərtib edəni filologiya elmləri namizədi Asif Rüstəmli). Bakı, «Elm» nəşriyyatı, 1996.

10. «Can sözdür, əgər bilirsə insan...». (məqalələr məcmuəsi). Bakı, «Qorqud» nəşriyyatı, 1997.

11. Cavidi xatırlarkən. Bakı, 1986.

12. Cəfəroğlu Ə. Almaniyada Azərbaycan istiqlal bayramının qeyd edilməsi. İstanbul, AT, 1928.

13. Cəfəroğlu Ə. Azəri ədəbiyyatında istiqlal mübarizəsi. İstanbul, Azərbaycan yurd bilgisi (AUB) tədqiqləri, 1932.

14. Cəfəroğlu Ə. Əsir türk elləri mühacirlərinin Cümhuriyyətin onuncu ilinin təsitləri. İstanbul, AUB. II, 1933.

15. Cəfəroğlu Ə. Sovet - Rusiya idarəsindəki əsir millətlər. Ankara, Türk kültürü, II, 1964.

16. Cəfəroğlu Ə. Sovet milli kultun nihilizmi və inkarı. Ankara, «Mücahid» məcmuəsi, V. 1964.

17. Cəfərov M. Hüseyn Cavid. Azərnəşr, Bakı, 1960.

18. Cəfərov M. Seçilmiş əsərləri. 2 cilddə. 2-ci cild. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1974.

19. Cəmilzadə H. Bizi geri qaytaracaqlar. Bakı, 1993.

20. Çobanzadə B. Azəri ədəbiyyatının yeni dövrü. Bakı, ADETİ nəşriyyatı, 1930.

21. Ədəbiyyat məcmuəsi. IX cild, 1949.

22. Əfəndiyev H. Azərbaycan bədii nəsrinin tarixindən. Bakı, 1963.

23. Əhməd Cavad. Seçilmiş əsərləri. 2 cilddə. 1-ci cild, Bakı, 1991.

24. Əhməd Cavad. Seçilmiş əsərləri. 2 cilddə. 2-ci cild, Bakı, 1992.

25. Ələkbərli M. Azərbaycan ədəbiyyatı. «Azərnəşr», 1935.

26. Əliyev K. Hüseyn Cavidin şəxsiyyəti və poetikası. Bakı, «Yazıçı» nəşriyyatı, 1997.

27. Əliyev K. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı, 1985.

28. Əmir Pəhləvan. Qalxın Cavid gəlir! Bakı, 1997.

29. Əziz Şərif. Tapıntılar. Bakı, «Yazıçı» nəşriyyatı, 1987.

30. Firidun bəy Köçərli (tərtib edəni K.Talıbzadə və N.Məmmədov). Bakı, Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, 1963.

31. Həbibbəyli İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1997.

32. Həsənov C. «Ağ ləkə»lərin «qara kölgə»si. Bakı, «Gənclik» nəşriyyatı, 1991.

33. Hüseyn Cavid. Dram əsərləri. Bakı, 1974.

34. Hüseyn Cavid. Seçilmiş əsərləri. 4 cilddə. 2-ci cild. Bakı, «Yazıçı» nəşriyyatı, 1982.

35. Hüseyn Cavid. Seçilmiş əsərləri. 4 cilddə. 4-cü cild. Bakı, 1985.

36. Hüseyn Şərif. Xatirələr. Bakı, «Yazıçı» nəşriyyatı, 1989.

37. Hüseynoğlu G. Müşfiq (həyat və yaradıcılığı). Bakı, Azərnəşr, 1968.

38. Hüseynov R. Məhsəti - necə varsa. Bakı, «Yazıçı» nəşriyyatı, 1989.

39. Hüseynov R. Vaxtdan uca. Bakı, «İşıq» nəşriyyatı, 1988.

40. İmanov M. Müasir Azərbaycan nəsrində psixologizm. Bakı. 1991.

41. İsmayılov R. Azərbaycan tarixi, Bakı, 1993.

42. Lenin V.İ. Ədəbiyyat haqqında. Bakı, «Yazıçı» nəşriyyatı, 1979.

43. Lenin V.İ. Əsərləri. 4-cü nəşr. 10-cu cild. Bakı, 1967.

44. Lenin V.İ. Əsərləri. 24-cü cild. Bakı, 1957.

45. Mehdi Hüseyn. Ədəbi döyüşlər. Bakı, Azərnəşr, 1932.

46. Mehdi Hüseyn. Əsərləri. 10-cilddə. 9-cu cild. Bakı, «Yazıçı» nəşriyyatı, 1979.

47. Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə. 1-ci cild. Bakı, Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, 1967.

48. Məmməd Arif. Seçilmiş əsərləri. 3 cilddə. 2-ci cild. Bakı, Azərbaycan SSR Elmlər Akademiyasının Nəşriyyatı, 1968.

49. Məmməd Cəfər. Seçilmiş əsərlər. 2 cilddə. 2-ci cild. Bakı, Azərbaycan Dövlət nəşriyyatı, 1974.

50. Məmməd Rahim. Seçilmiş əsərləri. 2-ci cild, Bakı, 1957.

51. Məmmədli Q. «Molla Nəsrəddin» salnaməsi. Bakı, 1966.

52. Məmmədli Q. Azərbaycan teatrının salnaməsi (2-ci hissə. 1920-1930-cu illər). Bakı, «Yazıçı» nəşriyyatı, 1983.

53. Məmmədli Q. Cavid ömrü boyu (həyat və yaradıcılıq salnaməsi). Bakı, «Yazıçı» nəşriyyatı, 1982.

54. Məmmədquluzadə C. Əsərləri. 1-ci cild. Bakı, Azərbaycan SSR Elmlər Akademiyasının nəşriyyatı, 1966.

55. Məmmədov A. Azərbaycan ədəbiyyatında hekayə. Kirovabad. 1970.

56. Məmmədov K. Yusif Vəzir Çəmənzəminli. Bakı, «Elm» nəşriyyatı, 1981.

57. Məmmədov M. Acı fəryadlar, şirin arzular. Bakı, «Gənclik» nəşriyyatı, 1983.

58. Məmmədov M. Azərbaycan sovet poeziyasında müasirlik. Bakı, 1981.

59. Məmmədov M. Azəri dramaturgiyasının estetik problemləri. Bakı, 1968.

60. Məmmədov X. Sultan Məcid Qənizadə. Bakı, «Yazıçı» nəşriyyatı, 1983.

61. Məmmədzadə M. Milli Azərbaycan hərəkatı. Bakı, 1992.

62. Mir Cəfər Bağırovun məhkəməsi. (istintaq materialları əsasında tərtib və tərcümə edəni Nərgiz). Bakı, 1993.

63. Mişkinaz Cavid. Cavidi xatırlarkən. Bakı, 1976.

64. Nağı Keykurun (Şeyxzamanlı). Azərbaycan istiqlal mücadiləsinin xatirələri. İstanbul, 1964.

65. Nəbiyev B. Böyük vətən müharibəsi və ədəbiyyat. Bakı, 1977.

66. Nəbiyev B. Firidun bəy Köçərli. Bakı, «Gənclik» nəşriyyatı, 1984.

67. Nərimanov N. Ucqarlarda inqilabımızın tarixinə dair (İ.V.Stalinə məktub). Azərbaycan dövlət-poliqrafiya birliyi, Bakı, 1992.

68. Nəzirli Ş. Qoridən gələn qatar. Bakı, Azərbaycan Dövlət Nəşriyyatı, 1993.

69. Nizaməddin B. Ədəbi mübahisələr. «Yazıçı» nəşriyyatı, Bakı, 1986.

70. Qarayev Y. Ədəbi üfüqlər. «Gənclik», Bakı, 1985.

71. Qarayev Y. Tarix: yaxından və uzaqdan. «Sabah» nəşriyyatı, Bakı, 1996.

72. Qasımov C. Repressiyadan deportasiyaya doğru. Bakı, «Mütərcim», 1998.

73. Qasımzadə Q. Ədəbiyyatda millilik və beynəlmiləllik. Bakı, 1982.

74. Quliyev M. Mədəni inqilab və islam. «Azərnəşr», 1928.

75. Qurbanov Ş. Ömər Faiq Nemanzadə. Bakı, 1982.

76. Qurbanova N. Hənəfi Zeynallı. «Yazıçı» nəşriyyatı, Bakı, 1989.

77. Elşad Qoca. Cəllad etirafı, Bakı, 1999.

78. Rəfiyev B. Aysberqin sualtı hissəsi. Bakı, 1995.

79. Rəsulzadə M.Ə. Azərbaycan cümhuriyyəti. «Elm» nəşriyyatı, Bakı, 1990.

80. Rəsulzadə M.Ə. Çağdaş Azərbaycan ədəbiyyatı. Berlin, 1936.

81. Rəsulzadə M.Ə. Əsrimizin Səuavuşu, Çağdaş Azərbaycan tarixi, Çağdaş Azərbaycan ədəbiyyatı. Bakı, «Gənclik» nəşriyyatı, 1991.

82. Paşayev M.C. Azərbaycanda ədəbi məktəblər (1905-1917-ci illər). Doktorluq dissertasiyası. Bakı, 1946.

83. Sabir Gəncəli. İşıqlı ömrlər, kövrək talelər. Bakı, 1991.

84. Saləddin Əli. Əhməd Cavad. Bakı, 1992.

85. Salman Mümtaz. Azərbaycan ədəbiyyatının qaynaqları. Bakı, Yazıçı, 1986.

86. Salman Mümtaz. El şairləri. Bakı, 1927.

87. Salmanov Ş. Azərbaycan sovet şeirinin ənənə və novatorluq problemi. Bakı, 1980.

88. Səməd Mənsur. Həpsi rəngdir. Bakı, 1993.

89. Seyidov Y. İlyas Əfəndiyev. Bakı. 1975.

90. Sultanov Ş., Sultanov K. Ömər Xəyyam. Bakı, «Gənclik» nəşriyyatı, 1991.

91. Talıbzadə K. Ədəbi irs və varislər. Bakı, 1974.

92. Talıbzadə K. Sənətkarın şəxsiyyəti. Bakı, 1978.

93. Talıbzadə K. Tənqid və tənqidçilər. Bakı, 1989.

94. Ümmügülsüm. Gözümüz yaşlıdır, sinəmiz dağlı. Bakı, 1992.

95. Yaqublu N. Müsavat partiyasının tarixi. Bakı, «Ay-Ulduz» nəşriyyatı, 1997.

96. Yusifov V. Müasir Azərbaycan nəsrində konflikt və xarakter. Bakı, 1979.

97. Ziya Göyalp. Türkçülüyün əsasları. Bakı, «Maarif» nəşriyyatı, 1991.

## Dövri mətbuat

1. «Ayna» qəzeti, 20 sentyabr 1997, № 37.
2. «Azadlıq» qəzeti, 29 noyabr 1997.
3. «Azərbaycan» jurnalı, 1960, № 12.
4. «Azərbaycan» jurnalı, 1966, № 9.
5. «Azərbaycan» jurnalı, 1988, № 3.
6. «Azərbaycan» jurnalı, 1990, № 1.
7. «Azərbaycan» jurnalı, 1991, № 3.
8. «Azərbaycan» jurnalı, 1991, № 9-10.

9. «Azərbaycan» jurnalı, 1992, № 5-6.
10. «Azərbaycan» qəzeti, 1990, № 12.
11. «Bakinskiy raboçiy» qəzeti, 12 noyabr, 1928.
12. «Bakinskiy raboçiy» qəzeti, 6 yanvar, 1929.
13. «Dəvət-Qoç» qəzeti, 17 iyul, 1906, № 13.
14. «Ədəbiyyat və incəsənət» qəzeti, 18 mart 1988.
15. «Gənc işçi» qəzeti, 17 iyul, 1933, № 164.
16. «Gənclik» jurnalı, 1985, № 1.
17. «Gənclik» jurnalı, 1986, № 1.
18. «İnqilab və mədəniyyət», 1929, № 1.
19. «İnqilab və mədəniyyət» jurnalı, 1929, № 10.
20. «İnqilab və mədəniyyət» jurnalı, 1930, № 1.
21. «İnqilab və mədəniyyət» jurnalı, 1930, № 12
22. «İnqilab və mədəniyyət» jurnalı, 1931, № 3-4.
23. «Kommunist» qəzeti, 31 avqust 1923.
24. «Kommunist» qəzeti, 3 noyabr 1924, № 266.
25. «Kommunist» qəzeti, 20 noyabr 1924, № 259.
26. «Kommunist» qəzeti, 30 noyabr 1924.
27. «Kommunist» qəzeti, 11 dekabr 1924.
28. «Kommunist» qəzeti, 14 dekabr 1924.
29. «Kommunist» qəzeti, 19 dekabr 1924.
30. «Kommunist» qəzeti, 25 dekabr 1925.
31. «Kommunist» qəzeti, 25 aprel 1928.
32. «Kommunist» qəzeti, 11 aprel 1929.
33. «Kommunist» qəzeti, 3 noyabr 1929.
34. «Kommunist» qəzeti, 12 noyabr 1929.
35. «Kommunist» qəzeti, 17 mart 1937.
36. «Maarif və mədəniyyət» jurnalı, 1925, may, № 1.
37. «Maarif və mədəniyyət» jurnalı, 1926, № 1.
38. «Maarif və mədəniyyət» jurnalı, 1926, № 9.
39. «Maarif və mədəniyyət» jurnalı, 1927, № 6.
40. «Mücahid» məcmuəsi, Ankara, 1964, № 5.

41. «Müsavat» bülleteni, 1962, № 4.
42. «Odlu yurd» jurnalı, İstanbul, 1929, № 2.
43. «Panorama» qəzeti, 11-12 dekabr, 1996, № 222-223.
44. «Pravda» qəzeti, 5 dekabr 1917.
45. «Pravda» qəzeti, 8 mart 1927.
46. «Sərhəd» qəzeti, 6 fevral 1998, № 4 (208).
47. «Şərq qadını» jurnalı, 1937, № 7.
48. «Tərəqqi» qəzeti, 1 dekabr 1908, № 115.
49. «Yeni fikir» qəzeti, 8 fevral 1924.
50. «Yeni yol» qəzeti, 2-9 dekabr 1924.
51. «Yeni yol» qəzeti, 19 dekabr 1924.
52. «Yeni yol» qəzeti, 28 dekabr 1924.
53. «Yeni yol» qəzeti, 11 mart 1925.

## CƏLAL QASIMOV

# SİYASİ REPRESSİYA:
# HƏYATDA VƏ ƏDƏBİYYATDA

"Elm və təhsil" nəşriyyatının direktoru:
***professor* Nadir MƏMMƏDLİ**

**Dizayner:** Kamran İbrahimov
**Texniki redaktor**: Rövşanə Nizamiqızı
**Korrektor**: Mərifət Cəfərova

Çapa imzalanmış 04.05.2020
Şərti çap vərəqi 31,5. Sifariş № 102
Kağız formatı 60x84 1/16. Tiraj 500

Kitab "Elm və təhsil" nəşriyyat-poliqrafiya
müəssisəsində səhifələnib, çap olunmuşdur
E-mail: nurlan1959@gmail.com
Tel: 497-16-32; 050-311-41-89
Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev 8 /4